Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

ÜZEYİR BƏY HACIBƏYLİ

# BAYRAĞIMIZ SARSILMAZ

- 10830 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Avrasiya Press"
Bakı – 2011

Toplayanı, ərəb əlifbasından latın qrafikasına çevirəni, şərhlərin, lüğətin və ön sözün müəllifi: **Aslan Kənan**

Məsləhətçi: **Elçin**
*Xalq yazıçısı, professor*

Redaktor: **Paşa Kərimov**
*filologiya elmləri namizədi*

Rəyçilər: **Ataxan Paşayev**
*tarix elmləri doktoru*
**Abid Tahirli**
*filologiya elmləri doktoru*

**Üzeyir bəy Hacıbəyli. Bayrağımız sarsılmaz.**
Bakı, "Avrasiya Press", 2011, 428 səh.

Dahi bəstəkar Üzeyir bəy Hacıbəyli həm də yazıçı, dramaturq, tənqidçi və jurnalist kimi də tanınmışdır. Onun keçən əsrin əvvəllərində "Azərbaycan" qəzetindəki fəaliyyəti hələ də tam şəkildə ictimaiyyətə məlum deyildir. Böyük sənətkarın bu qəzetdəki fəaliyyətini əks etdirən əsərlərinin bir hissəsi ilk dəfə 1995-ci ildə "Fitnələr qarşısında" adı altında çap olunmuşdur.

Kitabın bu nəşrinə isə Üzeyir bəyin indiyə qədər çap olunmamış, günümüzlə səsləşən yeni felyetonları, publisistik yazıları və məktubları daxil edilmişdir.

**ISBN 978-9952-442-35-9**

© Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi, 2011
© Aslan Kənan, 2011
© "Avrasiya Press", 2011

# O HƏM DƏ GÖZƏL PUBLİSİST İDİ

***"Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətən pərvərliyi, ictimaisiyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur."***

**Heydər Əliyev.**

***"Üzeyir Hacıbəyov Azərbaycan xalqının, eyni zamanda, Şərq xalqlarının ölməz sənətkarıdır."***

**Firidun Şuşinski.**

Qarşımızdakı kitaba daxil olan məqalə və felyetonlar dahi sənətkarımız Üzeyir bəy Hacıbəylinin 1918-1920-ciillərdə "Azərbaycan" qəzetindəki fəaliyyətinin məhsuludur. Təəssüflə qeyd etmək lazımdır ki, Üzeyir bəyin bu qəzetdəki fəaliyyəti haqqında nə ilk, nə də sonrakı illərin tədqiqatçıları söhbət açmağa nədənsə səy göstərməmişlər. Bunun nəticəsi idi ki, Üzeyir bəyin Azərbaycan Xalq Cümhuriyyəti dövründəki fəaliyyəti geniş oxucu kütləsinə hələ də sirr olaraq qalır...

Azərbaycan professional musiqisinin və Şərqdə ilk opera sənətinin banisi, dahi bəstəkar Üzeyir bəy Hacıbəyli həm istedadlı yazıçı, həm də gözəl publisist kimi də tanınıb. Onun keçən əsrin əvvəllərində nəşr olunan məqalə və felyetonları o dövrdə çıxan "İrşad", "Kaspi", "Həqiqət", "Tərəqqi", "Yeni iqbal", "Molla Nəsrəddin" və neçə-neçə qəzet və jurnallarda çap olunurdu...

Ü.Hacıbəyli 1918-1920-ci illərdə Xalq Cümhuriyyəti dövründə "Azərbaycan" qəzetində bir müddət parlaman müxbiri işləmiş, sonra isə baş redaktor təyin edilmişdir.

Üzeyir bəy baş redaktor olana qədər bu qəzetdə onun qələmə aldığı "Mühüm məsələlər","Tarixi günümüz", "Milli parlaman", "Nuru Paşa həzrətləri şərəfinə böyük bir ziyafət", "Təəssürat" adlı silsilə siyasi-publisistik yazıları dərc edilmişdir.

28 may 1918-ci il. Azərbaycanda Xalq Cümhuriyyətinin böyük bir təntənə ilə elan olunduğu gün! Dahi bəstəkar Üzeyir bəy ömrünün birinci qərinəsini yaşayırdı. Bu zaman dönəminə o, dahi Füzuli şerinin kövrək misralarından yaranmış eyniadlı poeması əsasında bəstələdiyi "Leyli və Məcnun"u ilə Azərbaycanda opera sənətinin bünövrəsini qoymuşdur. Sonrakı illərdə isə dahi bəstəkar birbirinin ardınca "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşidbanu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915) kimi muğam operalarını yazır.

Üzeyir bəy Hacıbəyli məhz bu əsərlərilə professional milli musiqinin əsasını qoymaqla nəinki Azərbaycanda, hətta Şərq dünyasında opera janrını yaradır və bu sənətin banisi kimi də əlçatmaz zirvəyə ucalır.

Keçən əsrin əvvəllərində Üzeyir bəy, Zülfüqar bəy başda olmaqla məşhur səhnə ustası Mirzağa Əliyev bir çox aktyorlarla birgə İrana qastrol səfərinə gedir. Bu bir növ dahi bəstəkarın minlərlə həmvətəni kimi erməni quldurlarının və bolşeviklərin dəhşətli qırğınından qurtulmaq üçün xaricə məcburi mühacirəti idi. Bu "qastrol" səfəri zamanı aktyorlar tərəfindən dahi bəstəkarın əsərlərindən ibarət göstərilən səhnələr tamaşaçılar tərəfindən rəğbətlə qarşılanırdı.

Ü.Hacıbəyli xalq musiqi təfəkkürünün ən dərin qatlarına nüfuz edərək onun canlı və özünəməxsus xüsusiyyətlərini müasir dünya musiqisinin, ilk növbədə Qərb musiqisinin nailiyyətləri ilə üzvü şəkildə birləşdirərək bununla da yeni keyfiyyətli milli bədii sənəti təmsil edirdi. Onun hələ ilk operaları bu cəhəti ilə – xalq ruhuna, mənəviyytına dərin bağlılıq xüsusiyyəti ilə fərqlənirdi. Təsadüfi deyildi ki, Üzeyir bəyin operalarının ədəbi əsasını folklor, əfsanə, dastan və xalq tarixi ilə əlaqədar hadisələr təşkil edirdi.



Üzeyir bəy həmçinin Azərbaycanda musiqili komediya janrının da yaradıcısıdır. Bəstəkar dünya şöhrətli komediyalarının liberottosunu da məhz özü yazırdı. Təsadüfi deyil ki, artıq Ü.Hacıbəyli keçən əsrin əvvəllərində nəşr olunan qəzet və jurnallarda müxtəlif səpkili yazılarla qələmini sınamış və istedad sahibi olduğunu sübut edərək oxucu qəlbinə yol tapa bilmişdi.

Dahi bəstəkar ilk opera sənətimizin yaradıcısı, musiqili komediyaların və vokal sənətinin şah əsərlərinin müəllifliyi ilə yanaşı, həmçinin istedadlı yazıçı-jurnalist kimi də keçən əsrin 18–20-ci illərində redaktor olduğu "Azərbaycan"qəzetindəki fəaliyyəti danılmazdır. Hərçənd ki, bir zaman Sovet məkanında qəzetin adını nəinki çəkmək, bu barədə düşünmək belə yasaq idi.

Məhz bunun nəticəsi idi ki, Üzeyir bəy özü də 15 ay redaktoru olduğu "Azərbaycan"dakı (iki aylıq fasilə ilə) fəaliyyətini "unutmaq" məcburiyyətində qalmışdı.

Üzeyir bəy "Azərbaycan"dakı məqalə və felyetonlarını "Hacıbəyli Üzeyir", "Üzeyir", "Ü.Hacıbəyli", "Ü", "Ü.H","Çİ","Ü.Əbdül" kimi imzalar altında yazırdı.

Bir məsələni də qeyd etmək məcburiyyətindəyik ki, bəzi tədqiqatçılar Üzeyir bəyin "Ü" imzası ilə əsərlər yazmamasını təkid edirlər. Hətta onun "Azərbaycan" qəzetində nəşr etdirdiyi "Qurtuluş", "Mühüm məsələlər", "Cidalar görünür" və başqa məqalələrini də dəqiqləşdirilməsinə ehtiyac duyulduğunu da yazırlar. Lakin çox təəssüf hissi ilə qeyd edim ki, həmin məqalələrin altında əgər Üzeyir bəy şəxsi imzasını tam şəkildə göstəribsə, bizə elə gəlir ki, sübuta heç bir ehtiyac görmürük. Yalnız görkəmli tədqiqatçı, Üzeyir bəy Hacıbəylinin həyat və yaradıcılığının salnaməsini yazan Qulam Məmmədlinin aşağıdakı fikrini xatırlamaq istərdim:

"O, (Üzeyir bəy – A.K.) müxtəlif zamanlarda, ayrı-ayrı qəzet və jurnallarda "Kəs", "Flankəs", "Behmənkəs", "Mizrab", "Musiqiçi", "Hamamçı", "Çı", ("Ü"– kursiv mənimdir A.K.) və digər imzalar işlətmişdir. Ü.Hacıbəyov "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Sovqat", "Yeni İqbal", "Azərbaycan", Məktəb", "Kommunist" kimi qəzet və jurnallarda çalışdığı zaman yazılarının altında bu

imzaları qoymuş, həmin mətbuat orqanlarından getdikdə isə necə deyərlər, imzalarını da özü ilə aparmışdır."

Elə bilirik ki, əlavə izaha ehtiyac yoxdur.

Yuxarıda qeyd etdiyimiz imzalara gəldikdə isə, həmin imzalar haqqında kifayət qədər qeyd olunsa da, son iki imza nədənsə tədqiqatçılar tərəfindən xatırlanmamışdır.

Azərbaycan Cümhuriyyətinin 23 aylıq hakimiyyəti zamanında Üzeyir bəy "Azərbaycan" və "Dağıstan" adlı musiqi əsərləri ilə yanaşı həmin mövzularda bir-birinin ardınca "Azərbaycan parlamanı", "Ermənistan və Azərbaycan münasibəti", "Dağıstana kömək", "Dağıstana imdad", "Dağıstan və biz" və bu kimi publisistik silsilə yazılar da qələmə almışdı.

Ü.Hacıbəylinin bu dövrlərdə yazdığı məqalələr həmin illərin salnaməsi olduğunu desək, elə bilirəm ki, yanılmarıq. Üzeyir bəyin bu yazıları tam şəkildə həm xalqın, həm də dövlətin marağı ilə üst-üstə düşürdü.

Təvazökarlıqdan uzaq olsa da, qeyd etməliyik ki, dahi sənətkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində, Üzeyir bəyin böyük istedadla yazdığı və "Azərbaycan" qəzetində çap olunan müxtəlif səpkili məqalə və felyetonlar bu sətirlərin müəllifi tərəfindən, keçən əsrin axırlarında toplayıb, tərtib edilərək 1995-ci ildə "Fitnələr qarşısında" adı altında nəşr olunmuşdur.

Yuxarıda qeyd etdiyimiz mətbu orqanlar haqqında kifayət qədər yazıldığını nəzərə alıb, Üzeyir bəyin 1918–1920ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti dövründə "Azərbaycan" qəzetindəki ədəbi fəaliyyətini müxtəsər qeyd etmək istərdik.

1918-ci ilin sentyabr ayının 15-də Bakı Qafqaz İslam Ordusunun hücumu ilə düşmənlərdən təmizlənir və Cümhuriyyət hökuməti Gəncədən Bakıya köçməli olur.

Üzeyir bəyin jurnalistik və publisistik fəaliyyətini diqqətlə tədqiq etdikdə bu nəticəyə gəlmək olur ki, onun ən fəal ədəbi yaradıcılığı bilavasitə məhz bu qəzetlə bağlıdır. Onun müxtəlif mövzularda yazıları demək olar ki, hər gün, yaxud günaşırı "Azərbaycan" qəzetində çap olunmuş, bəzən bir nömrədə iki yazısı ayrı-ayrı imzalarla çıxmışdı.



Qeyd etmək lazımdır ki, biz 1918-ci ilə qədər "Azərbaycan" adlı mətbuat orqanına rast gəlmirik. Çünki bu adda qəzet və jurnal nəşr etməyə cəhd edilsə də, yuxarı dairələr tərəfindən müxtəlif bəhanələrlə qarşısı alınırdı. Bunun da səbəbi aydın idi. "Azərbaycan" adında qəzet nəşri böyük bir ölkənin, böyük bir millətin varlığını təsdiq etmək idi. Bu isə çarizmin siyasətinə uyğun deyildi. Çar Rusiyası dağılandan sonra belə bir fürsət ələ düşmüş və onun ilk təşəbbüsçüsü, qəzetin naşiri və baş redaktoru Feyzulla Əliquluzadə olmuşdu.Lakin o tezliklə fəaliyyətini dayandırmışdı.

1918-ci ildə yeni qurulan Azərbaycan hökumətinin 3 sentyabr tarixli qərarına əsasən, bir çox çətinliklərdən sonra, ayın 15-də Gəncə şəhərində nəşrə başlayan "Azərbaycan" qəzeti dörd nömrədən sonra oktyabr ayının 3-dən fəaliyyətini Bakıda davam etdirir.

Qeyd etmək lazımdır ki, "Azərbaycan" qəzeti 8-ci nömrəyə qədər – oktyabr ayının 8-nə kimi redaksiya heyəti adından, oktyabr ayının 8-dən 1919-cu il yanvar ayının 16-na kimi Üzeyir bəyin kiçik qardaşı, tarixçi, jurnalist, publisist Ceyhun bəyin (1892-1961) 89-cu nömrədən 1919-cu il 4 iyul tarixli 216-cı nömrəyə qədər Üzeyir bəyin, 4 iyul 216-cı nömrədən sentyabrın ayının 1-nə – 265-ci nömrəyə qədər bir müddət Xəlil İbrahimin (1892-1938), ən nəhayət, 265-ci nömrədən 1920-ci il aprel çevrilişinə qədər Üzeyir bəy Hacıbəylinin müdirliyi ilə çıxmışdı.

Qəzetin ilk redaktoru olmuş Ceyhun bəy yeni Azərbaycan hökumətinin tapşırığı ilə 1919-cu ilin yanvar ayında texniki işçilər nəzərə alınmazsa Əlimərdan bəy Topçubaşovun başçılığı ilə, sədr müavini Məmmədhəsən Hacınski, üzvlər Əhməd bəy Ağayev, Əkbər ağa Şeyxülislamov, müşavirlər Məhəmməd Məhərrəmov və Mir Yaqub Mir Mehdiyevdən ibarət heyətlə Versal Sülh Konfransında iştirak etmək üçün Parisə yola düşür. Səfərdə əsas məqsəd Azərbaycan Xalq Cümhuriyyətini beynəlxalq aləmdə tanıtdırmağa nail olmaq və vətənimizə aid tarixi, etnoqrafik və başqa sənədləri yaymaq yolu ilə Avropa və Amerika ictimaiyyətini Azərbaycanın vəziyyətilə tanış etmək idi. Başqa sözlə, vəzifə bütün üsul və vasitələrlə Azərbaycanın mə-

nafeyini qoruyaraq, onun tam istiqlaliyyətinə nail olmaq idi. Bununla bərabər nümayəndə heyətinə qəti surətdə tapşırılmışdı ki, İrəvan quberniyasının müsəlman rayonlarında olan əhalinin fiziki varlığı ilə yanaşı, bu rayonların ərazı bütövlüyünün qorunması üçün müttəfiq dövlətlər qarşısında təcili olaraq məsələ qaldırılsın.

Bu barədə, Ceyhun bəy 9 yanvar 1919-cu ildə "Azərbaycan" qəzetində "Möhtərəm qarelərimizə" müraciətində belə yazırdı:

"Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetəmizin müdiri sifətilə ifadəyə məşğul ikən, vətən övladlarının xahiş və əmrinə müti olaraq Cahan Sülh Konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü.

Bu böyük xidməti möhtərəm arkadaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım olduğuna görə qəzetə idarəsi işindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədigimiz yoldakı həlli hüsn-ifasından asılı olan məsul vəzifəmizin həqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməgi və möhtərəm oxucularımıza kəmali-sidq və səmimiyyət ilə xudahafiz deməgi özümə fərz bildim.

*"Azərbaycan" qəzetəsinin müdiri: Ceyhun bəy Hacıbəyli".*

Bundan sonra qəzet müvəqqəti də olsa, 1918-ci ilin oktyabr ayından burada əməkdaşlıq etmiş Üzeyir bəy Hacıbəyliyə həvalə olunur. Bununla da qəzetin nəşrinin ağırlığı bütünlükdə Üzeyir bəyin üzərinə düşür. Artıq o, 1919-cu ilin əvvəllərindən 1920-ci ilin aprel çevrilişinə qədər "Azərbaycan" qəzetində redaktor kimi fəaliyyət göstərir.

Azərbaycan xalqının azadlığı naminə mübarizə aparan, dəfələrlə təhqir olunan və haqsız hücumlara məruz qalan Üzeyir bəyin qəflətən səhhəti pozulur və 1919-cu ilin iyul ayının əvvəllərində o Bakını tərk etməyə məcbur olur. Bu barədə qəzetin səhifəsində oxuyuruq: "Qəzetəmizin müvəqqəti müdiri Hacıbəyli Üzeyir bəy əfəndi səhhətini



düzəltmək məqsədilə bir müddətə Bakudan gedib. Müvəqqəti müdir vəzifəsi Xəlil İbrahim əfəndi öhdəsinə vagüzar edilmişdir."

Üzeyir bəy iki aylıq müalicədən sonra yenidən "Azərbaycan" qəzetinə başçılıq edir.

Üzeyir bəyin "Azərbaycan"dakı fəaliyyətində müxtəlif mövzulardan ibarət məqalə və felyetonu işıq üzü görmüşdür. Beləliklə, bu deyilənlər kifayət qədər əsas verir ki, "Azərbaycan" qəzetinin nəşrində Ü.Hacıbəylini müstəsna xidmətləri, rolu və iştirakı olan bir naşir hesab edək. Qəzetə rəhbərlik etdiyi dövrdə Ü.Hacıbəyli onun daha maraqlı, məzmunlu olmasına səy göstərmiş Azərbaycanın müstəqil respublika kimi möhkəmlənməsinə çalışmışdır.

Bəzən qəzetlər, məsələn, ruspərəst "Zarya" "Azərbaycan" qəzetini "Müsavat" partiyasının qəzeti olduğunu istehza ilə bildirirdi. Onun kinayəli çıxışlarına cavab olaraq Üzeyir bəy yazırdı: "... bunu bəyan etməgi lazım bilirik ki, qəzetəmiz partiya qəzetəsi deyildir." (Azərbaycan" qəzeti 10.03.1919 il, №133). Sonra fikrinə davam edərək Üzeyir bəy qeyd edirdi: "Qəzetəmizin yazılarına göz yetirməkdə olanlar şübhəsiz bunu bilirlər. Ancaq burasını heç də gizlətmirik ki, mövcud partiyalarımız arasında Azərbaycan istiqlalını kəmalıncə – bidun haşiyə arzu etmək və bu yol uzunu gedərkən sağa və sola dönmək, tərəddüddən azad olub da rast bir istiqamət üzrə getmək qəsdini yalnız bir "Müsavat" firqəsində müşahidə etdiyimizdən bu firqəni istiqlal xadimlərindən ən sadiqi hesab edib, onun fikr və arzularına qəzetəmizdə kəmali-məmnuniyyət yer verməyi özümüzə borc bilirik"(yenə orada).

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Üzeyir bəyi hədsiz ruhlandırmış, sevindirmişdir. Məhz bu baxımdan o məqalələrinin birində böyük bir ruh yüksəkliyilə yazırdı ki, artıq "yerimiz, yurdumuz, torpağımız özümüzün, hökumətimiz, camaətimiz qoşunumuz özümüzün, dinimiz, ayin və adətimizə edilən şəmadətdən qurtulduq - ("Azərbaycan" qəzeti 18.11.1918 № 43) – deyərək, fəxr edirdi.

Başqa bir tərəfdən də Üzeyir bəyi qara fikirlər narahat edir və "...birdən bu azadlığımızı, asudəligimizi, həyatımızı əlimizdən alarlar?!" – deyə həyəcanlanır və tələşlənirdı. O, "Azərbaycan parlama-

nı" məqaləsində həmin narahatçılığını belə ifadə edir: "Gözlər var ki, dünənə qədər əsir və qul olan bir milləti bu gün azad və sərbəst görmək istəmiyor...(Azərbaycan"qəzeti,5.12.1918-ci il, №56)

...Qəlblər var ki, bir əsirdən artıq məhkum qalan bir millətin bu gün hakim deyil. Yalnız müstəqil və azad olmasını qəbul etmək istəmiyor" (yenə orada).

Adını çəkdiyimiz bu məqalədə Üzeyir bəy xarici və daxili düşmənlərə kəskin cavab vermək məcburiyyətində qalır:

"Azərbaycan türklərini müstəqil və azad görmək istəməyənlər, ya gərək bizi zor ilə təkrar qul və əsir etsinlər, ya buna gücləri çatmazsa "tən qəzaya verib" əmr vaqe qarşısında ixtiyari-süskün etsinlər və ya buna da vicdanlarını razı edə bilməsələr, vətən deyib, Azərbaycan torpağından çıxıb getsinlər. Bu üç təklifdən hanki birini qəbul etmək istəsələr sahibi-ixtiyardılar. Ancaq bunu dürüst bilməlidirlər ki, biz Azərbaycan türkləri zor ilə də, güc ilə də əsarət zəncirini təkrar boynumuza salmaq istəməyəcəyik" (yenə orada).

Başqa bir tərəfdən də Üzeyir bəy narahatdır. Uzun illik əsarətdən qurtulmuş bir xalqın nə vaxtsa yenidən rus əsarətinə düşəcəyindən qorxurdu. Bu qorxu xalqın arzuladığı və çətinliklə nail olduğu azadlığını bir daha itirmək qorxusu idi. Üzeyir bəy məqalələrində bu hissilərini gizlətmirdi. Aşağıdakı sətirləri Üzeyir bəy məhz xalq öz azadlığın bir iliyini qeyd etməyə hazırlaşdığları bir zamanda yazırdı: "Deməli, bir gün olacaqdır ki, Rusiyada monarxistlər və ya bolşeviklər hakimi-mütləq olmaq ixtiyarını bir kərəlik ələ alıb da, ondan sonra Rusiyadan alınmış olan "üsyançı"lar üzərinə tökülüb, onları bir itaətə məcbur etmək işinə uğraşacaqlar."

Yenicə azadlıq qazanmış xalqa qarşı "sapı özümüzdən olan baltalar"ın, xaricdən edilən hücumların, erməni daşnakların fəallaşmasının nəticəsi idi ki, Üzeyir bəy bu qənaətə gəlirdi.

Ü.Hacıbəyli həmçinin məqalələrində Azərbaycan xalqına qarşı xəyanət törədən nacins ermənilərlə və Ermənistan arasında gedən qanlı müharibələrə son qoymaq üçün 1919-cu ildə Parisdə keçiriləcək Sülh Konfransına ümidlər bəslənilən mülahizələri də maraqlıdır.



Üzeyir bəyə tam aydın idi ki, ermənilər Qafqazda yaşayan millətlər arasında ən "layiqli" və ən "məzlum millət" olduqlarını göstərməklə özlərinə qarşı Amerika və Avropada rəğbət qazandırmaq istəyirlər. Buna nail olmaq üçün illərlə vəsait toplayıb onların qaniçən, hiyləgər siyasətindən xəbərsiz xarici dövlətlərə təbliğatçılar göndərərək Qafqaz xalqları arasında ən alicənab, "etika və cayizi – həliqiyyət və şayesteyi-istiqlal bir millət" kimi göstərməyə müvəffəq olmuşlar. Buna görə də Ü.Hacıbəyli ilk növbədə xalqımızı Avropa, Amerika və başqa dövlətlərdə yaşayan işgüzar adamlarla ünsiyyət qurmağa, onlarla əməkdaşlıq etməyə çağırırdı. Bu əməkdaşlıqda bizim tərəfdən heç bir işgüzar adam biganə qalmamalıdır, deyirdi. Çünki "Qafqaz, baxüsus Azərbaycanın bitib-tükənməz təbii sərvəti" Avropanın, Amerikanın iş adamlarını laqeyd buraxmaz. Məhz buna görə də Üzeyir bəy "bitib-tükənməz" sərvətdən səmərəli istifadə etməyi məsləhət görürdü.

Qəzetdəki fəaliyyətində Ü.Hacıbəyli özünü istedadlı, bacarıqlı, dərin düşüncəli və ideyalı bir publisist kimi göstərmişdir.Təsadüfi deyil ki, Üzeyir bəyin mətbuatda 900-ə yaxın məqalə və felyetonları çap olunmuşdur ki, bunlardan 100-dən çoxu 1918-1920-ci illərdə nəşr olunan "Azərbaycan" qəzetinin payına düşür.

Tərtib etdiyimiz kitaba "Azərbaycan" qəzetində dərc edilmiş publisistik yazılarla yanaşı Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində əbədi yer tapmış Üzeyir bəyin keçən əsrin XX illərində yazdığı məktubları da daxil edilmişdir. Məktublar, 1919-cu ildə məlum səbəblərdən Fransaya getmiş və bir daha vətənə dönə bilməmiş dahi sənətkarın kiçik qardaşı Ceyhun bəy Hacıbəyliyə ünvanlanmışdır...

Ümumiyyətlə, dünya mədəniyyəti tarixində elə şəx- siyyətlər olub və indi də vardır ki, onlar əsas sənətlərindən əlavə başqa peşələrin sahibləri olmuş və bu sahələrdə də özlərini göstərə bilmişlər.

Ü.Hacıbəyli də belə sənətkarlardandır. Dahi sənətkarın bu çoxcəhətli fəaliyyətindən danışaraq, Üzeyir bəyin tələbəsi olmuş Azərbaycanın dahi bəstəkarı Qara Qarayev yazırdı: "R.Şuman, F.List, R.Vaqner P.Çaykovski dövri mətbuatla müəyyən dərəcədə bağlı olublar.

Məsələn, R.Şuman Leypsiq şəhərində "Yeni musiqi" qəzetini təsis edib, F.List musiqi tənqidinin gözəl nümunələrini yaradıb, opera janrının reformatoru R.Vaqner müxtəlif qəzetlərin əməkdaşı olub, P.Çaykovski "Russkiye vedomosti" qəzetinə Moskvanın musiqi həyatına dair məqalələr yazmışdı..." ("Ədəbiyyat və incəsənət" qəzeti, 04.09.1976)

Dahi bəstəkarın sözlərində böyük bir həqiqət var. Məsələn, Azərbaycanın xalq artisti, bəstəkar Arif Məlikov gözəl rəsm əsərlərinin müəllifidir. Azərbaycan Xalq rəssamı Toğrul Nərimanbəyov dünya klassiklərinin əsərlərinin mahir ifaçısıdır.

Nəhayət, daha bir məsələni qeyd etmək istərdik. Bəstəkara "Üzeyir bəy" kimi müraciət tamamilə təbiidir. Belə ki, Azərbaycanda "bəy" titulunu indiki kimi hər yerindən duran ala bilməzdi. Yalnız müəyyən dairələrdə bu titul bir neçə nəfərin şahidliyi ilə təsdiqlənirdi. Sankt-Peterburq Dövlət Tarix Arxivində Üzeyir bəyin "bəy" nəslindən olmasını təsdiq edən sənəddə deyilir:

"1897 avqust, Şuşa.

Bir neçə nəfərdən ibarət Qarabağ bəyləri tərəfindən imzalanmış şəhadətnamədə Üzeyir bəyin "bəy" nəslindən olduğu təsdiq edilir. Şəhadətnaməni imzalayanlardan birinci Xurşudbanu bəyim səbiyyəyi, mərhum general-mayor Mehdiqulu xandır" ( fond 361, siyahi 1, iş 796, vərəq 5).

Üzeyir bəyin 1920-ci illərə qədərki ədəbi fəaliyyəti imkan verir ki, onu gözəl jurnalist, kəskin qələmli felyetonçu, misilsiz operetta librettolarının müəllifi kimi qiymətləndirək. Lakin buna baxmayaraq bir müddət Üzeyir bəydən əsasən bəstəkar kimi bəhs olunmuşdur. Son onilliklərdə tədqiqatçılar tərəfindən dahi sənətkarın jurnalistik yaradıcılığına diqqət artırılsa da, lakin onun 1918-1920-ci illərdə "Azərbaycan" qəzetindəki fəaliyyəti, yuxarıda qeyd edildiyi kimi, kölgədə qalmışdır. Unutmaq olmaz ki, həmin illərdə Üzeyir bəy kimi dövlətimizin, xalqımızın azadlığı və rifahı naminə yorulmadan çalışan şəxslər azlıq təşkil edirdi.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Üzeyir Hacıbəyli Azərbaycan xalqının



dünya mədəniyyətinə bəxş etdiyi ən görkəmli şəxsiyyətlərdən biridir" sözləri, bəstəkarın ev-muzeyinin əsaslı təmir olunması, əsərlərinin akademik nəşrinin hazırlanması və sair işlərin görülməsi haqqında xüsusi göstərişləri, dahi sənətkarın yaradıcılığına verilən ən böyük qiymətdir.

Üzeyir bəyin nəinki Azərbaycan milli operamızın yaradıcısı, hətta bir publisist kimi xidmətlərinin yüksək qiymətləndirilməsində və onun "Üzeyir dünyası"adli toplusunun yüksək səviyyədə hazırlanmasında Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nın xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri danılmazdır. Məhz Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə gənc ifaçılardan ibarət Bakıda I Respublika Muğam Müsabiqəsinin keçirilməsi, "Qarabağ xanəndələri" adlı musiqi albomunun analoqu olmayan bir keyfiyyətlə nəşr edilməsi, muğamlarımızın vala köçürülməsi sözün əsl mənasında vətənimizin mədəni həyatında bir hadisə kimi qiymətləndirilir.

Üzeyir bəyin geniş və əhatəli yaradıcılıq dünyasını yüksək qiymətləndirən millət vəkili Mehriban xanım Əliyeva çıxışlarının birində dahi bəstəkarın irsinə verdiyi yüksək qiymət çox dəyərlidir:

"Yzeyir irsi həqiqətən, böyük bir dünyadır. Bu dünyanın əzəməti ondadır ki, Üzeyir bəy bu gün də əsl pedaqoq kimi bizi tərbiyə edir, bizə kədərlənməyi və gülməyi öyrədir. Muğam dramaturgiyasının sirlərini açır. Aşıq sənətinin qüdrətini dərk etməyə kömək edir."Yazımızı Azərbaycanın Xalq yazıçısı, alimi və ictimai xadimi Elçinin sözləri ilə bitirmək istərdik: "Üzeyir bəyin bütün vətəndaş mübarizəsinin, bütün yaradıcılığının arxasında böyük bir məhəbbət dayanırdı – xalqa məhəbbət, onun dilinə məhəbbət."

Sonda 1918-1920-ci illərdə nəşr olunan "Azərbaycan" qəzetinin cildlənmiş nüsxələrinin gətirilməsində mənə kömək etmiş Milli Arxiv İdarəsinin kitabxanasının əməkdaşlarına, Füzuli adına AMEAnın Əlyazmalar İnstitutunun oxu zalından Ruhəngiz xanım İmanova olmaqla bütün əməkdaşlara, Üzeyir bəyin məktublarının tapılmasında mənə yardımçı olmuş Salman Mümtaz adına Azərbaycan Dövlət Ədə-

biyyat Arxivinin kollektivinə, şərqşünaslıq fakültəsinin magistratura üzrə dekan müavini Adil Yəhyəyevə dərin təşəkkürümü bildirirəm.

Xüsusilə kitabda olan yazıların bir qisminin ilk redaktoru olmuş, gözəl alim, qayğıkeş insan, mərhum Turan Həsənzadəni minnətdarlıqla xatırlamaqla, onun ruhunun şad olmasını arzu edirik.

Ən nəhayət, bu kitabın işıq üzü görməsində köməyini əsirgəməyən Baş Nazirin Müavini, xalq yazıçısı hörmətli Elçin Əfəndiyevə, Mədəniyyət və Turizm Naziri hörmətli Əbülfəs Qarayevə, həmçinin nəşrdə xidmətləri olmuş dəyərli insan Əkrəm Qaflanoğluna, Vaqif Bəhmənliyə və Əlövsət Ağalarova dərin təşəkkürümü bildirirəm.

**ASLAN KƏNAN**



# MƏQALƏLƏR

## RÖVŞƏN ƏŞRƏF BƏYİN ŞƏRƏFİNƏ ZİYAFƏT

Keçən günki axşam şəhərimizin üdəba və ziyalıları tərəfindən Bakıda müsafirtab olunan türk ədibi və şairi-şəhir Rövşən Əşrəf bəy həzrətlərinin şərəfinə yay klubunun böyük zalında gözəl bir ziyafət verildi. Daha bir-iki sənə əvvəl xəyalımıza gələ bilməyən və yuxumuza girməyən "əcaib" qəbilindən idi ki, əksəriyyən müsəlmanlara qarşı qapısı bağlı olub da məhz qeyri-müsəlmanların təvərrüc və istirahət yeri olan bu zalda qəhrəman türk ordusunun bir tərəfdə musiqi orkestri guruldayıb, digər tərəfdə də genə o nəcib millətin incə saz taqımı tərənnümsaz olmaqla yerli müsəlmanların qəlbini zövq və şövq ilə doldururdu. Bu tərəfdən dəxi natiqlər möhtərəm qonağımızın şərəfinə badənuş olaraq gözəl-gözəl nitq söyləyirdilər.

Cavan şairimiz cavan əfəndinin doğru öz nitqində olaraq bizi düşmən əlindən xilas edib, istiqlalımızı özümüzə qaytaran qəhrəman türk ordusunun əqəbincə türk irfan ordusu gələcəyini və möhtərəm Rövşən Əşrəf əfəndinin o ordunun müqəddimətül-ceyşi mənzərəsində olduğunu qeyd etdi.

Unudulmaz Azərbaycan ədəbiyytını yenidən yada salmaq və bu ədəbiyyatın varlığını isbata yetirmək haqqında çalışmaqda olan möhtərəm Firidun bəy Köçərli[1] cənabları Azərbaycan şivəsinə gözəl bir nitq söyləyib, bizim də ədib və şairlərimizin hal və zaman iqtizası ilə daim türk üdəbasını təqib etdiklərini bəyan qıldılar.

Azərbaycan dram nəfislərindən möhtərəm Nəcəf bəy Vəzirov[2] cənabları söylədilər ki, biz Azərbaycan türkləri dilcə "piyadəyiz", başımızdakı fikirləri və qəlbimizdəki hissiyatı bəyan etməgə dilimizdəki sözlər kifayət etmiyor. Çünki əsirlərdən bəri bizi öz dilimizi unutmağa məcbur edirdilər. Maarif naziri müavini Həmid bəy Şaxtaxtinski[3] cənablarının nitqi dəxi bu yolda olub, dil tərəfdən məzur tutulacağımızın səbəbini bəyan etdilər. Allaha minlərcə şükr olsun ki, bu gün öz dilimizi azad və sərbəst bir surətdə yenidən ögrənməyə məmaniət yoxdur.

Əziz qonağımız möhtərəm Rövşən Əşrəf bəy cənabları natiqlərimizə cavab olaraq, səlis və bəliğ bir nitq ilə məclis əhlini feyziyab etdilər. Ədib əfəndi bizim Bakida özünü ikinci bir İstanbulda zənn ediyormuş. Təvazö edərək söyliyordı ki, bən bu şərəfə və bu ehtirama layiq deyiləm, özüm də buraya Azərbaycan qardaşlarımı ziyarət qəsdilə gəlib, dərvişanə bir surətdə dönüb-dolaşmaq istərdim. Əmma Azərbaycan türkləri bizim üçün o dərəcədə susamışsınız ki, bəni möhtərəm bir türk hesab edib də haqqımda bu qədər canfəşanlıq göstəriyorsunuz. Ədib əfəndi vədə verdi ki, İstanbula övdət edib də Azərbaycan türkləri haqqında var qüvvəsilə çalışacaqdır, ədəbiyyatımızdan əxlaq və adətlərimizdən arzu və amallarımızdan bəhslə biz türkləri İstanbula tanıtdıracaqdır və İstanbul ilə Azərbaycan arasında hər bir cəhətcə mətin bir rabitə təşkilinə bütün səy və qüvvətini sərf edəcəkdirlər.

Əziz qonağımızın gözəl nitqi sürətli alqışlar ilə qarşılandı.

Məclis əhli qəhrəman türk ordusu zabitani-möhtərəməsindən Asim bəy cənablarının da əskərcəsinə söylədiyi bəliğ nitqini dinləyib feyziyab oldular. Müzəffər türk ordusu şərəfinə dəxi bir çox nitqlər söyləyib, yaşasın türk ordusu deyə alqışladılar.

Bədə Azərbaycan mücxahidlərindən məşhur İsa bəy Aşurbəyli[4] cənablarının son sözləri rəsmi ziyafət tamam olub, məclis əhli əziz qonağımız ilə xudafizləşib şad və bəxtiyar bir surətdə evlərinə övdət etdilər.



10830

## NURU PAŞA[1] HƏZRƏTLƏRİ ŞƏRƏFİNƏ BÖYÜK BİR ZİYAFƏT

10 təşrini-sani[2] yekşənbə gününün axşamı Bakı şəhər əhalisi tərəfindən qəhrəman ordumuzun şanlı komandanı Nuri Paşa həzrətləri şərəfinə yay klubunun zalında böyük və mütəntən bir ziyafət verildi.

Klubun içi və dəhlizləri gözəl və pürqiymət xalılar ilə döşənmiş, divarları dəxi ay-ulduzlu al bayraqlarla bəzənmiş idi. Yuxarıda böyük musiqi orkestri, aşağıda da həm Osmanlı və həm Azərbaycan türklərinə məxsus milli sazəndə və xanəndələr tərənnümsaz olmaqda idilər.

Hökumət əhlindən ümum nazirlərimiz Baş nazir ilə bərabər, şəhərimizin bütün böyük məmurları, ümum zabitən əfəndilər, İran konsulu cənabları, ziyalılarımız, böyük tacirlərimiz və sair əyan və əşrəf ziyafətdə hazır idilər.

Nuri Paşa həzrətlərinin salona virudi əsnasında musiqi orkestri tərənnümsaz olub məclis əhli səfbəsteyi-ehtiram durub, Paşa həzrətlərini səmimiyyətlə salamladılar; bədə hər kəsimiz başında özünəməxsus olan yerini tutub ziyafət başlandı.

Yemək əsnasında Baş nazirimiz Fətəli xan Xoyski[3] həzrətləri birinci olaraq bəliğ bir nitq söyləyib, Azərbaycan türklərini bəndi-əsarətdən xilas ilə naili-səadət olması yolunda tökülən Osmanlı türk qanına işarə ilə "bu qan və bu qan tökülən mübarək yerlər heç bir vəqt unudulmaz və xatirdən çıxmaz", – buyurdular. Bədə Nuri Paşa həzrətlərinə müraciətən idareyi-kəlam edərək Azərbaycan türklərinin təşəkkürati-əmiqanələrini Paşa həzrətlərinə bildirib qədəh qalxızdı. O halda bütün həzar ayağa duraraq müzəffər və şanlı komandanımız Paşa həzrətlərinin şərəfinə şərbət nuş olub, sürəkli alqışlarla ishari-məsərrət və şadimani etdilər.

Həqiqət, bu böyük məclisdə hamının baxüsus Bakı əhlinin olmazın dərd, möhnət bəla və zillət çəkdikləri və olmazın həqarətlərə düçar olduqları ağarmış saç-saqqallarından, solğun çöhrələrindən, məhzun gözlərindən bəlli olan üzlərində bu axşam o qədər bəxtiyarlıq və bundan dolayı o dərəcə şükr və səna əlaimi peyda və hüveyda idi ki, keçmiş qara günlərin fəna təsirləri bugün nail olduğumuz ağ günlərin sürurbəxş əsərləri müqabilində unudulmaq üzrə olduğu aydın və aşkar idi!



İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Əvət! Fəna təsirlər unudulur, fəqət o təsirləri buraxan qara günlər unudulmaz, onları unutmaq üçün ya filosof olmalıdır, ya laübalı!..

Nə qərib təsadüf:

Təqribən bir il bundan əqdəm, bugün ay-ulduzlu türk bayrağı ilə donadılmış olan bu salonda bolşevik Suxarçev, Nikolay Romanova[4] məxsus bir hakimi-müstəbid vəziyyətini alaraq hüquqi-siyasiyyə və insaniyyələri xüsusunda ağız açmağa "cürət" edən Bakı müsəlmanlarını təhrid yolu ilə: "Bakıda daşı daş üstə qoymaram!" – deyə meydan oxuyurdu.

Buna qarşı olaraq Şurayi-Milli rəisi Rəsulzadə Məhəmməd Əmin[5] yoldaşımız: "Əvət! Biz istirdadi-hüquq yolunda mübarizə edəriz, nəticədə bizə ya istiqlaliyyətimiz qalar, ya uçurulmuş daşlar. Fəqət əmin olunuz, müvəqqəti müzəffəriyyət sizin üzərinizdə olsa da, daimi zəfər bizimdir!" – deyə gələcəkdən xəbər vermişdi.

Bu axşam Rəsulzadə cənabları öz səlis nitqində bu fəqərəyi yada salıb qanlı və həqşikən suxarçevlərin rəcəz oxuduğu bu meydanda bugün daimi və azim bir türk zəfərinin bayram edilməsinə işarə ilə həqq sözün həqq yerinə düşməyindən dolayi izhari-məsərrət və məmnuniyyət eylədi.

Əvət! Əgər Suxarçev bu axşam klub salonuna bir nəzər yetirib də bu al bayraqları, bu şanlı komandanları, bu qəhrəman zabitlər, bu cəsur əsgərlər, bu bəşaş və bəxtiyar çöhrələri görsə idi, hədəsinin nə qədər gülünc və bica olduğunu özü də etirafa məcbur olardı.

Rəsulzadə nitqinə davam edərək, siyasi üfüqdə qara buludlar görünən kibidir, lakin bu qara buludlara qarşı nurilərimizin zülmət şikən nuri var, dedikdə bütün əhli-məclis ayağa qalxıb Paşa həzrətlərini xüsusi bir təzim və təbcil ilə alqışlamağa başladılar.

Bir ildən bəri əziz müsafirimiz və keçirdiyimiz qara günlərə bizimlə bərabər şərik olan Rövşən bəy həzrətlərinin bəliğ nitqi o qədər yanıqlı və o qədər atəşli idi ki, hazirun üzərində böyük bir təsir buraxdı. Qayeyi-amalımıza yetmək, istirdad edilmiş hüququmuzu son qüvvəmizlə saxlamaq və bu yolda fədakarlığa hazır olmaq üçün bu gecənin şərəfinə yəmin lüzumundan bəhslə əhli-məclisin ruhunu yüksəldirdi.

Hazirun aramızda oturan bir zatın nitqinə müntəzir göründü, bu zatın illərdən bəri eşitmədiyi səsini eşitmək, fikrini bilmək, nəzəriyatından xəbərdar olmaq istəyirdi. O möhtərəm zat sevgili ustadımız Əhməd bəy Ağayev[6] idi ki, nitq söyləmək üçün yerindən qalxarkən salonda dərin bir sükunət əmələ gəlib hər kəs bütün diqqətini ona tərəf ətf etdi.

Əhməd bəyin nitqində bəzilərinin gözlədigi atəş yox idi, əmma həqiqi bir səmimiyyət vardı; "Bən Bakıyı İstanbulda və İstanbulu Bakıda görüb də özümü o qədər bəxtiyar görürəm ki, dəha ölsəm də qəmim yoxdur, dünyadan kam almış gidirəm" kibi sözləri o qədər səmimi bir və lisan və lisan hal ilə söyliyordu ki, eşidənlər dəxi özünü Əhməd bəy kimi bəxtavərd və bəxtiyar hiss edirdilər.

Biz Əhməd bəyin nitqini icmala cəsarət etməyib, təmamilə qəzetəmizdə dərc üçün lütfən bizə göndərmək ümid və istidasilə oxucularımızı səbrə dəvət edirik.

Bu qədər nitq və alqışlara cavab olaraq Nuri Paşa həzrətləri gözəl İstanbul şivəsilə ruhumuza ləzzət verən və məzmunca qəlbımızı bir taqım əndişələrdən təmiz qılmağla sürur və şadimani-bınəhəyəatımızı mucib olan qayət bəliğ və səlis bir nitq iradilə məclis əhlini şərəfyab və minnətdar buyurdular.

Bu nitqin təsiri öylə idi ki, hər kəsdə gələcəyə artıq əndişəsiz bir nəzər əmələ gəlib kəndinə böyük bir ümid, yüksək bir ruh hiss edərək xoşbəxt və xoşvəxt bir hal ilə bir-birini təbrik edib, məclisə xitam verdilər.

## MÜHÜM MƏSƏLƏLƏR

Azərbaycan hökumətinin düşmənləri çoxdur. Türklər gedəndən bəridir ki, onlar dil açıb hökumətimizi hər yerdə məzəmmət etməgə, töhmətləndirməgə çalışırlar. Bakı şəhərindəki bədxahlarımız bəs degildir ki, Tiflisdə də rus "sosialist"lərindən və erməni "daşnak"larından ibarət olan bir güruh ki amal və arzularının şeytənət və xəyanətinə görə "qaragüruh" adlanmasına behəqq layiq və şayəstədirlər–hökumətimizin və hətta bütün millətimizin əleyhinə qəzetələrin sütunlarında ağızlarına gələni degib, Azərbaycan hökumətinin dağılmasını və Azərbaycan türklərinin də ümumqafqaz konfransına buraxılmamalarını tələb ediyorlar!

Bu alçaq güruh Bakı həqqində bir-birindən qırmızı yalanlar buraxıb bir tərəfdən camaəti iğfal, digər tərəfdən dəxi son dərəcə acı olan büğz və ədavətlərini ibraz ilə bir məqama çatıbdırlar ki, həmsayəmiz nəcib gürcülər bunların bu payədə olan xəbasət və şeytənətlərindən bizar olaraq "Qruziya" qəzetəsinin baş sütununda öz inciklərini izhar edib, müfəttinlərin yalanlarını bir-bir üzlərinə çırpırlar.

Azərbaycan hökumətinin vəkili Məhəmməd Yusif Cəfərov[1] cənabları dəxi bu qədər söylənən yalanlara və gəda ağzından çıxmağa layiq olan sögüşlərə laqeyd baxa bilməyib, gədalar güruhunun Gürcüstan dövlətində ağızları yumulması xüsusində gürcü hökumətinə bir ixtar verdi.

İçərimizdə və çölümüzdə olan düşmənlərə bu cürəti və bu sitizəliyi verən ingilis qoşununun Bakıya vürudu səbəb oldu. Zatən alçaq düşmənlər bu ümiddə idilər ki, ingilislər Bakıya gəlib də Azərbaycan hökumətini qovacaq, əvəzinə onları qoyacaqdırlar. Lakin bu ümid puça çıxdı. İngilis qoşunu gəldi, Azərbaycan hökumətini yerində saxladı və hətta baş qovzamaq istəyən alçaqların da bir qədər başından basdı, bunu da elan etdi ki, ümumsülh konfransı qurulub da millətlərin və əz cümlə Qafqaz millətlərinin hüquqi-siyasiyyə və milliyyə məsələləri həll olunana qədər bütün Qafqaz nəinki tək bir Azərbaycan – sülh və asayiş ibqası naminə müttəfiq dövlətlərin məraqibəsi altında olacaqdır.

Ümidləri puça çıxan düşmənlərimizin bu gün Bakıda, Tiflisdə və sair yerlərdə çalışdıqları, vuruşduqları, öldükləri odur ki, çığır-bağır



salmaqla, sögüş ilə, hiylə və təzvir ilə xəbisliklər biruzə verib ümum sülh konfransı olana qədər ingilislərin və sair müttəfiqlərin rəyini Azərbaycan hökuməti həqqində öz istədikləri tərəfə döndərib sülh konfransında da Azərbaycan türklərinin hər bir hüquqdan məhrum edilmələrinə səbəb olsunlar.

Əlbəttə, bu hiylələrin müqabilində biz – Azərbaycan türkləri və bizim Azərbaycan hökumətimiz laqeyd qalsaq, mat-mat baxıb dursaq və bütün ümidimizi sülh konfransına yığılanların insafına və ya lütf və mərhəmətinə bağlasaq, düşmənlərimizin hiylə və təzvirlərində müvəffəq olacağlarına şübhə edilməməlidir.

Sülh konfransında hüquq paylamıyacaqdırlar ki, biz də "növbətə" durub payımızı gözliyək!

Sülh konfransına yığılan millətlər özlərinin hər bir siyası və milli hüquqa layiq olduğlarını isbata çalışıb, məhz öz millətləri həqqində deyib-danışacaqdırlar. Sülh konfransı, keçən Balkan davası kimi kiçik millətlərin vuruşması nəticəsi degildir, bəlkə cahan müharibəsinin intac etdigi əzim bir məclis olacaqdır ki, bir tərəfdən aləmşümul cəngi-məğlubənin və digər tərəfdən məmləkətlər sarsıdan böyük-böyük inqilabların hasil və məhsulunu meydana çıxaracaqdır.

Burada kimin xəbəri olacaqdır ki, bizim də yeniyetmə Azərbaycanımızın müstəqil millətlər cərgəsinə girməyə layiq olub-olmadığımızı öz üzərlərindən təhqiq və tədqiq etsinlər, halbuki bütün böyük dövlətlər də, kiçik dövlətlər də, böyük millətlər də, kiçik millətlər də hamısı ancaq və yenə ancaq öz hüquqlarının təmini və təhsili həqqində çalışacaqdırlar.

Bu məclisi-kübrada bu millətlər hüququ bazarında biz də gözə çarpıb məta sahibi olmaq istərsək, ümidimizi ancaq öz şüurumuza, öz qabiliyyətimizə, öz çalışmamıza bağlamalıyığ.

Ona görə indidən və məhz indidən işə başlamalıyıq. Vəxt azdır, iş çoxdur. Əvvəla, içərimizdə və çölümüzdə əleyhimizə iş görən bugünki düşmənlərimizin bizi müttəfiqlər qarşısında bədnam və bədşöhrət etmələrinə qarşı bütün qüvvəmiz ilə müqabil durmalıyıq. Bizi kənd və şəhər dağıtmaqda ittiham edirlərsə, yüzlərcə dağılan kəndlərimizin və şəhərlərimizin hesabını meydana qoymalıyıq. Bizi ev soymaqda, adam öldürməkdə məzəmmət edirlərsə, minlərcə xərab edilmiş xanimanlarımızın və onminlərcə öldürülən adamlarımızın

siyahısını lazım olan yerlərinə təqdim etməliyik. Necə ola bilər ki, özgələr bir dənə kəndin (məsələn, Mərzi kəndi) bir-iki min manat cərimələnməsi və bir neçə adamın ittifaqən öldürülməsi həqqində ingilislərə şikayət edib bu barədə həftələrcə qəzetə sütununda yazsınlar, əmma biz yer ilə yeksan edilmiş kəndlərimizin, xarab edilmiş şəhərlərimizin, zülm ilə öldürülmüş adamlarımızın həqqində bir söz də söyləməgib kirimiş duraq?!

Düşmənlərimiz heç bir şey ilə bizi töhmət edə bilməməlidirlər. Çünki hər nə onlara olubsa, onqat artıq da bizə olubdur. Bunu isbat etmək üçün münsif və hakgu şahidlərimiz ilə bərabər əlimizdə və göz qabağında öylə müsəlləm dəlillərimiz var ki, dəha düşmənlərimizin öz şərəf və heysiyyətlərinə layiq gördükləri yalanlara, hiylə və təzvirə və xəbislik büruzə verməgə heç bir ehtiyacımız yoxdur. Zatən öylə alçaqlıqları bizim namusui-millimiz də qəbul etməz.

Qərəz, içimizdə və çölümüzdə oynanılan bu intiriqalara qarşı laqeyd və layənşüur qalmamalıyıq.

Məbada, məbada!

Və saniyən mühüm işimizin o biri də budur ki, sülh konfransı əqd edilənə qədər biz sözümüzü Yevropaya baxüsus müttəfiqlərə bildirək, mərufluq edək ki, bugün sülh konfransına gələrkən deməsinlər ki, siz kimsiniz!

Burası heç kəsə məxfi degil ki, ermənilər əlli, altımış ildən bəridir ki öz millətləri xüsusunda Yevropada o qədər degib-danışdılar ki, bugün "erməni məsələsi" yevropalıların uşaqlarınca da məruf və məşhur olan bir məsələdir. Gürcü qonşularımız dəxi bu xüsusda az çalışmayıb, millətlərini mədəniyyət aləminə tanıtdırıbdırlar. Dağıstan dəxi Yevropaca məşhur bir məsələdir. Əmma Azərbaycan, baxüsus Qafqaz Azərbaycanı – iqrar etməliyik ki, tazə bir məsələdir.

İndiyə qədər o dərəcədə bişüur olmuşuq ki, bütün Qafqaz millətlərindən təkətəklikdə ədədcə çox olduğumuz halda biz, Azərbaycan türkləri həqqində nəinki Yevropanın, həttə yüz ildən bəri üstümüzdə sahiblik edən rusların da dürüst xəbərləri yox idi. Ruslar bu günə qədər bizə "persiyan" deyə İran və fars millətindən hesab edirlər. Mən özüm bizim "persiyan" olmayıb türk olduğumuzu Moskva və Petroqraddan əlavə Bakının özündə də bir çox ruslara dəfələr ilə qandırmışam.



Bəs biz Azərbaycanı və iki milyondan artıq olan Azərbaycan türklərini Yevropaya və müttəfiq dövlətlərə indidən tanıtdırmalıyıq. Özümüzə məxsus tarixə, gözəl və xüsusi bir ədəbiyyata, sənayeyi-nəfisəyə malik olduğumuzu onlara bildirməliyik. Dilimizin firəng dili Yevropada olan kimi, bütün Qafqazda ümumi bir dil olduğunu, məsələn, bir ləzgi ilə bir erməninin və ya bir malakan ilə bir aysorun bir-biri ilə türk – Azərbaycan dili ilə danışmağa məcbur olduğunu isbat etməliyik. Musiqimizin ümum Qafqaz millətlərinə zövq və ləzzəti-ruhani verən bir musiqi olduğunu bildirməliyik. Yevropa şairlərimizdən geri qalmayacaq şairlərimizi, müsənniflərimizi, yazıçılarımızı, alimlərimizi birbəbir nişan verməklə xüsusi bir mədəniyyətə malik olduğumuzu əyan və aşkar etməliyik. Dəha yüz il əvvəl müstəqil xanlıqlar surətində yaşadığımızı yada salmalıyıq. Cəsur və rəhimli, safdil və həqgu bir millət olub da, fitnə və fəsad, hiylə və təzvir kimi əxlaqi-zəmimədən ari olduğumuzu da gizlətməməliyik. Qəhrəman bir əsgər, qabil bir tacir, mahir bir sənətkar, zəhmətsevən bir əmələ, iş görən bir ziraətçi olduğumuzu da unutmuyub söyləməliyik.

Əlqissə, bütün xüsusiyyətimizi, bütün məziyyatımızı təfsilat ilə Yevropaya bildirib, müstəqil yaşamağa və müstəqil bir hökumət təşkilinə kəmalınca müstəhəqq olduğumuzu layiqincə isbat etməliyik ki, gələcək sülh konfransı kibi məclisi-kübraya gedən nümayəndələrimiz hüquqi-siyasiyyə və milliyə imtahanından sühulətlə keçib vətənimizə qayıdarkən əllərində istiqlal şəhadətnaməsi olsun!

Pəs dəha durmuyub işə başlayaq.

## PARTİYALARIMIZA

Bir şəxs və ya bir partiya, bir millətin azadlığı əleyhində çalışırsa o milləti digər bir millətin və ya bir neçə nəfər xudsər adamların hökmü altında qul etmək istərsə, o şəxs və ya o partiya bugünkü inqilabat nöqteyi-nəzərindən insaniyyətə düşməndir. Adını sosialist də qoymuş olsa, hürriyyətpərəst də qoymuş olsa yalandı. Onun əsl adı insaniyyət düşmənidir. Həman insaniyyət düşməni olanlardan böyügü bu gün Azərbaycan türklərinin hüriyyəti və istiqlalı əleyhində çalışan partiyalardır. Çünki bu gün müstəqil olmağa, azad yaşamağa və asudə nəfəs çəkməgə hamı millətlərdən artıq möhtaç olan – Azərbaycan turkləridir, o səbəb ki Rusiya millətləri içində əsarətin ən ağır yükünü çəkən, istibdadın ən şiddətli zülmlərinə düçar olan, dini, milli həqarətin ən acı zərbələrinə məruz qalan, hüququnun ən zərurilərindən də boylə məhrum edilən və dünənə qədər zillət və rəzalətlə ömür keçirən, ağız açıb, əhval və ovzianin məşəqqətindən şikayət etməgə qüdrəti olmayan bir millət var idisə, o da yalnız Azərbaycan türk milləti idi.

Bəs kimin insafı yol verər və kimin vicdanı bunu qəbul edər ki, Rusiyadakı ümum millətlər, istibdad, dövründə də Azərbaycan türklərinə nisbətən istirahətlə yaşadıqları halda bu gün təkmili hüquqlarına nail olsunlar da, əmma Azərbaycan türkləri bu hüquqdan məhrum edilsinlər!

Gərək heç bir kəsin insafı buna yol verməsin. Və vicdanı bunu qəbul etməsin, halbuki bu zülmü rəva görən "insaflar" və bu halsızlığı qəbul edən "vicdanlar" vardır və bu insaf, bu vicdan sahibləri də Afrikanın vəhşi barbarları degil, Rusiyanın "qaragüruh" adı verilmiş padşahpərəstləri də degil, bəlkə bu gün Bakımızda – paytəxtimizdə bizimlə diz-dizə oturan... "sosialist"lərdir.

Bəlkə bu sözlərimə etiraz edib degərsiniz ki, xeyr, öylə iş ola bilməz! Sosialist adını daşıyan şəxs bir millətin əsir edilməginə razı olmaz və sairə və sairə.

Doğrudur, sosialist adını daşımağı özünə ixtiyar edən şəxs bu işə razı olmaz, nədir ki, bəlkə bunun əksi, yəni millətlərin azad edilməsi yolunda can fəda edər dərəcədə mübarizəyə girər, əmma Bakı sosialistləri bu işə razıdırlar, yəni Azərbaycan türklərinin əsarət altında qalmağına nəinki razıdırlar, bəlkə bunun tələbində boylə israr ediyorlər.



Sözlərimin yalan olmadığını təhqiq etmək istəyənlər varsa, şəhərimizdəki "Sosialrevolyusioner" ictimaiyun-inqilabiyunlar partiyasının naşiri-əfkarı olan "İznamya truda"[1] qəzetəsinin bütün nömrələrini açıb, qabaqlarına qoyub diqqətlə oxusunlar. Hökumətimizi istehza, millətimizi təhqir, əsarətimizi tələb, yerimizi, yurdumuzu tələf, mal və mülkümüzü qarət, özümüzü də biçeraxovlar qoşunu ilə hədədən başqa, sosialistlik və sosializm namına bir şey tapıb oxuyarlarsa, bəni yalançı deyə elan və təkdir etsinlər.

"İznamya truda" başına yığılmış olan bu güruh "sosialist"lik maskası altında işləyən hürriyyət düşmənləri və insaniyyət əduləri olduğu bu günlərdə aşkar edildi. Millətimizə qarşı olan büğz və ədavətlərinin şiddəti o dərəcədə idi ki, daha özlərini saxlaya bilməyib maskanı-filanı kənara atub, əsl sifətlərini göstərdilər.

Bu sifəti görüb də bəd tərkiblikindən iyrənənlər ən əvvəl bizim cavan müsəlman ictamaiyyun-inqilabiyun partiyamız olmuşdur ki, bu yoldakı gözüaçığlıqları xususi bir təhsinə şayandır.

Dünənki qəzetəmizdə "Azərbaycan sosialistlərinin fəaliyyəti"[2] sərlövhəsi ilə yazılmış fəqərəni oxusanız ürəkləri təmiz və ağılları salim olan sosialistlərimizin maska altında çıxmış əcnəbi eserlərdən nə dərəcədə ikraha gəldiklərini görərsiniz.

Təbiidir ki, həqiqi sosialist olanlar bir millətin azadlıq və istiqlalına qarşı düşmən kəsilən partiyaların adlarını "sosialist" də qoymuş olsalar, fikirə şərik ola bilməzlər. Çünki bu qeyri-mümkün bir işdir, bir tərəfdən sosializm adını batırmaq və xalq içində sui-təfəhhüminə səbəb olmaq və digər tərəfdən də türk millətinin azadlıq və hürriyyəti əleyhində çalışmaq təşəbbüslərindən israr edən bir güruhdan nəinki yalnız türk sosialistləri, bəlkə bütün həqiqi sosialistlər ictinab və istikrah etməlidirlər.

Ümidvarıq ki, Azərbaycan içtimaiyyun-inqilabiyyun partiyasının bu rəftarına sair sosialist və hürriyyətpərəst partiyalar dəxi şərik olub, özlərini çirkli hərəkətlərdən kənar tutmaqla bərabər, səy və əməklərini bir bu qədər zillət və rəzalət görmüş olan türk Azərbaycan millətinin istiqlal və azadlığı yolunda sərf edərlər.

## AZƏRBAYCAN PARLAMANI

Bu günlərdə milli parlamanımız açılasıdır. Bu işdə biz bir qədər gecikdik, parlamanımızı gec açdıq. Lakin bunun səbəblərindən sərf-nəzər edib də "gec olması heç olmamasından yaxşıdır" zərbi-məsəli ilə mütəsəlli olaraq bugünkü gündən danışaq.

Bu ilk parlamanımız əzaləri seçki üsulilə degil, "kovpitasiya" yəni kənardan səlahiyyətli şəxsləri cəlb etmək təriqi ilə yığıldı. Əgər bu iş keçirdigimiz xarüqəladə bir zamanda icra olunmayıb da sülh və asayiş vaxtında olsa idi böyük bir qüsur, hətta günahədd edilərək hər bir tərəfdən şiddətli etiraza səbəb olardı. Necə ola bilər ki, Millət Məclisi hesab edilən böyük bir şuranın əzalərini millət əfradi seçməyib də "kovpitasiya" təriqilə çağırsınlar. Lakin təkrar söyliyoruq ki, keçirdigimiz günlərin xarüqəladə olması bir çox işləri də xarüqəladə bir surətdə icrayə məcburiyyət hasil etdirir. Onsuz da gecikmişik, bir də vaxtımızı seçki əməliyyatı ilə keçirmək istəsəydik, parlamanımızı bu günlərdə degil, bəlkə bir neçə ay bundan sonra görərdik. Halbuki bugünkü günləri parlamansız keçirmək, istiqlaliyyətimizin təyyid və bəqasi nöqteyinəzərindən heç bir vəchlə caiz degildir, hətta bir dərəcəyə qədər qorxuludur da.

Pəs bir tərəfdən zəmanəmizin xarüqəladəligini, digər tərəfdən əhalimizin parlaman əzası seçməkdə bir o qədər də hazır olmamasını və bu tərəfdən də cümhuriyyətimizin bugün parlamana son dərəcə möhtac qaldığını nəzəri-əhəmiyyətə alıb və bir də qonşu cümhuriyyətimizin də həmin bu təriq ilə parlaman açdıqlarını yada salıb, bugün iclası olan parlamanımızı həqiqətən səlahiyyətdar və sahibi-ixtiyar bir millət məclisi deyə tələqqi etməgi özümüzə fərz bilməliyik.

Eşitdigimizə görə, paytəxtimizdə mövcud olan bir taqım qeyri-müsəlman cəmiyyətləri, yəni hökumət içində hökumət düzəltmək niyyətində olanları parlamanımızda iştirak etmək istəməmişdilər. Bu hərəkət Azərbaycan Cümhuriyyətinin təbəəsi, vətən övladı olmaq istəməməkdir, daha artıq Azərbaycan Cümhuriyyətinin mövcud oldugunu inkar etməkdir. Ondan da artıq Azərbaycan türklərinin azad və asudəliginə qarşı böyük bir etirazdır...



Gözlər var ki, dünənə qədər əsir və qul olan bir milləti bugün azad və sərbəst görmək istəmir.

Qulağlar var ki, lal edilmiş bir dilək, bir millət dilənən bugün açılıb da söz söyləməsəni eşitmək istəmiyor.

Qəlblər var ki, bir əsrdən artıq məhkum qalan bir millətin bugün hakim degil, yalnız müstəqil və azad olmasını qəbul etmək istəmiyor.

Varəsın olsun! Nə edək? Azərbaycan türklərini müstəqil və azad görmək istəməyənlər ya gərək bizi zor ilə təkrar qul və əsir etsinlər, ya buna gücləri çatmazsa "tən qəzayə verib" əmr vaqe qarşısında ixtiyari-sükut etsinlər və ya buna da vicdanlarını razı edə bilməsələr, vətən deyib, Azərbaycan topрağından çıxıb getsinlər. Bu üç təklifdən hanki birini qəbul etmək istəsələr sahibi-ixtiyardırlar. Ancaq bunu dürüst bilməlidirlər ki, biz Azərbaycan türkləri zor ilə də olsa, güc ilə də əsarət zəncirini təkrar boynumuza salmaq istəməyəcəyik. Bu fəqərəni həmişə nəzərdə tutub işlərinin səlahına baxsınlar.

O ki qaldı bizə – biz bu cürə hərəkətlərdən mütəəssir olmamalıyıq, biz öz işimizdə olmalıyıq milli parlamanımızı, milli şuramızı açaq, Allahdan mədəd, bizdən hərəkət degib, kəmali-ciddiyyət ilə işə başlayaq. Artıq-əksik sözlərə qulaq asmıyaq.

Bəli, bugünlərdə milli parlamanımız açılasıdır, deməli, Azərbaycan istiqlalı təmin edilmiş olmasa da, təkmil ediləcək və cümhuriyyətimiz siyasi bir vahid olmaq üzrə mükəmməl bir surətə girəcəkdir. Bunun özü də böyük bir ürək təskinligidir. Siyasətcə əzim bir əhəmiyyəti haiz olan və mənəviyyətcə də həm bizlərə və həm sairlərinə dərin bir təsir bəxş edən böyük bir əmrdir.

Nə tövr olur-olsun, parlamanımızın vücudi-ehtiyacatımıza müvafiq gələn qanunlar düzməkdən əlavə – cümhuriyyətimizin həm daxilən və həm xaricən ciddi bir surətdə görünməginə səbəb olacağdır. Böylə ki, bugün bizi vücud hesab etmək istəmiyənlər dəxi vücudumuzun var olmadığını milli şuramızdan çıxan səslərlə iqrar və etirafa məcbur qalacağdılar. Kar qulaqlar da bu səsi eşidəcək, kor gözlər də bizi görəcəklər ki:

Filhəqiqə milli şuramızın ən ilk vəzifəsi bu olmalıdır.

Qışqırsın! Fəryad etsin!

Və öylə qışqırsın ki, bu fəryadın əks-sədası Yevropanı da keçib Atlantikın[1] dəryayi-ümmanından da atlayıb, vilsonların[2] guş və huşini fəryad gələn yerə cəlb etsin! Bu fəryad nədən ibarət olmalıdır?

Yalnız bəla gəlmədən.
Yaşamaq istiyorık!

Bu fəryad kifayətdir ki, milli parlamanımız ən əvvəl bununla məşğul olub da bu yoldakı vəzifəsini həqiqilə ifa edərsə, yəni yaşamaq haqqına istiqlal qabiliyyətinə malik bir millət olduğumuzı isbat edərsə, əminəm ki, bunun nəticəsi ətrafimızı çevirmiş, həyat və azadlığımıza qarşı diş qıcamış olan düşmənlərimiz üzərində təsirsiz qalmaz, bəlkə onlara, çəkil geri,– deyib də acığlananlar da olar. O halda daxili işlərimizi düzəltmək, lazımi islahat yeritmək, millətin zəif bədəninə qüvvət verən dərmanlara təvəssül etmək işləri asan vəchlə icra oluna bilər. Camaətimiz ənva müsibətlərdən darıxmaz. Hökumətimiz öz işlərində karıxmaz, parlamanımızın özü də bu böyük və müqəddəs vəzifəsini bir növ asudəlik ilə ifayə qadir olub, millətlər müqəddəratı həll olunacağ gündən bir çox lazım əmrləri və vacib işləri piş əz vəxt[3] yerinə yetirməklə böyük bir vəzifəmizi ifa etmiş olarıq.

Allah müvəffəq buyursun.



# TARİXİ GÜNÜMÜZ

1337 səneyi-hicrisi rəbbüləvvəlin[1] ikinci günü türk Azərbaycan tarixində xüsusi bir yer tutub böyük bir əhəmiyyəti haiz olacaqdır.

Bugün o gündür ki, Azərbaycan türklərinin Məclisi Milli şurası açılıb, Azərbaycan təkmil bir hökumət şəklinə girir.

Yüz-yüz əlli sənə bundan əvvəl müxtəlif xanlıqlardan ibarət olan Azərbaycan toprağının rus istilasından qazandığı bir mənfəət o oldu ki, bu topraq üzərində qurulmuş olan saxta və əməli hüdudları silinib-süpürülüb müttəhid və vəsi bir ərazi şəklinə girdi və bugün xilas olub da iki milyonu mütəcaviz nüfus ilə Azərbaycan Cümhuriyyəti namını daşımağa kəsbi-ləyaqət etdi.

Pəs bugün həman bu Azərbaycan Cümhuriyyətinin Milli parlamanı, Milli Məclisi açılmağla təşkilat və tərtibati-siyasiyyəsi artıq itmama yetir.

Parlamanımız daxilən və xaricən nə şərait içində açılır?

İstiqlalımızın felən yürüdilməsinə qarşı bugünkü cahan zorluları tərəfindən mümaniətlər göstərilməyirsə də, qəbuluna da hələ qol qoyanlar yoxdur. Məsələnin həlli istiqlalımızın rədd və ya qəbulu gələcək sülh konfransının baxacaq işlərindəndir.

Bir tərəfdən dəxi türk Azərbaycan Cümhuriyyətində vətəndaşcasına yaşamaq, asayiş və istirahətimizin təmini yolunda əl-ələ verib çalışmağa, dəvət etdigimiz qeyri-müsəlmanlar arasında öylələri tapıldı ki, uzatdığımız ələ arxalarını çevirib parlamanımızı və hətta Cümhuriyyətimizi boylə nabemövsüm ədd edərək istiqlalımıza qarşı bədxah olduqlarını indidən bildirdilər. Bunların içində hətta "baykot" sözünün istemalı kimi qabalıq və nəzakətsizlik göstərənlər də olmadı degil.

Daxilən dəxi quldurluqları və ya rəsmi hökumət məmurluqları hələlik bircə bəlli olmayan bir taqım müsəlləh ermənilərin hüdudumuza təcaviz edib, Azərbaycan müsəlmanları həqqında icra etdikləri qətl və qarət, zülm və cəfa xəbərləri cümləmizi mükəddər və mütəhəyyic etməkdədir.

Bu şərait nə qədər mucibi-məsərrət olmasa da parlamanımızın açılmasına qarşı mümaniət təşkil etmədi. Biləks məclisi-millimizin tezlik ilə açılmaq lüzumiyyətini meydana qoydu.

Çünki yuxarıda icmalən zikr etdigimiz əhvalatın biləxirə türk – Azərbaycan Cümhuriyyəti üçün mübarək və müsaid bir yola düşməgi məhz parlamanımızın vücudundan və çalışmasından asılı bir məsələdir.

Boylə olan surətdə, deməli, qəlbimizdə bəslədigimiz ümid – parlamanımızdır. Və ümidvarıq ki, cavan parlamanımız, bu ümidimizin hüsuli yolunda var qüvvəsilə çalışacaq və siyasi imtahanını xaricilər ənzari qarşısında parlaq bir surətdə verməklə vətənimizin istiqlal və azadlığına birinci səbəb olacaqdır.

Yaşasın türk – Azərbaycan Cümhuriyyətinin cavan parlamanı!

## TƏƏSSÜRAT

Parlamanımız açıldı, gördük, Fətəli xan doğru dedi ki, yatsa idik də yuxumuza girməzdi...

Əvvəla, ingilislərin qeydkeşliyi hürriyyətimizin bədxahları tərəfindən, parlamanımız açılması münasibətilə məbadə bir şuluqluq biruzə verməsin və vərsə də filfövr qabağı alınsın deyə, parlaman imarəti yanındakı Hacının qız məktəbidir[1] – ingilislərin iki ədəd zirehli avtomobili dayanıb, içindən görünən topların ağzını açıb gəlib-gedənə guya:

"Dinc dur!" – diyordi.

Zatən o səmtdən gəlib-gedən heç yox idi, çünki Azərbaycan polisi imarətin "bir ağaclığından"[2], qoy mübaliğə olsun, adamları keçməgə qoymayıb, ançaq məbuslara və parlamana girmək həqqi vəsiqəsinə malik olanlara izn verirdi.

Parlaman imarətinin içində ziynət cümləsindən calibi-diqqət olan şey qiymətli xalılar degil idi bəlkə fiatı ucuz, lakin mahiyyəti-milliyyə və siyasiyyəsi dedikcə baha olan üç rəngli milli bayrağlarımız idi.

Məhəmməd Əmin nitqi-iftitahisində[3] bu üç rəngin: Türkləşmək, islamlaşmaq və müasirləşmək amalı əlamətindən ibarət olduğuna işarə ilə bu bayraq endirilməz!" – dedikdə bütün məclis ayağa qalxıb əl çala-çala bayrağları salamlarkən təəssürati-fövqəladətdən başımın tükləri biz-biz durdu. Nədənsə bu fəqərə dəxi yadıma düşdü ki, görəsən küçədə zirehli avtomobillər olmayıb heç bir nəfər də polis və ya qoşun əhli görünməsə idi, bugünkü günün şərəfinə toxunmaq kimi ədəbsizliyə bir kəsdə cürət ola bilərdimi!

Bəncə yox, çünki bu müqəddəs məclisin imarətin dəlikdeşiklərindən boylə dışarıya təraf nəban etdigi əzəməti-mənəviyyəsindən o dərəcə mütəəssir olardı ki, əli-qolu boşalıb dili də bağlanardı...

Məclisin açılmaq saatı yaxınlaşdı. Tamaşaçılar ki içlərində müsəlman xanımları da az deyildi – boş yerləri doldurdular. Məbuslar hər kəs öz məxsusi yerini tapıb oturdular. Qəzetə yazıçıları kağız və qələmlərini hazırlayıb müntəzir durdular. Ministirlər müavinləriylə bərabər öz yerlərinə keçib cərgə ilə oturdular. Bir lojaya sığmiyub, sağ və sol iki loju doldurdular,

Bunların hamısı başı açıqdılar. Bir nəfərdən səvayi, görünür ki, soyuğdan qorxurmuş, həqiqət, çox soyuğdur.

Hamı amadə olub intizarda ikən milli şura rəisi Məhəmməd Əmin Rəsulzadə cənabları rubəru qapıdan çıxıb məqami-sədarətdə üzü məclisə tərəf, ayaqüstə bir vəziyyət aldıqda hazirinin intizarı donub diqqətə münqəlib oldu.

Məhəmməd Əmin qəlbən nikbin və nikbinlikində də sabitqədəm olduğuna dəlalət edən açıq və gülər bir üz və yerə baxmaq adəti olmayan bir göz ilə məbuslara xitabən nitq söyləməgə başladı.

Padşahlı məmləkətlərdə məclisi-məbusanı[4] padşah açar, əmma Azərbayçan Cümhuriyyətinin Məçlisi-Məbusanını bir nəfər vətən övladı açdı.

Məhəmməd Əmində natiqlikdə "patent" qazanmış olan "arator"lara məxsus qol atma, baş oynatma, üz-gözünü sifətdən-sifətə dəyişmə kimi hərəkətlər yox idi.

Bunların əvəzində özgə bir hal var idi ki, o da keçdikcə qızışıb sözlərinin dəruni qəlbdən söyləndigini eşidənlərə hiss etdirməklə dərin bir təsir oyatmaq idi. Qol atmaqdan bu yaxşıdır. Bunda ixlasi-qəlb və səmimiyyətlə bərabər, sərd edilən kəlamda bir də böyük bir ciddiyyət mövcud olduğuna hər kəs inanıb natiqin hər bir sözünə lazımınca əhəmiyyət verirdi. O idi ki, hər bir cümlə axırında alqışlar yağırdı.

Natiqin nitqini bugünkü nömrəmizdə oxuyarsınız. Mənim məqsədim gördüklərimi, təəssüratımı söyləməkdir.

Növbət ministrlər rəisi Fətəli xan Xoyskiyə yetişdi.

Xudavəndi-aləm hər yerdə istibdad varsa evini yıxsın necə ki, rus istibdadının evini yıxdı. Qoyurdularmı ki, vaxtında dilimizi ögrənək ki, yeri düşəndə danışarkən fikrimizi söyləməgə, söz axtarmağa möhtaç qalmayaq!

Bavücud-in Fətəli xan çox da duruxa-duruxa danışmırdı, dilinə hətta rəvan demək də caizdir. Anasından ögrənmiş dilinə bir qədər də türk qəzetələri mütaliəsindən və bir də Osmanlı türk qardaşlarımız ilə bir müddət təmasda bulunub deyub-danışmağ məçburiyyətindən hasil olan sözləri qatıb, bir dil düzəltmişdi ki, onunla ifadeyi-məram edirdi.

Fətəli xan, zatən nitq sögləmirdi. O, məbuslar əfəndilərlə dərdləşmək istyordı, dərdini söyləgib şikayət edirdi.



Xaricdə qarışıqlıq və daxildə pərişanlıq ola-ola, xəzinədə bir köpük pul və meydanda bir nəfər əsgər olmaya-olmaya, bizi hökumət seçib dedilər ki, gərək bu işləri düzəldəsiniz. Biz də necə ki, görürsünüz mümkün qədər düzəltdik. Pul da var, yol da var və sairə. Məclis rəisül-vüzəra[5]nın sözlərinə diqqət və sükut ilə qulaq verirdi, ancaq sağ tərəfdə kim idisə xısın-xısın pıçıldanıb rəisin hər sözünə bir kinayə buraxırdı.

Zənnimcə, Fətəli xanın şikayəti parlaman əksəriyyətinin qəbuluna məzhər olmayacaq degil.

"Deklarasiya"nın müzakirəsi sonraya qaldı. Doğrudur, "Fətəli xan kabinəsinin əvəzində özgə bir kabinə olsa idi işləri daha gözəl aparardı", – deyənlər olacaqdır. Ancaq bəlkə "özgə kabinə heç bu işləri də görə bilməyəcək idi", – deyənlər də az olmayacaqdır.

Fətəli xanı "tənqid etmək asandır, əmma işi görmək çətindir" sözlərinə çox adamlar şərikdir.

Sağda oturan "İttihad"[6] fraksiyası özlərindən sol olan fraksiyaları bir məsələdə qabaqladı, hətta bir dərəcəyə qədər "məhcub" boylə etdi ki, "utandırdı" sözündən bir az yüngüldür. "İttihad" parlaman açılmaq bayramı münasibətilə siyasi dustaqların əfviümumisi təklifini etdi. Fraksya namından bu təklifi irad edən "İttihad" əzası "özgələrə" səbqət etmək arzusunun cuşindən karıxıb "siyasi" sözünü unutmaqla bir çoxlarını qorxutdu, kənardan tez "siyasi" sözünün əlavəsi mətləbi aşkar etməklə təskinə səbəb oldu.

Cavan parlamanımızın birinci iclasından hasil olan təəssürat gələcək əndişələrimizin zayil edilməyəcəginə ümidlər verib, indiki ovzamızın da bir dərəcəyə qədər hiss etdirməz ağırlığı müqabilində qəlbimizdə təsliyyətamiz bir hiss oyadar.

Allah kömək etsin.

## TƏƏSSÜRAT

Parlamanımızın ikinci iniqadında fraksiyaların bəyənnamələrini eşitdik.

Əvvəl sözünü deyən "Müsavat"[1] oldu.

"...Mülkədarlarla xüsusi maliklərə məxsus olan bütün topraqlar pulsuz və əvəzsiz olaraq zəhmətkeş və rəncbər xalqa veriləcəkdir",– dedikdə məclis əhlindən bir parası qurcalandılar. Lakin sol tərəfin gurultulu alqışı "işin üstünü örtüb" əhvalı dəgişməklə bərabər, mürgüləyən əzaları da yuxudan oyatdı.

"Müsavat"dan sonra "Sosialistlər bloku"nun adamları çıxdı.

Aslanbəy Səfikürdski[2] bəy də olsa kəndçi tərəfdarıdır. Kənd əhlinin ağır halı Aslan bəyə o qədər təsir edibdir ki, o təsiri parlaman əhlinə yetirmək üçün, bəlkə sözünə inanmazlar, – deyə kərratilə Allah-təalaya and içirdi:

"Vallah, mən doğru deyirəm.

Camaət əldən getdi, Allaha and olsun!"

Mən onu gözləyirdim ki, camaətdən birisi durub deyəcək:

– Mən ölüm, doğru degirsən?

Bu da cavab verəcəkdir ki:

– Sən öl, Həzrət Abbas həqqı!

Görünür, bizim sosialistlər özgə millət sosialistləri kimi deyildirlər. Allaha, peyğəmbərə inanırlar.

Əmma mənim qəlbimi şad edən burasıdır ki, bizim sosialistlər Azərbaycanın istiqlaliyyətinə də inanırlar!

Burası, sosialistlərimiz tərəfindən göstərilən siyasi bir hünərdir ki, bu hünər düşmənlərimizi məqhur və məyus, dostlarımızı isə məsrur və məmnun edib, ümidsizlərə ümid, ümidlilərə də qüvvət və səbat verməklə yavaş-yavaş da olsa mənzili-məqsədə tərəf qədəməndaz oluruq.

Biz bir şeydən qorxuruq:

İstiqlal yolunda iki qədəm atmışdıq, birisi istiqlali-elan və müstəqil hökumət təşkili, ikincisi isə parlaman açılması.

Biz qorxurduq ki, üçüncü qədəmi atmağa bizə imkan verməyib, yoldan qaytaralar...



Əmma şükür olsun, Aslanbəy and içdi Allaha ki, sosialistlərimiz imdada yetişib, üçüncü qədəmimizi daha da gen qoymaq üçün qolumuzdan yapışdılar.

Qədəmlərimiz bir-birindən mübarəkdir.

Bunlara ad qoyaq.

Birinci qədəm – müstəqil hökumət.

İkinci qədəm şurayə-milli, yaxud parlaman. Üçüncü qədəm isə – əlbirlik!

Bütün parlaman fraksiyalarımızın istiqlal üstündə əlbir olub, söz-sözə verdiklərini xoşbəxt qulaqlarımız ilə eşitdik. İnşallah, bu yoldakı işlərini görməklə gözlərimizin də aydın olduğunu hiss edərik.

İndi doğrudan da demək olar ki:

– Millət irəli gedir!

Artıq, bu sözə gülməyəcəyik, çünki irəliyə doğru üç böyük addım atmışıq və geri dönmək fikrimiz də yoxdur. Aslanbəy demişkən:

– O, getdi:

Aslanbəy bu iki sözü bütün məclis tərəfindən gurultulu alqış almaq üçün demədi, həqiqət elə belədir ki, var:

– O, yəni o mənhus geri – getdi!

Arvadlar sözü olmasın:

– Öylə getsin ki, dalınca da bir qara daş!

Həman o "mənhus geri"nin mənhus əsərlərindən idi ki, Aslanbəydən sonra kürsü xitabətə çıxan Şeyxülislamov[3] "Himmət"[4] firqəsinin adından danışmaq istərkən başındakı fikrini söyləmək üçün ağzında söz tapmayırdı!

Aşkar idi ki, natiqin başındakı fikir rus dilində hazırdır. İndi bunu türkcəyə tərcümə etmək lazım. Ona görə gərək məclis əhli səbr edib, gözləsin, lakin tərcümə üçün də türkcə yaxşı bilmək lazımdır, halbuki natiq türkcə bisəvaddır. Pəs nə olsun?

Hər nə oldu – desin!

Odur ki, "paydar" deyəcək yerdə "paymal" diyordı.

"Cümhuriyyətə inam" əvəzinə "cümhuriyyətə ənam" çıxırdı. Bir çox sözlər vardır ki, heç deyə bilmirdi, gərək məclis əhli özü başa düşə idi. Qərəz, binəva çox əziyyət çəkirdi. Yaxşı ki, kömək edənlər az degil idi. Hər tərəfdən sədri-məclis, bir tərəfdən də yaxındakı yoldaşları "sufliyorlıq" zəhmətini müzayiqə etmiyordılar.

Bir də natiqin canını qurtaran bir əhvalat idi. Yalan yanlış da olsa, dediyi sözlərin mənası o qədər şayani-əhəmiyyət idi ki, həman hər mətləbindən sonra uzun alqışlar guruldayırdı, natiq bu fasilədən istifadə edib o biri fikrini tərcüməyə çalışırdı.

Həqiqət, Şeyxülislamov cənablarının bir para mətləblərini qızıl xətt ilə yazıb saxlasan səzadır.

Degirdi ki:

– Azərbaycan istiqlalı yolunda mübarizə etmək lazım gələrsə, birinci mübarizə cərgəsində biz sosialistləri görərsiniz!

İndi "İznamya truda" qəzetəsi müsəlman sosialistlərinin bu cürə sözlərini eşidib də söyməsin bəs nə eləsin? Ümidləri puç oldu getdi...

"İznamya truda"nın başına yığılmış olan yalançı sosialistlər bu ümiddə idilər ki, Azərbaycan istiqlalının təzə qoyulmuş binasını uçurub dağıtmaqda müsəlman sosialistləri onlar ilə əlbir olacagdırlar və Azərbaycan evi Azərbaycan övladının öz əlilə yıxılacagdır.

Görünür, onlar boylə güman edirmişlər ki, bizim sosialistlər, sosializm kimi ali bir elmi ağıl və bilik sayəsində dərk etməyib, yalnız bir "moda" olmaq üzrə özlərinə sosialist adını qoyubdurlarmış, binaən əleyh "bizdən ayrılmağa utanarlar", ya ki onları uşaq kimi tovlamaq olarmış ki, boylə iş yaxşı degil, rus demokratiyasından ayrılıb istiqlal qurmaq sosializm işinə xəyanətdir və sairə, və sairə, və sairə. Lakin bizim sosialistlərimizin ağıl və dərrakəsi "İznamya truda" başına yığılmışların şeytanət və xəbasətinə qələbə çalıb, sosialistlərimizin "moda" üçün degil, bəlkə ciddi surətdə miskinlər tərəfdarı olduqlarını hər kəsə bildirdilər. Miskinlərin də kim olduğu məlumdur.

Bizim kəndçilərimizdən, bizim əmələ və rəncbərlərimizdən başqa miskin kim ola bilər?

Deməli, "İznamya truda"çıların bu ümidi də çürük qoz kimi puça çıxdı, sosialistlərimizi uşaq kimi tovlaya bilmədilər!

Odur ki, indi də qorxuzmaq istəyirlər, xox gəldi edirlər! Boylə ki, "İznamya truda"nın son nömrələrinin birində bizim sosialistlərə itab və xitabən acıqlı bir məqalə yazılıbdır:

– Siz nə ixtiyarla özünüzə "Azərbaycan sosialistləri" adını qoydunuz?



Deməli, bunların sözündən boylə çıxır ki, rus sosialisti, alman sosialisti, firəng sosialisti olar, əmma Azərbaycan sosialisti olmaz, necə ki, Azərbaycan istiqlalı da ola bilməz!

Andranikləri müdafiə edən bu cürə "soysialist"lərdən hələ çox sözlər eşidəcəyik...

Boylə güman edilməsin ki, bu sətirləri yazan özü sosialistdir, ona görə də sosialistlərimizin hünərləri haqqında bu qədər danışır. Xeyr, mən sosialist-filan degiləm, ola bilər ki, hələ ağlım o dərəcəyə çatmayıbdır, ancaq məni bir bu qədər fərəhləndirən Azərbaycan istiqlalı məsələsində sosialistlərimizin bu dərəcə sağlam, düzgün və həqiqi bir vəziyyətdə bulunmalarıdır. Məni fərəhləndirən, sosialistlərimizin parlaman kürsüsündə ağızlarından çıxan gözəl və pürməzmun sözlərdir.

Məsələn, Şeyxülislamovun bu sözlərini eşidib də hansı Azərbaycan övladı fərəhlənməz ki, diyordi:

– İstiqlalımıza inanmayan, gələcəyimizə ümidvar olmayan adamlar, hökumətimiz içində olmamalıdır!

* * *

Qərəz! Mətləbi uzatmayaq. Növbət dördüncü addımındır. Bu addımın da adı:

Ləyaqətdir!

Yəni müstəqil yaşamağa layiq olduğumuzu bildirsək, axırıncı olan beşinci addımımızı da atıb mənzili-məqsədə yetişərik.

Beşinci addım isə:

– İstehqaqdır.

İstiqlalə müstəhəqq olduğumuzu dünaya aşkar edək.

Bu axırıncı addım da atılarsa, özümüzü məqsədimizin mənzilində görərik.

O məqsəd isə:

– Yaşasın müstəqil Azərbaycan!

Kəlami-insaniyyət pərvəranəsinin sülh konfransında vilsonların ağzı ilə bütün cahana elan və elam edilməsindən ibarətdir!

## ANDRANİKİN[1] MƏSƏLƏSİ

İngilis komandasının və qismən bizim hökumətimizin təhriri və şifahi tədabirinə rəğmən Qarabağ əhalisinin dadü-fəryadını genə də eşitməkdəyik.

Aşkardır ki, Bakdan deyilən sözlər, nəsihətlər və xəbərdarlıqlar, hətta general Tomsonun[2] təhdidi boylə, Andranikə heç də əsər eləmiyor. O, öz işindədir. Müsəlman kəndlərini dağıdır, əhalisini öldürür, ya qaçırdır, arvadların irzü–namusuna sataşır, əsir edir, ərzi-qüvvətcə zəif yerlərimizə soxulub bildiyini edir və Bakıdan gedən sifarişlərə – aşkardır ki, məhəl-güzar olmır.

Zənni-acizanəmizlə Andranik məsələsinə ciddi surətdə əhəmiyyət verənlər, Azərbaycan müsəlmanlarının cinayətkar ünsürlərin zülm və sitəmi altında məhv edilmələrinə razı olmayanlar və Azərbaycanın qoparılmaz bir qismi olan ümum Qarabağ müsəlmanlarının daim qorxu altında yaşayıb da, yedikləri, içdikləri güzəran və məişətləri haram olmağına soyuq nəzərlə baxmayanlar və bilaxirə münasibəti qeyri-müəyyən qonşu millətdən olan müsəlləh bir qüvvənin hüdudumuz sahilində xudsəranə hərəkətdə bulunmasının aqibətini nəzər-diqqətə alanlar, bu məsələni tezlik ilə bu tövr, ya o tövr həll və fəsl etmək üçün Andranikin kim olduğunu, yəni simayi-siyasiyyəsini, məmuriyyətini, kimin tərəfindən bu əmrə məmur olduğunu bilib, bu cürə vəhşi hərəkətlər vasitəsilə təqib edilən, məqsədlərin mənayi-həqiqisindən lazımınca xəbərdar olmalıdırlar.

Məsələn, deyirlər ki, Andranik türklər ilə ermənilər arasında vaqe olmuş müsalihədən dolayı erməni hökumətindən küsüb, "özbaşına" olubdur. Və məsuliyyəti öz öhdəsinə almaq üzrə cürbəcür işləri də özbaşına görür.

Ola bilər, kim bilir? Bəlkə Andranik erməni hökumətindən küsüb də, erməni camaəti içində şöhrət qazanmaq istəyir və bu şöhrətə malik olmaq yolunun ən rastını tapıb müsəlmanların əlsiz-ayaqsız qisminin üzərinə top və tüfəng ilə hücumlar edib "rəşadət" göstərir. Yəni istəyir ki, "igit" Andranikin adı ermənilər arasında dillərdə zikr olunub, hər kəsin məhbul-bülqülubi olsun... Nə deməli! Bəlkə "qəhrəman" Andranikin günlərin bir günü erməni padşahı olmaq fikri də



vardır. Zatən hal və ovza öylə bir surət peyda etməkdədir ki, hər "avantürist"in başından cürbəcür xəyallar keçir.

Vaqeən əgər iş boylə isə yəni, Andranikin qonşu erməni hökumətinə heç bir dəxli yoxsa və gördükləri vəhşiliklərin cavabdehligi dəxi məhz öz boynuna isə, o halda bu Andranik, erməni camaətinin gözündə "igit" olsun, "qəhrəman" olsun, nə olur-olsun bizim gözümüzdə adi bir quldurdur, çünki bir şəxs ki, başına adam yığıb kənd-kəsək üstə tökülüb qətlü-qarətə məşğul ola, o şəxsə quldur deyərlər.

Boylə olan surətdə bir quldurun yanına "deleqat" göndərmək, onu kağız vasitəsilə quldurluqdan mən qılmaq və ya həddini bildirmək üçün teleqram vasitəsilə təhdid etmək nə hökumətimizin şanına layiqdir, nə ingilis komandasının və bir də məşhur məsəldir ki, "Quran oxumaqla donuz darıdan çıxmaz". Quldurların qabağına lazım olan qədər güc göndərmək istər ki, dəstəsini də, özünü də dəstgir edib, məhkəmə qarşısına gətirsin və cəzai-səzasına çatmaq üçün təhti-mühakiməyə verilsin.

Bu bir.

Bu da ola bilər ki, Andranik erməni hökumətindən heç də küsməyibdir, özü də həman hökumətin məxfi və ya ələni bir ajanı, bir məmurudur və ya daha açığı təhti-komandasında hökumətin rəsmi qoşunu olan bir nəfər erməni generalıdır. Sərhəd məsələsini Tiflis konfransında sülh və sazişlə həll etmək istəməyən erməni hökuməti, həmin bu məsələni qılınc zoru ilə qurtarmağa qərar verib, general Andraniki də göndəribdir ki, hüdudumuzu keçib müsəlmanları tədhiş ilə pərakəndə qılmaqla arzu etdikləri yerləri təhti-təsəllüt və təsərrüfə keçirib, Ermənistan torpağına qatışdırsınlar.Deməli, bu surətdə Andranikin hərəkətivəhşiyanəsindən məsul tutulacaq adamlar ən əvvəlcə erməni hökumətinin başında duran şəxslər olur. O halda genə Andranikin yanına mürəxxəslər göndərmək və ya kağız ilə sifarişlər etmək kimi vecə gəlməz tədbirlərin heç bir mənası yoxdur. Bu sifarişlərin, bu teleqramların məhəlli-aidinə, yəni erməni hökuməti başında duranlarına göndərilməsi icab edər. Biləк görək ki, erməni hökuməti bizə qarşı müharibə meydanımı açır, ya bu vəhşiliklərin mənası nədir? Bəlkə Ermənistan Cümhuriyyətini müstəqil bir surətdə yaşatmaq üçün özlərində qabiliyyət və istedad olduğuna inanmayan

və bu təqdirdə qonşuların da müstəqil yaşamalarını istəməyən daşnaklar Qafqazın orasında, burasında andraniklər vasitəsilə qəsdən şuluqluq salıb, ölkəmizin təkrar qəyyumlar əlinə keçməsi məqsədini təqib eləyorlər! Qərəz, bu işgillərin bizim üçün aydın və aşkar edilməsi dəxi xaricən vacibi olan işlərimiz cümləsindəndir.

Bu iki.

Bir də o mümkündür ki, Andranik nə quldurdur, nə də erməni hökumətinin rəsmi məmuru, bəlkə məhz müsəlman qanı tökməkdən xüsusi bir ləzzət hiss etmək mərəzinə mübtəla olan bir nəfər erməni mütəəssibidir ki, bunun bu vəhşi hərəkətinə Ararat hökuməti də razı deyil, lakin ipini çəkməyə qolunda güc yoxdur.

Bu da üç.

Şübhəsiz bu üç zəndən başqa Andranik məsələsinin qaranlıq yollarına işıq salan dördüncü və beşinci və doqquzuncu zənlər iradı dəxi mümkündür. Fəqət bizcə, zənni-qalib bu üçdədir. Ondan əlavə bizdən ötrü vacib olan dəxi budur ki, görək Andranik quldurmu, rəsmi məmurmu və ya, təkrar qırğın olmağa bais olan bir nəfər mütəəssib ermənimi. Çünki ciddi tədbirin itxaz və tədbiqi bu üçdən birinin təyininə bağlıdır.

Lakin bunu təyin etmək işinin öz yoluyla icrasına məşğul olmaqla bərabər, bir tərəfdən zülmü-sitəmə məruz qalan müsəlmanları tezlik ilə xilas etmək və digər tərəfdən bu vaqeənin getdikcə böyüyüb başımıza əngəl olmağına imkan verməmək üçün səri və müəssir tədbirlər ilə Andranik hərəkətini nə tövr olsa dayandırmaq lazımdır. Fəqət bu yoldakı tədbirlər yalnız ingilis komandasını təkrar-təkrar müraciətlərlə təciz etməkdən ibarət olmamalıdır. Zatən bu müraciətlərin nəticəsi o ola bilər ki, öz-özümüzü qorumaq qabiliyyət və qüvvəmizə şübhə edənlər olar. İngilisləri əhvalatdan vaqif etmək əlbəttə borcumuzdur. Qafqazda nizam və asayişin bərqərar edilməsi, işlərinin içrası da ingilislərin borclarıdır. Bunu özləri elan edibdirlər. Və ola bilər ki, ingilislər andraniklər hərəkatını böyük nüfuzları sayəsində mənəvi bir qüvvə ilə də dayandırmağa müqtədirdilər, lakin biz dəxi bu cürə hərəkətləri cismani qüvvələrimiz ilə durdurmağa müqtədir olduğumuzu lazım olan dərəcəyə qədər bildirməliyik. Andraniklər dəxi türklər gedəndən sonra baş qalxızıb zənn etməsinlər ki, biz qoşunsuz və əsgərsiz qalmışıq. Lazım olan yerdə hamımızın arvadlarımıza qədər əsgər olduğumuzu, andraniklər içində bilənlər yox deyil, zənn edirəm. Fəqət bir bu qədər tökülən qanlardan sonra bəşəriyyət artıq zara gəlub sülh, sülh deyə sevindiyi halda bu sülh axşamı bir də təkrar qan tökmək igidlik deyil, rəzalətdir və o qana səbəb olanlar, bəşəriyyət lənətinə gəlməkdən başqa özgə bir mənfəət qazana bilməzlər. Bu cürə vəhşi hərəkətlər icrası ilə erməni millətinə xoş gəlməyi qəsd edən andraniklər, zənn edirəm ki, səhvdədirlər. Onlara afərin deyib əl çalanlar, bugün erməni millətinin içində də çox az tapılar. Bir ay bundan əvvəl qonşuluq təriqinə müvəffəq sülh və sazişlə yaşamaq naminə xanımlarımıza müraciət edən erməni xanımları, fələlərimizi çağıran erməni fələləri əminəm ki, andraniklərin bu yolu çox haqq şekənanə hərəkətlərindən son dərəcə dilgir olmaqla bərabər, müraciət etdikləri və çağırdıqları qonşuları qabağında "qəhrəman" andraniklərin xəcalətini çəkirlər. Burasını da yaddan çıxarmasınlar ki, Andranik məsləkli başçılarının bu qədər mənhus politikası nəticəsindən cürbəcür fəlakətlər çəkmiş olan erməni milləti, bir kərə qalxıb da bu yalançı pəhləvanları öz əllərilə üstlərindən dəf və rəf edər ehtimalı da meydanda yox deyildir.

Biz hər halda özümüzü qorumalıyıq və hüdudumuzu öylə möhkəm bir vəziyyətə salmalıyıq ki, hər dəli, qudurmuş soxulub bildiyini, istədiyini yapa bilməsin. Umumi əhalimizin baxüsus hüdud və yaxınlığında olanların müdafiə və mühafizəsi üçün əlimizdə vasitələr lazımdır ki, hərəkətcə sürətə və fəaliyyətcə də qüvvətə malik olmaqla xalqımızı mütməinülqəlb etsin.

Zənn edirik ki, möhtərəm parlaman əzaları, baxüsus Qarabağ məbusları Andranik məsəlasi haqqında hökumətdən izahat istəməsə də, hökumət özü bu işdə nə növ tədbirlər görüldüğünün və görüləcəyini və bununla bərabər bu işə nə nəzərlə baxdığını da parlaman hüzurunda bəyan və elan edəcək.

# TƏƏSSÜRAT

Rus Məclisi-Məbusanı olan "qosudarstvennı" dumada heç vaxt eşitmədim ki, "inorodes" deyilən qeyri-rus və bunlardan baxüsus müsəlman məbusları nitq üçün kürsüyi- xitabətə çıxarkən onu təbrik edib əl çalsınlar.

Lakin biz, qafqazlıyıq, mehmannəvazlıq bizim yaxşı, ya fəna xasiyyətlərimizdən biridir. Odur ki, parlamanımızda qeyri-müsəlman məbusları nitq söyləməgə çıxarkən, müsəlman əzaları onlara heç olmasa bir "Allah saxlasın" edib əl vurdular, halbuki hələ məlum deyil idi ki, bunlar bizim xeyrimizə danışacağdırlar, yoxsa zərərimizə.

Zatən əziz dostumuz gürcülərin, həmdərdimiz polyakların, hörmətli almanların və aşinamız yəhudilərin məbuslarından zərərimizə danışılacaq sözlər gözləmirdik. Bizi maraqlandıran "Rus-islavyan"[1] cəmiyyəti-məbusının bəyannaməsi idi.

Məbus Vinoqradov[2] cənabları həman bəyannaməni oxudu, məclis diqqətlə qulaq asdı. Marağımıza toxunan yerlərinə də bir söz deyən olmadı.

Həman bəyannamənin xülasəsinin, xülasəsinin xülasəsi budur:

– Vahid Rusiya və azad Azərbaycan.

Yəni Rusiya dövləti əvvəlki kimi öz yerində qalsın və Azərbaycan da azad olsun!

Bu mətləb ki, adına "nazik" deməк layiqdir, bir çoxlarını fikir dəryasına qərq edir.

Necə ola bilər ki, Rusiya dövləti əvvəlki yerində qalsın və Azərbaycan da azad olsun?

Əgər Rusiya dövləti əvvəlki yerində qalsa, Azərbaycan azad olmaz.

Əgər Azərbaycan azad olsa, Rusiya dövləti əvvəlki yerində qalmaz.

Həqiqət, bu bir müəmmadır!

Mən zənn edirdim ki, "Vahid Rusiya və Azad Azərbaycan" şüarı, bugün bir para sosialistlərin Rusiyada federativ bir cümhuriyyət yapmaq arzusuna işarədir ki, bir vaxt "Müsavat" firqəsi dəxi bu arzuda olub "türklük" ittihadına bu növ ilə bir yol açılar, zənn edirdi.

Lakin bu deyilmiş bəyannamədə "Rus Federativ Cümhuriyyəti" naminə heç bir işarə də yoxdur.



O halda, bəs müəmmanın açarı nərədə?! Şübhəsiz ki, "azad" sözündədir.

"Azad" sözü öylə bir "Allah bəndəsi" sözüdür ki, dartsan-dartılar, yıxsan-yıxılar, açsan-açılar, yumsan-yumular...

Bizə "Vahid Rusiya və Azad Azərbaycan" şüarı qərib və hətta məhal görünür.

Əmma "Rus-islavyan" cəmiyyətinə nə qərib görünür, nə də məhal. Çünki "azad" sözünü biz başqa bir mənada anlayırıq, onlar da özgə bir məzmunda, odur ki, bizə çətin görünən şey onlara asan görünür.

"Hər halda biz, vahid Rusiya qurmaq işlərinə heç bir vechlə xələl yetirib mane olmarıq, bu şərtlə ki, bu işdən bizim istiqlalımıza zərər dəyməsin".

Bu sözləri parlaman məclisinin zəbani-hali diyordi...

.................................................................................................

Əvvəlcə adını da dürüst yaza bilməyən və İstanbula gedib bir il qalmaqla türk ədəbi lisanını və kitabətini mükəmməl deyiləcək surətdə öyrənmək istedadı göstərməklə bizi heyrətdə qoyan doxdur Qarabəy[3] cənabları "İttihad" fraksiyasının bəyannaməsini oxudu.

Qosudarstvennı dumalarının sağ cinahında oturan fraksiyaların bəyannamələri yadımdadır ki, təqribən bu məzmunda idi:

| | |
|---|---|
| Milliyyət məsələsində | şovinizm |
| din | təəssüb |
| kəndli | qamçı |
| fələ | yumruq |
| özgə millətlər | ruslaşdırmaq |
| qomşular | ədavət |

Əmma bizim parlamanın sağ cinahında yerləşən "İttihad" partiyası, bəyannaməsinə görə o qədər hürrəndiş, o qədər azadi-dust və o qədər demokratikdir ki, dumanın solunun solunda da oturmağa layiqdir.

"İttihad" fraksiyasının, parlamanımızın sağ tərəfinə meyl və məhəbbəti o dərəcədədir ki, doxdur cənabları öz nitqini məclisin sağ

kürsüsündən deməkdə dəxi israr edib, sədr cənabları ilə də bir balaca mübahisəyə girdi.

Qarabəy cənabları, fraksiyalarını vətən və millət yolunda niyi və nəyi müdafiə edəcəklərini bir-bir sayarkən əz cümlə möhtərəm Rusiya demokratiyasının əllə qazanılmış və bizə ehsan edilmiş qənimətlərdən danışdı.

O gündən bəri fikirdəyəm ki, görəsən o "qənimətlər" ki, möhtərəm rus demokratiyasından bizə "ehsan" edilibdir hansı qənimətlərdir ki, bizim ondan xəbərimiz yoxdur?

Bəlkə bizim "ehsan" payımızı özgələr yeyibdirlər ki, bizə çatmayıbdır!

Mənim yaxşı yadımdadır ki, möhtərəm rus demokratiyasının əlilə qazanılan "qənimətlər" hürriyyətlər idi. Və bu da yaxşı yadımdadır ki, o "qənimət"lərdən bizə nəinki "ehsan" etmədilər, hətta Nikolay zamanından bəri "dilənçi payı" olmaq üzrə əlimizdə qalan "qənimətlər"i də geri almaq istədilər.

Və burası da yadımdan çıxmayıbdır ki, (gərək doxturun da yadında olsun) ağzımızı açıb söz demək istədikdə möhtərəm rus demokratiyası naminə iş görən həriflər başımıza öylə qapazlar salmağa başladılar ki, yerimizi, yurdumuzu da qapaz vuranlara qoyub, hərəmiz bir diyara qaçmağı səlah bildik.

Sonrası hər kəsə məlumdur, təkrara hacət yoxdur. Ancaq bunu yetirmək istəyirəm ki, doğrudur, rus demokratiyası qan töküb, baş yaran rus istibdadından "qənimətlər" aldı. Biz dəxi o qənimətlərdən payımıza düşən hissəni almaq üçün qan da tökdük, can da verdik, baş da yardıq.

Boylə olan surətdə o "ehsan" hansı ehsandır?

Hansı "qəniməti" bizə "ehsan" verdi?

Qənimətdən məqsəd hürriyyət isə, haqq isə, biz ona malik olmaq üçün "ehsan" almadıq, bəlkə onminlərcə can qurban verdik, çaylarca qan axıtdıq!

Ola bilər ki, "bizə ehsan edildi" kimi təbirlərdən bir para safdərunlar xoşlana bilər, lakin deyərmi ki, bir taqım adamların "xoşlanmaq" xatirəsi üçün şəhidi-hürriyyət olanlarımızın ruhunu incidəcək? Məncə, dəyməz!



## VƏZİFƏMİZ NƏDİR

Erməni-gürcü toqquşması artıq adi müharibə şəklinə girdi demək caizdir. Bir tərəfdən erməni qoşunu baş komandanı Dronu[1]n Gürcüstan elçisi Midivaniyə rəsmi su rətdə elani-hərb mahiyyətini haiz olan təcavüz xəbərdarlığı, digər tərəfdən Gürcüstan hökumətinin təkrar səfərbərlik elanı və bu yandan dəxi hər iki tərəfin qoşununun tam hərb üsuluna müvafiq kəmali-şiddət və təhəvvürilə vuruşması, qarşımızda yeni bir müharibə meydanı açıldığını ələnən isbat etməkdədir.

Deməli, qonşuluğumuzda müharibə gedir.

Müharibənin gedişini həqiqi və bitərəfanə bir surətdə təsəvvür etmək üçün əlimizdə məlumat olmağı lazım idi. Boylə məlumat ki, bu tərəfin də, o tərəfin də əhvalını bizə təsvir edə idi. Halbuki hasil etdigimiz məlumat ancaq bir tərəfdən gəlir, o biri tərəfdən müharibə gedişi xəbərləri bizə çatmayır. Doğrudur, gürcü qonşumuz tərəfindən alınan məlumata inanmamağa bizim heç bir həqqımız yoxdur və burası da bizə yəqindir ki, xəbərlərin doğrusunu biz ancaq bu tərəfdən biləcəyik, lakin nə təhər olsa da müharibə zamanında sansur hökmünün icrası, həqiqət halın tamaşasına insanın ancaq bir gözünə müsaidət verir.

Müharibənin nədən başlandığını və bu tökülən qanların məsuliyyəti kimin üzərinə düşdüyü məsələsinə hələlik əl vurmayıb da, əmri-vaqe qarşısında özümüzün nasıl bir vəziyyət alacağımızdan və nə vəzifələrdə bulunacağımızdan bir qədər danışaq.

Həman məsələ parlamanımızın fövqəladə iclasında danışılarkən məbus əfəndilərdən Səfikürdski cənabları qonşularımızın miyanındakı bu müharibəni iki qardaş arasına düşən davaya oxşadıb, bizi də bacı məsəlində qoyub.

Tələb edirdi ki, bayrağımızı bacı çadrası kimi dava edənlərin arasına atıb vuruşmanı dayandırmaq üçün var qüvvəmizi sərf edək.

Əlbəttə, vuruşanlar haqqında vuruşanlardan hər birinin bizə qarşı caiz gördükləri vəziyyət həqqında və bu işlərin nədən nəşət etdigi şərait barəsində hər bir kəsin nəzəriyyatı öz məlumatı və mülahizatı əsası üzrə qurulduğundan, müharibələrin halı və bizim münasibətimiz,

hər kəsin xəyalında xüsusi bir şəkildə təcəssüm edəcəyi təbiidir. Biz isə əhvali xəyalımızda bir surətdə təsvir edirik ki, iki qonşu evi od tutub yanmaqdadır. Boylə olan surətdə bizim vəzifəmiz aşkardır. Odun öz evimizə keçməməsi üçün lazım olan tədbirləri görmək və bu möhlik yanğını basdırmaq və keçirmək üçün əlimizdə olan vasitələrə kəmali-əcələ ilə tövsəl edək. Odur ki, genə məbus əfəndilərdən doxtur Qarabəyin hüdudumuzun muhafizəsi xüsusundakı sualı, münasibətimizin təyini və ölkəmizin asayişi nöqteyi-nəzərindən daha həqiqi bir yola işarə olduğunu inkar etmək və nəzər-diqqətə almamaq heç bir vəchlə mümkün deyildir. Odu hələ indiyə qədər sönməmiş olan aləmşümul müharibənin ayrı-ayrı vaqelərindən olmaq üzrə müharibədə qazanmaq üçün sövqəlceyş hökmü tələbilə, bitərəf durmaq istəyən dövlətlərin yerindən qoşun keçirmək və bitərəf dövlətin əhalisini "qoşun keçdi" nəticəsindən əmələ gələn fəlakətlərə məruz qalmaq kimi hadisələrin vaqeyi gözümüz önündədir.

Bu mülahizə ilə hüdudumuzun və bitərəfliyimizin mühafizəsi üçün birinci tədbir olaraq bu işə baş qoşmalı, ondan sonra var qüvvəmizi iki qonşunu barışdırmaq yoluna sərf etməliyik.

Rəisül-vüzəra Fətəli xan cənablarının doxtur Qarabəyə verdigi cavabından, hökumətimizin əvvəl-əvvəl bu işə iqdam etdiyini kəmali-məmnuniyyət ilə eşitdik, bunu təkrar söyləməkdən məqsəd, parlamanımızın, camaətimizin etibar və etimad etdigi hökumətimizə yol göstərmək deyildi, hökumət öz vəzifəsini bilir. Fəqət Səfikürdski cənablarının iki qardaşı barışdırmaq üçün tezlik ilə araya soxulmağımızı tələb etməyinə əlavə olmaq üzrə əvvəlcə evimizə yanğından od düşə bilər ehtimalına qarşı möhkəm surətdə mühafizə etməyə və ondan sonra yanğını keçirməgə yügürmək borcumuz və vəzifəmiz olduğunu ixtar etməyi faydadan xali görmədik.



## KEÇƏN ZABASTOVKA HAQQINDA

İki gün əvvəl idi ki, şəhərimizin güzəran və məişəti adi cərya-nından düşürülüb qeyri-adi bir şəklə girdi. Qəzetələr çıxa bilmədi. Elektrik işığı sönüb, küçələr axşamları zülmətə döndü. Dəmiryolu hərəkəti dayandırıldı.Telefon müxabirati kəsildi. Zavod və mədənlərdə işlər durduruldu. Əlhasil bu bir neçə günü hər kəsin qəlb və ruhu sıxacaq və keçmiş mənhus günlərin mənhus xatiratını yada salacaq sıxıntılı şərait içində keçirməgə məcbur olduq.

Nə olmuşdu?

Fələ tətil komitəsi tərəfindən siyasi zabastovka elan edilmiş idi.

Nə səbəbə?

Ona görə ki, "Demokratuk şura" başında olan "eser"lərdən bir neçə nəfər başçıları ingilis komandanı rəisi general Tomsonun hökmülə tutulub həbs edilmişdilər. Bunların tutulmalarının səbəbi indiyə qədər məlum olmadı. Bu xüsusda cürbəcür sözlər və şayiələr buraxılırdı. Bir parələri deyirdilər ki, bu tutulanlar keçmişdə Bakıda hökumət etdikləri vaxt dövlətin bir çox pullarını yeyibdirlər. Bir paraları isə boylə bəyanatda bulunurdular ki, bu adamlar əl altınca işlər görüb, Azərbaycan hökuməti və ingilis komandanlarına qarşı üsyan və inqilab törətmək istəyirmişlər. Lakin bunlar hamısı şayiat cümləsindən olduğuna görə, hansının doğru və hansının yalan olduğunu bilmək mümkün olmadı.

Srağagünkü parlaman iclasında bizim sosialistlərimiz tərəfindən bu hislər haqqında hökumətimizə bir sual təqriri verilmişdi. Həbslərin general Tomson tərəfindən nə cəhətə görə icra edildigi soruşulacaqdır. Fəqət vaxt olmadığına görə bu təqrir mövqeyi-müzakirəyə qoyulmadı, hökumət də təbii cavab vermədi. Lakin vaxt müsaidə versə idi də hökumət tərəfindən öylə bir cavab ala bilməyəcək idik ki, marağımızın atəşini söndürsün, çünki parlaman dairələrində danışılan mötəbər adamların sözlərindən aşkar idi ki, bu həbslər məhz ingilis komandasının idarəsilə əmələ gəlib, Azərbaycan hökuməti bu işdə zimdəxl degildi. Binaən əleyh səbəbini bilmiyor və bilsə də sögləmiyəcəkdir.

Deməli, həbslər zabastovkaya səbəb olan bu adamların həbs edilmələri haqqında bir rəy və bir qərar hasil etmək işi, maraq göstərib əhəmiyyət verilərək öz mülahizat və öz fərasətinə bağlıdır.

Zabastovka elan edən tətil komitəsi öz tərəfindən buraxdığı nəşryyatında fələ qisminin düşmənləri kim olduğunu göstərərkən əz cümlə Azərbaycan hökuməti də həman düşmənlərdən biri olmaq üzrə nişan vermişdi. Bu əhvalat həman zabastovkada xarici fələlər ilə həmrahlıq və yoldaşlıq üzündən iştiraka məcbur olan ümum müsəlman fələ və əmələlərini son dərəcə mütəğəyyir edib öz hərəkətlərilə öz hökumətlərinə qarşı durmuş olduğlarını anlayanlar bu işdən ictinab etdilər və zabastovka işi Azərbaycan hökumətinə qarşı bir əməl isə biz bu işdə heç bir vəchlə iştirak etmərik deyə, qərar və bəyanatda bulundular.

Yəqin bu səbəbdən imiş ki, zabastovka elan edən komitə öz səhv və xətayi-fahişini düzəltmək üçün keçən günkü nəşryyatlarında digər bir əhval buraxıb zabastovkanın Qafqaz millətləri azadlığına və istiqlalına qarşı olmadığını elan edib böylə xəbərləri yalandan buraxanları "erməni və müsəlman millətçi mütəəssibləri", – deyə adlandırır.

Bizim nəzərimizə gəlincə, əvvəla burasını qeyd etməliyik ki, zabastovkanı mucib olan bu həbslərin səbəbi nə olduğunu biləmədigimizə təəssüflər edirik. Çünki bu səbəblər aşkar edilsə idi, o halda zabastovkanın da Azərbaycan hökumətinin və Azərbaycan dövlətinin lehinə və ya əleyhinə olduğu meydana çıxardı və çıxdığı surətdə Azərbaycan fələ və əmələlərinin də təklif və vəzifəsi məlum olurdı.

Qaldı zabastovkanın özü şübhəsiz siyasi, ictimai və iqtisadi hürriyyətlər elan edilmiş olan cümhuriyyətimizdə isdər siyasi, istər iqtisadi tətillərə heç bir kəsin deyəcəyi ola bilməz. Bu xüsusunda yalnız bir şeyi var ki, həman o tətil işi dövlətin istiqlalını və rüknünü sarsıdacaq qəsdilə mövqeyi-icrayə qoyulmuş olmasın və bir də tətil icra edilərkən müəyyən bir qaidə üzrə olub, nizam və asayişə riayət olunsun, ta ki əhalinin içinə şuluqluq və vahimə düşməsin.

Bundan əlavə bir dövlətdə tətil və zabastovka icra edən adamlar, həman o dövlətin təbəə və vətən övladı olmaları birinci şərtdir. Məsələn əgər Firəngistan[1] fələləri İngiltərənin bir şəhərinə gedib də zabastovka elan və icra etsələr, nəticədə İngiltərə torpağından tərd və



təbid ediləcəkləri və firənglərə uyan ingilislərin də təht mühakiməyə alınacaqları təbiidir.

Əlhal şəhərimizdəki zabastovkanın kimlər tərəfindən icra edildiyini nəzərə alıb da görürük ki, bu tətili elan və icra edənlər Azərbaycan dövlətinin istiqlalını tanımayanlar və tanımaqlarından indiyə qədərqatı bir inad göstərib azadlığımıza qarşı düşmənanə bir vəziyyətdə bulunanlardır.

Deməli bu adamlar şəhərimizdə öylə mətin cismani olmasa da mənəvi bir qüvvətə malikdirlər ki, şəhərimizin həyatının cəryanını istədikləri vaxt durdurmağa qadirdirlər, necə ki, durdurdular. Elektrik stansiyonlarında telefonlarda, dəmiryolunda, zavod və fabriklərdə işləyən fələ və əmələlərimiz hamısı bu adamların əmrinə müti olub, onlarla və təbii onların Azərbaycan istiqlalına qarşı olan siyasi fikir və amalları ilə şərik və həmdil olduğlarını nümayişkəranə bir surətdə meydana qoydular.

Doğrudur fərz edəlim ki, hələ bu "birinci" zabastovkanın icrasına "günahsızların günahsız" yerə hesab edilmələri səbəb oldu. Kim bizi mütməinül-qəlb edə bilər ki, "ikinci" zabastovkanın icrası, istiqlalımızın ləğv və məhvini tələb edən "səbəblər" üzərinə olmayacaqdır?

İstiqlalımızı tanımaq istəməyənlər özlərinin böylə bir müvəffəqiyyətlərini görüb də mənəvi qüvvəyə malik olduğlarını hiss etdikdən sonra bu qüvvəni siyasi amal və arzularının hüsuli yolunda da sərf etmək istəməzlərmi? İstəməyəcəklərindən kim bizi əmin edə bilər? Və kim buna inanar?

İştə, bu zabastovka məsələsinin bizi dərin əndişələrə salan cəhəti burasıdır!..

Bu əndişələrə qarşı qəlbimizə təsəlli verən yalnız bu oldu ki, Azərbaycan müsəlman fələ və əmələləri bu zabastovkanın əsl səbəbini bilmədiklərindən bu işdə mütərəddid qalıb zabastovka əhyanən bizim istiqlalımıza qarşı icra edilərsə bundan heç bir vəchlə iştirak etmək istəmədiklərini görüb son dərəcə xoşnud olduq. Lakin bu tərəddüdi və əzmkarlığı biz yalnız mədən fələlərimizdən və mütbəə əmələlərimiz tərəfindən gördük. Dəmiryol elektrik stansiyonu və sairə bu kimi mühüm müəssisələrimizdə xidmət edənlər tərəfindən heç bir milli cünbüş müşahidə edilmədi və edilməyinə də təəccüb

ediləcək degildir. Çünki həman müəssisələrdə işləyənlərin demək olar ki, cümləsi xaricilərdən ibarət olub, Azərbaycan dövlətlərinə qarşı olan "sədaqət"ləri də məvacib almaqdan başqa özgə bir mövqedə ibraz edilmir.

Boylə olan surətdə gələcək "hadisə"lər əndişəsindən özümüzü mütməin etmək üçün təklifimizin bundan sonra nədən ibarət olacağını anlamaq üçün çox da zehn yormaq istəməz. Hələlik isə istiqlalımız yolunda hər bir fədakarlığı hazır olduğlarını bildirmiş olan fələ və əmələlərimizə rəhbərlik etmək, onları möhkəm bir orqanizasiya başına cəmləşdirmək və istiqlalımızı tanımaq istəməyən xarici fələ və əmələlərinin təşkilatları qabağında öz fələ və əmələlərimizdən "əks təşkilat"lar düzəltmək bizim bütün partiyalarımızın birinci borcudur.

Zabastovka əsnasında fələlər və əmələlərimizin diqqətlə idarəmizə müraciət edib də "bizə adam göndərin, bizə rəhbərlik edin təklif və vəzifəmizi bizə bildirin", – deyə israr etdiklərini görüb də, parlamanımızın bu yolda ətalətlə iş görüb də başısoyuqluq etmələrindən məyus olduğumuzu deyə bilmərik. Ümidvarıq ki, bundan sonra partiyalarımız işin nə dərəcə ciddi bir vəziyyətdə olduğunu nəzəri-etinaya alıb da fələ və əmələ təşkilatı işlərimizə kəmali-şövq və həvəslə girişməgi özləri üçün müqəddəs bir vəzifəədd edəcək və bu işə ciddiyyətlə girişəcəkdirlər.



## İSTİQLAL VƏ İSTİQBAL ÜMİDİ

Cahan Sülh Konfransının vaxtı yaxınlaşmaq üzrədir. Hər yerdə tədakürət görülməkdə olub, dövlətlərdən bir çoxu öz murəxxəslərini seçib, o məclisi-kübrayə tərəf yollamaqdadırlar. Hər dövlətin bir dərdi var, dərmanını həman məclisdə arayacaqdır. Özgələrin dərdi nədən ibarət olduğu haqqında baş işlətmək işini öz dərd çəkənlərinə buraxıb, biz öz dərdlərimizin fikrində olaq, çünki bizim də dərdimizin dərmanı həman məclisi-kübradan hasil ediləcəkdir. Biz də dərdimizə dərman tapa bilən adamlarımızı seçib, oraya göndərməliyik.

İstiqlal və istiqbal məsələmizin "hə" və "yox" nəticəli həman məclisin hökmündən asılıdır. Fəqət bu hökmün məclis tərəfindən "hə" və ya "yox" surətdə həll edilməsi orada çalışmağa göndərilən adamlarımızın himmət və ya himmətsizlik fəaliyyət və ya fəaliyyətsizligınə bağlıdır. Çalışırlarsa himmət və fəaliyyət göstərərlərsə "hə" alıb, vətən və millət qabağında üzüağ olarlar, əks surətdə "yox" hökmünün yaman xəbərini millətə və vətənə nə üzlə gətirəcəklərini özləri mülahizə etsinlər.

Lakin Allah eləməsin ki, "yox" xəbəri ilə qayıtsunlar! O halda bütün ümüdlərimiz, bütün amal və arzumuz məhv və nabud olub da, əvəzində qeyri-qabil təsəlli, bir hüzn və olduqca dərin bir yas və əməl əmələ gəlib, artıq dünya üzündə yaşamaq həvəsindən düşərək və ya yaşasaq da ölü olduğumuzun və ya diri qaldığımızın heç bir fərqi olmaz, çünki hüquqi-siyasi və milliyəsindən məhrum edilmiş olan bir millətin ölülügin diriliyinə, diriliyin və ölülügünə müsavidir. Boylə bir millət həqqında:

"Zindəənd, vəli mordə, Mordəənd, vəli zində"[1] demişlər...

"Şər deməsən, xeyir gəlməz" sögləmişlər. Lakin qara fikirlər ilə əhvalımızı "piş əz vəxt" pərişan və mükəddər etməyək hissiyata yol verməgib də əql və dərrakə ilə hal və vəziyyətimizin necəligini biduni-təhəyyüc və iztirab təsəvvürə gətirib, sülh konfransında istiqlalımızın təsdiqi səadətinə nail olsaq vətən və millətimizi nə tövr böyük bəlalardan qurtaracağımızı bir balaca mülahizədən keçirək.

Hər bir fərdimizin məlumu olduğu üzrə, Rusiyada hüquqi-milliyyə və siyasiyyəmizi iqrar və etiraf edən və Rusiyadan ayrılıb da

müstəqil yaşamaq arzumuza ruyi-riza göstərən və bu əmrə xoşluq ilə qol qoya bilən bir firqə və ya bir partiya təsəvvür etmək məhəl xaricində bir şeydir. Bolşevik olsun, menşevik olsun, eser olsun, kated olsun, monarxist olsun, hətta anarxist olsun heç biri bizim istiqlalımızı razı olacaq və bugün müstəqil yaşamağımıza kin və küdurətsiz baxacaq degildir!

Əgər biz bugün bolşeviklərlə hüquqi-siyasi və milliyəmiz müdafiəsi yolunda müharibə etmiriksə, səbəbi bolşeviklər başının monarxistlər hücumu dəfinə qatışmış olduğudur.

Və genə biz həman hüquqlarımızın mühafizəsi yolunda monarxistlər ilə cəngü-cidal etmiriksə, bunun da səbəbi monarxistlər başının bolşevikləri süqut etmək işinə məşğul olduğudur.

Deməli, bir gün olacaqdır ki, Rusiyada monarxistlər və ya bolşeviklər hakimi-mütləq olmaq ixtiyarını bir kərəlik ələ alıb da, ondan sonra Rusiyadan ayrılmış olan "üsyançı"lar üzərinə tökülüb, onları təkrar itaətə məcbur etmək işinə uğraşacağlar. "Üsyançı"ların da ki, biri bizik, bizim də üstümüzə töküləcəklər. O halda biz iki əmrdən birini qəbula məcbur olacayıq, ya boyun əgib itaət etmək və ya hüququmuzu qılıc gücü ilə müdafiəyə durmaqdır.

Əvvəlinci təqdirlə – genə əsirlik! İkinci təqdirdə isə nə qədər fədakarlıq göstərsək də, müvəffəq olacağıq, ya olmayacağıq və ya bəlkə də ümum qafqaz millətləri xüsusi ədalətlərini unudub, bu ümumi fəlakət dəfində bizə kömək durmağla, qətiyyən müvəffəq olacağıq. Hər halda təkrar qurbanlar verib, çaylarca qan axıtmağa məcbur olacağımız şübhəsizdir. O surətdə sair təsadüfi nəticələrdən səlamət qurtarsaq da, məmləkətimizin bir tərəfdən məşət və güzəranı, digər tərəfdən islah və tənzimi işlərin nə qədər çətinlik və nə dərəcədə müşkülata düşürüləcəgi hər kəsə etiraf ediləcək təbii bir əmrdir.

Halbuki, hüquqi-istiqlalımızı qan tökməksizin, millətimiz və məmləkətimiz başına təkrar-təkrar ağır bəlalar açmaqsızın bir surətdə müdafiə və mühafizə etmək üçün başqa bir çarə yolu vardır ki, o da sülh konfransı məclisi-kübrasında çalışmaq və qılıc əvəzində söz ilə müharibə edib, əməl və arzumuzun həqq olduğunu hər kəsin iqrar edə biləcəgi bir surətdə aşkar və bəyan etməkdir.

Bizim və bizim kimi xırda millətlərin xoşbəxtligindəndir ki, cahan sülh konfransı təhti-əsarətdə olan ümumi millətlərin müqəddəratını həll etmək məsələsini dəxi vilsonların və digər sahibi-nüfuz hürriyyətpərəstlərin idarəsilə öz proqramına daxil edib, əsarətdən xilas olmağa yol verir. Adam istər ki, bu xoşbəxtlikdən və bu gözəl fürsətdən layiqincə istifadə edə bilsin!

Ona görədir ki, sülh konfransına adam seçib göndərmək istəyəndə nə qədər diqqət və nə qədər ehtiyat ilə iş görsək, bir o qədər qazanmış olarıq. Vacib-vacib işlərimiz içində daha bundan vacibini mən təsəvvür edə bilmirəm. Və zənnim budur ki, bu işlərə ən cüzi səhlənkarlıq ağır günahlarımıza mucib olacaqdır. Sülh konfransına göndərmək üçün adam seçənlərin də, seçilən adamların da boynuna düşən olduqca ağır və ağırlığı qədər də müqəddəs olan vəzifəni hər iki tərəf dürüst mülahizə etməlidir. Seçənlər adamlarımızın qabiliyyət və ləyaqətini və seçilənlər də bu qabiliyyət və ləyaqəti dara olduqlarını kamalınca dərk edib, nəzəri-etinayə almalıdırlar. Seçən seçdiginə və seçilən də özünə arxayın olmalıdırlar.

Vəilla bu işdə də adi seçki işlərimizdə olan kimi bəzi arzu olmayan hərəkətləri rəva görsək və ba diqqət və ciddyət əvəzində bilkəs "indifrentizm" göstərsin, o halda istiqlal və istiqbala istehqaq qazanmaq istədigimiz yerdə, daha da cəhalət və ləyaqətsizligimizi aşkar edib, əlimizdəkini də əldən buraxmağa məcbur olarıq. Onda vay bizim halımıza! Zənciri-əsarəti millət təzədən boynuna salsın və ya qüdrəti xaricində olan mübarizələr nəticəsində məhv olub getsin.

Lakin ümidvarıq ki, mühüm və əhəm sayılan bu böyük işi səhvsiz və xətasız surətdə icra edə biləcək əqli-səlimə və zəkavətə malik olan adamlığımız millət və vətəni istiqlal və istiqbal ümumidən məyus və mərhum etməgi heç bir vəchlə rəva görməzlər

Tövfiq Allahdandır.

## LƏNKƏRAN FACİƏSİ

Bakı şəhəri İslam Ordusu tərəfindən alınmamış olsa idi və Bakı quberniyası, şəhər ilə bərabər, Allah göstərməsin, "sovetlər" əlində qalsa idi, bilirsinizmi binəva müsəlmanların başına nələr gələrdi!

"Hürriyyətpərəst"lərin "idarə anarşiyəsi" altında həqarət, rəzalət, əziyyət, zülm-sitəm kimi məhz müsəlmanlara qarşu rəva görülən "mərhəmət"lərin bərəkətindən zənn etmirəm ki, Bakıda müsəlman namına bir kəs qalmış ola idi! Bir tərəfdən "sovetlər" başında olan "sosialist"lərin idarə işində göstərdikləri cəhaləti, digər tərəfdən həmin "sosialistlər"i əllərində oyuncaq və aləti-məsğərə etmiş olan hiyləgər və xunxar daşnakların ibraz etdikləri fitnə və şeytanəti müsəlmanları bir halətə salmışdı ki, yaşamaq imkanı qalmamışdı. Şükrlər olsun bizi yaradan xaliqə ki, "hökumət siyasəsi" qətlüqarətdən ibarət olan bu mənhus idarənin təhəmmülfərsa ömrü, ümumbaku müsəlmanlarının bilkülliyyə məhv və tələf olacağı müddət ərzində uzun çəkməyib qəhrəman İslam Ordusunun şanlı qılıncı ilə kəsildi və Bakı müsəlmanları azad edildi.

Bakı ilə bərabər Bakı quberniyasında olan Quba, Göyçay, Salyan və "bad əz xərabeyi Bəsrə"[1] olsa da Şamaxı dəxi cahil müstəbid "hürriyyətpərəstlər"in və erməni makiavellərinin[2] pənceyi-zalemanələrindən xilas edilmək üzrə xoşvəxt və xoşbəxt oldular.

Lakin minlərcə təəssüflər olsun ki, bu azadlıq səadəti bütün Bakı quberniyasına şamil olunmayıb, hamını xoşbəxt edə bilmədi. Xoşbəxtlər arasında bədbəxt qalanlar dəxi oldu.

O bədbəxt qalanların bir neçəsi məlumumuz olduğu üzrə:

– Lənkəran.

Və Lənkəran uyezdidir.[3]

Bu bədbəxt uyezd və onun bədbəxt müsəlmanları bugünə qədər biganələr əlində qalıb, nizamsız, qanunsuz və zalimanə bir idarənin bütün ağırlıqlarını zəif boyunlarında çəkməyə məcburdurlar.

Salyan və Bakı alınandan bəri buranın binəva müsəlmanları nicat yaxunlığı ümidilə çırpınan qəlblərində bu ümidi bəsləməklə bərabər səbirsizlik nəticəsi olaraq hərdəm bir qəzetələrimiz sütunlarını və idarələrimiz qapılarını dəxi istimdad fəryadı ilə doldurub, nicat tapmış olan qardaşlarının diqqətini fəlakətli hallarının şəraititəhəmmül - fərsasına doğru cəlb etməgə çalışıyordılər.



Lakin bunların fəryadları biyaban üzərində yol azmış olan bir yolçunun sədai-istimdadi kibi cavabsız qalıb, səslərinə səs verən olmiyordi.

Lənkəran Azərbaycanın bir hissəsidir, taxıl, meşə, balıq və sairə kimi sərvətləri nəzərə alınmiyub, ümumazərbaycan dövləti xəzinəsi üçün bir qəpiklik mənfəəti olmasa da, burada yaşayan qardaşlarımızın himayəsi Azərbaycan dövlətinin boynunadır. Biz Lənkəran müsəlmanlarının biganələr və yadlar əlində cürbəcür zülm və fəlakətlərə məruz qaldığına qeydsiz nəzərlə baxa bilmərik, indiyə qədər də baxmamışıq, onların fəryadlarını eşitmişik. Fəqət səslərinə səs verməkə, tezlik ilə imdadlarına yetişmək və onları fəlakətdən qurtarmaq işində bir taqım məmaniətlər qarşusında məəttəl qalmağa məcbur olmuşuq. Bu işdə bizim bir səhlənkarlığımız olmuşsa, o da bu mühüm məsələ xüsusunda parlamanımızda hələ indiyə qədər söz açılmamışdır. Bunun günahı isə ümumparlaman əzalarımızın baxüsus Lənkəran məbusanın boynunadır ki, sitəmdi də vətəninin xilası xüsusunda bugünə qədər heç bir təşəbbüsdə bulunduğu müşahidə edilməmişdir.

İndi isə zənn edirəm ki, daha qarşumızı kəsən "rəsmi" bir məmaniət qalmayan kimi Lənkəranı biganələr əlindən qoşun gücü ilə xilas etmək məcburiyyətində qalmadı. Bu məsələ general Tomsonun, bu axırkı intibahnaməsi ilə həll olunub getdi.

Hürriyyətpərəstlikdən əlavə, bu qaruşıqlıq içində səthi bir nəzərlə də olsa həmandəm doğrunu yalandan, düzü əgridən, pakı napakdan seçmək qabiliyyətinə dara olan bu ingilis generalı, Azərbayçan türk və islamlarına qarşu həqiqi münasibətini tezlik ilə təyin edib, Azərbaycanı Azərbaycan hökumətinə tapşırdı və tapşırdıqdan sonra köməgini də əlavə olaraq elan etdi.

Qoy düşmənlərimizin içi od tutub yansın! Qəzetələrində bu xüsusda ağızlarına gələni deməklə büxl və həsəd atəşi içində qıvrılıb yandıqlarını bildirməklə "Hürriyyət və insaniyyət" şüarları altında istibdad və şeytənət amalı gizlətmiş olduqlarını təkrar-təkrar isbat etsinlər! Bunlarla işimiz yoxdur, yanındakılardan istər lap canları çıxsın. Biz general həzrətlərinin bu təsdiqnaməsindən istifadə etməliyik. Zatən generalın əmrini yerinə yetirməliyik. İngilis demokratiyası

və ingilis hökuməti adından Azərbaycanın müqəddəratını azərbaycanlıların öz əllərinə verən general Tomsonun bizə dair bəşarət və düşmənlərimizə qarşu ölüm xəbəri dərəcəsində olan bu əmri bütün Azərbaycan torpağını, binaən əleyh Azərbaycanın hissəsi olan Lənkəranı dəxi öz hökumətimizin təhti-idarəsinə mühəvvəl edir.

Bundan sonra artıq fikir lazım degildir. Tezliklə lənkəranlı qardaşlarımızın imdadına yetişib, biganələr pəncəsindən xilas etməklə, canlarını azad və könüllərini şad edək. Lənkəran şəhəri və Lənkəran uyezdi idarələri başına öz məmurlarımızı tezlik ilə göndərək. Ancaq bunu tapşıraq ki, o məmurlar biganə və xudsər xarici məmurları kimi, rus, erməni və müsəlman arasına təfavüt qoymaqla bir milləti əzib, digər milləti hakim vəziyyətində qoymasınlar. Azərbaycanımızın hər yerində olduğu kibi, orda da hamuya bir nəzərlə baxsınlar. Kin və küdurətə məhəl verməsinlər. Qan ilə kəsiləcək bir işi general Tomson söz ilə kəsdi və Azərbaycan hökumətinə kömək vədə etməklə bu sözə razı olmayanların cəzaya veriləcəgi dəxi anlayanlara bildirdi.

Pəs tez olub məmurlarımızı göndərək. Lənkəran müsəlmanlarının bir bu qədər fəlakət çəkdikləri artıq kifayətdir.



## KİM NƏYİN FİKRİNDƏ İMİŞ

Bizi Rusiyaya "bitişdirmək" istəyən "Yedinaya Rossiya"[1] qəzetəsi, general Tomsonun bu axırkı intibahnaməsindən və generalın, bilxassə, özündən çox narazıdır.

Şəhərimizdəki rus milli komitəsinin naşiri-əfkari və Azərbaycan azadlığının düşməni olan bu qəzetə rəisulvüzəra Fətəli xanın deklorasiyasını və bu deklorasiya bədində general Tomson tərəfindən sadir olan intibahnaməni tənqid edərək diyir ki, bu necə işdir? Fətəli xan diyir ki, Azərbaycan hökuməti, Azərbaycan dövlətinin istiqlalını gözünün bəbəyi kimi mühafizə və müdafiə edəcəkdir. General Tomson dəxi əmr verir ki, Azərbaycan daxilində Fətəli xan hökumətindən başqa ayrı hökumət ola bilməz və bu hökumətə ingilis komandası tərəfdar, hər dürlü məzhirət göstəriləcəkdir. Boylə niçün?

Deməli, ingilis komandası başında olan şəxs Azərbaycanın Rusyadan ayrılıb da müstətil bir hökumət olduğuna razımı olur? Bəs ingilislər Rusiyanı təzədən diriltmək istəyirdilər? – deyə şikayətə bulunur.

"Yedinaya Rossiya"dan başqa "həqiqi eserlər"in məşhur "İznamya truda"sı, fələ "tərəfdarlar"ının "İskra"sı,[2] erməni milli komitəsinin "Naşe vremya"sı[3] "qəhrəman daşnaklar"ın "Vperyod" adındakı küçə vərəqəsi, hətta musəlman puluyla çıxan "Kaspi"[4] qəzetəsi dəxi bu mətləb xüsusunda ağız-ağıza verib biri şikayət edir, biri sögür, biri ağliyur, biri ah-nalə çəkur, biri qarğış edir... Əmma axırda hamusı öz-özlərinə təsəlli verib diyorlər ki, inşallah ki, bu iş "nedorazumeniye"dir! Yəni ingilis komandası başında duran general Tomson səhv edubdir və səhvini başa salsaq, tez düzəldər.

Şübhəsizdir ki, insaniyyət və azadlıq düşməni olan bu qəzetələrin bu cürə danışıqları, salamət bir ağılın kəraməti sayəsində hasil olmayıb da büxl və həsəd hissiyyat zəmiməsinin daşıb-coşmasından nəşət edən sərsəri sözlərdir. Dilənçilər, nə qədər mədəniyyət sahibi olan bir millətin generalı o qədər oldu ki, didigi sözlərin həqq və səhv olduğunu anlamadımı? Və bu sozlərin vəxt və mövqeini dərk etmədimi?

Boş və bica təsəllidir!

General Tomson nə elədiginin və nə danışdığının mənasını əlbəttə çox gözəl bilur və əgər generalın hərəkəti və buyurduğu sözlər azadlıq düşmənlərinin meyl və arzusuna təvafüt etmirsə, ondan aşkardır ki, general Tomson azadlıq düşmənlərinin meyl və arzularına şərik degildir.

Hələ "Kaspi" qəzetəsinin xüsusi bir təsəllisi var, diyur ki, general Tomsonun Azərbaycanı, ancaq Azərbaycan hökumətinə tapşırması və bu hökumətə kömək və ədd etməsi Azərbaycan istiqlalının ingilislər tərəfindən təsdiqi əmrinə şərik degildir.

Lakin bizcə "Kaspi" qəzetəsinin bu xüsusi bir təsəllisi dəxi düşmənlərimiz üçün həqiqi təsəlli olacaq mahiyyətdə bir şey degildir, çünki əvvəla, şübhə yoxdur ki, general Tomsonun bu intibahnaməsinə Amerika və Fransadan ibarət olan sair müttəfiqlər nümayəndələri dəxi şərikdirlər və saniyən ingilis generalının sözü necə ki, məbusalarımız dəxi təsdiq etdilər – ingilis camaətinin sözüdür. Bundan ötrü ki, general Tomsonu Azərbaycana göndərən, ona məmuriyyət verən, ona etibar və etimad edən ingilis cəmaəti olubdur. Və bir də generalın elədiklərini və dediklərini London bilib də təsvib etməsə, onu burada saxlamaz, əvəz elər. Nahəq yerə düşmənlərimiz general Tomsonu Londona şikayət edəcəklər deyə, təhdid edirlər! Hərçənd şikayət etsələr heç yaman olmaz, özlərinin əbəs yerə qara-qışqırıq salan olduqlarını, qaraçılıqlarını və bununla boylə düşmən insaniyyət və ədui-hürriyyət olduqlarını general Tomsona bildirdikləri kimi, Londona dəxi bildirməklə bəlkə birkərəlik canımızı qurtaralar.

General Tomsonun hərəkəti mübtədi məktəb şagirdlərinin boylə anlayacağı dərəcədə aşkar və aydın bir işdir.

General Qafqaza varid olub həqiqət haldan bizzad və biləyan xəbərdar oldu, gördü ki, Azərbaycan torpağı Azərbaycan türklərilə məskun bir yerdir. Bu türklərin nizamsevən, asayişə riayət edən alicənab bir irq olduğunu müşahidə etdi. Türk Azərbaycan torpağında bir xeyli erməni ünsürlərinin də yaşadığını gördü. Şübhəsiz, ermənilərin də nə gunə xasiyyət sahibi bir millət olduğunu da anladı. Ondan əlavə burda sabiq Rusiya padşahlığından qalmış bir qədər də rus olduğunu gördü. Bu ruslardan da bir parasının çürük istibdad fikirləri "millətpərəst" və bir paralarının da yalançı "hürriyyətpərəst"



və "fələ dost" olduqlarını sezdi. Bavücudin arada söz olmasın deyə hökumətimizə təklif etdi ki, hökumət içində ruslara və ermənilərə dəxi yer verilsin. Zatən hökumətimiz və parlamanımız bu hökumət müctəmc fikrini əvvəldən özünü meydana atmışdı. Odur ki, hökumətimiz heyətində ruslara da, ermənilərə də hərəsinə üç vəzirlik yeri verildi. Ermənilər bu vəzirlik yerlərini "kəmali-fəxr" ilə rədd etdilər. Ruslardan da "Yedinaya Rossiya" çadırına mənsub olmayanlardan iki nəfəri gəldi, əmma rus milli komitəsi təklifimizi qəbul etmədi. Biz də ki, daha yalvarmayacağıq. General Tomson dəxi rus və erməni millətçilərinin bu yersiz naz və qəmzələrindən və nalayiq hərəkətlərindən xoşnud olmadığını bildirib, yeni hökumətimizi təsdiq etdi. Vəssalam!

"Yedinaya Rossiya" bizdən və general Tomsondan incidiyi kimi hökumətimiz içində vəzirliyi qəbul edən Protasov[5] və Lizqar[6] cənablarından daha artıq incikdir. Deyir necə ola bilər ki, Azərbaycan hökumətinin istiqlalına rus adamları razı olub da hələ gedib vəzirlik də etinlər?!

Deməli, rus milli komitəsi hökumətimiz içinə vəzir göndərsə imiş, həman vəzir Azərbaycan əhalisinin ehtiyacat və məişət işlərini kənara atıb, ancaq Azərbaycanı Rusiyaya "bitişdirmək" politikasına məşğul olacaqmış. Bundan boylə görünür ki, erməni vəzirləri də Azərbaycanı Ermənistana bitişdirəcəklərmiş. Ancaq bu politikanın yeridilə bilməyəcəgini görüb də təklifimizi rədd edib, özümüzdən küsübdürlər!

Bəs öylə isə yaxşı edibdirlər ki, küsubdürlər. Axıradək küsmüş qalsalar, daha gözəl iş görmüş olarlar. Çünki Azərbaycan vəzirləri rus olsun, erməni olsun, yalnız Azərbaycana və Azərbaycanın ehtiyacatına qulluq etməlidirlər. Vəillə "başqa fikirlər" ilə gəlmiş olan vəzirləri biz bir gün də içimizdə saxlamırıq.

## BİR İLTİMAS MÜNASİBƏTİLƏ

Rus milli komitəsi Azərbaycan xariciyyə vüzəratına müraciət edib ölkəmizdən qaçmış və Şimali Qafqaz hüdudunda qalmış olan əlli min nəfər rus kəndlilərinin təkrar torpağımıza qayıtmağı və qaytarılmağı xüsusunda iltimasda bulunur. Komitə deyir ki, "Azərbaycan hökumətinin rus kəndlilərinə qarşı hüsnü-təvəccöhünü bildigimizə görə təvəqqe edirik ki, həman kəndlilərə Azərbaycan torpağında yer verilsin, onlardan əlavə Qafqazın sair yerlərindən gələn ruslara dəxi Azərbaycanda məskən salmaq imkanı rəva görülsün".

Təəccüb işdir. Rus milli komitəsi bir tərəfdən bizi və bizim hökumətimizi tanımağı əsla qəbul etməyir, naşiri- əfkari olan "Yedinaya Rossiya" qəzetəsinin hər nömrəsində hökumətimizi ilan kimi çalır, azadlığımızın düşmənləri cərgəsində durub onlarla həmavaz olub, Azərbaycan istiqlalına qarşu bədgüluq edir, rəisülvüzəramız tərəfindən təklif olunan vəzirlik yerinə qeyri-qabil bilib "atkaz" edir, bir tərəfdən də bu tanımadığı və qəbul etmədigi hökumətə müraciət edib, əlaqə bağlayır və dürlü-dürlü iltimaslarda bulunur.

Bir tərəfdən bizdən küsür, bir tərəfdən əlaqə bağlayır. Daha açığı, rəsmiyyət məqamında bizi rədd edir, əmma qeyri-rəsmi halda xeyrimizdən istifadə etmək istəyir.

Bu nədir? İkiüzlülükdür, yoxsa bizi safdərun hesab edib ələ salmağdır?

Və bu nə sənətdir ki, həman milli, komitə genə bir tərəfdən Azərbaycan hökumətinin "rus kəndlilərinə qarşı hüsnü-təvəccöh göstərmək"də olduğunu guya iqrar və etiraf edir, digər tərəfdən hökumətimizin həman rus kəndliləri xüsusunda "zülm və sitəmdən" müfəttinanə bir surətdə qəzetələrində danoslar yazıb əlavə general Tomsona bizlərdən və hökumətimizdən şikayətlər edir ki, guya biz azərbaycanlılar lazım olub "məzlum" rusların kənd və kəsəklərini dağıdırıq...

Böylə olan surətdə rus milli komitəsinin təvəqqe və iltimaslarına bizim hökumətimiz nə əsasla məhəlgüzar olsun?

Əgər rus milli komitəsi vaqedə Azərbaycan ruslarının qeydkeş və dərdinə qalar isə, pəs nə üçün kabinəmizdə vəzirlik yerinə qəbul etmədilər? Halbuki bu vəzirlik ilə Azərbaycan ruslarına daha artıq kömək yetirə bilərdi və ehtiyacını daha tezliklə rəf çalışardı.



Aşkar degilmi ki, rus milli komitəsinin amal və arzusu Azərbaycanda yaşayan rusların mənafeyini gözləmək olmayub, bəlkə politikaçılıqdır ki, o politika sayəsində bizləri təkrar Rusiyaya bitişdirib istiqlalımızın məhvinə səbəb ola və əlli min nəfər rusu Şimali Qafqaz hüdudundan qaytarıb da torpağımızda yerləşdirməkdə məqsəd genə də politika yeritməkdir ki, onun təfsiri uzundur, əmma zənn edirəm ki, bunu anlamaq üçün təfsirə möhtac olacaq dərəcə kəməql degilik.

Məsələnin özünə gəldikdə, əvvəla bunu unutmamalıdır ki, rus kəndlilərinin bilümum Qafqazda və bilxüsus Azərbaycanda yer və mülk sahibləri olması sabiq müstəbid rus hökumətinin "kolonizatsiya" və daha doğrusu, Qafqazı "ruslaşdırmaq" və Qafqazı ruslarla doldurmaqla əhalisinin ehyanən üsyan və inqilab törətməsinə manc olmaq politikasından nəticə verən bir işdir. Vəilla Qafqazda və baxüsus Azərbaycanımızda bir o qədər yer və torpaq yoxdur ki, yerli əhalinin ehtiyacatını rəf edəcək dərəcədə kafi olub hələ artıq da qala ki, o artığını Rusiyadan gəlmiş rus kəndlilərinə verələr. Deməli, vətənimizdə rusların və rus kəndlilərinin mülk-maaşı yer və torpaq sahibi olmaları yerli əhali üzərinə rəva görülmüş zülm və cəbr nəticəsidir. Vaxtilə bu xüsusda, yəni Qafqazı rus "pereseleniye"sindən azad etmək həqqında başbilənlərimiz və iş görənlərimiz çox çalışdılar. Lakin səy və kuşişləri rus "bürokratiya"sının inadı müqabilində hədər gedib bir nəticə hasil olmadı. İndi isə yerimiz və torpağımızın sahibi özümüz olduğumuz halda, zənn etmərəm ki, hökumətimiz içində bir adəm tapılsın ki, rus müstəbidlərinin politikasına tabe olub da fəlakətzədə kəndçilərimizin üzərinə təkrar fəlakətlər yükləsin.

Hökumətimizin parlamanın alqışla qəbul etdigi yer və torpaq proqramından məlumdur ki, vətənimizdə hər nə yer və torpaq varsa biəvəz olaraq kəndlilərimizə veriləcəkdir. Bu kəndlərdən məqsəd şübhəsizdir ki, yerli əhalinin kəndçi sinfidir. Rus mühacirlərinin kəndçilərimizin yer və yurduna şərik çıxmağa heç bir həqqi yoxdur, çünki onların yeri öz doğma vətənləri olan Rusiyadır. O Rusiya ki, bütün aləmdə yer və torpağının çoxluğu ilə məşhurdur. Heç insaf degil ki, Rusiyanın öz yeri, öz torpağı boş-boşuna qalsın da rus kəndliləri gəlub da özgə yerinə şərik olmaqla həm özlərini və həm də yerliləri sıxıntı və əziyyətə düçar etsinlər. Zatən rus mühacirlərinin vətənlərindən fariq

olub da, abu-həvasuna alışmamış və şərait məhəlliyəsinə öyrənməmiş, yad yerlərdə sükunət etmələri, özlərinə qabili-əhəmiyyət bir mənfəət verməyib çəkdikləri cəfanın, gördükləri səfaya dəyməz olduğunu özləri də qərar etməkdədirlər. Hal-hazırda isə torpağımızda yaşayan və yaşamaq istəyən rusların üzərinə bir də Azərbaycan təbəəligini qəbul etmək binaən əleyh Azərbaycan təbəəsi üzərinə gələn hər bir vəzifə və mükəlləfiyyəti qəbula məcbur olmaq təklifi gəlir. Bu da ki, məlumuz olduğu üzrə bir çox rusların və baxüsus bu ruslar həqqında "çalışmaq" vəzifəsində olan rus milli komitəsinin xoşuna gələn və qəbulu mümkün görünən əhvallardan degildir.

Boylə olan halda rus mühacirlərinin vətənimizdə yerli əhalinin mülk və malına, yer və torpağına şərik olub da özümüzü və hökumətimizi tanımaya-tanımaya istirahətə məşğul və ya cəfaya düçar olmalarında nə məna? Vətənimizdə rus mühacirləri iki şərtlə yaşaya bilərlər. Ya gərək Azərbaycan təbəəliyini təmamilə qəbul etsinlər və ya əcnəbi, yəni özgə dövlət təbəəsi sifətilə dolansınlar. Halbuki rus milli komitəsinin bizim istiqlalımızı və hökumətimizi rəsmən tanımaq istəmədigi bu şərtlərin heç birinə imkan yolu vermir. Rus milli komitəsi Azərbaycanımıza "Rusiyanın bir parçası" nəzərilə baxır. Biz də ki, bu işə razı olmadığımızı elani-istiqlal edib bilfel müstəqil bir cümhuriyyət şəklində yaşamağımızla ruslara da və bütün aləmə də əleni surətdə bildirməkdəyik. Bu məsələ isə artıq siyasət aləmində beynəlmiləl bir məsələ olduğu üçün rus milli komitəsinin idarəsilə degil, Cahan Sülh Konfransının təyini ilə qəti surətdə həll və fəsl ediləcəkdir. Cahan Sülh Konfransının da hər bir müzakiratı "millətlərin əsirlikdən azad edilməsi" şüarı əsasına müstəmənd olacağını bildigimiz üçün, biz dəxi əsirlikdən azad edilməklə layiq bir millət olduğumuzu bu məclisi-kübra təsdiq edəcək deyə qəviyyən etiqad etdigimizdən dolayı istiqlalımızı kəmal ilə yeritmək işində dəvam edirik...

Və bir də əlli min nəfər rus qaçqınlarının vətənimizə gətirilməsi bu vəxtdə ki, hər yerdə cürbəcür naxoşluqlar və mərəzlər əmələ gəlir – hifzüssihhə cəhətincə çox qorxuludur. Azar və naxoşluqların əvvəl-əvvəl qaçqınlar içində törətdigi və o qaçqınlardan da keçib yerli əhaliyə sirayət etməsi hər kəsin məlumudur. Ondan əlavə arada aclıq məsələsi də vardır ki, o nöqteyi-nəzərdə dəxi bu işə baxılarsa, onda da bir çox əndişələr meydana çıxır.



Bizim rus millətinə qarşı düşmənçiligimiz yoxdur, lakin zəmanə "başlı başın saxlasın" zəmanəsidir. Onsuz da milli komitənin və hər bir rusun məlumudur ki, qonşu cümhuriyyətlər də köçməgə məcbur olub da bizim cümhuriyyətə pənah gətirən rusları biz kəmali-mehmannəvazi ilə qəbul edib hər bir idarəmizdə qulluq vermişik və bu yolda o dərəcə "irəli getmişik" ki, idarələrimizin ən məsul vəzifələrini də onlara tapşırmışıq. Halbuki, mehmanlarımızın "ev yiyəsi"nə qarşı göstərməkdə olduqları müamilə, ümumiyyət etibarı ilə bir o qədər də qədirşünasanə degildir.

Məqsəd batinisi məhz istiqlalımıza qarşı bir nümayiş təhdidkaranə olduğu şübhədən ari olan keçən zabastovka həqqində rus milli komitəsinin münasibəti və bu komitənin naşiri-əfkarı olan "Yedinaya Rossiya"nın sözləri hələ yadımızdadır ki, kəmali-fəxr ilə deyirdi: "bu zabastovka rus hissiyyatı-milliyəsinin" vətənimizdə oyanmağına dəlalət edən bir vaqeədir. Bu "rus hisiyyati-milliyəsinin" vətənimizdə oyanmasına qüvvət vermək üzrə bir də kənardan gəlmə əlli min nəfərlik bir rus kütləsini də əlavə etsək, qabaqda başımıza nələr gələ biləcəgini indidən mülahizə etmək olar...

## DÜŞMƏNLƏRİMİZİN FƏALİYYƏTİ

Cavan Cümhuriyyətimizin xaricən hal və ovzanın necəligi getgedə aydınlaşıb bu gün müəyyən bir şəkil almışdır. Bugünkü dostlarımızın və bugünkü düşmənlərimizin kimlərdən ibarət olduğu artıq bizim üçün aydın və aşkar olan bir həqiqətdir. Bu isə bizdən ötrü yaxşıdır. Çünki düşmənin özu bir o qədər qorxulu degildir. Qorxulu şey düşmənin kim olduğunu və nerəmizə zərbə endirəcəyini bilməməzlikdir.

Hal-hazırda istiqlalımızın və bizzat özümüzün nə növ düşmənlər təcavüzatına məruz qaldığımızı görməkdə və bu düşmənlərin nerələrimizi təhdid altına aldığını da aşkara sezməkdədir. Bugünkü düşmənimiz üçdür. Ermənilərin daşnaksaqan partiyası, rusların "Vahid Rusiya"[1] tərəfdarları və bir də bunların "sosialist" namını daşıyan müxtəlif firqələri.

Daşnaksaqanların bizə qarşu ibraz etdikləri düşmənçilik əksərən cismani bir düşmənçilikdir. Onların fəaliyyəti, hüdudumuza soxulmaqla, əhalimizi, qırmaqda və başlarına ənva müsibətlər gətirib yer və yurdlarından fariq olmaq məcburiyyəti qarşusında qoymağa ibraz olunur.

"Sosialist" namını daşıyan firqələr isə bizimlə hələlik mənəvi bir mübarizə başliyub, bu mübarizədə əksərən fələ orqanizasiyalarına və müxtəlif sayuzlar təşkilatına istinad edir. Bunların fəaliyyəti nəticəsini keçən günlərdəki zabastovkalardan gördük.

"Vahid Rusiya" tərəfdarları isə Bakı rus milli komitəsindən ibarət olub "rus kəndləri mənafeyini müdafiə etmək" şüarı altında sabiq rus hökumətinin politikasını yeritməklə bizə və istiqlalımıza qarşı politiki bir mübarizə açmaq fəaliyyətini göstərirlər. Rus kəndlilərinin guya Azərbaycan məmurları tərəfindən "zülmlərə" düçar olduğu həqqində qəzetələrdə qışqırıq salmaq, müttəfiqlərə bizdən həqq-nahəqq şikayətlər etmək, Azərbaycanı rus mühacirləri ilə doldurmaq və hər bir şəhərimizdə, hər qəsəbəmizdə rus milli ittifaqı təşkili ilə hökumət içində bir hökumət olmaq işləri bunların fəaliyyəti nümunələrindəndir. Hətta özlərinə məxsus bir qoşun qüvvəsi əldə etmək niyyəti dəxi bunların fikrini ciddi surətdə işğal etməkdədir. Bu yolda böyük



ümidləri Biçeraxova və sabiq rus qoşununun bir para zabitanə qisminədir. Bunlardan əlavə rus milli komitəsi bu axır günlərdə başqa bir politika yeritmək işinə dəxi girişmişdir.

"Yedinaya Rossiya" adlı qəzetələrinin keçən günlərdəki bir nömrəsinin baş məqaləsində yazırlar ki, Azərbaycan istiqlalı məsələsini "həll etmək" üçün "referendum" kimi bir şey yapmalıdır: yəni ümumazərbaycan əhalisinə müraciət edib cavab istəməlidir ki, görək, aya, Azərbaycanın müstəqil bir hökumət şəklində yaşamalarını istəyirlər, yoxsa Rusiyaya mülhəq olmaq arzusundadırlar? Qəzetə əmindir ki, bu cürə müraciətin nəticəsində Azərbaycan məsələsi Rusiyaya mülhəq olmaq qərarı hasil edilər, çünki qəzetənin zənnincə Azərbaycanda yaşayan rusların Rusiyaya mülhət olmaq arzuları mühəqqəq bir əmirmiş, Azərbaycandakı ermənilər dəxi Azərbaycanın Rusiyaya mülhəq olmalarını istəyəcəklərmiş. Azərbaycan müsəlmanları isə genə əksəriyyətlə ilhaq tərəfdarı olacaqdırlarmış ondan ötrü ki, Azərbaycan toprağında Azərbaycan hökumətindən və Azərbaycan istiqlalından narazı olan müsəlmanlar çox imiş. Bu cürə bir politika yeritmək niyyətilədir ki, həman qəzetənin srağagünkü nömrəsində boylə bir xəbər oxuduq ki, guya Muğan çölündə yüz nəfər müsəlman və həştad nəfər rus kəndlilərindən mürəkkəb bir ictimai vaqe olub, Muğan toprağı həqqında müzakirədən sonra bu qərara gəlibdirlər ki, "Muğan çölü vahid Rusiyanın ayrılmaz bir hissəsidir".

Əlbəttə, hələlik Azərbaycan dövləti daxilinə keçməmiş olan Lənkəran uyezdi və Muğan çölündə ağalıq edən ruslar, buraların müsəlmanlarını və baxüsus işdən xəbərdar olmayan kənd əhlini qandırmaq, cəbr etmək və aldatmaq kimi müxtəlif vasitələr ilə istədikləri "qərarlar" ittixazına məcbur edə bilər. Vəilla yüz ildən artıq bir müddət ərzində rus istibdadının olmazın məşəqqətlərinə məruz qalan müsəlman, öz xoşuna qalsa, təkrar bu məşəqqətlərə təhəmmül etməgi azad və asudə yaşamağa tərcih verirmi? Buna kim inanar? Heyvan heyvanlığı ilə cəbr və zülmdən qaçmağı özünə borc bildigi halda, Muğan çölünün müsəlman kəndliləri bilməzlərmi? Halbuki orada bugün ağalıq edən qoşun hissələrinin vurub dağıtmaq, kəsib qırmaq kimi zülmlərinin acılığından şikayət edən Lənkəran və Muğan müsəlmanlarının fəryadları qulaqlarımızı dəng etməkdədir!..

Bəz düşmənlərimiz və onların fəaliyyəti gözümüz önündədir. Vəzifəmiz hər düşmənin fəaliyyətinə qarşı əks fəaliyyət göstərmək və bu növlə onların fəaliyyətini atil etmək və əsərsiz buraxmaqdan ibarət olmalıdır. Bu yolda hökumətimiz ilə bərabər camaatımız dəxi kəmali-ciddiyyətlə işləyib hər kəs və hər bir partiya bu mübarizə işində əlindən gələn köməgi hökumətimizdən müzayiqə etməməlidir. O köməklik nədən ibarət olması xüsusunda fikir və mülahizeyi-acizanəmizi xüsusi bir məqalə surətində gələcək nömrəmizdə ənzari-qareinə təqdimini vəzifəmiz cümləsindənədd edirik.



# CƏMAƏT KÖMƏKLİGİ

Yüz il fəzləsilə üstümüzdə davam edən rus təhkimi bizim hər bir tərəfimizə mane olan kimi dövlət və vətən yolunda işləmək, mənfəətli ictimai təşəbbüsatda bulunmaq və bu növ işlərə adət etmək həvəsimizi dəxi qəlbimizdən bilküllüyyə salıb məhv etmişdi.

Rusiya millətləri içində ögey oğul məqamında tutulan və bu ögeyligin bütün-bütünə acılıqlarına təhəmmül edən bir millətdə dövlətli və içtimai işlərə qarışmaq həvəsi olardımı? Rus hökumətindən əlavə rus camaatinin özü də bizlərə öylə bir həqarət gözüylə baxmaqda idi ki, bizim onlarla bərabər ümumvətən mənafeyi yolunda işləməgə heç bir meylimiz ola bilməzdi. Doğrudur, özümüz "lütfən" həvalə edilən alçaq məmuriyyətləri sadiq təbəə olduğumuza görə kəmali-sədaqət ilə ifa edirdik, əmma qalan ictimai və dövləti işlərdə kənarda durub bu yolda işləyən ruslara və sairələrinə biganələr kimi kənardan tamaşaçı surətində qalırdıq.

Bunun nəticəsi idi ki, biz Azərbaycan islamları vətən yolunda işləmək, camaət işinə girişmək, dövləti işlərdə iştirak etmək kimi təşəbbüsatdan kənar durub, bu yolda lazım olan tərbiyə, tərəqqi və təcrübədən məhrum qaldıq.

Əmma bu gün biz bu cürə dövləti və ictimai işlərə girişməgə məcburuq. Bu cürə işlərə kənardan baxmağa və biganə qalmağa həqqimız yoxdur, çünki biz daha özgə vətənin ögey oğlu degilik. Öz vətənimizin doğma oğluyuq. Vətən də bizimdir, hökumət də bizimdir, camaət də bizimdir. Bugündən boylə hər bir əmri məhz hökumətin boynuna atmaq, "hökumət özü bilər" demək, hökuməti təkbaşına buraxmaq, hökumətə əldən gələn köməgi etməmək mənafeimilliyyə və istiqlaliyyətimizin və həm də şan və şərəfimizin təmin və təyidi yolunda işləməmək, müstəqil yaşamaq iddiasında olan bir millət üçün günahdır. Boylə günah ki, onun cəzası istiqlal və istiqbaldan məhrum olmaq dərəcəsində ağır və ağırlığı qədər də şayani-yas və kədərdir.

Burasını unutmamalıdır ki, hökumətimiz cavandır, siyasiyat cahandidəsi degildir, dövlət idarəsi işlərində təcrübəsi azdır. Bununla boylə üzərinə həvalə edilmiş olan dövlət yükü baxüsus bu zəmanədə düşmənlər hüçumu qarşısında dedikcə ağırdır. Bu ağır yükü cavan

hökumətimiz degil, təcrübə qüvvəsi ilə bəlkə millətimizə məxsus olan və ulu türk babalarımızdan bizə irs qalan hakimiyyət və səltənət hissimizin rəhbərliyi ilə çəkə biləcəkdir.

Doğrudur, bu yolda hökumətimizin daha müəyyən kömәgi vardır ki, o da içimizdən seçdigimiz parlamandır. Lakin parlamanımızın köməkligi dəlil və bələd olmaq, hökumətə yol göstərməkdən ibarət ola bilər, yəni ağır yüklə yüklənmiş olan hökuməti dağa-daşa, dərəyə, təpəyə salmayıb, rast və rahat bir yol ilə apara bilər. Bu isə hökumətin yolunu rahlandırarsa da yükünün yüngüllügünə təfavüt etməz. Bu yükü ancaq və ancaq camaət kömәgi, xalq hümməti bir dərəcəyə qədər yüngülləşdirə bilər. Bu öylə olan surətdə bu kömәgi hökumətdən müzayiqə etmək zəhi biinsaflıqdır.

Camaət kömәgi nədən ibarət ola bilər? Bu suala verilən cavabı aydınlaşdırmaq üçün hökumətimizin uzərinə həvalə edilmiş yükü təhlil edək. Bu yük bütün dövləti işləri idarə edən nəzarət, yaxud nəzarətlərdən ibarətdir. Daxili işlər, xariçi işlər, hərbi işlər, maliyə işləri, yol və gediş-gəliş işləri, maarif işləri, ərzaq, poçta-teleqraf və sairə, və sairə; deməli, camaət bu işlərdə hökumətə kömək etməlidir. Məsələ hərbi işlərimizdə əsgərlərimizin əgnini layiqincə geydirən, əskəri işlərə məxsus bir fond əmələ gətirən, fərarilik kimi rəzalətlərin qabağını alan, vətən müdafiəsi yolunda bir çox işlər görə bilən "müdafieyi-milliyə" kimi bir cəmiyyətimiz olarsa, maarif vəzarətimizə əl yetirmək, dilimizin islahına çalışan, kitablar düzəldən ədəbiyyat və sənaye nəfisəmizi artıran, qabil müəllimlər hazırlayan və ən kiçik kəndlərimizdə boylə məktəb açılmasına himmət edən "maarif" adında bir təşkilatımız ciddi surətdə işləsə, maliyyə və ticarət vəzarətlərinə mədəd verməkdə xəzinəmizə qızıl və gümüş pul dolmasına, maliyə və ticarət işlərinin rəvacına və bu işlərdə baxüsus müsəlman ünsürlərinin əlaqədar olmasına xidmət edən bir "ticarət və maliyə komisyonumuz" olarsa, daxili işlərdə polis adamlarının əgri, oğru, rüşvətxor, dələduzlardan təsviyyə edilməsinə, yolların qaçaqquldurlardan azad edilməsinə və hər yerdə sakitlik və rahatlıq bərpasına cəhd edən "əmnü-asayiş" cəmiyyətimiz olarsa, xülasə, hər bir vəzarətin idarəsinə mütabiq və münasib olan və bu yolda vəzarətlərə lazımınca kömək yetirən cəmiyyətimiz, komitələrimiz, komisyonlarımız və növbənöv təşkilatlarımız olarsa, bilirsiniz necə bir



surət ilə hər kəsi heyran edəcək dərəcədə tərəqqi edib məmur və müntəzəm bir dövlət, mədəni və asudə bir cümhuriyyət olmaqla qonşularımızdan əlavə Yevropa əhlinin dəxi bizə ehtiram edə biləcəgi bir vəziyyət alırıq. Bu isə istiqlal və istiqbalımızın ola bilsin ki, daimi bir surətdə təminini mucib olub, vətənimizi və gələcək nəslimizi əsirlik və yesirlik zülmündən, bir kərəmlik məsun və azad edib biz gördüyümüz zülmləri, çəkdigimiz rəzalətləri, keçirdigimiz fəlakətləri daha onlara dadızdırmaq və göz açıb da müstəqil yaşayan bir millət olduğunu gördülər. Pəs bu yolda camaətimizin kömәgi və himməti böyük şərtdir.

Lakin bir şeyi unutmamalıdır ki, camaətimizin müxtəlif cəmiyyətləri vasitəsilə dövləti işlərdə iştirakı hökumətimiz üçün ancaq və ancaq kömək mahiyyətində olub, haşən nəuzubillahi xələl yetirmək və əngəlləri törətmək olmasın. Boylə olmasın ki, hökumət: "Məra bexeyre to omid nist, şərr mərəsan"[1] dimәgə məcbur qalıb, ağır yükünün zəif bədənində daha da ağırlaşmasını hiss etsin. Biləks yükünün yüngülləşdigini və qüvvətinin artdığını görsün ki, sürətlə irəliləyib vətən və millətimizi tezlik ilə mənzili-məqsudə yetirə bilsin.

## TƏƏSSÜRAT

Parlamanımızın keçən günkü iclasından hasil etdigim təəssürat keçənlərdəki kimi zövq aldığım xoş təəssüratımın yerini verə bilmədi.

Parlaman mənə:

Keşiş həmişə kötəyimiz!

Dedirtdi.

Qərəz, heysiyyəti-milliyə təzmin edilmədi. Qəlbimdə bir acılıq qaldı. Bir kəlmə:

Sindım!

Rusca danışmalı imiş!

Raboçi klubda rus fələləri müsəlman natiqlərindən rusca danışmağı tələb edirmişlər. Parlamanda dəxi hərdəm bunu tələb edənlər olmayır degil, fəqət tələb edənlər ruslar degildir.

"Rusca, rusca!" – deyə hərdəm yerlərindən əmr verən məbus əfəndilərimizi mən başa düşürəm. İstəyirlər ki, qeyri-müsəlman məbusanlarımız həqqində əvvəla adi "nəzakət" rəsmiyyəti icra edilsin və saniyən danışılan məsələlərdən, təklif olunan qərarlardan onlar da müxbir olub işdə iştirak etsinlər.

Buna heç bir sözümüz yox! Hələlik bu dilə möhtacıq və istimalına da məcburuq. Lakin rusca danışılmasın, rusca ancaq tərcümə edilsin. Baxüsus Lənkəran, Muğan, İrəvan, Qarabağ və sair ermən mezalimine məruz qalan yerlərdən alınan kağızlar, sənədlər hər dəfə mütləq rus dilinə tərcümə edilib qeyri-müsəlman məbuslarımız üçün oxunsun. Lakin adi söhbətimizi baxüsus məbuslar ilə rus əfəndi arasında və ya məbuslarımızın öz aralarında təati edilən sözləri rusca sögləməgə heç bir ehtiyac yoxdur.

– Pozvolte mne dva slova!

– Vı o çem?

Ya na sçot zayavleniye çlena[1]...

Bunun kimi mükalimeni parlamanda rusca keçirtməgə nə hacət? Bir halda ki, danışan da türkdür, danışdırılan da...

İrəvan hadisatı xüsusində hökumətə "zapros" verildi. Mən də rusca danışmağa başladım, lakin qərəzsiz degildir. Bu "zapros" sözü parlamanımızda ümumiyyət etibarilə "istiza" və "izahat" kimi başqa



mənaları ifadə edən ərəbcə kəlmələrlə tərcümə edilir. Dünən məbusamız və bu gün vəzirimiz olan sosialist Səfikürdski cənablarından bu "zapros" sözünün "sorqu" sözü ilə ifadəsini dəfələrlə eşitmişəm və çox da xoşuma gəlibdir. Məbuslarımızın da xoşuna gəlsə idi bu sözü qəbul edərdik. Zatən bu sözü Səfikürdski cənabları özündən çıxartmiyubdır. Dilimizin mənbə sərvəti olan və rus dili tələbəsindən bir dərəcəyə qədər kənarda qalan kəndlərimiz də yazıçılarımızdan bir çoxunun zənn edirəm səhv və xəta olaraq "souq-sual" surətində yazdığı "sorğu-sual" sözü vardır. Bu söz kəndlilərimizin ağzında çox işlənir.

– Məhəmmədhəsəni tutub sorğu-sualsız dama saldılar. Zənn edirəm bu "sorğu" sözünü "zapros" yerinə Səfikürdski ilə bərabər hamımız dəxi işlətsək, uduzmarıq ki, udarıq. Türkiyə məclisi-məbusanında "zapros" sözünə "təqrir" dinləndigi qəzetələrdən anlaşılmaqdadır. Xülasə, İrəvan hadisatı xüsusində hökumətə sorğu verildi. Sorğu verən əfəndinin ifadatında həm də o tərəfin zavallı müsəlmanlarından gəlmiş istimdad fəryadı ilə dolu olan məktublarında İrəvan hadisat eləməsi təsvir olunurdu.

...Bu təzə xəbərləri dinləyən parlaman əzalarında nə bir təəssürat, nə bir ruh incikligi, nə bir yas, nə bir kədər, nə bir nifrət, nə bir etiraz əlaməti müşahidə edilmədi.

Danışılan ruhsuz sözlərdən də çıxan nəticə bu oldu ki:

– İngilislərə müraciət edək...

Genə ingilislərə!

Günü bir gün bu ingilislərin bizə qaya ağırlığında bir söz deyəcəgindən mən çox qorxuram!

Müntəziri və arzusunda olduğumuz qızğın bir nitqi əvəzində beş-on kəlmə "xala-xətrin qalmasın"la bizi qənaətləndirmək istəmiş olan Məhəmməd Əmin Rəsulzadə cənabları istisna olmaq üzrə firqə "lider"lərimizin bir qardaş fəlakəti xüsusunda ixtiyari-sükut etmələri bizcə anlaşılmaz bir sətir, açılmaz bir müəmma hökmündə qaldı...

İrəvan, Lənkəran, Qarabağ və bu kimi hadisələr həqqindəki məsələlər nə "firqəvi" məsələdir ki, deyək o firqə tərəfindən verilən sorğuya bu firqənin dəxli yoxdur. Nə bir "diplomatiki" məsələdir ki, bunun üçün "piş əz voxt" evdə hazırlaşmaq lazım gəlsin. Bədbəxt

qardaşlarımızın daşnaklar təhəkkümü və təzəllümü altında tağətfərsa fəlakətlər çəkdigindən mütəəssir olub da acınmaq, yanmaq, qızmaq və əhvali-ruhiyyələrini münasib sözlə ifadə etmək və bu işə hökumətimizin də, camaətimizin də, müttəfiqlərimizin də, rusların da, yəhudilərin də hər insaf və insaniyyət sahibinin diqqətini cəlb etmək çətin bir əmrmi idi!?

Əfvi-ümumi məsələsi araya gəldi.

Parlamanımızın birinci iclasında "İttihad" firqəsi tərəfindən irad edilmiş olan bu məsələ bu səfər həll olundu. Əfvi-ümumi, daha doğrusu, siyasi mücrimlərin əfv edilmələri xüsusunda hökumət tərəfindən tərtib edilmiş qanun layihəsi parlamanca qəbula keçdi.

Sonradan bu məsələni qurdalayub da vəziri bir taqım lüzumsuz bəyanata məcbur etmək yersiz idi. Zira vəzir Səfikürdski cənabları siyasi mücrimlərin kimdən ibarət olduğunu öylə bir şəkildə bəyan etdi ki, siyasi mücrim ilə adi caninin təfavütünü seçmək çətin oldu.

Səfikürdski çənabları bunu unutmasın ki, hökumətə qarşu silah ilə qiyam etmənin bomba və dinamit gizlətmənin, meşə qırmağın nə dərəcədə siyasi cürm və nə dərəcədə adi bir çinayət olduğunu əhalimiz içində başa düşməyənlər hələ çoxdur.

Sosialistlərdən sağ və fələ məsələsində də onlardan bir az uzaq olan "Müsavat" firqəsinin sosialist vəzirə fələlər məişətinin çətinligi həqqində sorğu verməsi məzəli bir keyfiyyət idi.

Bu xüsusda "Müsavat"çılar ilə sosialistlərimiz arasında bir bala "atışma" vaqe oldusa da nəticəsi "səlamatlıq" ilə keçdi. Müsavatçı Kazımzadənin[2] fələ həyatının üsrəti həqqindəki qızğın nitqinə cavab verən məsai-vəziri sosialist Səfikürdski cənabları özünü sındırmadı, dedi: "sizə fələ məişəti həqqində elə həqiqətlər söylərəm ki, "başınızın tükü ayağa durar".

Filvaqe Səfikürdski cənabları bu surət xüsusunda nitq irad edərkən öylə sözlər söylədi ki, özgələri bilmirəm, əmma mənim başımın tükü ayağa durdu. Məsələn, fələlər həyatının, ümumiyyətlə, hər bir yerdə, ağır bir surətdə keçməsini nəql ilə sözünü bolşevik fələləri məişətinə ətf edərək dedi ki, bolşevik fələlər hamıdan yaxşı dolanırlar. Və bu sözü mənidar bir surətdə təkrar etdi.

– Bolşevik fələlər yaxşı dolanırlar.



– Bizim fələlərə də yaxşı dolanmaq lazımdır. Ona görə yaxşı dolanmaq üçün bolşevik olmaq lazım gəlir!

Elmi məntiqdə boylə çıxır.

Təcrübədə də fələn boylə çıxarsa, onda nəinki bir mənim bəlkə bir çoxlarının başının tükü ayağa durar!

Hər halda "Müsavat"çıların fələlərimiz həqqindəki ciddiyyətlə çarpışması fələ ehtiyacatının, fələ təşkilatlarının dalınca olmaları son dərəcə şayani-sərvər və təsəlli bir fəaliyyətdir.

Gəldi Lənkəran faciəsi məsələsi, Lənkəran məbusu Hacı Mirzə Səlim Axundzadə[3] cənabları yürəginin dərdini, vətəninin ağlar halını, Lənkəran müsəlmanlarının biganələr əlindən çəkdigi zülm və sitəmi parlaman əzalarının hüzurunda açıb diməgə axır ki, fürsət tapdı.

Hacı Mirzə Səlim cənabları nitqinin "müqəddəməsinin müqəddəməsini" boylə başladı:

Nalera hərçənd mixahəm ke pünhan bekonəm<br>
Sinə miquyəd ke, mən be təng amədəm, fəryad kon[4]

Bundan əlavə məbus əfəndi nitqini ərəb şerlərilə dəxi təzyin edir, boylə ki:

Və kullu yədin əmvanə visalə Leyli<br>
Va Leyli lə tuqarru ləhum bizəkə<br>
İzə ətəmmət dumuun min uyunin<br>
Təbəyyənə mən bəkə ay mən təbəkə.[5]

Sonra Lənkəran müsəlmanlarının rus "demokrat"ları əlindən çəkdigi əza və cəfaları yanıqlı bir dil ilə söyləməgə başladı: "Lənkəranlılara azadlıq və kömək lazımdır, deyə hər kəsi köməgə dəvət edərkən ruznamələri dəxi bu köməgə cəlb arzusuyla qəzetə yalnız bir firqənin naşiri olmayub da bitərəfanə surətdə hər kəsə danışmaq imkanı verməlidir",– dedi. Məbus əfəndinin bu işarə və kinayəsi hansı ruznaməyə aid olduğunu bir dürlü anlamadıq.

Əlbəttə, bizim qəzetəyə ola bilməz! Çünki qəzetəmizin firqə və partiya xaricində rəsmi bir orqan olduğu hər kəsə məlumdur. Hər günkü möhtəviyyatından məlum olduğu üzrə vətən abadlığı, millət səlamatlığı camaət tərəqqisi, dövlət intizamı ilə bərabər istiqlal və

genə də istiqlal şüarlarını virdi-zəban edib də bunun hüsulində əlindən gələn qədər çalışmaqda olan qəzetəmiz bu dairədə yazılmaqda olan məqalələrə sütunlarını bir ananın balasına qarşu açdığı qucağı kimi kəmali-meyl və məhəbbətlə açıbdır, vəssalam!

Əlqərəz, Hacı Mirzə Səlim əfəndi Lənkəran faciəsindən bir şəmmə açıb nəql elədi.

Bu dilsuz həqiqətləri dəxi parlaman əzalarımız İrəvan hadisəsi kimi heysiyyəti-milliyyədən ari qeydsiz bir tərzlə qarşıladılar. Genə nə bir nitq, nə bir hərəkət...

Mən güman edirdim ki, bu gün həvanın soyuqluğu parlaman əzalarımıza o dərəcədə əsərbəxş olubdır ki, bu soyuqluq degil, yalnız bir bədənlərinə, bəlkə ruhlarına da keçibdir, ona görə bugünkü iclas axırına kimi "soyuq" keçəcəkdir. Lakin cəvan və fəal məbuslarımızdan Əhməd Cövdət[6] əfəndinin bir saətlıq əsl "parlamanı" bir nitqi gümanımı səhvə mübəddəl etdi. Çünki natiq əfəndinin istər nitqində, istər bədənində, istər ruhunda "üşümək" əsəri yox idi. Biləks, qızqınlıq var idi.

Əhməd Cövdət əfəndinin bu hərarətli nitqi nəyə dair idi? Nəyi və kimi bu hərarət və sәlasətlə müdafiə edirdi?

Stansiyalarda soyulmuş bir nəfər Sarkisyanı və dəmiryol mövqiflərinin birində guya öldürülmüş olan üç nəfər erməni!

Qışın bu soyuq günlərində buzlu dağlara pənah aparmış, Araz çayının qar sellərinə qurban olmuş yer və yerlərindən, mülk və mallarından, can və başlarından top və pulemyot güllələri zoru ilə məhrum edilmiş, əsir və yesir günündə dağlara, daşlara, dərələrə, təpələrə səpilmiş olan məzlum və məzlumlardan da məzlum olan bədbəxt qardaşlarımızın, ana və bacılarımızın müdafiəsi həqqində bir söz boylə dilinə almağı özünə "layiq" görməmiş olan məbus əfəndimizin daşnaklar mənbəyindən xüsusi bir qərəz ilə nəşət edən yalan və acı bir yalan olduğu rəisül- vüzəra Fətəli xanın bəyanatından bəlli olan xəbərlər həqqində kəmali-səlasətlə hərraflıq etməgi bənə o qədər ölüm bir təsiri-yanıqlı bir acıq verdi ki, nitqi axırınadək dinləmək taqətim qalmadı...

Türk yürəkli və sosialist fikirli Əhməd Çövdət əfəndinin fəal və çalışqan bir zat olduğu məlumuzdur. Və hər kəsə bilafərq millət,



insaniyyət nəzəri ilə baxmaq fikrinin aliliyi, nə də mötərifik. Lakin iki nəfər insandan iki nəfər adam övladından birinin məzlum və məflum olduğu dünya işığına baxan gözümüz gördüyümüz halda və o birinin də məzluma nisbətən qeyri-məzlum bir və aləmi-batini səsini də dərk edən bəsirətmiz ilə vəziyyətində bulunduğunu dərk etdigimiz təqdirdə məzlumu qoyub da qeyri-məzlum həqqində çalışmağımız insaniyyət fikrinə mütabiq və elmi məntiqə müvafiq olmadığı surətdə boylə eləməyin mənası nədir, əcəba?

## EHTİYAT LAZIMDIR

Bizi istəməyənlər azadlıq və istiqlalımıza qarşı düşmənanə bir vəziyyət alanlar təbiidir ki, biz ilə özləri arasında bir divar çəkilməsinə və ya dərin bir dərə qazılmasına səbəb oldular ki, o divarın və o dərənin adını etibarsızlıq divarı və ya etimadsızlıq dərəsi demək caizdir.

Təbii bir əmrdir: istiqbalımızı, azadlığımızı istəmiyənlərə biz etibar və etimad göz ilə baxa bilmərik. Biləks, onlar bizim gözümüzdə həmişə şübhə və sui-zənn içində olacaqlar. Bunun nəticəsi olaraq biz bu adəmlərin ya paytəxtimizdə, ya Azərbaycanımızın başqa yerlərində siyasi-ictimai, hətta iqtisadi işlərdə iştirak etmələrinə yan-yan baxmağa və ehtiyatlı olmağa məcbur qalaciyiq.

Həqqımız də olacağdır.

Kim inana bilər ki, vətənimizin istiqlalını tanımaq istəməyən bir şəxs və ya bir cəmiyyət gördügü işlərində və tutduğu əməllərində, vətənimizin mənafeyini mülahizə etsin? Və ya hökumətimizə kömək qılmaq nöqteyi-nəzəri ilə işə mübaşir olsun?

Və kim buna inanmaz ki, bu adamların, bu cəmiyyətlərin hər bir təşəbbüsatlarında, hər bir fəaliyyətlərində məqsədlər yalnız bir şeydir. Bizi düşürmək, istiqlaliyyətimizi puç etmək, özlərini təkrar ağa və bizləri genə də qul halına salmaq?!

Əgər bunların bəzi-bəzi işlərində hərdənbir mənfəətə, əmma mülahizəsi dərk edilirsə və bu işlərinin nəticəsində vətənimiz üçün məxsusi bir mənfəət olacağı şübhəsiz görünürsə, biz genə bundan şadlanıb sevinə bilməyəcəyik, çünki bu surətdə də genə onların məqsədi həman məqsəddir. Hökumətimizin şanını kəsr etmək və nüfuzunu nəzəri-amadə qırmaq və əsərsiz qalmaq.

Pəs bundan dolayıdır ki, bizi tanımayanların, bizim bir para daxili işlərimizə qatışması bizi nəinki sevindirmir, bəlkə bir taqım şübhə və əndişələrə salır.

Rus milli komitəsinin mühacirləri vətənimizdə yerləşdirmək bəhanəsiylə hərdəm hökumətimizi təciz etməsi və bu kibi işlərdə əksərən xudsəranə təşəbbüsatda bulunmasına kimi bizdən ötəri arzu olunmayan nəticələr verməsinə Muğan səhrası kəndliləri ictimaisinin "məşhur" qərarından anlamaq olar ki, bu qərar bu gün kağız və qəzetə üzərində olmaqla bizi bir o qədər incitmiyirsə, səbah felən icra edilərsə, istiqlalımıza vurulan zərbənin ağırlığı bizi incidər və bəlkə dövlətimizin bədənində sağalmaz bir yara olub qalar.



Eşitdigimizə görə öylə bir "kəndlilər ictimainin" buralarda da çağrılmaq fikri var və bəlkə bu yolda lazımi təşəbbüsatda bulunmaq üzrədirlər.

Keçən zabastovka füqərasında Azərbaycan müsəlman fələ və əmələləri vətənpərvər və istiqlalpərəstlik imtahanlarını parlaq bir surətdə verməklə qəlbimizə böyük bir təskinlik verdilər və ziraətçilərimizin dəxi bu kibi imtahanlarda fələ və əmələlərimizdən geri qalmayacaqlarına kəmali-itminan ilə inanmaqdaik, əmma bununla boylə imtahana hazırlaşmaq böyük bir şərtdir. Binaən əleyh hazırlatmaq üçün də ustadlar lazımdır. Ümid edirik ki, fələlərimiz təşkilati yolunda ciddiyyət ilə işləyən partiyalarımız, kəndlərimizi dəxi hazırlaşdırmaq işində mahiranə birər ustadlıq göstərməklə, öz böyük vəzifələrini layiqincə ifa edəcəkdirlər.

Bizi istəməyənlərin hər bir işlərindən və hər bir təşəbbüsatlarından məqsədləri mənfəət əmmə olmayıb da yalnız bizi düşürmək və istiqlalımızı pozmaq olduğunu aydın və aşkara bir surətdə bilib də bu barədə yəqinlik hasil etmək üçün şəhərimizdə 12 yanvarda təyin edilmiş "fələlər konfransı" məclisinin o günü naməlum səbəblərə görə təxir edildiyi keyfiyyətinə diqqət edilsin.

Həman günu məclisə gələn müsəlman fələlərinin ədədi iki yüz nəfərlik olur.

Bundan qabaq on beş nəfərin vücudilə iktifalanıb da məclisi qanuni hesab edən çurayevlər[1] bu səfər iki yüz nəfər müsəlman fələsinin yığılmasını görüb də bir bu qədər cəmaətin pul və yol kirayəsi xüsusunda çəkmiş olduqları zəhmət müqabilində nə edirlər?

İclası "atminit" ilə məclisi pozmaq kimi qaba və dürüşt bir nəzakətsizlik göstərməyi müsəlman fələləri həqqında rəva görürlər...

Bu kimi hərəkətləri gördükdən sonra məzkur çurayevlərin "fələ qardaşlar, biz sizin mənfəətiniz üçün əlləşirik" kimi riyakaranə sözlərinə hansı müsəlman fələsi inana bilər? Və onların iqtisadi də olsa zabastovkalar dəvətinə hansı Azərbaycan əmələsi qulaq asa bilər? Və bundan son ra bizim fələ və əmələlərimiz curayevlərdən

uzaq durmağı qəbul etsələr – ki etməyə bilməzlər – ümumfələ sinfini ayırmaq günahı kimin boynuna düşər? Və genə bundan sonra necə olar ki, biz onlara şübhə və sui-zənn ilə baxmiyarığ?

Həman şübhə və sui-zənnimizi mucib olan işlərdən biri də dəmiryol işlərini təftiş etmək məsələsidir.

Bugünlərdə yenidən meydana çıxan və heç əvvəldən də məsləki xoşumuza gəlməyən "Bakinets"[2] qəzetəsində oxuyuruq ki, Azərbaycan dəmiryol ərzaq şöbəsi işlərini təftiş edən komisyon əhaliyə müraciət edib iltimasda bulunub ki, bu ərzaq şöbəsində hər bir sui-istemalat olduğunu görüb bilənlər varsa həman komisyona xəbər versinlər.

Eşitdigimizə görə bu komissiyanın içində öylə adamlar var ki, Azərbaycan dəmiryolunda sui-istemalat degil, dəmiryol lap yerli-dibli bərbad olsa da veclərinə gələn və yükləri yanan degildirlər. Pəs komisyon qurub "təftiş" qılmaqdan məqsəd genə həman məqsəddir.

Çox istərdik biləк ki, aya bu komisyon dəmiryol nəzarətinin iznilərni qurulubdur və bir də dövlətmizin təftiş nəzarəti dura-dura bu cürə komisyonlar "köməginə" ehtiyac varmı? Ehtiyac varsa, bu komisyonın əzalarını kim seçibdir, kim təyin edibdir? Bu komissiya da başımıza zabastovka oyunu açan dəmiryol xidmətçiləri "rol" oyniyorlar? Bu komisyonın öz işlərinə, öz hərəkətlərinə nəzarət tərəfindən bir göz yetirən varmı? Təftişdən murad, sui-istemalatı təhqiq etməkdən başqa özgə bir məqsəd yürüdülmədiginə hökumət tərəfindən layiqincə diqqət olunurmu?

Qərəz, bu cürə məsələlər bizi çox maraqlandırır. Ümidvarıq ki, nəzarətimizdən başqa parlaman əzalarımız dəxi bu işə balaca da olsa, bir əhəmiyyət yetirib, işin necəligindən xəbərdar olmağı vəzifələri cümləsindənədd edərlər.



## KİNYAZ TUMANOV İLƏ MÜSAHİBƏ

Erməni intiriqalar əleyhinə yazmağda olduğu ciddi məqalələri ilə məşhur olan gürcü mütəfəkkirlərindən "Qruziya" qəzetəsinin mühərriri general Tumanov cənabları ilə bir para məsələlər həqqində müsahibədə bulunduq. Knyaz cənabları bir neçə gündür ki, Tiflisdən şəhərimizə varid olubdur.

Əvvəl-əvvəl bizi maraqlandıran erməni-gürcü müharibəsi oldu. Knyaz cənablarının bu xüsusdaki ifadatından böylə məlum oldu ki, davanın əvvəllərində ermənilər gürcülərə böyük güc gəlibdirlər. Və bir çox tələfat veribdirlər. Gürcülər müharibəyə hazır degilmişlər. Bu işdə əhali hökumət ricalını müqəssir görür, çünki hökumət ricali hər dəfə cəmiyyəti indidən inandırırmış ki, ermənilər tərəfindən qardaş-qardaşı qırmaq kimi təşəbbüs baş verə bilməz. Lakin görünür hökumət əhli erməni başçılarının intriqalarından qafil imiş. Bizim hökumətin qəfləti müqabilində erməni hökuməti, hökumət olaraq səfərbərlik elan edib qoşunlarını davaya hazırlayırmış. O idi ki, müharibə iddiasında qəflətən üzərimizə tökülüb bizi bərk sıxdılar. Hökumətimizin icalətən sövq etdigi əskəri isə cavan və təcrübəsiz olduğundan dəvam gətirə bilmiyordi. O idi ki, camaət özü tez imdada yetişib dava görmüş, müharibə etmiş könüllülərimizi yığıb dəstə-dəstə meydana – müharibəyə göndərməklə bizi erməni hücumundan qurtardı. Könüllülərimiz əsgərlərimiz ilə bərabər ermənilərı böyük bir qəhrəmanlıqla bizim yerlərimizdən çıxardıb öz sərhədlərinədək qovdular. Qovduqdan sonra erməni qoşununu çevirmə isuli ilə əhatə edib təmam və kəmal yoğurub və ya əsir edəcəklər idi ki, bu halda sülh teleqramı yetişib, qoşunumuzu dayanmağa məcbur etdi. Lakin qoşun sülhə razi degil idi.

Sülh işini araya salan müttəfiqlər nümayəndələri oldu. Əsnai müzakirədə sülh şəraiti danışılarkən erməni sözündən bu çıxdı ki, ermənilər qoşunlarını hələ tərxis etmək istəmiyorlər və əlavə genə də səfərbərlik xəyalındadırlar. Bunların bu cürə sözləri gürcü vəkillərini həyəcanlandırıb etirazına səbəb olmuşdur. Öylə olsa biz də səfərbərlik halında qalacağıq deyə müqabilə etmişdir. Lakin ermənilər bu növ tədbirlərinin səbəbi gürcülərdən ehtiyat etmək olmiyub da, başqa bir

yerdən qorxu var deyə izahat vermişdirlər. Bunun üzərinə ingilis nümayəndəsi mütəğəyyir olaraq ermənilərin bu ifadatını "biməzmun" deyə adlandırmaqla erməniləri utandırmışdır.

Zaqatala həqqındaki bizimlə Gürcüstan arasında olan balaca mübahisə həqqində knyaz Tumanov cənabları bu rəydədir ki, bu cürə məsələlər heç vəxt Gürcüstan ilə Azərbaycan arasında təzad törədə bilməz. Gürcüstan hökumətinin Zaqatalanın hamısını mənimsəmək fikri yoxdur. Mübahisə Zaqatalanın cüzi bir hissəsi üstündə ola bilər ki, o da müzakirə və müsalihə ilə həll olunub gedər. Gürcülərin "tarixi" dəlillərindən və azərbaycanlıların "etnoqrafi" sübutlarından daha gözlü əhalinin öz meyl və xahişidir ki, məsələ həllində bunu nəzərə almalıdır. Knyaz əmindir ki, Gürcüstan ilə Azərbaycan arasında hər nə mübahisəli məsələlər varsa, hər iki tərəfin rizalığı ilə həll olunub, heç bir vəxt xüsumətə məhəl qalmaz.



## TƏƏSSÜRAT

Parlaman üzvü olan bir şəxs eyni zamanda da dövlət məmuru ola bilərmi?

Bu suala "Müsavat" fraksiyasının cavabı boylə olmuşdu:

– Xeyr, ola bilməz, vəzirlərdən səva.

"Müsavat"ın bu nəzəri məbuslarımızdan bir parlamanı təşvişə saldı: O idi ki, parlaman əzasından Vansoviç[1] cənabları kürsüyə – xitabətə çıxıb dəvi vəkillərinə məxsus olan bir ədə ilə şirin bir nitq söylədi. Amerika, ingilis və Fransa parlamentarizmlərindən misallar gətirdi və axırda bunu dedi ki, hələ tərzi-idarəsi dürüst təyin edilməmiş olan Azərbaycanda bu növ məsələlərin həlli tezdir. Çünki bu halda Azərbaycan parlamanı məbuslarına boylə bir təklif qoysan ki, ya məbusluq, ya məmurluq nəticəsi yaxşı olmaz.

Vansoviç bu şirin və ağlabatan nitqini digər məbuslarımızdan Vinaqradov[2] və Abdulla bəy Əfəndiyev[3] cənabları da təsdiq edib dedilər ki, hanı bizdə bir o qədər ziyalı və əhli-maarif ki, birisi məbus olarkən, biri də, məsələ, müəllim olsun, birisi məbus olarkən, biri də fərzən, bir idarə müdiri olsun.

Natiq əfəndilərin bu xüsusdakı nitqləri o qədər ağlabatan, o qədər qənaətpəzir və o qədər inandırıcı idi ki, məbuslardan bir parası "O olmasın, bu olsun"da Həsənqulu bəy[4] kimi "daha nitq demək lazım degildir" degib, məsələnin xüsusi bir komissiyona verilməsini istiyordılar.

Bunlara müqabil "Müsavat" fraksiyası sədri Məhəmməd Əmin Rəsulzadə cənabları söz deməgə məcbur idi.

Mən güman edirdim ki, Rəsulzadə cənabları bu qədər dəlil və bürhanlardan sonra "Müsavat" fraksiyası nəzəriyyəsinin bu xüsusda yanlış olduğunu özü də etiraf edib, parlamandan üzr istəyəcək və deyəcəkdir ki, bağışlayın biz səhv eləmişik.

Lakin Məhəmməd Əmin cənabları nəzəriyyələrini müdafiəyə başladı və qabaqkı natiq əfəndilərin dəlillərini nəqz və cərh etməyə qalxmışdı.

Nitqi dinlədikcə gördüm ki, qabaqkı natiqlərin dəlil və bürhanları Məhəmməd Əmin cənablarının meydani-müsadiməgə sövq etməkdə olduğu sübut verdiklərinin qələbəsi qarşısında tabavər ola bilməgib,

başımda işğal etmiş olduqları yerləri bir-bir boşaltmağa məcbur olurlar.

Dəva vəkili olan Vansoviçin pürməzmun nitqinin, dəva vəkili olmayan Məhəmməd Əmin Rəsulzadə tərəfindən əsaslı bir surətdə şərh edilməsinin özü başqa bir xoş keyfiyyətdir.

Məsələnin özünə gəldikdə, məclisi-məbusan dövlətin qüvveyi-təşriyyəsidir. Yəni dövlət üçün şər və qanunlar düzəldir: heyəti-məmurin isə qüvveyi-icraiyyədir, yəni şərh və qanunları yürüdür, icra edir. Əlavə qüvveyi-icraiyyə qüvveyi-təşriyə qarşısında məsuldur. Boylə olan surətdə bunları qat-qatışığa salmağın nə mənası var?

Bu əsas etibarı ilə;

İştə gəldikdə, aya Azərbaycan dövləti irfanca, yəni o qədər kasıb oldu ki, yuxarı başı bir igirmi nəfər "savad əhli" tapa bilmədi ki, məmurluqlarını tərk edəcək məbusların yerinə qoysun?

Doğrudur, biz özgələrə nisbətən irfanca bir az kasıbıq.

Lakin kasıblığımızı mübaliğə yolu ilə bir qədər daha kasıblatmağa heç bir lüzum yoxdur, çünki bu cürə söhbətlərin axırı boylə olur ki, Azərbaycan dövlətinin ümuri-xeyriyyə nəzarəti Azərbaycan dövlətinin milli parlamanını bisavad hesab edib, kağızlarını rusca yazır ki, parlamanın rus məbusları oxuyub musəlman məbuslarını başa salsınlar.

Əmma bu da ola bilər ki, ümuri-xeyriyyə nəzarətinin özündə savad əhli yoxmuş.



## FİTNƏLƏR QARŞISINDA

Hökumətimizin və müttəfiqlər ordusu komandanı general Tomsonun tədbirləri sayəsində Andranikin vəhşiligi dayandırıldı. Andranik "yar və ənsarənə" məktublar yazıb, müharibə bitirdigini elan edir...

Top və tüfəng hücumları ara verdi. Zənd edilirdi ki, bir qədər qulağımız dincələr, baş-beynimiz rahat olar. Qəlbimizin təşvişi sakit olub, yorğun əsəblərimizin sızıltısı dayanar.

Lakin heyhat! Bu zənni o adəm edə bilər ki, daşnakların xilqət xüsusiyyətlərinin təqazası və təbiyyəti-milliyələrinin icabatı olan "niş" vurmaq xasiyyətlərindən bixəbər ola!

Andraniklərin top və tüfəng hücumlarının arası yenicə kəsilmişdi ki, bugün özümüzü başqa növ hücumlara məruz qalmış görürük. Bu yeni hücumlar iftira və böhtan hücumlarıdır ki, daşnakların "Vperyod" qəzetəsinin dünənki nömrəsi başdan-ayağa qədər bu iftira və böhtanlar ilə doludur.

Top və tüfəng ağzından çıxan güllələr daşnak və əmsali ağzından çıxan söyüş və yalan sözlər ilə əvəz edilibdir.

İftira, böhtan və əsassız ittihamlarından ibarət olan bu sözlər zatən general Tomsona qarşı bir nümayişdir. Yəni ey general Tomson sən ki, bizim andraniklərimizi dayandırmağa məcbur etdin, indi gör Azərbaycan müsəlmanları bizim başımıza nə oyunlar açırlar, nə zülmlər edirlər. Halbuki bunun təqsiri sənin boynuna gəlir, çünki bu işdə ehmallıq edən və Azərbaycan türklərinə "cürət" verən sənsən!

Bugünkü nömrəmizdə tərcümə edilmiş olan Şuşa erməni komitəsi nümayəndələrinin "şikayəti" mülahizə edildigi üzrə azərbaycanlıların "zülmündən" və general Tomsonun "qeydsizligindən"dir.

Lakin zənn etmirik ki, bu "şikayətnamə" müttəfiqlər komandası rəisinə ermənilərin arzu etdigi təsiri "bəxş" edib də "məzlumların" halına can yandırtsın. Tomsonlar erməni "şikayətlərini" London mühafilində dinləmirlər ki, inanmamağa həqləri olsun. Tomsonlar Qafqazdadırlar, işin içindədirlər. Kimin kimdən şikayət etməgə həqqı olduğunu görürlər. Görməsə idilər andraniklərin həddini özünə bildirməzdilər.

Azərbaycanın Azərbaycan hökumətinə tapşırılmasını təsdiq etmiş olan general Tomson Azərbaycan torpağında həman hökumətin hökm və qanunu icra edəcəgini bilmirmi ki, ermənilərin "Azərbaycan hökuməti bizi tərksilaha məcbur edir"– kimi nahəq şikayətlərinə məhəlgüzar olsun. Əlbəttə, bir dövlətdə ki, bir ünsür iğtişaş və nizamsızlığa mail ola və bu meylini hüsulə gətirmək təşəbbüslərinə silah gücilə girişə, bu "məğşuş" ünsürün müsəddiq hökumət tərəfindən tədibə və tərksilaha məcbur ediləcəgi təbii və qanunu bir əmrdir.

Azərbaycan torpağında yaşayan ünsürlərin Azərbaycan hökumətini tanıması və tanımaq istəmədigi də bu əmrə məcbur edilməsi dəxi müvafiq qanun və ədalət bir işdir ki, daşnakların Azərbaycan hökuməti bizi itaətə məcbur edir–deyə bu yoldakı şikayətlərinin nə qədər boş və əsassız olduğunu özü-özündən aşkar surətdə bildirməkdədir.

Guya Azərbaycan qoşunu və "müsəlləh tatarlar" səbəbsiz olaraq erməni kəndləri üzərinə hücumlar edib, əhalini qətl-qarət edirlər deyə şikayətin dəxi ətraflı bir surətdə təhqiqə böyük bir ehtiyacı vardır. Bu təhqiqin nəticəsi meydana çıxıncaya qədər həman şikayətlərin bizim gözümüzdə iftira və böhtandan ibarət olacağı da dəlil və əsassız degildir.

Daşnakların andraniklərin vasitəsilə üzərimizə atılan top və tüfəng güllələrini dəf etmək bunların iftira və böhtanlarını rədd etmək işindən çox asandır. Çünki ermənilər cəngavərlikdən artıq böhtan və iftira qurmaq ustadlığı ilə məşhurdular. Odur ki, bu günə "danoslar" hücumuna və iftiralar "niş"inə qarşı qəlbimizi bir o qədər də sıxmayıb Sədinin:

"Nişe əğrəb nə əz-rəhe kin əst,[1]
İğtezaye təbiətəş in əst"

beyti ilə mütəsəlli, ola bilərik, lakin bununla boylə özümüzü "əqrəb"lərdən qorumaq hər bir cəhətcə borcumuzdur. Çünki bunların "nişi" kin üzü ilə olsun ya təbiətlərinin iqtizası olsun, insanın canını ağrıdır və əziyyətinə səbəb olur.



## QARABAĞ HƏQQINDA

Təqribən bir ay bundan əvvəl idi ki, Qarabağdan gələn ahu-fəryadlar həm hökumətimizi, həm də cəmiyyətimizi təhciz etməklə Azərbaycan torpağının bu hissəsinə xüsusi bir nəzər yetirilməsini tələb edirdi.

Nə olmuşdu orada? Ermənilərin generalıədd olunan Andranik öz xunxar dəstəsilə Qarabağın Zəngəzur[1] adlanan uyezdi üzərinə töküb müsəlman əhalisini qətlü-qarət kimi quldurlara məxsus əməlləri ilə tədhiş edib buraları "müsəlmanlardan təmizləmək" istiyordı.

Şübhəsizdir ki, hökumətimiz Azərbaycan türklərinə qarşu icra edilən və rəva görülən bu vəhşiliklərə göz yuma və istimdad fəryadlarına qulaq asmaya bilməzdi. Hökumətimiz ingilis komandasının nəzərini dəxi bugünə, vəhşi əməllərə cəlb edib Andranikin əmalivəhşiyanəsinə nəhayət çəkdirdi. Andranik fitnəsi nəticəsi olaraq Qarabağın hal və ovzayi öylə bir fövqəladə surət kəsb etdi ki, hökumətin bu cəhət həqqində xüsusi qeydkeşliyinə böyük bir ehtiyac görünüb, ciddi tədbirlər ittixazi lazım gəldi.

Bu tədbir nə ola bilərdi? Qarabağı işlər düzəlincəyə qədər müvəqqəti olaraq ümumi idarə təhdindən ayırıb xüsusi bir idarə altına almaq ki, əvvələn, Qarabağın fövqəladə·haləti mərkəzi hökumətin ümumməmləkət qeydkeşliyi işinə xələl yetirməsin, yəni hökumət bütün diqqəti yalnız bir Qarabağa münhəsir etmək məcburiyyətində qalmasın və saniyən Qarabağ dəxi fövqəladə halətinə görə lazım olan xüsusi tədbirlər ittixazindən məhrum edilməsin, o idi ki, hökumət Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir[2] uyezdlərindən ibarət olan Qarabağı xüsusi bir general-qubernatorluq şəklinə salmaq əmrini lazım və vacib bildi. Mərkəzi hökumətin vəkili yerində olan general-qubernatora hökumətdən bir para fövqəladə ixtiyarat veriləcəkdir ki, Qarabağın fövqəladə halətini adi bir surətə salmaq yolunda o ixtiyaratdan istifadələr etsin.

Təkrar edirik ki, aclıq, azar, yolsuzluq, əmniyyətsizlik şuriş narazılıq və sair bu kimi hadisələrdən əmələ gələn bu fövqəladə halət Andranik avantürasının nəticəsindən nəşət edən bir vaqeədir. Binaən əleyh hökumətimizin Qarabağda general-qubernatorluq təşkil etmək tədbirinə dəxi Andranik hərəkatı səbəb olmuşdur.

Andranik Azərbaycan hüduduna soxulub da vəhşiliklər icra edərkən hökumətimiz Ararat[3] hökumətinə müraciət edib Andranikin oraya qarşu münasibəti nə olduğunu istifsar etdi. Ararat hökuməti ikiəlli Andraniki rədd edib "onun bizə heç bir dəxli yoxdur, xudsər bir adamdır",- deyə cavab verdi. Andranik dəxi öz tərəfindən erməni hökumətindən küsdüğünü, təkrar-təkrar söyləməgi mövqeyi gələn yerlərdə müzayiqə etməyirdi.

Erməni hökumətinin Andranikdən üz döndərib də incimiş olduğuna və bunun da o hökumətdən küsməginə safdərunların və ya iş bilənlərin nə nəzərlə baxdıqları başqa məsələdir. Hər halda biz erməni hökumətinin sözlərinə inanmağı qərar qoyub və Andranikin erməni hökumətinə dəxli olmayan xudsər bir quldur olduğu nöqteyi-nəzərdə dayanıb öz torpağımızı və öz əhalimizi bu quldurun əlindən xilas etməgə çalışdıq və bilaxirə bu işdə müvəffəqiyyət hasil etdik. Bədə andraniklər tərəfindən vurulmuş zərbələrin yaralarını sağaltmaq üçün o zərbələrə uğramış olan yerlərimizi öz məsləhətimizə görə xüsusi bir idarə altına alıb, general-qubernatorluq təşkil etmək istədik.

Halbuki bizim bu tədbirimiz Ararat hökumətinə xoş gəlməyibdir. Bu xüsusda protest edib "Ermənistan ərazisi hüququnda təcavüz olunur",- deyir.

Bu əhvalı eşitmiş olan "Naşe vremya" adlı erməni qəzetəsi ki, Bakı erməni milli komitəsinin naşiri-əfkarıdır. Birdən-birə qorxuya düşüb "allah eləməsin ki, bu işin axırı müharibəyə müncərr ola"-degib nədənsə "müharibə" sözünü tez meydana atır və gözləmədigimiz bir halda erməni cümhuriyyətinin halını fəna və müşkül bir surətdə təsvir edib, "müharibə olursa bu hal daha fəna bir şəklə girəcəyindən" bəhs edir və bəhsinə "ciddiyyət şəkli" vermək üçün ümum Azərbaycan demokratiyasına müraciət edərək "provakasiyaya uymayın",- deyə xəbərdarlıq etməklə hökumətimizin tədbirlərini fitnə və provakasiya adlandırır. Quldur Andranikin vəhşiliklərinə qarşı məzəmmət yolu ilə bir söz boylə ağzına almayan və biləks, Andranikin bir erməni "qəhrəmanı" sifətiylə sənaxani olan və onun bütün vəhşiliklərini təsvibə çalışan bu qəzetə hökumətimizin bu tədbirini gözü yummadan fitnə adlandırıb məsələnin nədən nəşət



etdiyi həqqində bir söz böylə söyləməyir və tez "müharibə" sözünü meydani-mətbuata çıxarıb, bu sözlə, Azərbaycan demokratiyasını qorxutmaqmı istəyir ki, bəlkə bu qorxu üzündən Qarabağın general-qubernatorluq təşkilinə xələl yetirsin və ya həqiqətənmi bu işin müharibəyə münçərr olacağından və müharibə olursa erməni cümhuriyyətinin halı fəna bir surətə düşəcəgindən təşvişə düşür. Burası bir dürlü anlaşılmayır. Bəlkə tərəf-müqabilin "zəif olduğunu" bizə işarə edib də bizi davaya qızışdırıb ki, müharibəni biz başlayaq və bassaq da, basmasaq da təqsir bizim üzərimizə düşsün! Hər halda bu qəzetənin tez "müharibə" sözünü ortaya salması və erməni hökumətini zəif bir halda təsvir etməsi şayani-diqqətdir.

Bizə qalarsa əminik ki, hökumətimiz Qarabağda general-qubernatorluq təşkil etmək istərkən erməni hökuməti ilə müharibəyə girmək ehtimalını heç xəyalına boylə gətirməmişdir, çünki Qarabağ bizim, biz – bizim.Öz yerimizdə, öz torpağımızda nə siyaq "adminstrativ" şəkillər yapacağımız bizim öz işimizdir. Erməni hökumətinin və ya erməni milll komitəsinin bu cürə işlərimizə qatışmağa heç bir həqləri olmadığını özləri bilmirlərsə, o halda siyasiyatın ibtidai qaydalarından bixəbər və cahildirlər, özgələrdən ögrənsinlər. Və əlavə tutalım ki, Qarabağda general-qubernatorluq təşkili "erməni ərazisi mənafeyinə toxunur". Həman saət müharibə etmək lazım gəlirmi? Və bir də erməni-gürcü müharibəsindən sonra hər tərəfin və müttəfiqlər komandasının da rəyi bu cürə hüdud məsələlərini konfranslarla, danışıqla, sülh və sazişlə həll etmək qərarı ittixaz olduqdan sonra hüdud məsələsinə aid olan bu işdə dəxi saziş və danışıq lüzumundan bəhs etmək əvəzinə, tez müharibə sözünü araya salmaqda "Naşe vremya"nın məqsədi öz fitnəkarlıq xasiyyətini bildirməkdirsə, zəhmət çəkməsin, özümüz ondan da yaxşı bilirik, yox, bizi qızışdırmaq və ya sınamaq isə, onu da anlayacaq qədər dərrakə və fərasətimiz vardır.

Aramızda müharibə olarsa erməni cümhuriyyətinin halı fəna olacağına şübhəmiz yoxdur, lakin hər halda biz müharibə xəyalında degilik. Biz öz daxili islahat işlərimiz ilə məşğuluq. Müharibə etmək istəsə idik əlimizdə böyük bəhanəmiz dəxi vardı. Halbuki indi müharibəyə heç bir tərəfin, heç bir bəhanəsi yoxdur. Ararat hökuməti

şükür eləsin ki, biz onun "Andranikin bizə dəxli yoxdur" sözünə inanıb da Andraniki xudsər bir quldur sifətilə torpağımızdan rədd etdik. İndi də o quldurun hərəkati-vəhşiyanəsindən dolayı əhalimizə varid olan zərər və ziyanları rəf etmək işilə məşğuluq. Əgər bizim bu işimizdən erməni cümhuriyyətinə və erməni "ərazisinə" bir xələl edirsə, bu xüsusda dəlillərini meydana qoyub müzakirəyə girsinlər. Yoxsa gözü yummadan protest etmək və ya müharibədən söz salmaq fitnə və pravakatorluqdan başqa bir şey degildir.



## TƏƏSSÜRAT

Üç günlük bir müharibənin şahidi olduq.

Müharibə parlaman zalında vaqe olub sağ tərəfdən "İttihad", sol tərəfdən "İttifaq"[1] fraksiyalarının hökumətə qarşu hücumilə başlandı. Hücum nagahani idi.

Bu səbəbdən idi ki, bixəbər hökumət həngamənin onların da özünü "müharibə" vəziyyətinə sala bilməgib, "dalbadal" vurulan zərbələri rədd bədəl edə bilməgirdi.

Halbuki müxaliflərin bez "kəməndləri" hökuməti dolaşdırdığı halda, neft "atəşləri"ndə yandırıb, buğda "güllələri"də yağış kibi yağırdı.

Sənaye və ticarət vəziri müavini ki, hücumların əvvəlki hədəf və nişanəsi bu idi, müxaliflər qarşısında müqavimət edə bilməyib ricətə məcbur oldu. Muxaliflər onu təqib edib qova-qova daxiliyə vəzarətinə yaxınlaşdılar. Daxiliyyə vəziri öz vəzarətini düşmən hücumları qarşusında görüb, tez müdafiəyə qalxdı və mümkün olduğu qədər cansiparanə bir surətdə müharibəyə girişdi, lakin amansız Qarabəylinin "İttihad" tərəfindən vurduğu şiddətli zərbələri o qədər müəssir idi ki, müdafiəyə macal vermədi, o idi ki, daxiliyə vəzarəti darmadağın olub nə qubernator qaldı, nə naçalnik, nə pristav, nə qaradovoy... Meydan müharibədə "güştə"lərdən püştələr əmələ gəldi.

Hökumətin mühüm səngərləri olan daxiliyə vəzarəti əldən gedəndən sonra sair vəzarətlər dəxi müdafiəsiz qalıb bir-bir müxalif hücumlarının qurbanı olurdular.

Əhval fəna oldu. Ümumhökumət təhlükə içində idi. Ona görə hökumət bir növ özünü düzəldənə qədər kənardan bir kömək lazım idi ki, müxaliflərin başını qatışdırıb hökumətə fürsət versin.

O idi ki, "Müsavat" firqəsi Məhəmməd Əmin Rəsulzadənin təht komandasında olaraq böyük bir kömək göndərdi ki, tez gedib hökumətin canını qurtarsın, vəilla "böhran" qurğusu hamını əndişəyə salmaqda idi.

Məhəmməd Əmin vaqedə böyük qoçaqlıq göstərdigi kimi müxalifləri çevirmə üsulu ilə əhatə edib, qaçıb qurtarmaq yollarını kəsdi. Ondan sonra müxalifləri bir-bir döyməgə başladı. Əvvəlki zərbələr

sol "İttifaq"ın başına vuruldu. Bunların sərkərdələri olan Ağa Əlizadə[2] yoldaş "ya Əli!" çağırmağa məcbur oldu.

Lakin köməksiz müsəlmanları sosial-daşnak hökumət zaliməsinin pəncəyi-qəddaranəsindən xilas edən türklərdən narazılıq büruzə verən bir şəxsə Əli kömək durardımı?!

"İttifaq" basıldıqdan sonra növbət "İttihad"ınkı idi. Bunların baş komandanları olan Qarabəyli cənabları ehtiyatsız olaraq özünə aid bir taqım "qara xəbərləri" yada salmaqla öz-özünü tutub Məhəmməd Əminin əlinə verdi...

Müxaliflər basıldıqlarını sezib və qaçmaq yollarını bağlı görüb, Sədi Əliyyə Əlrəhmənin:

"Vəqte-zərurət çu nəmanəd qoriz
Dəst begir əz səre şəmşire-tiz"[3].

kəlamını yada salıb hökumətdən əl çəkdilər və "Müsavat"a qarşı "şəmşir tiz" çəkdilər. Lakin müsavatçılar qorxmadılar. Çünki Məhəmməd Əmin şücaətinə əmin idilər. Filhəqiqət Məhəmməd Əmin Rəsulzadə bir nəreyə ya rəsulallah çəkib: "Əgər türkləri Qafqaza gətirdən və Azərbaycanı türk qəhrəmanlarının əliylə sosial-daşnak "samasud"larından xilas edən siz degən kimi yalnız "Müsavat" oldusa o halda müsavatçılar bununla ancaq fəxr edə bilərlər", – degib bir həmlədə məğlub və məqhur etdi.

Bu tərəfdən dəxi hökumət fürsətdən istifadə ilə özünü düzyəldib və müharib bir hala salıb, müxaliflərə qarşu əks hücumlara başladı. İş boylə olduqda "İttifaq" "İttihad"ın əhvalı hökumətin əvvəlki halından da bədtər oldu. Doxtur Qarabəyli çox "əlac"lar axtardı ki, zərbələrdən hasil olan yaralarını sağaltsın. Lakin əlacpəzir olmadı. Bu cürə yaraları sağaltmaq üçün "cərrah" lazım idi. Ağa Əlizadənin cəmaəti qəh-qəhə ilə güldürmələri də gülmədən başqa bir mənfəət vermədi.

Bilaxirə hökumət "Müsavat" kömegilə qalib gəlib, "böhran" zail oldu və məmləkətimiz böyük bu bəladən qurtuldu.

Doğrudan bu nə iş idi?

İçimiz və çölümüz pusquda duran gizli və aşkara düşmənlər ilə dolu olduğu bir halda "İttihad" firqəsinin bu nazik zəmanədə hökuməti yıxmaqda məqsədi nə idi?



Hərçi badabad degib xüsusi intiqam almaq, yoxsa məmləkətə mənfəət yetirmək niyyətilə "bacarıqsız" hökuməti düşürüb "bacarıqlı"sını qoymaq?

Əgər intiqam qəsdi imiş isə vay olsun bizim halımıza ki, müqəddəratımızı "hərçi badabad"a qurban etmək məqsədli fikir sahiblərimiz varmış!..

Əgər "bacarıqsız" və "bacarıqlı" söhbəti isə bu halda ki, istiqlaliyyətimiz hələ rəsmən təmam degildir. Hökumətin bacarığını Fətəli xan Xoyski demişkən Tağıyev fabrikasının bez arşını ilə ölçmək olmaz, bəs nə ilə ölçmək olar?

Zənnimcə tomsonların və milinlərin Azərbaycanda, ancaq Azərbaycan hökuməti tanınacaqdır məzmunlu sözlərinin kimin səyi və çalışması və aqilanə və müddəbiranə politikası nəticəsi olduğu keyfiyyətinin əhəmiyyəti-fövqəladəsi ilə ölçmək gərəkdir.

Ola bilsin ki, "İttihad" fraksiyasının "bezi düz ölçə biləcək" kandidatları var. Fəqət bu kandidatlar, bugünkü siyasət və vəziyyətin nə qədər nazik və rəqiqligini də layiqlə ölçə bilərlərmi? Və hərgah bugün Azərbaycan məmləkətinin halı "İttihad"çıların sözlərinə görə "cəhənnəm"dirsə, əcəba bu "cəhənnəmi" döndərib də "cənnət" halına sala biləcək adamları varmı ki, bunları düşürüb də onları qoyaq?

Və bir də vaqedə "bez" oğruyanlar, rüşvətxorlar və sair cinayət sahibləri varsa və şikayət bunun üstündə isə o halda o cürə xainləri hökumət əliylə tutdurub məhkəməyə vermək lazımdır, daha hökuməti itələyib yıxmağın mənası nədir?!

## ÜZƏRİMİZDƏKİ QARA BULUDLAR

Rus könüllü qoşunu ilə gürcülərin Soçi[1] yanındakı toqquşması Qafqazda əmələ gələn yeni cümhuriyyətlərin hamısını əndişə və təşvişə salacaq böyük bir məsələdir. Gürcü hökuməti "Dobrovolçiski armiya"[2] deyilən bir rus könüllü qoşunun Soçi yanlarında yığılmalarına çoxdan bəridir ki, şübhə və ehtiyatla baxmağda idi. Lakin ingilislər gürcüləri sakit edib bu qoşunun Gürcüstan istiqlaliyyəti əleyhinə qarşu heç bir fikri olmadığını təmin ilə gürcü hökumətini ümidvar etdi. Halbuki qəzetələrdə oxuduğumuz üzrə könüllü qoşunu bu günlərdə Gürcüstan əleyhinə düşmənanə hərəkətlər başlanır, komandanlarını həbs etmək, möbqeyi qırmaq və ultumatumlar verməkdədir.

Digər tərəfdən Şimali Qafqazda Dağıstan hökuməti qoşununun dəxi bu könüllü ordu hissələrilə qədəmələri olmuşdur.

Rus könüllü ordusu Rusiyanı bolşeviklərdən təmizləmək, hökuməti ələ almaq bununla köhnə Rusiyanı təcrid etmək fikrində olan monarxik bir təşkilatdır ki, əsl məqsədi Rusiya taxt və tacını genə öz yerində bir qərar etməlidir.

Bu təşkilatın məqsədlərinə yetişmək üçün yürütmək istədiyi fikrindən biri də budur ki, Qafqazı əsləhər ki edib, burada bir keyvan möhkəmləşib üzüyuxari bolşeviklərə qarşu müharibə hərəkatı açsinlar.

Bunların bu fikri Qafqaz cümhuriyyətlərinin istiqlalını təhdid edən qorxulu bir qüvvətdir. Bu qüvvətə qarşu təklikdə degil, birlik ilə qalxıb ümumi bəlanı ümumi qüvvətlə rədd etmək lazım gələcəkdir.

Lakin bizi böyük əndişəyə salan işte bu Rasiyadır ki, gürcülər və dağıstanlıların bu qara qüvvətlə olan təmasla məmləkətlərin kənarı olan hüdudlarında olduğu halda biz azərbaycanlılar bunları öz içimizdə görürük. Baku dabrovolski armiyanın təhşid yeri olmuşdur. Burada partiyamız asudə və aşkar olaraq kəmal-kərəmi ilə qoşun təşkilatı əmələ gəlir. O qoşun ki, ehtimal bir (....) qarşı əməliyyatını gürcülər kibi kənar hüquqdadır degil, bəlkə başımızdan başlayacaqdırlar. Biz bu təhlükəyə qarşu heç bir tədbirə təvəssül etməgib də paytaxtimizin küçələrində özgə qoşununun gəliş-gedişinə, manevralarına, paradlarına öylə bir adi nəzərlə baxırıq ki, guya bu görünüşlərdə, nümayişlərdə bizim üçün bir təhdid və bir təhlükə olduğunu xəyalımıza boylə gətirmirik.



Halbuki paytaxtləri küçələrində öz qoşunları əvəzinə özgə qoşunu görən və o qoşun əhlindən əksəriyyətinin mart hadisatı "qəhrəman"ları olduğunu görüb-tanıyan və politika "hökumətlərindən" bir o qədər də xəbərdar olmayan əhali təşviş və həyəcana gəlib busrən faş edilməsini arzu edirlər.

Məsələ hər bir barədə böyük məsələdir. Bunun müzakirəsi də, həlli də xüsusi bir şərait üzərilə keçmək məcburiyyətini iqtiza edər. Zira, bu işdə yəni dobrovolski armiya təşkilatı fikri başında duranların ingilislərdən və bilümum müttəfiqlərdən müavinət və kömək və hər halda rəğbət o hüsni-təvəccöh ümidində olduqları bizə məlumdur. Özləri də bir dərəcəyə qədər bu ümidlərində əsaslıdırlar. Zira Rusiyanı diriltmək fikri müttəfiqlər tərəfindən dəxi dəfələr ilə bəyan edildiyi kibi, bolşevikləri süqut etmək qəsdi dəxi onların proqramlarına daxil olan bir əmrdir.

Qafqazda olan müttəfiqlər nümayəndələri, Qafqaz millətlərinin müqəddəratı Paris Sülh Konfransında həll olunana qədər, Dağıstanda dağıstanlıların, Azərbaycanda Azərbaycan türklərinin, Gürcüstanda gürcülərin, Ermənistanda ermənilərin müstəqil bir cümhuriyyət surətdə yaşamalarına razı oldular və bunu rəsmən və felən isbat etdilər. Bu gün bizi son dərəcə maraqlandıran odur ki, görün dabravolski armiya təşkilatının qafqazlılara qarşu düşmənanə olduğu Soçi hadisəsilə isbat edilən məqsədlərinə ingilislər və bilümum müttəfiqlərinə nəzərlə baxırlar. Bu nəzəri bilmək işində parlamanımız və hökumətimiz təşəbbüsata girişməlidirlər.

Paytaxtimizdə asudəlik ilə təhəşşüd edən özgə qoşununun görüş və nümayişləri qeyri-təbii bir əmr olmaqla gözlərimizi heyrətləndirməkdən daha artıq qəlbimizi təşviş və əndişələr ilə doldurur.

Bunun üçündür ki, bu işə tezlik ilə diqqət yetirilib, həyəcanımızı sakit edəcək və ya başımıza çarə qılmaq əmri qarşında olduğumuzu aşkar edəcək məlumat almağa əşədd ehtiyac hiss edirik.

## BAŞLANIR

Erməni quldurlarının, istər Andranik olsun, istər onu göndərənlər olsun, hərəkati-şeytaniyəsindən dolayi Qarabağ üzərində əmələ gəlmiş olan şərait fövqəladə nəticəsi olaraq Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayil uyezdlərindən ibarət olan Qarabağı xüsusi bir general-qubernatorluq halına salıb, bu ağır məmuriyyəti Xosrovbəy Sultanov[1] cənablarına tapşırdıq. Bizim bu əməlimiz ki daxili işlərimizə aid bir əmrdir və heç bir kəsə dəxli və təsərrüfi yoxdur, Ararat hökumətini degindirdi. Ararat hökuməti həmişəki adəti üzrə həqsiz olaraq degindi, lakin hökumətimizdən həqq və sabit bir cavabi-şafi alıb hələlik rəsmən kiriməgə məcbur oldu.

Fəqət Ararat hökuməti ağzını yumdusa da əvəzində qeyri-rəsmi ağzını açdı. O ağız paytəxtimizdə çıxan və üzərimizə bilamühabə və biduni-həya söyüşlər göndərmək cürətində bulunan daşnakların "Vperyod" adlı qəzetə adlandırdıqları küçə vərəqələridir.

Bu qəzetə Qarabağa general-qubernator təyinindən bəhslə "Başı" (ibtida) sərlövhəli bir məqalə yazıb ortaya fitnə və şeytanət yumağı atıb, Qarabağ ermənilərini bu sözlə Azərbaycana qarşı iğtişaşa dəvət edir.

"Qarabağda Azərbaycan general-qubernatorunun piyada olması, yerli əhalinin heysiyyəti-xüsuməti-pərvəranəsini mucib olmaya bilməz", "müxtəsər, yerli əhali tərəfindən tanınmaq istənilməgin bu yeni hökumət Qarabağ ermənilərinin ona qarşu müsəlləh üsyanı üçün asan bir fitnə olacaqdır".

"Azərbaycan hökumətinin boylə imperializm məqsədinin nəticəsi, ancaq qan tökülməsinə və mümkündür ki, Qarabağ ermənilərinin hürriyyət yolundakı mübarizəsinə kömək etmək istəyən erməni hökuməti ilə Azərbaycan hökuməti arasında müharibə müsadimələrinə müncərr olar".

Bu sözlərdən aşkardır ki, daşnaklar qəzetələri vasitəsilə Qarabağ ermənilərini Azərbaycana qarşu müsəlləh üsyana təşviq və təhrik edirlər. Və degirlər ki, qorxmayın siz, üsyan başladıqdan sonra erməni hökuməti bəhanə tapıb sizə köməyə gələr.



Bu üsyanın müsəlləh olacağına da qəzetə əmindir, çünki Qarabağ ermənilərinin daşnaklar tərəfindən mükəmməl surətdə silahlanmalarını gözəlcə bilirlər. Bəli, bunu biz də bilirik və burasını da yaxşıca bilirik ki, madam ki, erməni milləti içində daşnak partiyası mövcuddur, nəinki Qarabağda bəlkə ümum qafqazda müsəlləh ixtişaş davam edəcəkdir. Millətinin gözlərini, daşnakların siyasətini görməmək dərəcədə örtmüş olan bu partiya, erməni millətini tamam və kamal məhv və nabud etdirməyincə şeytanətindən əl çəkməyəcəkdir.

Bizim öz yerlərimizə sahib olmaq əməlimizi daşnaklar "imperializm məqsədi" deyə adlandırırlar. Çünki Pənah xanın[2], İbrahim xanın,[3] Mehdiqulu xanın[4] yerləri ermənilərin yeri imiş! Və o qədər mübahisəli imiş ki, onun həllini Paris Konfransından[5] gözləmək lazım gəlirmiş!

Lakin Qarabağ məsələsinin həllini Paris Sülh Konfransından gözləmək icab etdiyini safdərunlər nəzərində "sülhcuyanə" görünmək məqsədilə ortaya atan daşnaklar bizi inandıra bilməzlər ki, o konfransın hökmünə tabe olub da bir kərəlik kiriyəcəkdilər.

Azərbaycanı Azərbaycan türklərinə tapşırmış və erməni quldurlarını Azərbaycan toprağı olan Qarabağdan qovdurmuş olan general Tomson və milinlərin sözlərinə qulaq asmaq və nəzəri-etinayə almaq istəməyən daşnaklar əminik ki, Paris Konfransının da həqq və doğru olacağını ümid etdigimiz hökm və qərardadlarını pəsənd etməgib, bizləri ümum Qafqazı və bəlkə bütün dünyanı müsəlləh üsyanlar ilə daim təchiz etmək qəsdində olacaqdırlar. Özgənin iki gözünü çıxartmaq üçün özünün bir gözünü qurban etmək politikası yolunu tutmuş olan daşnaklardan nəticəsi hər vaxt erməni millətini fəlakətdən fəlakətə salan "müsəlləh üsyan"lardan başqa özgə bir qabiliyyət gözləmək üçün cahil və qafil olmaq lazım gəlir.

Pəs başlanıb!

Daşnaklar Qarabağ ermənilərini bizə qarşı usyana dəvət edirlər. Bu üsyanın açıq-açığına qəzetə vasitəsilə elanı daşnakların bihəyalığını sübut edən aşkar dəlillərdən birisidir. Paytəxtimizdə bizimlə diz-dizə oturan daşnakların bihəyalığı bu dərəcə olduğu halda özgə yerlərdə və öz yerlərində oturanlarınkı nə dərəcədə olacağını təsəvvürə gətirmək olar...

Gözlərimizi dörd açmalıyıq. Ermənilərə etibar yoxdur, çünki "millət xadimi" olan daşnaklar bu milləti etibarsız bir dərəcəyə çatdırdılar. "Müsəlləh üsyanlar" törətmək və müharibəyə səbəb olmaq üçün bunlar aşkara və gizlin işlər görüb bizi qafil edə bilərlər. Bu qəflətin nəticəsində başımıza bəlalar gələ bilər. Müsəlləh üsyanlar çıxarmaq işində çoxdan bəri təcrübə hasil etməklə "ustad" olmuş daşnakların hər bir əməlinə şübhə ilə baxıb, zəif yerlərimizi quvvətləndirmək ümumbədənimizi xainanə zərbələrə qarşı zirehpuş etmək işində möhkəm durmalıyız.

Lənət başlıyana gəlsin!



## NƏ İLƏ SAKİT OLA BİLƏRİK

Şəhərimizdə bizdən biizin və bizim rizamız olmadığı halda, təşkil edilməkdə olan rus-erməni könüllü qoşun məsələsi həqqində qəzetəmizin keçən nömrəsində hökumət tərəfindən tədbirlər görüldüyü yazılmışdı. Parlamanımız seşənbə günü iclasında bu tədbirlər xüsusunda hökumətin ağzından daha geniş məlumat aldıq. Baş vəzir Fətəli xan cənabları bu barədə gördüyü tədbirləri və əhvalın çegunələgini parlamana bildirdi. Əvvəla məlum oldu ki, Azərbaycan paytəxtində yabançı qoşun təşkilatı təşəbbüsləri general Tomson çe dəxi qeyri-təbii görünən bir vaqeədır. Və saniyən bunu bildik ki, İçərişəhərdə, tazəpir yanında və Salyan qışlalarındaki[1] qoşun mənzillərini tutmaq kibi cəsarətdə bulunmuş könüllülər, hökumətimizin əmrinə görə həman yerləri beş gün ərzində boşaltmağa söz veribdirlər. Bu dəxi bizə məlum oldu ki, könüllü qoşun mütəşəbbislərinin Bakudə heç olmasa bir yüz, iki yüz qeyri-nizami qoşun saxlamaq rizasında hökumətimiz razı olmuyubdur.

"Lakin bununla sakit olub da başımızı yastığa qoyub arxayın olmamalıyıq!"– sözlərini Fətəli xan həzrətləri əlavə etdi.

Bu qəbul! Əlbəttə, əhali də, parlaman da bugündən boylə əhval və əvzat ciddiliyinə daha artıq əhəmiyyət verib və lazıminca diqqət yetirib hər bir barədə ayıq olmalıdırlar. Lakin bu ayığlıq vəzifəsi təbiidir ki, hamıdan artıq hökumət üzərinə tərtib edir. Hökumət əhalidən daha artıq ayıq və huşyar olmalıdır ki, həngam zərurətdə hay-huy salıb yastığa baş qoymuş olanları oyatsın. Bu axırkilərın də vəzifəsi odur ki, oyanan kibi bədun həyəcan və təşviş kəmali-etidal dəmlə amadə olub hökumət əmrlərini və bənagüzarlığlarını yerinə yetirmək üçün hazırlaşsınlar.

Lakin Fətəli xan həzrətlərinin srağagünkü sözlərindən sonra bizi heyrət və təəccübə gətirən dünənki "İznamiya truda" qəzetəsində könüllü ordu komandanı Prjevalski[2]nin rəyi həqqındakı sözləridir. Bu generalın dedigınə görə Kaspi flotunun üssül hər ki mövqei Bakıda olacaqdır. Əlavə general bəyan etmişdir ki, Qafqaz cümhuriyyətlərindən Dağıstan ilə Azərbaycan hökumətləri, rus qüvvə məsələsinin bu

cümhuriyyətlər torpağında qalmasına və buralarda könüllü ordu təşkilinə manc dcgilmişlər...

Şübhəsiz general Prjevalskinin bu sözləri, bizim gözümüz onun də təşkil edilən yabançı qoşunları görə-görə indiyə qədər kiriyib durmağımızdan irəli gələn təbii bir toxdaqlıq və Azərbaycanlığdır. Prjevalski buraya qoşun düzəltməkdən ötrü gəldigini biz bilirdik. Bainhəmə onun paytəxtimizə ayaq basmasına manc olmadıq, nə xəbər verdik ki, gəlməsin, nə də gələndən sonra həbs etdik. Prjevalski buraya gəlib könüllü qoşunu təşkilə etmək üçün müsaid bir zəmin gördi. Əlaltından işləyənlər ki, biz onları nədənsə görmürük, görsək də nədənsə görməməzligə vururuq – Prjevalski üçün bir çox ləvazimat hazır etmişdilər. Deməli, Prjevalski binası qoyulmuş işi itmamə yetirmək təşəbbüsünə girdi və heç bir tərəfdən müamimət görməyib getdikcə cəsarətini artırdı və qoşunu üçün evlərimizi də rekvizit etməgə başladı və şəhərin sövqəlcişcə mühüm olan nöqtələrini bilaməhabe işğal etdi və əminik ki, əgər Soçi əhvalatı bizi şübhə və əndişələrə salmasa idi, biz axıra qədər kirimiş qalardıq və o "axər" bundan ibarət olacaq idi ki, şəhərimiz prijevalskilər əlinə keçib Azərbaycan hökuməti yerinə yenə rus hökuməti əyləşəcək idi və ingilis komandası da "əmr vaqe" qarşusunda sükuti–ixtiyar edib, heç bir söz dimiyəcək idi. Ancaq ola bilər səy edəcək idi ki, şuluğluq olmasın.

Fəqət genə də şükürlər olsun ki, biz bir az gec də olsa, bir balaca tərpəndik və bu işlərin xoşumuza gəlmədigini lazım olan yerlərinə bəyan etdik. Bizə söz verdilər ki, bir də bu cürə işlər olmayacaqdır, olan iş dayandırılacaqdır. Və tutulmuş evlərimiz boşaldılacağdır. Beş gün möhlət istəyirdilər: nə etməli? Möhlət vermişik, ancaq günləri sayacıq ki, beş gündən artıq çəkməsin.

Lakin "başımızı yastığa qoyub" bir o qədər arxayın olmamalıyıq.

Əvvəla, bunu nəzərdə tutmalıdır ki, istiqlalımızın düşmənləri bizim qəflətimizdən istifadə edərək şəhərimizdə kök salıbdırlar. Və bu kök o qədər bərkiyibdir ki, onu yerindən qoparmaq üçün mərdanə himmət lazımdır. Əgər bütün kökü birdən-birə qoparmaq mümkün deyilsə, rişələrini parça-parça çıxartmaq əməliyyatına məşğul olmalıdır.



Ən əvvəl lazım olanı budur ki, tez bir zəmanda öz qoşunumuzdan heç olmasa bir-iki bölük şəhərimizə daxil edilib, lazım olan mövqelərdə yerləşdirilsin. Ancaq qoşun tez gəlsin. Hökumət bu qoşunun tezliklə gələcəginə vəd etdi. Lakin "tez" sözü nisbi bir təbirdir. Üç günə də "tez" demək olar, bir ilə də! Biz istərdik ki, bu "tez" üç günlük "tez"lərdən olsun. Vəilla iş o məqama çatar ki, "tez" dönüb, gec olar. ZatənTomson həzrətlərinin "Azərbaycanda Azərbaycan hökuməti məşru bir hökumətdir" sözlərindən sonra bizim qoşunumuz burada olmalı idi. Zira bu sözdən sonra daha daxili işlərimizə ondan-bundan "izn"lər almağa ehtiyac yoxdur. Tomsonun bu sözlərindən kamalınca istifadə etmək lazım idi. Bu sözlərdən istifadə edib də Qarabağa general-qubernator təyin etməgimiz şayan təqdir və təhsin təşəbbüs isə, haman sözlərdən sonra paytəxtimizə qoşunumuzu gətirməyə və mərkəzimizə yabançı generallar buraxmaq işimiz dedikcə şayan təəssüf bir hadisədir...

Hər halda qəflətimizin fəna nəticələrini rəf etmək üçün əcələ ilə işə girişməliyik və mümkün olduğu qədər tezlik ilə qoşunumuzi paytaxtımıza götürməliyiz.

İkinci olaraq, şəhərimizi yabançılardan təmizləməliyiz, dəxi vəxdir ki, biz də Gürcüstan kibi məsələni "köndələn" qoyub bizi tanımaq istəməyənlərə iki şey təklif edək: ya bizi tanımaq və ya paytəxtimizi boşaltmaq. Bu iki şeydən birini qəbul etdirməliyiz! Vəilla iş o məqamə çatur ki, biz özümüzə iki şeydən birini təklif etməgə başlayırlar. Məsələ, şəhərimizdə asudəlik ilə əlaltınca işlər görülməkdə olan rus milli komitəsinin naşiri-əfkari "Yedinaya Rossiya" qəzetəsi dünənki baş məqaləsində bizə təklif edir ki, ya bolşevikləri qəbul edək, ya denikinləri. Və özü də öz yanında məsləhət görür ki, qəbulluq üçün denikinləri seçək, çünki bunlar bolşeviklərdən daha məsləhətdirlər.

Nə qədər acınacaq əhval! Gürcüstan hökuməti rus milli komitəsini ləğv edib, sədrini həbsə alır, əmma biz komitənin "məsləhət"lərini dinləmək kibi şərəfsiz bir halə düşmüşük! Halbuki nə müharibə etmişik ki, basılmış olaq, nə də özümüzü o halə salmışıq ki, "məsləhətçi"lərə möhtac qalaq. Fəqət rus milli komitəsinin bu sözləri

bir qədər "məsləhət" degil, nə qədər ki, təhdiddir! Bizim "mehmannəvazlığımız" və yabançılar tərəfindən degil ki, təqdir edilmir. Bəlkə bu xasiyyətlərimizi şüursuzluq və cəbunluğumuza isnad edib bizi hədələməyə və bizə "məsləhətamiz" təkliflər qəbul etdirmək təşəbbüsünə cəsarət edirlər...

Tələsmək, tələsmək lazımdır! Vəilla özgələrin bizi qabağlamaq təhlükəsi əlamətləri görünməkdədir:

Sər çeşmə bayəd gereftən bebil,
Çupor şod nəbaşəd qozəştən bebil! [3]

Ümumi tədbir olaraq, biz özümüzü hücum qarşısında müdafiədə bulunmaq vəziyyətinə salmalıyıq. Bizə qarşu müxtəlif hücumlar hazırlanır. Bu vaxta ki, o vüqu olacağı şübhəsizdir – qorxuludur. Lakin biz müdafiə və mühafizəyə hazır olsaq, o halda qorxu yoxdur.

"Əlac vaqiə piş əz vüqu bayəd kərd"[4] degibdirlər. Özümüzü hər bir barədə müdafiə halına salıb bizimlə həmməslək olan həmcivar qonşularımızla da möhkəm surətdə əlbir olmalıyıq. Türkliyimizə məxsus cəsarətimiz və islamlığımıza məxsus şücaətimiz düşmənlərimizə qarşı dağıdılmaz bir səngər hökmündə olduğu hər kəsə əyandır, lakin içimiz və çölümüz dəxi texnik cəhətincə möhkəm olarsa düşmənlərimiz səngərlərimizin qeyr-qail fəth bir halda olduğunu görüb də kor və peşman olub, ola bilsin ki, əbədilik bir surətdə bizdən əl çəkərlər.



## YENİ BÖHRAN

"İttihad" firqəsinin Fətəli xan kabinəsinə qarşı çıxışına rəğmən parlaman məzkur kabinəyə etimad göstərməglə bu kabinənin fəaliyyətindən məmnun qaldığını bildirirdi. Lakin Azərbaycan hökuməti təşkili günündən bəri bir bu qədər ağır zəhmətlərə qatlaşmamış olan Fətəli xan həzrətləri bunun üstündən bir də cürbəcür dedi-qodular arasında qalmaqla canının bilkülliyyə istirahətdən düşüb də əsəbi bir hal peyda etməsilə bədəninin yorunuq almağa böyük bir ehtiyacı olduğunu hiss edib, zimam hökuməti özgə bir ələ ötürməgə qərar verdi.

Yeni vücudə gəlmiş olan Azərbaycan hökumətinin bir neçə rəisülvüzərası olmaqla, Azərbaycan tarixində mühim bir mövqe tutmuş olan Fətəli xan həzrətləri, bu yeni dövlətin vəziyyətini köhnə parələrdən əmələ gəlmiş bir gəmiyə təşbih edirdi ki, bu kibi firtınalı bir gündə dərya üzərində hər saət və hər an dağa-daşa çırpılıb dağıla bilmək təhlükəsi qarşusında qalmış bütün ümidini gəmiçinin ustadlıq və məharətinə bağlamışdı.

Bu zəif kəsici, firtınali gündə bu dağın, bu daşın arasında salamət keçirmək və sahil nicata çıxartmaq kibi çikkəni Fətəli xan həzrətləri öz boynuna götürməgi qəbul etdi və qəbul edib də kibisini kəmali-ehtiyat və ehtimam ilə aparıb hələ sahil nicata çıxarmadısa da, firtına sakit olana qədər dağa-daşa vurmayıb bunların arasında keçirtdi və bu ustadlığında böyük bir məharət göstərdi.

Bugün kibimiz hələ dənizdədir. Lakin dənizin firtınası sakit olubdur. Və qorxulu dağlar və daşlarda dəxi salamatlıq ilə keçirilibdir. Doğrudur firtına genə tazədən qalxa bilər və sualtı və suüstü dağlara və daşlara təkrar toxunmaq təhlükəsi də gələcəkdə genə meydan ala bilər. Təkrar edirik ki, bu halda dəniz əvvəlki halına nisbətən sakitdir. Ondan əlavə kibimizin təxtəparalari yəni daxili rabitələrimiz bir-birinə möhkəmləşibdir və əlavə dağa-daşa çırpılmağa qarşuda və xüsusi bir sipərimiz vardır. Deməli, əvvəlki iztirab və təşvişə məhəl yoxdur.

Bəs kibimiz bu halə qədər sələmət gətirmiş olan gəmiçimiz bir bu qədər çəkmiş olduğu zəhmət və əziyyətlərindən dolayi canının istirahətə möhtac olduğunu hesab edərək sükanı özgəsinə tapşırmaq istədi.

Yorulmuş bir can üçün istirahət lüzumi o qədər vazeh bir ömürdür ki, bu lüzuməti nəzərə almaq istirahətə möhtac olan canın bədxahı olmaq deməkdir. Halbuki Fətəli xan həzrətlərinin bədxahı olmağa heç bir həqq və səlahiyyətimiz yoxdur və olsaq da naşükürlük töhməti özümüzdə layiq görünər.

Xan həzrətlərinə istirahət üçün fürsət verib də istirahət bədəndə bir keyimiş və rahatlanmış qüvvələr təkrar əli vətən, millət yolunda mühüm işlər görəcək ümid və təsəllisi ilə, idareyi-ümur dövləti başqa bir ələ tapşırmağlığımız lazım gələcəkdir.

"Başqa bir əl" seçmək vəzifəsi parlaman sədrinin üzərindədir. Onu təsdiq etmək isə parlamanın səva bədid yenə bağlıdır.

Hər halda Fətəli xanın yerinə oturacaq bir şəxsi seçərkən iki mühüm şərt var ki, onlar daim nəzərdə tutulmalıdır.

Əvvəla budur ki, seçilən zat müqtədir olsun və bunun bu iqtidarından heç olmasa parlaman əksəriyyətinin pişin olaraq vüqufi itilati olsun. Vəilla hə çe badabad bir adəm seçmək və "görən bu necə işləyəcək?" – deyə bir az imtahan məqam riyasətə mindirmək və səhlkarlığla millət və vətən başında "imtahan meydanı" açmaq əməlini hal və övza yaraşan hərəkətlərdən ədd etmək olmaz. Seçilən adam, təkrar edirik bacarıq, və can-dil ilə iş görmək ləyaqətincə parlaman əksəriyyəti tərəfindən şayan etibar və etimad olmalıdır.

İkinci şərt olaraq bunu nəzərə tutmalıdır ki, seçilən adam bacarıq və iş görənlikdən əlavə bir də sahibi-təcrübə olmalıdır. Boylə ki, iş başına keçən kibi, işin nerədə, nə məqamda da yandırılmış olduğunu dərk edib də toxdalmış işin davamına şüru etsin. Nəinki əhvalatdan bixəbər olubda bir də təzədən başlamaq məcburiyyətində qalsın. Təzədən o iş başlanarkən, hələ indiyə qədər başlamayıbdır. Başlanmış işlər isə nöqsanatı rəf edilmək şərtilə davam etdirilməlidir.

Bu iki şərt üzrə seçilmiş olacaq zat isə burasını nəzərdə tutmalıdır ki; fırtına içindən və daşlar arasından Fətəli xan həzrətləri tərəfindən səlamətlik ilə keçirilmiş olan kibimiz bugün nisbət etibarı ilə sükun bir dəniz içində üzməkdə olmaqla bugün-sabah təkrar qopmaq ehtimalı meydanda olan fırtına qorxusundan tamamilə təmin edilmiş degildir. Ona görə bu sakitlikdən əcələ ilə layiqincə istifadə edib də kibimizi bir hala salmalıdır ki, dedikcə möhkəm və mətin olub, fırtına



dalğalarının hücumlarından və su içi daşlarına toxunmaq təhlükəsindən əsla qorxmasın boylə ki, kibi əhlinin ki vətən övladından müraddır–idarəni sahib-iqtidar və təcrübəkar bir əldə görüb də Sədi əliyəlrrəhmənin ağzı ilə:

"Çe bak əz möuce bəhr anra
Ke darəd noh kəştiban"!

– diyəcək qədər etimad və əmniyyəti olsun.

## TƏƏSSÜRAT

Vüzəra böhranımız nə oldu? Bitdimi? Bitmədimi? Bitmədi isə nə üçün? Bu cürə ciddi bir zamanda nə məntiq ilə bu böhranı bir bu qədər uzadılır? Yeni bir kabinə təşkilinə hazır adamlarımız varmı? Varsa pəs neyçin kabinə təşkil etmir. Bəlkə təşkilinə mane olanlar var? Neyçin mane olurlar? Qorxmurlar ki, uzun böhran dövlətimizi həmi daxili və həm də xaricən böyük mümkülatə sala bilər?..

Denikin[1] qoşunu paytəxtimizdən rədd oldu? Nə şərt ilə onları yola saldıq? Silahlımı getdilər, silahsızmı getdilər? Nerəyə getdilər? Dağıstanamı? Pəs Dağıstan buna razı idimi? Şimaldan denikinlər hücumuna məruz qalan dağıstanlılar, cənubdan dəxi denikinlilərin gəlməsinə nəzərlə baxarlar? Denikin hücumlarına qarşı dağıstanlı qardaşlarımız yalnız müdafiə edirlər? Biz onlara kömək yetirməyə borclu deyilmiyik? Dağıstan denikinlərin çəngalınə keçərsə bizim dövlətimizin halı necə olar?

Nə üçün ingilislər flotun silahlarını aldılar? Kibdən ötrü aldılar? Nədən ötrü ingilislər flotun silahını alıb denikinlərə vermək istəyir? İngilislər ilə Denikinin əlaqəsi nədir? Flotun silahından biz də istifadə edə bilərikmi???

Qərəz bu növ suallardır ki, başımıza dolub, cavab istəyirlər və cavab tapılmadığı halda beynimizi deşəcək dərəcədə bizi incidib istirahətdən salurlar.

Birdən istəyirsən ki, bu sualların hamısını bir kərəlik:

– "Əşşi mən nə bilim?!" – deyib, yaxanı qurtarasan, lakin olmur. Suallar səndən əl çəkmir. Nerdə olsan, nerədə olsan səni təqib edib soruşmaq istəyirlər. İndiki qəzetəçi olub da bu cürə işlərə qatışırsan, onda bu sualların cavabını ver. Deyirsən ki, bu sualların cavabını gərək hökumət versin. Deyirlər ki, öylə biz də onu soruşuruq ki, pəs hanı hökumət? Deyirsən ki, inşallah hökumət bu tezlikdə əmələ gələr, deyirlər ki, hanı "bu tezlik" hələ heç axırı görünmür. Deyirsən ki, yəqin partiyalar səy edərlər ki, öylə bir möhkəm hökumət əmələ gətirsinlər ki, daha bir də itələyəndə yıxılmasın. Deyirlər ki, onlar səy edib yeni hökumət əmələ gətirincə düşmənlərimiz də "səy" edib başqa bir hökumət əmələ gətirürlər...



O halda qalırsan boylə, bilmirsən ki, nə cavab verəsən...

Birdən fikrinə bir şey düşür. O "şey" səni şadlandırır, qəlbin rahat olur, fikir səni basmır. Hətta iştahan açılır. Vəxtında yiyib və vəxtında yatırsan və başındakı suallara deyirsən ki, bir az səbr ediniz, inşallah, hamınıza cəvab verəcəyəm.

O şey nədir?

Parlaman.

Bugün parlamanın iclasıdır. Gedirəm oraya və məbuslarımızın söhbətlərini eşidib işlərimizdən xəbərdar olaram. Bu ciddi və həyəcanlı vaqelərə dair nəzərlərini bilib – pəs nəzərdə olsa qəbuldur, təki nəzər yetirdiklərini bilim – cahil ikən alim olaram.

Saətə baxıb gördüm ki, parlaman iclasına bir qədər gecikmiş olacağam. Tez kağız-kuğuzlarımı yığub, kəmali-əcələ və siraət ilə parlaman əmarinə tərəf yorturam ki, birdən:

– "Nəhaq yerə özünü yorma!" – sədası məni bilaixtiyar dayandırır. Səda sahibi tanışımdır.

– Parlamanamı yüyürürsən?

– Bəli.

– Nahaq yerə

– Bugün zasedaniyanı atlajit elədilər.

– Neçün?!

– O neçün?

– Kvorum yox idi.

– Pəs onunçün?!

– Məbuslar yığılmadılar...

– Hansı məbuslar?

– Əlbəttə müsəlman məbusları! Ermənilər, ruslar, yəhudi, polyaklar hamısı vaxtında gəlmişdilər. Müsəlmanlardan da ancaq bir neçəsi vardı. Yerdə qalanlarını sədr cənabları gözlədi, gözlədi – gəlib çıxmadılar. Ona görə də kvorum əmələ gəlmədi və iclas baş tutmadı...

Əgər mən bizim müqəddəratımızın parlaq gələcəginə inanmayan bədbinlər cümləsindən olsaydım, bu əhvalatdan heç də mütəəssir olmayıb, bədbinligimi isbat edəcək keyfiyyətlərdən ən qüvvətlisidir, deyə sakit olardım.

Lakin bədbin olmadığıma görə sakit ola bilmədim. Və o dərəcə mütəəssir oldum ki, axırı özümə də acındım...

Necə də mütəəssir olmayım ki, bu cürə fövqəladə bir zamanda parlamanımızın fövqəladə iclaslar qurmağı lazım gələrkən millət "seçilmişləri" öz adi vəzifələrini də ifa etməyib müəyyən iclaslara gəlmirlər və gəlməyib də gələnlərin də işini görülüb məclisin baş tutmamağına səbəb olurlar.

Bu növ həyəcanlı bir zamanda Azərbaycan parlamanı ikinci kərədir ki, məbusların yığılmadığına görə mövquf olub bizi əğyarlar yanında gülünc edir... "Yedinaya Rossiya" qəzetəsi bizim parlamanımıza "əz bərai xali nə budən mərasle"[2] qondarma bir şeydir dedikdə bizim acığımız dutur, halbuki bu cürə gülünc töhmətlərə səbəbiyyət verən özümüzük...



## GETSİNLƏR GƏLMƏSİNLƏR

Şəhərimizdə rus-erməni könüllü ordusu təşkili kimi istiqlalımıza şərəf və heyssiyatımıza toxunan və gələcəyimiz üçün böyük bir təhlükə təşkil edən qeyri-normal hadisəyə qəzetəmiz çoxdan bəri idi ki, hökumətimizin diqqətini cəlb edib, bu cürə işlərin təzliklə önü alınmasını tələb edirdi. Hökumətimiz bu hadisəyəsə lazım olan dərəcədə diqqət etdirib əhvalatı ingilis komandasına bildirdi. Və bu könüllü qoşunun paytəxtimizdən təzliklə rədd edilməsini tələb etdi və "əks surətdə biz özümüz əlimizdən gələn vasitə ilə iş görməgə məcbur olacağıq", – deyə müstəqil hökumətə yaraşan bir dil ilə danışdı.

General Tomson həzrətləri dəxi bu hadisənin qeyr normallığı həqqində bizimlə şərik olduğunu bildirib, könüllülərin çıxıb getmələrinə razı oldi. İngilis komandası rəisinin bu razılığı məhz hökumətimizin təhdidi nəticəsi olaraq vüqu buldu deyib də fəxr etsək, əlbəttə, özümüzi bir dərəcəyə qədər aldatmış olarıq. Çünki əgər ingilis hökumətinin indiki politikası könüllü ordusunun Bakıda qalmasını iqtiza etsə idi o halda "qan tökülə bilər" ehtimalı – qərini- həqiqət olsa da – nəzərə alınmazdı və bu iş o tərəf və ya bu tərəfin zərbi-təstilə həll olunmağa münhəsir olaraq qalardı. Halbuki denikinlər üçün hazırlanan ordunun Azərbaycan paytəxtində saxlanılmasından ingilis hökumətinin bugünkü politikası heç bir şey udmazdı, bəlkə nəticədə uduzardı ki, o uduzduğu şey də azərbaycanlıların ingilislərə qarşı ibraz etdigi etimad və hüsni-rəğbətdən ibarət olardı.

Mətləbi bir az daha aydın etmək üçün ingilis politikasının nazik nöqtə və nüktələrini şərh etmək niyyəti ilə lovğa-lovğa meydana atılıb da, ancaq bir qəzetəçi sifətilə aşkara dərk etdigimiz yerlərindən bəhs etmək istəyirik. İş bundadır ki, ingilislər bolşevikin – istər Rusiyada, istər Almaniyada, istər sair məmləkətdə olsun əleyhinə qarşı politika yeridib mübarizə etməkdədirlər. Bu nöqteyi-nəzərdən, hər kəs ki, bolşevikliyə ziddir və bolşeviklıklə mübarizəyə girişir, ingilislər tərəfindən hüsni-təvəccöh qazanır. Ona görədir ki, bugün ingilislər rus bolşeviklərinə qarşı müharibə açmaqda olan denikinlərə də hüsni-təvəccöhdən başqa mühimmat və ləvazimat sarıdan dəxi əl tutub kömək göstərməkdədirlər. Deməli, ingilislərin denikinlilər ilə

olan əlaqəsinin isti və soyuqluğunu, bu axırkilərin bolşeviklərə qarşı açmağda oldığı mübarizənin mizani dərəcəsi ilə ölçmək olar. Qoy "Vahid Rusiya" tərəfdarları bu zəmində olsunlar ki, ingilislər denikinlərə kömək edib də Rusiyanı yenidən diriltmək 1914-cü sənə hüdudi daxilində bərqərar etmək istəyirlər. Biz isə heç vəxt buna inana bilmərik ki, ingilislərin ən daireyi-nüfuzuna şərik çıxan və bir gözü daima Hindistan sərvətində olan "rus çarlığını" yenidən diriltmək istəyən kim olsun? İngilislər! Halbuki bu cəhanşümul müharibədə qalib çıxan ingilislərin ələlümum politikası təbiidir, bu yolda olacağdır ki, qələbəsindən istifadə edib də müharibədə itirmiş olduğu zərərləri təzmin etməkdən başqa bir də özini nəinki yalnız Almaniya kimisi taza düşmənlərinin, bəlkə Rusiya kimi qədim düşməninin də gələcək hiylə və dəsisələrindən məsun və məhzuz qılsın.

Ona görədir ki, denikinlər ingilislərin sevmədigi bolşeviklərə qarşı mübarizə işini kənarə qoyub da "Rusiyanı diriltmək" kimi başqa "avantyura"lara iqdam edirlərsə, ingilislərin hüsni-təvəccöhiylə köməklərindən də məhrum olarlar. Denikin qoşununun "Soçi" bəhanəsilə Gürcüstana qarşı qəsd etmiş olduğu hücum xəyalpərəstanəsini dayandıran ingilistlər oldu ki, bu "fakt" yuxarıdakı sözlərimiz üçün sübuti-kafi və dəlili-şafi ola bilər. Denikin və Dağıstan Cümhuriyyəti müsadiməsi məsələsi isə, genə əgər dağıstanlılar müttəhidülqövl olsalar ingilislər əliylə toxdadılacaqdır. İndiyə qədər təvəqqətən diləməməsinin səbəbi isə başqadır ki, o barədə bildigimiz mövqei gələn vəxtında söylərik.

Bu səbəbdəndir ki, məhz bolşeviklər ilə mübarizə etmələri lazım gələn könüllüləri bolşeviklik qorxusu olmayan və biləks, bolşevikligə müxalif surətdə təşkil etmiş olan bir hökumət paytəxtində saxlamaqda ingilislərin heç bir qəsd və qərəzi ola bilməzdi. O idi ki, hökumətimizin bir kərə müraciət etməklə general Tomson həzrətləri Azərbaycan türklərinin xoşuna gəlməyən könüllüləri şəhərimizdən çıxarmağa razı oldu və razı olub da sözünə əməl etdi. Könüllülər getdilər və getmək üzrədirlər. Müdəbbir Tomson bu işdə istifadə edib də vəziyyətləri şübhəli görünən flot kimilərini də kəmali-ustadı ilə ələ gətirib əsləhələrini boşaltdı.



Bu tədbirlərin sayəsində Azərbaycan paytəxti Şimalın sağ və sol qorxularından qurtardı. Boylə ki, "Yedinaya Rossiya" kimi sağ "Vahid Rusiya"lıların ümidgahı olan könüllülər rədd edildigi bir anda "İznamiya truda" kibi sol "Vahid Rusiya"lıların da istinadgahı olan flot silahsız qalıb "zərərsizləndi".

Nəql edildigi üzrə, könüllülər gedərkən "bir zaman keçməz, Azərbaycan üzərinə hücum ilə gələrik və Azərbaycanın axırına yetərik", – deyə təhdidətdə bulunurmuşlar. Əlbəttə, qovulmaq acılığını dərk edən adam ağzına gələni danışacaqdır. Hər halda biz "könüllülər getdi və flotun silahı alındı"–, deyə rahat olub da Fətəli xan həzrətləri demişkən başımızı yastığa qoyub da yatmamalıyıq. Biz hər bir hadisə vüquinə hazır olmalıyıq, özümüzü o dərəcədə müdafiə halına gətirməliyik ki, çağrılmamış qonaqlar bir də üzərimizə "qonaq" gəlmək istəsələr, mehmannəvazlığımızın hər bir surətindən xəbərdar olub da "xörəklərimizin dadı damağlarından" çıxmasın.

Keçək flot məsələsinə.

Prjevalski ilə könüllülərin Bakıdan rədd edilmələri, sağ "Vahid Rusiya"lılar üçün gicəlləndirici bir zərbə olan kimi, flot təslimi hadisəsindən sol "vahid"lilər üçün eyni dərəcədə bir zərbə oldığını anlamaq üçün Roxlin bu münasibətlə yığılmış fövqəladə fələ konfransında söyləmiş olduğu bəyanatını oxumalıdır.

Bu bəyanatdan əz cümlə məlum olur ki, "milyoner" Biçeraxovun[1] pul və mal köməyindən məhrum qalmış olan flot əmələcatını bir növ dolandırmaq və flotu sağ "vahid"lilər əlinə salmamaq üçün "iki şər"dən ən kiçiyinə razı olub da flotı Azərbaycana satmaq istəmişlər və hesabları da boylə imiş ki, pul Azərbaycandan çıxacaq, əmma mal özlərində qalacaq. Yəni Azərbaycan hökuməti flotu alıb da "matrosları olmadığına görə" həman mövcud matrosları da məvacib ilə saxlayacaqdır və nəticədə bu olacaqdır ki, ruxlinlər məvacibsizlik üzündən zabastovka edən avtokalonlar kimi matroslar zabostovkasından azad olub da, Azərbaycan pulu ilə flotu öz əllərində saxlayacaqdırlar ki, lazım olan vəxtində toplarının ağzını Azərbaycan paytəxti tərəf çevirsinlər... Roxlinlərin alış-veriş işində müştərini aldatmaq məharətləri bütün aləmcə məşhur və kifayətdir. Lakin biz Azərbaycan türklərinin aldadılacaq dərəcədə safdərun

müştəri olmadığına qail olanlardanıq. Şübhəsiz Azərbaycan dövləti flotu başqa üsullardan vaz keçib də pul ilə almaq istəsə idi alardı və aldıqdan sonra mövcud matrosların hesabını verib də azad edərdi. Flotun bu halda bizim əlimizdə olmadığını təəssüflər etməklə bərabər əlimizdə olmasa da "ziyansız" bir hala düşməsindən dolayı məmnun olduğumuzu gizlətmirik və ümidvarıq ki, bu flot axırdan-axıra genə bizim olacaqdır, nəinki Roxlin arzusuna görə "raboçi"lərin ki, bunların flot saxlamaq kimi işlərlə gərək heç bir əlaqələri olmasın.

Qərəz solların istinadgahı zərərsizlənən kimi sağların ümidgahı da çıxıb getdi.

Çox gözəl...

Bunların bir kərə "yerli-dibli" çıxıb getmələri arzu və intizarında olub da, son söz olmaq üzrə dallarına bunu deyə bilərik ki:

– Getsinlər, gəlməsinlər!



## DAĞISTANA KÖMƏK

Şimal təhlükəsinə qarşı böyük bir səngərimiz müqabilində olan Dağıstan, bir səngər üzərinə tərəttüb edən vəzifəsini ifa etmək məcburiyyətindədir.

Qaragüruhların qaraqüvvələri, yəni Denikin qoşunları dağıstanlıların hörmətçilik və mehmannəvazlığından sui-istifadə edərək Şimal ayısına məxsus bir hərs ilə Dağıstan qartallarının üzərinə hücumlar etmək üzrədirlər. Qroznı və Qafqaz kimi şəhərlər onların əllərinə keçməklə təhlükə bəri tərəfləri dəxi təhdid etməkdədir.

Denikinlərin dağıstanlılara qarşı açmış olduğları müharibə, qaragüruha məxsus xainanə bu surətdə əmələ gəldi. Böylə ki, "əvvəlcə bizim sizə və sizin istiqlaliyyətinizə qarşı heç bir sui-fikrimiz yoxdur, yalnız bolşeviklərlə mübarizə edirik və bu yolda sizdən kömək diləyirik" – deyə safdil dağıstanlıları iğfal edib onların mərdanə köməgi ilə bolşeviklərə faiq gəldilər. Bədə bolşeviklər basıldığdan sonra özlərini o tərəfdən asudə görüb silahlarının ağzını namərdlərə yaraşan utanılmaz bir həyasızlığla qafil olmuş dağıstanlılar üzərinə çevirdilər və bu qəflətdən istifadə ilə bir neçə müvəffəqiyyətlərə nail olub da ümum Dağıstan cümhuriyyətinin istiqlal və azadlığına qarşı xainanə hərəkətdə bulunmağa başladılar. Tələb edirlər ki, Dağıstan hökuməti dağılıb ümum Şimali Qafqaz Denikin könüllülərinin malı olsun və bu maldan istifadə edib istər bolşeviklərlə, istərsə də Azərbaycan və Gürcüstan ilə müharibə edilsin.

Bu tələbi rədd etmək üçün Dağıstan Cümhuriyyəti Denikin ordusuna qarşı müntəzəm bir surətdə mübarizə meydanı açmalı və bu ordunu tarı-mar etməklə bəlanı üzərindən dəf'ə çalışmalıdır.

Pəs biz hər halda və hər bir vəchlə Dağıstana kömək etməgə borcluyuq və məsələ yalnız burasındadır ki, nə tövr kömək edəlim. Parlaman bu məsələni hökumətə vagüzar etdi və bu xüsusda ona müəyyən bir yol göstərməyib, hökumət hər tövr tədbirlər itxaz edərsə parlaman razıdır deyib hələlik bununla iktifa etdi. Biz dəxi bu xüsusda hökumətimizin müdəbbiranə və aqilanə tədbir görəcək istedadına etimadımız olduğunu qeyd edib də yalnız ümumi nəzə-

rimizi burada söylə[illegible]gı mənfəətdən xali bilməyirik ki, zatən parlamanımızın bəzi fraksiyaları dəxi nəzərdən səthi olaraq bəhs edib, deyib keçdilər.

İş bundadır ki, Denikin qaragüruh hərəkatı degil. Yalnız Dağıstana və Azərbaycana, bəlkə ümum Qafqaz cümhuriyyətlərinə, yəni Gürcüstana və zənn edirik Ermənistana dəxi aid olan ümumi bir təhlükədir. Buna görə də bu təhlükənin dəfi üçün bütün Qafqaz cümhuriyyətləri möhkəm bir ittifaq bağlamalıdırlar, boylə ittifaq ki, hər cümhuriyyət əvvəla burasını bilməlidir ki, Dağıstan üstünə yerimәkdə olan bu bəla ümumi bir bəladır. Aşkar şeydir ki, bugün Dağıstan denikinlərin qurbanı olarsa, sabah növbət Azərbaycana yetişər. Deməli, əgər bu şər Dağıstan üzərindən ittihad və ittifaq ilə dəf edilərsə, Azərbaycan dəxi o şərin gələcək təhlükəsindən qurtulmuş olar. Fəqət qomşumuzun və qomşuluqdan əlavə, həmdinimiz olan bir məmləkətin üzərinə çökmüş olan bəlaya və bu bəlanı dəfinə biz nə nəzərlə baxmalıyıq.Və bu hadisə qarşısında bizim və vəzifəmiz nə yolda olmalıdır?

Bu suallara cavab olmaq üzrə Azərbaycan Cümhuriyyətinin parlamanı müttəhidülqövl olaraq qərar qoydu ki, Dağıstana Azərbaycan tərəfindən kömək edilsin və hökumətə təminat verdi ki, bu xüsusda hər nə növ tədbirlər görsə parlaman ona razıdır.

Bəli, Dağıstana kömək etmək Azərbaycan borcludur və borcu bizim üzərimizə həvalə edən səbəblər o qədər vacib və o qədər haizi-əhəmiyyətdir ki, borcun altından qaçmağa heç bir vəchlə imkanımız yoxdur.

Öz istiqlalımızın təsdiq, təyid və təqviyyəsi yolunda çalışdığımız kimi, Dağıstan həqqində də bir o qədər çalışmalıyıq və ona görə də Dağıstan kimi bir İslam Cümhuriyyətinin denikinlər tərəfindən dağılmasına heç bir vəchlə razı olmamalıyıq.

Bu birinci səbəbdir ki, bugünkü mövcud istiqlalımızın felən müdafiəsinə aid həyati bir əmrdir.

Və saniyən dağıstanlılar bizim din qardaşlarımızdır; dindən əlavə milliyət və qövümluq rabitələri ilə dəxi biz dağıstanlıların böyük bir hissəsilə əlaqədarıq. Bu üzdən dini və milli vəzifəmiz dəxi bizi dağıstanlılara köməgə vadar edir. Denikin ordularının hücumlarına qarşı müdafiədə bulanan dağıstanlı qardaşlarımız möhtaci-imdad bir



vəziyyətdə bulunduğları halda, biz bu faciəyə biganə tamaşaçı nəzərilə baxa bilmərik, din və millət hissələrimiz coşub mütəəssim dərəcəsinə gələrdə bizi köməgə qoşmağa vadar edər.

Birinci olan həya və ikinci olan dini milli əmrlərdən başqa üçüncü olaraq siyasi bir əmr dəxi vardır ki, o da bizi köməgə icbar edən böyük səbəblərdən biridir. Boylə ki, Qafqaz cümhuriyyətləri arasında Azərbaycanda əlavə digər bir İslam Cümhuriyyəti mövcud olarsa, bunun Qafqaz müvazineyi-siyasiyəsinə gələcəklərdə böyük bir təsir edəcəgi şübhəsizdir. Bu üzdən biz öz-özlügündə başqa cümhuriyyətlərə inanıb da "bel bağlamağa" qəlbində bir itminan oldığını hiss etsin, yəni ittifaq və etibarlı ittifaq olsun. Qabağa tərəf köməgə yügürən hər bir fərd arxadan xainanə bir surətdə zərbələnmiyəcəgindən əmin olsun.

Bu cür bir ittifaqa denikinlilər əlindən (Soçi) zərbəsi yemiş olan Gürcüstanın ruy-riza göstərəcəginə ümid çoxdur. Denikinlərin ümum Qafqaz üçün təhlükə təşkil etdigini gürci qəzetələri dəxi bizimlə şərik olub əhvalatın çegunəligine lazımınca vaqifdirlər.

Ermənistana gəlincə bu xüsusda nə rəsmi dairələrinin, nə də qəzetələrinin müəyyən fikrini bilmirik. Mümkündür ki, Ermənistan, Dağıstan, Gürcüstan və Azərbaycan arxasında daldalanmasındanmı, ya başqa səbəblərdənmi Denikin ordusundan özü üçün təhlükə ehtimalına əhəmiyyət vermir.

Bu da mümkündür ki, bu axır zamanda yunan ilə yaxınlıq məsələsindən şirin söhbət açmış olan ermənilər istiqballarının əlverişli olacağını Qafqaz cümhuriyyətləri ittifaqında degil, bəlkə özgə ittifaqlardan asılı zənn edirlər.

Hər halda Dağıstan, Azərbaycan, Gürcüstan ittifaqı Ermənistansız əmələ gələrsə, o halda bu hökumətin bu ittifaqa qarşı ətf ediləcək nəzərini və ixtiyar ediləcək vəziyyətini piş əz vəxt müəyyən surətdə bilmək lazım olacaqdır.

Bizim zənnimizcə Ermənistan dəxi denikinlərin ümüm Qafqaz və əz cümlə Ermənistan üçün dəxi gələcəkdə bir təhlükə olduğunu iqrar edərsə və iqrar edib də bu ümumi planın dəxi işində özünə düşəcək borcuna kəmali-sədaqətlə əda edərsə bila dəfi bədində mənfəətdən başqa heç bir zərər görməz.

İştə, Dağıstana kömək əmrində hökumətimiz şübhəsiz bu xüsusları nəzərə alıb da Azərbaycanın həm xaricən və həm daxilən hazırlığlarına mümkün olduğu qədər səy göstərib də ümumi bəlanın dəfi və dağıstanlı qardaşlarımızın təxlisi işində Azərbaycan üzərinə düşən böyük vəzifəyi layiqilə ifa edəcəkdir.



## DÜZ YOL

Neçə gün əvvəl qəzetəmizdə şayeət cümləsindən olaraq bir cür dərc edilmişdir ki, bizim türk sosialistlərimiz öz taktikalarını dəyişib xarici sosialistlər əsasını qəbul etmək fikrindədirlər.

Baisi-məlalımız olan bu xəbər parlaman sosialistlər ittifaqı sədri cənabları tərəfindən təkzib edilməklə məlalımız rəf edilib əvəzində xoşhal olduq. Və bu əsilsiz xəbərin qəzetəmizdə nəşr edilməsindən dolayı izhar təəssüf etməklə bərabər bəyani-etizarıda bulunmağı dəxi lazım gördük.

Fəqət sosialistlərimizin rus dilində nəşr edilən "Zarya" qəzetəsi bəyan-etizarımıza iltifat etməgib, bizə istehza təriqilə kinayələr etməgi rəva görür və bu məsələ dolayısı ilə yazılmış baş məqaləsindən əz cümlə böylə anlaşılır ki, guya "Türk – Azərbaycan" qəzetəsi dəxi "Müsavat" partiyasına mənsub firqəvi bir qəzetə imiş.

Bu axırki füqərə barəsində bunu bəyan etməgi lazım bilirik ki, qəzetəmiz partiya qəzetəsi degildir. Vətən istiqlalı yolunda çalışmaqdan ibarət olan, məsləki xüsusi firqəvi proqram daxilində məhdud degildir.

Bu məsələnin genişligi, hər bir partiyanın Azərbaycan istiqlalına kömək yolu ilə denilən sözlərini və görülən işlərini qəzetəmiz sütununda təmcid və təqdir edib xalq arasında nəşri-təmimnamə böyük yol verir.

Qəzetəmizin yazılarına göz yetirməkdə olanlar şübhəsiz bunları bilirlər. Ancaq burasını da heç də gizləmirik ki, mövcud partiyalarımız arasında Azərbaycan istiqlalını kəmalınca beduni-haşiyə arzu etmək və bu yol uzunu gedərkən sağa və sola dönmək tərəddüdündən azad olub da rast bir istiqamət üzrə getmək qəsdini yalnız bir "Müsavat" firqəsində müşahidə etdigimizdən, bu firqəni istiqlal xadimlərindən ən sadiqi hesab edib onun fikr və arzularına qəzetəmizdə kəmali-məmnuniyyətlə yer verməgi özümüzə borc bilirik.

Keçək əsl mətləbə:

"Zarya" qəzetəsi burasını bilməlidir ki, fövqəlzikr xəbəri biz durduğumuz yerdə öz-özümüzdən ixtira etməmişik və qəsdimizdə

boylə bir əsilsiz xəbər buraxmaqla meydana "sensatsiya" salmaq degil idi. Müxbirimiz bu xəbəri bir yerdən eşitmişdi və xəbər sosialistlərimiz partiyasının taktikası gedişinin bizcə baisi-əndişə olan başqa bir yola çönməsi kibi calibi-etina bir fəqərə olduğundan çap etməgi lazım bildik ki, bunun doğru olub-olmadığını sosialistlərimizin öz ağzından eşidək.

Bu təşəbbüsümüzdə müvəffəqiyyət hasil oldu. Sosialistlərimiz dilləndilər və dillənib də xəbərin yalan olduğunu sözlə bəyan edib, bizi xoşhal etdilər.

Fəqət... bir var ki, "söz" ola, bir də var ki, "iş" ola. İştə, bu "iş" yəni sosialistlərimizin bu axırki günlərdə müşahidə etməkdə olduğumuz bir para rəftarı haman xəbərin təkzibə rəğmən təmamilə yalan olmadığını isbat etməkdədir. O rəftarın təfsilatından dəlil olmaq üzrə bəhs açmağı hələlik yersiz hesab edib, ümumi olaraq bu rəftara işarə edirik ki, xarici sosialistlərinin Azərbaycan istiqlalı əsasına meyl edəcəgini arzu edib, gözlədigimiz bir halda biləks bizim sosialistlərimizin ətrafının ümum Azərbaycan istiqlalı tərəfdarlar necə qeyri-qabil qəbul ədd edilən əsasları tərəfinə mail olduğlarına müşahidə edirik və bu da o zəmanda ki, bu xaricilər könüllü ordusunun gəlmədən getməsinə və öz əllərində saxlamaqda olduqları flotun tərksilah edilməsinə qarşı Azərbaycan istiqlalına və məmləkətimizin asayişinə heç də müvəffəq olmayan bir nəzər ibraz edib, təkrar bizi inandırdılar ki, bunlardan vətənimiz xeyrinə bir mənfəət gözləmək o gözdən sovt ummaq bir boş bir arzudur.

Bu səbəbdən o sosialistlərin bizə yaxınlaşması gözlənildigi halda, bizim sosialistlərimizin onlara tərəf meyl etməsi fəqərəsini "Vperyod" kibi qəzetələr təbrik edib kəmal xoşnudi ilə alqışlarsa, bizim qəzetəmiz bu xüsusda əncaq təəssüflər izhar edə bilər.



## RUS İNQİLABİ-KƏBİRİ

Bu gün rus inqilabi-kəbirinin iki ıllığıdır. Əsrlərcə hökm sürmüş olan rüs istibdadı zahirən əzəmətli görünürdüsə də, batinən o qədər boş və çürük bir halətə düşmüşdü ki, inqilab zərbəsinə davam edə bilməgib yıxıldı. İstibdad yıxılmaqla bərabər rus padşahlığının şan-şövkət, izzət və hörməti dəxi məhv olub, onun düvəli-müəzzəmə ailəsində möhtərəm bir üzv hesab olunan bu padşahlıq bugün tanınmaz və sanılmaz bir halə düşdü. Dəməli, bu şan və şövkət, izzət və hörmət rus dövləti üzərində degil, rus istibdadı üzərində imiş ki, istibdad yıxılmaqla bu şan və şövkət və sairə dəxi onunla bərabər yıxılıb, məhv olub getdi...

Rus istibdadını yıxmış olan bu inqilabi-kəbiri şayani-təzim və səzayi-ikram ədd edib hər il səneyi-dövriyyəsi hülulində bir eydi-kəbir kimi salamlayıb əhəmiyyət və əzəməti qarşısında səfbəsteyi-ehtiram olub baş əgmək layiqdirmi?

Bəli! Rus çarlığı kimi qara bir istibdadı yıxıb-məhv edən bir inqilab, bu nöqteyi-nəzərdən şayani-təzim və ehtiramdır. Lakin yalnız bü nöqteyi-nəzərdən!

Vəilla aləmşümul müharibə müşkülatı nəticəsi olaraq meydana gəlmiş olan bu inqilabın təsiri aləmşümul degildir. İstibdad yıxmaq cahan tarixində yeni bir hadisə ədd edilməz. Tarix uzunu bir çox istibdadlar yıxıldığı məşhurdur. Sosializm fikrinin rəvac və intişarına və bu yoldakı nəzəryatın həyata tətbiq edilməsi işinə gəlincə rus inqilabi-kəbiri bununla dəxi aləmi-bəşəriyyəti heyran edə bilməz. Çünki sosializm fikrini meydana atan rus inqilabı degildir. Sosializm bəşəriyyət əfradi fikrini rus inqilabından əvvəl olaraq məşğul etmədə idi və hala etmədədir. Rus inqilabı yeni olaraq meydana calibi-diqqət bir şey çıxardısa o da bolşeviklikdir. Lakin bolşevikligin ideyası dəxi sosializmdən çıxan bir fikir olaraq ruslara məxsus olmayıb, ruslara məxsus olan cəhəti yalnız bir adi və bir də bu fikrin Rusiya həyatına qismən tətbiqi keyfiyyətidir.

Fəqət rus bolşevikligi nəinki bəşəriyyəti, hətta Rusiya topragında yaşayan millətləri boylə sevindirmədi. Biləks bir çox cəhətdən ikrah edib bu fikirdən üz döndərtdi. Əgər din və millət ayrılığını aradan

götürmək istəyən rus bolşevikliyi meydana "sinif" ayrılığı salıb da insanları iki müxasim hissəyə bölməsə və yalnız şəxsin kim olur-olsun hər bir süni qeyd və əsarətdən qurtulub da tam mənası ilə hürr və azad olmasına çalışsa idi, o ümumbəşəriyyətcə təqdir ediləcək bir inqilab kimi tələqqi oluna bilərdi. Vəilla burjuyluğu öldürmək əvəzində "burjuy" adlandırdığı minlərcə bəşəriyyət əfradini divanəvar bir vəhşilik ilə öldürən bolşeviklik kənardan baxanların ancaq istekrahına mucib ola bilər.

Pəs rus inqilabi-kəbiri aləmşümul bir mənayi-hayiz ola bilmədi və yalnız bir istibdadi yıxmaq şərəfincə nami-xeyrilə yad olunub bayram edilə bilər.

Əmma... əgər rus inqilabını törədənlər bu inqilaba bəşəri bir əhəmiyyət vermək istəsə idilər, verə bilərdilər və verməgə də əllərində böyük bir vəsilə var idi.

Cahanşümul müharibə bədayətində çaylarca axan insan qanının bəşəriyyət vicdanına toxunan sui-təsirini azaltmaq və insanları öz tərəflərinə cəlb etmək istəmiş olan müharib dövlətlər: "biz bu müharibəyi əsir millətlərin azadlıq və istixlası üçün açmışıq",- deyə meydana bu kimi dilfirib bir şüar atdılar.

Bu şüar filhəqiqə əsir olan millətləri dərin bir sevinc ilə mütəəssir qıldı. Əsarətdən bilaxirə azad olmaq arzusu əsarət zülmətinin təzyiqi altında sönmüş olan ümidləri təkrar işıqlandırdı. Bir şəxsi qul halında saxlamaq kimi rəzalət və zəlalətdən qurtulmuş olan bəşəriyyət, bu aləmşümul müharibə bədində bir milləti digər bir millətə qul və əsir etmək şərəfsizligindən dəxi xilas olacaq deyə hər əsir millətə ruh verən bu şüar rus inqilabının ruhi olub da istibdad yıxıldıqdan sonra rus imperializmi qurbanı olan millətlər tamamilə azad edilmiş olsa idi, o halda bu inqilab istibdadı yıxmaq şərəfindən başqa bir də əsir millətləri azad etmək kimi cahanümun bir təsir bəxş edib "daha bir millət, digər bir millət üzərində ağa və sahib olmaz" fikrini bütün aləmə nəşr ilə ümumcahanda əsir halında yaşayan millətlərin istixlasına böyük bir yol açmaq izzəti ilə şayani-təzim və layiqi-ehtiram sanılan cahanı bir inqilabi-kəbir olardı.

Millətləri azad etmək fikrinin nə qədər haizi-əhəmiyyət bir ideya olduğunu bolşeviklər rəisi Lenin[1] dəxi iqrar edirmiş ki, aləmi-islama



muraciətən bir intibahnamə buraxıb "sizləri imperializm əsarətindən azad edəcəyik",- deyə müsəlmanların təvəccöhünü qazanmaq istəmişdi.

Əgər Lenin öz sözünə əməl edib də Rusiyadakı millətləri azad etmək kimi məqduri olan əmri yerinə yetirsə idi, bolşevikligə böyük bir xidmət göstərmiş olardı, halbuki azadlıq əvəzinə nə gördük? Azad olmağa cürət etmiş olan millətlərin bolşevik qoşunları tərəfindən qətliam edilməsini gördük... Və bu qətliam hansı millətlər üzərində icra edildi? O millətlər üzərində ki, imperializm əsarətinin ən ağırbənd və zəncirləri altında inləməklə hamıdan əvvəl azad olmağa möhtac və layiq idilər.

O millətlərin bir çoxu "yanğıdan çıxdım, yaluva düşdüm" məfadincə, Nikolay istibdadı zülmündən xilas edilib də bolşevizm əsarəti altına düşməklə, indi də bu əsirliyin qurbanı mənzələsində acı və ağır bir ömür sürməkdədirlər...

Türküstan, İdil[2] boyu və Qərim[3] müsəlmanlarının təkrar əsarət altında qalmalarına acınmaq və yanmaqla bərabər, sevinirik ki, biz Azərbaycan türkləri qəhrəman Osmanlı türk qardaşlarımızın imdadi-bəradəranəsi ilə bizi əsirlik təzyiqi altında məhv etmək istəyən, rus inqilabçılarının müxalifi-insaniyyət olan bu arzusuna qarşı qiyam edib qanlar tökdük, canlar qurban etdik, xanimanlar yandırdıqda bilaxirə əsarətdən qurtulduq, lakin bu əsir saxlamaq hərsi nə qədər "şirin" bir ehtirasat qəbilindən imiş ki, bu ehtirasat mərəzinə mübtəla olan güruhlar hər bir növ ilə dami-təzvirlər qurub bizi təkrar əsir etmək həvəsilə dörd tərəfimizdə dolanırlar.

Lakin səyləri bicadır. Dami-təzvirin nə yerlərdə gizlədilmiş olduğunu görən gözümüz və hiylə kəməndinin iplərini qıracaq qollarımız olduğu kimi demokratizm, sosializm fikirlərinin də mənasını anlayacaq başımız vardır. Bugünkü arzumuz xarici əsarətdən qurtarmaqdır. Vətənimizin daxili tərzi-idarəsini təyin və təşkil etmək isə öz xüsusi işimizdir. İstərik bolşevik idarəsi quraq, istərik menşevik olaq, qərəz özümüz bilərik, millətimiz öz səlahına baxar və ümummillət əfradının mənafeyini nəzərə alıb hürr və azad olaraq demokratik bir dövlət əmələ gətirər. Arzuyi-yeganəmiz, təkrar edirik ki, özgələrin əsiri və qulu olmamalıdır. Vəssalam!

## MÜAMİLATİMİZƏ AİD

Qafqaz cümhuriyyətləri arasında "sabiq hakimlərimiz" mənzərəsində olan ruslara qarşı ibraz edilən münasibat və müamiləti bir bitərəf surətilə mühakimə və müqayisə edən olarsa hüsni-müamilat və hörmətli münasibətin hamıdan artıq Azərbaycan ilə Dağıstandan görüldügü əlində qeyri- qabil rədd və təkzib dəlillər ilə isbat etməgə geniş bir qüdrəti olar.

Filhəqiqə Azərbaycanda yaşayan ruslar özlərini yabançı bir dövlətdə olmaqlarını hiss etməməgə hal-hazırda heç bir haqları yoxdur. Bu saət rusları sığacaq, rus adət və məişətinə yakışmayacaq və rusların həyat korluğu çəkməsinə səbəb olacaq heç bir qanunumuz yoxdur ki, rusların bizdən şikayətinə səbəb olsun. O hüquq ki, Rusiya biz Azərbaycan türklərindən müzayiqə edirdi. Azərbaycan ruslardan müzayiqə etmir. Bu surətdən vətənimizdə olan ruslar tərəqqi, təməddün, dövlət, sərvət və sair təkəmmülati-milliyələri yolunda çalışmağa Azərbaycan hökuməti tərəfdən indiyə qədər heç bir məmaniət görməmişdirlər və bundan sonra da görməzlər.

Azərbaycanın istədigi yalnız budur ki, vətənimizdə yaşamağı ixtiyar etmiş olan ruslar bizim istiqlalımıza zərər yetirə bilən və müstəqil bir hökumət şan və şərəfini kəsr edə bilən hərəkat və müamilatdan çəkinib fərağat və sakit dolansınlar və kəmali-istirahətlə yaşamaq istərlərsə, bu istirahəti pozacaq səbəblərə yol verməsinlər.

Kəmali-məmnuniyyətlə qeyd edə bilərik ki, Azərbaycanda bizim bu nəzərimizə şərik olan ruslar vardır, bunlar bu günlərdə şəhərimizdə nəşrə başlayan "Russki mısl" qəzetəsinin başında duran rus ünsüridir ki, Azərbaycanın ruslara qarşı göstərməkdə olan hüsn və münasibətini təqdir ilə istiqlalımıza kin və küdurət nəzərilə baxan cinslərini bu əgri yoldan döndərmək niyyətindədirlər. Biz bu niyyətin xalis olduğuna inanırıq və "Russki mısl" başındakı partiyanın müxaliflərə müqabil gücləməsini arzu edirik. Bir arzumuz dəxi budur ki, bu partiya Azərbaycanda rus ünsüri müməssəli məsələsi işində ciddiyyətlə girişib bugün "rus milli komitəsi" namilə meydanda isbati-vücud etməkdə olan "Yedinaya Rossiya"çıların bu nami üzərlərinə götürməkdə nə qədər həqlı olub-olmamağını aşkar etsinlər. Çünki "Yedinaya Rossiya"çılar tərəfindən Azərbaycana qarşı ittixaz edilmiş olan vəziyyət əvvəllərindən günə qədər o dərəcə bədxahanə və hətta müfəttinanə bir rəngdədir ki, bu vəziyyət politikası nəticəsində ruslar ilə Azərbaycan türkləri arasında bir bürudət və gərginlik əmələ gələcək ehtimalı meydandadır.

Bu bürudət gedə-gedə kəsbi-hərarət edərsə, axırda ruslar üçün xeyirli nəticələr verməz və təbiidir ki, vətəndaşlıq hörməti təmamilə rəf olub düşmənçilik əmələ gələr.

Əgər biz Azərbaycan türkləri türklik və islamlığımıza məxsus alicənablıq hissiyatı sovqilə rahruluq etməsə idik ruslar Azərbaycanda bu qədər asudə dolana bilməzdilər. Halbiki keçmiş və gələcək siyasiya nöqteyi-nəzərindən isti hissiyata dalmayıb, soyuq bir əql hökmünə tabe olmaq şərt edilərsə ruslara nisbət başqa cür müamilat işlətməgə bizim həm tarixi və həm siyasi həqqimiz vardır.

Biz ruslara deyə bilərik ki, siz qafqazlılardan hüsni-müamilə umursunuzsa, bunu öncə öz xristianlarınızdan umun, o xristianlar ki, bir neçə əsr bundan irəli rus çarlığının ağuşi-"madərane"sinə atılmağla öz ixtiyarilə öz istiqlaliyyətlərindən məhrum edildilər. Bizdən nə yaxşılıq ummağa həqqiniz var bir surətdə ki, qılıc və atəş zoru ilə istiqlaliyyətimizi əllərimizdən cəbrən alıb bizi əsir və qul surətində bir əsr saxladınız və sair millət arasında həmişə xar və zəlil olmağımıza səy edib məhvimizə də çalışdınız.

Lakin biz təkrar istiqlalımıza nail olduqdan sonra bu sözləri ruslara demədik və demək istəmədigimizi də hiss müamilatımız ilə əlnən isbat etdik. Böylə olan surətdə bir para rusların "Yedinaya Rossiya"çıların həqqşikənanə politkası sövqi ilə bizlərə kin və kidurət ilə baxmağa heç bir həqləri yoxdur. Bizim elani-istiqlaliyyət etməgimiz rusluq şərəfini əksildən və ruslara qarşı həqarətədd edilə bilən hadisələrdən olmayıb da əvvələ payimal edilmiş hüququmuzun istirdad və mühafizəsi və saniyən "Azad millətlər" şüari kimi əsrimizə layiq ən böyük və ən müqəddəs bir fikrin hüsulinə felən

xidmət göstərən və təkamüli-bəşəri qəbilindən layiqi-ehtiram olan tarixi bir vaqeədir. İşə bu nöqteyi-nəzərdən baxmaq və "Ağalığımız əlimizdən getdi" – deyə əfsuslar etmək – çürük fikirliliyə dəlalət edən bir həqiqətdir ki, bu fikrin arşını ilə bizi və bizim müamilatımızı ölçmək istəyənlər böyük bir zəlalətdədirlər.



## YARAŞMAZ HƏRƏKƏTLƏR

Bugünkü nömrəmizdə dərc edilmiş olan Axsxa hadisələrinin mövsuq bir mənbədən yazıldığı bizcə məlumdur. Biz orada yazılanların doğruluğuna əfsus ki, inanırıq. Ondan ötrü əfsus çəkirik ki, bu yazılanlara inanmaqla dostumuz olan Gürcüstan hökumətinin rəsmi qoşunu tərəfindən Axsxa[1] və Azğur[2] müsəlmanları haqqında rəva görülmüş zülmlər icrasına dəxi inanmağa məcburuq. Bu əhvalatın ümum müsəlmanlara, baxüsus Azərbaycan türk və islamlarına fəna surətdə təsir edəcəgi şübhəsizdir. Bizim təəssüratımız isə oxucularımızınkından daha şiddətlidir, çünki bu yazılanların bir para yerləri vardı ki, məzlumların hali-cigərsuzunu və zalimlərin vəhşətini o dərəcə şiddətli göstərirdi ki, bir tərəfdən qarelərin əhvali-pərişanını bir daha pərişan etməmək, digər tərəfdən arada arzu edilməyən bir xüsumət ehdasına səbəbiyyət verməmək qəsdilə, idarəmiz daxilində bilinsə də, idarə xaricində bilinməsin deyə, o yerlərini pozmağa məcbur olduq.

Qafqaz türk və islam ünsürlərinin bir hissəsini təşkil edən axsxalılar haqqında bu qədər zülm və sitəmin gürcülər tərəfindən icra edildigini eşidərkən insanın əl-ayağı boşalır və heç bir şeyə və heç bir kəsə inanmamaq, hər kəsdən və hər bir şeydən rugərdan olmaq arzusu əmələ gəlir. Bu arzunu rəf etmək və gürcü qonşularımıza qarşı bəsləməkdə olduğumuz rəğbət və xeyirxahlıq hissini xələldar etməmək qəsdilə gürcü qoşunu vəhşətinin qəlbimizdə caygir olmaq istəyən fəna təsirlərini azaltmaq üçün bu hadisələrin səbəbi-vüqui haqqında gürcülər xeyrinə olaraq nə qədər fikirlər edəriksə də, o təsirləri kiçiltmək mümkün olmayır, çünki Axsxa müsəlmanlarının bu cürə zülm və sitəmlərə müstəhəqq olacaq dərəcədə günahkar olduğunu təsəvvürə gətirə bilmirik. Siyasi günahlardan ən böyüyü mətbu dövlətə qarşı xəyanət əməlidir ki, bu günaha mürtəkib olanları dəxi o cür cəza və intiqama layiq bilmək baxüsus bu halda və bu zəmanda əsla caiz degildir. Və halonki vəhşəti törədən səbəb xəyanətifilan olmayıb, bəlkə gürcü məmurlarının yerli əhali həqqində rəva gördükləri sui-müamilatdan əmələ gələn bir vaqeədir.

Məlum olduğu üzrə, hökumətimiz Axsxa türkləri haqqında rəva görülmüş olan bu zülmü eşidər-eşitməz, gürcü hökumətinə bir nota göndərib bu xüsusda protesto etdi. Bu notaya cavab olaraq gürcü hökuməti bizim protestomuzdan incidiyini bildirir və höklümətimizin rəftarını Gurcüstanın daxili işlərinə qatışmaq deyə adlandırıb izhari-təəccüb edir.

Axsxa və ümumən Qərbi Qafqasiya torpağı məsələsi Qafqazda beynəlmiləl bir məsələ şəklini aldığı degil, Azərbaycan və Gürcüstanda, hətta Qafqazda olan müttəfiqlər nümayəndələri tərəfindən etiraf edilən bir vaqeədir. Oralarda baş verməkdə olan hadisat və hərəkatın ruhi həm Gürcüstanı, həm Azərbaycanı, həm Dağıstanı və həm də Ermənistanı bugün müstəqil bir hökumət şəklində bərqərar etdirən eyni ruhdur. Görünür ki, Gürcüstan hökuməti istiqlalından əvvəl bu ruhun pərəstişkar və sənaxani olarkən istiqlali bədində başqa bir neqteyi-nəzərə köçüb "Azad millətlər" məsələsində müəyyən görünən ümumi nəzərə şərik olmaq istəmiyor. Yəni gürcü hökuməti millətlər azadlığı degil, Gürcüstan azadlığı nəzərini iltizam edib, qədim Gürcüstanın tarixdə mövcud olan yerlərini təmamilə ələ gətirmək üçün qədim Gürcüstan yerlərinin bugünkü etnoqrafi dəyişiklərini nəzərə almayıb, "Azad millətlər" şüarını tapdalaya-tapdalaya mənzili-məqsədə tərəf yeriməkdədir.

Əvvəla, burası var ki, tarix məsələsi mübahisəli bir məsələdir. Əgər işə bu məsələ nöqteyi-nəzərindən baxmaq lazım gəlirsə, o halda degil, yalnız bir Gürcüstan tarixini araşdırmaq bəlkə başqa Qafqaz millətləri tarixlərinin də səhifələrini vərəqləmək lazım olar.

Və saniyən tarixə istinad edib də bugünkü Qafqaz mil- lətləri vəziyyətini və Qafqazın etnoqrafi xəritəsini nəzərə almamaq buna bərabərdir ki, "özu yaşamaq istəyib də, özgələrə yaşamaq imkanı verməmək", halbuki biz indiyə qədər gürcü qonşularımızı bunun əks tərəfdarlığı ilə tanıyıb "özu də yaşamaq, özgəni də yaşamağa buraxmaq" mənasında olan arzularını daima alqışlardıq. Əgər bugünkü Gürcüstanın idareyi-ümuru mütəəssib millətçi bir hökumət əlinə tapşırılmış olsa idi, "Azad millətlər" şüarı xilafına olan bu rəftar bizi bir o qədər təəccübləndirməzdi. Halbuki bu gunə rəftarın sahibi millətçi degil, bəlkə sosialist hökumətdir və bizi də təəccübləndirən və heyrətə gətirən bu sosialist hökuməti bir mütəəssib millətçi məsləkinə yaraşan hərəkət və rəftarıdır...



İştə biz azərbaycanlılar "Azad millətlər" şuarı tərəfdarı olduğumuz cəhətdən Qərbi qafqazlılar turk və islamlarının halına yanırıq və bu yanğımızı Gürcüstan hökuməti daxili işlərinə qarışmaq qəbili-hərəkətdənədd etmərik.

Bundan əlavə Gürcüstan hökuməti bunu da bilməlidir ki, təhti-hökumətində olan türk və islamların hər bir ehtiyacat və diləklərinə cavab olaraq top və pulemyotlarla iş görəcəksə, Azərbaycan hökuməti bu cürə işə yəni, həmcins və həmdin olan məzlumların ah və fəryadına iğmazi-eyin edə bilməz. Bu hökumət bizimlə dostluq etmək istərsə bu dostluğun əlamətlərindən olmaq üzrə öz təhti-hakimiyyətində yaşayan müsəlmanlarla hüsni-müamilədə bulunmalıdır. Dostluğumuzu möhkəmləşdirəcək olan bu müamilə Gürcüstanın öz daxili işlərinə də hüsni təsir edəcəgi şübhəsizdir.

Yoxsa bugün Qafqaz müsəlmanları arasında öz fəaliyyət millətpərvəranəsilə məşhur olan Faiq əfəndi[3] kimi möhtərəm zatların Gürcüstan məclislərində təhqir edilməsini, o biri gün Axsxa müsəlmanlarının topa və gülləyə tutulduqlarını eşidəcək olarsaq, təbiidir ki, gürcülərə qarşı qəlbimizdə bəslədiyimiz olan meyil və rəğbət hissi get-gedə məhv olub özündə qeyri-məmul hisslər peyda olar. Bu isə Gürcüstanın və gürçülərin xeyri degildir, zənn edirik.

Ümidvar oluruq ki, bu günlərdə səmimiyyət ilə alqışladığımız olan Gürcüstan məclisi-müəssisanı bu hadisata dərin və geniş bir nəzərlə baxıb, Qərbi Qafqaz müəssisəsi həllində "Azad millətlər" şüarına riayətdən əlavə Gürcüstan təhti-hakimiyyətində olan müsəlmanların bütün ehtiyaclarını rəf edir və həqsız olaraq top-tüfəng istemalını öz hökumətinə tərk etdirər.

# YENİ KABİNƏ TƏŞKİLİNƏ DAİR

Fətəli xan Xoyski həzrətlərinin istefası həqqında yazmış olduğumuz "Yeni böhran"[1] sərlövhəli məqaləmizdə Xan həzrətlərinin bu qədər zəhmət və məşəqqətlər bədində istirahətə ehtiyacı olduğunu iqrar və etiraf etdik və yeni rəüsülvüzəra seçkisində lazım olan şərtlər riayətindən bəhs açıb, bu şərtlərdən ümdələri olmaq üzrə ikisini göstərdik və dedik ki, yeni rəis əvvəla fəal, bacarıqlı və saniyən sahibi-təcrübə olmalıdır.

Görünür, parlaman sədri Həsən bəy[2] həzrətləri dəxi bu nəzərə şərik imiş ki, kabinə təşkili üçün rəis ararkən bir taqım xüsusi şərtlərdən əlavə bu iki şərti dəxi nəzərə alıb kabinə təşkili işinə sabiq kabinə əzalarından maarif naziri Nəsib bəy Yusifbəyli[3] həzrətlərinə həvalə edibdir.

Nəsib bəy həzrətlərinin fəal və son dərəcə çalışqan bir zat olduğu bizə məlum olan kimi onun keçmişdə gördükləri işlərdən xəbərdar olanlara dəxi məlumdur.

Karkünlikdən əlavə xüsusi təbiətində Hafiz əleyhirrəhmənin[4] "badustan mürüvvət, badüşmanan mədara"[5]

Kəlami-hikmətamizi məfadınə müvafiqət edən və bununla bərabər həqqı nahəqqə verməməkdə sahibi-səbat olan bir mizacə malik olduğunu da o zatı yaxından tanıyanlara məlumdur.

İdareyi-məmləkət işindəki təcrübəyə gəlincə Azərbaycan istiqlalı elanı günündən bəri bir nazir məqamında qalaraq təbiidir ki, bu mühüm işdə tam bir vüquf sahibi olub, işin nərədən başlandığından, nə yerdə qaldığından və nə yolda davam etdirmək lüzumundan kəmalincə müxbirdir.

Məsləki-siyasisinə gəlincə əsl demokrat və geniş nəzərli səmimi bir millətpərəst olduğu "Müsavat" partiyasına mənsubluğuna görə degil, bəlkə özünün tərzi-məişətindən qövl və felindən görünən aşkara bir həqiqətdir.

Bu üzdən idareyi-ümur məmləkətdə məqami-riyasətin karkün kardan və sahibi-təcrübə olan sınanmış bir millətpərəst əlinə tapşırılmasından naşi məmnun olub da gələcəgə xoş nəzərlə baxırıq.

Nəsib bəyin birinci ağır və müşkül vəzifəsi, özünə tapşırılmış olan kabinə təşkili məsələsinin həllidir. Bu məsələnin o sayaq, bu sayaq həll edilməsi, təbiidir ki, Nəsib bəyin özünə məxsus olan



gələcək fəaliyyətinə böyük təsir edəcəkdir. Müəyyən bir işə girişən həm qətarların, əvvələvvəl həmfikir olmaları birinci şərtdir. Arada bu şərt olmazsa Krılovun[6] "Ördək, balıq və xərçəng" hekayəsi doğru olub "araba yerində qalar" və iş yeriməz.

Həmfikir kabinə təşkili əmrində işi çətinləşən kabinənin koalisiyon (müştərək) olmaq şərtidir. Yəni kabinə əzaları hər fraksiyaya mənsub adamlardan seçilməlidir. Halbuki hər bir fraksiyanın özünəməxsus siyasi məsləki və xüsusi proqramı olduğundan ümuriidarəcə bütün ümumi və xüsusi işlərdə həmfikir olan kabinə təşkil etmək həqiqətən çətin bir əmrdir. Nəsib bəy gərək bu çətinlikdən çıxsın və kənari-təzyiqata qarşı durub da özünə yoldaş olmaq üzrə öz bəyəndiklərini, yəni hər bir cəhətdə etimad və etibar etdigi adamları seçsin. Ümumi və xüsusi idarə işləri arasında əvvəl-əvvəl əsası bir məsələ var ki, o məsələ üstündə kabinənin bütün əzaları hansı fraksiyadan olur-olsun biduni-şərt və şrut mütləqən həmfikir olmalıdır. O əsasi məsələ istiqlal məsələsidi ki, qeyd və haşiyə qəbul etməz bir əsasdır. Bu əsası zahirən və batinən qəbul etmiş olan əzalar xüsusiyyət cəhətlərincə də mədaza ilə iş görmək istedadına malik olarlarsa, bir kabinə əmələ gəldi, inşallah, "araba yerində qalmaz" degib, ümidvar ola bilərik, bu şərtlə ki, bir də bu əzalar fəal və çalışqan və iş bacaran olalar.

Biz umidvarıq ki, Nəsib bəy həzrətləri hər bir barədə layiqli bir kabinə əmələ gətirmək işində məharət göstərib bu çətin əmrin öhdəsindən gələrlər və tezlik ilə kabinə təşkil edib də məmləkəti böhrandan xilas edərlər. Bu xüsusda müvəffəqiyyətlərini kamali-dil ilə arzu edənlər cümləsindəyik.

## CİDALAR GÖRÜNÜR

Azərbaycan istiqlaliyyətinin saf vüsulini tutan və meydani-siyasətdə dəxi məqamları sağdan və soldan ibarət olan bədxahlarımız bəzən olur ki, bizə qarşı hazırlaşmış olduqları cidalarını əlaltı bir politika xatirəsi üçün ciblərində gizlətmək istiyorlar ki, biz görməyək və bir gün bizi cidalamaq istərlərsə, biz qəflət altında olub həmlələri rədd və dəf edə bilməyək. Lakin cida cibə sığmayır və sığmayıb da itilənmiş və zəhərlənmiş olan ucunu bizə göstərib guya zəban-halı ilə degir ki, xəbərdar olun! Qəflətə uymayun, sipər və qalxanlarınızı həmişə hazır saxlayın yoxsa böyrünüz deşilər və yarası zəhərlənər!.. Zəhərli yara isə möhlik və öldürücüdür.

Məvərayi-Qafqaz cümhuriyyətləri içində nə Gürcüstanın kabinəsi müştərəkdir, nə Ermənistanın. Bunların kabinələri – yəni hökumət əzası heyəti bir cinsdir. Böylə ki, Gürcüstan vəzirlərinin hamısı gürcü olan kibi Ermənistanki də hamısı ermənidir. Lakin bizim Azərbaycanda məlum olduğu üzrə, böylə degildir. Kabinəmiz müştərəkdir. Hökumətimiz əzaləri içində müsəlmanlardan əlavə xaricilər dəxi vardır. Müxtəlif millətləri olan bir məmləkətdə, bu əhvalın iqtizası olaraq, müştərək bir hökumət mövcud olması-geniş siyasət yeridənlər nəzərincə şayan-təqdir bir haldır ki, bunun bizdə tətbiqi ədalətimizi bildirən və dargöz mütəəssüb olmadığımızı aşkar edən gözəl bir dəlildir. Biz müştərək kabinə təşkil əsasını qəbul edib də böylə adlana və münsifanə rəftarımıza heç bir kəsdən "mərhaba" və "afərin" gözləmirdik, fəqət gözlədigimiz bir şey vardısa o da bizim kabinəyə daxil olmaq istəyənərdən ümid etdigimiz sədaqət idi. Biz kabinəmizdə Azərbaycan istiqlalı tərəfindən olmayan və ya Azərbaycan istiqlalına toxunan hərəkətlərdən məmnun görünən bir vəzir ola bilər ki, ehtimalına yol vermirdik və əmin idik ki, kabinəmizi təşkil edən əzalər türk və müsəlman olsun, ya xarici olsun istiqlal əsasında möhkəmdirlər. Bundan əlavə vəzirlik mənsəbinə qəbul edən bir zatdan, xain deniləcək qədər dövriyyə olacağını təsəvvürümüzə böylə gətirmirdik.

Lakin heyhat! Biz safdərunluğa məxsus səhv də etmişik... Kabinəmizdə öylə bir vəzir varmış, öylə bir vəzir ki, dövriyyəlik kimi alçaq və xainanə bir sifəti haiz olub da bu sifəti Azərbaycan Cümhuriyyəti vəzirinin şərəf və heysiyyatına yaraşan bir sifət bilirmiş. Bir



vəzir Azərbaycan dövlətinin maliyyə vəziri məqamını işğal etmiş olan Protasov cənablarıdır ki, hökumətimizin istiqlalımızı təhdid edən denikinlərə qarşı ciddi politikasından məmnun olmayaraq istefa vermək məcburiyyətindədir.

Bu şəxsin istefası öz ixtiyari iləmi və ya bunun dövrüyəligini sezmiş olan hökumət rəisinin təklifiləmi vaqe olur – bu başqa bir məsələdir. Mətləbimiz bundadır ki, Protasov bizim içimizə saf cinah cərgəsindən gəlmə bir şəxsdir ki, bu tövr hərəkətlə dövrüyəlik göstərib sağ cinahda duranların cidasını çiynində gizlədə bilmədi və cidanı bizə göstərməgə məcbur oldu.

Bu əhvalın yeni kabinə təşkili işimizin bidayətində vüqu bulması – şayani-ibrət bir keyfiyyətdir. Deməli, yeni kabinə təşkil edilərkən kabinəmiz içində Protasov kimilərin bir daha olmayacağını ümid etməliyik.

Sağ cinahın cidasını görmək üzrə idik ki, sol cinah dəxi öz cidasını gizlədə bilməyib, o da göstərdi.

Qüvveyi-"Bərqiyyə" cəmiyyətinin sosialist fələləri məvacibləri-nin bir neçə saat gec verilməsini bəhanə edərək Bakı müsəlmanlarının və müsəlman demokratiyasının bayram axşamını şami-qəribanə münqəlib elədi. Zənn edilməsin ki, "inqilabiyyun"ların bu "münqəlib" hərəkəti yalnız müsəlman "burjuy"larını qaranlıqda qoyub, bayram şənliklərinə mane oldu. Bakı müsəlman füqarayi-kasibəsi evində elektrik işığına adət etməyibdirsə də, şəhər küçələrinin adi günlərdəki işığına adətkərdədir. Bu füqəra adi gündə işıq görünən küçələrin, əziz bayram axşamı bulutlu bir gecədə tam zülmətə dönməsindən mütəəssir olmazmı idi ki, füqərayi-kasibə tərəfdarı olanlar bu nalayiq hərəkəti özlərinə rəva görüb, bir millətin əziz bayramına qarşı bu qədər ehtiramsızlıq göstərdilər!..

"İskra"ların bu nalayiq hərəkəti fələlərin xodsəranə bir rəftarı deyə adlandırmasından və acınmasından bizə bir təsəlli ola bilməz. Biz bu hərəkəti, sol cinahın bizə qarşı bədxahına heysiyyatından təvəllüd edən bir rəftar surətində tələqqi edub də "İskra" çılara bunu deyə bilərik ki, əbəs yerə acınmayın! Cüdanı cibdə gizlətmək olmaz...

Özümüzə gəlincə arzumuz budur ki, bu cidaları görən gözümüz olsun!

## ORDUMUZ

Bir neçə zaman bundan əvvəl parlaman iclaslarının birində hərbiyyə nazirimiz general Səmədbəy Mehmandarovun[1] ordumuzun təşkili haqqındakı bəyanatını dinlədik. Ordu görməmiş, rəsmi əskərliyə adət etməmiş olan millətimiz içində birinci qədəm olaraq ordu təşkil etmək işinin nə qədər çətin bir əmr və bu işin bu qat-qarışıq zamanda nə tövr müşkülat və maniələr qarşısında əngəllərə düçar olduğunu eşidib, bütün çətinliklərini təsəvvürə gətirməklə bu çətinlikləri rəf və izalə edəcək olan zatın nə qədər sahibi-qüdrət və maliki-qüvvət bir orqanizator olması lüzumunu da dərk etdik. Bu təsəvvüratdan hasil olan təəssüratın o rəng və ya bu rəngdə olması hərbiyyə nazirimiz olan general həzrətlərinin istedadına bağladığımız ümidin qəvi və ya zəifliginə vabəstə idi. Rus ordusunda əskərlik istedad ilə məxsusi bir məqam qazanmış və Port-Artur[2] mühasirəsində böyük qəhrəmanlıqlar göstərməklə ad çıxarmış olan Səməd bəy həzrətlərinin bacarıq və istedadi-əskəriyyəsinə ümidimiz bər kamal idi. O idi ki, general həzrətlərinin bəyanatını dinləyib də ordu təşkili işimizin bütün çətinliklərini təsəvvürə gətirməklə bərabər, general həzrətləri bu çətinlikləri rəf edər deyə ümidvar olduq.

Ümidvar olmağımızda da səhv etmədik. Həqiqət Gəncədə "Novruz"[3] münasibətilə qurulmuş olan Azərbaycan ordusu rəsmi keçidini gördükdən sonra, ordu təşkili işimizin kəmali-intizam ilə irəli getdigini bileyn müşahidə edib qəlbimizdə dərin bir əminlik hasil olduğunu hiss etdik.

Ordu təşkili işimiz bu intizam ilə davam edirsə bir qədər zamandan sonra mükəmməl bir ordusilə sayılan bir dövlət olduğumuzu hər kəs iqrar etməgə məcbur olacaqdır.

Arzumuz budur ki, qoşunumuzun bir kərədə manevrasını görək. Boylə manevra ki, böyük bir əndazədə qurulub ordu hissələrimizin hər bir əməliyyatına şamil və came olsun. Ümid edirik ki, havalar düzəldikdən sonra general həzrətləri bunu da bizə göstərməklə qəlbimizi şad etməkdən əlavə, aramızda əskərlik hissiyyat və həvəsini qat-qat artmasına da böyük bir səbəb olarlar. Bunu intizar etməklə bərabər cəhandidə və kar azmudə nazirimizə artıq-artıq müvəffəqiyyətlər diləməkdəyiz.



## 31 MART

Şenidəm qusfəndira bozorgi
Rəhanid əz dəhan dəste-qorgi
Şəbangəh qand bən həlqəş bemalid,
Rəvan qusəfənd əz vey benalid
Ke əz cəngal görqəm dər robudi
Çe didəm aqibət qorgəm dər rübudi[1]

Rus mütləqiyyət istibdadını kökündən yıxmış olan rus inqilabi-kəbiri, mütləqiyyətin zəncir əsarətinə giriftar olmuş olan millətləri azad etdi. Əsrlərcə zəncirbənd qalmış olan zavallı millətlər uyuşmuş bədənlərinə bir hərəkət verib qol-qanadını açmaq istəgirdi ki, mütləqiyyət istibdadı əvəzinə Rusiyada bolşevizm istibdadı caygir olub bədbəxt millətləri təkrar əsarət zəncirinə vurmaq əməlinə girişdi.

Bolşevizm amalına qarşı müqavimət göstərmək istəyənlərlə "qrajdan" müharibəsi açan və istiqlal üzrə yaşamaq istəyənvə boylə yaşamağa haqqı olanlarla dəxi milli cəngə girişən rus bolşevizmi, "Azad millətlər" şüarını həqarətlə tapdalayıb bu millətlər füqərayi-kasibəsinin və demokratiyasının canını və malını dəmir və atəşə tutmağdan çəkinmədilər.

O idi ki, rus bolşevizmi araya bir "qrajdanski" və bir də milli olmaq üzrə iki rəngli müharibə salıb çaylarca qanlar axıtdı. Milyonlarca bəşər övladını tələf etdi, yüz minlərcə evlər viranə qoydu və bu qanlı vaqeədən hasil olan təəssürat, təbii, boylə bir əqidə törənməsinə səbəb oldu ki, rus inqilabi, yalnız bir rusluğa müxtəs olub çarizm istibdadını qaldırmaqla degil, ümum millətləri, bəlkə rus xalqını bu istibdad təhtindən qurtarıb, digər millətləri təkrar əsarət altında baqi saxladı. Yalnız bir fəqər bu oldu ki, bu əsrlərin keşikçiləri əvvəl rus çarizmi idi, bu səfər isə rus bolşevizmi oldu. Hər halda əsirlik aradan götürülmədi. Qurd əlindən qurtarılmış quzu, qurtaranın yemi olmaq məcburiyyətində qaldı...

Bir əsr bundan əvvəl müstəqil yaşamağda olan azəri türkləri, rus istibdadının yıxıldığını görüb, təkrar müstəqil yaşamaq ümid fərəh-

bəxş ilə şad olub, istiqlala hazırlaşmaq üçün tədarükatda bulunmağa başladılar. Lakin yeni hakimlərimiz bu fikirmizi duyub həmandəm əks tədarükat görməyə iqdam edib. "Biz sizə istiqlal əvəzinə xarabazarlar verərik, torpağınızda daşı-daşüstə qoymarıq",– deyə barmaq işarəsi ilə hədələdilər.

İstiqlalımıza qarşı itxaz edilmiş olan sui-qəsdlərində özlərini "inqilabçılıq" nöqteyi-nəzərindən haqlı göstərmək niyyətilə adımızı "kontrrevolyusoner" qoyub hücuma hazırlandılar, hazırlanıb da başımıza mart fəlakətini gətirib, hədələrinə müvafiq olaraq, paytəxtimizi xarabazara döndərdilər.

Çarizm zənciri-əsarətindən yenicə qurtulmuş olan azəri türkləri bir əsr müddətində əsarətin ağırlıqlarından o qədər zəif düşmüşdi ki, istiqlalını müdafiə etməgə və istiqlal düşmənlərinə qalib gəlməgə qüdrəti yox idi. Bu zəiflik degil yalnız maddi və cismani qüvvətimizi, bəlkə bütün mənəvi və ruhani qüvvələrimizi də şamil olub bədənimizin bütün qüvveyi-ruhaniyyə və cismaniyyəsini atil qoymuşdu və bu ətalət o dərəcə idi ki, özümüzü müdafiə vəziyyətinə salmağa dəxi qüdrətimiz olmayıb düşmənin hücum və təərrüzləri qarşısında üryan bir bədənlə əli-qolu bağlı yıxılıb "ölüm-dirim" məsələmizin o tövr və ya bu tövr həlli düşmənin rəhminə və ya rəhmsizliginə bağlı idi.

Bundan fəna bir hal olmaz ki, sənə qarşı təcavüz edilə və sənin də bu təcavüzi dəf etməgə heç bir vəsilən olmuya.

Bakı müsəlmanları mart günlərində bu halda idilər!

Və əgər türklər, Osmanlı türk qəhrəmanları vaxtlı-vaxtında gəlməsə idilər, azəri türkləri Bakı həzimətindən sonra özlərini yığışdırıb müdafiəyə hazır olmağa fürsət tapınca degil, bir Bakıda, Şamaxıda bəlkə ümum Azərbaycanda daş-daş üstə qalmazdı...

Keçən keçdi olan-oldu. Mart hadisatı Azərbaycan tarixində mühim bir səhifə işğal edib azəri türklərinin istiqlal yolunda can verib, qan töküklərini gələcək nəslə oxuduracaqdır. Bugünkü vəzifəmiz isə o qara günləri yaddan çıxartmamaq və buna görə də həmişə və hər an hazır olmaqdır. Böylə hazırlıq ki, bu hadisələr bir də təkrar edərsə, müdafiəsinə qadir olalım. Bunun üçün həm hökumətimizin və həm də millətimizin çalışması lazımdır. Bugün istiqlal ilə yaşayıb



da bu neməti-üzəmadən istifadə edirksə də özümizi xaricən əmn-əmanlıqda bilmək və istiqlalımızın ibqasını təmin etmək üçün müdafiəyə hər an hazır və amadə olmalıyıq. Biz indi öz müqəddəratımızı öz əlimizə aldıq, borcumuz bu müqəddəratı gələcəkdə zühuri möhtəməl olan hər növ təcavüzətdən qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır.

## ZAQATALA MƏSƏLƏSİ

Zaqatala məsələsi getdikcə ciddiyyət kəsb etdigindən hökumətimiz tərəfindən böyük və xüsusi bir diqqət cəlbinə lüzum hiss edilir.

Azərbaycanın ayrılmaz bir cüzi hesab olunan bu ölkəyə qonşumuz Gürcüstan çoxdan bəridir ki, təmə gözünü dikib bu yerlərdən istifadə etmək arzusu ilə bir taqım məxfi və əlini hərəkətlər icrasından heç də çəkinməgir. Bir neçə vəxt bundan irəli "Qruziya"[1] qəzetəsinin bu ölkəyə mənimsəmək qəsdilə yazmış olduğu məqalələri oxucularımızın xatirində olsa gərəkdir ki, həman qəzetənin bu rəftarı "Azərbaycan" qəzetələrini mübahisəyə girişməyə məcbur etdi.

İndi də Zaqatala məbusi Kiçikxanov[2] cənablarının teleqraflarından anlaşıldığı üzrə gürci əsgəri məmurları Zaqatala daxilinə girib də Gürcüstan mənfəətinə olmaq üzrə bəzi-bəzi təbliğat və təşviqatda bulunub Zaqatala əhaləsini iğfal etməkdədirlər.

Bu vəqə iki həqiqəti isbat edən bir keyfiyyətdir. Bu həqiqətlərin ikisi də mucibi-təəssüf olub ikisinə acınmamaq olmaz.

Bu əsəfamiz həqiqətlərin biri budur ki, gürcü qonşularımız Zaqatalaya qarşi təərrüzkəranə hərəkətlərinə davam etməkdədirlər. İkinci həqiqət dəxi budur ki, Azərbaycan hökumətinin Zaqatala ölkəsindəki idarəsi olduqca zəif və boş bir haldadır. Boylə halki gürcü məmurlarının oralarda təbliğat və təşviqat hiyləsi ilə yayılan hərəkətlərinə mane olacaq qədər qüvvət və müqaviməti yoxdur. Ona görə əgər Zaqatala idarəmiz boylə zəif bir halda qalarsa, gürcü qonşularımız təbii bundan istifadə edib də bilaxirə qolaylığla öz arzularına müvəffəq olarlar.

Gürcüləri Zaqatalaya tərəf həvəsləndirən və təmələrini artıran nədir? Gürcülər Gürcüstanın Zaqatala ilə mərbutiyyətini tarixi dəlillər ilə isbata çalışırlar. Bizcə iş tarix üstündə degildir. Təbii sərvətlərə malik olan Zaqatala ölkəsi Gürcüstan üçün bir növ zəxirə və ərzaq anbarıdır. Yavanlıq taxıl, ipək, tütün və meyvəcatı ilə məşhur olan Zaqatala Gürcüstana böyük əndazədə ərzaq buraxmaqla gürcü qonşularımızı bu yerlərə cəlb edir.

Boylə olan surətdə madam ki bu ölkə ərzaq və zəxirə mənbəidir və bir surətdə ki, buranın əhalisi bir azəri türklər ilə din və milliyyətcə



qardaş və həmcinsdirlər və bir halda ki, biz də və Zaqatala əhalisi də buraları Azərbaycan torpağının cüz layənfəki əədd etməkdədirlər. Onda bizim borcumuz budur ki, Zaqatala ölkəsini bir tərəfdən gürcü təərrüzlərindən qorumaq və digər tərəfdən Azərbaycan mərkəzinə o qədər mərbut etmək ki, bu ölkə məmləkətimizin hər bir surətdə təbii olaraq layənfək bir cüzi mahiyyətini haiz olsun.

Bunun üzrə əvvəla gürcü qonşularımızin Zaqatalaya aid "aqressif" denilən təərrüzkəranə hərəkatinə bir xitam vermək üçün ciddi tədbir ittixazına girişməli. İkinci olaraq Zaqatala idarəsi işini lüzumi dərəcəsində möhkəmlətməlidir.

Hökumətimizin Zaqatalaya yeni qubernator göndərdigi məlumumuzdur, lakin bu iş zənnimizcə bu növ ilə möhkəm ola bilər ki, Zaqatala ölkəsi dəxi Qarabağ kimi xüsusi bir general-qubernator təhti-idarəsinə verilib məhəlli islahata dair hər bir məsələnin həlli general-qubernatorun yədi-ixtiyarında olsun. General-qubernator və onun əli altında olan ümumpolis məmurları, bəzi-bəzi məhəlli şəraitə görə hələlik, müvəqqəti olaraq yerli əhalidən degil, başqa yerin adamlarından təyin edilsin. General-qubernatorun birinci vəzifəsi, ölkənin hər bir cəhətdən əmn və asayişinə var qüvvətilə çalışmaq olmalıdır, öylə olarsa, Zaqatala əhalisi quldur, qaçaq, əyri, oğrulardan və sərbəst gəzən qatillərdən bugünkü kimi şikayət etməgə səbəb görməz. Can və mallarının hökumət tərəfindən kəmali-diqqət və ciddiyyətlə qorunduğunu müşahidə edənlərin təbiidir ki, qəlblərində hökumətə qarşı etibar və etimad əmələ gələr ki, bu da əhalni mərkəzə mərbut edər və sağa-sola göz tikmək və o yaxşıdır, bu yaxşıdır demək məcburiyyəti aradan götürülər.

Bədə, əmn-amanlıq və asayişi təmin edilməkdə olan əhalinin məişət və güzəranına göz yetirməlidir ki, mümkin olduqca mürəffəhülhal dolanmağa imkanları olsun.

Zaqatala təbii sərvətlərə malik olduğuna görə, bu xüsusda hökumət çox iş görə bilər. Boylə iş ki, ondan hamı yerli əhali, həmi Azərbaycanın sair yerləri və həm də hökumət xəzinəsi bir çox mənfəət görür.

Zaqatalada əmələ gələn şeylərin başlıcaları bunlardır: taxıl, arpa, buğda və peyğəmbəri – qarğıdalı, dügi, ot; meyvəcat: hər növ və ən əlası firəng cinsindən ipək və bunlardan toxunan şeylər: tütün və

tənbəki; heyvanat; mal-qara, at, quş, yumurta; yavanlıq: yağ, pendir və sairə.

Zaqatala əhalisi bu məhsulların ehtiyacati-beytiyyə sərfinə lazım olan qədərindən yerdə qalan fəzləsini Gürcüstan ilə Dağıstana satmağa adət etdiklərindən, aralarında bu iki ölkə ilə iqtisadi əlaqə və mərbutiyyət hasil edilmişdir. Deməli, bu fəzlə məhsulatın alıcısı hökumət özü olarsa, o halda maddi mənfəətdən başqa siyasi mənfəət dəxi əmələ gəlib iqtisad cəhətcə biganələrlə əlaqəyə ehtiyac qalmaz.

Zaqatala əhalisinin iqtisad və ticarət işlərinə baxüsus bu halda tezlik ilə xüsusi diqqət yetirmək lazımdır ki, bu ölkədən hasil olan satılıq mal öz əlimizə keçməklə əvvəla yerli əhalinin ticarəti və iqtisadi əmrləri müşkilata düçar olmasın və saniyən biganələr istifadəsinə məhəl qalmiyıb hər bir əlaqə hökumət mərkəzinə tərəf dönsün. Və bir də Zaqataladan hasil edilən şeylərin hamısına Azərbaycan əhalisinə ehtiyacı vardır. Öylə olduğu surətdə məsələ nədən ötri Zaqatala tütün və tənbəkinin müştərisi gürcü olsun ki, sonra biz də həman tütünü ikinci əldən olmaq üzrə gürcülərdən alaq? Həmçinin ipək, meyvəcat və sairə.

Əlqərəz, Zaqatala ölkəsinə xüsusi bir diqqət yetirib həmcins və həmdinlərimizlə məskun olan bu zəngin ölkəni özümüzə mümkün dərəcədə sıxı olaraq mərbut etmək lazımdır, vəilla buranın nə idarə işinə və nə iqtisadi məsələlərinə qulaq asmayıb da işi zaqatalalıların yalnız bir hissiyat və təəssübi iqtizatə həvalə edərsək, məişət və güzəran tələbatı həman iqtizatə qalib gəlib nəticədə qeyr-məmul hadisələr zühuri qarşısında qalarıq ki, töhməti də bizə aid olar.



## CİDDİ HƏRƏKƏT LAZIMDIR

Paytəxtimizdə qəzetələrin "Hadisat" sərlövhəli qisminə baxılarsa oğurluq, quldurluq, adam öldürmək və sair bu kibi cinayətlərin gündən-günə artdığını kəmali-təəssüflə müşahidə etməkdəyik. Bu halı şəhərin asayiş və əmanəti yad ixtiyarına həvalə edilmiş olan qubernator həzrətləri dəxi müşahidə etməkdədir ki, bu xüsusdakı əmrlərini qəzetəmizin dünənki nömrəsində oxuduq.

Qubernator həzrətlərinin bu cinayətləri qət və tərk etdirmək xüsusində vəd etmiş olduğu ciddi tədbirləri kəmali-məmnuniyyətlə alqışlayırıq və bu gündən sonra həman ciddi tədbirlərin ittixazi intizarında olacağıq. Özümüz də əminik ki, böylə ciddi tədbirlər sayəsində paytəxtimiz "cinayətlər yuvası" olmaq şərəfsizliyindən xilas edilib, əhalinin can və malı canilər təərüzündən məhfuz və məsun qalar. Buna da əminik ki, əgər bu ciddi tədbirlər "piş əz vəxt" icra edilmiş və oğurluq, quldurluq və caniligi özlərinə sənət ixtiyar etmiş olanların hərəkat və rəftarına vəxtli-vəxtində lazımi diqqət yetirilmiş olsa idi cinayətlər bu dərəcəyə qədər artmaz, bir çox canlar tələf və bir çox mallar zayə olmazdı.

Əhalinin əmin və asayişi, can və mallarının canilərdən mühafizə və müdafiəsi həqqında qubernator tərəfindən hər nə tövr ciddi və şiddətli tədbirlər görülərsə, hər bir kəsin ki, asayiş tərəfdarıdır məmnuniyyət və məsərrətini mucib olar, bunun nəticəsində xalqın hökumətə qarşı etibar və etimadı artıb şikayətə yer qalmaz.

Paytəxtimizdə bu qədər müşahidə edilməkdə olan çinayətlər əhalinin asayişini pozmaqdan əlavə Azərbaycan paytəxtinin şərəfinə dəxi toxunur.

Doğrudur, Bakı şəhəri hələ Nikolay zamanından bəri cinayət hadsatı ilə məşhurdur, lakin əvvəla burası var ki, o zaman əksərən müsəlmanlardan baş verən bu gunə cinayətlərin, adam öldürməklərin önünü almaq üçün rus hökumət adamları ciddi tədbirlər görməyib, "qoy müsəlman müsəlmanı öldürsün", – deyə məhəlgüzar olmıyordılar. Ölürdülərsə də rüşvətxorluq məqsədilə işlər görüb ölən tərəfdən də, öldürən tərəfdən də pul almaqla işi yatırdırdılar. Və saniyən siyasi mücrimlər "aşkarı" ilə daha artıq məşğul olan Nikolay məmurları, caniləri təqib və tənkil etməgə vəxt bulamıyordılar.

Halbuki indi zəman o zəman degildir. Bakı Azərbaycan Cümhuriyyətinin paytəxtidir. Paytəxtimizin "canilər yuvası" olmasına heç vəxt müsaidə verilməməlidir ki, bununla bir tərəfdən əhalinin dincligi və asayişi təmin edilsin, digər tərəfdən bu dinclik və asayiş bərpasilə öz hökumətlik iqtidarımızı dost da görsün ki, sevinsin, düşmən də görsün ki, töhmət dilini kəsməgə məcbur olsun, ondan əlavə hər kəs hökumət olur-olsun, təki asayiş olsun deyən və rusca "abivatel" təsniyə edilən əhali qismi dəxi Bakının Azərbaycan hökuməti idarəsi altında keçmiş hökumətlərə nisbətən əmin və asayişlə keçdigini qiyas edib abvatelin hissiyyatını döndərib də Azərbaycan hökumətinin iqtidarını təqdir edən və bu hökumətə tərəfdar olan bir "qrajdanin" hissiyyatına təhvil etsin.

Ümidvar olmalıyıq ki, paytəxtimizin qubernatoru Rəşid bəy Axundzadə[1] həzrətləri və əxd etmiş olduğu ciddi tədbirləri kəmali-gərmi ilə mövqeyi-icaraya qoyub da qanun dairəsində bir növ ilə olur-olsun şəhərimizi boylə müəssif cinayətlərdən təmizləməklə, öz iqtidarını bizə göstərməklə bizim də iqtidarımızı özgələrə bildirər. Müvəffəqiyyətlərini arzu edirik.



## ƏGRİ YOL

Gəncə türk müəllimləri ittifaqı tərəfindən maarif nəzarətinə qarşı şikayət və tətili təmdid məzmunlu bir teleqram alındığını qəzetələrdə oxuduq.

Müəllimlər ittifaqı maarif nəzarətindən şikayət edirlər ki, sair "nəzarətlər öz məmurlarının maaşının artdığı halda, maarif nəzarəti bu xüsusda heç bir iş görmiyub", müəllimlərin halına yanmır. Buna görə Gəncə türk müəllimlər ittifaqı nəzarətin bu tövr "müamiləsinə" qarşı protesto olmaq üzrə üç günlük tətil elan edibdir.

Müəllimlərin baxüsus xəlq müəllimlərinin məvacib azlığı xüsusunda iki rəy ola bilməz. Müəllimlər məvacibi indiki məişət şəraitinə görə o qədər azdır ki, o az pul ilə güzəran etmək dedikcə çətin bir əmrdir. Məsələn, xalq müəllimlərinin məvacibi olan dörd yüz otuz beş manata nəinki külfətdar və ailə sahibi olan bir müəllim, həttə subay adamlar da dolana bilməzlər. Halbuki təlim və tərbiyə kimi olduqca ağır və məsuliyyətli bir vəzifə ilə mükəlləf olan müəllim bu vəzifəsini layiqincə ifa edə bilmək üçün məişət qayğısı kimi əngəl və mümaniətlərdən bilkülliyə asudə olmalıdır. Asudə olmazsa, şübhəsiz, ifayi-vəzifə yolunda yoxsulluq qayğılarına düçar olub da hər dəfə dayanmaq və bu qayğıları rəf etmək üçün vəzifə xaricində işlər görmək məcburiyyətində olar. Bu isə bir gündə gedilə bilən yolu on gün təxirə salar.

Çox az müəllim tapılar ki, özünü və ailəsinin ac və ənva ehtiyac içində olduğu, əmrə göz yumub da butün diqqətini məhz ifayi-vəzifə üçün münhəsir edə. Zatən öylə bir müəllim olsa da onun bu hərəkəti ailə sahibligi nöqteyi-nəzərindən şayani-təhsin əxd edilə bilməz. Çünki hər kəs özünün və baxüsus ailəsinin murəffəhülhal dolanması xüsusində çalışıb qeydkeş olmalıdır.

Müəllim məvacibinin azlığı bir çox müəllimləri və həttə müqtədirlərini öz vəzifəsindən əl çəkib də başqa "kəsb" dalınca getməgə vadar etdigindən müəllimə möhtac olduğumuz bu zamanda müəllim azlığı çəkirik. Vaqiən əgər işlər boylə gedərsə bir az çəkməz ki, böyük müharibənin cürbəçür tühəf nəticələri qəbulundan əxd edilən və hər yerə yayıldığı kimi bizim aramızda dəxi "hakimiyyət" edən "alver", daha

doğrusu, "ispekulyas" həvəsi ümum-müəllimlərə də sirayət etmək üçün musaid bir şərt bulunub müəllimlərimizi bilkülliyyə əlimizdən alar.

Lakin müəllimlərimizin məvacib azlığını iqrar və maaşlarının artırılmaq lüzumunu etiraf etməklə bərabər Gəncə müəllimlər ittifaqının maaş artırmaq haqqında ibraz etdikləri hərəkəti, yəni protest və tətil təmdidi əməllərini heç də xoşluya bilmərik.

Zənnimizcə zabastovka işi muəllimlər sinfinə yaraşan hərəkətlərdən degildir.

Müəllim ilə maarif nəzarətinin münasibəti, fələ ilə sahibkar münasibəti kimi ola bilməz və müəllimlik işi dəxi çərx işlətmək degildir. Müəllimlər dövlətimizin maarifi yolunda çalışmaq vəzifəsini mükəlləf olan maarif nəzarətinin əzalarıdırlar. Burada "zəhmət və kapital" mübarizəsi yoxdur. Ola bilsin ki, bu gün maarif nəzarətində nəinki yalnız bir müəllimlərin, bəlkə nazirin özündən tutmuş başqa məmurların dəxi məvacibi azlıq edir. Bu nöqteyi-nəzərdən müəllimlər tətili fələ tətilinin sahibkarın cibinə verdigi zərər və heysiyyatına vurduğu əsər qüvvətində olmayıb, ancaq bir siyasi və bir də pedaqoji cəhətcə istiqlalımıza qarşı sui-təsirlər buraxa bilər ki, bunu da müəllimlərimiz başa düşmək istəmədigi halda kim istər?

Siyasi cəhətinə gəlincə bunu deməliyik ki, fələ sinfi iqtisadi tətil və zabastovka elan edərkən, bu tətil həman iqtisadi rəngdə baqi qalır. Halbuki türk müəllimlərimiz ittifaqı bu gunə iqtisadi tətilə mübaşir olarlarsa bunun nəticəsi başqa olar. Tətil işi iqtisadi rəngdən dönüb siyasi rəngdə nəticələr törədə bilər. Bu gün türk müəllimlər ittifaqı, yarin türk məmurlar ittifaqı və o biri gün başqa bir türk təşkilatı iqtisadi də olsa tətillər yapmağa başlarsa, axırda məmləkətimizdə intizamsızlıq və "demuralizatsiya" əmələ gəlib anarşi halına qədər sürünərik. Və bir də Azərbaycana qarşı bədxah olanların curbəcür iqtisadi və siyasi tətil və zabastovkaları bizi o qədər təciz edibdir ki, ruhumuz boylə inciyibdir. Odur ki, türk muəllimlərinin tətil etməyi əminik ki, yalnız bədxahlarımız tərəfindən məmnuniyyətlə və razılıqla qarşılana bilər.

Pedaqoji cəhətincə dəxi bu tətilin heç bir müəllimin istəməməgi lazım gələn sui-təsirlər bəxş edəcəgi aşkardır. Müəllimlərin tətili mütəəllimlərə fəna surətdə əsər edər, şagirdanın əxlaqını pozar. Mütəəllim öz müəllimini adi şəxslər cümləsindən hesab etmiyor. Ona ruhani və müqəddəs bir ata nəzəriylə baxır. Əgər bu ata məvacib azlığına



görə "küsüb" məktəbi boşlarsa, o halda onun ruhanilik nüfuz və heysiyyəti mütəəllimin nəzərindən düşər, müqəddəs ehtiram aradan götürülər, əlavə müəllim məvacibi azlığında hər kəsin günahı varsa, hər halda hamıdan günahsız şagirdlərdirlər. Öylə olan surətdə tətil əməlinin sui-təsiri nədən ötəri bilavasitə bu günahsızlar üzərində olsun! Təlim işi onsuz da bu il intizamsız bir surətdə icra edilir. Əgər bu intizamsızlıq bir də müəllimlər tətili ilə bərkiyirsə, o halda deməli, bu ilin təlim işi heç!

Bunlar hamısı keçəndən sonra Gəncə türk müəllimlər ittifaqının maarif nəzarətimizi ətalət və qeydsizlikdə ittiham etməsi haqsızdır. Orası doğru degildir ki, "sair nəzarətlər öz məmurlarının maaş artırılması əmri haqqında çalışarkən maarif nəzarəti çalışmiyor". Bizə məlum olduğu üzrə, maarif nəzarəti, maarif müfəttişləri yığıncağı günündən bəridir ki, müəllimlər maaşı artırılması xüsusində böyük bir qanun layihəsi hazırlamaqdadır ki, o qanun layihəsi əgər nazirlər şurasından və parlamandan keçərsə, müəllimlər halının yaxşı olmasına çox təfavüt edib, məişətlərini yüngülləşdirər. Zənn edirəm maarif nəzarətində bu xüsusda qanun layihəsi hazırlandığı fəqərəsi Gəncə müəllimlərinə dəxi məlumdur. Çünki bu xüsusda onlara degilibdir. Boylə olan surətdə birdən-birə tətil elanının və maarif nəzarətinə qarşı şiddətli bir lisanla protesto yapmağın başqa mənasını anlaya bilmirik. Hər halda müəllimlər ittifaqı maaş artırmaq tələblərini zabastovkalar ilə keçirmək istəyəcəksə istiqlaliyyətimiz nöqteyi--nəzərindən əgri yollar ilə getmək qəsdində olduğunu bildirəcəkdir. Bu isə arzu edilməyən hallardandır.

Maarif nəzarətinin yalnız bir işinə heyifsilənmək gəlir ki, bu layihəni tezlik ilə düzəldə bilməyibdir ki, müəllimlər vaxtında maaşları artırılmaqla şikayət etməgə məcbur olmasınlar. Lakin maarif nəzarəti işlərindən dürüst xəbərimiz olduğuna görə, biz ona heyifsilənməyirik ki, nəzarətin işləri ətalətlə keçir. Bəlkə heyifsilənməgimiz işin çoxluğuna və vaxtın azlığınadır.

## KİRİMİYORLƏR

Qarabağın general-qubernatorluq şəklinə salınması işi Azərbaycanın daxili işlərindən olaraq bitmiş bir məsələ olduğu halda erməni partiyaları daşnak və qeyri-daşnak "Qarabağ məsələsini" həll edilməmiş hesab edib, dedi-qoduları davam edirlər və kirimiyorlər.

Bu məsələdə erməni partiyalarının yandıran Azərbaycan hökumətinin Qarabağda general-qubernatorluq təşkili əmrindən, artıq bu əmrin ingilis ali komandanlığı tərəfindən təsdiq və təsvib etməsi keyfiyyətidir.

Bunun üzrədir ki, erməni partiyalarını qəzetələri ingilis baş komandanlığını sögüb erməni mənafeini daim müdafiə edə, gəlmiş olan ingilisləri "bivəfa"lıqda ittiham ediyor.

Görünür ki, ermənilər bu zəndə, bu ümiddə imişlər ki, erməni müdafiəsilə məşhur olan ingilislər ermənilərin bütün həqq və nahəqq tələb və arzularını, başqalarının hüquq və ixtiyaratını tapdalayacağ qədər müdafiə edəcək və ermənilərin "xatirəsi" üçün haqqı nahaqqa verəcəklərmiş.

Erməni partiyaçılarının zənninə hər şey ki, ermənilər tərəfindən istənilir, ədalət üzrə ibraz olunan istəkdir. Və çünki Yevropa ədalətpərəstdir. Erməni istəklərini əmələ gətirməgə borçludur.

Lakin görünür ki, Yevropa əhli olan ingilislər ədalətə erməni partiyalarının gözilə baxmaq və bu təbiri yalnız erməni mənafeini əsas tutaraq təfsir etmək istəməyib, öz gözləri və öz ağılları ilə iş görməgi səlah bilirlər.

Yevropa əhlindən – ingilislərdən başqa firənglər dəxi bu axır zaman erməni hərs və təmainə diqqət nəzərini yetirib bu hərs və təməi azaltmağı vacib bilirlər.

Qarabağın Azərbaycan torpağı olmaq üzrə Azərbaycan general-qubernatoruna tapşırılması əmrinin Qafqaz ingilis baş komandanlığı tərəfindən təsdiq və təsvib edilməsini bu məsələnin gələcəkdə bizim mənfəətimizə müvafiq olaraq həll ediləcəgini isbat edən bir əlamət kibi tələqqi etmək olar. İngilislər bu məsələdə bizim haqq və erməni iddiaçılarının nahəqq olduğunu iqrar etmiş olurlar. Şübhəsiz, əgər biz general-qubernatoru Qarabağa degil, İrəvan uyezdlərinə təyin



etmək istəsə idiksə ingilislər bizi nahəqq iş tutmaq istədigimizi görüb manc olardılar. Əmma Qarabağa manc olmadılar, çünki bu yerin Azərbaycan torpağı olduğu ingilis məhafilində dəxi müəyyən və müqərrər bir məsələdir.

Qarabağı general-qubernatorluq şəklinə salmaq hökumətimizin məqul əmrlərdən biri olan kimi, burada generalqubernator olmaq üzrə Xosrov Paşa bəy Sultanov həzrətlərinin təyin edilməsi dəxi eyni dərəcədə müvafiq və yerliyerində qərar edilmiş bir intixabədd edilməlidir. Xosrov Paşa bəy həzrətlərinin Qarabağ üçün ən münasib və müvafiq bir general-qubernator olmasına ingilis baş komandanlığı dəxi iqrar etmişdir ki, bu xüsusda, bugünlərdə nəşr etmiş olduqları proklamasiyolarında Xosrov Paşa bəyin əmrlərinə tabe olmağı yerli əhaliyə və baxüsus ermənilərə tövsiyə edirlər.

Həqiqətən, Xosrov bəy Qarabağ üçün ən münasib bir rəisdir. Qarabağ həyatına təmamilə aşina olan bu zat sağlam bir vücudə malik olan kimi sağlam və səlamət politika yeridən və təht idarəsinə tapşırılmış olan yerin ümumi mənafeyini xüsusi surətdə nəzərdə tutan bir zatdır. Ermənilərin Xosrov bəyi "ermənisevməz" deyə nəzərə verməgi erməni partiyaçılarının bir çox qövlü kimi müğayir həqiqət rəylərdən biridir. Xosrov bəy Qarabağın, bilafərq millət, hər bir əhaliyə bir nəzərlə baxan və ümumqarabağ əhlinin asayiş və istirahəti üçün bir dərəcədə çalışan ədalət tərəfdarı bir hakimdir. Əlbəttə, əgər erməni cühəlası erməni partiyaçılarının təhrik və təşviqi ilə bədədalıq edib ölkədə iğtişaş və şuriş salmaq istəyəcəklərsə, Xosrov bəy bu kimi ümumqarabağ əhli üçün zərər və ziyanlı olan hadisələrə qeydsiz baxmayıb təmini-asayiş üçün əlindən gələn tədbirləri ittixaz edəcəkdir. Buna da əminik əgər Qarabağda sülh və asayişlə yaşamaq istəyən ermənilərə qarşı müsəlman cühəlası tərəfindən nalayiq hərəkətlər baş versə, Xosrov bəy bu xüsusda da lazımi tədbirlər görüb müqəssirləri cəzalandıracaqdır.

Hər halda Qarabağ ermənilərinin asayiş və istirahətlə yaşaması öz tərzi-hərəkətlərindən asılı bir məsələdir. Məhəlli hökumətə tabe olub da öz iş-güclərinə məşğul olarlarsa, rahat yaşarlar, yox əgər daşnak və əmsalı təşviqatına uyub da Azərbaycan hökumətini tanımamaq və qəsdən iğtişaş salmaq istəsələr, o halda yaman güzəran keçirmələrinə səbəb özləri olarlar.

İngilislər Qarabağ general-qubernatorluğunu təsdiq etmədən əvvəl erməni partiyaçılarının çığır-bağırlarına və fitnəamiz təhrikatlarına bir məna verməK olardı. Boylə məna ki, ermənilər Qarabağda qəsdən süni iğtişaşlar çıxarmaqla Qarabağ general-qubernatorunu baş komandanlıq gözündə ləkələndirmək istiyorlar. Lakin indi, yəni bir halda ki, baş komandanlıq "piş əz vəxt" işdən və general-qubernatorun hərəkəti-müdəbbiranəsindən xəbərdar oldu və bu əmri təsdiq etdi, o halda erməni partiyaçılarının bugünkü qışqırığı yersiz və mənasızdır. Bugündən sonra Qarabağda ermənilər tərəfindən bədədalıqlar baş verərsə degil, Azərbaycan general-qubernatoru bəlkə ermənilərin özləri komandanlıq gözündə ləkələnib yaman ad qazanarlar, bu isə gələcəkdə erməni məsələsi həllinə dəxi sui-təsirlər buraxar hərs və təmə erməni partiyaçılarının gözünü yummamış olsa, işin bu cəhətini nəzərə alıb da, əvvəl-əvvəl erməni camaəti üçün zərər yetirə bilən fəna hərəkətlərdən əl çəkər və Qarabağ haqqında birkərəlik kiriyorlər.



## YENİ KABİNƏ

Həman iki ay qədər tul çəkən ağır və əziyyətli böhran bitdi. Böhranın bu qədər tul çəkməsinin səbəbi necə ki, keçənlərdə bir kərə dəxi yazmışdıq. Kabinənin müştərək olmaq lüzumi-keyfiyyətindən vücudə gələn əngəllər idi. Kabinə düzəlməsi öhdəsinə həvalə edilməmiş olan Nəsib bəy həzrətləri koalisiyon şəraitini riayəyə məcbur olduğundan istədigi adamlardan kabinə düzəltməgə məşğul olmaq əvəzinə portfelləri partiya fraksiyaları arasında paylaşdırmaq işinə məşğul idi. İşi çətinə salan dəxi bu paylaşma məsələsi idi. Hər bir paylaşmada hər tərəfi razı salmaq çətin bir əmr olduğu üçün, bu paylaşmada da bir tərəfdən paylaşanların hamısı olmasa da əksəriyyətin razılığı və digər tərəfdən dəxi paylayanın özünün məqsədi hasil olmaq üçün bir bu qədər vaxt əlləşmək lazım gəldi.

Madam ki paylaşma bitib kabinə əmələ gəldi, deməli, paylaşanların əksərinin razılığı və paylayanın da məqsəd və arzusu əmələ gəldi. Öylə də oldu. Yeni kabinəyə siyasi dildə deyildigi kimi, parlaman fraksiyalarının əksəri bəyani-etimad edib razı qaldıqlarını izhar etdilər. Bunlar "Müsavat", "Əhrar"[1] sosialistlər bloku, "Əqəliyyəti-milliyə" və erməni fraksiyaları idi. "İttihad" sabiq kabinə elanında olduğu kimi, bu kabinə elanı bədində dəxi etimadnamə bəyanından çəkindi və yeni təşkil etmiş "Bitərəflər" fraksiyası dəxi "İttihad" gedən yol ilə getdi.

Əcaba, partiyalıq əksəriyyətinin etimad və rizasına məzhər olan bu yeni kabinə ümuri-dövlətə və tərzi-idarəmizə partiya xaricində nəzərlərlə baxan camaətin dəxi rizası və hüsn-rəğbətilə qəbul oluna bilərmi?

Bu suala cavab vermək üçün əvvəlcə görək o nəzər sahiblərinin ki, partiya xaricindədirlər, etimad və rizası nə ilə hasil ola bilər.

Partiyalara mənsub olanların etimad və rizası kabinədə o və ya bu partiya adamlarının miqəddərənə və portfellərin o tövr və ya bu tövr bölünməginə bağlı isə, partiya xaricində olan camaətin rəğbət və rizası, əvvələ, kabinə əzalarından hər birinin iqtidarca məşhur və məruf-luğuna və saniyən kabinə rəisinin deklarasiyasında elan etdigi yolların və xətt-hərəkatın keyfiyyət verə bilən dərəcəsinə bağlıdır.

Yeni kabinəmiz içində öylə əzalər var ki, ümuri-dövlət işində bilümum və öhdələrinə götürmüş olduqları nəzarət işlərində bilxüsus iqtidar və bacarıqları ilə camaat arasında məruf və məşhurdurlar. Bu əzaların kimlərdən ibarət olduğunu burada sadalamağı, məlum səbəblərə görə, namünasib bilməklə bərabər, hərbiyyə işlərimizi təkrar öhdəsinə götürmüş olan general Səməd bəy həzrətlərinin dövlətimizin istinadgahı olan ordumuzun təşkil və tənzimi ilə camaat arasında layiqli şöhrət qazanmış olan, adını xüsusi surətdə zikr etməgi özümüzə caiz bilirik.

Daxiliyyə nəzarəti kimi mühüm və böyük bir nəzarətin dəxi kabinə rəisi olmaq münasibətilə keçənlərdə haqqında xüsusi bir məqalə yazmış olduğumuz Nəsib bəy həzrətlərinin yədi-idarəsinə keçməsi də camaati kifayətləndirəcək və rizasını mucib olacaq əhvallardandır.

Bununla boylə yeni kabinəmiz içində ümuri-dövlət işində iqtidar və bacarıqları hələ camaatcə bəlli olmayanlar dəxi vardır. İştə bu yeni nazirlərimizin dövlət və məmləkət mənafei yolunda sərf ediləcək səylərindən "gələcək göstərər" deməyib də bu gün bir təsəlli olmaq üçün bu nazirlərin xətti-hərəkəti muxtəsər də olmuş olsa cızılmış olan deklarasiyona müraciət etməlidir.

Deklarasiyon degilən hökumət bəyannaməsi ümumkabinənin nə yolda işləyəcəgini bildirən ümumi bir proqramdır. Dünən parlaman kürsüsündən eşitdigimiz bu proqram ümuri-idarə dövlət üçün lazım olan bugünkü yolları, ümumiyyətlə, göstərmək və istiqlalımızı hər günə təcavüzatdan qorumaq və əddindən əlavə bu gün bizi xüsusi surətdə maraqlandıran Lənkəran məsələsi ilə dövlətlilərin əskərligə ciddiyyətlə cəlb edilməsi fəqərəsini dəxi tezlik ilə həll edəcək deyə məxsusən xatırlaması, hər kəsi qənaətləndirəcək dərəcə müvafiq məramdır. Bəyannamədən bəhs edərkən bunu da burada zikr etməgi lazım bildik ki, bəyannamədə Lənkəran məsələsi keçdigdən sonra, parlamanda "bəs Qarabağ məsələsi" deyə nida və sədalar qalxdığını kəmali-təəccüblə eşitdik və bu səslərin degil, erməni məbusları tərəfindən, bəlkə müsəlmanlardan olan bitərəflər tərəfindən gəldigini anlayıb heyran qaldıq. Qarabağ məsələsi Azərbaycan dövləti nöqteyi-nəzərincə həll edilmiş bir məsələdir. Bizcə daha bu xüsusda bir məsələ ola bilməz. Gəncə məsələsi, Bakı məsələsi olmadığı kimi, Qarabağ məsələsi də yoxdur. Olmayan halda nədən ötəri bu məsələni bəyannaməyə salmalı idi ki, bunu bitərəflər tələb edirdilər?



* * *

Məmləkətində əksəriyyət təşkil edən Azərbaycan türk və islamlığı nöqteyi-nəzərincə dəxi on nəfəri türk və iki nəfəri xarici olan kabinənin sövt-heyəti qənaətbəxş bir dərəcədədir. Üç müsavat, iki sosialist, bir əhrar, dörd partiyasız, iki erməni və bir rusdan təşkil etmiş olan kabinəmizdə daşnak firqəsinə mənsub Azərbaycan naziri olması bizi heç də təşvişə salmaz. Biz bu yol ilə əvvəla haqq və ədalət tərəfdarı olmağımızı və saniyən erməni milləti ilə türk milləti arasında olan bəzi etimadsızlıqları bərtərəf etmək və bu iki milləti biri-birinə sinişdirmək lüzumunu hər iki millətin mənfəəti olduğu üçün mülahizəyə alıb da bu işi ümumaləm qabağında şərəf və heysiyyətimizi artıran bir əməl hesab edirik.

Fəqət daşnak və ümumerməni nazirlərimizdən də bizim böyük umacağımız və tələblərimiz vardır ki, bunlardan ən ümdəsi etibarımıza layiq olmaq və bunda baqi qalmaqdır. Eyni umacaq və tələbimiz dəxi rus nazirindəndir, ümidvarıq ki, yeni rus nazirimiz, keçən kabinəyə daxil olan Protasov məsləkli olmayıb da Azərbaycan istiqlalına sadiq bir nazir olaraq bizi sevindirəcək və etimadımızı həm özünə, həm də ümum Azərbaycan ruslarına qarşı bərkidəcəkdir.

Ən böyük ümidimiz, əlbəttə, yeni rəisi-vükəla olan Nəsib bəy həzrətlərinin dövlət və məmləkətimiz mənafeyi yolunda göstərəcək olduğu səbat və mətanətinə bağlıdır. Buna əmin olub da bu mühüm işdə müvəffəqiyyətlərini diləriк.

## DAĞISTANA İMDAD

Dağıstana imdad məsələsi görünür ki, qövldən fələ gətirilmək üzrədir. Şayani-diqqət və səzai-əhəmiyyət partiyalarımızın bu imdad işinə – rəsmi hökumət imdadından ayrı olaraq – könüllü surətdə girişib də könüllü dəstələri təşkil etmələridir.

Bir tərəfdən müsavat, bir tərəfdən sosialistlər ittifaqı və digər tərəfdən də bitərəflər partiyası hər biri öz adından könüllü yazılmaq və yazdırmaq dəftəri açıb dağıstanlı qardaşlarımızın imdadına yetişmək üçün çalışmaqdadırlar.

Azərbaycan türk və islamlarının əhali mümessilləri olan partiyalarımızın bu xüsusda çalışması Azərbaycan və Dağıstan xeyirxahlarını sevindirəcək dərəcə layiqi-təqdir və şayani-təhsin bir əməldir. Yalnız bir arzu qalır ki, o da bu çalışmadan hasil olacaq nəticələr, yerini tutsun və imdad bihəqq bir imdad olub dağıstanlı qardaşlarımızı müşkül haldan çıxara bilsin.

Bu son arzunun hüsulə gəlməsi üçün hər bir partiyanın üzərinə, könüllü yığmağdan başqa, digər vəzifələr dəxi tərəttüb ediyor ki, bu vəzifələr əhəmiyyətcə böyük bir mövqe ehraz etməkdədirlər.

O vəzifələrin ən başlıcalarından biri bu "Dağıstana imdad" işini birləşdirmək və bu yolda ittihad və ittifaqilə iş görməkdir. Bu işdəki ittifaq, partiya əzalarını "kənardan baxanlar" yanında məhcub edəcək və özlərinə töhmət, məzəmmət yetişdirəcək ittifaqlardan ədd oluna bilməz. Madam ki məqsəd birdir – o halda bu məqsədin hüsuli yolunda sərf edilən əmək və əməllərdə bir olmalıdır ki, işin içindən bir nəticə çıxsın.

Hər bir partiyanın xüsusi olaraq könüllü yığmasına sözümüz ola bilməz. Çünki təbiidir ki, könülli yazılmaq istəyənlər öz bəyəndigi partiyanın başına yığılacaqdır. Arzumuz fəqət budur ki, hər partiyanın könüllüləri yığıldıqdan sonra bunların Dağıstana ezami və orada nə vechlə iş görmələri məsələləri ümumiliklə həll edilmək üçün bir mərkəzə mərbut edilsin. Yəni partiyalar əzalərdən birər iki şər nəfərlər iştirakilə xüsusi bir komision təşkil edilib yığılmış könüllüləri göndərmək. Dağıctanda lazım olan mövqelərdə yerləşdirmək saxlamaq, yemək, içmək ehtiyacatı rəf etmək və bu Azərbaycan könüllü qüvvəsini vahid bir qüvvə surətində dağıstanlı qardaşlarımızın imdad yolunda sərf etmək işi o komisyona tapşırılsın.



Bu Dağıstana imdad məsələsinin bir cəhətidir ki, zənn edirik, buna qarşı əsas etibarı ilə etiraz edən olmasın gərək, zira etiraz edən olursa müxtəlif proqramlı partiyaların bu məsələ üzərində və bu işdə ittihad və ittifaqı partiyalıq nöqteyi-nəzərindən "imkan xaricində" bir iş kibi tələqqi edənlər çıxarsa öylələrin Dağıstana imdad məsələsində imdaddan başqa özgə bir məramın dəxi təqibində olduğlarına güman aparmağa haqqımız olar.

Məsələnin başqa bir cəhəti dəxi vardır ki, o da dağıstanlı qardaşlarımızla Denikin qaragüruhunun arasında vaqe olan müharibə gedişindən və iş nə yolda və nə vəziyyətdə olduğundan, dağıstanlı qardaşlarımıza nə miqdar imdad lüzumundan kəmalınca vüquf və ittilat hasil etməkdir ki, bu da məhəlində, yəni Dağıstanın özündə mümkündür.

Məlumunuz olduğu üzrə bunun üçün xüsusi adamlar seçilib bu günlərdə Dağıstana gedəcəkdirlər. Genə arzu edərdik ki, müxtəlif partiyalara mənsub olan bu adamlar Dağıstana gedərkən xüsusi bir komisyon sifətilə getsinlər və gedib də hal və övzaən neceligindən dürüst məlumat əxz etsinlər. Ondan əlavə burdan göndəriləcək olan könüllü kömənginin orada nə surətlə qəbulu və istemali xüsusinda da piş əz vəxt hazırlıqlarda bulunsunlar. İşin müəyyən bir nizam və qaidə ilə yürüməsinə diqqət yetirsinlər. Sistemsiz və xudsərənə işlər görülməsinə yol verilməsin. Qərəz səy edilsin ki, imdad həqq ilə imdad mahiyyətində olub da dağıstanlı qardaşlarımızın felən hiss edəcəgi mərtəbə müəssər olsun.

İştə bu birlik və nizam ilə iş görmək arzumuz əmələ gəlirsə, ümidvar olarıq ki, dağıstanlı qardaşlarımıza həqiqi kömək yetirə bilib onları da, özümüzü də qaragüruhlar təcavüzatından mühafizə edə bilərik. Bunun üçün partiyalarımızı bu mühüm işdə birligə dəvət edib də müvəffəqiyyətlərini təmənna edirik.

## ZAQAFQASİYA KONFRANSINA DAİR

Azərbaycan, Dağıstan, Gürcüstan və Ermənistan nümayəndələrindən təşkil edəcək olan Zaqafqaz konfransı sabahı gündən etibarən Tiflisdə iniqadə başlamalıdır.

Konfransın müzakirəsinə vəz ediləcək olan məsələlər xüsusində qəzetəmizin keçənki nömrələrində məlumat verilmişdi. Bundan anlaşıldığı üzrə konfransda həm iqtisadi və həm də siyasi məsələlər müzakirəsi müqərrərdir ki, siyasilərini təklif edən Azərbaycan və iqtisadilərini də Gürcüstan olmışdır.

Həll ediləcək olan məsələlər istər siyasi olsun, istər iqtisadi olsun, son dərəcə mühüm olduğundan, Zaqafqaz cümhuriyyətlərinin bir-birilə yaxşı və yaxud yaman dolanması bu məsələlərin o tövr və bu tövr həll edilməsindən asılıdır.

Məsələlər mühüm olduğu kimi, onların həlli də çox müşküldür. Azərbaycan tərəfindən təklif edilmişdir ki, ix- tilaflı məsələlər həqqində konfrans heç bir qərara gələ bilməsə, o halda hər tərəf "Arbitraj"[1] qərarına baqi olsun, yəni bu işlərdə mənafecə zimədxəl və əlaqədar olmayan "Bitərəflər"dən həkəm və münsiflər dəvət edilib ixtilafın həlli olanların qərardadına həvalə edilsin və onlar nə qərardad qoysalar hər tərəf buna razi olsun. Bu maddə bu surətlə qəbul edilirsə, ixtilaf və mübahisəli məsələləri həll etmək müşkülatı bir dərəcəyə qədər asanlaşar. Fəqət bu arbitraj qərardadının iki tərəfdən birinin mənafeyinə muvafiq olacağından, mənafeyini xələldar olmuş hesab edən tərəf genə də narazı qalacaqdır.

İştə bunun üçündir ki, bəziləri, əz cümlə erməni milli komitəsi naşiri-əfkari olan rusca "Naşe vremya" qəzetəsi dəxi, siyasi məsələlərin həllini sonraya, yəni ümumsülh konfransı həllinə vagüzar edib də yalnız bir iqtisadi məsələlərdən bəhs edilməsini səlah bilirlər.

Lakin biz bu zəndəyik ki, siyasi məsələlərə əl vurmamaq şərtilə iqtisadi məsələləri müzakirəyə qoymaq və müzakirə bədində müəyyən qərarlar itxaz etmək mümkün olan işlərdən degildir. Ondan əlavə siyasi məsələlərin müəlləq bir halda qalması heç bir kəsi şad edə bilməyib, arada genə də bürudət və küdurət törədə bilər. Halbuki konfransdan məqsəd bu küdurəti və bu bürudəti aradan götürmək,



etibar və etimad əmələ gətirməkdir, bunun üçün bir kərə açılışmaq lazımdır. Boylə açılışmaq ki, onun axırı möhkəm surətdə bağlaşılmağı müntəc olub aramızdakı kin və küdurəti rəf etsin.

Siyası məsələlərdən ən mühimi və ən çətini hüdud təyini məsələsidir.

Bu məsələ zatən Zaqafqaz cümhuriyyətlərinin istiqlal elani bədindən müzakirə və həll edilməli idi. O vəxt, yəni təqribən altı-yeddi ay bundan əvvəl bu xüsusda bir konfrans yığmaq üçün Gürcüstan və Azərbaycan hökumətləri tərəfindən təşəbbüslər edildi. Lakin Ararat hökuməti o vəxt bu konfransa razı olmayıb, işi pozdi. Pozmağda da müəyyən qərəzi oldığını, bunu mütəaqib Gürcüstana qarşı açmış oldiği müharibə ilə isbat etdi. İngilislər tərəfindən toxtadılmış olan bu müharibədən erməni hökuməti heç bir şey qazanmadı, biləks maddi və mənəvi zərərlər çəkdi. İş genə qılıc zoru ilə degil, danışıb görüşmək təriqi ilə həll edilmək zərurətində qaldı.

Şayani-diqqət burasıdır ki, o zəman Ararat hökuməti Azərbaycan iştirakilə bir konfrans qurulmasına razı olmayıb da məxsusi surətdə gürcülər ilə danışmağa girişmək istəmişdi. Gürcü hökuməti bu işə razi oldusa da iş genə Ararat hökumətinin təkrar rizasızlıq ibrazi ilə baş tutmadı. Hər halda ümumzaqafqaz konfransı təşkilindən əvvəl Gürcüstan və Ermənistan hökumətlərinin xüsusi görüşmələri niyyəti baqi qalmış imiş ki, bu konfransdan əvvəl həman iş baş tutub Ermənistan və Gürcüstan arasında bu günlərdə vaqe olan danışıq nəticəsində bu iki hökumət bir-birinin istiqlalını qəbul edib, tanıdıqlarını rəsmi surətdə elan etdilər. Bundan aşkardır ki, Gürcüstan və Ermənistan arasında vaqe olan ixtilaflı məsələlər artıq həll edilib qurtarmışdır. O surətdə, deməli, hər nə ixtilaflı hüdud məsələləri varsa Azərbaycan ilə Gürcüstan və genə Azərbaycan ilə Ermənistanın arasında qalmışdır. Bu ixtilaflar bərtərəf idilərsə, bizim dəxi istiqlalımız zənn edilir ki, rəsmi surətdə tanılılacağdır.

Rəsmi tanılmağın başqa bir mənası vardır. Məsələn, əgər Ermənistan hökuməti Azərbaycan istiqlalını rəsmən tanıdığını elan edirsə, o surətdə Parisdə olan Nubar paşaların və sair erməni müməssillərinin Azərbaycan torpağı hesabına böyük Ermənistan qurmaq niyyətləri bir dərəcəyə qədər puç olar. Bunun üçündir ki, höku-

mətimiz tərəfindən rəsmi tanınmaq məsələsi təklif edildikdə, Ararat hökuməti bu məsələnin həllindən əvvəl hüdud məsələsinin müzakirə və həllini lazım bildi.

İştə məsələlərin ən mühümi və çətini bu hüdud təyini məsələsidir ki, sair siyasi və iqtisadi məsaillik həlli də bu hüdud məsələsi həllinə bağlıdır.

Bu məsələnin çətinligindən bir az olsa da xəbərdar olmaq və nə qədər mühüm olduğunu təsəvvürə gətirmək üçün misal olaraq burasını mülahizə etməlidir ki, məsələ Ermənistan hökuməti əksəri Azərbaycan türk və islamlarilə məskun olan Naxçıvan və Şərur mahallarını təmamilə mənimsəməkdən əlavə Qarabağımıza dəxi iddiası vardır. Hakəza Gürcüstan Borçalı islam və türklər ilə məskun yerləri zəbt etdigi bəs degil ki, hələ Zaqatala ölkəsinə də göz dikmək istiyor.

Hüdud məsələsi müzakirəsinə başlarkən bir əsas üzərində dayanmaq lazımdır. Bu şərtlə ki, hər tərəf o əsası qəbul etmiş olsun. Böylə olursa məsələnin həlli bir dərəcəyə qədər asanlaşar. Halbuki məlumumuz olduğu üzrə hər tərəfin iltizam etdigi əsas başqadır. Məsələn gürci və ermənilər əsas olaraq tarixi ortaya qoyurlar. Biz isə "etnoqrafi" əsas tərəfdarıyıq, yəni bir yerin, bir mahalın sakin olduğu millətlərdən çoxluq və azlıq kimin tərəfində olduğunu mülahizə edirik.

Zatən, biz də tarixə müraciət edə bilərik. Ancaq bu şərtlə ki, o tarix "Nuh əyyamının" tarixi olmiya, yəni qədim tarix olmiyub də yaxın tarix bəhsi ola.

Bizim "Böyük Azərbaycan" qurmaq xülyalarımız olmadığına görə bu məsələdə ifrata girişmək xəyal və arzumuz da ola bilməz. Yalnız istədigimiz budur ki, əksəri Azərbaycan türk və islamlarilə məskun olan yerlər Azərbaycan dövlətinə mütəəlliq olsun. Məsələ, həll edilə bilmədigi halda "Arbitraj" qərarına tabe olmaq təklifimiz, insaf əhli olduğumuza böyük bir şahiddir.

Məsələnin həlli üçün, "Arbitraj" qərarına verilməkdən başqa bir də digər bir yol dəxi vardır ki, onun vasitəsinə də müraciət eləmək mümkündür. Bu yol, mahal əhlindən əksəriyyətin kimə tabe olmaq arzularını bilmək və məsələni bu əksəriyyətin arzusuna müvafiq olaraq həll etmək.



Əgər tərəfindən birisi nə "Arbitraj" qərarına və nə də əhali əksəriyyətinin arzusuna tabe olmaq istəməzsə, o halda insafsızlıq ibraz edib zor və cəbr tərəfdarı olduğunu bildirəcəkdir. Biz isə təbiidir ki, xəbərə tabe olmaq və rəsmən tanınmaq üçün mal-mülk və əhalimizi fəda etmək istəmiyəciyik.

Ümidvar olmalıyıq ki, tərəfin hər bir qeyri-qabil hüsul boş və çürük xəyallardan əl çəkib də bu mühüm məsələ müzakirəsində əqli-səlim ilə iş görmək istərlər. Zaqafqaziya cümhuriyyətlərinin əhvali-iqtisadiyyəsi və bir-birinə olan rabitəsi bunu tələb edir. Ermənistan və Gürcüstanın iqtisad cəhətincə Azərbaycandan asılı bir çox ehtiyacatı olduğuni iqrar və etiraf edənlər olmasa da həyat və məişət bunu isbat etməkdədir. Bizim dəxi gürci məsələsi kimi əhalimizin bir çox qismindən ötəri ölüm-dirim məsələsi olan böyük bir əngəlimiz var ki, o xüsusda yaylağlarımız yollarında yaşayan erməni ünsürilə ettilaf və sazişimiz lazımdır...

Hər halda çox arzu edərdik ki, sabah açılan konfrans müzakirəyə qoyulacaq olan məsələləri həll edərkən saziş və etilaf hissiyatı ilə xeyirxahanə bir surətdə işə girişib ümum Zaqafqaz cümhuriyyətləri əhalisi üçün xeyir və mənfəət yetirsin və Yevropa gözündə dəxi öz istiqlallarının şan və heysiyyətini korlamasın.

## DÖRDGÖZ OLMALIYIQ

Paytaxtimizdə Azərbaycan istiqlalına qarşı sui-qəsd əməliyyatının kəşf edilməsi bizi, yəni hökumətimizi də əhalimizi də dördgöz olmağa vadar edilir. Bundan sonra bizim hər bir cüzi də olsa fəqərədən şübhələnməmiz lazım gəlir. Və hər bir istiqlalpərəst və vətəndostşəxsin borcudur ki, hər kəsdən və hər bir əhvaldan və hadisədən şübhə edirsə həmandəm lazım olan yerlərə bildirib kəşf etdirsin. Və bu ayıqlıq təbiidir ki, həm Bakıda və həm də Azərbaycanın sair yerlərində dəxi ibraz edilməlidir.

Şükürlər olsun ki, Azərbaycanın türk və islam əhalisi arasında istiqlal və azad yaşamaq fikri o qədər bərkiyib və o dərəcə dərinləşubdır ki, əhalimiz əksəriyyət əzəminin vətənpərəstligi şək və şübhə xaricindədir. Baxüsus Nikolay dövri-mənhusində qalma bir taqım su idarələrin ləğvini boylə idarə başında duran bürokrat tərbiyəli adamların yavaş-yavaş iş başından rəf edilmələrini görən əhali hökumətimizin boylə müdəbbiranə tədbirlərindən xoşhal olub, öz-özümüzü özgələrdən yaxşı dolandırmaq iqtidarımıza iman və etiqat etməkdədirlər.

Bu gün Azərbaycan istiqlalı əleyhinə söylənən söz və icra edilən əməl hər bir Azərbaycan türk və islamının hissiyatına toxunmaqla qəlbini pərişan edir və acığını tutdurur.

Əhalimizin hal və hissiyyatı bu gün o haldadır ki, şərəflə ölməgi qul və əsir olmağa tərcih edir və bunu degil yalnız bir sözlə söyliyor bəlkə bütün əql və qəlbi ilə dərk edib anliyor.

Təəssüflər olsun ki, bizim sosialist firqələrimizdən bəziləri ifrat dərəcəyə varub da özgə çəkməsinin bizim boynumuz üzərinə minməsini sosializm şüarlarinin hüsulindəədd edib buguna xilafi-insaniyyət yollarda işləməgi özləri üçün caiz bilirlər. İstiqlallarını can və başla saxlamaq yolunda hər bir fədakarlıqlarda bulunan qoca gürcü sosialistlərindən ibrət almaq istəməyən cavan sosialistlərimiz böyük səhvdədirlər. Boylə səhv ki, onun nəticəsi nəinki sosializm fikrinə xidmət göstərməz, bəlkə bir millətin məhv və itlafına səbəb ola bilər.

Biz ifrata varan cavan sosialistlərimizi buguna əməllərin sonki təhlükələrindən xəbərdar etməgi özümüzə borc bilirik və bunu deyirik ki, müstəqil yaşamayan bir millət içində ali fikirlər əmələ gələ bilməz. Sosializmi ali fikirlərdən ədd edib də bunun intişarını Azərbaycan türk və islamları arasında arzu edirsinizsə, əvvəlcə çalışın ki, bu millət azad yaşamağa imkan bulsun, zira hər bir tərəqqi və o cümlədən fikir tərəqqisi dəxi, ancaq azad yaşayan millət üçün də nəşvü-nüma tapub inkişaf edə bilər. Hətta internosional fikri dəxi müstəqil yaşayan millətlər arasında törəyən bir fikir ola bilər.

Hal-hazırda bizdən ötrü bolşevik hücumu və ya Deni- kin qaragüruh hücumu–ikisi də bir təhlükədir. İstiqlalımızı itirmək azadkən qul və əsir olmaq və ola bilməsin ki, bilkülliyyə yer yüzündən yox olmaq təhlükəsidir. Heç vaxt demək olmaz ki, bolşevik istilası Denikin istilasından iyidir. Çünki o da, bu da bir millətin istiqlalını və azadlığını əlindən almağdır. Biz onu da, bunu da təcrübə ilə görmüşük, viran edilmiş imarətlərimiz, talan olmuş malımız günahsız yerə tökülmüş qanımızla imtahanlardan keçirmişik və bunu da hər bir sinfimizdən artıq demokrat və füqərayi-kasibə sinfimiz görüb və hiss edibdir. Özgə millətlərdən olan bolşevik hakimlərinin "ədalət" və "mürüvvət"indən hamıdan artıq zərərçəkən türk və islam füqərayi-kasibəsi olduğunu heç bir insaf əhli dana bilməz.

Bu füqərayi-kasibəni təkrar cəbr və zülm pəncəsi altına verməkdə nə böyük fikir və nə ali məqsəd ola bilir?..

Zənn etmirəm ki, bu cürə "ali" fikir və məqsədlər Azərbaycan türk və islamları üçün müzahirət göstərən olsun!.. Bunun tərəfindən ancaq bizim zillət və rəzalətmizi istəyənlər içində ola bilər…

İştə istiqlalımıza qarşı hazırlanmada olan sui-qəsdlərdən özümüzü qorumaq, müqəddəs vəzifəmizdir. Dördgöz olub da, hər bir şübhə iqaz edən keyfiyyətə diqqət yetirməliyik və əlaqədar olan dairələrin diqqətəni cəlb etməliyik ki, buguna sui-qəsdlər ibtidadə kəşf edilib böyüməgə imkan bulmasın.

İçimizdə olan düşmənlərimizin təhlükəsi xaricdə görünən düşmənlərinkindən daha zərərlidir. Xaricdə duranı görürük, lakin içimizdəkiləri hər dəfə görmək mümkün olmur. Bunlar əlaltı işlər görürlər və bizə qarşı qəflətən hücumlar və şəbxunlar hazırliyorlar.

Bu yolda hökumətimiz üzərinə böyük vəzifələr tərəttüb edir ki, onlardan biri də əz cümlə budur ki, məmləkətimiz, qapısı açıq məscid halında qalmasun ki, oraya Allah bəndələri ilə bərabər şeytanə sitayiş edən əgri və oğrular dəxi girə bilsin. Keçmiş işlərdə ləkəli olanları və

söz və əməllərilə şübhəli görünənləri məmləkətimiz daxilinə buraxmamalıdır, səhvən buraxılmışlar varsa, tərd və ixrac etməlidir. Gürcülər və ermənilər öz məmləkətlərində boylə edirlər, biz nə üçün etməməliyik? Bir halda boylə rəftara böyük bir həqqimiz vardır.

Xülasa, istiqlalımızi müdafiə və mühafizə yolunda dördgöz olub da xarici və daxili düşmənlərimizi dəf üçün hər bir tədbirə bilatərəddüd təvəssül etməlidir.



## DAĞISTAN VƏ BİZ

Bu bir-iki gün ərzində Dağıstandan gələn xəbərlər Dağıstan hökuməti əhvalını o qədər qat-qarışıq bir halda təsvir edir ki, insan çaşıb qalır.

Bir tərəfdən ingilis komandanlığının əmri ki, dağıstanlılar Denikin və Prjevalski ordularına qarş düşmənanə hərəkətlərdən əl çəksinlər. Prjevalskinin qoşunu Petrovskini[1] işğal etsin. Demək bütün Terski[2] oblastı Denikin hökmü altında qalsın. Digər tərəfdən xəbər var ki, dağıstanlılar ittifaq edərək Denikin ordusuna Nazran[3] yanında böyük bir həzimət yedirdib Qroznıyı,[4] təkrar geri alıbdırlar. Bu tərəfdən dəxi bir şayiə dövran ediyor ki, Dağıstan hökuməti məqərri olan Teymurxan Şura[5] şəhərində inqilab əmələ gəlib bolşeviklik hərəkatı müşahidə edilməkdədir. Əlavə görüşüb danışdığımız dağıstanlı qardaşlarımızdan bir çoxunun söhbətindən anlaşılır ki, Dağıstan hökumət əzaları və parlaman məbusları arasında dəxi lüzumi dərəcədə saziş və söz birligi yox, əhalidən dəxi bir para qisminin hökumət və parlamandan şikayətçi olduqları məsbutdır.

Həmhüdud Dağıstan ilə aramızda olan dini və siyasi rabitə bizi bu işlərdən baş açmağa və həqiqət halı müsbət bir surətdə təyin etməgə vadar edir. Madam ki biz Dağıstana kömək etməgi, özümüz üçün böyük və vacib bir vəzifə ədd edirik ki, filvaqe böyük vəzifələrimizdən biri budur, pul yığınq, könüllü dəstələri təşkil edirik, o halda kömək edəcəgimiz yerin həqiqət halından bixəbər qala bilmərik.

Bunun üçün bizə lazım və vacibdir ki, əvvəla Dağıstan haqqında və Dağıstan istiqlalını mühafizə və müdafiə xüsusində ingilis baş komandanın rəy və mülahizəsini bilək. Dağıstandan ötəri böyük bir mədaxil mənbəgi olan və onsuz Dağıstanın müstəqil bir hökumət şəklində yaşaması həman mümkün olmayan Terski oblastını və dəniz qapısı Petrovski şəhərini Denikinin əlinə verməkdə ingilislərin məqsədi nə olduğunu aşkar edək

İkinci olaraq bizə borcdur ki, Dağıstan əhvalından doğru bir xəbər bilmək üçün yalnız bir rəsmi mənbələr, xəbərlər ilə iktifa etməyib, Dağıstana xüsusi bir komision göndərərək ki, hər işi öz məhəlində tədqiq və təhqiq edib bizi əhvaldan vaqif etsinlər. Bu xüsusda nə qədər tez davransaq, bir o qədər yaxşı olar.

## EYNİ MÜAMİLƏ GÖZLƏYİRİK

Qarabağ ermənilərinin Azərbaycan hökumətinə tabe olmamaq qəsdilə göstərməkdə olduğları inad artıq həyasızlıq dərəcəsinə varmışdır.

İngilis baş komandanı Bakı nümayəndəsi Şatluvert[1] cənabları Qarabağ ermənilərini Azərbaycan hökumətinə itaətə dəvət etmək üçün rəsmi surətdə Bakıdan Qarabağın müqərrər hökuməti olan Şuşa şəhərinə getdi, erməniləri əhvaldan xəbərdar edib, Qarabağda yalnız Azərbaycan hökuməti icrai-hökm və ifayi-vəzifə edə biləcəgini onlara bildirdi, ingilislərin də yalnız bu nöqteyi-nəzəri iltizam etdiklərini elan ilə Qarabağ ermənilərini itaətə dəvət etdi. Buna cavab olaraq Qarabağ erməniləri bir "isiyezd" yığıb məsələni "müzakirə" etdilər və təkrar bu qərara gəldilər ki, Azərbaycan hökumətinə tabe olmasınlar!

Şatluvert cənabları ermənilərin bu qərarına rəğmən Qarabağın məhz Azərbaycan hökuməti təhti-idarəsində olduğunu elan ilə bu hökumətə tabe olmağı ümüməhaliyə tənbih etdi.

Deməli, bundan sonra hər kəs ki, Qarabağda Azərbaycan hökumətinə qulaq asmadı, asi və xain cümləsindənədd edilib layiqi olan cəzalara düçar edilməlidir.

Lakin Qarabağ erməniləri boylə cəza və tənbihlərdən qorxmiyorlar, çünki öz dedikləri kimi "Yevropaya ümidvardırlar", ümidvar olmaqlarının əsasi dəxi budur ki, müharibə əsnasında müttəfiqlərə "kömək durub" düşmən qabağında "duş gərib qılıc vurubdurlar", bunun əvəzində müttəfiqlərdən "ənam" gözliyorlar!.. Məsələnin bu gün bizi maraqlandıran cəhəti budur: madam ki Qarabağ erməniləri ingilis baş komandasının dəxi əmrindən çıxırlar və öz haqsızlıqlarında inadlıq edib dururlar, o surətdə ingilis baş komandanlığı öz nüfuz və heysiyyatını itirməmək üçün nə kibi müamilələrə təvəssül edəcəkdir?

Kiriyub duracaqdırmı?

Əlbəttə, əgər ingilislər bu cürə işlərə əvvəldən qatışmasaydılar və məsələnin həllinə bizim özümüzə vagüzar etmiş olsa idilər, biz bu işi bir növ ilə bitirib, ya sazişlə və ya cəbrən həqqımızı yeritməgə qadir olardıq. Məsələ, ingilislər, gürcü və Axısxa məsələsinə qatışmadıqları kimi, Azərbaycan və Qarabağ məsələsində də bitərəf qalsa idilər, biz özümüz bu məsələni çoxdan həll etmiş olardıq. Əmma madam ki



ingilislər Qarabağ məsələsinə qatışdılar, özləri də həqqın tərəfdarıdırlar, o halda gözlədigimiz odur ki, erməni inadını sındırmaq və erməniləri boş xəyalatdan əl çəkdirmək işini yarımçıq və natəmam qoymayub, axıradək aparsınlar. İngilis baş komandası bu əmri axıradək yetirməgə üç cəhətcə borcludur:

Əvvəla, iş natəmam qalırsa, ermənilərin həqsızlığı müsəlmanlara xoş gəlmiyub arada vuruşma və toqquşmalar əmələ gələ bilər ki, bunun məsuliyyəti ingilislər üzərinə düşür.

Və saniyən, ingilislər bir dəstə Qarabağ ermənilərini itaətə məcbur edə bilməsələr, öz nüfuz və heysiyyətlərini Qafqaz millətləri arasında itirə bilərlər.

Və salisən, madam ki ingilislər Qarsı[2] və həvalisini erməni hökumətinə təslim etmək üçün oranın islam "şurasını" dağıtdı, əzalarını həbs etdi və bir neçələrini öldürdülər, o halda Qarabağ ermənilərini də itaətə məcbur üçün insaf və ədalət naminə eyni müamiləyi işlətməgə mənən məcburdurlar. Vəilla türk qövmünə qarşı böyük bir haqsızlığda bulunmuş olarlar.

Qarabağda bu "hartu-vurtu" salan və bu hərəkətləri çıxaran bütün Qarabağ erməniləri olmiyub bəlkə bir dəstə daşnak güruhudur. Qarabağın kənd erməniləri yaxşı bilirlər ki, Azərbaycan hökumətinə tabe olmasalar, müsəlmanlar ilə əlaqələrini kəsməgə məcbur olub, acından ölərlər. Ona görə biz əminik ki, bədbəxt erməni kəndləri bu gün bir dəstə daşnakların xəyanət və şeytanəti qurbanıdırlar, bu güruhi-layəfəlhun erməni millətinin gözünü o qədər qorxudubdur ki, bir bu qədər haqsızlıq və zülmlərə qarşı ağız açıb söz deməgə cürətləri yoxdur. Əgər bu xainlər güruhu Qarabağdan tərd və təbid edilirsə və onların yuvaları dağılırsa, Qarabağ erməniləri asudə nəfəs çəkib həm acından ölməzlər, həm də öz həmişəki qonşuları ilə mehriban dolanıb, Azərbaycan hökumətinin ədaləti altında və sayeyi-mərhəmət qayəsində kəmali-asudəgi ilə imrari-məişət edərlər.

İştə bizim və ümumqafqaz türklərinin ingilislərdən gözlədigi budur ki, Qarabağ erməni üsyançılarına qarşı şiddətli tədbirlər ibraz etməklə həm ədalət göstərsinlər, həm də öz şan və heysiyyatlarını artırsunlar və bununla Qarabağ erməni məsələsi bir kərəlik həll edilib qurtarsın.

## NƏ İSTİYORLƏR

Fələ konfransı, daha doğrusu, istiqlalımız bədxahlarından əmələ gəlmiş və hökumət içində hökumət törətmək niyyətilə əlaltından iş görən və məqsədləri Azərbaycan istiqlalını uçurmaq olan güruh başçıları guya iqtisadi olaraq yeni bir zabastovkalar meydana çıxartdı.

Bu gunə zabastovkalar istiqlalımız düşmənlərinin əlində bir əsləhədir ki, hazır saxlayıb fürsət məqamında bizə zərbələr vururlar.

İqtisadi elan edilmiş olan bu zabastovkanın siyasi mənası böyükdür. Həştərxan yolunu açmaq və bolşeviklər hücumuna müsaid yollar aramaq istiyorlər.

Məhəlində, yəni Bakının və Azərbaycanın özündə istiqlalımıza qarşı üsyan törədib, inqilab əmələ gətirməgə hələ özlərinin maddi və mənəvi gücləri kifayət etmədigindən, kənardan gəlmə gücdən istifadə etmək istiyorlər. Odur ki, Həştərxan yolunu açın deyirlər. Açın ki, əvvəla bolşeviklər neftdən korluq çəkməsin, saniyən, Bakı üzərinə hücum etməgə həm qüvvəsi, həm də imkanı olsun!

İştə istədikləri budur:

Fərz edəlim ki, Həştərxan yolu açıldı. Aya, biz əminikmi ki, bolşeviklər bizimlə yalnız bir neft alveri etməklə kifayətlənib də istiqlalımıza qarşı sui-qəsd etməzlər?

Mart hadisatında bizi, yəni müsəlman burjuyundan tutmuş müsəlman füqərayi-kasibəsini və baxüsus müsəlman əlsiz-ayaqsızlarını erməni daşnak saldatlarının süngü, güllə və xəncərlərlə arvad və uşağına kimi qırdıran bolşeviklərə biz nə tövr etibar edə bilərik? Bolşeviklik naminə erməni-müsəlman qırğını salanların hansı "gözəl" sözünə və "insaniyyətpərvəranə" sözlərinə inana bilərik? Bolşevikləri dursun, menşeviklərinə nasıl bel bağlaya bilərik? İstiqlalımızı qəbul etmədiklərinə görəmi? Və bu gün hər bir vəsilə ilə olur-olsun, istiqlalımızı əlimizdən almaq yolunda çalışdıqlarına görəmi?

Bu gün ingilislərdən şikayət edən və onlara düşmənçilik göstərən menşeviklər, roxlinlər, curayevlər həman adamlar degildirlərmi ki, bir millətin hüququnu əllərindən alıb da bu hüququn istirdadi yolunda can verən türk və islamlarla müharibə üçün ingilisləri yalvara-yalvara çağırıb əl və ayaqlarına düşüb kömək diləyirdilər. İndi nə oldu ki,



ingilis pis oldu? Azərbaycan turkləri istiqlalının tərəfdarı olduqlarına görəmi? Pəs Azərbaycan hökumətinə qarşı düşmənlik nədəndir? Hökumət başında Azərbaycan türkləri oturub da Azərbaycan istiqlalının harisi və mühafizi olduğuna görəmi?

Bu gün cümhuriyyətlərində ümummillətlərin huququnu gözləyən, bunların rifah halı üçün öz millətinin bir çox həqqını boylə qurban edən hürryyəti-mətbuat, hürriyyəti-kəlam, hürriyyəti-ictimai, hürriyyəti-diniyə, hürriyyəti-şəxsiyyəsilə sosialist Gürcüstandan və daşnak Ermənistandan boylə ağac-ağac qabaqda olan bu türk hökumətinin qəbahəti nədir ki, buna qarşı düşmənçilik edirlər?

Türk və islam olduqlarına görəmi?

Zənn edilməsin ki, sözlərimiz provakasiyadır. Arada başqa bir səbəb görmiyorık.

Bizim hürriyyət düşməni olmadığımızı və biləks, hər bir hürriyyətə riayət etməkdə olduğumuzu görən hurriyətpərəstlər nə üçün bizimlə biz Azərbaycan türk və islamlarilə düşmənçilik edirlər? "Tatarva" hökuməti olduğuna görəmi?

Bizə sosializmə və sosialistlərə düşmən olmadığımızı hökumət kabinəsi içində sosialistlərə yer verməklə parlamandakı sosialist fraksiyamız ilə isbat etdigimiz halda sosialist roxlinlər, curayevlər və kampaniyasının bizi bəyənmədigi "tatarva" məsələsindən layiq olmayıb da bəs nədəndir?

Bizim hökumətimiz var, parlamanımız var, əgər Həştərxan yolunu açıb da neftimizi rəvac etmək uçün əhvali-siyasiyə müsaidə olarsa, əlbəttə, biz buna razı olub da heç vəxt istəmərik neftimiz yatıb qalsın. Neftimizin Rusiyaya daşınması bizim mənfəətimizdir. Boylə olarsa, pulumuzun qiyməti artar və ticarətimiz rəvac olar. Əmma madam ki, biz hələ bunu etmirik və Həştərxan yolunu hələ açmırıq, görünür ki, istiqlalımızı təhdid edən siyasi əhvallardan çəkinirik və fürsəti müsaid bilmirik. Şübhəsiz, rus fələləri neftin satılmağını Azərbaycan türklərinin istiqlalından əziz tuturlar. Onlardan ötrü təki neft satılsın, yerdə qalanı əhəmiyyətsizdir.

Əmma türk və islam olan fələlər işə bu nəzəriylə baxa bilməzlər. Milli hüququ iqtisadi mənfəətlərə sata bilməzlər. İstiqlalımızı neft alış-verişi yolunda qurban və fəda etmək istəməzlər.

Ondan əlavə bu saət bizim iqtisadi əhvalımız o qədər naçar halda degildir ki, biz bu saət heç bir şeyə baxmayıb da neftimizi satmaq üçün təhlükəli vəsilələrə əl ataq.

Gürcüstan və Ermənistanın əhvali-iqtisadiyəsi Azərbaycandan qat-qat fəna bir halda olduğu surətdə nədəndir ki, orada ümumi zabastovkalardan heç bir xəbər-əsər görinmiyor?

Acından ölən və ianələr ilə dolanan Ermənistan öz istiqlaliyyətindən bərk-bərk yapışdığı halda Azərbaycana nə olubdur ki, tez neftini satmaq üçün istiqlalını təhlükələrə salsın?

* * *

Əlqərəz, bu gunə zabastovkaların iqtisadi rəngdə də olmuş olsa bizə, bizim hüquqi-millimizə bizim azad yaşamamıza, istiqlalımıza bədxah və düşmən olanlar tərəfindən icra edilməsindən məqsəd məhz istiqlalımızı əlimizdən almaq və bizi təkrar əsir etməkdir. Əgər zabastovka Azərbaycan türk fəhlələri tərəfindən və Azərbaycan türk sosialistləri əliylə icra edilmiş bir keyfiyyət olsa idi, biz heç bir təşvişə düşməyib də arada xəyanətkarlıq olmadığına əmin olardıq. Lakin özgələrin zabastovkasına roxlinlər və curayevlər təşviqatı ilə icra edilən tətillərə biz ancaq yan-yan baxa bilərik, çünki onlara inanmarıq və genə də inanmarıq və inanmamağa da əlimizdə böyük dutalğalarımız vardır. Onlar bizim puç olmağımızı istiyorlər.



## BAYRAĞIMIZ SARSILMAZ

Müqəddəs bayrağımızın münəvvər rəngləri, günəşin ziya və şəfəqləri kimi təcəlli edir. Zülmət dostu olan sağ və sol düşmənlərimizin xain gözləri bu nurlardan qamaşır.

Münəvvər bayrağımızın üç rəngli parçasını övci-səmayə qaldıran ağacı, iti bir ox olub alçaq düşmənlərimizin qara qəlblərini deşməkdədir.

Müzəffər bayrağımızı möhkəm tutmuş olan müqəddəs əllərin getdikcə artmaqda olan qüdrət və qüvvəti zalım düşmənlərimizin namərd belini sındırmaq və alçaq başlarını əgdirmək üzrədir.

O xain gözlər, qara qəlblər, namərd biləklər və alçaq başların sahibləri əzab çəkirlər; ruhları inciyir, bədənləri ağrıyır. Vicdan əzabı altında haqq qapısında sürünən iblis kimi, müqəddəs bayrağımız qabağında əzilib-büzülür və bu bayrağı qapmaq, ağacını sıxıb-sıxıb və parçasını para-para etmək üçün bayraqdar üzərinə cummaq və soxulmaq istiyorlər...

Əbəs zəhmət!

O ağac sınmaz, o nur sönməz, o əl dönməz!! Çünki bayrağımız, həqq bayrağıdır. O bir millətin hüquqi-bəşəriyyəsinin harisidir. Bir millət ki, onun da insan kimi yaşamağa həqqı vardır! Bir millət ki, daha əsir olmaq istəmir!

Nahaq səy!

Zülm və əsarətin yoğun zəncirlərini qırıq-qırıq etməgə qadir olmuş bir millətin, həqq və hürriyyət bayrağı enməz, sarsılmaz!

## SİYASİ İMTAHAN

Elan edilmiş və hökumətimizlə bərabər millətimiz və millətimizin siyasətən ziyalı qismini təşkil edən fəlo və əmələlərimiz tərəfindən ustadlıqla söndürülmüş olan zabastovka Azərbaycan üçün siyasi bir imtahan idi.

Bu bir böyük imtahan idi ki, bütün dost və düşmən və bitərəflərin nəzər-diqqətləri bizdə olub degirdilər ki, görək bu Azərbaycan türk və islamları ki, müstəqil yaşamaq və öz-özlərini dolandırmaq istiyorlar. Bu siyasi imtahandan keçə biləcəkmi, yoxsa bacarmayıb basılacaqmıdırlar və əvvəldən müəyyən edilib dəftərə yazılmışdı ki, əgər biz bunun kimi ağır siyasi imtahanı layiqilə verə bilərsək, müstəqil yaşamağa öz-özümüzü bəduni-qəyyum dolandırmağa layiq bir millət, bir dövlət əfradi olduğumuzu bütün aləm qarşısında isbat edərik. Vəilla... özümüzə qəyyum tikmək, özgələri ustümüzə hakim qoymaq lazım gələcəkdir. O hakimin və o qəyyumun da bizimlə nə tövr dolanacağı və yaşamağa layiq olmayan bir millətlə nə günə rəftar edəcəgi məlumdur.

İmtahan ağır imtahan idi.

Bizi imtahana çəkənlərin əsl məqsədləri bizi yıxmaq, əzmək və məhv etmək olduğundan qabağımıza o dərəcə ağır suallar qoymuşdular ki, hər birisinin cəvabı öz-özlügündə xüsusi bir müşkülat törədirdi.

Onlar bir kəlmə istiyordılar ki, bizim əlimizi, ayağımızı hər bir bənd və yerimizi möhkəm-möhkəm bağlayub, sarıyıb yerə yıxsınlar və meyit kibi hərəkətsiz düşmüş bədənimizə işarə edib, kənardən baxan dost və düşmənlərə rişxənd və istehza ilə desinlər ki:

– Baxın! Müstəqil yaşamaq iddiasında olan bu diri ölüyə və ölü diriyə ki, siz bundan yaşayış iqtidarı gözləyirsiiz! Bunun nə başı başdır ki, özündən və mühitindən xəbəri olsun, nə qolunda bir qüvvət vardır ki, özünü müdafiə etsin, nə ayağında istiqamət var ki, ayaqüstə dura bilsin! Özün bir dəstə qandırıcıların kəməndinə giriftar edən bu millət daima zəncirbəndi-əsarət olmağa layiqdir!

Lakin şükr olsun ki, boylə olmadı. Millət imtahandan keçdi və parlaq bir surətdə keçdi!

İmtahanın ən ağırı fələ və əmələlərimiz üzərində idi. İqtisadi



zabastovka deyə onların gözlərinə pərdə çəkmək istənildi. Fəqət fəlo və əmələlərimiz pərdəni yırtdılar. Yırtıb da arxasında görünən siyasi cəhətləri dərk etdilər. Dərk edib də dedilər ki:

– Biz istiqlalımızı satmaq, millətimizi məhv və nabud etmək, vətənimizi xarabazara döndərmək istəmirik! Biz candan əziz tutduğumuz Azərbaycanımızı dünən bolşeviklərlə "hökumətlik" üstündə qarpış-qarpış salan, bu gün isə bolşevikləri köməgə çağıran, dünən ingilislərə yalvaran, bu gün ingilisləri sögən Çurayev, Anaşkin[1] və mikoyanların[2] həvabü həvəsinə, kef mayəşasinə qurban etmək istəmərik.

İmtahan parlaq bir surətdə keçdi. Dost sevindi, düşmən yandı!

Azərbaycan türk və islamları müstəqil yaşamağa qabil, diri, səlamət əql və səlamət bədənə malik siyasi bir vahid olduğunu yar və əğyar nəzərində isbat etdi!

Ola bilsin ki, gələcəkdə bizim üçün daha ağır imtahanlar hazırlanır. Fəqət biz daha qorxmuruq. Zira bugünkü ağır imtahandan keçmək üçün bütün kömegimizi sərf etməgə lüzum görmədik, çətin imtahanı asanlıqla keçdik. Bundan daha ağır imtahanları keçmək üçün kifayət qədər qüvvəmiz olduğü aşkar oldu. Düşmənlərimizin gələcək hiylə və təzvirlərinin dəxi hər dəfə müvəffəqiyyətsizligə düçar olacağına bugünkü əzmimizdən pey aparmaq olar.

Qoy indi bu imtahanı göz ilə görən bitərəf hakimlər dəftərlərində bunu qeyd etsinlər və ümumə oxutsunlar ki:

Azərbaycan türk və islamlarının azadlığına toxunulmasın! Onlar bu inadlığa layiqdirlər!

## XATİMƏ

Zabastovkanı yatırmaq və xələldar edilmiş məişəti öz yoluna salmaq haqqında hökumətimiz tərəfindən ittixaz edilmiş tədabiri-şədidədən hasil olan müvəffəqiyyət və müzəffəriyyəti əvam və anlamazlar nəzərində ləkələmək üçün hökumətimizi irticapərəstliklə ittiham edirlər. "Kontrrevolyusoner", "reaksioner" deyə əvam fərib təbirlərlə qandırmaq istiyorlar ki, guya bizim hökumətimiz Nikolay hökuməti yoluyla gedib "proletariya" ilə mübarizəyə qalxırmış! Fəqət boylə degil ki, boylə də olsun!

Zabastovkanı yatırdan hökumətimiz azad Azərbaycan Cümhuriyyətinin ən hürriyyətpərvər, ən demokratik bir hökumətidir ki, bu sənətləri haiz olduğu sözlə degil, felən isbat edib də azad bir Cümhuriyyətə yaraşan azadlıqların hamısına yol vermişdi.

Zabastovka quran adamlar isə Bakı proletariyası Bakının əsl füqarayi-kasibəsi olmayub da imperializm amalını, yəni bir millətin azadlığına qarşı sui-qəsd etmək fikrinin tərəfdarları idi ki, Azərbaycan türklərinin azadlığı azad bir surətdə tərəqqi və inkişaf etməsi və bir millət olmaq üzrə qəüvveyi-cismaniyyə və ruhaniyyə və maddiyyə və mənəviyyəsinin sərbəstanə-təalisi onlarca arzu olunmayan və onların xoşuna gəlməyən əhvallardandır.

Deməli, bu mübarizəyə konturrevolyusiya ilə proletariya mübarizəsi degil, hürriyyətpərəst və azadlıq tərəfdarı olan bir millətin qırmızı rəngə boyanmış qara qüvvələrdən özünü qoruması, müdafiə və mühafizə etməsidir.

Əsarət kəməndini təkrar boynuna salmaq və zəlalət zəncirini tazədən ayaqlarına vurmaq istəməyən bir milləti və o millətin başında duran hökuməti kontrrevolyusoner deyə təkdir etmək, başını qəssabın bıçağı altına uzatmaq istəməyən bir heyvanı sökmək mənziləsindədir.

Bu zabastovka ki, baş tuta bilsə idi, bütün həyatımızı durduracaq və zabastovkaçıların müvəffəq olduqları təqdirdə ola bilsin ki, paytaxtimizi təkrar qan ocağına döndərəcək idi, yeni təşəkkül etmiş kabinəmizdən ötəri öz bacarığını və bacarıqsızlığını əhalimizə və ümumə bildirmək üçün bir imtahan və bir məhək daşı idi.



Kabinəmiz təşəkkül edən gündən bəri, bir çoxlarının əli yürəgi üstə durub fikir-fikir edirdilər ki, aya, bu qədər uzun bir böhrandan sonra əmələ gəlmiş olan bu kabinə bir şey bacaracaqmı, yoxsa idarə işində bacarıqsızlıq və düşmənlərimiz qarşısında mətanətsizlik göstərib məmləkəti idarədən acizmi qalacaqdır.

Zabastovkanı yatırtmaq yolunda hökumətimiz tərəfindən göstərilmiş olan bu əzm və səbat bizi və hər bir istiqlal-dost vətənpərvərləri mətməinqəlb edə bilər. Çünki hökumət bu imtahandan parlaq bir surətdə keçdi. Məhəkdaşı hökumətimizin səbat və bacarıq sahibi olduğunu meydana qoyub aşkar etdi. Nəsib bəy kabinəsinə bəyani-etimad etmiş olan parlaman səhv etmədigini bilsin.

Nəsib bəy həzrətləri bir kabinə rəisi olmaqla bu heyətə bir əzm və səbat ruhu vermək və bir daxiliyyə naziri olmaqla məmləkətin xələldar edilmək istənilən əmn və asayişini müdəbbiranə bir surətdə bərpa və bərqərar etməkdə nə qədər səlim bir əql, mətin bir qəlb və qüvvətli bir iradəyə malik qiymətli bir zat olduğunu əleni surətdə bildirdi və müstəqil Azərbaycan tarixində böyük bir ad qoydu.

Azərbaycan türk və islamları və əmn-asayiş tərəfdarı olan Azərbaycan millətləri Nəsib bəy kabinəsinə bel bağlaya bilər və ümidvar ola bilər ki, idareyi-məmləkət işinin hər bir cəhətlərində dəxi bunun kibi sələmət bir politika işlənilib məmləkətimiz və vətənimiz kəmali-sürətlə bir tərəfdən qüvvət tapıb, bir tərəfdən də tərəqqi edəcək və getdikcə ağ günlərə çatacaqdır.

## SİYASİYAT

İngilislərin Qafqazdan getməgi və əvəzində italyanların gəlməgi müxtəlif göftgulara səbəbiyyət verməkdədir. Bu siyasiyat dəyişiklikligini hər kəs bir cürə təfsir edir. Bunu italyanlara müttəfiqlər tərəfindən bir güzəşt surətində anlayanlar ingilis nüfusinə qarşı bir hədd qoyulmaq məzmununda tələqqi edənlər və sair bu kibi mənalarla təfsir verənlər vardır.

Bizcə bu əhvali-siyasiyat yürüşünün proqramını bu gün əllərində tutmuş olan müttəfiq dövlətlərin proqram dəyişikliklərini anladan əhvallardan degildir. Bu müzəfəriyyət və qələbələrindən mümkün mərtəbə, böyük istifadələr qazanmaq hərb əsnasında çəkmiş olduqları, zərər və ziyanları mənfəətilə qaytarmaq və Almaniyanı zərərsiz bir halə salmaq işlərilə məşğul olan müttəfiqlərin əsgəri manevrasıdır ki, qoşun hissələrinin istirahəti nöqteyi-nəzərindən ittxaz edilməsinə lüzum görülmüşdür.

Qafqaz cümhuriyyətləri üzərində "protektorat" təyin etmək və həqqi-himayənin kimə verilmək məsələsinin hələlik həll olunmadığını zənn edirik.

Ümumiyyətlə, bunu demək olar ki, müttəfiqlərin Qafqazda dolaşması əvvəlcə zənn olunduğu kimi Rusiyanı diriltmək və əski hüdudları dairəsində yenidən bərqərar etmək niyyətilə olmiyub, bəlkə alman ayağı dəymiş olan yerlərdən alman nüfuzunu bilkülliyyə məhv etmək və bolşevikliyin yayılmasına bir hədd qoymaq qəsdilədir.

Həqq-himayə məsələsi gələcək məsələlərdəndir. Mehmannəvazlıqla məşhur olan qafqazlılar və baxüsus Azərbaycan türk və islamları, rəftar və hərəkati ibtidadə xeyrxahlığa dəlalət etməyin ingilisləri boylə bir mehmanə layiq olan hörmətlə qarşıladığı kimi dost və xeyirxah olacaqlarını ümid etdigimiz italyanları dəxi kəmali-mehmannəvazi ilə qəbul edəcəklərdir.

Vaxtilə istibdad və əsarət acılığını dadmış olan italyanlar bu istibdad və əsarət cəngindən yenicə can qurtarmış olan azərbaycanlıların halını gözəlcə anlarlar, əlavə türklik ilə italyanlar arasında qədim və yeni tarixlərdə bir o qədər dərin bir xüsumət və düşmənçilik olmadığını və bu gün italyanlar ilə Osmanlı türkləri arasında mövcud olan



ülfət və məvəddəti mülahizəyə alırsaq, italyanlardan mənfəətdən başqa bir zərər görməyəcəgimizi indidən qəviən ümid etmək olar.

İngilislərin getməginə gəlincə yuxarıda zikr etdigimiz üzrə bizdən bizim adat, əxlaq və rəftarımızdan doğru xəbərləri olmayan və düşmənlərimiz tərəfindən haqqımızda yalan-yalan xəbər və məlumat əxz etmiş olan ingilislər ibtidai-əmirdə bizə bir qədər yan-yan baxmaq istədilərsə də sonra bizimlə yaxından tanış olub da məlumatlarının yalan və yanlış olduğunu dərk edib hər münasibat və müamilatlarını dəgişdilər və bizim xeyirxahımız olmaqla düşmənlərimizi başı aşağı etdilər. Hökumətimizi təsdiq etmək, daxili işlərimizə qarışmamaq bizi və bilümum Zaqafqasiyanı bolşeviklər hücumundan qorumaq, Biçeraxov kazaklarını rədd etmək, Denikin və prijevalskilər qaragüruhunu paytaxtimizdən çıxartmaq, Qarabağ məsələsində bizə kömək kimi rəftarlar ilə Azərbaycan türkləri arasında rəğbət qazandıqlarından çıxıb getmələrinə heyfsilənməmək qabil degildir. İngilislərin burada olmağından biz istifadə edib də yenicə təşkil etmiş olduğumuz dövlətimizin mövqeini bərkitdik. Ümuri-mülkiyyə və əsgərlərimizi qaydaya salıb gücləndik və özümüzü düşmən hücumundan lazımınca və layiqilə müdafiə və mühafizə edə biləcək bir halə gətirdik. Ümidvarıq ki, dostluqlarını intizar və arzu etdigimiz italyanların vürudundan dəxi böyük-böyük istifadələr edib hər bir nöqsanatımızı təkmilə fürsət bulacağıq.

## İNDİ BAŞA DÜŞÜRLƏR

İstiqlalımıza qarşı qurulmuş olan zabastovka hökumət və millətimizin səyi və himməti ilə yatırıldı. İstiqlalımızın düşmənləri olan zabastovkaçılar basıldılar. Özləri də biabırçılıqla basıldılar. Biəzm və bədnam oldular. Hörmətdən və gözdən düşdülər və hər bir nüfuzlarını itirdilər. Deməli, xain və xasirlərə layiq olan mənəvi cəzalarına çatdılar.

Bu biabırçılığın şiddətini azaltmaq və itmiş nüfuzlarını geri qaytarmaq kimi təşəbbüslərə girişməyin müvəffəqiyyətpəzir ola bilməyəcəgini dərk etmiş olan zabastovkaçılar "vahid cəbhə" qurulduğundan sonra partiya-partiya olub, bir-birlərindən ayrılmağa tələsdilər. Tələsdilər ki, məğlubiyyətlərini, təqsirini bir-birlərinin üzərinə atmaqla hər kəs öz adını təmizə çıxartsın.

İştə iki gün əvvəl yığılmış olan "raboçi konfrans"da bu məğlubiyyət məsələsi müzakirə edilərkən, bolşeviklər menşevikləri və bunlar da onları ittiham etməgə başlamışdılar.

Təqsirin ən böyüyünü və məsuliyyətin ən ağırını türk sosialistlər firqəsi olan "Himmət" üzərinə yıxıbdırlar və deyibdirlər ki, əgər "Himmət" himmət eyləsə imiş, zabastovka yatırılmazmış.

"Himmət"i müdafiə etmək üçün güc və bəla ilə söz ala bilmiş olan Əhməd Cövdət əfəndinin "müdafiənamə"sində görünür ki, daşnaklardan dönmə bolşeviklər tərəfindən qurulmuş olan bu zabastovka necə ki, biz kərratla demişik və necə ki, türk füqərayi-kasibəsi özü də hiss və dərk etdi, məhz Azərbaycan türklərinin istiqlalına qarşı qurulan bir kələk imiş.

Safdərun "Himmət"çilər səy edirmişlər ki, zabastovkanı Azərbaycan hökumətinə qarşı degil, ingilis politikası əleyhinə çevirsinlər. Hökumətimizin vaxtilə demiş olduğu sözlərini ki, lazım və mümkün olduğu halda Həştərxana neft göndərərik.Əldə dəstavuz edib də Həştərxan ilə mal mübadiləsinə mane olanlar yalnız bir ingilislərdir deyə çalışırlarmış ki, zabastovka məhz siyasi bir rəngdə olub, ingilis siyasətinə qarşı bir protesto olsun.

Lakin hiyləgər daşnak bolşeviklərin əsl məqsədləri mal mübadiləsi məsələsi olmayub da Azərbaycan hökumətini dağıtmaq və Azərbaycan türklərinin istiqlalını məhv etmək olduğundan safdərun sosialistlərimizin sözlərinə məhəlgüzar olmayıb öz dediklərində durubdurlar. Əmma sonradan özlərinin basıldığını görüb təqsiri genə müsəlman sosialistlərinin üzərinə atıb, onları "proletariya" dedikləri cəmiyyət üzərində bədnam etməklə bir güllə ilə iki dovşan vururlar. Əvvəla, biabırçılıqlarının təqsirini özlərindən götürür və saniyən türk sosialistlərini xəyanətlə ittiham edirlər.

Daşnak bolşeviklərin və daşnak menşeviklərin bü cürə hiylələrini, ürəklərinin xainliklərini və ümumtürklügə, türk füqərayi-kasibəsi və türk sosialistləri də buraya daxil olmaq şərtilə düşmən kəsildiklərini biz çoxdan bilirdik. Mart və martdan sentyabra qədər davam edən faciələr bu əhvalatı ümumtürklügə və baxüsus Azərbaycan türklərinə açıb, aşkar etdi. Təəccüb ediləcək hal burası idi ki, bu aşkar şeyi hamı görürdüsə də safdərun sosialistlərimiz görə bilməyub, sosializm fikrinə də və istiqlalımıza da düşmən olan və "maska"lar altında işləyənlərə etibar edib onlarla əlbir olmağı özlərinə rəva görürdülər.

Əlbəttə, əlbir olmaq, dilbir olmaq degildir və biz haşa türk sosialistlərini xainlərlə dilbir olmaqda məznun görənlərdən degilik. Parlamanımız güşadında Şeyxülislamov əfəndinin dililə Azərbaycan türklərinin istiqlalını müdafiə yolunda birinci cərgədə biz sosialistləri görərsiniz! Və bu zabastovka günləri Əhməd Cövdət və Ağamalıoğlu[1] əfəndilərin ağzı ilə, "biz istiqlalımızı sağdan və soldan müdafiəyə hazırıq" deyən sosialistlərimizi, bu istiqlalımızı sarsıtmaq və məhv etmək istəyən daşnakdan dönmə "sosialist"lərlə dilbirlikdə ittiham etməgə haqqımız yoxdur. Təəccüblədigimiz əhval bunların onlarla əlbir olmağı və bu yalançılara inanmağı və sosializm maskası altında gizlənən xain sifətləri görməməkləri idi.

İndi şükür olsun ki, bu zabastovka xainlərin maskasını yırtdı və əsil sifətlərini bizim sosialistlərə köstərməklə bunları nifrətləndirdi və zənn edirik ki, gözlərini açdı. Türk sosialistlərinin naşiri-əfkarı olan "Zarya"[2] qəzetəsi həman xainlər xüsusində dünənki baş məqaləsində deyir ki, "bu adamlar yalan deməgi, camaəti aldatmağı və iftiralarla məşğul olmağı vicdanlarına rəva görürlər. Bu xüsusda nasional bolşeviklər (yəni daşnakdan dönmələr) və sosial bolşeviklər dilbirdirlər... Prezidium seçmək işində Mikoyan utanmaya-

utanmaya kələklər qurub Əbilovu[3] və Pepinovu rədd edib, firqənin başqa əzalarını da işə qəbul etmədi... O adam ki, hələ dünənləri daşnak partiyası cərgəsində idi, bu gün üzünə kommunist (bolşevik) maskası geyib türk-sosialist firqəsinin başçılarını fələlər qarşısında bədnam etmək istiyor. Bu yalançıların və maska geyənlərin hamısına bizim bir cavabımız var: murdar əllərinizi geri çəkin. Siz fələlər və fələ rəhbərləri arasında provakasiyalar düzəldə bilməzsiniz. Türk füqərayi-kasibəsi ağır ibrət rusları vasitəsilə öz maskalı "dost"larını yaxşıca tanıdı..."

Bu əhvalatdan və bu sözlərdən sonra biz də ümidvar olmalıyıq ki, türk füqərayi-kasibəsinin martdan bəri gözəlcə tanımış olduğu "mehriban dost"larını türk sosialistləri gec də olsa bugündən tanıyub və tanıyanları da tanımayanlarına tanıdıb, xain və xasirlərlə daha bundan sonra əlbir olmaz və onların istiqlalımıza qarşı qurmaq istəyəcəkləri zabastovkaları yatırtmaqda türk füqərayi-kasibəsinə köməklər edərlər.



## NAXÇIVAN VƏ QARABAĞ

Naxçıvan müsəlmanları Ararat hökumətinə tabe olmaq istəmədigi kimi, Qarabağ erməniləri də Azərbaycan hökumətinə təbəəlik etmək istəmiyordılar və istəmiyorlar.

Naxçıvan müsəlmanlarının boylə rəftara haqləri vardı. Çünki oraların müsəlmanları ədədcə ermənilərdən çox olub, yerlərinin böyük qismi də müsəlmanlara məxsusdur. Halbuki ədədcə müsəlmanlardan az və yer-yurdca müsəlmanlardan kasıb olan Qarabağ erməniləri bu iddialarından heç bir haqqa malik degildirlər və əlavə bu haqsız fikir və iddia bütün Qarabağ ermənilərinin arzusu olmayıb bəlkə daşnak partiyasının fitnə və intriqasının nəticəsidir. Halbuki Ermənistana tabe olmamaq təşəbbüsləri ümumnaxçıvan müsəlmanlarının öz arzuları idi.

İngilislər bu məsələləri həll etmək istədilər. Məlum oldu ki, Naxçıvanı məhəlli müsəlmanların haqlı arzusuna rəğmən Ermənistana və Qarabağı da daşnakların iddialarına xilaf olaraq Azərbaycana mütəəlliq etdirmək əsası ilə iş görmək fikrindədirlər. Bu fikri yeritmək üçün general Revini Ararata köməgə və miralay Şatluverti də Azərbaycana mədədə məmur etdilər.

Bu gün işin nəticəsi məlum olur.

General Revi öz vəzifəsini kəmali-müvəffəqiyyətlə ifa edib erməni "Naşe vremya" qəzetəsinin yazdığına görə Naxçıvan və Şərur[1] tərəflərini bu may ayının 14-də erməni hökumətinə təslim edə bildi. Boylə ki, ayın 13-də ingilislər və erməni hökumət əzaları Naxçıvana varid olub müsəlmanlardan başda Kəlbəlixan Naxçıvanski[2] və mühəndis Sultanov olmaq üzrə Milli Şura əzaları tərəfindən istiqbal olunduğundan sonra bu türk yerlərinin və türk əhalisinin etirazsız və qeylü qalsız olaraq Ararat hökumətinə təslimi işini Cəfərqulu xan Naxçıvanskinin[3] qonaqlar üçün hazırlanmış olduğu naharı yeməklə itmamə yetirdilər.

Pəs miralay Şatluvert nə elədi?

Bakı ilə Qarabağ arasında olan yolu bir neçə kərə ölçdü və əz cümlə Qarabağ ermənilərinə bir neçə nəsihətamiz sözlər dedi və bu sözlər əvəzində Qarabağ daşnaklarından "başqa cürə" cavablar aldıqdan sonra, vəzifəsini qurtarmış hesab edib qayıtdı...

Deməli, Ararat hökuməti ingilislərin köməgilə nahəqq məramlarına nail oldular, əmma Azərbaycan hökuməti genə eyn ingilislərin köməgilə öz həqqını hələlik yeridə bilmədi.

General Revinin miralay Şatluvertdən mənsəbcə yuxarı olduğunu ona müvəffəqiyyət qazandıra bildi, yainki ingilislər, ermənilər hamisi olan amerikalılara xoş görünmək üçünmü Ararat həqqında bu qədər canfəşanlıq göstərib də Amerikanın xəbəri olmuyan Azərbaycan xüsusində qəsdən səhlənkarlıq etdilər. Yoxsa Naxçıvan türk demokratiyası Naxçıvan xanlarının xəyanəti qurbanı oldular. Hər halda haqq nahaqqa verildi və Azərbaycan hökuməti o tərəfdən məyus və bu tərəfdən məğmum bir halda qaldı. Bu yandan dəxi əhalimiz üçün ölüm-dirim məsələsi olan köçəri füqərası təəxxür qəbul etməz bir halda edilməsini bütün şiddətlə tələb etməkdədir.

Bizi yandıran ingilislərin tərəfkirligi və ya ingilis generalının bacarığı və ingilis miralayının bişüurluğu degildir. Özümüzün rəftarıdır ki, onun adına bacarıqsızlıq deməkdən başqa özgə bir ad qoymaq olmaz.

Qarabağ general-qubernatorluq şəklinə qüvvələndigindən bəri bizim zənnimiz bu idi ki, Qarabağ məsələsi artıq bitdi. Ümid edirdik ki, Qarabağın hakimi işin vəz və halından kəmalınca xəbərdar olub da lazım gələn tədbirləri görmək üçün butün səyini hələlik məhz bu yolda sərf edəcəkdir.

Lakin işin bugünkü vəziyyətindən anlaşılır ki, əvvəl əmrdə olan tədbirlərin ən böyügü ingilislərə ümid bağlamaq imiş və general-qubernator yanında təşkil etmiş olan "şura»" əzaları da öz vəzifələrini bundan ibarət bilirmişlər ki, "məhalə çıxıb" özlərinə general-qubernator "pamoşniki" adı qoyub aşnaları olan bəylərin cibinə Nikolaydan qalma "alacıq"ları kəndçilərdən şallaq gücilə yığmaq istəmiyən polis məmurlarını tutdurub həbs etmək ilə "ədalət", daha doğrusu, "hökumət" göstərsinlər. Və danosbazların təhrikatilə iş görüb biməzmun və çürük politika ilə məşğul olsunlar.

Bu cürə politikanın axırı bu olar ki, nəinki erməniləri tabe etmək mümkün olmaz, bəlkə müsəlmanları da rəncidəxatir edib qarışıq məsələni daha da qat-qarışığa salmaqla dövlətimiz qarşısında böyük-böyük əngəllər törədərik...



## DƏRBƏND[1] ƏHVALATI

Dərbəndin dabravol qoşunu tərəfindən işğal edilməsi azərbaycanlıların təbii həyəcanına mucib olmuşdur.

Əvvəl əmrdə onu deməlidir ki, hələlik bir o qədər həyəcana səbəb yoxdur. Əvvəla, burası var ki, ingilis və italyanlar Denikin qoşununun bu rəftarından əsla razı olmadıqlarını və bu işin onlardan icazəsiz icra edildiklərini qəti surətdə bəyan etmişlərdir. Əlavə olaraq italyan heyəti təmin etmişdir ki, qoşunları gəlib yetişən kibi Dərbənd ilə Petrovskini[2] işğal edəcəkdirlər.

Və saniyən, denikinlilər Azərbaycanın istiqlalını tanıyub da bu istiqlala qarşı heç bir sui-niyyətləri olmadıqlarını hökumətimizə bildirmişlərdir. Və salisən hüdudumuzu və istiqlalımızı qurmaq üçün hökumət tərəfindən lazım olan tədbirlər görülmüşdür.

Ancaq burası var ki, ingilis və italyanların sözü ilə dedikləri mətləb bizim üçün bir o qədər təsəlli ola bilməz və biz bu sözlərə inanub və uyub da arxayın ola bilmədigimiz kibi, ehtiyatımızı da əldən buraxa bilmərik. Hakəza denikinlilərin bizim istiqlalımızı "tanıması" və bizə qarşu sui-niyyət bəsləməməsi sözlərinə inanmaq üçün də uşaqcasına safdərun olmalıdır. Denikinlərin proqramı bizə məlumdur. Onların istədigi budur ki, Rusiyanı bolşeviklər əlindən alıb da təkrar əvvəlki halına salsın və qəbləl müharibə hüdudları daxilində bərqərar etsinlər.

O halda ən böyük ümid özümüzə, öz qüvvətimizədir. Biz bu qüvvənin sayəsində öz istiqlalımızı saxlaya bilsək, o halda əvvəl təhlükəni rədd edərik və saniyən, özümüzə tərəfdarlar dəxi cəlb edə bilərik.

Unutmayalım ki, Dağıstanın denikinlər tərəfindən işğal edilməsinə müsaidət verənlər ən əvvəlcə dağıstanlıların öz idarəsizligi səbəb oldu. Əgər Dağıstan millətləri arasında birlik, möhkəm ittifaq və ittihad mövcud olsaydı, dabravol qoşunları onlara bata bilməzdi və bunların bu əzm və səbatını müşahidə edən ingilislər dəxi denikinlilərə bu qədər cürət verməzdilər.

Soçi üzərinə hücum etmiş olan dabravollar qeyrətli gürcülərin himmət və ittifaqi sayəsində istilacuyanə fikirlərindən əl çəkməgə məcbur olan kimi ingilislər dəxi onların tərəfini iltizamə məcbur oldular.

Denikin dabravol qoşunu Dərbənddə qalacaqdırlarmı, ya bəri

gəlmiyəcəkdirlərmi? Gəlmək istəsələr ingilis və italyanlar bunlara manc olacağını, bunlar başqa məsələdir. Lakin bizim üçün şimaldan təhlükə mövcud olduğu məlum bir məsələdir. Bunu heç bir vaxt unutmayıb da var qüvvəmiz ilə çalışmalıyıq ki, bu şimal təhlükəsinin rəddinə qarşı həmişə və hər bir halda hazır olaq. Ona görə mümkün mərtəbə hazırlanmalı və heç bir fədakarlıqdan çəkinməməliyik.

Biz hazır olandan sonra düşməndən qorxumuz yoxdur.



## BİR YAŞ

Bu gün istiqlalını elan etmiş olduğumuz və bu istiqlalı qazanmaq yolunda çaylarca qanlar axıdıb, minlərcə xanimanlarımızı xaraba qoyduğumuz bir dövlətin, yəni Azərbaycan Türk Dövlətinin bir yaşı təmam olub da ikinci yaşa qədəm qoyduğu gündür.

Novzad dövlətimizin təvəllüdü, ana bətnindən doğulması çətinliklə əmələ gəldi. Ana vətən balasını doğarkən özünü qurban edəcək dərəcəsinə gəlmişdi... Azərbaycan torpağı bir xarabazara, bir viranəyə dönəcək idi. Onun, o madəri-mehribanın nazik sinəsi, zərif bədəni üzərində gəzən qaba ayaqlar, həm anasını, həm bətnindəki balasını çəkmələrinin təpikləri altında tapdalamaq, əzmək və xurdxaş etməklə anasını da, balasını da öldürmək istəyirdilər...

Lakin bu zəif sinə içində gizlənmiş olan eşq və məhəbbət o dərəcə böyük bir qüvvəti-haiz idi ki, zəif cism, qüvvətli ruh sayəsində düşmən zülmü qarşısında tab və taqətdən düşmiyub yaşamaq və yaşatmaq iqtidarını qeyb etmədi.

Ana vətən doğdu...

Və bü gün doğduğu övladının sənəyi-dövriyyəsi münasibətilə bayram qurub və övladını mavi, al və yaşıl rəngli parçalarla bəzəyib, nümayişkaranə bir surətdə biyari-iftixar etmədədir.

* * *

Bir yaşlı dövlətimiz gələcəkdə və yaxın gələcəkdə türklügün ümidgahı, islamlığın pənahı və aləmi – mədəniyyətin möhtərəm bir üzvü olacağını hələ bir yaşında olduğu halda, hər kəsə bildirmədədir.

Azərbaycanın türklügə istiqbal meyvələri yetişdirmək münbit bir torpaq təşkil etdigini, Osmanlı türk qardaşlarımız dəxi iqrar və etiraf edib bizə ümid nəzəri ilə baxmadadırlar. Filhəqiqə Azərbaycan idi ki, türk irqində sağlam bir milliyyət hissi oyatdı, millət nə olduğunu, milliyyətini unutmuş türklərə bildirdi. Onlara-sən əvvəl-əvvəl bir türksən dedi və "türkəm" dedirtdi...

Türk qövmünün dəxi farslar və ərəblər kimi müşərrəf olduqları di-

ni-mübini-islamın; "Allahımız bir, peyğəmbərimiz bir, Quranımız bir və binaən əleyh dinimiz də bir olmalıdır", – deyə bu birliyə fel və əməl ilə ilk qədəm qoyan Azərbaycan türkləri oldu desəm, əminəm ki, xəta etmərəm. Bu fikrin Azərbaycan türkləri arasında böyük bir sürət ilə intişarını və qüvvətlənməsini görənlər sözlərimi təsdiqə məcbur olarlar...

Bizi vəhşi bilənlər və bizdən yalnız qaniçicilik gözləyənlər ilə və bizim vücudumuzu aləmi-mədəniyyət üçün təhlükəli ədd edənlər ilə bir balaca təmas lazım imiş ki, bu fikrin və bu nəzərin sırf yalan və yanlış olduğu meydana çıxsın. İngilislər bizim içimizə girərkən özlərini vəhşi heyvan qarşısına çıxmış bir ovçu vəziyyətində saxlamaq ehtiyatına heç bir lüzum olmadığını bir-iki gündən sonra kəmali-təəccüb ilə anladılar və haqqımızda bəsləməkdə olduqları nəzər və təsəvvüratın bilməməzlik və ya düşmənlər təbliği nəticəsi olaraq xəta və yanlış olduğunu da dərk etdilər. Əminəm bunu da dərk etdilər ki, istibdad altında tərəqqi və təalidən cəbrən məhrum və cəhalətə məhkum edilmiş olan bu millət azad olduqdan sonra çox çəkməz ki, aləmi-mədəniyyət bazarlarında öz milliyyətləri təqazası ilə əmələ gəlmiş mədəni mətalarını ənzari-bəşəriyyətə təqdim ilə mədəniyyəti qoca olan millətləri də heyran qoyarlar...

Al rəngi türklüyə, yaşıl rəngi islamlığa və mavi rəngi də mədəniyyətə işarə olan bayrağımızın mənayi-mənəviyəsi də budur.

Adamlar vardı ki, bizim istiqlalımızı istəmiyordular. Halbuki bizə düşmən degil idilər və bu istəməməzlikləri də düşmənçilik üzündən degil idi. Fəqət onlar qorxurlar. Qorxurdular ki, biz hökumət etməyə, məmləkət dolandırmağa, dövlət saxlamağa qabil olmayıb da müxtəlif milləti təbəəmizin can və malını mühafizə edə bilməyən məmləkətdə asayiş bərpa edə bilməyək, nizam və qaidə qoya bilməyək, siyasiyatda bacarıqsızlıq göstərib xəlqin istirahətini pozaq...

Lakin novzad dövlətimizin yeni başlamış ömrünün günləri və ayları gəlib-keçdikcə bu fikirdəki adamlar öz fikirlərini dəyişməyə məcbur olurdular. Bolşeviklər dövründə həsrətini çəkdigimiz çörək və çörəkdən də artıq həsrətində olduğumuz əmnü-asayişin yoxluğu və cəmaəti qoz və fındıq kimi bizar edən qətlü-qarətin çoxluğu o da, bu da rəf edildi. Azərbaycan dövləti çörəki ilə bərabər əmnü-asayişi



də iadə etməklə əhalini həm aclıq, həm də qətlü-qarət bəlalarından xilas qıldı. Cavan dövlətimiz dünyanı bürümüş olan sarı xəstəliklərlə də mədənivar bir surətdə mübarizəyə girişib zəfər və müvəffəqiyyət qazandı...

Düşmənlərimizin virdi-zəban etdigi "bəy-xan və şallaq hökuməti" əvəzinə ən demokratik və ən huriyyətpərvər bir dövlət olduğunu bildirdi. Əhalisinə bir bu qədər geniş və genişligi heç bir hökumətdə görünməmiş, bunca hürriyyət və azadlıqların vücudu qarşısında düşmənlərimizin gözləri heyrətlənib dilləri lal olacaq idi ki, hiylə və təzvirə əl atıb hökumətimizin bu qədər hürriyyətpərəstligini cəbunluga və səhlkarlığa isnad ilə bizi genə də ləkələndirmək istiyordılar. Lakin bu axırkı zabastovkanı, Azərbaycan istiqlalını məhv etmək və məmləkətimizi anarşi halına salmaq niyyətilə qurulmuş zabastovkanı yatırmaq işində hökumətimizin və millətimizin göstərmiş olduğu əzm və səbat, ustadlıq və məharət, düşmənlərimizin bu ləkəsini də üzərimizdən sildi və bu töhməti də rəf etdi...

İçərisindən çıxan qırmızı təhlukəni rəf və izaləyə qadir olan bir hökumət və millət, xaricdən sədası gələn qara təhlükəni də dağıtmağa və darmadağın etməgə qadir олмазмы zənn ediyorsunuz?! Siz onun biryaşar olduğuna baxmayın: düşmən dəfndə təcrübəsiz olduğuna, türklük və islamlığına məxsus fəzilətlərinə baxıb da əmin olunuz ki, bu hökumət və bu millət öz istiqlalını, öz azadlığını və öz təbəəsini şanlı bir surətdə hər bir düşməndən qorumağa qadirdir və bu qüdrətini lazım olduğu halda isbat edər. Bu təntənəli, cəlal və şükuhlı bayramımızı görənlər bunu yəqin bilsin ki, biryaşar cavan Azərbaycan türk dövlətinin istiqlal mühafizəsindəki şüarı budur ki:

– Ölmək var ki, dönmək yoxdur!

Bu gün, bu əziz bayram günü sidqi-dil ilə:

– Yaşasın müstəqil Azərbaycan! -deyənlər əmin olmalı ki, onu müstəqil yaşatmağa qadir olarlar!

## ŞİMALIMIZIN HALI

O, Dağıstan ki, onu fəth etmək üçün qoşununun qüvvəsilə Yevropanı qorxudan rus çarlığı otuz beş il vuruşub çalışmışdı. O, Dağıstanı Denikinin dərədən-təpədən yığılmış başpozuqları bir gündə fəth etdilər!

Və bu fəth sayəsində Qafqaz cümhuriyyətlərindən biri bir az zəman içində gözümüz önündə məhv olub getdi.

Dağıstan Cümhuriyyətinin pozulması və Dağıstan istiqlalının əldən getməsi ümumqafqazın novzad cümhuriyyətləri üçün son dərəcə mucib – təəssüf bir keyfiyyətdir.

Bir istiqlaliyyətin pozulmasından hasil olan bu təəssüfün üzərinə bir də rus irticapərəst və qaragüruh qüvvəsinin bizimlə yan-yana qonşu olmaq füqərası dolayısilə əmələ gələn böyük bir təşviş və əndişə dəxi əlavə olunur.

Fəqət bu əhvalata hamıdan artıq təəssüf edən əlbəttə ki, Azərbaycandır. Çünki bu məhv olan Cümhuriyyət Azərbaycan ilə həmdin olan bir İslam Cümhuriyyəti idi ki, bu dinbirligi Azərbaycan ilə Dağıstan arasında bir ailə əzalığı mərbutiyyəti əmələ gətirməklə, gələcəkdə Qafqaz cümhuriyyətlərinin müvazineyi-siyasiyəsinə də təsir edə bilərdi.

Təşviş də əndişəyə gəldikdə dəxi genə də Azərbaycanın əndişəsi o birilərinkindən daha artıqdır. Çünki dabravollar tərəfindən gözlənən xətər-bəla vasitə bizi təhdid edir. Aramızda artıq heç bir hayil və sədd yoxdur. Odur ki, biz ehtiyatlı olmaqdan bir an boylə qafil ola bilmərik və silah altında hazır durmaq məcburiyyətindəyik.

Əmma nədəndir ki, öz azadlıq və hürriyyətini rus istibdadının hərs və təmainə qurban verməmək üçün otuz beş il cəng edib qan tökən dağıstanlılar bütün aləmin məhəbbət və rəğbətini qazandıqları halda, bu gün Denikin ordusuna təslimi-can edən həman dağıstanlılar, o rəğbətə məzhər ola bilmədilər və onların bugünkü halı insanda niskil hissi əvəzinə acıq və əsəbiyyət oyadır?

Çünki bugünkü dağıstanlılar öz azadlıq və istiqlaliyyətlərini müdafiə və mühafizə etmək üçün heç bir fədakarlıqda bulunmadılar və heç bir iş görmədilər. Qəhrəmanlıqlar ilə məşhur olan dağıstanlılardan bu yolda heç bir qəhrəmanlıq görmədik. Nə gördük? Müharibəsiz təslim!..



Bu müharibəsiz təslimin nədən əmələ gəldigi xüsusində bir çox fikirlər ola bilər, lakin hər nə fikir olsa da "dağıstanlılar dabravollılardan qorxdular və onlar ilə qorxularından müharibə etmədilər" fikri ola bilməz. Çünki dağıstanlıların igidlikləri və qəhrəmanlıqları aləmdə məşhurdur. Zənnimizcə bu işin səbəbini, əvvələn, dağıstanlıların müxtəlif kiçik millətlərdən təşkil etməsində və saniyən, bu müxtəlif millət arasında ittihad və ittifaq fikrinin layiqi vəch ilə cagir olmamasında aramlıdır.

Gürcüstan dövlətini təşkil edən gürcülər və Azərbaycan Cümhuriyyətini quran türklər bir dil ilə təkəllüm edən, ürf və adətləri bir olan və fərdləri arasında heç bir ayrılıq olmayan bir millət kütləsi olduğu halda, dağıstanlılar ayrı-ayrı, kiçik-kiçik və ufaq millətlərdən əmələ gəlir ki, hərəsinin dili ayrı, adəti ayrı, bir surətdə ki, bir yerə yığılarkən bir-birini anlamaq üçün ya rus, ya türk və ya ərəb lisanlarını işlətməgə məcbur olurlar.

Boylə müxtəlif millətli bir dövlət öz istiqlalını və öz varlığını saxlamaq üçün əvvəl-əvvəl millətləri arasında vacib və lazım olan ittihad və ittifaqa möhtacdır. Əgər bu ittifaq, ittihad və bu əlbirlik, dilbirlik mucib olmasa, bu dövlətin əskəri qüvvəti də heçdir və qəhrəmanlıqları da fayda verməz.

Dağıstan Cümhuriyyəti elan ediləndən bəri onların idarə işlərini təqib edənlər və bunlara göz yetirənlər Dağıstan millətləri arasında ittihad və ittifaqın mövcud olmadığını görməmiş degildirlər ki, bu ədəmi-ittihad və ittifaq çox çəkmədi ki, boylə bir acı fəlakətlə nəticələndi.

Dağıstanlıların ittihad və ittifaqı ancaq cümhuriyyətlərinin rəsmi adında olub kağız üzərində idi. "Müttəhid dağıstanlılar ittifaqı" namını daşıyan bu cümhuriyyətin ədəmi-ittifaq və ittihadı degil, yalnız bir müxtəlif millətlərin arasında bəlkə siyasi "orintatsiya"larında dəxi mövcud idi. Burada bir tərəfdən bolşevikligə meyl, digər tərəfdən denikinlərə rəğbət və bir yandan da Azərbaycana mülhəq'olmaq fikri mövcud olub ittihad üzrə müstəqil yaşamaq əməl və arzularına zərər və ziyan yetirməklə istiqlaliyyət fikrini sarsıdır, laxladır və tərəfdarlarını da mütərəddid qoyurdular.

Gürcüstanda və bizim Azərbaycanda istiqlal müdafiəsi yolunda hökumət tərəfindən irad olunan dəvətə bütün millətdə və milləti təmsil edən müxtəlif firqəli parlamanda bir ağızdan, bir ürəkdən

"ləbbeyk" deyib mudafiəyə hazır olduqlarını izhar etdikləri halda, Dağıstan hökumətilə Dağıstan parlamanı arasında bu məsələ üzərində dəxi birlik yox idi. Nə hökumət parlaman köməginə ümid edə bilirdi, nə də parlaman hökumət bacarığına inanırdı. Hökumət ilə parlaman və parlaman ilə də millətlər arasında açıqlıqlar vardı. Xülasə, arada möhkəm və bir-birinə mərbut heç bir şey yox idi.

Boylə olan surətdə dabravolların asanlıqla Dağıstanı başdan-başa işğal etməkləri və dağıstanlıların muharibəsiz təslimi boylə əhvalların təbii nəticəsi idi ki, baş verməgi uzaq çəkmədi.

Dağıstan millətlərini bir-birinə mərbut edən din birligidir, fəqət azadlıq və hürriyyət yolunda mübarizədə əzm və səbat göstərmək üçün dini ittihad təşviqindən ötrü dəmir iradə sahibi olan imam şamillər lazım imiş. Halbuki analar hər dəfə və hər əsrdə İmam Şamil[1] doğmaz.

Şübhə yoxdur ki, əgər Dağıstan millətləri bugündən boylə dəxi bir az gec də olmuş olsa ittihad və ittifaq ilə əzm və səbat və fədakarlıqlar göstərərlərsə, azadlıq və istiqlaliyyətini geri qaytara bilərlər. Bu "üzdən Dağıstan istiqlali əbədilik məhv oldu" demək caiz degildir.



## QARA TƏHLÜKƏ

İstiqlalımızın bir ilinin bayramını yenicə keçirmişdik ki, üfüqümüzdən qəflətən nümayan olan bir qara əl həman istiqlalımızı qırmaq və bizi murdar pəncəsi altında əzmək xəyalilə şimalımızdan uzanmağa başladı.

Xarabazara dönmüş vətənlərini düşmənlərindən xilas etməkdə aciz olan rusun qaraüzlü olan "ağ" generalları, özgələr üzərində ağalıq etmək xəyali-şeytanət malının sevqiylə Dağıstan millətlərinin ittihadsızlıq və nifaqlarından və millət xainlərinin əməllərindən istifadə ilə Şimali Qafqaza və ümudağıstana soxulub Dağıstan islamlarını təhti-əsarətə aldıqdan sonra bugünkü fikri Azərbaycan türkləri üçündür.

İstər sağ, istər sol rusların hökuməti zəmanında cəhənnəmə dönmüş olan vətənimizin, özümüzün və öz hökumətimizin himmət və həmmiyyəti sayəsində gündən-günə gözəlləşməkdə olan hali həsud imperialistlərin və onlara nökərçilik edənlərin xain qəlblərini və çürük beyinlərini narahat etmədədir ki, əslində zatən cəhənnəm əhli olduqlarına görə də vətənimizi təkrar cəhənnəmə döndərmək istiyorlar.

Cəhənnəm görmək istəyənlər o cəhənnəmi, əlbəttə, görərlər. Lakin bizim vətənimizdə degil, bəlkə vətən övladımızın qeyrətli əllərində tutmuş olduqları şanlı silahın mərdanə zərbələri onları cəhənnəmə vasil etməklə arzularına çatdırırlar.

Azərbaycan türk və islamları rus qırmızı sollarının ayaqları altında inləyən vətəni ondan ötrü xilas etmədilər ki, sonra onu rusun qara sağlarının əli altına əsir versinlər!... Bir bu qədər tökülən qanlar, qurban edilən canlar, viran olunan xanimanlar bahasilə istirdad edilmiş olan hüququmuzu əlimizdən almaq istəyənlər, o əl sahiblərinin turklük və islamlığa məxsus qeyrət və namuslarından əzm və səbatlarından bixəbər olmalıdırlar ki, bu cürə xam xəyallara düşürlər.

Hökumət ilə cəmaətimizin sanki bir ağızdan çıxan "ölmək var, dönmək yoxdur" şüarı görünür ki, hələ qara denikinlərin qulaqlarına çatmayıbdır. Onun üçündur ki, bizi təhdidə cəsarət edirlər...

Biz bilirik ki, Denikinin bizə qarşı hazırlamaqda olduğu təhlükə

böyükdür. Yəqinimizdir ki, deniklilər üzərimizə böyük bir qüvvət ilə hücum edəcəkdirlər. Lakin qorxmuruq bu təhlükəni dəf etmək yolundakı əzm və səbatımız ondan daha böyük və daha qüvvətlidir.

Düşmənin, haqsız düşmənin zor və qüvvətilə bizi qorxutmaq istəyənlər bunu bilməlidirlər ki, iki milyonu mütəcaviz olan Azərbaycan türk və islamlarının zərurət məqamında hamısı da olmasa yarısı əsgərdir. Bir türk əsgərinin də qiyməti-əskəriyyəsini mülahizəyə alsaq, bizi düşmən zorla degil, düşməni biz zorumuzla qorxutmaq daha səhihədd olunar zənnindəyik.

Bu yüzdən qara təhlükəni dəf etməkdə dost və düşmən qabağında ağ üzlə çıxmağımıza quvvətli bir ümid bağlayub da heç bir şübhə etməməlidirlər.



## İÇİMİZDƏKİ DENİKİNLƏR

Bir Denikin var ki, bizi xaricdən təhdid edir. Bir çox denikinlər də var ki, içimizə dolub, ən xətərli yerlərimizdə gizlənib də bizi daxildən qorxudurlar.

Heç şübhə edilməsin ki, bu daxili denikinlərimizin qorxusu, xarici Denikinin qorxusundan daha böyük və daha xətərlidir. Çünki xarici Denikin göz önündədir, aşkardır. Daxili denikinlər isə içimizdə gizlənmişdirlər, özlərini göstərməyirlər. Gizli düşmənin aşkara düşməndən daha təhlükəli olduğu hər kəscə müsəlləmdir.

Bir vaxt olar ki, üzərimizə hücum edən xarici düşmənin bəlasını dəf etmək üçün əl qalxızmaq, irəli atılmaq istədigdə görərik ki, daxili düşmənlərin hiylə dəsisəsi sayəsində qollarımız bağlı və ayaqlarımız bənddədir. Bir dərəcədə ki, heç tərpənməgə halətimiz yoxdur.

Azərbaycanımızda asudəlik ilə rahat-rahat yaşamaqda olan müxtəlif ünsürlərin içində öylə naşükür, öylə həsudlar, öylə qara qəlblilər var ki, Denikini ürək döyünməsilə gözləməkdə və rus qaradovoyunun həsrətini çəkməkdədirlər. Bunların bir çoxları xəzinəmizin pulu ilə dolanıb da "aldığım pul rus dövlətin puludur", – deyə özünü də, özgələri də aldatmağa təsəlliyab olub, naşükürlüklə yedikləri çörəgimizi özlərinə həlal bilirlər.

Bunların və boylələrin sayəsindədir ki, bizim bütün rəsmi kağızlarımız, ərizələrimiz, sənədlərimiz həpsi rusca yazılıb. İdarələrimiz sabiq rus çarlığının "konselyariya"larına döndügündən biçarə türk demokratiyası öz milli dövlətlərində də genə tərcümanlar aramağa məcburdurlar. Bütün Qafqaz millətləri arasında ümumi bir lisan hökmündə olan türk dili guya o qədər naqabil imiş ki, ərizə yazmağa da yaramazmış... Halbuki bunun hamısı çörəgimizi yeyib də, üzümüzə sögən denikinlərin həsrətini çəkən və cümhuriyyətimizi rus dövlətinin bir parçası hesab edən və dövlətimiz degil, məhz pula və paraya qulluq edən xain, həsud və qara qəlbli çinovniklərin vətənimizdə yemlənməsi bərəkətindəndir.

Xaricdəki Denikin ilə aramızda bir müharibə başlanırsa, heç şübhə edilməsin ki, daxilimizdəki yemləyib bəslədikmiz denikinlər öz həsrətkeşlərinin yollarını asanlaşdırmaqdan ötrü içimizdə cürbəcür

xəyanət və cinayətlərə mürtəkib olub da bizə arxamızdan xəncər yaraları vurmaq və zərbələr yeritmək təşəbbüslərindən çəkinməyəcəkdirlər.

Ona görə işdə bu yerdə filhəqiqə dördgözlü olmağımız bütün şiddətilə içab edir. Qəhrəman əsgərlərimiz xarici düşmənlərimizlə müharibə edərkən, arxada qalanlarımız da arxamızda gizlənib də pusquda oturan daxili düşmənlərimizlə əlləşməlidirlər. Onlar bizləri pusurkən biz onları pusmalıyıq ki, əhyanən bizə qəflətən bir xətər yetirməsinlər.

Bu yolda hökumətimiz də, millətimiz də bərabər işləməlidirlər. Hökumət hər bir şübhəli görünənləri rədd və tərd etmək üçün heç bir şeydən çəkinməməlidir. Bu gün daha nəzakət və mərhəmət zamanı degildir. Zatən xainlərə qarşı nə mərhəmət?

Milli dəxi boylə bir şəkk və şübhə iqaz edən və dövlətimizə qarşı sui-niyyətilə məlum olan adamları hansı millətdən olursa-olsun fərziməhal olaraq müsəlman da olsa bilib də hökumətimizə və lazım olan yerlərə xəbər verməlidir.

İstiqlalının sənəyi dövriyyəsini dünən şadlıq və şənlik ilə keçirmiş olan millət, bu gün fövqəladə dəmlər keçirməkdədir. Candan əziz olan istiqlalımızı əlimizdən almaqla canımızı almaq istəyirlər. Buna görədir ki, istiqlalımızı əldən verməmək üçün bu fövqəladə zamanda fövqəladə işlər də görməlidir ki, o işlərin ən mühüm raqi, özümüzü xarici denikinlər ilə bərabər daxili denikinlərdən qorumaq təşəbbüsüdür.



## BİR MÜNASİBƏTLƏ

Bakı erməni kəlisası zirzəmilərinin polis tərəfindən axtarılması, bu axtarışın surəti-icrası axtarışdan dolayi şəhərdə dövran edən şayiə və bu şayiələrin mütəəssifanə olaraq beiduni-təhqiq qəzetəmiz sütununa keçməsi, bunun hamısı Bakı ermənilərini azürdədil etmiş və iş o məqamə çatmışdır ki, parlamanımızın erməni fraksiyası bu xüsusda hökumətə sual vermək və cavab almaq istəmişdir. Parlamanın keçənki iclasında bu sual verildi və hökumət tərəfindən cavab alındı. Lakin erməni fraksiyası alınan cavabdan razı qalmayıb suallarını sorğu-surətinə təhvil ilə gələn iclasın müzakirəsinə qoydular.

Erməniləri incidən kəlisalarının axtarılması və bu axtarış xüsusunda yalan xəbərlər buraxılmasıdır. Yalan xəbərlər haqqında inciməgə, əlbəttə, hər kəsin haqqı vardır. Baxüsus, bu zamanda ki, xaricdən də, daxildən də ələni və xəfi düşmənlər təhdidi altında olduğumuzu başa düşən camaət qəfləti kənara qoyub da dördgöz olmağı özünə fərz bilmiş və binaən əleyh hər bir şeyə diqqət yetirmək və hər bir şübhəli əlamətlərdən ehtiyatlanmaq məcburiyyətində olduğundan boylə yalan və həyəcanlı xəbərlərin yayılmasından qeyri-məmul hadisələr baş verə bilər.

Kəlisa axtarılmasından dolayı erməni camaətinin hissiyyati-diniyələrinin təhqir edilməsi məsələsinə gəldikdə bu xüsusda hökumət rəisi Nəsib bəy həzrətlərini bu cavabı kafidir ki, ermənilərin hissiyyati-diniyələrini təhqir edən biz olmadıq. Bu həqarəti rəva görənlər kəlisanın anbarlarını heç də kəlisa ləvazimatına əlaqəsi olmayan bir taqım başqa şeylər ilə doldurmağa razı olanlardır.

Əsləhə tutulmasına aid olan yalan xəbərlərin qəzetəmizə keçməsinə gəlincə qəzetəmizin o biri nömrəsindəki təkzibimizdən aydındır ki, bu xəbər qəsdən buraxılmayub, bəlkə mühərririmizin səhih bildigi yerdən qeyri-səhih bir xəbərə təsadüf etməsindən və bu xəbərin idarə katibinin məzuniyyətə getməsinə görə gözdən keçirilməsindən irəli gələn bir keyfiyyətdir ki, arada hər halda qəsd və təəmmüd yoxdur. Və bir də əgər bu xəbər çap olunmaqdan qabaq müdirin gözünə ilişmiş olsa idi, təhqiq etməmiş buraxmazdı və səhihligini bildigindən sonra da, boylə bir əhəmiyyətli hadisəni yalnız bir xəbər sifətilə buraxmağa iktifa etməyib, buna bir məqalə həsr edərdi.

Zənn edirəm bu xəbərdən dolayı qəzetəmizi müdaxiləyə qalxmış və bu xüsusda ikinci kərə baş məqalə yazmış olan erməni milli komitəsinin "Naşe vremya"qəzetəsində bir kərə degil, bir çox kərə çap edilməkdə olan və müsəlmanları ləkələndirən müftənə xəbərlər dəxi müdirinin bu xəbərləri təhqiq etməməzligindən dolayi qəzetələrinin sütunlarında ərzi-vücud etməklə oxuyanları zəlalətə salır.

Erməni kəlisası anbarlarından çıxan şeylər içində əsləhə-filan olmaması hər halda bizim və zənn edirik ki, bütün sadiq azərbaycanlıların qəlblərini təskin və şübhələrini zayil edəcək hallardandır.

Ancaq burada bir "psixoloji" əhval var ki, o xüsusda bir diqqət nəzəri yetirmək lazım idi.

Erməni kəlisasından əsləhə çıxdı deyə beş-on dəqiqə içində bu xəbərin bütün şəhərə yayılmasında və hətta rəsmi bir qəzetə sütununa dəxi keçməsində nə sirr olduğuna dərin, lakin bitərəfanə bir nəzər yetirən olarsa, bu işdə degil, yalan xəbərlər buraxanları bəlkə erməni millətinə başçı olaraq xeyir əvəzində "ayı xidməti" göstərən firqələr başçılarını ittiham etməgi haqlı görür.

Əgər malxazyanlar, çurbaryanlar və əmsali, ermənilər ilə müsəlmanlar arasında qədimdən bəri bərkimiş olan qonşuluq, vətəndaşlıq, din ayrı qardaşlıq rabitəsini pozan, sarsıdan və biləxərə məhv edən bir politikanı özləri üçün məslək ixtiyar etməmiş olsaydılar, bu gün bu iki tayfanın arasında etimadsızlıq və etibarsızlıq olmaz və "darı əkib də sarı buğda biçmək" ədasında olan Malxazyan[1] əfəndilərə boylə bir məhsuldan şikayət etməgə məhəl qalmazdı...



## MACƏRACULIQ

Bir var ki, rast məqul, sağlam bir politika yürütmək, bir də var ki, macəraculıq saiqəsilə meydana atılıb, işin aqibət və nəticəsini mülahizəyə almadan hər nə olur-olsun deməklə siyasət məntiqinə müqayir, mənafeyi-ümumiyəyə zidd, səlaməti-milliyə üçün qorxulu asayiş, məmləkət üçün zərərli olan hərəkət və təşəbbüslər icrasilə ümumi bir fəlakət hazırlamaq.

İnsanı boylə macəracu olmaq əməlinə vadar edən səbəblər çox ola bilər. Fəqət ümdələri üç qism səbəbdir.

Birinci cəhalət, ikinci sui-niyyət, üçüncü mənəmlik.

Bir cahilin siyasət işlərinə qarışması siyasət meydanında rol oynamaq təşəbbüsü, mənsub olduğu millət övladı olduğu vətən, təbəsi olduğu dövlət üçün böyük zərərlər turədə bilər. Boylə cahil bir adəm özü kibi qanmaz və anlamazları da başına cəm edib birdən-birə öylə qeyri-məqbul hərəkətlər çıxarda bilər ki, nəinki "qaş düzəldərkən göz tökər", hətta başın özünü də cəhaləti yolunda fəda edib böyük bir bərbadlıq meydana gətirər.

Sui-niyyət ilə macəracu olmaq istəyənlər isə daha təhlükəlidirlər. Çünki bunlar hər nə edirlərsə bilə-bilə edirlər. Aqilanə və səyli əllər ilə qurulmuş olan binaları, qəsd və təəmmüd ilə uçurmaq istiyorlər ki, əməllərinin nəticəsi olacaq bu xarabəliqləri seyr və təmaşa ilə ləzzətyab olsunlar, iblis təbiyətli və şeytan ruhlu yaranmış olan bu macəracular üçün heç bir pak, heç bir müqəddəs şey yoxdur. Onlar üçün millət, vətən, istiqlal həpsi boş və biməni sözlərdir. Təqdis etdikləri bir şey varsa da, o da yalnız uçurub dağıtmaq əməli, sitayiş etdikləri bir Allah varsa, o da zülm və şər Allahıdır.

Bu iki əvvəlki qisim macəraculardan daha zərərlisi mənəmlik iddiası ilə meydana çıxanlardır. Bunların fikri milləti də, vətəni də, dövləti də və istiqlaliyyəti də öz şəxsi mənəmlik və şöhrətinə qurban etməkdir. Şəxsi "eqoizm" denilən möhlik bir mərəzə mübtəla olan bu şöhrətpərəstlər adına şöhrət qazandırmaq üçün bütün məmləkəti od və atəş içində yaxıb yandırmaqdan əl çəkməzlər.

Bu sadaladığımız macəracular öz məqsədlərinə çatmaq və məramlarını ələ gətirmək üçün əvam firib bir libasa bürünüb guya millətpərəst və vətəndustdur deyə safdərunləri, cahil və qanmazları nəşeyi-milli və təəssübi-dini iqaz edən sözlərlə aldadub, avamyanə

bir təbirlə "başlarını piyləyib" öz əllərində kar və kor bir alət və vasitəyə döndərib ondan sonra bildiklərini edərlər. Yəni həqiqi millətpərvər, vətən sevgisi olan aqil siyasət sahibi olanların min zəhmət və məşəqqət ilə meydana çıxarmış olduğu hər bir xeyirli əməllərin mənfəətli nəticələrini pozub, dağıdıb, məhv və nabud edirlər. Boylə macəraçılara inanmış olan yazıq, safdil millət dəxi aldandığını, aləti-məsxərə olduğunu o vəxt başa düşür ki, daha iş-işdən keçmiş ola! Aldandığına, qandırıldığına əfsus edib peşiman olarsa da "sonrakı peşimanlıq fayda verməz" məfadincə yəs və naümidi qarşısında, əli qoynunda qalar.

İştə istiqlalını elan etmiş olduğumuz Azərbaycanımızı nəinki bir qara və qırmızı təhlükələrdən qorumalı, bəlkə boylə macəracuların "ağ təhlükələrindən" dəxi gözləməlidir.

Buna görə hər bir məsuliyyətsiz olan tanınmamış və bilinməmiş adəmlərin zahirdə nəzərə xoş görünən sözlərə genə inanmamalıdır. Zira ki, zahiri xoş isə də, batini və gizli tərəfi qorxulu və zərərlidir. Biləks, səy etmək lazımdır ki, boylə atılıb düşənləri yerlərində rahat oturtmaq və ya içimizdən tərd və təbid etmək, ağızlarını yummaq, əməllərinə qarşı sədlər çəkmək, "fitnə yatıbdır, allah lənət etsin onu durquzanlara" sözlərini yadda saxlıyub da zahirdə nəzm və nizam tərəfdarı, lakin batində fitnə və fəsad qovzamaq istəyən boylə macəraculardan çəkinməli və ehtiraz etməlidir.

Parlamanımızın təsdiqi ilə zimam hökuməti əlinə almış və məmləkət dolandırmaq və məmləkətimizi təhdid edən bir taqım sağ və sol təhlükələrindən millət və vətəni qan tökülməksizin qurtarmaqla öz iqtidarını, müdəbbirligini əzm və səbatını dürüst və sağlam siyasət təqib etməyini ümummillət əfradinə təsdiq etdirmiş olan bir hökumətimiz olduğu halda bu hökumətin siyasətini pozmaq istəyənlərə hökumətin razılığı olmayan bir taqım əməllər icrasına dəvət edənlərə qulaq asmaqlıq nə böyük xəta və nə fahiş bir qələtdir!

Millətimiz əfradini boylə macəracular təhlükəsində xəbərdar edib də hər bir əməlin aqibətini fikir etmək, qeyri- məqul hərəkətlərdən əl götürmək dərin fikirli, sağ və sələmət bir siyasət sahibi olmaq və hökumətimizə qarşı nəzm və nizam ehtiramını saxlamaq kimi düz və doğru yollara dəvət edirik.



## QARABAĞ HADİSATI

Naxçıvanın səssiz-küysüz, qeylu-qalsız, dəva və münaziəsiz olaraq erməni hökuməti tərəfindən işğalından sonrakı bu işğal Azərbaycan Cümhuriyyətinin mənafeyi-həyatiyyəsini xələldar etmək idi. Zənn olunurdu ki, ermənilər daha Qarabağ məsələsində inadlıq etməyib hərslərini soyumuş və iştahalarının şiddətini azalmış hesab edirlər. Lakin boylə degilmiş.

Nə adi və nə də siyasi nəzakəti başa düşməyən erməni başçıları Qarabağ adlı torpağımızda sükunət edən erməni əhalisini, bu əhalinin xahişinə rəğmən Azərbaycan hökumətinə tabe etməmək yolunda daha böyük inadlıq göstərib ingilislərə baş komandanlığının təklifini də rədd etməkdən çəkinmədilər.

Azərbaycan hökumətinin səbir kasası doldu. Köçəri mövsümünün hüluli isə əhalini dəxi böyük müşkilat qarşısında qoyub arada bir acıq və əsəbiyyət törətməginə səbəb oldu. Ermənilərin inadlığı və hökumətimizin hövsələsi bu acığı və əsəbiyyəti getdikcə artırıb, Qarabağda bu gün-sabah bir qeyz və qəzəb partlangıcı zühur edəcəgini naçar qoymuşdu.

İşin bu yerə gəldigini və bunun nəticəsi nə ola biləcəgini həqqı ilə anlamış olan general-qubernator Xosrov bəy Sultanov həzrətləri bunun qabağını almaq və qırğına mane olmaq üçün Qarabağ erməni başçılarının inadını sındırmaq və məsələni camaətin qatışmasına məhəl qoymamaq üçün hökumət əlilə, yəni qanunu bir yol ilə həll etmək əmrinə mübaşir oldu və olub da erməniləri itaətə məcbur etdi. Daha doğrusu, erməni camaətini xudsər və qeyri-məsul komitetlər qurğusundan xilas edib, camaətin öz meyil və arzularını hüsulə gətirdi.

İndi umumi qırğına mane olan erməni komitetlərinin şərini ümumqarabağ əhalisi üzərindən dəf edən hökumət əmrini layiqincə yerinə yetirən Xosrov bəyi alqışlamaq, ona mütəşəkkir olmaq, ondan razılıq etmək əvəzində onun əleyhinə danışılan sözlər və hərəkatını fəna bir surətdə göstərən qeybətlər eşidirik. Həttа onun geri çağrılması məsələsi dəxi meydanda söylənilməkdədir.

Biz bu növ fikrə mailik ki, Sultanov Xosrov bəyin əleyhinə danışanlar, onun layiqsiz bir hakim olduğundan degil, biləks, fəzləsilə

ləyaqət sahibi, bacarıqlı və iş görən bir Azərbaycan məmuru olmasından qorxuya düşən və gözləri götürməyənlərdir.

Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni camaəti tərəfindən dəxi möhtərəm sayılan Xosrov bəy Qarabağın hökuməti başında olmasa idi, burası Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətli-qital ocağı olmuşdu. Bu həqiqəti Qarabağın musəlmanları da, erməniləri də Qarabağ hadisəsini təhqiq üçün məhəlli-məzkurə getmiş olan xüsusi komissiya dəxi iqrar və təsdiq etdigi bir halda Xosrov bəyin əleyhinə danışmağın mənası nədir? Qarabağı ixtilal və ixtişaşa sövq etmək niyyəti degilmi?

Şimal təhlükəsinin vücudu meydanda olduğu bir halda bizim başımızı Qarabağ şuluqluğuna qatışdırmaq istəyənlər Qarabağın ixtişaşından mənfəət aparanlar, əlbəttə, səy edəcəkdirlər ki, Sultanov kimi layiqli bir hakim Qarabağdan kənar edilib bu yerdə hər bir macəraçulıq üçün meydan hazırlasın.

Lakin biz əminik ki, Sultanov Xosrov bəyin xidmətlərini layiqincə təqdir edən və bu məsələnin ətrafında dolandırılmaqda olan intiriqalardan kəmalınca xəbərdar olan hökumətimiz, əvvəla, öz daxili işlərinə qatışmaq istəyənlərə yol verməz və saniyən, Azərbaycanın mühüm bir cüzi olan Qarabağ şuriş və ixtişaş atəşinə ilqa etməz və Qafqazda nizam və asayiş mühafizəsi əmrinə mükəlləf olan müttəfiqlər komandanı dəxi bir taqım müzürr adamların ilhah və israrına məhəlgüzar olmayıb bu yolda hökumətimizin tərəfini iltizam etməgi səlah görər.



## "SƏDDİ-İSGƏNDƏR"

Avropa mətbuatının bizə çatan ala-yarımçıq xəbərlərindən bizə, bizim istiqlalımıza, bizim müqəddəratımıza aid yazılarını böyük bir maraqla arayub oxuyuruq. Oxuyub da məyus və mükəddər olmaq məcburiyyəti hiss edib fikirlərə düşürük.

O mətbuat, baxüsus, Fransa mətbuatının bizim haqqımızdakı fikri bizim Afrika vəhşiləri barəsində qərarlaşmış fikrimizin eynidir.

O mətbuatın fikrincə Qafqazda iki qisim millət vardır ki, onlardan birisi məzlum, digəri zalımdır. Zalım, əlbəttə, bizmişik, özümüz də vəhşi, yırtıçı, mədəniyyət düşməni. İrfan məxasimi zalımlardan imişik. Bizim heç bir məziyyətimiz, heç bir fəzilətimiz yox imiş. Məhz bir vəhşət və dəhşət mücəssəməsi imişik.

Haqqımızda olan boylə bir fahiş və haqsız nəzər, yevropalılarda nədən və nərədən hasil olmuşdur?

Bu nəzər, sənələrdən bəri əleyhimizdə çalışmaqda olan düşmənlərimizin səy və əməklərinin məhsul və nəticəsidir ki, bizimlə Avropa arasında zənn edirsən ki, yıxılmaz, deşilməz, keçilməz bir "Səddi-İsgəndər" əmələ gətirib və bizi "yəcuc-məcuc" mənzələsində qoymaqla əbədi bir zindana məhkum və açılmaz bir tilsimə salmışdır.

Əcəba Avropaya göndərmiş olduğumuz mürəxxəslərimiz bu səddi yara biləcək və bu tilsimi aça biləcəkdirlərmi?

İştə mühüm bir məsələ!

Düşmənlərimiz bu işdə də bir çox çalışmışdırlar. Azərbaycan mürəxxəsləri əhyanən bunların yalan və iftira və böhtandan qurulma kələklərini açar qurğusilə mürəxxəslərimizin üzərinə olmazın böhtanlar atmaqla onları da Avropa nəzərində ləkələndirmişdirlər. Bunun nəticəsi olacaqdır ki, fransuz qəzetələrindən ən nəzdik beyinləri mürəxxəslərimizin Parisə vürudini bir taqım nalayiq sözlərlə "təbrik" edib öz münasibətlərini bildirmişdirlər.

Bunun üçündür ki, Parisdəki mürəxxəslərimizin vəzifəsi dedikcə ağır və müşküldür. Bir tərəfdən öz böhtanlanmış adlarını təbərrə etdirmək, digər tərəfdən düşmənlərin tilsimini qırıb həqiqəti meydana çıxarmaq nə qədər məharət və ustadlıq istər.

Qəzetəmizin dünənki nömrəsindəki xəbər ki, mürəxxəslərimiz "dördlər" tərəfindən hüzurə qəbul edilmişdirlər, bizə bir taqım ümidlər verir və bunu təbşir edir ki, Avropada dəllallıq edən və özünü pula satan məsləksiz mətbuat olmaqla bərabər, doğruluq sevən adamlar, cəmiyyətlər və işin ciddiyyətini nəzərə alıb da hər tərəfin sözünü və şikayətini dinləməklə, bir gözlü və bir qulaqlı olmaq istəməyənlər dəxi vardır. Binaən əleyh düşmənlərimizin "Sədd-İsgəndər"i əslində saxta bir sədd, tilsimləri aldatma bir tilsim olduğundan himmət və həmmiyyətimiz sayəsində bu səddi uçurmaq və bu tilsimi açmaq imkanına ümidimiz çoxdur.

Əgər bu işə müvəffəq olarsaq, avropalıların gözləri açılıb da baxıb görərlər ki, sədd arxasında olanlar zənni-batillərinin əksinə olaraq yəcuc-məcuc degil, bəlkə özləri kimi adi insanlardır ki, nə zalımdırlar, nə mədəniyyət düşmənidirlər, nə irfanədulərıdirlər, biləks, alicənab, mərhəmətli, insaflı, tərəqqi və təkamülə malik bir qövmdür ki, müxalif tərəfin təsvir və tərif etdiginə heç də oxşayışları yoxdur.

O halda işlər açılar və ikigözlü Avropa öz zəlalətini də anlar, düşmənlərimizin degil, yalnız bizə qarşı bəlkə bütün insaniyyətə, ümumaləm bəşəriyyətə qarşı xəyanətlər etmiş olduğunu dərk ilə xainlərə bizimlə bərabər lənətxanı olar.



## MÜVƏFFƏQİYYƏTLƏRİMİZ

Bir vaxt var idi ki, cavan dövlətimizin siyasi halı, həm xaricən və həm daxilən çox yazıq və hətta gülünc bir halda idi. Bu o zaman idi ki, bir tərəfdən ana vətəndən ayrı qalıb da yabançıların dəstgiri olmuş Lənkəran müsəlmanlarının ah və nalələri qulaqlarımızı deşib, qəlbimizi yandırmağda, digər tərəfdən Naxçıvan türkləri ümid və arzularından məyus olub xaricilər təht əsarətinə keçməkdə, bir tərəfdən də əhalimizi təngə gətirməkdə məişət və güzəranlarına xəl və zərər yetirməkdə olan Qarabağ məsələsi qeyri-məmul bir surətə düşmək üzrə idi. Bunun üzərinə şimalın qara və qırmızı təhlükələri əlavə olunmaqdan başqa düşmənlərimizin daxilimizdə törətməkdə olduqları intiriqaları dəxi əhvalı daha da pərişan və çarəsiz bir surətə salmışdı. Buna görə dövlətimizin zimam idarəsini əlinə tapşırmış olduğumuz hökumətin hali dedikcə ağır, çətin və müşkil idi.

Burasını da qeyd etməlidir ki, o zamanlarda hökumətimiz öz işində təmamilə sərbəst olmayıb xarici bir əl, bir çox işlər də hökumətin qabağını kəsib bir parə mühüm tədbirlər icrasına yol vermiyordi.

Nə qədər xuddarlıq, nə qədər müdbirlik və nə qədər mənəvi qüvvət sahibi olmaq lazım idi ki, məmləkəti oda atmadan, əhalini bəlalərə salmadan və asayişi-ümumini xələldar etmədən bu işkalların hamısını boylə bir ağır şərait içində bir-bir dəf edib məmləkəti bu pərişan haldan çıxartmaq mümkün ola idi.

Görünür yenicə təşkil etmiş olan Azərbaycan türk dövlətinin həm başında duranların da və həm də əhalisinin özündə boylə ali və qiymətli sifət və məziyyətlər varmış ki, yuxarıda sadaladığımız əşkallar onların həmiyyət və mətanəti-mərdanəsi qarşısında davam gətirə bilməyib dəf və rəf edilməyə üz qoydu bir az vaxt keçdi. Bu məsələlər hamısı Azərbaycan türklərinin arzusu mucibincə həll və fəsl edildi.

Bu əhvalını yəni boylə çətinlik aqilanə və müdəbbiranə bir surətdə dəf edilə bilinməsi füqərəsini təqdir etməmək qabil degildir. Bu vaqe Azərbaycan türklərinin idareyiümur dövlət içində böyük bir istedad və qabiliyyət sahibi olduğlarına şafi və kafi bir şahid və qeyri-qabili-inkar bir dəlildir. Məsləkləri bizi həmişə söymək və ləyaqətsizlikdə ittiham etməkdən ibarət olan düşmənlərimiz bizim bu qə-

dər böyük olan siyasi müvəffəqiyyətlərimizə göz yumub guya əhəmiyyət boylə vermiyorlər və bu vaqeələri heç mənzələsində hesab edirlər. Biz isə öz eyiblərimizi gizlətməgimiz kimi öz hünərlərimizə də göz yuma bilmərik. Boylə mühüm vəqələri bütün əhəmiyyətilə səbt etmək və tariximizin şanlı səhifələrinə keçirməgə borcluyuq.

Qonşu cümhuriyyətlərimiz boylə məsələləri həll etmək üçün nə qədər qan tökmək və nə qədər can fəda etmək məcburiyyətində olduğlarını, zənn edirəm ki, hələ heç bir kəs unutmamışdır. Azərbaycan isə həman heç bir qurban vermədən və qan tökmədən bu cür müşkül məsələləri müdəbbiranə bir surətdə həll edə bilmək istedadını aşkar etdi.

Ümidvarıq ki, bu əsnalər də içimizdə yaşamağda və siyasətimizə göz yetirməkdə olan əcnəbilər öz məmləkətlərinə qayıdıb da Azərbaycan və Azərbaycan türkləri haqqında zəlalətə düşürülmüş və sui-təfhimlərə qapılmış olan vətəndaşlarına həqiqət hali-bəyan ilə bizim varlığımızı və varlığa layiq olduğumuzu aşkar edər və Avropanı Azərbaycan türklərinə və təşkil etmiş olduqları cavan cümhuriyyətə xüsusi əhəmiyyət yetirmək və layiqincə diqqət vermək məcburiyyətində qoyarlar.



## YERSİZ ÇIXIŞ

Məmləkətin işləri yavaş-yavaş öz yoluna düşdügü bir halda, yəni o zamandakı Azərbaycan həm xarici işlərində, həm daxili dolanacağında öz qonşularına nisbətən səlamət və rifah hal ilə yaşamağa ayaq basıb bolşevik dövrünün mənhus günlərini unutmaq üzrədir, sosialistlərimiz birdən-birə "təşvişə" düşməyə başlayıb hökuməti "işsizlik"də və "bacarısızlığ"da təqsirləndirirlər.

Dağ böyükligində iri olan Qarabağ məsələsini arzumuza müvafiq qolaylıqla həll edən, Lənkəranı qan tökmədən, qurban vermədən yabançılar çəngalından qurtaran və ümumqafqaz islamlarına lazım olan yerlərdə əl yetirib, kömək edən, qüvayi-hərbiyəmizi möhtərəm bir vəziyyətə salmış olan, məmləkəti zülmkar və rüşvətxor məmurlardan təmizləməkdə olan, paytəxtdə universtə açan, kasıb-kusublarına 3-4 manata çörək yedirdən, hər yerdə əmin və asayiş bərpa edən və Azərbaycanımızı bu gün hər bir insaf sahibinin iqrar və etiraf edəcəgi rahatlıq və asudəligə çağıran, qəlbində vətən və millət məhəbbəti olub da səmim qəlb ilə çalışan, vuruşan və istirahət nə olduğunu bilməyən hökuməti və onun rəisini işsizlikdə, bacarıqsızlıqda ittiham etmək ya əql və insafdan xali olmağdır, yaxud başqa bir mənzur, özgə bir məqsəd yeritməkdir.

Əcəba, bunun hansıdır?

Əgər sosialist fraksiyasının sualı sorğu halında keçməyib də yalnız bir Denikin təhlükəsi xüsusində baqi qalsa idi, buna heç bir sözümüz ola bilməzdi, yaxud ümumhökumət işlərinə qarışdırıb parlaman minbərini mitinq kürsüsünə döndərməklə bolşevikvari sözlər söyləyən yalnız bir qırmızi Qarayev olsa idi biz əql və insaf təmənnasında bulunmazdıq. Lakin əql və dərrakələrinə, habelə insaf və mürvətlərinə iman etdigimiz Əhməd bəy Pepinov, Səməd bəy Ağamalıoğlu, İbrahim bəy Əbilov əfəndilərin dəxi ümumhökumət politikası tənqidinə iştirak etməkləri arada başqa bir mənzur və özgə bir məqsəd olduğunu meydana çıxardır.

O məqsəd və o mənzur bugünki böyük müvəffəqiyyətlərdən dolayi mövqeyi bərkimiş və nüfuzu artmış olan hökuməti laxlatmaq xalq nəzərində etibar və etinadən salmaqdır! Hökumət müştərək hö-

kumətdir. Bir rəngli sosialist hökuməti dəgildir. Madam ki deyildir, onu bərkiməgə, etibar və etinalı olmağa qoymaq, sosialistlərin məsləkinə və tutduğları yola müvəffəq deyildir. Odur ki, hökuməti daima danlamaq, töhmətləmək və məzəmmət etmək lazımdır. Boylə olarsa hökumət əgər zəif əlqab soyuyar, boşalar, əsəbi bir hala düşər, acıq elər və ya bilkülliyyə başını itirər, camaat və Qarayevin "füqarayi--kasibəsi" də hökuməti saymaz, əmrlərinə qulaq verməz və bu təriq ilə hökuməti düşürmək və sosializm evini qurmaq üçün müsaid bir zəmin hazırlanar. Öylə olarsa qarayevlərin "füqarayi-kasibə"si Anaşkin, Mirzoyan[1], mikoyanların sayeyi-mərhəmət vayələrində "ağ günlərə çıxıb həqiqi Azərbaycan "füqərayi-kasibə"sinin başında "tənbəki oyunu" açmaqla yanmış qəlblərini sakit edər və Azərbaycanı "cənnətə" döndərərlər.

Lakin zənn etmirəm ki, bu "cənnətin" müxtəsər bir misalini görmüş olan Azərbaycan füqərayi-kasibəsi qarayevlərdən razı qalar.

Azərbaycan füqərayi-kasibəsi ümumazərbaycan əhli öz hökumətinin səyi və təlaşı altında indi-indi ağ gün üzü görməyə qədəm qoymuşdur. İndi-indi öz varlığını, öz insanlığını dərk etməyə başlamışdır. İndi-indi öz vətənini vətən, öz millətini millət hesab edib, azad və asudə yaşamağa imkan bulmuşdur. Vətən və millət tanımayanların guya "dost" sifəti ilə meydana girib də bu füqərayi-kasibəni əğfal və əğva etməsi xəlqi hökumətdən və hökuməti xəlqdən ayırıb aralarında bir dərə qazması Azərbaycan xəlqi üçün nə böyük düşmənçilik və nə böyük bədxahlıqdır ki, bunun axırı böyükdən də böyük bədbəxtliklərə səbəb ola bilər. Odur ki, azad və asudə yaşamaq vətən və millətini hər şeydən əziz tutmaq istəyən salim əql və təmiz vicdan sahibi olan həqiqi Azərbaycan füqərayi-kasibəsinin qarayevlərin "müdafiə" və "mühafizə"sinə qarşı bir sözü bu ola bilər ki: Məra be xeyir to ümid nist, şərrmərasan![2]



# MƏMURLARIMIZ HAQQINDA

Keçən parlaman iclaslarının birində hökumət məmurlarının içində rüşvətxorluq müşahidə edildigindən söz açılmışdı. Sözü açan sosialistlər fraksiyası olduğundan rəisülvükəla həzrətləri cavab verirkən "əgər bütün pristavları "Himmət" firqəsi əzalərindən təyin etsək də genə rüşvətxorluq aradan götürülməz," – deyə haqlı olaraq bir işarə vurdu.

Vaqeən məmurların rüşvətxorluğu hökumət və məmləkət üçün qorxulu bir vaqeədir. Rüşvətxor məmur xalqın etibarı ola bilməz və bu kibi bir hökumət qulluqçusunun vəzifə başında baqi qalması, hökuməti ləkələyən, şanını azaldan və nüfuzdan salan hadisələrdən biri ola bilər. Odur ki, rüşvətxorluq öylə mübarizə qılmaq hökumətin böyük vəzifələrindən biridir.

Hal-hazırda bu vəzifə hökumət tərəfindən kamalınca ifa edilməkdə olub məmurların rüşvətxorluq və başqa fənalıqlarını aşkar etmək üçün xüsusi bir idarəmiz mövcuddur.

Məmurlar arasında rüşvət almaq adətinin bir çox səbəbləri vardır. Bu səbəbləri aramaq, bilmək və hər birinin künhinə bələd olmaq, əlbətdə hökumətin borcudur, çünki səbəb bilindigindən sonra rəf izalə edilə bilər və məmur üçün rüşvət almaqdan ötrü heç bir bəhanə yolu qalmaz.

Fəqət səbəblər öyləsi var ki, məmurun öz təbiəti iqtizası olduğundan o xüsusda məmuru öz vəzifəsindən kənar etməkdən başqa hökumətin özgə bir çarəsi ola bilməz. Məsələ, təbiətən tamahkar və xalq təbirincə acgöz məmuru ancaq qulluğundan kənar etmək və mühakimə altına almaqla bu şəri rəf etmək olar.

Lakin başqa kənar səbəblər dəxi vardır ki, piş əz vəxt izalə edilirsə, bir çox rüşvətxorluq füqərasına yol verilməz o səbəblərdən biri və ola bilsin ki, ən müəssiri və mühimi məmurun yoxsulluq halıdır. Bir çox məmurların yoxsulluq ucundan rüşvət almaqlarını inkar etmək olmaz.

Nikolay zamanındaki bürokratiya tərz idarəsi idi – orta və kiçik məmurlar üçün təyin edilmiş olan "Kazyonnı" məvacib" mucib heç

bir vaxt kafi dərəcədə olmurdu. Hökumət qulluqçuları xüsusi idarələrdə qulluq edən və onlarla həmqətar olanlara həmişə həsəd aparırdılar. Hökumət qulluqçusunun bir təsəllisi vardısa da, o da "çin", gələcəkdə "pensiya" almaq həvəsi idi. O idi ki, bu cürə qulluğlara şan və şərəf sevən dövlətlilər girib vəzifələrini keyfi-mayəşa ilə ifa edirdilər. Kasıb-kusub girirsə də, ya gərək acından ölə, yada ki, rüşvət və sairə ilə başını dolandıra idi.

Demokratik üsul ilə idarə edilən məmləkətlərdə isə – hökumət məmurunun heç bir xüsusi şan və şərəfi olmayıb yalnız öz məmuriyyətinin heysiyyatını gözləyə bilər. Yəni məsələ bir qubernator küçə ilə keçərkən hər kəsdən baş əymək və ehtiram görmək təmənnasında bulunmaz, fəqət öz məmuriyyət və mənsəbinin də təhqir edilməsinə razı olmaz. Yalnız özünə verilmiş hüquq və ixtiyaratdan istifadə edə bilər, bunun xaricində heç bir əmələ haqqı yoxdur. Odur ki, demokratik üsullu məmləkətlərdə hökumət məmuru olmaq, üzərinə müəyyən və olduqca çətin bir vəzifə götürməkdən başqa bir şey degildir. Binaən əleyh bu vəzifəni qəbul etmiş və onun hər bir çətinlik və məsuliyyətlərini üzərinə götürmüş olan adamların məişət və güzəranları nə qədər təmin edilmiş olursa, vəzifələrini bir o qədər yaxşı ifa edər və yoxsulluq üzündən rüşvət almağa da bəhanə bulmazlar.

Məmura, baxüsus, müşkül vəzifələri olan polis məmurlarına məvacib və maaş təyin edərkən heç vaxt bu əsası nəzərdə tutmamalıdır ki:

Bəsidir bir tövr ilə dolanar! Bu əsas şübhəsizdir ki, rüşvətxorluğa səbəbiyyət verir, çünki bir tövr ilə dolanmaq üçün aldığı məvacib kifayət etməz və məmurun gözü daim kənarları gəzir ki, təmini-məişət üçün mədaxilini artırsın.

Zənn edirəm məmurlara verilən məvacib gərək o qədər çox olsun ki, nəinki özünün və ailəsinin yemək-içmək və geyməyini görsün, bəlkə qara gün üçün də bir şey qaldırmağa imkan olsun. Böylə olursa məmurun fikri ailə qayğısı və yoxsulluq dərdi ilə pərişan olmayıb, bütün huş və guşi öz qulluğunda olar. Demokratik üsuli məmləkətdə Akaki Akakiyeviç kimi məmurlar gərək olmasın. Hər kəs gərək öz vəzifəsi müqabili o qədər maaş alsın ki, onu rahat dolandırsın və yoxsulluq işinə mane olmasın.



Və hökumət məmuru deməsin ki, gedib fələlik eləsəm bundan yaxşı dolanaram.

Əminəm ki, hökumət məmurlarının məişət və güzəranı layiqincə təmin edilirsə bir çox rüşvətxorluq əməlləri və başqa sui-rəftar bəd hərəkətlər öz-özündən rəf olub gedər.

Ondan sonra əgər məişəti təmin edilmiş bir məmur artıq təməlik edib rüşvət-filan alarsa, öyləsini qanunun ən şiddətli cəzası ilə tənbih etmək, əlbətdə, həm layiqdir və həm də lazım və vacibdir.

## KONTRAST

Azərbaycan hökumətinin adilanə və müdəbbiranə tədbiri sayəsində Qarabağ məsələsinin həll və fəsl edilməsi Azərbaycanda yaşayan ümumermənilərin məmnuniyyətini mucib oldu. Ermənilər bileyn gördülər ki, Azərbaycan hökuməti Qarabağ məsələsini qılınc zoru ilə həll etməyə qadir ikən boylə yapmadı. Məsələn, sülh və sazişlə həllə çalışdı.

Ermənlər burasını dəxi anladılar ki, nə Azərbaycan hökumətinin, nə də Azərbaycan türklərinin ermənilərə əziyyət vermək, incitmək, asudə güzəran və məişətlərinə mane olmaq və onlara qarşı daim xüsumət bəsləmək fikri yoxdur. Deməli, Azərbaycan ermənilərinin Azərbaycan Cümhuriyyəti torpağında yaşamalarının yaxşılığı və ya fənalığı özlərinin hərəkat və rəftarlarına bağlıdır. Yaxşılıqla dolanarlarsa daim yaxşılıq görərlər.

Qarabağ məsələsinin hər iki tərəfi razı qoyan bir surətdə həllində və bundan dolayı ümumazərbaycan erməni və türklərinin münasibət və müamilatlarının "normal" və səmimiyanə bir halə düşməsində Azərbaycan hökumətinin adilanə tədbirlərindən əlavə erməni cümhuriyyətinin dəxi aqilanə rəftarını nəzəri-diqqətə almalıdır. Bunu Qarabağda ermənilərin yeddinci yığıncağı isbat etdi. Bu yığncaqda əksəriyyət sülh və saziş tərəfdarı olub da qanlılıq və xunxarlığa adətkərdə olan daşnakların mübarizəyə davam edəlim malında olan divanəvar və əqldən kənar təkliflərini rədd etdilər. Daşnak fitnəsinin qara buludları erməni camaatinin üzərindən rədd olan kimi, sülh və saziş, əmnü- asayiş günəşi doğub hər yeri işıqlandırmaqla hər kəsin də ruhunu şad və qəlbini fərəhnak etdi. İndi Qarabağ erməniləri hökumət nümayəndəsi ilə bir yerdə məsləhət və məşvərətlər məclisi qurub ümumi ölkənin rahat və asudəligi haqqında tədbirlər tökmək işlərinə məşğuldurlar.

İndi qissədən hissə:

Məlum olur ki, o yerdə ki, ermənilər daşnak fitnəsini öz üstlərindən kənar edə bilirlər, orada hər bir cürə qarışıqlıq və şuluqluq əvəzinə əmnü-asayiş, istirahət bərpa edilir.



Boylə olan surətdə biz əminik ki, əgər bu daşnak fitnə və fəsadı ümumermənilər üzərindən dəf edilə bilsə idi, – bu gün kəmali-təəssüf və təsirlə müşahidə etmək olduğumuz Ararat "bakxanaliya"sına meydan qalmaz və hər gün qəlbimizi yandıran və əhvalımızı pərişan edən yaman xəbərləri və pis-pis əhvalları eşitməzdik.

Bu gün Azərbaycanda yaşayan ermənilərin halını Ermənistandakı müsəlmanların əhvalı ilə bir-birinə tutuşdurub qiyas etdikdə arada böyük bir "kontrast" əmələ gəlir. Burada hər tərəfə baxırsan ədalət və insaniyyət müşahidə edildigi halda, orada – əgri dağ dibində, Ararat ətəklərində zülm, vəhşət və dəhşət görünür.

Yevropa qarşısında məzlum görünməyə və öz yerində zalım olmağa səy edən daşnaklar, öz vəhşiliklərini bir dərəcəyə yetiribdirlər ki, səbr və taqətdən kəsilmiş olan müsəlmanlar qiyam və üsyana qalxıb zülmlərə qarşı difa başlayıbdırlar.

Daşnaklardan ibarət olan Ararat hökuməti öz quyruğunu qapı arasında görüb, Yevropadakı dostlarını köməgə çağırmağa və "Ermənistan əldən gediyor", – deyə qışqırıq salmağa məcbur olmuşlardır.

İki qonşu millətlər arasında dərin quyular və keçilməz dərələr qazmaqda olan kütahbeyin və fərasətsiz daşnaklar burasına heç də diqqət yetirmirlər ki, bu qazdığları quyular və dərələr bilaxirə bütün Ermənistan üçün bir məzarstan ola bilər.

Yevropaya yalvarmağı, diplomatlar qapılarında sülənməgi öz qonşusu və vətəndaşı ilə insaf və mürvətlə yaşamağa tərcih verən bu partiya hamıdan artıq zərəri zatən öz millətinə və öz camaatinə vurur. Bu partiyanın erməni xalqını öz əlində oyuncaq kimi oynatmağı, keyfi istədigi yerdə camaatin canını, malını, namusunu və heysiyyatını bila məhabə fəda etməsi nə qədər mucib təəccüb isə, erməni camaatinin də tamam bir qoyun sürüsü kimi öz müqəddəratını və öz varlığını bu ziyankar partiyaya tapşırub da bu yolda bir bu qədər ya sədaqət və ya qorxaqlıq və cəbunluq göstərməsi bir o qədər şayani-heyrətdir. Görünür bu partiya erməni xalqını o qədər "terror"luyub və o qədər gözünün qorxusunu alıbdır ki, birinin də ağız açmağa cürəti qalmayıbdır.

Lakin iş boylə davam edərsə bunun axırı yaxşı nəticələr verməz. Erməni-müsəlman münasibəti həmişə gərginlik üzrə qalıb düşmən-

çilik ya qiyamətə kimi baqi qalar və ya bu millətlərdən birinin bilküllüyyə məhv nabudisi ilə nəticəpəzir olar ki, bunlardan hansının baqi və hansı fani ola biləcəgini indidən xəbər vermək çətin iş degildir.

Ona görə cümhuriyyətimizdə asudəlik ilə yaşamaqda olan erməni cümhuriyyətinin böyük borclarından biri odur ki, özlərini burada daşnak fitnəsindən qorumaq olmaqla bərabər Ararat hökumətinə dəxi icrai-təsir edib, oradakı müsəlmanlar haqqında rəva görülən zülmləri durdurmaq üçün ciddi təşəbbüsatda bulunsunlar ki, bəlkə bu "kontrast"ın Azərbaycan türkləri qəlbinə ilqa etdigi sui-təsir və acılığı beyləliklə bir növ azaltmaq mümkün ola.



## GENƏ BAŞLANIR

Biz deyəndə ki, Azərbaycan türklərinin azadlıq və istiqlalı əleyhində bolşevik də, menşevik də, monarxist də, denikinçi də hamısı müttəfiqdirlər, safdərun cavanlarımız bizdən inciyor və bizi "qaralıq"la ittiham ediyorlar. Halbuki dedigimiz gün kimi aşkar və dəlil və sübutları hər gözü görənin görəcəyi və bəsirəti açıq olanın anlayacağı şəkildə meydanda mövcud olub əhəmiyyət verənləri gözəlcəsinə inandıra bilir.

Neçə gün əvvəl Moskov bolşevikləri öz komisarları olan Nərimanovun dililə bizə təhdid məktubu göndərib dedilər ki, Bakı Azərbaycan türklərinə verilməz. Orası "Sovetski Rusiya"nın malı olmalıdır. Həman eyni sözləri denikinçilər dəxi deyirlər. Fərq yalnız "Sovetski Rusiya" sözündədir ki, onu dəgişib özündə "Yedinaya Rusiya" diyorlar.

Genə neçə gün əvvəl bolşevik qəzetəsi olan "Naşi put" Lənkəranın süqutu haqqında yazarkən beylə demişdi ki: "Əlbəttə biz Lənkəranı denikinçi olan muğanlılara verdik, nəinki Azərbaycan hökumətinə!"

İstiqlalımız və istiqlalımızın təqviyyəsi lehində söylənən sözlər və icra edilən əməllər sosialistlərin də və denikinçilərin də acığını və narazılığını mucib oluyor.

Türk müəllimləri qurultayının bu qərarı, ki müəllimlər xalq arasında istiqlal və azadlıq fikrini tərvic və təqviyyə üçün çalışmalıdır, sosialist qəzetəsi məşhur "İznamiya truda"sının acığına gəlub müəllimlərə guya nəsihət yolladiyor ki, bu cürə siyasi işlər sizin işiniz degil, siz gedin camaatin içində maarif və tərəqqi yolunda çalışın.

Fəqət maarif yolunda ciddi surətdə çalışmaq istənildikdə, yəni məktəblərin milliləşməsi məsələsinə şüru etdikdə genə həman sosialist "İznamiya truda", denikinçi "Qolos Rossii" ilə ağız-ağıza verib qışqırıq salırlar ki, ay aman bunu eləmiyək!

İştə söhbətimiz dəxi bu məsələnin üstündədir.

Bir vaxt vardı ki, bu "koalitsiya" yəni sosialist və denikinçilər ittifaqı bizim siyasi istiqlalımıza qarşı mübarizə etməkdə idilər. Azadlıq və "samoopredeleniye" kimi ali məqsədlərdən söhbət edən sosialistlər, Azərbaycan türklərinin azadlıq və istiqlalı felən əmələ gəlir-

kən ali məqsədlərin hüsulini görüb də söyünmək və xoşnud olmaq əvəzinə, biləks, məyus və mükəddər olub, məqsədləri millətləri əzməkdən ibarət olan "Yedinaya Rosiya"çılar ilə əl-ələ verib istiqlalımıza qarşı müqabilə və mübarizəyə girişdilər. Azadlığımıza mane olmaq üçün hər bir qanuni və qeyr-qanuni vəsilələrə əl apardılar. Lakin haqqə qələbə çala bilmədilər. Məqhur və məğlub olub susdular və ola bilsin ki, "fürsət məqamına" müntəzir olaraq hələlik kiriməgə qərar verdilər.

Biz siyasi istiqlalımızı bir getdik. İndi milli və mədəni istiqlalımızın hüsulinə mübaşir olmaq zamanıdır ki, bu yolda birinci qədəm olaraq məktəblərin milliləşdirilməgi iştə şüru edilirkən genə həman "İznamıya truda," denikinçi "Qolos Rossii" ilə müttəfiq olub təkrar bizimlə mübarizəyə girişiyor və məktəblərin milliləşməsinə mane olmaq istiyorlar.

Siyasi istiqlalə həqqımızı inkar edən "İznamiya truda" boylə qərara gəlibdur ki, biz hələ milli və mədəni istiqlala dəxi layiq degilmişik. Çünki bu iqdamətə hazırlığımız yox imiş. Əlavə boylə milliləşdirmək əməli, əqəliyyəti-milliyyə təşkil edənlər haqqında, yəni rus, erməni, yəhudi və sairələri barəsində cəbr etmiş.

Əvvəla, "hazırlıq yox imiş" bəhanəsilə bir millətin milli və mədəni istiqlalına mane olmaq hərəkəti sosialist "İznamiya truda" üçün çox əyib olsun! Halbuki boylə bir istiqlalı bu gün moarxistlər boylə qəbula razıdırlar.

Və saniyən əgər biz "milliləşmək işlərinə hazır degilik" bəhanəsilə bu gün bu işə şüru etməsək və bu işlər bu halında baqi qalarsa, o halda biz buna heç vəxt hazır olmarıq. Binaən əleyh boylə bir məntiq hökmüncə qiyamətə kibi milliləşmək üzünü görmərik.

Lakin vaqeən biz məktəbləri milliləşdirməgə hazır degilmiyik? Bu həqiqətmi? Xeyr, həqiqət degildir. Çünki o dairədə milliləşdirmək əməli ki maarif nəzarəti tərəfindən elan edilibdir – ona kəmalınca hazırıq. Gələn sənə bu dairəni bir az vüsətləndirməgə o biri il daha bir az geniş surətdə milliləşdirməgə, daha iki il sonra təmam milli məktəblərə malik olmağa hazır olmaq üçün işləmək lazım isə – o yolda işləniləcəkdir. Hər halda hazır olub-olmadığımızı bizə biganə olan "İznamiya truda"çılar degil, özümüz yaxşı bilərik.



Əqəliyyəti-milliyyə təşkil edənlər haqqında "cəbr" məsələsinə gəldikdə, bu da boş və əsassız bəhanədir. Əvvəla burada cəbr yoxdur. Hər millət öz dilində hər nə oxuyacaqsa və hər nə məktəb açacaqsa açsun və oxusun buna hökumət tərəfindən heç bir məmaniət ola bilməz. Əgər bir taqımları türk dilincə oxumağı öz övladları üçün "ar" bilirlərsə oxutmasınlar. Onlara cəbr edən yoxdur və olmayacaqdır.

Qərəz bu "hazırlıqsızlıq" və "cəbr" sözləri hamısı boş bəhanədir. Bu səs-küy ki, bir taqım bilafərq məslək qəzetələr və valideynlər tərəfindən eşidilməkdədir. Bizim milli və mədəni istiqlalımıza qarşı mübarizədir ki, genə də başlanır.

Zənn edilməsin ki, Azərbaycan hökumətinin vəzifəsi yalnız bir qaradavoyluqdan ibarər olmalıdır. Bu hökumətin ən böyük vəzifələrindən biri də milli-maarif məsələsidir. Azərbaycan türklərinin maarif nəzarətindən gözlədiği bu degil ki, o direktoru qulluğa qoyub, bu direktoru əzl etsin. Ümdə gözlədigimiz əməl burasıdır ki, məktəblər milliləşsin. Dilimiz hökumət dili hökmünə girsin, milli maarifimiz tərəqqisinə mane olan və istibdad zamanında irs qalan əngəllər bərtərəf edilsin. Bu isə ibtidailərdən başlanıb ta universitetə qədər ümumməktəblərimizin milliləşməgi ilə mümkün ola bilər. Nikolay məmurları bizi milli-maarifdən məhrum edib, dilimizi məlul bir hala saldılar. Bəsdir, o zamanın arzukeşləri və onlar ilə ittifaq bağlayan "sosialistlər" tərəqqimizə mane olmasınlar. Məsələni parlamana keçirmək istəyormişlər, bu ümid ilə ki, parlaman onların həqsiz iddiasını qəbul edib, məktəblərin milliləşmək məsələsini dayandıracaqdır. Heç zənn edilməsin ki, Azərbaycan parlamanı maarif təşnəsi olan Azərbaycan türklərinin milli maarifinə mane olan bilən hökmlər və qanunlar qoymaqla boylə bir həqsiz və əsassız əmələ razılıq verə! Parlamanımız gözəl bilir və hər kəs dəxi bilməlidir ki, bu səs-küy bizim milli və mədəni istiqlalımıza qarşı yeni bir mübarizədir.

## QURTULUŞ

Şu qarşıkı duman çıxan bacadan
Sən gəlmədən iniltilər çıxardı;
Geciksəydin məzlumların fəryadı
Yeri, göyü, kainatı yıxardı.

*Ə.Cavad*[1]

Rusiya – o yekə Rusiya cahanşümul müharibənin taqətfərsa zərbələrinə davam edə bilməyib yıxıldı. Yıxılarkən cəbhələr açıldı, cəbhələr açılcaq müqabil tərəfin qonşuları müxtəlif yerlərdən sel ayrımları kibi Rusiyanın torpağını basmağa başladılar.

O torpağın bir hissəsi də Qafqaz idi ki, müqabil tərəfin, yəni alman və türk qoşunları tərəfdən müharibə siyasətinə görə işğal edilməsi icab edirdi.

Lakin türkləri, türk əsgərlərini, türk zabitini və paşasını Qafqaza gətirdən yalnız bir siyasət hökmü degildi, bu hökm ikinci planda idi. Birinci planda olan hökm isə milliyət iqtizasını əmr ilə qadir olmuş vacübüləməl bir hökm idi ki, hər bir türk onu kağız üzərində degil, öz qəlbində, öz sinəsində yazıldığını hiss edib əmələ gətirmək və yerinə yetirmək üçün şövq və həvəslə irəliləyirdi. O hökm boylə əmr edirdi: get, dini dinindən, dili dilindən olan qardaş və bacılarını, ata və analarını xain zalimlərin, namərd qatillərin, həyasız qasiblərin zülm cəngəlindən xilas et!

Əvət! Bu zaman idi ki, Azərbaycanın mühim nisfi abad və məmur ikən xarabazara döndərilmək üzrə xain və xasirlərin murdar çəkmələri altında əzilməkdə idi.

Azərbaycan füqərayi-kasibəsinə cənnət vəd edib də cəhənnəm göstərənlər öz qüvvələri azmış ki, daşnak kömeginə də təmə etməkdən iyrənməyib, türk övladının haqqını qəsb, canını qətl, malını qarət və evini viran etməklə "qrajdan" müharibəsi bəhanəsi ilə bir milləti yer üzündən məhv və nabüd etmək kibi divanəvar bir xəyanət icrasına məşğul idilər.

Topu, tüfəngi, makinası, təyyarəsi və bitməz-tükənməz cəbbəxanası olan cəlladlara qarşı əliboş müsəlman nə edə bilərdi?



Tələf olub gedirdi. Bir-bir, iki-bir, yüz bir, min bir tələf olub gedirdi...

Bir az qalmışdı ki, canilər cinayətlərini itmamə yetirib, bütün Bakı quberniyasını türk övladından təmizləyəcəklərdi.

Əcəba, bu nə müharibə idi? Bu nə qırğın idi? Deyirlər ki, bu "qrajdan" müharibəsi sinif müqatiləsi idi, yəni bolşeviklər füqərayi-kasibə xatirəsi üçün burjuylar ilə müharibə edirdilər.

Lakin bu yalandır və bunun yalan olduğunu isbat edən minlərcə füqərayi-kasibənin meyitləridir ki, bolşevik qoşunu tərəfindən "müsəlman olduğuna görə" çox rəhimsiz bir surətdə öldürmüşdülər.

Bəs bu nə idi?

Bu siyasi və milli müharibə idi. Siyasi tərəfini yeridən bolşeviklər idilər ki, bizə "istiqlal əvəzinə xarabazarlar göstərmək" vəd etmişdilər, milli tərəfini də iltizam edən daşnaklar idi ki, bunlar da "əlimizə yaxşı fürsət düşüb", deyə qanlarına yeridikləri müsəlmanları qırıb-qurtarmaq istəyirdilər.

Bu idi.

Lakin cəlladlar cinayətlərini axıradək itmamə yetirə bilmədilər.

Həqq ordusu məzlumların imdadına yetişdi və düşməndən neçə qat az olduğu halda müharibəyə girişib düşməni basdı və qaçırtdı...

Qanlı əllər Azərbaycan üzərindən dəf olacaq qaralı vəsitəmdidə vətənimiz hökumət və millətin səyi və itmami sayəsində yavaş-yavaş özü adi halına düşüb bu gün o dərəcə bir asudəliyə çatıbdır ki, bolşevik və Denikin "diyarlar"ından gələnlərin sözlərinə görə burası oralara nisbətən bir behişt və cənnət misalindədir.

Bu gün qurtuluş və xilasımız yolunda canlarını qurban verib, bizə bu dünyada cənnət göstərməklə özlərini o dünyanın behiştinə vasil edən şühədayi-möhtərəmiyyənin məzari-əzizləri üzərində fatihəxan olmaqla özlərini yad və ruhlarını şad etmək hər bir türkün ümumislam əhlinin müqəddəs vəzifəsidir.

## MİLLİLƏŞMƏK

Dövri-istibdaddan qalmış və bu gün Azərbaycan istiqlaliyyətinə yaraşmayan bir para işləri "likvidasiya" etmək, yəni aradan götürmək yolunda hökumətimiz ciddiyyətlə işləməkdədir. Bu bollu işlərin biri də rus dilidir ki, bu günə qədər aramızda hökumət lisanı hökmündə qalıb, Azərbaycan istiqlalının şərəfini azaltmaqla bərabər, Azərbaycan türkləri üçün dəxi az müşkülat törətmiyor.

Azərbaycan türk dili ümumqafqazda yaşayan müxtəlif lisanlı millətlər arasında ümumi bir dil olmaq kibi böylə bir beynəlmiləl əhəmiyyəti haiz olduğu halda, yəni bir ermənini bir dağıstanlı, bir malaqanın bir gürcü ilə qonuşub danışmaq üçün türk dilinə müraciət etməyə məcbur olduqları bir halda, bu dilə malik olan türklərin rus dilinə möhtac qalması nə qədər qərib və nə qədər gülünc bir haldır.

Bu qeyri-təbii hal, əlbəttə, rus istibdadının bərəkətindəndir ki, ruslaşdırmaq politikası sayəsində Azərbaycan türkləri öylə bir şərait içində yaşayırdılar ki, həmişə rus dilinə möhtac qalırdılar. Digər tərəfdən milli məktəb və mətbuatımız olmadığından dilimiz öz-özünə guşəyi-nisyanə atılacaq bir hala gəlirdi. Böylə bir şərait içində yaşayan azəri türkləri arasında öz dilinə, öz ədəbiyyatına həvəs edənləri vardısa, o da çox az. Çünki bu yolda praktik bir mənfəət yox idi. Türk dilinə dara olanlar bunu həyata təbiq etmək və bundan məişət və güzəranları üçün bir fayda almaq imkanından məhrum edilmişlərdi. Rus istibdadı hər bir "bənd-bərə"ni kəsib dilimizə heç bir yerdə yol verməyirdi.

İştə bu mənhus şəraitin nəticəsi olaraq, istiqlalımızı elan edib, fələn müstəqil yaşamağa şürü edərkən baxıb gördük ki, bütün iş bilənlərimizin, karkün adamlarımızın və işə yarar zəvatımızın bir cüzi istisna olmaq üzrə, həman cümləsi iş aparmaq üçün rus dili istemalına məcbur qalmışlardır. Odur ki, bütün dairələrimiz, divanxanalarımız, dəftərxanalarımız və bir-bir müəssisələrimiz bütün işlərini məcburi rus lisani vasitəsilə icra etməgə başladılar.

Lakin bu qeyri-təbii halın davamına ancaq müvəqqəti olaraq boyun qoymaq ola bilərdi. Ona görədir ki, bugün hökumət tərəfindən maarif nəzarəti vasitəsilə icra olunan millilәşmək iqdamati işlərin



təbii yoluna qoyulması haqqında birinci qədəmdir ki, türk hökumətində türk dilini qəsb edilmiş olan həqqı özünə qaytarılır.

Millilәşmək xüsusunda maarif naziri tərəfindən iki böyük işə iqdam olunubdur: biri məktəblərin, digəri isə ümumi hökumət müəssisələrinin millilәşdirilməsidir. Məktəblərin millilәşdirilməsi doğrudan-doğruya icra edilməkdədir. Müəssisələrin millilәşdirilməsinə isə bilavasitə iqdam edilib və vasitə olmaq üzrə bilatəfriq millət ümummәmurlarımız üçün türk dili kursları açılıbdır. Azərbaycan hökuməti dairələrində qulluq etmək istəyən və türk dilinə dara olmayan ümummәmurlar həman kurslara girib türk dili öyrənməgə məcburdurlar. Maarif naziri həzrətlərinin bu yolda ciddiyyətlə çalışmaları şayanitəbrir və layiqi-təhsindir. Bizə məlum olduğu üzrə nazir həzrətlərinin böylə millilәşdirmək tədbirlərinə qarşı protesto edən bu iqdamatdan şaki olanlar vardır. Lakin eşitdigimizə görə nazir cənabları heç bir güzəştdə bulunmamağa qərar vermişlərdir. Nazirin bu qərarı xüsusi bir təhniyətə səzadır. Bu xüsusda heç bir güzəşt ola bilməz. Protesto edən tərəflərin istiqlalımızın xeyrxahı olmadıqları aşkardır və saniyən, öz şəxsi mənfəətləri nöqteyi-nəzərindən şikayətlərdə bulunurlar. Halbuki millilәşmək işi dövləti əhəmiyyəti haiz olan böyük bir əmrdir. Bu əmri bir taqımlarının, baxüsus ki, bədxahlarımızın xatirəsi və mənfəəti-şəxsiyyəsi üçün təxirə salmağı və yaxud durdurmağı əql qəbul edən işlərdən hesab etmək olmaz. Ümid edirik ki, nazir həzrətləri bu yoldakı məmaniətlər qarşısında heç bir tərəddüdə yol verməyib işi sürətlə irəlilədəcək və ümumazərbaycan türklərinin məramını və dövlət mənafeyinin tələb etdigi əmrini kəmali mətanət ilə yerinə yetirəcəkdirlər.

Bu xüsusda müvəffəqiyyətlərini diləriк.

## MIRALAY HASKELIN[1] TƏKLIFI

Şərur və Naxçıvan uyezdləri həqqında Amerika nümayəndəsi miralay Haskel cənabları tərəfindən Ararat və Azərbaycan hökumətlərinə verilmək üçün vaqe olmuş təklifin biri zahiri, digəri batini olmaq üzrəiki mənisi vardır.

Zahiri mənisi bütün məzkur uyezdlərin əhalisinə aid olub tənzimi-idarə və təmini-məişətlərini hüsulə gətirə bilən üsul və tədbirlərdən ibarətdir ki, maddə-maddə yazılıb ələni və aşkardır.

Batini mənisi isə – bu mənəvi bir zərbədir ki, onu ancaq Ararat hökuməti dərk və hiss etməlidir.

Cümləcə məlumdur ki, düvəli-müəzzəmə içində bu axır vaxt ermənilər həqqında iltifat göstərən, onlara maddi və mənəvi köməklər vəd edən və bu vədələrin bir nümunə hüsuli olmaq üzrə erməni yoxsullarına ianələr paylayan – hamıdan artıq Amerika idi.

Bunun səbəbi o idi ki, Yevropaya və Amerikaya göndərilmiş olan erməni mürəxxəsləri, Ermənistanı tərif edərkən, vəhşilər içində mədəni, zalımlar arasında məzlum, sıxlıqlara uğramış həqlı bir millət deyə təsvirə çalışıb, həqiqət haldan bixəbər olan amerikalıları o qədər qandırmışlardır ki, amerikalılar da Qafqaz dağları arasında layiq etina və caizi-himayət və şayəsteyi-istiqlal bir millət varsa o da yalnız ermənilərdir, deyə boylə bir qənaət hasil olmuşdu.

Fəqət erməni millətinin başında duranlar o qədər kutahbeyin oldular ki, bəlkə amerkalılar həqiqət halı-təhqiq üçün Ermənistanı ziyarətə gələr və hasil edilmiş qənaətin yanlış olduğunu görərlər, deyə bu xüsusda heç bir fikir və əndişə etməyib təşkil etmiş olduqları cümhuriyyətdə mürəxxəslərin tərif və təsvirlərinə təmamilə zidd və bərəks olaraq bir hal törətməyə çalışırdılar.

Amerkalılar gəldilər. Hələ Haskel cənablarından əqdəm, erməni yoxsul və sitəmdidələrinə ianələr paylamaq qəsdilə Qafqaza gəlmiş olan Amerika heyəti, əhvalının başqa tərzdə olduğunu bir dərəcəyə qədər anladı. Nə üçün siz ianənizi yalnız erməni yoxsullarına təxsis və təqsim edirsiniz deyə suala: "Biz zənn etdik ki, möhtaci-ianə olanlar yalnız ermənilərdir", – deyə cavab verib işlərdən bir o qədər də xəbərdar olmadığlarını iqrara məcbur oldular.



Lakin erməni başçıları boylə vəqələrdən bir dərs ibrət almadılar. O ziyankar politikalarına dəvam ilə zülmdidə müsəlmanları qiyam və üsyana məcbur etdilər, iş o məqama çatdı ki, erməni cümhuriyyətinin əsasını təhdid edən təhlükələr vücudə gəldi. Şübhə yoxdur ki, erməni məzalimi nəticəsi olan bu qanlı hadisələri, erməni mürəxxəsləri Yevropa və Amerika qarşısında başqa bir halda təsvir edib erməni məzlumluğunun yeni bir sübut və dəlilidir deyə arayaə edirmişlər.

Lakin Haskel cənabları gəldi, Qafqazı gördü erməni həqiqətinə nəzər yetirdi, vaqe olan əhvalatı təhqiq etdi, Yevropanın və həmvətənlərinin bir çox yanlışlar və zəlalətə qapdırılmış olduqlarını dərk etdi və bunun nəticəsində Şərur və Naxçıvan türklərini "mədəni məzlum"ların vəhşiyanə hərəkət və zalimanə rəftarından xilas etmək üçün o tərəfləri Ermənistandan ayırmaq və bitərəf bir məntiqə halına salmağı lazım bildi.

İştə Ararat hökuməti politikasının nəticəsində daşnakların yedikləri mənəvi bir zərbə.

İndi keçəlim təklifin zahiri cəhətinə.

Bu təklif, əlbətdə ki, Şərur və Naxçıvan müsəlmanlarını və böyük Vedi əhalisini Ermənistandan ayırıb o tərəfin zülm, sitəm, qətl və qarətindən xilas edə bilər. Fəqət bu hal yəni məzkur uyezdlərin bitərəf bir məntəqə halında nə qədər zaman davam edəcəyi və bura əhalisinin müqəddəratı bilaxirə nə yolda həll ediləcəyi məzmununda irad edilən suallara təklifdə cavab yoxdur.

Təklifin "məhəlli idarə türk idarəsi olacaqdır,– deyə, üçüncü Bakı–Culfa dəmiryolu müxənnəs Azərbaycan hökumətinə təəllüq edəcək"- deyə on beşinci və idarə üçün əlavə yol lazım olacaqsa, o pulu Azərbaycan hökuməti buraxacaqdır", – deyə, on yeddinci maddələrdən aşkardır ki, bu təklif başdan-başa "mıs… mıs…" deməkdir ki, bugünü "Müstafa" olacağını aşkardır.Yəni bir yer ki onun idarəsi Azərbaycan qaydasıdır, içindən keçən dəmiryolun Azərbaycanındır, məsarif və məxaric üçün xərclənən yolu da Azərbaycan xəzinəsidir – uyez siyasi məntiq üzrə Azərbaycan toprağından hesab edilə bilər.

Buna görə Şərur və Naxçıvan məsələsi bilaxirə rəsmən Azərbaycana ilhaqla həll edilib qurtara bilər ki, bura oraların əhalisi də razıdır, düvəli-müəzzəmə nümayəndələri də maildirlər və məntiq də boylə hökm edir.

## KABİNƏ TƏŞKİLİNƏ AİD

Rəisül-vükəla Nəsib bəy Yusifbəyli həzrətlərinin istefası xəbəri Azərbaycanın həqiqi demokratiya və füqərayi-kasibəsini təlaş və əndişələrə saldı.

Bu vəqə yəni Azərbaycan fələ əmələ əsnaf sənətkar və bilümum bütün həqiqi demokratlarının Nəsib bəyə tərəfdar çıxub da onun təkrar ümuri-idarə başında olmamış cüda və misranə bir surətdə arzu etmələri Nəsib bəy əleyhində olarnlar üçün bir sillə və Azərbaycan füqərayi-kasibəsi namına Nəsib bəyi danlamağa qalxışanlardan ötrü bir şapalağdır.

Hökumətimizi bəy-xan hökuməti deyə nahəqq yerə töhmətləndirmək istəyənlər dəxi bu vəqə dolayisilə mənəvi bir zərbə yedilər, zənn edirəm. Çünki Nəsib bəyin istefasına qarşı protesto sədalarını çıxaranlar, bəylər və xanlar degil məmləkətimizin demokrat və füqərayi-kasibə sinfidir. İndiyə qədər nə bir bəydən və nə bir xandan Nəsib bəydən yerində qalsun deyə bir səs, ya bir arzu eşitmədik. Halbuki hökumətimiz vaqeən bəy-xan hökuməti olsa idi bu istefadən dolayi təlaş və əndişələrə düşənlər dəxi bəylər və xanlar sinfi olardı, nəinki demokrat və füqərayi-kasibə.

Nəsib bəy nə üçün istefa etdi? Onun üçün ki, socialist fraqsiyasının yersiz çıxışı onun qəlbini sındırdı.

Bir adəm ki, ağır şərait içində yaman günlər keçirməkdə olan vətənin zamani-idarəsini əlinə alub məsuliyyət yükünü üzərinə götürə və boylə nazik bir zamanda müdəbbiranə bir siyasət yeridub də vətəni nəinki təhlükələrdən qoruya, hətta həman qan tökməkdən, qurban verməkdən böyük-böyük siyasi müvəffəqiyyətlər qazandıra, həlli dedikcə müşkül olan məsələləri kəmali-sühulətlə həll edə, bizi təhdid edən təhlükələri bər tərəf edib mövqeyimizi biganələr nəzərində möhtərəm bir halə sala, o adəm bir bu qədər müvəffəqiyyətlərdən sonra heç olmasa bir quru "çox sağ ol" də eşiməyib onun əvəzində nahəqq yerə təkdirə məzəmmət və məlamətlər dinləməgə məcbur olarsa, əlbəttə, onun qəlbi sınıb rəncidə xatir olar.

Bu fəqərə istefanın psixoloji səbəbidir. Lakin səbəbi istefa yalnız bundan ibarət olmuş olsa idi.



Nəsib bəyi hissiyyata qapılmağla ittiham edub sögülsən də dögülsən də sən öz vəzifəndə sabitqədəm olmalısan deyən olardı. Fəqət digər bir səbəb dəxi vardır ki. o da parlamantarizm rəsmiyyətinin pozulmasıdır. Boylə ki, sosialistlər sorğusunun nəticəsində Nəsib bəy kobinəsinə etimat göstərən dimək olar ki, yalnız bir "Müsavat" fraksiası oldu. Doğrudur, bu etimad əksəriyyət arada qazandı və kabinə istefasına səbəb qalmadı, lakin Nəsib bəy kabinəsi təşkilində öz adamları vasitəsilə iştirak edib, əvvəlcə bu kabinəyə etimad göstərənlərin birdən dönüb də xilafgiranə bir vəziyyət almaları, əcayib-qərayibligi bir tərəfdə dursun, hökumətin istinad edəcəgi parlaman əksəriyyətligini pozub istinadgahi xələldar etdi. Boylə ki, əvvəl də Nəsib bəy kabinəsi düzəlirkən "Müsavat" sosialistlər və "Əhrar" fraksiyaları bu kabinə təşkili üçün adamlər verdilər.

Məsələn, "Müsavat"dan Nəsib bəy özü, Ağa Əminov[1] və Nəriman bəy, sosialistlərdən Aslan bəy Səfikürdli, Cəmo bəy Hacınski və "Əhrar"dan Aslan bəy Qardaşov və beləliklə, bu kabinə üçün istinadgah olmaq üzrə bu parlaman əksəriyyəti təşkil etdilər, lakin kabina işə başlayub bir bu qədər müvəffəqiyyətlərə nail olduğu bir zamanda ki, mövqe daha bərkimiş olmalı idi, sosialistlərlə "Əhrar" fraksiasi intizar xaricində olaraq birdən-birə xilafgir bir vəziyyət alub, istinadgahi laxlatdılar.

Nəsib bəy kabinəsinin istinad etdigi mövqeyi zəif görüb, istefa etdi, etdi ki, əgər təkrar seçilərsə, mövqeyini möhkəmlətsin, istinadgahını bərkitsin, yox, seçilməzsə, o başqa məsələ.

Keçən gün xəbər verdigimiz üzrə parlaman rəisi həzrətləri yeni kabinə təşkilini təkrar Nəsib bəyə həvalə etmişdir. Deməli, həqiqi Azərbaycan demokrat və füqərayi-kasibəsinin arzu və tələbləri bununla ishaf edilmiş olur.

Şimdi Nəsib bəy yeni kabinə düzəltməlidirlər. Bu kabinəyi təşkil edərkən, əlbəttə, təkrar sosialistlərə və ya "Əhrar"ə müraciət etməgə artıq məhəl qalmiyor. Çünki bu fraksiyalar öz sözlərinin üstündə dura bilmiyib, özlərini "komprumitə" etdilər. İndi ki, bunlar müxalifgirlik ixtiyar etmiş oldular, o surətdə Nəsib bəy kabinəsində iştirak edə bilməzlər və hətta xilafgirlikdən əl çəkmək istəsələr də yenə güman

yoxdur. Nəsib bəy bu vəqədən sonra təkrar bunlara bel bağlaya bilsun.

Ona görə təbiidir ki, parlamanın başqa fraksiyalarına müraciət etmək lazım gələcəkdir.

Zənn edilir ki, ümuri-idarə dövlət işlərinə sağlam bir nəzərlə baxub rast və müstəqim bir yol ilə iş aparılması tərəfdarı olanların kömək və müavinətlərinə istinad edib də parlaman əksəriyyətinin etimadına məzhər olacaq bir kabinə təşkili Nəsib bəy üçün bir o qədər də çətin olmayacaqdır. Ümumin arzusu budur ki, Nəsib bəy həzrətləri öz kabinəsini tezlik ilə düzəltdirub cümhuriyyətimizin idareyi-ümurinə əvvəlkindən daha artıq ciddiyyət və müvəffəqiyyətlərlə mübaşir olsunlar.



## DAĞISTAN HAQQINDA

Dağıstandan gələn xəbərlərə görə dabravollar əleyhinə qaldırılmış olan üsyan getdikcə kəsbi-şiddət və tövsiyi dairə edib umumşimali Qafqazın hər bir yerinə yayılmağdadır.

Üsyan, od tutmuş taylar kibi orada-burada alovlanıb ümumi bir yanğın meydanına dönmək təhlükəsilə Denikin idarəsini təmamilə məhv edəcək müdhiş bir hal kəsb etməkdədir.

Dərbəndin Teymurxan Şuranın işğalı Petrovskin təhlükəsi, Qroznının halı və sairə bu kibi dağıstanlılar müvəffəqiyyətlərini göstərən qüduatə aid xəbərlərdən anlaşıldığı üzrə dabrovollar böyük bir müşkilat içində olub, bu müdhiş qiyamı asan vəchlə və ola bilsin ki, heç bir vəchlə yatırda bilməyəcəkdirlər.

Bu vüquatın əsl sirri nədir?

Bəzilər deyirlər ki, Dağıstan ixtilalı, Denikin arxasında müşkülat törətmək və bununla Denikin qüvvətini pərişan və pərakəndəliklə zəif bir hala salmaq niyyətilə bolşeviklər tərəfindən icra olunan təşviqat nəticəsidir.

Digərləri bu ixtilalı dabrovolların dağıstanlılardan qoşun yığmaq, ağır vergilər almaq, əhaliyə dürlü-dürlü əziyyətlər yetirmək, qazaxları onların üzərinə müsəllət etmək kibi zalımanə və birəhmanə rəftar nəticəsi bilirlər.

O da, bu da doğru ola bilər vaqeən Denikin arxasında nə qədər böyük müşkilat əmələ gələrsə bolşeviklər üçün ünsiyyətdə yüngüllik hasil edilər. Bu üzdən Dağıstan üsyanını davam və tövsi etdirmək üçün bolşeviklər əlindən gələni müzayiqə etməzlər.

Və saniyən, dabrovolların məzalimi, baxüsus, qazaxların hədd və nəhayət bilməyən azğınlıqları və bu kibi müstəbdanə müamilə və zalimanə rəftar dəxi cana doymuş əhalini təngə gətirib üsyan və qiyama səbəb ola bilər.

Lakin arada bolşevik təşviqatı mövcud olmasa idi və dabrovollar Dağıstan əhli ilə adilanə müamilə və mülayim rəftar ilə dolansa idilər Dağıstan ixtilalı zühur etməzmi idi?

Biz bu zəndəyik ki edərdi və edərdi nə o səbəbə ki, Dağıstan əhli dinc durmazdırlar, xeyr, o səbəbə ki, bütün dünyanı çaxna-vaxnaya

salmış olan bu aləmşümul müharibədən sonra, köhnə adətlərin, çürük əsasların, qoxmuş üsulların təkrar ədası artıq mümkün degildir.

O köhnə adət, çürük əsas və qoxmuş üsullardan ən təhət mülkü-dazı, ən zəhləgedəni, ən mirdarı bir millətin başqa bir millət üzərində ağa olması, qəyyum kəsilməsi və sahiblənməsidir.

Aləmşümul müharibə nəticəsi olaraq əsir millətlər, baxüsus, rus istibdadi əsarəti altında inləyənlər hər növ ilə oldusa da azadlıq şər-bətinin şirinliyini datdılar. Və gördülər ki, müstəqil və qəyyumsuz yaşarkən əsarət sıxıntıları altından azad olub hər bir fərd öz vücu-dunda bir yüngüllük hiss edir, asudə nəfəs ala bilir. Hökumət öz hö-kuməti, qoşun öz qoşunu, məktəb öz məktəbi, öz dili, öz adəti, öz qaidəsi.

Buna, bu azadlığa və istiqlalə nail olmuş bir millət təkrar başqalar əlində qul və əsir olmağa razı olarmı?

Doğrudur, Dağıstan istiqlalı ümüməhalini təmini-məişət, əmnü-asayiş, nizam və qayda cəhtlər necə məmnun buraxacaq dərəcəyə gəlib yetişməmişdi. Hökumət və parlaman hələ fəaliyyətlərini o miqdarda biruzə verməmişdilər ki, istiqlalını elan etdikləri vətənlərini bugünkü Azərbaycan və ya Gürcüstan halına gətirə bilsinlər.

Fəqət, əvvəla, bu var ki, dağıstanlılara bütün münasilə müstəqil yaşamağa fürsət verмədilər, saniyən, Dağıstan istiqlaliyyətlərinə yaraşan bir tərz idarə qurulmasında mane olan bir çox xırda-xırda vəqələr bir tərəf edilməmişdi.

Lakin hər halda Dağıstan yeni həyat sahəsinə daxil olmuşdu, istibdad zülmətindən xilas olmuş ümuməsir millətlərin üzərinə doğan günəş, onları da qızdırmağa və nurlandırmağa başlamışdı. Və biz əminik ki, əgər Denikin Dağıstanı istila etməmiş olsa idi, bu gün Dağıstan dəxi Azərbaycan kibi azad və mürəffəhülhal bir məişət keçirməkdə olardı. Bacarıqsız hökumət düşərdi, əvəzində fəal, əzm-kar, sədaqətli bir hökumət əmələ gəlib məmləkəti müəyyən bir qay-daya salardı.

Dağıstan işğalı, Denikinin böyük bir xətası idi ki, bu gün haman xətanın acı məhsul və təhlükəli nəticələrini görməkdədir.

Təəccübdür ki, bu qədər inqilab, bu qədər hadisat çürük fikirli imperialistlərin əql və hislərində heç bir təsir icra edə bilməyib nə



başlarındakı fikri əskilikdən yeniliyə münqəlb, nə qəlblərindəki hisləri yamanlığdan yaxşılığa təbdil etdi.

Lakin, heyhat! Bu imperializm fikri degil, yalnız müstəbid rus generallarının başında hətta bu inqilabı törədən rus revolyusenerlərin xəyalını boylə işğal etməkdədir ki, hamısından təəccübrağı hər bir şeydən heyrətlisi budur.

Hər bir millət azad və müstəqil olmalıdır. Bu fikri nə bir rus irti-caperəst generalının, nə bolşeviklik edən rus mujikinin, nə də hansı firqədən olursa bir rus intiligentinin başına girdirmək mümkün olmayır.

Biz əminik ki, əgər Dağıstanı rus irticapərəstləri degil, rus bolşevikləri tutmuş olsa idilər, onlar dəxi dabrovollar kimi bugünki üsyanlar qarşısında əl-ayaq çalmağa məcbur olardılar.

Odur ki, bugünkü Dağıstan ixtilalı yalnız dabrovollulara qarşı üsyan degildir, istiqlallarının qəsb və ləğvinə qarşı müdhiş və qanlı bir etiraz və ümumimperialistlərə qarşı əzim bir protesto nümayişidir.

## DAXİLİ İŞLƏRMİZDƏN

Bu axır zamanlarda hökumət məmurları və baxüsus, polis adamları əhali ilə fəna rəftarlarda bulunub, tökmək, sökmək və rüşvət almaq kimi əməllərlə xalqı incidir və əhalini rəğbətdən salırlar, – deyə bir çox şikayətlər eşidilməyə başlamışdı. Əhali arasından çıxan bu şikayət parlaman kürsüsünə qədər yeriyib, hökumətin bu xüsusda ciddi tədbirlərinə səbəbiyyət verdi. O tədbirlərin başlıcası mülkiyyə baş müfəttişliyi təsis etməsidir.

Bu müfəttişliyin borcu ümummülkiyyə məmurlarının fəal və əməlinə göz yetirmək, bədəməl, bədrəftar, rüşvətxor, xain və xasirləri bilümum cəmaətə əziyyət verən, xalqı incidən məmurları iş başından kənar edib, günahkarları yorunca məhkəməyə sövq etmək və bununla heç bir sui-istemalata yol verməməkdir.

Rus istibdadı zamanında polis məmurları əhalinin qənimi və yağısı idi. Əhali polis əhlinə qorxusundan hörmət göstərərdi. Lakin bu qorxu əvvəla əmnü-asayişi təmin etməzdi. Oğrular, əgrilər, polis məmurları ilə əlbir olduqlarından, rüşvət verdiklərindən soyğunçuluq, xırsızlıq öz qaydasilə hökmfərma idi. Və saniyən, bu qorxu bir çox vəxt cüzi bir təqsir üzündən nə qədər adamları qaçaqçılıq halına salıb, özünü də, özgələri də fəlakətlərə məruz qoyardı. Polis boylə bir zəmdə idi ki, onun vəzifəsi əhalinin baş və bədəni üzərinə şallaq çəkməkdən və rüşvət almaqdan ibarətdir.

Fəqət azad və müstəqil Azərbaycan hökumətində boylə bir əcayib vəzifəşünaslığa yol verilməməlidir. Polis əhli öz vəzifəsinin fəsl mənasını dürüst bilməli və dərk etməlidir. Onun doğru-dan-doğruya vəzifəsi əhalinin canını, malını, şərəf və heysiyyatını hər bir təcavüzdən qorumaq və dövlət qanun və qaydalarını cəmaət arasında icra edilməsinə çalışmaqdır. Əhali polis məmurlarını qorxu üzündən deyil, onu təcavüzlərdən qoruyan bir mühafizə, bir qoruqçu sifətilə layiqi-ehtiram bilməlidir.

Mülkiyyə baş müfəttişliyinin idarəsi – hökumətin müsib və məqul bir tədbiri nəticəsi olaraq doğrulu və sədaqəti ümumca şək və şübhə xaricində olan mötəbər və müqtədir bir zata tapşırılmışdır. Bu



zat bütün Azərbaycanca məşhur, millət və vətən məhəbbətilə məruf və bu yolda həbsxanələr bucağında can çürütməyə varıncaya qədər fədakarlıqlarda bulunmuş olan möhtərəm Faiq əfəndidir. Mühüm və mühümlüyü qədər də məsuliyyətli olan boylə bir idarənin başında Faiq əfəndi kibi etibar və etimadi-taməyə layiq olan adamları görər-kən qəlbimiz mütməin olmaqla gələcəyə nikbinanə bir nəzərlə baxmağa əsasımız olub, qəlbimiz dəxi fərəhlənir.

Möhtərəm Faiq əfəndinin vəzifəsi dedikcə ağırdır. Vicdan qar-şısında dövlət nəzərindən də camaətəndindəki də ki, məsuliyyəti təsəvvür etdikcə böyükdür. Milisionerdən tutmuş ta qubernatorlara qədər hər kəsə göz yetirmək bir-birinin əməlinə diqqət vermək, sui-istemalat vaqe olduğu halda onu heç bir hissiyata qapılmadan, xətər gözləmədən, özünə düşmən qazansa da həqqı-nahəqqa verməkdən tədqiq və təhqiq etmək, dövlət mənafei hər bir şeydən əziz tutan Faiq əfəndi kimi qiymətli zatların əlindən gələ bilər. Bu üzdən cavan cümhuriyyətimizdə məmurlar sui-istemalatına heç bir vəchlə yol verilməyəcəkdir və bundan dolayı vaqe olan şikayətlərə məhəl qalmayacağına əmin olduğumuzu bir təbşir surətində xəbər verə bilərik. Lakin hökumətimizin nəzərdiqqətini bir cəhətə cəlb etmək istərdik.

Bir var ki, məmur, təftişdən qurtarmaq vəzifəsində sui-istemalat icrasına cəsarət etməz, bir də var ki, öz təbiyyəti və öz tərbiyyəsi sövq ilə hər bir bəd əməl və fəna hərəkətlərdən ictinab ilə özünü saxlamağa qeyrət edər. Məmurun qorxutmaq yolu ilə öz vəzifəsində doğruluq göstərməsinə mülkiyyə müfəttişliyi təsisi ilə cəhd edər, hökumət onlardan bir paralarının təlim və tövsiyyəsinə də icrai-təsir edə bilər ki, bu yol ilə də sui-istemalat rəf olub getsin. Məsələn, polis və jandarma məmurları üçün xüsusi məktəblər açmaq yolu ilə elmli və tərbiyyəli milis və jandarmalarımız olub, əhali bir çox nahəqq söyüşdən-döyüşdən, təhqir və təkdirdən azad olmaqla bərabər milis və jandarma vəzifələri dəxi layiqli və lazımlı bir surətdə ifa olunar. Baxüsus, boylə məktəblərdə polis və jandarma vəzifələrinə aid olan dərslərdən əlavə dərs alanlarda milli ruh, milli tərbiyə və vətən-pərvərlik hissi oyadacaq və tərbiyə edəcək sözlər və söhbətlər irad

edilərsə boylə bir tərbiyə nəticəsi olaraq dövlət və millətpərəstlik sevgilə vəzifəsi başında duran kiçik məmurlara malik olmağımızla cavan cümhuriyyətimizə böyük xidmətlər göstərmiş oluruq.

Biz zənn edirik ki, bu yolda çalışmaq, yəni polis və jandarma məktəbləri açılmasına səy etmək möhtərəm Faiq əfəndinin doğrudan-doğruya vəzifələrindən biri və mühümüdür. Ona görə bu yolda Faiq əfəndinin lazım olan təşəbbüsata girişməyini və girişib də bu mühüm əmrə müvəffəq olmaqlarını ümüdvar olduğunun hörmətin bu yolda Faiq əfəndiyə kömək edəcəyin şəkkimiz ola bilməz.



## NƏYƏ ÇALIŞALIM

Yevropa sülh konfransına göndərmiş olduğumuz mürəxxəslərdən hərdəm bir alınan məlumatdan boylə görünür ki, sabiq Rusiya dövlətindən ayrılmış və elan istiqlal etmiş millətlər məsələsinə hələlik baxılmaqdadır. Bu məsələ ümumrusiya məsələsilə əlaqədar olduğundan təbii o məsələ sırasında baxılacaqdır. Sonraya gəldikdə görünür ki, sülh konfransı əvvəl-əvvəl məğlub dövlətlər məsələsilə məşğul olub axırda qalib dövlətlərin paylaşmaq və hesablaşmaq işinə keçəcəkdir. Məğlub dövlətlərdən Almaniya Avstriya və Bolqariya haqqında sülh konfransı öz qərarını təyin və məlum etmişdir. Bugünki sırada Türkiyə məsələsidir ki, bir tərəfdən Türkiyənin aləmi-islam nəzərində haiz olduğu mövqe və digər tərəfdən Yevropa dövlətlərindən hər birinin bu məsələnin o və ya bu tövr həlli ilə əlaqədar olan mənafeinin bir-birinə ziddiligi bu Türkiyə məsələsini həlli müşkül bir vəziyyətə salur.

Bu müşkül məsələdən başqa süqh konfransı qarşusunda digər bir məsələ dəxi var ki, onun həlli çox çətindir. Bu da Rusiya məsələsidir.

Əvvəla bu gün "Antanta" tərəfindən tanınmış bir Rusiya yoxdur. Bolşevik Rusiyası Yevropaca tanınmıyor. Kolçak və Denikin Rusiyası ilə müəyyən və məlum degildir. Deməli, "Antanta" tərəfindən qəbul ediləcək bir Rusiya meydana çıxmıyınca, sülh konfransı qarşısında Rusiya məsələsi ərz vücud edə bilməyəcəkdir. Binaən əleyh istiqlal elan etmiş millətlər məsələsi də əgər Rusiya məsələsilə əlaqədarlığı baqi qalarsa, yəni xüsusi bir məsələ şəklinə girməzsə, hələlik bağlamıyub qalacaqdır.

Fəqət hər halda bundan oylə bir nəticə çıxarmamalıdır ki, Yevropa dövlətləri sabiq Rusiya toprağında elan istiqlal etmiş olan millətlərin müqəddəratına, halına siyasi və iqtisadi əhvalına hələlik bir nəzər belə atmağ istəmiyorlar. Biləks, ingilislərin, fransızların, italyan və amerkanlıların Qafqaza gəlib də buradakı cümhuriyyətlərlə əlaqələr peydasına girişmək təşəbbüslərindən aşkardır ki, bu dölətlərdən hər biri, gələcək məsələlərin həllindəı öz mənafelərini təmin etmək üçün indidən işə vüquf yetirmək, mənafeləri nöqteyinəzərindən məsələdən kəmalınca xəbərdar olmağ, məsələnin müsbət

və mənfi surətdə həllindən yəni, arzularımızın rəd və ya qəbulunda nə zərər və nə mənfəət hasil olacağını bilmək istəyirlər.

Əlavə bu millətlərin istiqlal elanına bir əmr vaqe kimi tələqqi, hətta müamilə və münasibətlərini müstəqil dövlətlərə yaraşan bir rəsmiyyət üzrə icra ediyor və hər halda nə üçün elan istiqlal ediniz, - deyə məzəmmət və təkdir etmiyorlar.

Biləks, istiqlalın qəbul və təqviyyəsinə kömək edəcəklərini vəd ilə ümidlərimizi artırıyorlar.

Buna görə bu gün bizə lazım olan o degil ki, sülh konfransının bizi rəsmən təsdiq edəcəgi intizarilə boş oturub da növbətimizi gözləyək. Biz bu yoldakı səy və təlaşımızı işin bu cəhətinə sərf etməliyik ki, Yevropa dövlətləri bizim məsələmizi Rusiya məsələsi ilə əlaqədar etməyib xüsusi və müstəqil bir məsələ şəklində qəbul və öyləliklə də məsələnin həllinə ibtidar etsinlər.

Bu məqsədə nail olmaq üçün o iş ki, məhləndə lazımdır, onu burada görürük və boylə də müvəffəqiyyətlər dəxi qazanırıq. Boylə ki, vətənimizə gələn Yevropa nümayəndələri cühuriyyətlərimizi mükəmməl, müntəzəm, qanun və qaydalı əmnü-asayişli, nəhayət, qoşunlu və qüvvətli bir dövlət halında görüb, müstəqil yaşamağa nə dərəcə haqlı olduğumuzu rəsmən olmasa da əqlən və qəlbən təsdiq ediyorlar. Əlavə bizimlə əlaqə bağlamaq, iqtisadi və ticarəti münasibətə girişməgə dəxi nə qədər mail olduğlarını aşikara bildiliyorlar. İndi lazım olan budur ki, Yevropanın nəinki yalnız bir məhafili-siyasiyəsi, bəlkə cəmaəti və cəmaətin irayi ümumisi dəxi bizim istiqlal məsələmizə laqeyid qalmayıb, hamımıza marağ yetirsinlər və bu əmr-vaqe səthi bir nəzərə layiq, əhəmiyyətsiz bir vəqə kimi baxmayıb ciddi və dərin bir nəzər yetirsinlər və müstəhəqq istiqlal olduğumuzu degil, yalnız bir "teoretik" bəhslərlə, bəlkə coğrafi vəziyyətimiz, etnoqrafi xüsusiyyətimiz və baxüsus, yevropalıları pək maraqlandıran ekonomi halımızla dərk və təsdiq etsinlər. Bu yolda, baxüsus, Fransa əfkari-ümumiyyəsinə icra təsir etməgə çalışmaq lazımdır, çünki bu məsələyə hamıdan az əhəmiyyət verən məsələni Rusiya müqəddəratı ilə sıxı bir əlaqə görən fransızlardır.

Bu iş isə, yəni Avropa və bilxassə Fransa əfkar ümumiyyəsinə icrai-təsir etmək işi Parisdə oturan mürəxxəslərimizin vəzifəsidir.



Biz Parisdəki mürəxxəslərimizə sifariş etməliyik ki, sülh konfransının təsdiqi intizarına sərf edilən vaxtdan istifadə edib də buraya əfkar ümumiyyəsindən təsdiqnamə almağa çalışsınlar.

Əgər buna müvəffəq olarlarsa, o halda sülh konfransının bizi qəbul edəcəgindən təmin edilmiş oluruq.

## MÜHÜM MƏSƏLƏ

Keçən səfər parlamanın sosialist fraksiyası təklif etdi ki, parlamanın gələn növbəti iclasında (yəni bu gün) yer və topraq məsələsi ruznameyi-müzakiratda birinci sıraya qoyulsun.

Sosialistlərin intizarı xaricində olaraq Müsavat və sair fraksiyalar dəxi bu təklifə razı olmaqla təklif əksəriyyət ara ilə qəbul edildi.

Yer və topraq məsələsi mühüm bir məsələdir. Qədim romalıların "patriç" və "plebey"lərini andıran bugünə qədər əhalinin – biri mümtaz, digəri qeyr-mümtaz olmaq üzrə iki sinfə ayıran "bəy" və "rəiyyət" kəlmələri, zatən yer və toprağın qeyr-mütəsavi bir surətdə bulunmasını və ədalətdən kənar tərzi-təməllükini ifham edən sözlərdir.

Yer və topraq məsələsi Yevropa sosioloji elmlərinin çoxdanbəri fikrini məşğul edən ictimai bir məsələdir ki, bilaxirə siyasi firqələrin proqramına dəxi daxil edilib, bunun həlli və çarəsi həqqında hər firqənin xüsusi bir nəzəri vardır.

Əvvəlcə ixtilaf əsası üzərində idi. Yəni yeri bərabər olmaq üçün bir çoxlarının xüsusi mülkiyyətlərinə əl vurmaq və mülk olduğu yeri əlindən almaq caizdirmi və ya deyilmi məsələsi üstündə ixtilaf vardı. Lakin bugünə qədər davam edən inqilablar nəticəsi olaraq bu ixtilaf həman aradan götürülüb bu gün bütün demokratik firqələrin cümləsi yer və toprağın bərabərcəsinə bölünməsi tərəfdarıdırlar. Və arada bir ixtilaf varsa o da "bədəl ilə" və "bədəlsiz" sözünün üzərindədir. Bəziləri deyirlər ki, yeri özgələr arasında təqsim edilmək üçün əlindən alınan şəxsə bu maddi ziyan və zərər əvəzində bədəl vermək lazımdır. Digərləri isə, məsələn, sosialist firqələri bədəlsizligi iltizam edirlər.

Azərbaycan Cümhuriyyətində mövcud olan siyasi firqələrin istər sosialist, istərsə qeyri-sosialist yer və topraq proqramı əsl və əsas etibarilə həman bir-birinin eyni olub fürüatında mövcud olan ixtilafları da bu firqələr arasında münaqişə sala biləcək mahiyyətdə qəliz degildir.

Bundan aşkardır ki, yer və topraq məsələsi Azərbaycan Cümhuriyyətində "bərabər təqsim" əsasilə həll edilib bu xüsusdəki siyasətimiz hökumət tərəfindən sadir olacaq qanun və qaydalar da bu əsasa muvafiqət edəcəkdir.

Bir çoxları var ki, yer və topraq məsələsinin bu yollu həlli məmləkətimizdə bir çoxlarının baxüsus bəy və xan sinfinin narazılığını



mucib olub da anarşi törətməsinə səbəb ola bilər deyə əndişələrə düşürlər. Boyləri də yox degil ki, zatən məmləkətimizdə anarşi törətmək və bunun sayəsində xüsusi məqsədlərini yeritmək üçün yer və topraq məsələsinə bir vasiteyi-ixtişaş ümidilə baxırlar.

Fəqət Azərbaycan dövlətinin bugünkü yer və topraq işləri yəni "aqrarya" haləti sair məmləkətlərə nisbətən öylə bir kəskin vəziyyətdə degil ki, birincilərin əndişəsinə və ikincilərin ümüdünə məhəl vermiş olsun.

İş burasındadır ki, bu məsələ üzərində bizdə "sinif mübarizəsi" əmələ gələ bilməz. Çünki bizdə "bəy və xan" sinfi bu topraq və mülkiyyəti cəhətcə "rəiyyət" qismindən bir o qədər məfövq degildir. Bu saat bizlərdə bəylər və xanlar var ki, yalnız bir quru addan başqa heç bir şeyə malik deyildir. Bunlar Haqverdili cənablarının məşhur "Dağılan tifaq"ında[1] ustadanə bir surətdə təsvir edilən səbəblər nəticəsi olaraq hər nə mal və mülkləri varmışsa hamısını satmaq və başqa bir yol ilə əldən buraxmaq məcburiyyətində bulunub varyoxdan çıxıbdırlar. Digər tərəfdən "rəiyyət" denilən adamlar vardır ki, böyük yerlərə – mal və mülkə malik olub rus təbirilə "qulaq"[2] adlanan boylə bir sinif təşkil edəcək dərəcədə mahiyyət ədədiyyələri vardır. Xırda kəndçilərin dəxi hər kəsin özünə məxsus az-çox yeri olub və ancaq bunlardan bir paraları alati-ziraəyə və işçi heyvanatdan məhrum olduğlarına görə özgələrə də istər bəy olsun, istər "qulaq" olsun rəncbərlik edib bu yol ilə imrari-həyat ediyorlar.

Əlavə bir bölünmək işinə gəldikdə vətənimizdə rusdan qalma bir çox münbit və qeyr-münbit yer dəxi o qədərdir ki, yer məsələsi həll edildikdən sonra hər kəsin, hər ziraətçinin böyük vüsətdə yeri olacaq. Narazı qalan olsa da yalnız artıq təməlik sauqəsilə baş verə biləcəkdir.

Bu üzdən ümid etməlidir ki, bizdə aqrarya islahatı fələn həyatımıza tətbiq edilərkən azarsız bir surətdə keçib heç bir şuluqluğa və sair bu kimi vaqeələr ehdasına məhəl qalmayacaqdır.

"Aqrar"ya əhvalımızın kəskin deniləcəyi qədər bir cəhəti varsa o da yalnız bir su məsələsidir ki, indiyə qədər ziraətçılar arasında istər bəy, istərsə də qeyr bəy hər nə münaqişə olmuşsa yalnız bu məsələ üzərində vaqe ola gəlmişdir. Əgər su xüsusi mülkiyyət təhtindən azad

edilib də ümumyən istifadəsinə verilmək üçün dövlət malı olarsa məsələ zənn edirik ki, bununla bitmiş hesab olunar.

Hər halda yer və topraq məsələsi mövcud olan xüsusi malikiyyət tərzi-idarəsini aradan götürməklə arada böyük bir ictimai təhəvvül və başqa bir idarə əmələ gətirəcəgindən mühüm bir məsələdir. Boylə olan surətdə bu mühüm məsələni parlamanımız heç bir hazırlıqlara girişmədən həll edə bilərmi? Yaxşı olmazmı ki, bu vacib məsələni camaət tərəfindən vəkalət və ixtiyarı bugünki parlamandan daha artıq və daha geniş olan məclisi-müəssəl həll etsin?



## RUSİYA ƏHVALI

Rusiya işlərinin surəti sanki bəlli olmaq üzrədir.

Sovetski hökuməti ilə Denikin, Kolçak[1] və sairələri arasında indiyə qədər davam edən müharibədə kimin qalib və kimin məğlub olacağını təxmin etmək bugünə qədər çətin idi. Kolçakın bolşeviklər tərəfindən yediyi həzimətlər, Denikinin bolşeviklər üzərindəki müvəffəqiyyətləri ilə təlafi edilməklə vəziyyəti-ümumiyyə dəyişməyirdi. Bolşeviklər də müqabil tərəfdə bir tərəfdən basıb, digər tərəfdən basılmaqla hər iki tərəfin hal və övzai-tərazu gözləri kimi əlaüssəviyyə idi.

Lakin bugünlər ərzində vüqu bulan hadisələr, yəni bolşeviklərin cənub tərəfdən düçar olduqları böyük həzimətlər və bu həzimətlər dolayisilə sövqəlceyş nöqteyi-nəzərindən pək əhəmiyyətli sayılan bir çox yerlərin əldən getməsi, baxüsus, ümdə istinadgah olan Moskvanın süqutunu təhdid edən təhlükə bolşeviklər halını fəna bir vəziyyətə qoyub aliheyi-hərbiri müqabil tərəfə ruyi-himayət döndərdiyini göstərmək üzrədir.

Hal və övzalarının fəna və təhlükəli olduqlarını bolşeviklər özləri də etiraf etməkdə və ona görə də cürbəcür çarələr aramaq təşəbbüslərinə girişməkdədirlər.

Taleyi-hərbin o tərəf və ya bu tərəfə dönməsi mövcud şəraitin müsaidə ilə bağlıdır. Doğrudur, bu yolda lütfi- təsadüf dəxi hərb taleini o tərəf və ya bu tərəfə döndərəcək bir amil mahiyyətinə haiz ola bilər. Fəqət bu boylə təsadüflər nədir, ta vüqu bulan bir şeydir. Əsil mətləb tərəfinin hamil olduğu şəraiti-mövcudənin müsaid və qeyri-müsaidliyindədir.

Birini qalib və digərini məğlub halına salan bu şərtlər isə hər tərəfin daxili və xarici vəziyyətindən törənər. Əgər daxili və xarici vəziyyət müsaidkar isə, müsaid şərtlər törənər, vəilla iş əksinə olar.

Həman hər tərəfdən əhatə olunmuş, hər yerdən yolları kəsilmiş, mənabeyi-həyat əldə ediləcək bir çox yerlərdən əli üzülmüş olan bolşeviklərin daxili işləri getdikcə fənalaşmaqda idi. Aclıq, əmrazu-sariyə bunun üzərinə əlavə olunan sui-idarə, zalımanə rəftar, ədalətsiz işlər, bunlar hamısı bolşeviklik daxilini hərc-mərc bir hala salmaqda və bu halın fənalığı getdikcə tərəqqi etməkdə idi.

Müqabil tərəfin daxili vəziyyəti isə müntəzəm deyiləcək dərəcədə degil idisə də, hər halda bilnisbə yaxşı idi.

Xariçi vəziyyətə gəlincə, bu xüsusda Denikin və kolçakların işləri bolşeviklərinkindən neçə qat müsaidəkar olduğunu bilmək üçün yalnız bu kafidir ki, bolşeviklərə tərəfdar olan ancaq bolşeviklər özləri idi. Halbuki bütün "Antanta"[2], yəni qalib dövlətlər, Denikin və Kolçaka müzahirət göstərib nəinki yalnız bir mal azuqə, sursat, hətta can ilə də kömək verməl追ərində bugünə qədər davam edirlər.

İbtidada bolşeviklərin dəxi ümid nəzərləri Yevropa məfində olub, özləri üçün kömək gözləmədə idilər. Lakin gözlədikləri kömək maddi və cismanidən artıq mənəvi kömək idi, yəni bolşeviklər bu zəndə idilər ki, Yevropa dövlətlərinin millətləri, baxüsus, sosialist firqələri dəxi öz məmləkətlərində bolşevikvari inqilablar törətməklə Rusiya bolşeviklərinə müzahirət göstərib hər bir maniələri məhv imha edərlər. Məğlüb dövlətlərdən Almaniyada vaqe olan "Spartak"[3] və Maçarıstandakı bolşeviklik hərəkatı rus bolşeviklərinin ümidlərinə o dərəcə cəsarət vermişdir ki, artıq bütün dünya bolşevik olacaq deyə öz-özlərinə təminat verməkdə idilər. Kolçak həzimətlərinə təsadüf edən o zamanlarda rus bolşeviklərinin ruhi yüksək və başları da qürur ilə dolü olduğundan heç nəyi və heç kimsəyi belə tanımaq istəmirdilər. Belə zənn olunurdu ki, heç bir qüvvət və heç bir cümhuriyyət bu bolşevikləri təqib edə, gəldikləri məsləklərindən döndərə bilməz və bunlar məsləklərinə toxuna bilən heç bir "kompromis" və ya başqa bir növ etilaflara ruyi-riza göstərməzlər.

Bolşeviklərin heç nəyinə inanmasaq da, heç olmasa məsləklərindəki səbat və istiqamətlərinə bir növ qənaətimiz var idi.

Lakin bu axırkı həvadis dolyısilə bu qənaətin də yanlış olduğunu etirafa məcburuq. Əvvəlcə hər kəsə meydan oxuyan, heç bir kompromisə razı olmayan, heç bir növ etilaf, müahidə və şərtə meyl göstərməyən bolşeviklər, Yevropa millətlərinin bolşevikliyə rəğbət və həvəsindən və əlhasil məzahirətindən məyus olub və taleyi-hərbin bunlardan üz döndərdigini görüb nə edirlər? Nə kimi çarələrə təvəssül edirlər?

Hər kəs ilə hər bir etilafa girməyə, şərtlər bağlamağa və hər növ güzəştlərdə bulunmağa razı və hazır olduqlarını elan edib, boylə hallarda mötad olan ən adi çarələr təvəssütünə əl aparırlar. Kapitalist dövlətlər ilə müahidə əlaqələrinə girməyə və Rusiyadan ayrılmış olan yeniyetmə dövlətlərin istiqlalını tanımağa razı olurlar...

Qərəz, məqsədimiz bolşeviklərin fəlakətlərinə qarşı zəhrxəndəlik degildir. Ancaq səbatməslək və istiqamət məzaclarında heç bir fövqəladəlik olmadığını bildirmək idi. Çünki əgər bugünkü "güzəşt"lər gələcəkdəki "müvəffəqiyyət"lər xatirəsi üçün isə, bunda da bir fövqəladəlik olmayıb, ən adi və əlalümya cari bir politika yoludur.

Əsl mətləb bundadır ki, bolşeviklərin məğlubiyyət və süqutu və irticapərəst denikinçilərin müzəffəriyyət və süudi, Rusiyadan ayrılmış və elani-istiqlaliyyət etmiş olan yeni cümhuriyyətlər üzərində nə növ təsir icra edə bilər?

Bu təsirin fənalıq və ya iyiliyi, yəman-yaxşılığı denikinçilərin yeni çümhuriyyətlər haqqındakı məslək və münasibətinin müsbət və ya mənfiliyinə mərbutdur.

Denikinçilərin bu yoldakı məsləki müəyyəndir və bu müəyyən məslək mənfidir. Öylə olan surətdə bunlar istiqlalımızın bədxahıdırlar. Bədxahlarımızın müvəffəqiyyət və müzəffəriyyəti bizə və başqa yeni doğma cümhuriyyətlər üzərində hüsni-təsir buraxa bilərmi?

Ancaq burası var ki, iş əksinə olsa idi, yəni bolşeviklər basıb, denikinçilər basılsa idi, bunun da bizim üzərimizdə hüsn-təsiri olmazdı. Çünki denikinçi Podşibakin "vahid Rusiya Bakısız yaşayamaz" dediyi kimi, bolşevik Nərimanov dəxi Sovetski Rusiya Bakısız yaşayamaz deyir. Və bu gün onların da, bunların da dil dəyişdirmələri, yəni bizə guya "xeyirxah" görünmək istəmələrinin adi bir politika olduğunu gözəlcə bilirik.

Odur ki, bu məqamda "hər tərəf koşte şəvəd mənfəəti-islam əst"[4] demək olmaz, çünki müharibələrdən hansı birisi qalib gələrsə düşmənini basandan sonra bizim üzərimizə gəlməyə və "üsyançı" olmaq "sərgüzəştlik" etməyimizə görə cəzamızı verməyi sıradakı vəzifəsindənədd edəcəkdir.

Əgər Rusiya bolşevikləri bu gün bizə dedikləri sözləri ki, "biz heç kəsin yerini əlindən almaq istəmiyoruz" özləri üçün əvvəldən bir şüar ədd edib də əsir millətlərin istiqlalını mərdi-mərdanə tanımış olsa idilər, şübhə yox ki, bugünkü zərurət məqamında böyük, məzahirətlər görmüş olardılar. Lakin vaxtında bunu etmədilər, biləks

istiqlal əvəzində xarabazarlar vəd edib də qatı imperializm yolunu ixtiyar etdilər.

Bugünkü vəzifəmiz Rusiya işlərinə kənardan baxmaq və Rusiya daxilində vaqe olan hadisələrə qarşı bitərəf qalmaqla bərabər, oradan bizi təhdid edən təhlükələrdən özümüzü qorumaqdır. Yeni cümhuriyyətlərdən Azərbaycan olsun, Gürcüstan olsun, Ukrayna, Litva, Estlandiya, Finlandiya, qərəz, özgə bir məqsəd təqib edən Ermənistandan başqa bütün hamısının fikri ancaq budur: Rusiya işlərinə qarışmamaq və Rusiya təhlükəsindən qorunmaq. Təhlükə bolşevik tərəfindənmi və ya Denikin tərəfindən vaqe olacaqmı, bizdən ötrü təfavüt yoxdur, qorunmaq və hər bir vasitə ilə istiqlalımızı mühafizə etmək, vəssalam!



## SƏMİMİYYƏT LAZIM

Daşnak firqəsinin naşiri-əfkari olan "Araç"[1] qəzetəsi Azərbaycan ünvanına təəllüq etmək uzrə bir məqalə yazmışdır ki, bir tərəfdən təhdidamiz və digər tərəfdən etilafcuyanə bir lisanla Ermənistan və Azərbaycan munasibətinə təsir etmək istəyir.

Bu məqaləni "Araç"a yazdıran fəqərə, bir taqım şayiələr imiş ki, guya Azərbaycan hökuməti Zəngəzur tərəfə qoşun taqımları yığıb bura ermənilərin üzərinə müharibə açmaq fikrində imiş.

Qəzetə deyir ki: "Bu xəbərlər doğru olduğu təqdirdə ermə-ni-müsəlman millətlərinin yeni bir imtahan qarşısında qalacaqları naçardır. Azərbaycanın Zəngəzur haqqındakı dəstdirazlığı iki dövlətin biri-birilə müsadimə və çarpışmasını müntəc olacaqdır. Zira Ermənistan Zəngəzuru heç bir halda müdafiəsiz və tənha qoymaz və əlində mövcud olan bütün qüvvətilə Azərbaycan iqdamatına qarşı müqabilədə bulunar".

Boylə bir "xox gəldi" təhdidatdan sonra qəzetə, mötadi uzrə, dilini dəgişib Ermənistan hökumətinin "məzayai –sülhcüyanə"sindən bəhslə deyir ki: "Erməni Cumhuriyyəti bütün ixtilaflı hüdud məsələlərini beduni-cəbr müvafiqət mütəqabilə yoluyla hələ razıdır. Qonşuları həqqındakı politikası əvvəllərdə də boylə olduğundan indi də eyni fikirdədir. "Məmafih, mübahisələr cəryana əksər ovqat kəskin bir hal kəsb edib də müsəlləh müsadimələrlə nəticəpəzir olursa, qəbahət hər halda Ermənistanda degildir".

"Araç" qəzetəsinin fikrincə, Böyük Vedi,[2] Naxçıvan, Sürməli[3] və sair bu kimi yerlərdə erməni qoşunu tərəfindən icra edilən qırğın və qətlin səbəbləri xantəkinskilər[4] olub, onun da qəbahəti Ermənistana aid degilmiş. Boylə olan surətdə, bu gün, sabah Zəngəzurda da erməni qılıcı işə buraxılacaqsa, bunun da təqsiri Ermənistan hesabına yazılmayacaqmış. Məqalədən əz cümlə bu da məlum olur ki, Zəngəzur, Ermənistanın cüzi layənfəki imiş. Əlavə məqalədə daşnakların iqtizai-təbiəti olan yalançılıq və iftiralığının gözəl bir məsəli olaraq, Azərbaycanda yaşayan ermənilərin "qaragün"larından bəhs edən bir şikayət dəxi vardır.

İstər bu şikayət, istər Ermənistanın "qəbahətsizliginə" aid olan boş və yalan sözlər, cavaba cərh və təkzibə layiq olacaq bir qiymətdə degildirlər. Zatən, daşnakların yalan və iftiralarını rədd və təkzibə ehtiyac yoxdur, çünki onlara inanan və etina edən bir şəxs boylə təsəvvür olunmaz həqiqət hali-cərəyan edən vaqiələr daşnak güruhunun yalan və iftiralarını daima əyan və aşkar etməkdədir.

Ermənistanın "təmayülati-sülhcuyanəsi" həqqındakı bəhsə gəlincə bizə bilümum qafqazlılara burası gözəlcə məlumdur ki, Gürçüstan, Ermənistan və Azərbaycan arasındakı ixtilaflı hüdud məsələlərini itlaf və müvafiqət mütəqabilə yoluylə həll etmək üçün Azərbaycan və Gürcüstan tərəfindən dəfələrlə vaqe olan təklifləri rədd ilə Qafqaz millətlərinin istirahət və asayişini xələldar edən Ararat hökuməti idi.

Gürcülər üzərinə müharibə açan, Qarabağı qan ocağına döndərmək istəyən "türklər düşməni-əbədimizdirlər", deyən erməni, müsəlman arasında daimi bir xüsumət ibqasına çalışan Naxçıvan, Şərur, Sürməli fəcayeyi-rəzilanəsini yapan və yapdıran bir hökumətin itlaf və müvafiqət meylinin səmimiligini etibar etmək mümkündürmü?

Əlavə Azərbaycanın hər bir məntiq hökmüncə ayrılmaz bir hissəsi olan Zəngəzur həqqında Ararat hökumətilə nə müvafiqət ola bilər? Bu xüsusda Ararat hökumətinə yalnız bunu demək lazımdır ki, ayanlarınızı, casuslarınızı Zəngəzurdan dəf ediniz!

Bizə gözəlcə məlumdur ki, əvvəlcə Qarabağın hər bir tərəfinə saldırılmış və Azərbaycan ermənilərinin məişətlərini özlərinə həram etmiş olan Ararat və daşnak müşəvviqləri Qarabağ ermənilərinin 7-ci yığıncağı nəticəsində düçar olduqları mənəvi bir həzimətdən sonra artıq o tərəflərdə dəvam gətirə bilməyib qaçdılar və qaçıb da dairə fəaliyyət olmaq üzrə Zəngəzuru ixtiyar etdilər. Bu gün Zəngəzur tərəfində müsəlmanların mal və canına edilən sui-qəsdlər və bu üzdən o tərəfin erməni və müsəlmanları arasında mövcud olan münaqişə və münaziələrin başlıca səbəbləri Ararat hökumətinin ajan və müşəvviqləridir.

Bunlardır ki, yuxarıdan aldıqları təlimat və müzahirət üzrə Zəngəzur vəziyyətini qarışdırmaq və bilaxirə müsəlləh müsadimələr vüquini naçar edəcək dərəcədə böyük ixtişaş törətmək əməllərinə mübaşir olmaqdadırlar.

Lakin biz ümidvarıq ki, bunların Şuşa və ətrafındakı intiriqalarını sülh və müsalimət təriqi ilə atil və əsərsiz qoyub da böyük bir müvəffəqiyyət göstərmiş olan Azərbaycan hökuməti eyni təriq ilə Zəngəzuru dəxi bu müzürr mikroblardan təmizliyə bilib, oranın ermənilərini də, müsəlmanlarını da fəlakət və bəlalardan xilas edəcəkdir. Bunu da ümid edirik ki, Zəngəzur erməni camaəti Qarabağın sair yerlərindəki ermənilər kimi məqul və səlamət bir yol ixtiyar edib də bu mikrobların dəf və izaləsi işində hökumətimizlə əlbir olacaqdırlar,

## NABEMÖVSİM SEVİNCLƏR

Bolşeviklərin məğlubiyyəti və denikinçilərin müvəffəqiyyətləri "Vahid Rusiya"çıları şadlığından şıllaq atacaq dərəcədə sevindirməkdədir. Bu qeyri-təbii və nabemövsim sevincləri sezmək üçün "Vahid Rusiya"çıları "Qolos Rossii"[1], "Russkiy den"[2] və sair bu kimi qəzetələrini oxumaq lazımdır.

Zənnimizcə "Vahid Rusiya"çıların bu sevincləri hələ ki, nabemövsimdir. Çünki, əvvələn, bolşeviklər təmamilə məğlub olmamışdılar. Moskva, Petroqrad[3] kimi böyük mərkəzlər onların əlindədir. Əlavə bolşeviklərin qüvvəti taleyi-hərbin lütf və mərhəmətindən bilkülliyə məyus və naümüd olmaq qədər zəif deyildir. Yeni elan edilmiş fövqəladə səfərbərliyin bolşeviklər qüvvətini neçə qat artıracağı və binaən əleyh mubarizə uzun müddət imtidad edəcəyi şübhəsizdir. Bu uzun müddət əsnasında dəxi hərb vəziyyətini dəyişə biləcək fövqəladə və qeyri-müntəzir hadisələr vüquyi-mümkinat qəbilindəndir.

Bundan əlavə, bolşeviklər təmamilə məğlub və məhv edildikdən sonra dəxi "Vahid Rusiya"çıların da tərzi- idarəyə aid bir çox məsələlər üzərində öz aralarında dəxi münaqişə və münaziələri və hətta müsadimələri qəviyyən möhtəmildir. Çünki "Vahid Rusiya"çılar içində bolşevikləri yıxmaq əməl və qayəsilə bir-birlərinə müzahirət göstərənlər bolşeviklərdən, bir az sağ olan sosialistlərdən dönmüş ən qatı və müənnid monarxistlərə varıncaya qədər məsləki-siyasicə rəngarəng və əlvandırlar. Bu müxtəlif məsləkli adamların ittihad əsasları daimi degildir. O əsas bolşevikləri yıxmaq məqsədidir. Bu məqsəd hasil olduqdan sonra əsas yıxılacaq və üzərində qurulmuş olan müvəqqəti ittihad puç olub nifaq və ziddiyyətlərə mübəddəl olmaqla, başqa mübarizələrə meydan açılacaqdır.

Boylə mülahizələr sərdindən məqsədimiz təbii bolşeviklərə yanmaq, onlara tərəfdar görülmək degildir, bolşevikliyə dair münasibətimizin nə yolda olduğu aşkardır. Mədəni Yevropaca qəbula keçməyin və mütəməddin millətlər arasında intişar tapa bilməyən bu üsuli-idarənin və bu təriqətin, bəşəriyyət tərəqqisi yolunda şayani-etina və əhəmiyyətli bir şey olmadığını mütəməddin millətlərin boylə bir mənfi münasibatından anlamaq olar.



Əlavə rus xalqının, fəlakətlərdən qurtarmaq üzrə müvəffəqiyyətlər qazanmaq, sevinclərinə bir millətin xilas nöqteyi-nəzərindən biz də şərik ola bilərdik.

Fəqət, heyhat! Bizi bu şadlığa və sevinçlərə biganə edən və hətta acındıran bir şey var ki, o da "Vahid Rusiya"çıların doğrudan-doğruya düşmənləri olan bolşeviklərə qarşı zəhrxəndəligindən əlavə, elani-istiqlal etmiş millətlərə aid məsxərəçilikdir.

Deməli, "Vahid Rusiya"çıların bu mübarizəsi fəlakətlərinə səbəb olan bolşeviklərdən əlavə Rusiyadan ayrılmış millətlərə dəxi dolayısilə aiddir. Bu bizim kimi elan, istiqlal etmiş olan millətləri hədələməkdir. Siz də vaxtınıza "hazır olun!"deməkdir,

Lakin "Vahid Rusiya"çılar böyuk bir zəlalət içindədirlər. Aləmşümul müharibənin nəticəsi olaraq meydana atılmış olan "azadlıq", "millətlər azadlığı" məfkurələrinin təninəndaz şüarlarını həvaleyi-səmi etibar etmək istəməyirlər. Cahannümun müharibə Rusiya üçün müvəqqəti bir bolşeviklik törətdisə, bəşəriyyət və insaniyyət üçün azadlıq fikrini yaratdı. Bolşevikliyi qəbul etməyin mütəməddin aləm bu ali fikri qəbul edir. Xırda millətlərin istiqlalını qəbul və təsdiq etmək "Vahid Rusiya"çıların zəmincə, Rusiyanın toprağını parçalamaq degildir, bəlkə rus istibdadının, rus imperializminin pənceyi-qəddaranəsi altında əsrlərcə əsir olan millətlərin istixlasıdır. Bu fikrin böyük bir müəzahirət görəcəyinə və bilaxirə əbədi bir qələbə çalacağına biz əminik. "Vahid Rusiya"çıların məsxərəsi, zəhrxəndəligi axırda, özlərinə qayıdıb gülünc və həqarətə layiq yalnız özləri olacaqdırlar.

"Vahid Rusiya"çılar dürüst bilməlidirlər ki, camaəti ikrah etmiş və özləri də ruhdan düşmüş olan bolşeviklərlə müharibə etmək və müvəffəqiyyətlər qazanmaq mümkündür, lakin ruhları yüksək, əzmləri qəvi, məfkurələri ali olduğunu dərk edən azad millətlərlə mübarizəyə girmək, yəni həqqı nahəqqa vermək imkan xaricində xam bir xəyaldır.

## ERMƏNİ-GÜRCÜ MÜNASİBƏTİ

Gürcü qəzetələrinin yazdığına görə Gürcüstan ilə Ermə- nistan arasındakı ixtilaflı hüdud məsələlərini qarşılıqlı bir etilaf yol ilə həll etmək üçün xüsusi müzakirətə başlanmışdır.

Bu vəxtə gürcü mətbuatı arasında mübahisə törənməsinə səbəb olmuşdır. Hökumət tərəfdarı olan sosialist qəzetələri Gürcüstan hökumətinin bu iqdamatını pəsənd və təsvib edib, iki dövlət arasında olan ixtilafın müzakirə və müsalihə yolu ilə rəf edilə biləcəgindən məmnundurlar. Milli və demokrat məsləkli qəzetələr isə, biləks, hökumətin bu təşəbbüsini tənqidə qalxıb Ermənistan ilə boylə bir etilaf əqdini Gürcüstan üçün zərərli və gələcəgdə təhlükəliədd edirlər.

Məsələn bu qəzetələrdən "Obnovleniya"[1] deyir ki, hüdud məsələsi üstündə ermənilərin gürcülər ilə müzakirəyə girmək meylindən boylə görünür ki, bunlar Gürcüstan hökumətinin boşluğuna güzəştlərdə bulunacağına ümidvardırlar.

Əcəba, Gürcüstan hökuməti ermənilərin ümid etdigi güzəştlərə maildirmi?

Qəzetənin mülahizatına görə maildir.

Çünki "təəssüflər olsun ki, cümhuriyyət başında duran sosial-demokrat məhafilində əvvəllərdə zəif bir surətdə müşahidə edilən və "kompramis" (etilaf) təsmiə edilə bilən bir cəryan, bu axır vaxtlarda kəsb qüvvət etdi... Zəmani-idarəni əlinə almış olan hökumət adamlarının bir xəstəlik halına alan sülh və etilaf arzusu Gürcüstan cənub hüdudunun sövqəlceyş nöqteyi-nəzərincə ən mühüm ədd edilən yerlərini daima cəngicu bir hissiyat bəsləməkdə olan "daşnak" hökumətinə təslim ilə gələcəkdə arada bir müharibə vaqe olarsa, Ermənistanın bizə fasiq olacağına müsaid yollar açır".

Eyni məsləkdə olan "Sakartvelo"[2] qəzetəsi dəxi bu xüsusda şiddətli tənqiddatda bulunub deyir ki, gürcü xalqı bu iş üstündə hökumətdən rugərdan olar.

Bunlara müqabil olaraq hökumət qəzetəsi "Ertuba"[3] hökumətin bu iqdamatını ən doğru və səhih bir politika kimi tələqqi edib milli demokrat firqələrinə ətfi-kəlam ilə deyir ki, "fəqət milli demokratlar, hökumətin adəmxorlıq politikasını rədd etməgə qarşı ruyi-müvafiqət göstərmək istəmirlər...

Onların məqsədi – hərçi badabad tarixi hüdudlar təbin olub, bu hüdudlardan əl çəkmək istəmirlər... Doğrudur, Ermənistan arasındakı tarixi hüdudların sövqəlceyş nöqteyi-nəzərincə əhəmiyyəti çox böyükdür. Lakin sülh və müsalimətlikdə bizdən ötri əhəmiyyəti bir o qədərdir.

Bu məsələdə gürci hökumətinin güzəştlərə mail olduğunu "Ertuba" qəzetəsi dəxi inkar etmir. Lakin deyir ki, "əlbətdə, güzəştlərin bir həddi var. Məmləkətin mənafeyi həyatiyəsinə güzəştlər xatirəsi üçün fəda etmək olmaz..." Fəqət tarixi hüdudlar ilə bu mənafe arasında hər iki tərəficə qəbul edilə bilən bir xətt tapılar zənn edirik.

Gürcülərə aid olan bu məsələ üzərindəki gürcü mətbuatının mübahisəsinə iştirak etmək təbii bizim vəzifəmiz degildir. Fəqət kənardan baxan sifətilə burasını deməgə həqqımız var ki, həqiqətən gürci milli demokratlarının əndişəsi bir tərəfdən həqlıdır. Gürcüstan hökumətinin ermənilərə nə kimi güzəştlərdə bulunacağı və bu güzəştlərin həddi və mahiyyəti nə ölçüdə olacağı məlum degildir. Hər halda arada bu növ güzəştlər olacağdır. Öylə olan surətdə, əcaba, Ararat hökuməti gürcü hökumətinin sülh və mənfəət yolunda ibraz etdigi bu fədəkarlığı təğdir edə biləcək bir sifət göstərəcəkdirmi? Vaqeən daima cəngcu bir heysiyyat bəsləyən daşnaklar bu güzəştlərdən bilaxira sui-istifadələrdə bulunmaqdan çəkinə biləcəkdirlərmi? Zənn edirik, gürci milli demokrat firqəsini əndişələrə salan məhz bu kimi suallardır. Daşnak politikası boylə bir suallar iradına məhəl verir. Halbuki sualların cəvabları çox çətindir.

Digər tərəfdən milli demokratların da deyil, bu məsələdə bəlkə daima yerli-yersiz olmaq "tarixi hüdudlardan bəhs etməgi və bu hüdudlara ikiəlli yapışmağı da" bir yandan doğru degildir.

Gürci milli demokratlarının bugünkü məsələdə tarixi hüdüdlar bəhsin döğru olub-olmadığı həqqında bir qərar verə bilmərik.

Lakin qabağlarda bu hüdud məsələsi üzərində həqqımız olaraq tarixdən bəhs etmələri xatirimizə gəldi. Əgər bu gün milli demokratlar erməni politikasının qeyri-səmimi olduğundan əndişə-

lərə düşürlərsə, o vaxtlar məsələ başqa hüdudlara aid olduğundan nə boylə əndişəyə səbəb vardır, nə də inadlıq və ifratpərəstligə...

Ermoni-gürcü müzakirətindən bəhs edən "Obnovleniya" qəzetəsinin məqaləsində bir şey nəzər-diqqətimizi cəlb etdi. Boylə ki, qəzetə bu məsələ müzakirə altında Azərbaycanın da iştirakı lüzumindan bəhslə müzakirat cəryanının Azərbaycan iştirakı ilə olduğunu şayani-təəsüf ədd edir.

Qəzetənin həqqımızda göstərdigi bu etinanı təqdir ilə bərabər bunu dəxi bildiririk ki, Azərbaycan hökuməti bu işdən, yəni erməni-gürcü arasında vaqe olan bu müzakiratdan müxbirdir. Ona binaən gürcü hökumətinin bu iqdamatını Azərbaycan həqqında bir ehmal mənisində tələqqi etmək olmaz.

Erməni-gürcü arasındakı müzakirəsinə başlanmış olan hüdud yerlərinin bizimlə dəxi həm hüdud olduğundan mənafemizə toxuna bilən nöqtələri ola bilər. Fəqət biz bu zəndəyik gürcü hökuməti öz-mənafeyi həyatisinə xələldar edən güzəştlərə razı olmayacağı kimi hal-hazırda ədd ittifaqda bulundığı qomşusunun da bu yoldakı mənafeyinə toxuna biləcək əməllərə mürtəkəb olmaz.

Hər halda bu müzakirələr cəryanı bizdən xəlvət olmayacaqdır. İnsafa gəlincə, biz də zatən hüdud məsələlərinin sülh və sazişlə həlli tərəfdarıyıq, fəqət, birisi Azərbaycanın cüzi olan bir yeri ixtilaflı hüdud məsələsi adlandırıb da bu xüsusda müzakirə təklif edərsə, Azərbaycan hökuməti bu təklifi mucibi-istiğrab görüb kəmali-əzim ilə rədd edir.



## İKİ SİYASƏT

Çahanşümul müharibənin ən böyük zərbələrini yemiş, ən ağır imtahanlarını keçirmiş, ölümünün qıldan asılı anlarını dəfələrlə hiss etmiş olan Fransa, bu bəlalardan xilas olduqdan bəri, əsəbi bir hala düşmüş kibi görünür. Təəccüb deyildir.

Boylə bir ehsasati-əmiqə və təsurati-fəciə keçirmiş olan firənglərdə əsəbiyyət peydasi və ədəmi-etidal təzahürati müharibənin "ekspansiv" təbiət üzərində buraxdığı əsərlərin təbii nəticəsidir.

Bu əsəbiyyət firənglərin bugünkü siyasətində müşahidə olunur və bunun acılığını üzərlərində hiss edənlər, keçmiş müharibədə almanlarla ittifaqda bulunanlar və onlara xəfi və ələni müzahirət göstərmiş olanlardır. Məsələn, Avstriya, Türkiyə, Bolqariya və ilaxir. Türkiyəyə gəldikdə Fransanın siyasətindəki əsəbiyyətin acılığı degil, yalnız türklərə, bəlkə türklərlə gizli və ya aşkara əlaqələrdə "məznun" olanlara dəxi şamildir. Bunlar da türk mühibbi olan islamlar və türklərlə təmas və əlaqədə bulunmuş qeyri-islamlardır.

Bu üzdən Azərbaycan və Gürcüstan dəxi Fransanın əsəbiyyətini mucib olan millətlər cümləsindəndir. Azərbaycan və Gürcüstanın istiqlaliyyətləri təsdiq edilərsə, müttəfiqimiz Rusiya bizdən inciyər və ehtimal almanlarla əlbir olub, təkrar bizə qarşı müharibə açarlar qorxusu bir tərəfdən, düşmənlərimiz səy ilə əleyhimizə yapılan təşviqat və təhrikat, digər tərəfdən firəng siyasilərinin əsəbiyyətini qalxızıb acıqlarını tutdurur. Neçə gün əvvəl qəzetələrdə oxuduq ki, Fransa xariciyyə naziri, Azərbaycan və Gürcüstan millətlərinin xahiş və iradələrilə təşkil etmiş olan cümhuriyyətlər həqqında fikriniz nədir deyə parlamanda vaqe olan suala zənn edirəm bu cümhuriyyətlər müvəqqətidir, əlavə gürcülər, ruslar və ermənilərə qarşı düşmənçilik edirlər sözlərilə cəvab vermişdir.

Firənglər əsəbi siyasət yürütməkdə ikən, sanki əsəbilik nə olduğunu bilməyən hər bir hadisəyə qarşı soyuqqanlılıq göstərən, hüzur və etidalını əsla xələldar etməyən ingilislər adi yol ilə öz siyasətlərinə dəvam edib, müharibə nəticəsi dolayısilə dəyişmiş olan vəziyyəti-hazirənin müsaidligindən bilistifadə müharibədən əqdəm hüsuli qeyri-mümkün olan arzuların istehsalıyla məşğul olurlar. Bu yaxın-

## ERMƏNİSTAN VƏ AZƏRBAYCAN MÜNASİBƏTİ

Qarabağ erməni camaətinin Azərbaycan torpağında yaşarkən, təbii Azərbaycan hökumətinə və qanunlarına tabe olmaq lazımdır deyə, məqül və müvafiqi-məntiq qərarından sonra erməni üsyançıları, daşnak aкentləri Zəngəzur tərəfə qaçıb, orada fəsadlar törətmək və şeytanətlər icra etmək üçün müsaid bir zəmin buldular.

Şübhəsiz, Ararat barmağilə idarə olunan və daşnak rəhbərliyi ilə iş görən bu müfsid güruhun təqib etdiyi məqsəd ortaya "Zəngəzur məsələsi" çıxarmaq idi.

"Zəngəzur məsələsi" zatən ermənilər tərəfindən meydana çıxarılmış olan "Qarabağ məsələsi"nin mabədidir. Ermənistanın haqsız və yersiz ədasilə törətmiş olan bu məsələ hökumətimizin müdəbbiranə siyasəti və Qarabağ erməni camaətinin aqilanə rəftari sayəsində müvafiqət mütəqabilə yoluylə həll edildikdən sonra əlləri boşa çıxan daşnaklar dərhal bir "Zəngəzur məsələsi" çıxartmağa çalışdılar.

Zəngəzur Qarabağın bir hissəsi və Qarabağı təşkil edən dörd uyezdən biridir. Zəngəzursuz Qarabağ, Qarabağ ola bilməz. Yəni Qarabağın tamamiyyəti-mulkiyyəsi ilə bərabər, vəhdəti-iqtisadiyyəsi dəxi xələldar olub, həm cümhuriyyətimizi və həm də bilafərq millət bütün Qarabağ əhalisini böyük müşkülatlar qarşısında qoya bilər. Zəngəzurun vəziyyəti-sövqəlceyşiyəsi və köçərilərimiz üçün yaylaq olması bunu isbata kafidir. Bunu hər kəs bilir və yüz il bundan əqdəm Pənah xan dəxi bildirmiş ki, Qarabağ xanlığını təşkil edərkən Zəngəzuru dəxi o xanlıqın mühüm bir hissəsi həsbilə yədi-idarəsinə almışdı.

Buna görə də "Zəngəzur məsələsi", yəni təkrar "Qarabağ məsələsi" bu üzdən bu məsələ Ermənistanın haqsız iddiasına görə ixtilaflı hüdud məsələsi deyil, bəlkə Azərbaycanın cüzi layənfəki olan Qarabağa göz qıcıtmaq və dəstdirazlıq etmək həvəsidir.

Ermənistanın "Zəngəzur bizimdir" deyə həqsız iddialarda bulunması aşkardır ki, "ixtilaflı hüdud məsələlərini sülh və sazişlə həll edəlim" deyil, Azərbaycanın təmamiyyəti-mülkiyyəsinə qarşı sui-qəsd hiyləsidir.

Tiflisdə rusca nəşr edilən erməni "Slovo"[1] qəzetəsi Azərbaycan ilə Ermənistan arasında Zəngəzur həqqında təati edilən notaları "bitərəfanə" bir surətdə mütaliədən sonra, bu işdə kimin həqlı və kimin haqsız olduğunu təyin etməyə çalışır və "çalışması" nəticəsində həqqın, əlbəttə, Ermənistan tərəfində olduğunu hökm edir.



Qəzetə Zəngəzurun Ermənistana təəllüq etdigini söyləyir və deyir ki: "Əgər işə etnoqrafi nöqteyi-nəzərinçə baxılarsa bir mahal ki, əhalinin 80 faizini təşkil edənlər ermənilər ola, o mahal Azərbaycana degil, mütləqən Ermənistana təəllüq edə bilər".

Sufizm məntiqi üzərində qurulmuş olan bu mətləbin yanlış olduğu bundan aşkardır ki, ermənisi çox olan bir yeri Ermənistana təəllüq etdirmək doğru olsa, o surətdə Azərbaycanın hər bir yeri ki, orada ermənisi çoxdur, Ermənistana məxsusdur deyə hökm verməlidir. O hesabdan, deməli, Bakının yanındakı "ermənikənd" dəxi Ermənistanınkı imiş.

Əlavə böyük haqsızlıq deyilmi ki, bizə gələndə etnoqrafi əsaslardan bəhs edilir, halbuki erməni hökuməti, musəlmanı çox olan Naxçıvan mahalına soxularkən "Slovo" və əmsali bu əsaslardan söhbət salmayırlardı.

Və bir də Zəngəzur əhalisinin 80 faizi ermənidir deyə qərar vermək dəxi yanlışdır. Çünki bu gün dürüst və doğru bir statistik üsulu tətbiq edilərsə, Zəngəzur ermənilərinin 50 faizdən fəzlə olmadığı meydana çıxar.

Bunlardan başqa, biz Zəngəzura Qarabağın bir hissəsi nəzərilə baxırıq. Ümum Qarabağda isə erməni əhalisi əqəliyyət təşkil edirlər. Əgər bu yerin bir məntəqəsində vaqiən bir erməni əksəriyyəti varsa da o məntəqəni qoparıb da Ermənistana vermək hansı ağla və hansı məntiqə müvafiqdir. Böylə bir tələbdə bulunanlara acınmamaq qabildirmi?

Böylə bir xilafi-məntiq bəhsdən sonra "Slovo" qəzetəsi digər bir bəhsə keçir ki, o da başdan-ayağa yalandır. Qəzetə deyir ki, Qarabağ və Zəngəzur erməniləri hələ Almaniyanın müzəffəriyyətlərinə təsadüf edən vaxtlarda dəxi, Nuru Paşanın müvəffəqiyyətlərinə rəğmən türklərə tabe olmaq istəmədi.

Qarabağ ermənilərinin türk əsgərlərini duz və çörək ilə qarşıladıqlarını yalnız həqiqəti gözləmək istəyən «Slovo"lar inkar edə bilər.

larda İran ilə yapılmış olan müahidə iştə bir arzuların biridir ki, Rusiya çarlığı zamanında yapıla bilməzdi. Azərbaycan və Gürcüstan həqqında yürüdülən xeyirxahanə bir siyasət və sabiq düşməni Türkiyəyə qarşı göstərilən etidal və nəzakət ingilislərin "ekspansiv" firənglər kibi erməni və rum danoslarına və bu növ təşviqat və təhriqata laqeyd qaldıqlarına da böyük bir dəlildir.

Bundan dolayıdır ki, ingilislər Qafqazda, İranda, Türkiyədə böyük bir nüfuz qazanmaq və hüsnü-rəğbət görmək üzrə ikən Fransa tərəfindən eşidilən sözlər buralarda heyrəti-istiqra ilə təlqin edilir.

Fəqət bu yaxınlarda Suriya tərəfində vüqu bulmuş bir fəqərə sanki firənglərin şərq-qərb siyasətindəki bir çox şeyləri görməyə manc olan əsəbiyyətini, müvəqqəti, bəlkə sonra daimi də olsa bərtərəf edib gözünü açdı. O vaqe Fransanın mənafeyi ilə əlaqədar olan Suriyada ingilis və firəng məmurları arasında vaqe olan münaqişə və münazið idi. Bu vaqeə firənglərin diqqətini o tərəfə cəlb dolayısilə ingilis şərq-qərb siyasətini gözdən keçirməgə məcbur etdi. İştə Fransa xariciyyə nəzarətinin nim rəsmi qəzetəsi olan "Tan"[1] bu xüsusda bir məqalə yazmışdır ki, "Şərq məsələsi və Fransa" sərlövhəsilə iki gün əvvəlki nömrəmizdə bitərcümə mündəric idi. İngilis şərq-qərb siyasətini mütaliə yoluyla tənqid edən bu məqalə nazik bir lisanla, yazılmış şiddətli bir etiraz olmaqla bərabər Fransanın öz yanlış siyasətindən peşiman olmağa başladığını da sezdirən bir sənəddir. "...Başqa yerlərdə olduğu kibi, Şərqdə də müttəfiqin işlərinə Fransa böyük xidmətlər edə bilərdi, əhalinin hüsn-təvəccöhünü iktisab etməgi Fransa bacarır",– deyə bu yollu kinayələrdən şərqdə "müttəfiqlərə xidmət" etmədiginə və ora əhalisinin hüsni-təvəccöhünü iktisaba çalışmadığına bu sözləri söyləyənin peşiman olduğunu dərk etmək asandır.

Həqiqət, hala ciddiyyətlə vüquf yetirmək əvəzində erməni və rumların əfsanə və əracifi ilə iktifa edən firənglər cümpuriyyətlərimizə müvəqqəti bir şey hesabında baxmağa davam və gürcülər erməni və rusların düşməndir–məali və əsassız məlumata istinadlarında inad edirlərsə, ola bilsin ki, axırda daha da peşiman olub, qeyri-qabil islah dərəcəsinə varmış xətlərinin acılığından əfsuslar yeməkdən başqa özgə bir çarə olmadığını görür.



Fəqət umidvarıq ki, cümhuriyyətlərimizin millət və camaətimizin idarə və arzusu ilə əmələ gəldigini bilmiş olan Fransa parlaman əzalarının vücudi və təsirilə Fransa rical hökumətinin peşimançılıqları mucib ola biləcək əsəbiligi bərtərəf edilməklə siyasəti dəxi başqa bir yola dönər ki, o yol zənnimizcə daha doğru və daha müstəqim bir yoldu.

Qarabağ ermənilərinin Azərbaycan türk hökumətinə tabe olmaq istəmədigini andırmaq istəyən bu sözlərin böyük bir yalan olduğu, ermənilərin yeddinci yığıncağında əksəriyyəti-əzimənin Azərbaycana tabe olalım deyə qəbul etdikləri qərardan aşkardır. Bugün əgər Zəngəzuru bulandıran daşnak fitnəçiləri Zəngəzurdan dəf edilərsə, oranın ümumerməni əhalisi Azərbaycan təbəəliyini böyük bir meyl və rəğbətlə qəbul edib, daşnak xüdə və dəsisələrindən qurtulduqlarına da şükürlər edərlər. Çünki Zəngəzur erməniləri bir kərə Azərbaycandan ayrılsalar, siyasidən əlavə iqtisadi fəlakətlərə məruz qalıb acından ölərlər.

Bədən "Slovo" qəzetəsi bizim və Ermənistanın notalarını lisan və tərzi-ifadə nöqteyi-nəzərindən "tədqiq" edib Ermənistan notasını sülhamiz bir lisan hüzur və etidalə riayət edən bir ifadə ilə yazılmış görür və bizim notamızın şiddətli lisanından sülh və sazişə meyl göstərməyən üslub, ifadəsindən şikayət edir və bundan da bir nəticə çıxarır ki, Ermənistanın hüzur və etidal ilə danışmağı haqda və mənəvi bu qüvvətə güvəndiyindəndir. Halbuki bizim özümüzü zəbt eləmədigimiz haqsız olduğumuzu hiss etməyimizdənmiş. Deməli," sən ki, hiddət edirsən həqsızsan" demək istəyir. Erməni notasının hüzur və etidalə riayətlə yazıldığını biz də inkar etməyirik. Lakin bu "pişiyimpişiyim" ilə bizim torpağımızın ən mühüm bir qitəsini əlimizdən almaq, istəyənlərə acıq tutmamaq və hiddət etməmək qabildirmi? Əgər Azərbaycan Ermənistanın torpağından bir parçasını ən mülayim, ən şirin, hətta "mən ölüm və qurban olum" təbirləri istemalinə varıncaya qədər yumşaq bir dil ilə istəsə və bunda da israr etsə, Ermənistan boylə bir həqsız tələbdən hiddət etməzmi?

Bundan başqa, bir var ki, dildir, bir də var ki, əməl. Zəngəzur həqqında mülayim dil ilə bizə nota verən Ermənistan, Zəngəzur müsəlmanlarının başına nasıl dürüşt zalimanə və birəhmanə oyunlar gətirir.

"Slovo" və əmsalının erməni hökumətini müdafiəsi və bu hökumətin sülh və saziş niyyətlərindən bəhsi heç bir kəsi inandıra bilməz. Qafqaz cümhuriyyətləri arasında "ixtilaflı məsələlər" birinci qılıc çəkən, birinci olaraq qardaş qanı tökən erməni cümhuriyyəti oldu ki, sülh və saziş təriqindən imtina edib gürcü üzərinə hücum etdi. Özgənin malına və torpağına təmə edən yenə birinci Ermənistan oldu ki,



Naxçıvan üzərinə hücum edib özgənin yerinə sahibləndi və bugünkü eyni Ermənistandır ki, məqsədi Azərbaycan torpağına dəstdirazlıq etməkdir. Azərbaycan öz torpağını qorumaq üçün qılıc çəkməyə məcbur olacaqsa və arada qan töküləcəksə, hamısının məsuliyyəti Ermənistan üzərinə aid olacaqdır. Bunu bir Azərbaycan deyil, bəlkə hər kəs və hətta Qafqazla əlaqə peyda etmiş Avropa hökumətlərinin nümayəndələri də iqrar edirlər.

## İSTİQLAL MÜDAFİƏSİ ÜÇÜN

Rusiyadan ayrılmış və millətlərinin arzu və iradəsilə müstəqil cümhuriyyətlər təşkil etmiş olan yeni dövlətlərin cümləsi bir məsələdə həmfikirdirlər. Bu fikir birligi məzkur dövlətləri biri-birindən nə qədər uzaq olmuş olsa da, yek digərinə məna və ruhən mərbut ediyor. Bir-birinin halına biganə qalmağa imkan vermiyor. Yek digərinin ələm və fərəhinə şərik etdiriyor və boyləliklə arada ruhani olaraq bir qəraət və mənəvi olaraq bir ittifaq və ittihad əmələ gətirdir.

O məsələ Dağıstan, Azərbaycan və Gürcüstandan ötrü Şimal, Ukrayna, Polşa, Estoniya, Litva üçün Şərq, Finlandiya və Şimal millətləri üçün cənub təhlükəsi təşkil edən Rusiya məsələsidir və bu məsələ üzərində bunları birləşdirən fikir rus təhlükəsindən qorunmaq və bu təhlükənin vüqu ehtimalından təmin edilmiş olmaq üçün çarələr aramaq fikridir.

Bu çarələrdən ən birincisi və ən mötəbər hesab ediləni yeni cümhuriyyətlər istiqlaliyyətlərinin sülh konfransı tərəfindən rəsmən tanınmaq keyfiyyəti olduğu üçün məzkur cümhuriyyətlər müharibə zamanında istər o tərəfin, istər bu tərəfin virdi-zəbani olan "Millətlər azadlığı" şüarına və bundan daha fəzlə Amerika rəisi-cümhuri müsyo Vilson məşhur on dörd maddə ən əsasına istinad edərək sülh konfransı nəzdinə mürəxxəs göndərdilər.

Fəqət mürəxəslərin getdigi bir sənə olmağa yaxındır ki, hələ onlara indiyə qədər "hə" və "yox" deyən olmayıbdır. Sülh konfransının işi çox olduğundan hələlik öylə məsələlərin sırası yetişməmişdir.

İş boylə ikən sülh konfransından tanınmaq ümid və intizarında olan yeni cümhuriyyətlərdən bir neçəsi nail olumadan əvvəl, rus təhlükəsinin nakam qurbanı oldular. Məsələn, Dağıstan, Ukrayna və bu günlərdə rus alman intriqasına hədəf edilmiş olan Latviya.

Bu qurbanların, hətta müttəfiqlərin onlara qarşı göstərdigi rəğbət və hüsni-təvəccöhləri də fəlakətdən qurtara bilmədi. Bu vəqələr yeni cümhuriyyətlərdən yerdə qalanlarını təbiidir ki, xof və əndişələrə saldı.

Bu xof və əndişə Denikinin bolşeviklər üzərindəki müzəfəriyyət və müvəffəqiyyətləri dolayısı ilə daha da artmağa başlayıb, məzkur cümhuriyyətləri müztərib bir vəziyyətdə qoymuşdur. Çünki işlər



boylə gedərsə yerdə qalan cümhuriyyətlər dəxi Denikin hücumlarına məruz qalmaqla axırda iş o məqama çatar ki, sülh konfransı yeni cümhuriyyətlər istiqlalı məsələsini – artıq boylə bir məsələ mövcud olmadığı üçün – ruznameyi-müzakirətdən qaldırmağa və əmr vaqe qarşısında boyun əyməyə məcbur olar.

Zatən işi bu məqamə çatdırmaq üçün "vahid rusiyaçı"lar arasında əməklər sərf edilməkdədir. Sülh konfransında Rusiya məsələsinə bağlamaq zamanı yaxınlaşdığına görə "Vahid rusiyaçı"lar vəziyyəti dəgişdirmək və bu yol ilə konfrans müzakirətinə icrai-təsir etmək üçün cürbəcür vəsilələrə əl aparırlar.

Denikin və kolçaqlar müttəfiqlər pulu ilə bolşeviklərə müharibə və Rusiyadan ayrılmış millətlər üzərinə hücumlar etdikdə ikən imperialist Rusiyanın köhnə diplomatları gah yaponlarla gizli surətdə danışıqlara girmək və gah Funder Qolç[1] kimi alman generallar ilə ittifaq yaymaq kimi təşəbbüslər nümayişi ilə Avropanı qorxutmaq və sülh konfransında Rusiya məsələsini arzularına müvəffəq bir surətdə mövqeyi-müzakirəyə vəz etdirməyə çalışırlar. Etiraf etməlidir ki, boylə nümayişlər əsərsiz qalmıyor. Fransa xariciyyə nazirinin parlamanda sərd etdigi mülahizat buna dəlildir. Bu isə "Vahid rusiyaçı"ların ümidlərinə daha da cəsarət verib, "vahid və qeyri-qabil təqsim Rusiya"nın parçalanmaq nərəsidir ki, yeni topraqlar qazanacağı, hüdudunu bir az daha genişlənəcəgi xülyalarına meydan buraxıyor.

İşdə bu növ mülahizələr və Denikin təhlükəsinin yaxınlığını yeni cümhuriyyətləri ciddi əndişələrə salıb çarələr aramağa vadar edilir.

Bu çarələr xüsusunda Gürcüstan rəsmi mətbuatının fikri budur ki, Qafqazdakı cümhuriyyətlər biri-birilə sıxı bir ittifaq bağlamalı və əlavə Avropa dövlətlərindən birinin müzahirətinə isdinad etməlidir. Avropa dövlətlərindən boylə bir müzahirət vüqunə imkan vardır. Əgər bu dövlətlərdən birisi Qafqazla iqtisadi əlaqələrə girərsə, mənafeyinin diqtə edəcəyi əmr üzərinə bu cümhuriyyətlərə müavinət və müzahirət göstərməgə məcbur olacaqdır.

Gürcü mətbuatının mülahizatı təhlükə qorxusu sayğısilə əqlin hökümündən artıq qəlbən iztirab ilə söylənən sözlər degil. Biləks, "əlac vaqe piş əz vüqu bayəd kərd"[2] məfadincə hifzi-istiqlal üçün

indidən aranılması lazım gələn çarələrin ən mötəbər və ən məqulindən bəhs açmaqdır. Mədəni avropalıya yaxınlaşmaq ora ilə iqtisadi əlaqələr peyda etmək Qafqaz cümhuriyyətləri üçün mənfəətdən başqa zərər verməz və siyasi vəziyyətimizi bərkitməklə qurduğumuz təşkilatın pozulmasına məhəl buraxmaz.

Avropalılardan mədəniyyətcə neçə qat geri olan və elani-istiqlaliyyətimizdən dolayi qəlblərin də bizə qarşı dərin bir kin, gizli bir nifrət bəsləməkdə olan rusların təkrar təhti-əsarətinə düşüb də istiqlaldan məhrum olmaq və əvvəlkilərdən daha artıq təzyiq və sıxıntılar çəkmək və bəlkə tamamilə məhv olmağdansa, mədəni avropalılarla sıxı əlaqələrə girmək və onların kömək və müzahirətinə istinad ilə istiqlaliyyətimizi möhkəmləndirmək yaxşıdır. Bu xüsusda iki rəy ola bilməz. Əqli-səlimin hökmü və mühitimizdəki əhvalatdan anlaşılan məntiq boylə çarələri caiz və vacib bilir.

Avropalıları bizə və bizi onlara yaxınlaşdıra biləcək rabitələr meydanda mövcuddur. Qafqazın və baxüsus Azərbaycanın bitməz, tükənməz sərvəti-təbiiyyəsi avropalıları bu tərəfə qarşı laqeyd buraxmaz. Əhali və hökumət tərəfindən göstərilən meyl və rəğbət isə buna bir təşviq olar.

Cümhuriyyətlər arasındakı ittifaqa gəlincə yuxarıda ərz etdigimiz rus təhlükəsinin dəfi fikri degil, yalnız Azərbaycanla Gürcüstanı bəlkə sabiq rus dövlətini təşkil edən və bu gün elani-istiqlal etmiş olan bilcümlə yeni cümhuriyyətləri bir-birinə fikrən və ruhən mərbut etmişdir. Əgər Azərbaycan və Gürcüstan arasında əqd edılmış olan ittifaq tədafe, bu cümhuriyyətlərin cümləsi arasında yapılmaqla bunları əl-ələ verdirmiş olmasaydı, daha gözəl olardı. Vaqeən boylə bir ittifaq vüqui-mümkün olsa idi bundan təşkil edən maddi və mənəvi qüvvət, rus imperializməsinin hərs və təməinə əbədi olaraq bir xatim çəkə bilirdi. Halbuki boylə bir ittifaq əqdi qeyri-qabil hüsuli-ədd ediləcək bir xəyal deyildi. Ruhi və mənəvi mərbutiyyətin "realni" bir ittifaq əqdi ilə nəticələnməsi təbiidir. Bunun üçün ancaq təşəbbüs lazımdır.



# "CORCİƏN MEİL"İN MƏQALƏSİ

Tiflisdə nəşr edilən ingiliscə "Corciən meil" qəzetəsinin tərcüməsi dərc etdigimiz məqaləsinə oxucuların nəzər- diqqətini cəlb ediyoruz. Daşnak politikasının əsaslarından biri olan yalançılıq üsuluna qarşı etiraz edən və bu üsulu Qafqaz millətləri arasında düşmənçilik dəvamına bais bilib də bu yolda dadü-fəryad edən indiyə qədər qafqazlılar idilər, bunlardan da baxüsus Azərbaycan türkləri idi. Bu gün isə boylə bir etirazı artıq avropalılar ağzından dəxi eşitməklə qəlbimizdə bir məmnuniyyət hissi dərk etdigimizi heç də gizlətmək istəmiyoruk. Arzumuz budur ki, bu məqalə Avropa mətbuatına dəxi keçib, daşnaq ilanlarına inananları ayıldıb doğru və həqiqətə qarşı yumulmuş olan gözləri açdırsın və bu yalanlar vasitəsilə nə qədər zəlalət və rəzilət törəndigini və bunun nəticəsi olaraq nə kibi haqsızlıqlara yol verildigini Avropa əfkari-ümumiyyəsnə anlatsunlar.

Bu məqalənin zühuru daşnak partiyasının yeni bir məğlubiyyətidir. Erməni matəminin müqəddəratını əlinə almaqla millətin özünə aid olan bu haqqı qaba bir yol ilə qəsb etmiş və öz-özünü bu millətin başında "terror" gücü ilə qəyyum tikmiş olan bu iqbalsız partiya, erməni cümhuriyyəti elanı günündən bəri hər bir təşəbbüsündə və hər bir iqdamətində – məqul və səmimi olmağlarına görə – məğlubiyyət ardınca məğlubiyyət yeməkdə və bu məğlubiyyətlərin hər bir vüqui erməni millətinə taqətfərsa və təhəmmülsüz zərər və ziyanlar verməkdədir. Bu millətin səbrinə heyran qalmamağ qabil degildir!

Hakimlikdə zalım, qonşuluqda həsud, xüsusiyyətdə bədxasiyyət olan bu partiya siyasiyətdə dəxi cahildir. Azərbaycan, Gürcüstan, Dağıstan və başqa cümhuriyyətlərin millətləri kimi özlərilə öz müqəddəratlarını təyinə çalışmaq əvəzində bunlar, bu daşnaklar bu işi, yəni erməni millətinin təyini-müqəddəratını "Avropanı qorxudur" deyə boylə zənn edirlər ki, Avropa siyasiləri gəlib Azərbaycanı bir tərəfə, Gürcüstanı başqa bir tərəfə və Türkiyəni başqa bir tərəfə itələyib ermənilərin yerini genləndirəcək və bu yol ilə meydana bir "Hayastani-kəbir"[1] zühur edəcəkdir. Bunun üçündür ki, Avropanı qızışdırmaq və bu əmr icrasına vadar etmək üçün bir yalançılıq kompaniyası təşkil edib, Ermənistan mühitində olan bütün qonşuları

zalım və vəhşi, ermənilər isə məzlum və mədəni bir millət şəklində təsvir və tovsif etmək vəzifəsini ifaya məşğul olurlar. Bundan nə hasil olur? Avropalılar gəlib isə vüquf yetirirlər və görürlər ki, ermənilər iddia edən miqyas üzərinə vaqeən bir "Böyük Ermənistan" təşkil edilərsə, böyük Ermənistan əvəzinə, böyük bir haqsızlıq əmələ gələ bilər. Çünki boylə bir dövlətin əhalisi içində ancaq yüzdə üç faizi erməni millətinə mənsub ola biləcəyindən böylə bir cüzi əqəliyyətin əksəriyyəti-qahirə üzərində hakim olması, bu fahəş haqsızlığın təbii nəticəsi olacaq. İxtişaş və ixtilallara səbəbiyyət verər.

Daşnak ədasının nə qədər haqsız oldığını məhləndə təhqiq edən avropalılar daşnak mənbəindən çıxan xəbərlərində bir o qədər yalan olduğunı öyrənib bu haqsızlığı bir tərəf və bu yalanları rədd etmək istədikdə daşnaklara yas və nov növmidi ariz olub "hal təbdən" çıxarır və yevropalıların özlərini söyməgə və "vəfasız"lığından şikayət etməgə başlayırlar.

İştə daşnak qəzetəsi "Hayastani-aşxatavur"[3]ın ingilis "Corciən meil"in fövqəlzikrin təkzib və təkdiri zühurini mucib olan məqaləsi – daşnakların "hal təbədən çıxmış", bir halında yazılmış və daşnak təbiətini təmamilə biruzə vermiş kizb və iftiradır ki, ingilis yazıçısı buna qarşı şiddətlə müqabilə etməgə məcbur olmışdır.

"Corciən meil"in bu məqaləsi şübhəsiz ki, London mətbuatına dəxi keçəcək və ingilis əfkari-ümumiyyəsində daşnaklar və bilümum ermənilər əleyhinə olmaq üzrə bir təbəddülat əmələ gətirəcəkdir.

Zənn edirik ki, daşnak kompaniyasının bütün yalançılıqları təmamilə meydana çıxarsa, bundan nəinki yalanlardan mütəzərrir olanlar, bəlkə erməni milləti özü də bilaxirə mənfəət görə bilər.



## BİR SUAL MÜNASİBƏTİLƏ

Keçən parlaman iclasında əzalardan bir qrup tərəfindən hökumətə, daha doğrusu, ədliyyə nazirinə verilən sual, şayani-heyrət və mucibi-təəssüf bir vəqəyə aid idi ki, "sensasiyon" mahiyyətini haiz bir keyfiyyət olduğunu hər kəs iqrara məcburdur.

Cümhuriyyətimizin məvai-ədl və məlcai-həqq olmaq hissiyyatilə nəzahət və qüdsiyyətinə inanılması lazım gələn ali bir müəssisənin, həqq və ədalət divanının, yəni məhkəməsinin müstəxdimindən, günahkarların günahı, mücrimlərin cürmini, canilərin cinayətini həqq və ədalət tərəfilə isbata müvəzzəf olan bir böyük üzvi-müddəi ümumisi, üzərinə tovdi edilmiş məqami-alisini ləkədar edən alçaq bir felə irtikab etmiş, rüşvət almışdır...

Adam öldürmək bir cinayət olduğu kimi, rüşvət almaq dəxi bir cinayətdir. Onun da, bunun da qanuna görə cəzası vardır. Fəqət ümumiyyət üzrə rüşvətxorluq cinayəti, qətl cinayətindən yüngüldür, çünki burada can qəsdi yoxdur, mal qəsdi vardır "malım cəhənnəm, canım sağ olsun" deyənlər canları alınmamaq üçün bütün mallarını verməyə razı olmaqla canın maldan əziz olduğunu bildirirlər. Əksəriyyət dəxi bu fikrə şərik olduğundan adi qətl cinayətinin cəzası, rüşvətxorluq və hətta qarət cinayətinin cəzasına nisbətən çox ağırdır.

Deməli, adam öldürmək rüşvətxorluqdan və qarətdən bədtərdir. Fəqət əgər Azərbaycan məhkəməsinin müddəiyi-ümumisi rüşvətxorluq cinayəti əvəzinə, qətl cinayətinə mürtəkib olmuş olsa idi, bu vaqeənin acılığı bugünkü kimi bir bu qədər müəssir və müəssif olmazdı. Hətta bu müddəiyi-ümumi qarət qəsdilə də bir qətl cinayətinə irtikab etmiş olsa idi, bu keyfiyyət ancaq əcayib və qərayib qəbilindən "məzəli" bir şey olub eşidənləri güldürərdi, halbuki müddəiyi-ümuminin rüşvətxorluq olması gülmək deyil, ağlamağı mucib ola biləcək alçaq və dərgahi-ədl və həqqı alçaqlardan qüdsiyyət və paklığını murdarlayan əhali arasındakı etibarını məhv, xalqın ədalət və həqqa, niyyətə olan etiqadını pozan, imanını rəxnədar və qəlbinə ədl və həqqa qarışı şək və şübhə ilqa edən ən pis və fəna bir əməldir.

Polis məmurlarının rüşvətxorluğundan şikayət edən əhalini sakit və tətmin etmək üçün bu məmurları irtikab etdikləri cinayət üzərinə məhkəməyə cəlb ediyoruz. Axırda nə olur? Bu cinayətləri təhqiq və isbatə müvəzzəf olan məhkəmə əzasının özü eyni cinayətə mürtəkib olur... Dövlətimizin əsasına rəxnə vura bilən bu müvəssif və küdurətamiz keyfiyyət vətənimizin sadiq övladını və cavan cümhuriyyətimizin səmimi xeyirxahlığını təbiidir ki, hüznəngiz fikirlərə salacaq və dərin kədərlərə düçar edəcəkdir...

Vaqe olan sual üzərinə ədliyyə naziri həzrətləri kafi cavab və lazım olan bəyanatı verdilər.

Sual sahibləri bu cavab və bəyanatdan razı qaldıqlarını izhar etdilər.

Əlbəttə, nazir həzrətləri mərqum müddəiyi-ümuminin (prokurorun) rüşvətxor bir adam olduğunu əvvəldən bilmiş olsaydı, onu nəinki prokurorluğa, bəlkə heç bir iş başına keçirməzdi. Müddəiyi-ümumilik kimi ali və təmiz bir məqami işğal etməyə razi olan bir adamın natəmizligindən şübhələnmək dəxi müşküldür. Pristavlıq, qayimməqamlıq, qubernatorluq və sair bu kimi məqamlara rüşvət mənbəyi nəzərilə baxan ola bilər və olur da. Fəqət müddəiyi-ümumilik məqamını dəxi o mənbə cümləsinə hesab edənlər xatirə boylə gətirmiyorduk. Çünki o məqamın hər yerdə və hər bir məmləkətdə öylə bir ləkələrdən ari və təmiz olduğuna qane idik...

Hər halda kədərimiz nə qədər böyük olsa da bədbin olmamağa hacət yoxdur. Cümhuriyyətimiz cavandır, binaən əleyh adam tanımaq təcrübəsi hələ çox azdır. Qoy bu adamlər, bu məmurlar və hökmlər silsiləsi bir-bir "məhək daşı"ndan sürtülüb keçsinlər. Kimin xalis qızıl (altun) və kimin qəlp və saxta olduğunu ancaq bu yol ilə təyin etmək mümkündür.

Rüşvətxorluq məni üçün ağır cəzalar təyini luzumundan bəhs edənlər tərəfdarı deyilik. Cəza qorxusu üzərinə rüşvət almayanlar dəxi bizcə rüşvətxordurlar. Rüşvətxorluğun fənalığına qorxu saygısılə deyil, qənaəti-vicdaniyyə təriqilə hökm verməlidir. Lakin zənn edilməsin ki, rüşvətxor məmur, məmuriyyətindən əzl edilmək kimi



bilnisbə yüngül bir cəzaya uğradıqdan sonra bir kənara çəkilib də almış olduğu rüşvəti rahatcasına yeməyə məşğul olaçaqdır? Biləks, cismani cəzası bu qədər yüngül olan bu şəxs mənaən ən böyük bir cəzaya məhkum edilmiş olacaqdır. Ən böyük cəza hansıdır? O cəza edam cəzasıdır. Əvət!

Bu adam artıq öləcəkdir. Məmləkət və camaət üçün onun varlığı, onun yoxluğuna müsavi olacaqdır. Məmləkət içində camaət arasına çıxmağa üzü olmayan, həyasızlığına salıb çıxsa boylə nifrət və istikrahla qarşılanacaq olan bu adam vaqeən mənəvi bir edama məhkum edilib, cəzai- səzasinə çatacaq və aldığı rüşvət də ona haram olacaqdır.

## BÖHRAN DOLAYISİLƏ

Bizdə kabinə böhranının müzmən bir hal kəsb etməsi və hər böhranın uzun bir müddət çəkməsi bir çoxlarını işlərdən lazımınca vüquflari olmadıqlarına görə marağa salıb neyçün boylə oldu, neyçün öylə oldı deyə bir çox suallar verməgə və o suallara şafi cavab aramağa məcbur edir.

Vaqeən Gürcüstanda və Ermənistanda təşəkkül etdikləri gündən bəri bir böhran vaqe olduğunu xatırlamiyoruz, halbuki müddəti təşəkküli bunlardan olan Azərbaycanda beş-altı böhran keçirdik və halə böhran içindəyik.

Bu böhranın adi bir səbəbi vardır. Gürcüstan və Ermənistanda hökumətə etimad edib müzahirət göstərən əksəriyyət yekrəngdir və hökumət özü də o əksəriyyətin intisab etdigi firqənin əzalərindən mütəşəkkildir. Məsələn, Gürcüstan hökuməti sosial-demokrat firqəsinə mənsubdur. Bu hökumətə keçən parlamanda və bugünki məclisi-müəssəsanda müzahirət göstərən əksəriyyət dəxi eyni sosial-demokrat firqəsidir. Həkəza Ermənistanda hökumət daşnak[1] partiyasına mənsub olub, müzahirət göstərən parlaman əksəriyyəti dəxi daşnaklardan mütəşəkkildir.

Azərbaycanda isə öylə degildir. Əvvələ, hökumət firqəlik cəhətindən yekrəng deyildir və məlum olduğu üzrə müştərəkdir. Yəni hökumət əzaləri müxtəlif firqələrə mənsubdur. Yalnız bir "İttihad" partiyasından hökumət içində əza yoxdur. Boylə olan surətdə lazım gəlirdi ki, yalnız bir "İttihad" partiyası xilafgirlikdə (apazisiya) qalmağa, yerdə qalan fraqsiyalar ki, kabinəyə şərikdirlər hökumətin müzahiratına istinad edəcəyi əksəriyyəti təşkil edə idilər, əvvəllərdə öylə də oldu. Lakin sonradan "Sosialist" və "Əhrar" fraksiyaları tərəfindən əmdən və səhvən vaqe olan dönüklük hökumətin müzahirət istinadgahını rəxnədar etdi, yəni hökumətə müzahirət göstərən qism yalnız bir "Müsavat"dan ibarət qaldı. Bunun üzərinə hökumət istefaya məcbur oldi.

İş bundadır ki, parlaman əksəriyyətinin müzahirəti olmazsa, hökumət öz məqamını möhkəm ədd edə bilməz. Yəni hökumət özünü "tikan üzərində oturmuş" bir mövqedə hiss edib hər işində tərəddüd



göstərməyə məcbur olar. Gördigi tədbirlərin düzlətdigi layihə qanunların təqib etdiyi siyasətin qarşısında məsul olduği parlamanın qəbul və təsvib edib etməyəcəgini əksəriyyət müzahirəti olmadığına görə təxminə qadir olmayan hökumət nə tövr iş görə bilər və boylə bir hökumət vücudi nəyə lazım olar?

Ona görə hökumət təşkilini üzərinə götürmüş olan zatən çalışdığı təbii o yolda olacağdır ki, başında durduğu hökumət parlaman əksəriyyətinin müzahirəti tərəfindən təmin edilmiş olsun.

Fəqət bu zatın digər bir arzusu dəxi vardır. O da təşkil etdiyi hökumətin içinə daxil olacaq əzalərin həm özləri şəxsən və həm də bunlara tovdi ediləcək portfel təqsimi o zatın ki, rəis olacaqdır, məramına müvafiq gəlsin. Bu da təbii bir arzudur. Rəis müvafiq bilmədiyi bir adamin öz tərəfində isbat və cud etməsinə razı olmaz o səy edəcəkdir ki, özünün təht riyasətində işləyəcək olan adamlar rəisin proqram yürütməginə xələl yetirməgib biləks kömək etsinlər.

İştə buna görədir ki, bizdə böhran bu qədər uzun çəkir. Parlamanımızda bir fraksiya yoxdur ki, təklikdə əksəriyyət təşkil edə bilsin. Öylə bir fraksiya mövcud olsa idi, hökumət əzaləri dəxi eyni fraksiyadan mənsub olduğu firqədən təşkil edib əksəriyyət tərəfindən dəxi təmin edilmiş olardı. Gürcüstan, Ermənistan kimi təklikdə əksəriyyət təşkil edə bilən fraksiya olmadığına görə əksəriyyət təşkili üçün bir neçə firqəsinin iştirakı lazımdır, bunun hüsuli üçün də bu fraksiyalar arasında etilaf və müvafiqət əqdi iqtiza edər. Müvafiqət üçün dəxi o tərəfin və bu tərəfin ikilikdə bir şeyərazı olmaqları istəniliyor.

Bu günə qədər firqələrin hamısının razı oldıqları bir şey varsa o da Nəsib bəy həzrətlərinin vükəla rəisligınə intixab edə bilməsidir. Buna hamı razıdır. Lakin məsələni uzadan və böhran içində bir böhran yaradan fraksiyaların portfel təqsimi işinə qarışmalarıdır. Parlamentarizm məntiqicə iş boylə olmamalı idi. Madam ki Nəsib bəyə etimad edilib də kabinə təşkili ona həvalə olundi, o halda portfel təqsimi əmrini də ona tapşırmalı idi. Lakin nədənsə bu məntiq unuduldu məntiqsizlik olaraq Nəsib bəyə bir tərəfdən etimad edildisə də, digər tərəfdən edilmədi. Bunun üzərinə idi ki, Nəsib həzrətləri kabinə təşkili əmrindən imtina etməgə məcbur olmuşdu. Çünki

məramına müvafiq olmayan bir heyətə rəislik etmək mümkün iş deyildir. Mümkün olsa da rəisin mənası olmaz "yalançı pəhləvanlar" məsələndə nüfuz və heysiyyətsiz bir şey olar ki, rəsmi görnüşdən başqa özgə bir mənisi qalmaz. Əlbəttə, boylə bir hökumət təşkili heç bir kəsi xoşnud edə bilməz.

İştə bu mülahizələrdən dolayıdır ki, kabinə böhranı bir bu qədər uzun çəkir.

Lakin bunlar hamısı böhran davamının zahirdə olan təxniyyət cəhdləridir? Bunun digər bir ətəni cəhti dəxi var ki, o da firqələr arasında mövcud olan cidal siyasidən nəşət edən firqəvi mübarizədir ki, bunun şərhi ikinci bir məqaləyə möhtacdır.



## MƏMLƏKƏTİMİZİN HALI NASILDIR?

Parlaman mətbuatında sağ və sol tərəf müxaliflərinin başlarında və qəlblərində məzən bir mərz vardır. Həqiqəti müxalifətə fəda etmək müntəq və əqilli bir tərəfə atmaq.

Bir məmləkətdə müxalifətin qiymət və səmimiyyəti o zaman təsdiq olunur ki, müəyyən və müştərək mənfəətlər iyicə bilindikdən sonra millətin həyat siyasiyə və amal milliyyəsinə nəsib əDd edilən məsələ və mövzulərdə ixtilaf edilsin.

Bu müxalifət məqul və mötəbərdir. Əgər boylə bir müxalifət olursa hal təbiiydə yaşayan bir camaətə, camaətin, hökumətin və təbii olduğu siyasi cəryanın fənalıqları, xətaləri, nöqsanları həqqında bir qənaət, bir fikir vermək mümkün olur.Yoxsa gəlişigözəl söz söyləmək.Tənqid olsun diyə hər əqlinə gələni yazıb-cızmaq boş bir laf və güzaf olub qalır.

Biz biliriz ki, sol tərəf müxaliflərinin şüarları inqilabçılıqdır. İnqilabçılığın məntiqi yıl digər məntiqi dört bir tərəfə dönən və heç bir tərəfdə səbat etməyin rəngsiz, məcazsız, təbiətsiz bir şeydir.

Sol hökumət təşkili platformasında ittihad və iştirak elər. Bir az sonra hökumətə sorğulat verər, hökumətdən iftiraq edər.

Sağ tərəf hökumət platformasının əsaslarına tərəfdar olur. Sonra o əsasları öz əlilə pozmağa çalışır. Sağ tərəfin əlamət fariqəsi, nə hökumətdir, nə də hökumətsizlikdir. Ancaq durğun suyu bulandırmaq.

Az-çox müxalif qəzetələri oxuyan və müxaliflərin tənqid və təriflərini eşidənlər də heyrətlər içərisindədir:

– Nə olmuş, nə varmış?

"Zəhmət sədası" məmləkəti böyük bir bəla və fəlakət içərisində görüyor. Məmləkət batıyor, hökumət yox, rüşvət alanlar çox, məhkəmələr pozuq, burjuylar ciblərini dolduyor, füqərayi-kasibəsi yoluyor. Sağ tərəfdə "İttihad" isə daha böyük vəlvələ çıxarıyor. Bugünki varlığımız, daxili və xarici siyasətimiz bərbaddır. Bizim dedigimizə kimsə əhəmiyyət vermiyor. Hər kəs öz cibinin faydasına baxır və sairə.

Təəccübdür, bir məmləkətdə parlamentar bizim üsuli olduğdan və demokratik bir cümhuriyyətdə bulunduğundan sonra nə üçün hər fərd əqlinə və məntiqinə görə dilini işlətməsin?

Hökumət göydən enmiş bir şeymidir ki, hər yazı yazanın, hər ağzı işləyənin boş tənqid və təərrüzlərinə məruz qalsın? Parlaman kürsüsündə "mətbuat qanunu" müzakirə edilər ikən cümhuriyyəti o qüvvə təşriyyəsi ilə yaşayan bir hökuməti Nikolay və Əbdülhəmid hökumətlərinə təşbiyyə etmək müxalifətmidir, yoxsa məlamətmi? Xeyr! Burada heç bir əsas yox, heç bir fikir də yox! Ancaq şəxsi tərzlər və şəxsi rəqabətlər var.

İştə bu mərzlə məlul olan "İttihad" da son nömrəsində məqaləmizin sərlövhəsinə qoyduğumuz "Məmləkətimizin halı nasıldır?" ünvanilə Q.B.Qarabəyli tərəfindən yazılmış bir baş məqalə vardır.

"Məmləkətimizin halı nasıldır?" "İttihad" izah ediyor: "Bu suala veriləcək cavablar o qədər çox və bir-birinə müxalifdir ki, xaricdən gəlub məmləkətimizin əhvalına, cəyan edən vüquətə aşinə olmayan bir zat verilən müxtəlif cavablar qulaq asub eşidəcək olursa, şəxsi qərarını vermək üçün çox mühüm və müşkül bir mövqedə qalmaq məcburiyyətindədir ki, bunu hər kəsin etiraf etmək əlzəm və labüddür!"

Məmləkətin halını tərif və təsvir etmək üçün boylə qapqara bir bədbinlügi taxmadıqda müxalıfətmidir? Bu müxalifətdən ziyadə qeyr-səmimi və isterikə yazılardır ki, hədəfi pozğunçuluq, xərabətdir.

"...Məmləkətimiz, istiqlalımız bir qaç mənfəətpərəst şəxsin intiriqası ilə böyük bir böhran içində bulunur ikən qeyr şəxslərin maskası altında oynamasilə vətənimiz daxili və xarici müdhiş bir təhlükənin ərəfəsindədir!.."

Bu sətirləri də mühərririn baş məqaləsinin müqəddiməsində təsvir etdigi xarici bir zatda oxumuş olsa ilk xatirinə gələcək olan şeyi bu məmləkətin oliqarş halında bulundığını fərz etmək olacaqdır. Əcaib şey! Parlaman və cümhuriyyət üsuli-idarəsində yaşayan bir hökumət bir qaç şəxsin intiriqası altında bulunduğunu və müdhiş bir təhlükə qarşısunda olduğunu "İttihad" mühərriri görmüş bilmiş də başqa bir kimsə görüb anlaşmamışmıdır?

"İttiham"ın son nömrüli məqaləsini (Məmləkətimizin halı nasıldır?) sərlövhəli yazılarını oxuduqdan sonra məmləkətin halından heç bir şey anlamadığım halda fəqət gərək sağ və gərəksə sol tərəf müxalifləri həqqində qəti bir fikir edəndəm:



– Məmləkətin halı nasıldır?..

Cəvab: Sağ və sol tərəf müxaliflərinin yəhud və bisud və pək ziyadə vətən və məmləkətşəkən hücum və tənqidləri baqi qaldıqca pək fənadır, qeyr-müthəməldir, yəsavərdir.

İştə "Məmləkətimizin halı nasıldır?"məqaləsindən çıxan zehniyyətlərdən anlaşılacaq bir şey!..

## ƏSASSIZ TƏLƏB

Dabrovol komandası dünənki nömrəmizdə yazıldığı üzrə "tələb" edir ki, bəhri-Xəzərdə Azərbaycanın nə ticarət və nə də hərbi gəmiləri olmasın. Bu tələbə bir əsas olmaq üzrə 1828 sənəsində Rusiya ilə İran arasında əqd edilmiş olan "Türkmənçay" müahidəsindən[1] bəhs edilir. Məlum olduğu üzrə bu müahidəyə görə Xəzər dənizi İran diplomatlarının rəyincə heç bir vecə gəlməyən "abi-şor" olduğuna görə tamamilə rus hakimiyyəti təhtinə keçib istər ticarət, istər hərbi gəmilər saxlamağa İranın həqq və səlahiyyəti olmadı.

Əlbəttə, müstəqil Azərbaycana heç bir dəxli və rəbti olmayan "Türkmənçay" müahidəsi dabrovolların tələbinə həqq verə biləcək bir əsas təşkil etməz. Bü müahidə bəhsi bir bəhanədir və bu bəhanə ilə verilən tələb dəxi Azərbaycan hüququna təcavüzdən ibarət bir hərəkətdir. İran-rus müahidələri əsas tutulmaq üzrə Azərbaycana tələblər vermək caiz görülərsə, o halda "Türkmənçay" müahidəsilə Xəzər dənizindən əl çəkməgə məcbur olan "Azərbaycan-Gülüstan" müahidəsilə[2] də Qarabağ, Gəncə, Bakı, Şirvan və bir kəlmə, tamam Azərbaycan torpağından əl götürməyə, yəni öz-özünə yox olmağa vadar olacaqdır.

Dabrovol komandasının bu hərəkəti ola bilər ki, Denikinin Azərbaycan həqqındakı qəsdinin qövldən fелə çıxarılmaq yolunda birinci iqdami və "Azərbaycan səfəri"nin ibtida və başlanğıcıdır. Bəhanənin boş və əsassızlığı bu mülahizəyə təyid edən keyfiyyətlərdən hesab edilməlidir. Hər bir həqsiz təərrüz və təcavüzün bəhanəsi bir mötad, boş və əsassız olar. Özünü güclü və müqabil tərəfi gücsüz hesab edənlər təərrüzlərinə bir müqəddimə olmaq üzrə ortaya biməni və məntiqsiz bəhanələr atarlar.

Fəqət bu qürur sahiblərinin əksər ovqat elm hesabda xam və naşi olduqları, acı peşmançılıqları mucib olan səhv və xətaları ilə isbat edilib iş, sahibi-qürurun heç də gözləmədigi və istəmədigi bir vəziyyətə dönməklə başqa nəticələr verir.

Denikinin Azərbaycanı nə hesab etdigini bilməyirik, ancaq bunu bilirik ki, Azərbaycan Cümhuriyyəti öz dənizini "abi-şor"ədd edəcək dərəcədə kutahbin olmamaqla bərabər öylə bir qərar



hökmünə məcbur olacaq halda dəxi deyildir. Azərbaycan öz hüququnu müdafiə yolunda heç bir şeydən çəkinməyəcəkdir.

Azərbaycan üçün dəniz məsələsi can məsələsidir. Bu məsələyə əl vurmaq Azərbaycanın canına toxunmaqdır. Azərbaycan Bakı dənizində hərbi gəmilər saxlamaqla heç kəsi qorxutmaq və heç bir kəsin yerinə təərrüz etmək fikrində deyildir. Onun fikri özünu xarici imperialist və qasiblər tərəfindən müdafiəyə hazır bir halda durmaqdır. Azərbaycanın özgələr yerinə göz dikdiyini heç kəs xəyalına boylə gətirməz. Halbuki özgələrin Azərbaycan torpağı haqqındakı təcavüzkaranə fikri cümləcə məlumdur. Boylə olduğu sırada özünü qurudan mühafizə etmək Azərbaycana borc olduğu kimi, dəniz tərəfindən dəxi müdafiə və mühafizə yolunu əlində saxlamağa var qüvvəsilə səy və qeyrət edəcəkdir.

Azərbaycan Cümhuriyyəti demək olur ki, artıq beynəlmiləl bir əhəmiyyəti haiz olan bir məsələ surətinə keçmişdir. Bu nöqteyi-nəzərdən bolşeviklıklə muharibə üçün denikinlərə müzahirə göstərən Antanta və baxüsus ingilis məhafili-rəsmiyəsi və əfkari-ümumiyyəsi Denikinin Azərbaycan qəsdinə müvafiqət nəzərilə baxa bilməz və bu təərrüzə qarşı rui-riza göstərən Denikin Antanta müzahirətindən məhrum edilərsə, pulsuz və ləvazimati-hərbiyyəsiz qalmaqla heç bir şeyə qadir olmaz. Qərəz mahal olaraq Antanta bu məsələyə qarşı laqeyd qalsa boylə Azərbaycanın öz hüququnu mənafe etmək üçün ixtiyarında olan vəsilələri və həqiqi vasitələri çoxdur.

## GÜRCÜSTANDAKI HƏVADİS

Bu axır günlərdə Gürcüstanda iğtişaş və üsyanlar əmələ gəlir deyə dövran edən şayiələrin əsası olduğunu və bu üsyan hərəkatının nə rəngdə olub, nə kimi məqsədlər təqib etdiyini Gürcüstan hökumətinin dünənki nömrəmizdə dərc etmiş olduğumuz rəsmi təbliğatdan anladıq.

Vaqeən Gürcüstanda böyük ixtişaş və üsyan hərəkatı varmış və bu hərəkat bolşevik rəngində imiş. Təqib edilən məqsəd dəxi Gürcüstanı və buna aslı olaraq Azərbaycanı Denikinlə müharibə etməyə, daha doğrusu, Denikini Gürcüstan və Azərbaycan üzərinə saldırmaqla araya bir çaxnaşma törətmək və bununla Moskov bolşeviklərinin əlinə fürsət vermək imiş.

Moskov parası və təlimi ilə idarə edilən bu hərəkət müharibə taktikası məntəqənin hökmüncə caizədd edilən bir üsuldur və bu nöqteyi-nəzərdən bolşeviklərin Denikin arxasında müşkülat törətmək və düşmənlərinin başını qarışdırmaq səyləri hər kəscə anlaşılan və bəyanə hacəti olmayan əyan və aşkar bir manevra icrasına çalışmaqdır. Denikin bolşeviklər arxasında müşkülat törətməyə çalışdığı kimi bolşeviklər dəxi onun arxasını qarışdırmaq istəyirlər.

Lakin Denikin arxasını təşkil edən Azərbaycan və Gürcüstanda bolşevikvari ixtişaşlar əmələ gəlməklə və arada bir müharibə vüquna səbəbiyyət verməklə Azərbaycan və Gürcüstan əhalisini ki bu gün hüzur və əmnü-asayişə bərk möhtacdırlar, müxtəlif fəlakətlərə, ənva müsibətlərə düçar etmək və bəlkə məhvini mucib ola biləcək naçar bir vəziyyətə salmaq olar. Bolşeviklər bunu nəzərə alırlarmı?

Xeyr almayırlar. Onlar üçün Gürcüstan və Azərbaycanın istiqlalları; əhalilərinin asayiş və istirahəti, məmləkətlərin əmnü-amanlığı bunlar hamısı cəhənnəmə, təki Moskov bolşeviklərinin işi asanlaşsın.

Bu gün Ukraynada çaylarca qanlar tökülür, minlərcə xanimanlar bərbad edilir. Oraların əhaliləri yenicə işıqüzü görüb, təzəcə azad olmuşdurlar ki, üzərinə təkrar qaranlıq çöküb yenə əsir olmağa başladılar. İştə bu zülməti yırtıb, genə işığa çıxmaq, əsarət zəncirini qırıb, genə azad olmaq üçün buraların əhaliləri "ya istiqlal, ya ölüm" deyərək qılınca sarılmış dabrovollar istilasına qarşı qiyama qalxmışdırlar. Əcəba, nədən bunlar azad ikən təkrar əsir oldular ki, indi də qanlarını axıtmağa və xanimanlarını bərbad etməyə vadardılar? Əlbəttə, bolşeviklər intiriqası üzərinə. Moskvanı xilas etmək istəyən bolşeviklər, Ukraynanı zor və cəbr ilə "stratejik" bir meydan halına salıb, Denikini təhdidə başlarkən həm özləri məğlub oldular, həm də özgələri rus irticapərəstləri əlinə verdilər, lakin özləri məğlub olub da qaçıb qurtardılar, əmma Ukrayna əhaliləri fəlakətlər içində musibətlər qarşusında zəbun və sərnigun qoydular. Moskvanı xilas edə bildilərmi? – bilmədilərmi burası hələ müəyyən deyildir. Əmma Ukraynanın istiqlallarını qeyb etdikləri həqiqətdir.

İştə bu oyunu bizim, yəni Azərbaycan ilə Gürcüstanın başında dəxi oynamaq istiyormışlar.

Azərbaycan və Gürcüstan Denikin ilə müharibədən qorxmurlar. Əgər Denikin Azərbaycan və ya Gürcüstan uzərinə hucum etmək istərsə böyük bir müqabilə və muqavimətə düçar olmaqla korpeşmançılıqdan başqa özgə bir şey qazana bilməz. Fəqət madam ki, özümüzə hucum və hüququmuza təərrüz və təcavüz edən yoxdur, o halda təbii bizim də heç kəslə işimiz olmayacaqdır. Bolşeviklər Azərbaycan və Gürcüstanı Denikin ilə müharibəyə sövq və məcbur edərlərsə o halda yalnız bir Denikin degil, bütün Antanta yəni ingilis, Fransa və Amerika və hələ ola bilsin ki, Ermənistan ilə dəxi müharibə etmək lazım gəlməklə istiqlalımız ola bilsin ki, əbədi olaraq əldən getmək təhlükəsinə məruz qalar.

Əcəba, istiqlalımıza Denikin kimi eyni göz ilə baxan bolşeviklər yolunda boylə bir divanəvar fədakarlığımızın nə mənası ola bilər?

* * *

Gürcüstandakı hadisələrin Moskov bolşevikləri əlilə vüqu bulduğu rəsmi təbliğatından anlaşıldığına görə təhəqqüq etmiş bir keyfiyyətdir. Fəqət bu işdə Denikin agentlərinin dəxi əlaqədar olduğuna şübhə yoxdur. Azərbaycan və Gürcüstan üzərinə hucum etməyə və bu əməlini Avropa qarşısında həqlı göründürmək üçün Denikin istər ki, bu yerlərdə bolşevikvarı iğtişaşlar əmələ gəlsin. Ona görə

boylə iğtişaş və üsyanların davam və tövsiy üçün öz agentlərini bolşevik zümrəsinə daxil etdirib, təşviqat və təhrikat yapdıra bilər. Zatən bu zənnin doğru olduğu rəsmi təbliğatdan dəxi anlaşılır. "İdeya" və məfkurə sahibi olan bolşeviklər öz məramlarına yetişmək üçün hər bir vasitəyə təvəssül edirlər. Oğruların, quldurların, qatillərin hər bir cinayət sahibinin əməllərindən istifadəyi caiz bilirlər. Müşənviqlərinin şəxsiyyətini təhqiq etmək və sairə bunlarca əbəs yerə vaxt itirməkdir. Boylə olduğu surətdə Denikin agentləri bunların içinə çox asan vəchlə girə bilər və vəzifələrini gözəlcəsinə ifaya müvəffəq ola bilərlər. Bu üzdən Gürcüstan və Azərbaycanda hər bir bolşeviklik hərəkatı baş verərsə, bundan iki cür təhlükə vüqui-möhtəməl olar.

Gürcü camaətinin, boylə iğtişaş və üsyanlara qarşı göstərmiş olduğu nifrət və gürcü hökumətinin dəxi bu hərəkatı toxdadıb iğtişaşçıların səy və əməllərini səmərəsiz qoymaqla ibraz etdiyi ciddiyyət, ciddi fəaliyyət son dərəcə şayani-təhsin və səzayi-təqdirdir. Azərbaycan ilə Gürcüstan bir-birinə hər bir xüsusda və baxüsus müqəddəratca o qədər yaxındırlar ki, Gürcüstanın əmnü-asayişi Azərbaycanın və Azərbaycanınkı da Gürcüstanın nizam və qaydası vücudilə məşrutdur.

Məqsədi iğtişaş və üsyan törətmək olan siyasi zabastovkaların Azərbaycan hökumət əliylə müdəbbiranə bir surətdə yatırılmasını Gürcüstan millət və hökuməti məmnuniyyətlə tələqqi etdiyi kimi gürcü hökumətinin də bu təhlükənin iğtişaşı dəf və rəf etməsi bizim səmimi xoşnudluğumuza mucib olmaya bilməz. Və hər iki cümhuriyyətin bəqai-istiqlalı üçün qorxulu olan boylə siyasi çıxışların həm Azərbaycanda, həm Gürcüstanda tam bir müvəffəqiyyətsizliklə nəticələnməsi hər iki çümhuriyyətin vəziyyətini möhkəmləndirər.Şan və heyssiyyatını kənardan baxan dost və düşmənlərin nəzərində artırar və istiqlaliyyət ləyaqətimizi fəzlə olaraq bir qat daha isbat edər.



## QOMŞULUQ

İran qəzetələrində və bunlardan baxüsus rəsmi və nim rəsmi şəkildə olanların da Azərbaycan haqqında bir taqım məqalə və əxbarata təsadüf edilməkdədir ki, xeyirxahanə bir qəsd və bəradəranə bir hislə yazılmadıqları istər şivə, istər məzmunlarından aşkar olmaqla bizləri kədəramiz fikirlərə sövq edə bilir.

İran mətbuatının bu münasibəti qeyri-dostanəsindən əlavə, baisikədər olacaq başqa keyfiyyətlər dəxi vardır ki, mövqeyi gələndə onun da bəhsi mətbuatımıza keçəcəkdir.

Qəzetəmizin keçən nömrələrindən birində Məhəmməd Əmin Rəsulzadə həzrətlərinin Azərbaycan və İran munasibəti həqqında geniş və ətraflı bir mütaliyəyi havi gözəl bir məqaləsi var idi. Bu məqalə Azərbaycanın ismindən, daha doğrusu, onun elani-istiqlalından İran gələcəyi üçün xətərlər vüqu ehtimalına pey aparan iranlıların boylə əsassız əndişələrini bilkülliyyə rəf' edə biləcək bir məzmunda yazılmış olduğundan, İran əfkari-ümumiyyəsində və baxüsus bu əfkari-ümumiyyə rəhbəri olan mətbuatında lehimizə olaraq bir təhəvvül və bir rəy dəyişikliyi əmələ gələcəyini qəviən zənn edirdik.

Təəssüflər olsun ki, Azərbayçan məhafili-siyasiyəsində böyük bir əhəmiyyəti olan və İran siyasiləri zümrəsincə gözəlcəsinə tanınan bu zatın kafi və şafi mütaliəsi bəzilərinin həyəcanını təskinə kafi görünmədi. Münasibət eynilə baqi qaldı və etimadsızlıq və əlavə olaraq etinasızlıq politikası heç də dəyişmədi.

Azərbaycanın İrandan ötrü ən səmimi bir xeyirxah olduğunu dəlil və sübutlar ilə isbata bir o qədər də ehtiyac yoxdur. Burasını iranlılar özləri yaxşı bilməlidirlər ki, aramızda dini, siyasi, ictimai və iqtisadi olaraq ən sıxı bir mərbutiyyət və yaxınlıq mövcud olduğu halda, Azərbaycan İrana qarşı bədxahanə bir vəziyyət ixtiyarına yol verməz, çünki boylə vəziyyət lüzumuna arada heç bir səbəb yoxdur. Boylə olduğu halda İranın Azərbaycana etibar və etimad etməyəcəyinə məhəl qalmayır. Cüzi mənası olan hadisələri əgər öylə bir hadisə həqiqətən vaqe olmuşsa, İran ilə Azərbaycanı təhti-məvaxizəyə almaq hal-hazırda dürüst degildir. Çünki yeni təşkil etmiş olan cavan

Azərbaycan hal-hazırda fövqəladə günlər keçirmək üzrədir. Mühafizeyi-istiqlal və təmini-istiqbal üçün heç bir yerdən məzhərət görmək sizin yalnız öz qüvvəsi və öz tədbiri ilə çalışmaqda olan Azərbaycanı cüziyyat üzərinə məqami- mühakimə və məvaxizəyə çəkmək dürüst deyildir. Siyasət işlərinə vaqif olanlarca boylə bir əməl heç vaxt haqlı ədd edilməz, çünki boylə mühüm bir zəmanədəki ceyhan siyasəti öz sima və surətini dəyişmək üzrə olub yeni bir dövr siyasət başlanır, cüziyyat qəbildən olan hadisələrə avamiyanə bir nəzərlə baxmaq ərbabi-siyasət üçün caiz ola bilməz.

Siyasiyyat işlərinə biganə olan və əsrarını başa düşməyən avamın adəti hər cüziyyat üzərinə daima şikayətdir ki, boylə bir adət siyasiyyat ərlərinə mütləqən yaraşmaz. Azərbaycan isiqlalına «prinsib» və əsas üzrə etirazı olmayan zənn etdiklərimizin bir tacirin şikayəti dolayısilə mütəəssir olub da etidal dəmini yetirməsi hissiyata qapılmaqdır.

Halbuki siyasiyyat işləri hissiyat müdaxiləsini qəbul etməz.

Azərbaycanın istiqlalına əsas nəzərilə baxmaq məsələsinə gəldikdə burasını heç kəs unutmasın ki, bu vaqiə boş və əsassız bir macəra deyildir, bəlkə Azərbaycan islamlarının sələmət bir iradəsi, hökmü ilə bərabər mühitimizin cərəyan və qayeindən doğan məqbul bir məntiq təcvizi ilə əmələ gəlmiş mühüm bir əmri-vaqedir. Bu əmri-vaqei kim bəyənir və kim bəyənməz məsələsi Azərbaycan islamlarının iradəsini dəyişə bilməz. Və boylə bir məsələyə əhəmiyyət verilmiş olsa idi əvvəl-əvvəl rus xalqının rəyi nəzəri-etinayə alınmış olardı ki, bu işlərə doğrudan-doğruya əlaqədər odur və özünün də qüvvəti hələ böyükdür, fəqət bununla boylə İran hökumətinin Azərbaycan istiqlalı haqqında özünəməxsus olan fikrini, rəyini, müsbət olsun və ya mənfi olsun, müəyyən surətdə bilmək istərdik.

Məmləkətimizi ziyarətə gələn Yevropa nümayəndələrinin bizə qarşı söylədikləri xoş sözləri, göstərdikləri hüsni- rəftarı biz "Avropa" bizim istiqlalımızı mütləq tanıyor",– deyə dəlil göstərmək istəmədiyimiz kimi, İran mətbuatının acı sözləri, tacirlərin yersiz şikayətlərini də "İran dövləti istiqlalımızın bədxahıdır deyə,– boylə tələqqi etmək istəmiyoruz. Biz bilirik ki, bizim həqqımızda nə



Avropa, nə də qonşumuz İran hələ müəyyən bir qərara gəlməmişdir. Bizə boylə görünür ki, İran dövləti Avropanın qərarını gözləyir. İştə bu fəqərəni biz istəməzdik və istərdik ki, İran dövləti bu məsələdə özünü Avropaya tabe etməyib də müstəqilən hərəkət etsin və bəri başdan öz qərarına hökm versin. Avropa bizi təsdiq edərsə, İran da edər və ya etməzsə, İran da etməz olacaqsa o halda mətbuat dedi-qodularının nə mənası? Halbuki İran bizim istiqlalımızın bəqa və fənalığına heç bir vəchlə laqeyd bir nəzərlə baxa bilməz. O mütləq iki şeydən birinə müstəqil olaraq hökm verməlidir. Olsun və ya olmasın. Çünki əvvəl-əvvəl biz onun qonşusuyuq binaən əleyh əlaqə və rabitə lazım gələcəkdir. Vəilla bugünkü şikayətləri həqlı da olmuş olsa rəsmi əncamı mümkün deyildir, Əgər bu gün İran müstəqil olaraq Azərbaycan istiqlalı həqqındakı fikrini rəsmən elan edərsə, onu heç kəs məzəmmət edə bilməz.

Arjentin Cümhuriyyəti Gürcüstan istiqlalını rəsmən tanıdığını elan etdi. Buna kimin bir sözü olacaqdır. Arjentin Cümhuriyyəti istiqlaliyyəti "prinsipini" qəbul etmiş, ona görə də Qafqazda bir Gürcüstan istiqlalı əmələ gəldiyini eşitcək həman dəm rəsmən tanımışdır. Hələ qonşuluq, müsəlmanlıq təəssübü kənarda dursun, bugünə qədər istiqlali daima təzyiq altında olub bü üzdən ənvai-fəlakət və müsibətlərə təhəmmul edə, gələn İran istiqlal "prinsipi" həqqında müstəqil bir fikrə malik degilmi ki, bu fikrin ifşasını bir bu qədər çək-çevirə salır.

Əlqərəz, İran ilə Azərbaycan arasında rəsmi bir münasibət peydası vücudpəzir olmamış bizə qarşı edilən şikayətlər yersizdir və yersiz olduğu qədər də hər iki tərəf üçün zərərdir.

## ÇÖRƏK BAHALANMASI

Neçə vəxtdan bəri istər hökuməti, istər əhalini əndişələrə salmaqda olan çörək bahalanmasının ən ümdə səbəblərindən başlıcası aşkara çıxdı. Bu səbəbi nəzərə alarkən bir tərəfdən şükür etmək lazım gəlib, əmma digər tərəfdən qızmamaq mütəəssir və mütəğəyyir olmamağa qabil degildir.

Şükür etmək lazımdır ki, çörək bahalanmasının baisi qəhətlik və taxıl qəhətliyi degildir. Azərbaycanda mövcud olan taxıl sair cümhuriyyətlərə nisbətən boldur, o qədər boldur ki, bütün əhalini görər, münasib qiymətə çörək yedirdər və bu kimi, həyat və məişət üçün ən zəruri olan azuqədən kimsəyə bir korluq çəkdirməz.

O halda Azərbaycanda çörək bahalanması süni və qeyri-təbii bir haldır. Doğrudan da o boylə imiş. Ticarət nəzarəti tərəfindən qurulmuş şurada ki təfsilatı bugünkü nömrəmizdə mündəricdir bahalıq səbəblərinin ən başlıcası ehtikar olduğu aşkara çıxır.

İştə qızmaq və mütəəssir olmağımız da bu üzdəndir. Vətənimizdə öylə vücudlar var ki, pul-para qazanmağa əşədd dərəcədə həris olduqlarından vətən mənafeyini bu yolda qurban etmək tamahkarlığına qədər varır və qəlbində heç bir vicdan sızıltısı hiss etmədən boylə böyük bir xəyanət irtikabına cəsarət edirlər. Bir çoxları bədbəxtanə öz millətimizə mənsub olan bu vicdaısızlardan ötrü heç bir əziz və əqdəs şey yoxdur. Məgər para, Vətən məhəbbəti, millət təəssubi, dövlət qeydkeşliyi bunların ürəklərinə yabançı və biganə olan hissiyyat qəbilindəndir? Çörək bahalığı cavan hökümətimizi onsuz da mühüm işləri çox olduğu halda yeni müşkülatlara sala bilər, fikri əhali üsrətə düçar olar, təsəvvüratı bunların başına girməz, çünki bu baş yalnız bir fikirlə məşğuldur ki, o da pullanmaqdan ibarət olsun.

İştə pullanmaq hərs və təmə sayğısilə vətənimizin öz əhalisi üçün mədari-məişət olan taxılını müxtəlif hiylələrlə yığıb vətəndən dışarı çıxarıb, özgələrə satıb mənfəət görürlər. Müştəriləri də düşmənimiz olsun, dostumuz olsun, kim olur-olsun təfaüt yoxdur, təki para verən olsun.



Vətən mənafeyini paraya satan, əhalimizi üsrətə düçar edən və bu yol ilə məmləkətimizdə müşkülat törədən ehtikarçılara "dövlət xaini" deyə hökm vermək caizdir. Ona görə bələlərinin cəzası da xəyanət cürmini içab etdiyi cəzadan ibarət olmalıdır. Azərbaycada heç bir şeyin bahalığı çörək bahalığı kimi fəna nəticə verməz. Çünki cəmaətimiz baxüsus kənd əhli və füqərayi-kasibə sinfi məhz çörək ilə dolanmağa adət etmişdir. Bəzi yer var ki, dügü, kartof və peyğəmbəri ilə də dolana bilər, halbuki Azərbaycan xalqı ancaq taxıl çörəyinə öyrənmişdir və mədari-məişəti ancaq budur. Azərbaycan füqərayi-kasibəsi ətsiz dolana bilər, əmma çörəksiz dolanmaq mümkün deyildir. Odur ki, baha qiymətə çörək almağa qadir ola bilməyən cəmaət qarın toxluğu görməyib, yarımac qalacaqdır. Bu hal isə yəni qəzanın kifayətsizliyi curbəcür naxoşluqlara səbəbiyyət verib, əhalini fəlakətlər və hökuməti də təzə müşkülat qarşısında müztərib qoyar.

Fövqülzikr şuranın çörək bahalığını rəf etmək ehtikarə qarşı şiddətli bir mübarizə açmaq və hökumət əlində çörək ehtiyatı tədarükünə mubaşir olmaq kimi qərarları məqul və vacib tədbirlərdir. Bu tədbirlər mütləqən qəbula keçməli və bilatəxir icrasına şüru edilməlidir. Bu xüsusda əhali dəxi bacara bildiyi kömәgi bu mühüm işlə əlağədar olan hökumət əzalarından müzayiqə etməməlidip.

## BÖHRAN DOLAYİSİLƏ

Bu qədər vəxt imtidad edən kabinə böhranı demək olar ki, artıq bitmək üzrədir. Ehtimal bu günlərdə başda təkrar Nəsib bəy Yusifbəyli həzrətli olmaq üzrə yeni kabinənin məramnaməsini dinləmək həzzinə nail olarıq.

Böran davam edərkən keçirdiyimiz günlər, siyasi əhvallar və cümhuriyyətlərimizin xarici və daxili vəziyyəti eyni halda qaldığından, mucibi-xovf və əndişə heç bir təhəvvülat və təbəddülat müşahidə edilməyindən calibi-diqqət bir hadisə və ya bir vaqe sərzədeyi-zühur olmadığından böhranın nə zərəri və nə fənalığı var ki, bunun vüqundan dolayı bu qədər əndişələrə, bu qədər qorxulara qapılıb da böhran törədən məzəmmət edilirdi – deyə təbii bir sual xatirə gələ bilər. Zatən boylə sual verənlər vardır və sualları da bir tərəfdən haqlıdır, çünki vaqeən məmləkət və əhali böhran vücudini heç də hiss etmədi.

Böranın uzanmasından bir fəna nəticə hasil olduğunu görməyib təşvişini sakit etdi və "qoy böhran nə qədər uzanır uzasın",– deyə bu fikirlə barışdı və öz işinə məşğul oldu. Hər halda böhran vüquinin və uzanmasının məmləkət üçün zərər və təhlükəli olduğunu qəlbində bir qənaət hasil etmədi.

Azərbaycanda kabinə böhranının vüqui və bu qədər imtidadi zənn edirəm degil, yalnız azərbaycanlılar üzərində bəlkə kənardan baxan xeyirxah və bədxahlarımız üzərində dəxi heç bir təsir buraxmadı. Çünki böhran vüqui məmləkətin nə daxilində və nə xaricində ciddi bir hal əmələ gəlmiş olduğunu meydana çıxarmadı. Böhran vüquini mütəaqib heç bir hadisə baş vermədi və Azərbaycan işləri necə ki vardı, eləcə də adi cərəyanla davam etdi. Mötadi üzrə gözlənirdi ki, "Azərbaycanda böhrani-vükəla vüqu buldu" teleqramından sonra "məmləkət anarşi içindədir", yaxud hökumət-flan partiya əlinə keçdi" yainki "üsyançılar şəhəri işğal etdilər" kimi teleqramlar dəxi varid olacaqdır. Lakin boylə teleqramlar çəkilməsinə məhəl yoxdu, çünki Azərbaycanda heç bir fövqəladə təbəddülat və hadisat baş vermədi və binaən əleyh



kənardan baxanlar dəxi bizdə kabinə böhranı mövcud olduğunu həman unutdular və laqeyd qaldılar.

Vaqeən boylə mi oldu? Bu qədər uzun müddət davam edən kabinə böhranının məmləkətimiz üçün fəna təsiri olmadımı? Bəlkə fəna cəhətini əhali sezmədi, dərk edə bilmədi və onu dərk edənlər yalnız siyasət ərbabi oldu?

Xeyr! Madam ki məmləkət və əhali bir bu qədər vəxt davam edən böhran vücudunu hiss etmədi və fənalığını dərk etmədi, görünür ki, hiss ediləcək bir şey yoxmuş və vaqeən heç bir fənalıq da sühur etməyib, işlər öz qaydası ilə getdi.

Əcəba, bu nə üçün boylə oldu? Və nədən bu böhran əhali və məmləkət üçün "azar" etmədi?

Bu sualın hər cavabı bu ola bilər ki, böhran vaqe oldusa da məmləkət başsız qalmadı, çünki yeni kabinə əmələ gəlincə, köhnə kabinə əzaları öz yerində olub işlərinə davam etməkdə idilər.

Fəqət bu cavab doğru olsa da məsələnin zahirinə aiddir, halbuki əsl mətləb məsələnin batini cəhətindədir və bu cəhəti əyan edə bilən cavab yalnız budur ki:

– Böhran öz süni və qeyri-təbii olaraq vücudə gəlmiş bir keyfiyyət idi.

Vaqeən böhrandan qabaq məmləkətdə heç bir fövqəladəlik baş verməmişdi ki, təbii bir böhran vüquinə səbəbiyyət verə idi. Dövlətimizdə ciddi və mucib əndişə hal törənməmişdi ki, bunu zühurunu hökumətin tədbirsizli, bacarıqsızlıq və sui-idarəsinə həml etmək ola idi. Yaxud kənari bir fövqəladəlik dəxi meydanda yox idi ki, hökumət onun rəf və dəfində aciz qalmış ola idi ki, bu səbəb dolayısı ilə də iş başından çəkilib zimami-dövləti bacarıqlı əllərə verməyə məcbur qala idi.

Biləks, hökumət öz işində möhkəm durub müvəffəqiyyət ardınca müvəffəqiyyət qazanmaqda, məmləkəti xətərli günlərdən salamat keçirib də əmnü-amanlığa çıxarmaqda, xarici və daxili vəziyyətini möhkəmlkəndirməkdə ikən birdən yersiz yerə böhran! Nə səbəbə?

O səbəbə ki, sosialist fraksiyası içində ayrılıq əmələ gəlib, sağ, sol və ortaya bulunmaqla, solların sağlardan razı olmadığını, sağ

## MƏCBURİ QƏRARDAD HAQQINDA

Bakı müstəhkəm dairəsinin hərbi general-qubernatoru, general-mayor Murad Gəray (Dilxas)[1] həzrətlərinin məcburi qərardadı ki, paytəxtımızı artıq adamlardan təxliyyə etməyə dairdir. Əhali arasında, daha doğrusu, yabançılar miyanında bir çox köftigulara, yanlış təfsilələrə və hətta müftanə təhrikatə səbəbiyyət verib mühəlli mətbuat səhifələrinə dəxi keçibdir.

Təəccüb işdir! Məhz bu qərardada qarşı protesto edənlərin sanki heç bir şeydən xəbərləri yoxmuş və boylə bir qərardada birinci dəfə olaraq Azərbaycanda eşidib başqa məmləkətlərdə və sair dövlətlərdə dəxi mövcud olduğundan xəbərdar deyilmişlər...

Halbuki boylə bir qərardadın ən adi və ələlümya cari bir tədbirdir ki, iftizai-zəmana görə hər məmləkətdə və hər bir şəhərdə mövqeyi-icariyyə qoyulmaqla həyata tətbiq edilər.

Bu adi tədbiri icab edən keyfiyyət zamanın fövqəladəliyidir. Əgər zaman fövqəladə bir halda olmasa idi, şübhəsiz ki, boylə bir qərardad dəxi sadir olmazdı və olsa idi, bizim dəxi istiqraimizi mucib ola bilərdi.

Və halonki bir tərəfdən ərzaq müşkülatı, bahalıq artması, son dərəcəyə varmış olan ev və mənzil böhranı və bunlardan dolayi hər bir həyasızlığı ötmüş ehtikarçılıq hərsi, digər tərəfdən şəhərimizin yabançı bədxahlarla dolması və bu üzdən hər bir casusluq üçün müsaid şərait təşkili, əlavə oğurluq, soyğunçuluq və sairə cinayət irtikabi boylə bir məcburi qərardadı filhəqiqə məcbur edib tətbiq və icrasını naçar va vacib bilibdir.

Ona görə boylə bir vacibül-icra qərardada qarşı protest edənlər və bundan məmnun olmayanlar o adamlardırlar ki, onlardan ötrü şəhərimizin müşkül halı və ya başqa xətərləri ürəklərini heç bir əndişəyə salmayır və başlarına heç bir qayğı fikirləri gətirməyir...

Sabiq Rusiya millətləri arasında mədəniyyət, zəka və istedadca ən aşağı hesab edilənlər Azərbaycan türkləri əsarət altından qurtarıb da istiqlaliyyətə nail olduqdan sonra nizam və qaydaca, əmnü-asayişcə, hətta eyş və istirahətcə kənardan baxanların qibtəsinə mucib



olan bir dövlət təşkili ilə haqlarında mövcud olan fikir və zənnin nə qədər yanlış və nə qədər fahiş bir xəta olduğunu isbat etdilər. Mədəniyyət zəka və istedadın əsl sahibi kim olduğunu siyasi və dövləti bir istedadi-ibraz ilə bütün aləmə bildirdilər. "Mədəniyyət, istedad və zəka sahibi" ədd edilənlərin dürüşt, cahil və layiqsiz idarəsi altında viranə və xarabazara döndərilməkdə olan vətənlərini ləyaqətsiz əllərdən istirdad etdikdən sonra, layiqli və yaraşıqlı əllərinə alıb da hüsni- idarələri sayəsində viran ikən abad etdilər, nizam və qayda qoydular, əmnü-asayiş bərpasına çalışdılar və əlhasil burasını bir istirahət məkanı yapdılar.

İştə bu istirahət məkanından məhrum edilmək, buradan çıxmaq, cənnətdən qovulmaq mənzələsində olduğundan bir çoxlarının xoşuna gəlmiyor.

Fəqət məlumdur ki, "buğda yeməyənlər cənnətdən qovulmazlar"[2] və hər kəs qovulacaqsa, "buğda yedigine görə" olacaqdır. Doğrudur, bizim cənnətimizdə buğda yemək məmnu deyildir, fəqət buğdamızı yeyib də üzümüzə xorlanmaq və buğdasını yedigi ağacın kökünə balta vurmaq bundan sonra məmnu olduğundan boylə naşükürləri və cənnət əhli olmayanları cənnətimizdən kənar etmək lazım gələcəkdir.

Bakı ilə əlaqədar olan azərbaycanlılar buraya gəlib də, özləri üçün öz paytəxtlarında sükunət etmək üçün mənzil bulamıyorlar, ondan ötrü ki, bütun mənzil və evlərimizi yabançılar işğal edib, hələ işğal etdikləri bəs degil ki, bu yolda bir mənfəət dəxi qazanmaq üçün ehtikarçılığa irtikabla mənzil böhranı əmələ gətirirlər.

Hökumət öz məmurlarını yerləşdirmək üçün nə mənzil tapır, nə məkan. Hamısı özgələrində, mənzil kirayəsi göyün üzünə qaldırıldığından gözünü yalnız məvacibinə dikmiş olan məmur çöllərdə qalmağa və ya it yatmaz daxmalarda məskən etməyə məcbur olur. Halbuki saraylar kimi imarətlər boylə adamların əlindədir ki, nə azərbaycanlıdır, nə də Azərbaycana bir köməklik mənfəəti vardır.

Şəhərimizə gətirilən azuqə bu qədər qarnı doydurmağa kifayət etməyir, çünki Azərbaycan təbəəsindən əlavə bir də bizim heç də xeyirxahımız olmayan yabançıları devirmək lazım gəlirmiş. Azərbaycan füqərayi-kasibəsi hesabına yemlənməkdə olan boylə

sosialistlərə mənsub olan nazirlərə qarşı ədəmi-etimad izhariylə bildirmək lazım imiş və bir də "Əhrar" fraksiyası kabinəyə etimad etmiş olduğunu yadından çıxarmış imiş...

İştə boylə süni olaraq bilasəbəb bir böhran vaqe oldu, lakin məmləkət və əhali kabinənin hüsni-idarəsindən mənfəətdən başqa heç bir zərər görmədiyinə görə həman idarənin müvəqqəti davamı dəxi eyni əllərdə olduğundan heç bir pislik və fənalığa yol verməməyində dəvam edib, bu süni böhranı böhransız və azarsız keçirdi.

Fəqət burasını nəzərə almalıdır ki, bu böhranın əhali və məmləkət tərəfindən hiss və dərk edə bilmədən keçməsi hər bir böhran vücudunun ziyansız olduğuna dəlil ola bilməz. Ondan əlavə süni böhran nə qədər əhali və məmləkət üçün "ziyansız" olsa da zatında ziyanlı və zərərli bir şeydir. Bunu əhali sezməsə də siyasət işinə vaqif olanlar dərk edirlər. Boylə böhran fənalığını baxüsus böhran keçirən hökumət əzaları hiss edə bilirlər. Bir naziri fərz ediniz ki, böhran vüqui ilə istefa vermiş, fəqət yerinə bir başqası gəlincəyə qədər müvəqqəti olaraq məqamında oturub, " bu gün varam, səbah yoxam" fikrilə işlərə baxmağa məçbur edilmişdir. Boylə bir nazir nə qədər millətpərəst, vətəndust və dövlət qayğıkeş olsa da ruh yüksəkligi ilə, şövq və həvəs saiqəsilə iş görə bilməz, çünki öz mühiti boylə buna müsaid olmaz. Məmurların münasibəti əlaqədar adamların müamiləsi, qərəz hər bir cüzi dəyişiklik ona "bu gün varam, səbah yox" fikrini xatırladıb işdən soyudar və laqeyid bir halə salar...

Parlaman əzaları hökumət böhranlarına saymazyana bir nəzərlə baxmağı zənnimizcə tərk etməlidir. Bir şey ki, yerindən oynamağa adətkərdə ola, axırda "laxlaq" olar. Dəqiqə başına bir böhran törətməklə axırda öylə fəna nəticələrə yetişərik ki, məmləkət və əhali böyük zərər və ziyanlara düçar olar. Kənardan baxanlar nəzərindən dəxi gülünc və mucib məsxərə bir halətə düşərik. Boylə bir nəticələr arzusunda olan parlaman əzalarımız var deyə bu fikri xəyalımıza gətirmək istəməyirik. Bununla boylə fəna nəticələr törədə bilən əməllərdən məmləkət və əhalinin xoşlanmayacağını da yada salırıq və ümidvar oluruq ki, yeni



kabinə boylə süni böhranlar "əməliyyatına" giriftar edilməyib, parlaman əksəriyyəti müzahirətinə ümid ilə istinadgahına mətin və məqamını möhkəm hiss edəcəkdir. Bu isə hökumətin əzm və əzmini artırıb mənəvi bir qüvvət verir və üzərinə götürmüş olduğu ağır yükünü bir dərəcəyə qədər yüngülləşdirir.

yabançıların bir zərurət məqamında, zərərləri olmasa da əl-ayağa dolaşmaqdan başqa özgə bir mənfəətləri olmaz. Bahalıq üzündən soyğunçuluq, oğurluq və sair cinayətlərin artması da təbii bir haldır.

Əlavə paytaxtimizə bilaehtiyat hər kəsi buraxmaq səhlənkarlığındandır ki, oğurluq və quldurluğu özlərinə peşə və sənət ixtiyar etmiş "aferist" dəstələri dəxi burasını özləri üçün bir saheyi-cinayət intixab edib öz əməllərilə nə qədər ziyan və zərər verməkdən əlavə əhalimizin əxlaqını dəxi pozmağa bais olurlar. Polis məmurlarımızdan zəiful-məzacların rüşvətxorluq əməllərinə irtikab etməyi dəxi əksər ovqat bu qəbil yabançıların təşviq və təhrikilə vaqe olur.

Başımız üzərində düşmən durduğu halda şəhərimizdə hər bir qeyri-məsul işsiz-gücsüzlərin sorulurca mövcud olduğu dəxi dövlət mühafizəsi nöqteyi-nəzərindən heç bir halda caiz ola bilməz. Bu üzdən şəhərimizin yabançılardan boşaldılması əmrinin bahalıq və sairdən əlavə bir dərəcəyə qədər hərbi mənası dəxi yox deyildir.

Gürcü hökuməti tərəfindən dəxi Gürcüstan paytəxtinin yabançı ünsürlərdən təxliyyəsi həqqında bizimki kimi bir əmrnamə sadir olmuşdur və biz bu əmrə qarşı gürcü qəzetələrində hələ ki heç bir protest görmədik və gördüklərimiz, biləks, bu əmrin icrasını təmamilə tətbiq etmək tələbindən bulunan məqalələrdir. Boylə bir qayda nəinki Azərbaycan və Gürcüstanda, bəlkə hər yerdə tətbiq edilir ki, bizim protestoçularımız bunu bizdən yaxşı bilməlidirlər.

Arzumuz budur ki, hökumətimiz bu məcburi qərardadı lazımınca tətbiq edib, bu yolda vüqui-mümkün ola bilən müvəssəf hadisələrə və bir də sui-istemalata heç bir vəchlə yol verməsin və boylə olmasın ki, lazım olan adamlar kənar edilib də lazım olmayanları qalsın. Bu əmr hər bir sui-istemalat üçün bir mənbə təşkil edə bilər və səhlənkarlıq nəticəsi olaraq dövlət üçün intizar edilən mənfəətlər hasil olub da əbəs yerə təkdir və xidmət sahibi ola bilərik. Zəif və əlsiz-ayaqsız yabançılar polis əmrlərinə müvafiqət edib də şəhərimizdən xaric olarlar və olub da getdikləri məmləkətdə "bizi Azərbaycandan qovdular" deyə səs-küy salmağa bizi pis qələmə verirlər. Halbuki belələrindən ən zərərliləri olan zirək və diribaşlıları bu qərardadın



hökmündən çıxmaq üçün min cür hiylə və xüdələrə təvəssül edib burada qalar və müzürr əməllərinə dəvam edərlər. Beləliklə, mənfəət əvəzinə zərər sahibi olarıq.

Ümidvarıq ki, hökumət işin bu cəhətini nəzəri-etinayə alıb da bu mühüm əmrin icrasında böyük bir diqqət və ehtiyat göstərməyi xüsusi fərziyat qəbilindən ədd edəcəkdir.

## BU GÜN

Bu gün ki kanuni-əvvəlin[1] ikisidir, Azərbaycan Cümhuriyyətinin paytəxti olan Bakı üçün tarixi mahiyyəti haiz bir gün olmaqla əhəmiyyəti dəxi nəticə etibarı ilə bütün cümhuriyyətimizə şamil olacaqdır.

Bu gün Bakı şəhəri çahar ətrafımızdan gələn və paytəxtimizi ziyarət etmək istəyən mehmanlarını pişvaz üçün hazırlanmışdır.

O mehmanlar, əvvəla, İngiltərə baş nümayəndələr və saniyən, İran xalqının mürəxxəsləri, salisən, paytəxtimizə birinci kərə qədəm qoyan Ermənistan hökuməti rəisi, rabiən Gürcüstan dostumuzun hökuməti nümayandələri həzəratıdır.

İngiltərə hökumətinin Mavərayi-Qafqaz[2] torpağı üzərində təşkil etmiş olan novzad cümruhiyyətlərə qarşı ixtiyar etmiş olduğu sağlam politikası bu kimi mühüm işlərə qarşı göstərməkdə olduğu etina və əhəmiyyət düvəli-müəzzəmə arasında haiz olduğu ali mövqeyinə, şan və şövkətinə və dünki böyük zəfər və qələbələrinə rəğmən bizim kimi yeni doğma bir cümhuriyyətlə vaqe olan müamilələrin də beynəddüvvəl mövcud olan ehtiramata riayət etməsi və baxüsus istiqlalımızın təsdiq və təqviyyəsi həqqında bizə verməkdə olduğu ümidləri təbiidir ki, istiqlaliyyətini bir bu qədər əziz tutan Azərbaycan həqqında bir hüsn şükran oyadıb, meyl və rəğbətini oyadacaq idi. Ona görədir ki, İngiltərə hökuməti nümayəndələrinin paytəxtimizə vurudini Azərbaycan əhalisi həmişə olduğu kimi kəmali- xoşnudi ilə qarşılayıb əziz qonaqlara məxsus olan ehtimatı həqlarında göstərəcəkdir.

Qafqaz millətləri arasında saziş və etilaf bəqasi yolunda bir bu qədər səmimiyyətlə çalışan Orderop və Rey həzrətlərinin özləri dəxi xüsusi olarağ böyük bir izzət və ehtirama layiq zəvat başçılarındandır.

Qonşumuz və həmdinimiz olan İran xalqı mürəxxəslərinin paytəxtimizə vürudi xüsusi əhəmiyyəti haiz olan bir keyfiyyət cümləsindənədd ediləcəkdir. Qafqaz Azərbaycanının müstəqil bir hökumət şəklinə girməsi əmri İran dövləti və İran millətindən ötəri ən böyük əhəmiyyəti olan mühüm bir məsələdir. Ona görə rəsmi və qeyri-rəsmi İran bu əmrin vüqu əqəbincə bu məsələyə lazımınca etina



və diqqət verməyi vacib vəzifələrindən biri bilib, bu əmrə qarşı əlaqə və münasibətlərini bir an əvvəl təyin etməli idi. Biz keçən səfər dəxi məqaləmizin birində bu xüsusda yazıb İranın Azərbaycan istiqlalı həqqında özünəməxsus müəyyən bir münasibət peyda etməsi lüzumundan bəhs etmişdik. Bunun biz azərbaycanlılar üçün dəxi böyük bir mənası olduğuna görə ümid etməlidir ki, paytəxtimizi ziyarət etmək üçün gələn əziz qonaqlarımız iştə bu münasibət binasının əsasını vəzi müvəffəq olmaqla aramızda bir dəm cüzi də olsa vaqe olan dedi-qoduların rəfinə və baxüsus işdən vüqufları olmayan bəzi İran əhlinin bizə qarşı ibraz etməkdə olduğu etibarsızlığın əzələsinə səbəb olarlar. Əlbəttə, paytəxtimiz İrandan əziz qonaqlarımız həqqında lazımi ehtiramatını ifadə qüsur göstərməyəcəkdir. Paytəxtimiz qonşumuz Ermənistan hökumətinin rəisi həzrətlərini kəmali--ehtiramla qarşılamaq üçün dəxi lazımi tədbirdə bulunmüşdür.

Ermənistan ilə Azərbaycan arasında ilk dəfə vaqe olan bu rəsmi ziyarətin müsəlman mabeyində və vücudi nə qədər lazım olan bir sazişin bir bu qədər açıqlıqdan sonra bilaxirə hüsulə gəlməsi üçün, böyük bir təsiri olacağı şübhəsizdir. Ermənistan və Azərbaycanın bir-birinə qarşı düşmənanə bir vəziyyətdə qalmasının hər iki cümhuriyyət üçün son dərəcə zərərli olduğuna hər iki tərəfin qənaəti-vicdaniyyəsi hasil edilib bu xüsusda imanları kamildir. İştə birkərəlik lüzumsız və zərərli olan bu xüsuməti bərtərəf etmək və onun əvəzinə dostluq və saziş salmaq vəxtı artıq yetişib bu əmr icrasını mövkib bir surətdə tələb etməkdədir. Azərbaycan hökuməti və Azərbaycan milləti səmimi bir saziş tərəfdarı olduğunu kərrat ilə isbat etmişdir. Ümid edirik ki, Ararat hökuməti dəxi öz rəisini paytəxtimizə qonaq göndərməklə o tərəfin dəxi həqiqi saziş tərəfdarı olduqlarını bildirib, Azərbaycan və Ermənistan konfransının hər iki milləti xoşnud və məsrur edəcək bir nəticə verəcəyinə ümidlər oyadır.

Dost və müttəfiqimiz gürcü hökumətinin möhtərəm nümayəndələri dəxi paytəxtimizi ziyarətlə bu üç novzad cümhuriyyətlər arasında mətin və möhkəm bir etilaf hüsulinə çalışacaqlarından ümum qafqaz millətlərinə böyük bir xidmət göstərmiş olacaqdırlar.

Paytəxtimizi ziyarətlərilə təşrif edən ümummöhtərəm qonaqlarımıza kəmali-səmimiyyət ilə "xoşgəldiniz, səfa gətirdiniz"–

deyib müəzzəf olduqları əmlərində müvəffəqiyyətlərini arzu edirik.

Bu gün paytəxtimizdə əziz qonaqlar təşrifindən əlavə digər bir mühüm əmr vüqui dəxi olacaqdır ki, onun da məmləkət üçün böyük bir əhəmiyyəti vardır. O da Azərbaycanda şayani-əhəmiyyət bir mövqe ehraz etmiş olan "Müsavat" firqəsinin ikinci qurultayının rəsmi güşadıdır. Elani-istiqlaldan əqdəm və istiqlal elanından sonra Azərbaycan müqəddəratının həlli əmrində böyük rollar oynamış və oyanmaqda olan bu firqənin məmləkətin mühüm əmrlər ğarşısında olduğu bir zəmanda qurultay çağırması ən müvafiq əsabətlərdəndir. Arzumuz budur ki, bu firqə ümdə diqqətini və bütün səyini-hüsulinə səbəb olduğu istiqlalımızı bəqa və vüsəti əmrinə həsr edib də üzərimizdə dövran etməkdə olan qara buludların tamamilə rəf və izaləsinə qədər məhz bu yolda işləməgi proqramın birinci maddəsinə qeyd ilə bugünkü vəzifələrini bundan ibarət bilsin.

Qurultayın rəsm güşadını alqışlayıb, möhtərəm əzalarını təbrik ilə müvəffəqiyyət təmmələrini təmənni edirik.



## ŞAYİƏLƏR MÜNASİBƏTİLƏ

"Denikin gəlir",– deyə camaət arasında dövran edən şayiələr Bakı əhalisinin rus, yəhudi və sair qismini həyəcanlara salmaq üzrədir. Baxüsus rus qisminin həyəcanı bir dərəcəyə qədər şiddət etmişdir ki, Bakı rus milli komitəsi dabravol komandanlarına müraciətlə əksəriyyən Petrovski tərəfindən nəşət edən boylə şayiələrin nəşri mənini-sülh və müsalimət namına rica etmişdir. Zənn edilirdi ki, "Denikin gəlir" şayiələri Azərbaycana tabe olmaq istəməyən və "Vahid Rusiya" tərəfdarı olan rusları sevindirəcək, ruhlandıracaq və yalnız Azərbaycan türk və islamlarını əndişələrə salıb mütəhəyyic edəcəkdir. Halbuki boylə şayiələrin təsiri əksinə olur. Azərbaycan türk və islamları bu şayiələrdən heç də mütəəssir və mütəğəyyir olamayıb, "Denikin gəlir-gəlsin qabağına çıxmağa hazırıq" mənasını ifadə edən bir vəziyyət alıb kəmali-asudəlik ilə öz iş və gücləriIə davam etməkdə, əmma rus və qeyri-müsəlmanlar həyəcanlara düşüb çox əndişələr biruzə verməkdədirlər.

Bu nədəndir?

Nəzdikbin adamlar bu əhvalata özgə bir təfsir verib belə izah edirlər ki, guya rus və sairələrinin qorxduğu Azərbaycan türk və islamlarının qəhr və qəzəbindəndir. Yəni Denikin Azərbaycan üzərinə hücuma başlarsa, müsəlmanlar acıq üzərinə Azərbaycandakı rusları kəsib tələf etməgə başlarlar.

Əlbəttə, rusların ürəyinə boylə şeylər gələ bilər, çünki işə səthi nəzərlə baxıldıqda boylə hadisələrin vüqui ehtimal daxilində bir şeydir.

Fəqət əgər rusların xof və əndişəsi yalnız bu ehtimaldan əmələ gəlmiş olsa, o surətdə ruslar məmləkətimizdə əyləşibdir "ax" müsəlmanlar bizi kəsəcək" qorxusu ilə qara-qara fikirlərə düşmək əvəzində şeylərini yığışdırıb buradan köçər və dabravol əlində olan şəhərlərə daşınmaqla başlarını bəladan qurtarardılar.

Halbuki biz bunu görmiyoruz. Ruslar yerlərində möhkəm oturub, heç kəs qaçaqaç və ya köçə-köç fikrində deyildir.

Ona binaəndir ki, durbin adamlar rus həyəcan və əndişəsini başqa çürə təfsir edirlər.

Hər kəsə məlumdur və məlum olmayanlara da məlum oldu ki, Azərbaycanda türk və islamları hər bir işdə nizam və qaydaya riayət edən, intizam tərəfdarı olan "distiplina"ya mail bir xalqdır. Bu gün Azərbaycan ilə Denikin arasında müharibə başlanarsa, Azərbaycan türk və islamları heç bir vaxt etidallarını əldən verməyib, hökumətimizin əmrinə tabe olub, hökumət vətən və millət müdafiə və mühafizəsi yolunda hər kəsə hər nə vəzifə verərsə, hər fərdimiz öz vəzifəsini icrasına məşğul olacaq və heç bir kəsdən xudsər işlər baş verməyəcəkdir.

Bu üzdən müsəlmanların "intiqamından!" qorumaq fikrinin əsası o qədər də möhkəm degildir. Rusların və qeyri-xaricilərin əsaslı qorxusu bundadır, ki, bəlkə Denikin ilə Azərbaycan müharibəsində Denikin qalib gəldi, o halda nə olar? O halda ümumazərbaycanlılar istər rus olsun, istər müsəlman, istər yəhudi hamısı nizamsız quldur, oğru, əyrilər dəstələrindən ibarət olan və heç bir əsgəri qaydalara riayət-etməyən vəhşi və yırtıcıların əlində qalıb canı da gedər, malı da. Çünki Denikin qoşununun boylə vəhşilərdən və dərədən-təpədən yığılmış quldur və oğrulardan ibarət olduğunu bizdən yaxşı ruslar bilirlər. Denikin qoşununun ayaq basdığı yerlərdə sakitlik və asayişdən heç bir əsər qalmayıb, orası olur bir cəhənnəm bucağı.

Bundan əlavə Azərbaycanımızda istirahətlə yaşamaqda olan rusları, nə qədər bizi istəməsələr də Denikinin vəhşi kazakları "xain" cümləsindən hesab edib, "siz rus ola-ola Azərbaycana qulluq edib, Rusiyaya xəyanət göstərdiniz!"-deyə beduni sorğu-sual kəsib tələf edəcəkdirlər.

İştə bura rusların qorxduğu dəxi əsl bundandır, nəinki müsəlman intiqamından...

Fəqət bu əndişələr hamısı nahaqdır. Əgər qəza Denikini dolaşdırıb da Azərbaycan üzərinə saldırmaq istərsə, onda görünür ki, Denikinin alnında yazılan "sənin ölümün Qafqazda" ibarəsidir.



## YENİ KABİNƏ

Üç ay davam edən kabinə böhranı nəhayət bitdi. Kabinə əmələ gəldi.

Kabinə böhranının bu qədər uzun çəkməsinin səbəbləri həqqında qəzetəmiz öz mülahizəsini izhar etmişdi və bu səbəblərdən ən başlıcası parlaman, əksəriyyətinin etimadını qazanmaq olduğunu söyləmişdik. Fəqət bu əksəriyyət etimadını qazanmaq arzusu parlamentarizm üsuluna riayət edilməsini təqib edən quru və rəsmi bir arzu mahiyyətində olmayıb, burada bir istiqanlılıq dəxi mövcud idi.

Məmləkəti dolandırmaq, ağ günlərə çıxarmaq, istiqlalımızı mühafizə etmək, təhlükələri dəfə hazır olmaq haqqında bəslənilən xalis niyyət saiqəsilə idi ki, firqəvi mülahizələri mümkün olan qədər kənara qoyub da ümumi bir dil aramaq məcburiyyəti hiss edildi.

Nəsib bəy həzrətlərinin və kəndisi mənsub olduğu firqənin "deməqoji" üsulundan imtina edib də saziş və etilaf aramaq və bu yolda firqəvi-mənafeyi qürban etmək kimi fədakarlıqda bulunmaq təşəbbüsləri meydana tam mənası ilə "müştərək" bir hökumət çıxardı. Şübhəsiz, bu hökumət təşkili əmrində əlaqədar olan firqələrimizin hamısı bu işdə məmləkət mənafeyini firqəvi mənafelərdən əfzəl bilib mütəqabilə güzəştlər və qarşılıqlı fədakarlıqlarda bulunmaqla xalis niyyət sahibi olduqlarını isbat etdilər.

Hökumət təşkili üzərinə həvalə olunmuş Nəsib bəy Yusifbəyli həzrətlərinin böhrana bir bu qədər uzunluq verməden bir cinsli, yəni bir firqəyə mənsub olan bir hökumət təşkilinə qadir ikən bunu etməyib də etilaf və saziş yoluyla müştərək bir hökumət təşkilinə çalışması ayrıca olaraq şayani-təqdir bir keyfiyyətdir.

İştə tam mənasilə müştərək bir hökumətimiz olub mövcud firqələrimizdən hamısının bu kabinədə əzaları vardır. Əzaları olmayanlar yalnız bir əqəliyyətdə olan erməni, rus və sairələrdir.

Yeni hökumət parlaman əksəriyyəti məzahirəti tərəfindən təmin edilmiş tabeliyindən artıq süni böhranlar vüqunə də ehtimal yoxdur.

Nəsib bəy, Səməd bəy Mehmandarov, Xudadad bəy Məlik-Aslanov[1] həzrətləri kimi karkün bacarıq sahibi olan adamlardan əlavə bir də Fətəli xan Xoyski, Məhəmməd Həsən Hacınski,[2] Xəlil bəy Xasməmmədov[3], Həmid bəy Şahtaxtlı[4] kimi sahibi-təcrübə olan işbilənlərimizin dəxi yeni kabinəyə daxil olması bədbinlərimizi də mütməin və xoşnud edə biləcək

bir fəqərədir. Demək olar ki, idareyi-məmləkət və hifzi-istiqlal əmri mö'təbər və sahibi-iqtidar əllərə tapşırılıbdır. Əhali və məmləkət gələcəkdən arxayın və mütməinülqəlb olmalıdır.

Hökumət bəyannaməsi parlamanda məzakirə edilərkən erməni və rus fraksiyaları tərəfindən sadir olan hərəkət o qədər dürüşt, üsulsuz və yersiz idi ki, bunu qeyd etməmək qəbul deyildir.

Əvvəla burasını deyəlim ki, müxtəlif firqələrə mənsub olan erməni fraksiyası namından cümləsinə aid olmaq üzrə bir nəfər daşnağın danışması nə qədər dürüşt bir taktikasızlıq idi. Parlamanın sol cinahını işğal etmiş və bizim sosialistlərimizlə yan-yana oturmuş olan bu "sosialist"lər Əhməd bəy Pepinov və Cəmo bəy Hacınski[5] kimi fəal sosialistlərin kabinəyə girməsinə iktifa etmədikləri bəs degil ki, hələ onları "Don Kixot"[6] deyə təhqir etməyi də özlərinə rəva gördülər.

Bəyannamənin məzmununa başqa cürə təfsir vermək ovza halı özgə bir surətdə tənvir etmək və nəhayət türklərdən ibarət olan bir kabina içində erməni olmadığına görə etibar göstərməmək və bunda Azərbaycan parlamanının kürsüsündən pürhəyəcan bir surətlə elan etmək kimi qabalığın sui-təsirindən idi ki, parlaman əzaları boylə bir hərəkətdən dilgir olub erməni fraksiyasının yersiz və yalan töhmətlərini cərh və rədd etməyə məcbur oldular.

Keşiş Kravçenkonun[7] çıxışı isə hər bir həyasızlığın fövqündə idi. Azərbaycan parlamanına əza olmaq bu növlə Azərbaycan istiqlalını qəbul etmək və bununla Azərbaycan xəzinəsinin pulunu yeməyi özünə caiz görmüş olan bu adam birdən-birə durub da "biz vahid və qeyri-qabili-inqisam Rusiya tərəfdarıyız" deməklə sadiq bir rus deyil, həyasız bir adam olduğunu göstərməklə cümlənin haqlı olaraq istikrah və nifrətinə mucib oldu.

Fəqət Azərbaycan türkləri boylə çıxışlardan dilgir olmamalıdırlar, biləks, boylə hadisələr sayəsindədir ki, biz özümüzü dostumuzu və düşmənlərimizi dürüst tanımaqla hər bir hala qarşı vəziyyətimizi təyin və təğviyyə etməyə vadar olaçağıq. Biz yeni kabinəmizə müvəffəqiyyətlər diləyib də hər fərdin, hifzi-istiqlal işində olduqca möhkəm duralım və əlimizdən gələn köməyi hökumətimizdən müzayiqə etməyəlim.



# FELYETONLAR

## ORDAN-BURDAN

– Əşi, Allaha and olsun, yol açılan kimi çıxıb gedib ya Rusiyətdə, ya zaqranitsada qalıb, bir kərə də üzümü Bakıya çevirməyəcəyəm:

– Balam nə olubdur?

– Nə olacaqdır? İstudentlik vəqtimizdə bir o qədər yaxşılıq eləmişəm, pulu olmayanda pul vermişəm, neçə kərə tiyatırlara aparmışam, evimdə yer verib saxlamışam.

– İndi özü ministir olubdur, mənə deyir ki, gəl səni qubernat təyin eliyim! Yəni aşağa-aşağa qatıqlı aşdan da aşağa?! Neujeli mən o qədər əskik oldum ki, ançaq qubernatorluğa layiqəm!

– Əfəndim! Niqalayın vəxtında min cürə yaltaqlıq, rüşvət, peşkəşdən sonra birimizə pristavlıq veriləndə öylə bilirdik ki, bütün dünya bizə verildi; indi nə oldi ki, qubernatorluq əskik iş oldi!

– Xeyir, mən demirəm ki, qubernaturlıq əskik şeydir; siz görünür ki, məni başa düşmədiniz! Mən onu demirəm ki, indi ki mən sənə istudentlik vəqtində bir o qədər yaxşılıq eləmişəm, neçə kərə pul da vermişəm və sən mənim yoldaşım idin, bu gün sən ki pristav olmusan, məni də heç olmasa pamoşnik pristav elə! Naçalnik olmusan, pamoşnik naçalnik elə! Qubernator olmusan pamoşnik qubernat elə! Ministir olmusan, heç olmasa tavariş ministra elə! Dəha elə olmasın ki, sən olasan ministir, mən nə? Qubernator! Mən bunu demək istəyirəm!

– A, siz bunu demək istiyirmişsiniz? Öylə isə bu başqa

məsələdir! İnşallah yol açılanda çıxub getməyiniz məsləhətdir!

* * *

– Qadan alım, birцə məni başa sal görüm: Ministr, yəni nə deməkdir

– Ministir, yəni vəzir!

– Çox yaxşı, Allah səndən razı olsun. Deməli, bizim Xan Xoyski vəzirdir?

– Vəzirdir.

– Əbdüləli bəy [1]də vəzirdir? Bizim Nəsib bəy də vəzirdir?

– Vəzirdir!

–Cavanşir Hacinski, Aşurov,[2] Məlik-Aslanov, Sultanov, bunlar da vəzirdirlər?

– Vəzirdirlər!

– Allah sənə ömür versin, pəs qadan alım, bunlar hansı padşahın vəzirləridirlər?

Bu sual bir az məni qarıxdırdı:

– Necə, hansı padşahın?

– Yəni, deyirəm, osmanlı padşahın vəziridirlər?

– Xeyr, Sultan həzrətlərinin öz vəzirləri vardır!

– Rus padşahının?

– Xeyir, indi bizim Rusyət ilə heç bir əlaqəmiz yoxdur!

– Bəs hansı padşahın vəziridirlər?

Fikrimi toplayıb dedim:

– Sən padşahın!

Güldü:

– Mən padşah olsa idim baqqallıq eləməzdim.

Dedim:

– Baqqallığın və ya dülgərliyin zərəri yoxdur, bu saət bu ministirlər hamısı sənin vəzirlərindirlər.

Dedi:

– Vallah yaxşı başa düşmirəm!

Dedim:



– Bax bu vəzirlər Azərbaycan hökumətinin millət vəzirləridirlər və sən də Azərbaycan hökumətinin millətisən: pəs demək bu vəzirlər sənin vəzirindirlər! İnşallah, elə ki bu təzəlikdə millət evimiz (parlamanmız) açılar, onda baxıb görərsən ki, həqiqətdə də vəzirlər sənindir! Və bu dəstgah hamısı ondan ötrüdür ki, sən bir növ istirahət ilə dolanıb, azad çörəyini azadə yeyə biləsən, ancaq bu azadlığı sənin üçün qan töküb alan türk millləti-nəcibəsindən və türk qəhrəman ordusundan qəflətdə olmuyub onlar haqqında həmişə duagı olasan, necə ki, Sədi əleyhirrəhmə buyurübdur:

Əbro, bado, məho xorşido fələk dər karənd,
Tato nani bekəf ari və be qəflət nə xori![3]

Baqqal Kərbəlayi Kərim bu sözləri eşidəndən sonra bir az fikir edib bədə papağını əyri qoydu və kəmali-səmimiyyət ilə:

– Allah qoysa işlərimnz yaxşı olar, – deyib keyfi kök və damağı çağ getdi.

## ORDAN-BURDAN

Milli parlaman.

Əvvəlcə boylə idi.

Məmləkətin bir padşahı olardı, padşahın da bir vəziri. Padşah qanun qoyardı, vəzir də o qanuni məmləkət içində yeridirdi. Bu iş camaətə xoş gəlmədi. Dedilər ki:

– Padşah dərdimizi nə bilir ki, bizə də qanun qoysun. Yaxşısı budur ki, o öz təxtində əgləşub çayını içsin, qanunu biz özümüz qoyaq, çünki dərdimizi özümüzdən başqa kim bilər?

Öylə də oldu:

Millət yığılır, məşvərət qurulur dərdlərdən, ehtiyaclardan söhbət açılır, ona görə də qanun qoyulur; sonra o qanun vəzirlərə verilib deyilir:

– Buna görə iş görün!

* * *

Bugünki gün Azərbaycan türkləri üçün üçünci bir səadət günüdür!

Birinci səadət günümüz irsi düşmənlərimizin puç olduğunu gördigimiz gün idi.

İkinci səadət günümüz vətənimizin qan soranlar və onların qab yalayanları əlindən böyük türk qardaşlarımızın qəhrəman əlləri ilə xilas edildigini gördiyimiz gün idi.

Üçüncü səadət günümüz isə – bugünki gündür ki, azad millətimiz məşvərətə yığılıb böyük qurultay düzəldəcəkdir ki, özü üçün qanunlar qoysun.

Birinci səadət günümüz – hissi-səadət günü idi:

Yəni düşmənlərimizin məhvini görüb, ürəyimizdən tikan cızırdı.

İkinci səadət günümüz – ruhi səadət günü idi:

Yəni böyük qardaşlarımızın imdadını və vəslini görüb, nəinki dirilərimizin, hətta ölülərimizin də ruhi şad olurdu.

Üçüncü səadət günümüz isə – əql səadət günüdür:



Yəni bir bu qədər çaxna-vaxnadan sonra əqlimiz başımıza gəlib əmr edir ki:

– Yığılın qurultaya! Bir bu qədər səadət nəşəsilə xumar var, dolandığımız bəsdir, indi gələcək fikrini çəkmək və nail olduğumuz səadətlərin edildigi xüsusunda çalışmaq üçün məşvərət qurmaq lazımdır!

Millət, səsini çıxart!

O səsi özümüz də eşidək, özgələri də eşitsinlər!

* * *

Birinci parlamanımız seçmə olmadı, tikmə oldu.

Zərər yoxdur! Hələ bu gün seçmə-tikmə söhbətinin vəxtı degildir.

Bu gün qanun düzəltməkdən ümdə, səs çıxartmaq lazımdır!

Bizi səsləyirlər, deyirlər ki:

– Ay ev yiyəsi, kim var?

Bu cürə səslərə səs vermək lazımdır. O səsi millət qurultayı verməlidir! Bəs tez olaraq əhli-adamlarımızı, karkün əfradımızı, işbilən, başbilənməzi çağıraq ki, onlar qurultay damının bacasından səs çıxarıb desinlər ki:

–Yüyürün, dost qonaqsa sənə qapımız, düşmən qonaqsa sənə meydanımız, hər ikisi açıqdır, bismillah!

Bəs bu gün o səsi eşitmək və eşitdirmək səadətinə nail olmaq münasibətilə Azərbaycan türklərini təbrik edib, deyirik:

– Yaşasın millət!

–Yaşasın millət səsi olan birinci milli parlamanımız!!

İstiqlaliyyət...

İstiqlaliyyəti-siyasiyə və milliyyə...

Bu neməti-əzəmiyyə Qafqaz millətləri nail oldular:

Müstəqil Gürcüstan!

Müstəqil Ermənistan!

Müstəqil Azərbaycan!

Müstəqil Dağıstan əmələ gəlib hər kəs öz əli, öz başı olaraq asudə yaşamağa başladı. Cəmisi bir qeçə aydır ki, bu asudəlik ilə yaşayırıq...

Hər kəs şaddır.

Yerimiz, yurdumuz, torpağımız, özümuzün, hökumətimiz, camaətimiz, qoşunumuz özümüzün, dinimiz, ayin və adətimizə edilən şəmatətdən qurtulduq. Dilimizə, millət və milliyyətimizə vurulan həqarətdən qurtulduq. Qapımız da özümüz, yiyəmiz də özümüzük. Öz-özümüzü yaxşı yaman dolandırırıq. Kimsəyə ehtiyacımız yoxdur.

Qarodovoy lazımsa varımızdır. Ministr lazımsa varımızdır.

Qoy desinlər ki, hələ nöqsanımız çoxdur, nə olar?

Azadıq, asudəyik, təkmilinə çalışaq.

Hərdənbir başıma qara-qara fikirlər gəlir, birdən bu azadəliyi, bu asudəliyi, yəni istiqlaliyyətimizi əlimizdən geri alalar...

– Nə üçün?

– Elə-belə!

– Nəticə "elə-belə"? İndi başladıq asudə nəfəs çəkməyə...

Çox danışma!

?!.

O halda, bu hüquqi-bəşəriyyəmizi qəsb edənlərə qarşı qəlbimizdə əmələ gələn nifrətin dərinliyini təsəvvürə gətirmək mümkün olurmu?

La, vallah!

Bu qədər dərin bir nifrətin dəhşətini təsəvvür etmək istəyənləri vəhşət basar!

Qasib milyonlarca qəlblərdə özünə qarşı büruz edən bu nifrətin dərya kimi cuş və xüruşanından divanəvar bir halətə gəlib tükləri qabarar, gözləri kəlləsinə çıxar, rəngi saralar, əqli çaşar. Vəhşət və dəhşət içində başından yapışıb fəryad edər.

– Mən nə yapdım, nə yapdım?!

Lakin günahi-kəbirdən daha betər, daha fəna olan bu şəni əmrə kim mürtəkib ola bilər? Yenicə azad edilmiş bir milləti yenidən əsir etmək?!

Yenidən qul etmək?!

Bu jandarmalığı əvvəlcə edəni məlumdur, indi kim edə bilər?!

Hürriyyət sevən ingilismi?

Azadlıq yolunda qanlar tökən firəngmi?

– Sərbəstlərdən də sərbəst olan amerkanlarmı?

– Məhaldır!

Əqlə sığışan deyildi.

* * *

Qanlı muharibə bitmək üzrədir.

Sülh olacaqdır, deyirlər.

Bu müdhiş müharibədən sonra bəşəriyyətin uzun bir sülhə, tam bir asayişə əşədd ehtiyacı vardır. Əgər bu sülh yenə köhnə adət üzrə bir millətin ağa, o biri millətin qul olmasını əsas edərsə, o halda sən, ey bəşəriyyət, sülh adını eşidərsən, əmma üzünü görməzsən, asayiş səsini eşidərsən, əmma asayiş nə olduğunu bilməzsən!

Bəlkə topa-tüfəngə ümid edirsən ki, qul edilən millətin ağzını yumar?

Bica ümid! Çünki:

Bu olar zülm.

Və zülm olan yerdə sülh olmaz, zira həqq zülm ilə müharibəyə qalxar. Deyəsən ki, zülm həqqi basar, çünki onun topu-tüfəngi vardır, həqqin nəyi var?

Onda sənə həqqu şairin həqq sözlərilə cavab verib deyərəm ki:

"Zülmün topu var, gülləsi var, qələsi varsa,
Həqqin də bükülməz qolu, dönməz üzü vardır."[1]

## ORDAH-BURDAN

Azərbaycan hökuməti təşkil edildigdən bəri, məndə iki adət əmələ gəlibdir.

Bu adətin birini qəzetə oxuyanda ibraz edirəm, birini də küçə ilə gedəndə.

Adətlərimin ikisi də bir "surət"dir: özü də – axtarmaq adətidir.

Qəzetə oxuyanda da axtarıram, küçə ilə gedəndə də.

Nə axtarıram?

Qəzetəni, baxüsus rus qəzetələrini, əlimə alan kimi əvvəl--əvvəl axtarıram görüm Azərbaycan hökumətinin əmrləri, hökümləri, binagüzarlıqları varmı ki, tez oxuyum mənim üçün ləzzət versin? (Gülməgindən görürəm ki, sən də bu adətə giriftarsan!)

Məsələn, axtarıb, tapıb, oxuyuram ki, söz məsəli Anna İvanovna Yermakova yanvar ayının birindən filan nəzarətin, filan idarəsində flan qulluğa təyin edilibdir.

O saət keyfim durur: Öz-özümə Anna İvanovnaya deyirəm ki, bax, Anna İvanovna! Görürsən, Azərbaycan hökuməti nə yaxşı mehriban hökumətdir. Səni qulluğa qoyur, sənə məvacib verir, əmma sizin rus milli komitəniz hökumətimizi pisləyir, deyir ki, ruslara guya zülm edir. Bax o cürə yalan sözlərə qulaq asma, onlar yalançıdırlar, xaindirlər!

Ya oxuyuram ki, sözgəlişi, Vladimir Vasilyeviç Palaumov neçə vəxtır qulluğına gəlmədiyinə görə flan gündən, flan saətdən etibarən öz vəzifəsindən, hətta lap qulluğından bilkülliyyə kənar edilir.

Bunu da oxuyub ləzzət aparıb genə öz-özümə Vladimir Vasilyeviçə deyirəm ki, bax, görürsən, adamı böylə qovarlar ha?! Öylə bilmə ki səni qovmağa hökumətimizin gücü yoxdur, öylə qovar ki, lap Məskovəyə kibi qaçarsan! Get kimə istəsən şikayət elə! Hökumətimizin kefi belə istiyor. Hökumət ilə hökumətlik eləməyəcəksən ki!!!

Əmma bəzi vəxt olur qəzetədə öylə hökmlü və şiddətli "prikaz"lar görürəm ki, başdan bir-iki sətir oxuyan kimi yürəgim təşvişə düşüb deyirəm ki, nə lazım hökumətimiz bu cürə şiddətli və



qəti əmrnamələr ilə özgələri incidib söyləməyə vadar edəcəkdir, onsuz da donquldaya-donquldaya başımızı apardılar.

Cəld prikazın imzasına baxıram, yürəgimin təşvişi sakit olur:

– General Tomson.

Hay istəyir ki, bu adəti tərk eləyəm, olmur ki, olmur, görünür, alimlər doğru deyiblər ki:

Və əladət ke əltəbiyyətəssaniyə![1]

* * *

Yuxarıda ərz elədiyim üzrə, ikinci adətim dəxi əvvəlinci adətimin qardaşıdır:

O da axtarmaqdır, axtarmaq küçədə.

Küçə ilə gedərkən, elə gözüm orada-buradadır ki, görüm, aya, bir nəfər Azərbaycan zabiti, ya bir nəfər, iki nəfər Azərbaycan əsgəri görə bilərəmmi ki, tamaşası mənim üçün ləzzət versin?!

Əhyanən bir nəfər "zabit balası" görəndə elə bilirəm ki, dünya aləm bizim qoşunumuzdur.

Zabit və əsgər görmiyəndə də təsəllimi qırmızı paqonlu qaradovoylarımızdan alıram.

Əmma birdən olur ki, görürəm, Şamaxı yolu ilə üzü aşağı və ya üzü yuxarı bir dəstə atlı çapır, genə yürəgim təşvişə düşür: Deyirəm yəqin bizim qoşunlarımızdır, əmma nahaq yerə şəhərin küçəsində bu cürə at çapırlar. Allah göstərməsin, birdən adam basdalarlar, onda genə xaricilərin ağzı çuval kimi açılıb deyərlər ki, Azərbaycan qoşunu küçədə adam basdalayır.

Atlılar çapa-çapa yanımdan şıdırğı ilə keçərkən tez sifətlərinə baxıram; ürəgimin təşvişi sakit olur.

– Biçeraxovun kazakları.

Özümə güc gəlirəm ki, bu adətimi də tərk edim, görürəm ki, olmur, keyfimə korluq çəkdirirəm. Görünür, hükəmalər yalan deməyibdirlər ki:

Tərke-adət be movcibi-mərəz əst![2]

## ORDAN-BURDAN

*(Sülh konfransında)*

Hamı yığılıb. Dünyanın hər tərəfindən adamlar vardır. Aşinalarımızdan: daşnaklar, rus milli komitəsinin adamları və Bakı "sosialist"ləri dəxi burda hazırdırlar, bizimkilər də yığılıb kənarda bir küncə qısılıbdırlar. Daşnaklar Amerika və Fransa adamları ilə nə barədə isə məhrəmanə danışıb bizimkilərə tərəf işarələr edirlər. Bunun nəticəsində Amerika və Fransa adamları "lornet"lərini gözlərinə tutub bizimkilərə diqqət ilə tamaşa edirlər.

Və öylə tamaşa edirlər ki, guya "dəvə nalbəndə baxır".

Zəng çalınır, hər kəs öz yerini tutur. Sədr məclisin açıldığını elan edir. Ruznameyi-müzakirat oxunur. Məclis əhlinə söz verilir. Əvvəl-əvvəl daşnaklardan biri söz alıb kürsiyi-xitabətə çıxır və deyir:

**Daşnak** – Həzərat! Sizdən sual edirəm, mədəniyyət aləminin mədəni nümayəndələrindən təşəkkül etmiş olan bu mədəni məclisdə, əcəba, quldurların, başkəsənlərin və qarın yırtanların nə işi vardır? Və onlara kim izin veribdir ki, buraya gəlib pak məclisi qanlı əllərilə napak edirlər!? Mədəniyyət naminə rica edirəm ki, quldurlar bu məclisdən qovulsun, zira onların yeri bura deyildir. Bəlkə həbsxanadır!

**RMK** (yəni, rus milli komitəsi): – daşnakların təklifinə biz də şərikik.

**Bakı S** (yəni, Bakı "sosialist"ləri): – Biz də daşnakların təklifinə şərikik.

**Sədr** – Quldurlardan məqsud kimdir?

**Daşnak** – Bax o küncdə əyləşənlər! deyib bizimkilərə işarə edir.

**Sədr** (bizimkilərə): – Əfəndilər, deyirlər ki, siz quldursunuz!

**Bizimkilər** – Yalan deyirlər, biz quldur deyilik.

**Sədr** – Öylə isə daşnakların təklifini səsə qoyuram: hər kəs bu adamların quldur olduğu və quldur olduqlarına görə də məclisdən çıxarılması tərəfdarı isə əlin qalxızsın.

İngilislər, firənglər, amerikanlar və sair Yevropa və Amerika millətləri nümayəndələri məsələdən xəbərdar olmadıqlarına görə bitərəf qalıb səsdə iştirak etməyirlər. Əl qalxızanlar bunlar olur: daşnaklar (iki əlləri ilə), RMK-lar və Bakı S-lar:



**Sədr** – İndi də hər kəs bu adamların quldur olmadıqlarını və ona görə də məclisdə qalmaqlarına iltizam edirsə əlin qalxızsın.

Gürcülər, dağıstanlılar, osmanlı türkləri, hindlilər, əfqanlar, türkmənlər və Volqaboyu müsəlmanları, qərəz, ərəb əmirləri ilə İran vəzirlərindən başqa hamı islam nümayəndələri əl qalxızırlar.

Əksəriyyət bu tərəfdə olduğuna görə bizimkilər məclisdə qalır. Daşnaklardan biri təkrar izin alıb kürsüyə tərəf yügürür və üzünü avropalılara tutub mütəqəyyir və mütəhəyyic bir surətdə baş-qol oynada-oynada, dişlərini qıca-qıca və çığıra-çığıra deyir:

**Daşnak** – Ermənistani-kəbir qənim olsun. Ararat dağı üstümə yıxılsın, Andranikin qəzəbinə gəlim, daşnaqsağan olmayım hərgah yalan deyirəmsə, siz avropalılar çox məzəli adamlarsınız!!! Nəinki məzəli, hətta açıq-açığına deyə bilərəm ki, sizin işiniz "xata-bala"dır!!! Siz getdikcə bizim ümidlərimizi puç edirsiniz. Biz ümid edirdik, ümid nədir ki, lap yəqinimiz idi ki, biz sizə bu quldurları nişan verən kimi, siz həman saət onları qovacaqsınız! Əmma siz bizim sözümüzə etibar etmədiniz! Deməli, bü əlli ilin ərzindəki zəhmətlərimiz hədər getdi! Deməli, siz bizim bu qədər şikayətlərimizə əlli illik ərzində "Hə, Hə" deməklə məhz öz politikalarınızı yeritmək istiyirmişsiniz?! (Üzünü Bakı S-larına tutur). Ey Rusiyanın sosialistləri! Görürsünüzmü? Burada oturan yevropalılar həqiqi demokrat deyildirlər, bəlkə hamısı imperialistdirlər! Bəs niyə durubsunuz? Niyə qışqırmırsınız ki, daloy! Niyə bolşevikləri çağırmıyorsınız!? Ey rus milli komitəsi! Rusiyanı dağıdan həmin bu yevropalılar oldu! Qafqazı tatarlara və gürcülərə verən bunların tomsonları oldu "Samasud! Samasud!!! "

**Sədr** – Cənab natiq, təvəqqe edirəm ki, pravakatorluq etmiyəsiniz, vallah, sizi kürsüdən düşürtməyə məcbur olaram.

**Daşnak** (daha yanıqlı): – Pəs görünür siz bizləri ələ salmışsınız! deyib qabağındakı istula bir yumruq vurur.

**Sədr** – Cənab natiq, istulu sındırsanız qiymətini verməyə məcbur olacaqsınız!

**Daşnak** – Cəhənnəmə sınsın!! – deyib, bir-iki yumruq da vurarkən avropalıların acığı tutub: – Bu nə vəhşi şeydir, bunun özü quldura oxşayır-deyib tələb edirlər ki, natiq kürsünü boşaltsın.

Daşnaklar, RMK-lar və Bakı S-lar səs-küy salıb çığır-bağır edirlər. Və öz aralarında məsləhətləşirlər. Daşnaklar həmfikirlərini qızışdırıb təhrik edirlər ki, bizimkilərin qolundan tutub zor ilə bayıra çıxartsınlar. RMK-lar məsləhət görürlər ki, Biçeraxovun qoşunlarını köməyə çağırsınlar. Bakı S-lar deyirlər ki, hələ qan tökmək yeri deyildir. Stateçnı komitet əmələ gəlib zabastovka elan edilsin. Sədr zəngi çalıb qışqırıq salanları sakit olmağa məcbur edir.



## ORDAN-BURDAN

Pristav, ya komissar, ya nəmənə əmr alır ki, Muğan müsəlman kəndlilərini filan yerə toplasınlar. Tapşırırlar ki, müsəlmanlar mümkün qədər çox yığılsın.

Komissar əməl edir. Müsəlman kəndlilərini qoyun sürüsü kimi yığıb "İsxotka" deyilən bir yerə cəm edirlər. Müsəlmanların canını qorxu alıbdır. Çünki belə-belə yığıncaqların nəticəsində başlarına "ölüm-zülüm" açıldığını dəfələrlə təcrübə edib bilirlər.

Həman "İsxotka" deyilən yerə müsəlmanların yarısı qədər də rus mujikləri gəlib. Müsəlmanlar qorxa-qorxa gah komissara, gah ruslara və gah da bir-birlərinə baxıb, işin nəticəsini kəmali-vahimə ilə gözləyirlər.

Baş komissar gəlir. Ruslara müraciətən:

– İzdrasti tovarişçi!–deyir.

– İzdrasti tovariş!–deyib mujiklər cavab verirlər. Müsəlmanlar da kəmali-ədəb və übudiyyət ilə əl bağlayıb baş əyirlər.

Baş komissar təkrar ruslara müraciətən:

– Yoldaşlar! Muğan səhrası, Muğan kənd və kəsəkləri, Muğan taxılı kimin olsun? Əziz vətənimiz Rusiyanın, yoxsa zəhləmiz gedən Azərbaycan tatarlarının?

Mujiklər bir yerdə:

– Əlbəttə, əziz vətənimiz Rusiyanın,– deyib tatarlara da hələ bir rus söyüşü göndərirlər və yanlarındakı musəlman kəndçiləri də bu tatarlardan olduğuna görə onlara da qəzəbnak bir nəzər yetirib yumruq göstərirlər.

Dil bilməyən, danışılan sözlərdən bir kəlmə anlamayan müsəlman kəndliləri rusların qəzəbnak nəzərlərini və göstərilən yumruqlarını müşahidə edib başlarına təzə bəlalər gələcəyini yəqin edirlər və "allah bilən yaxşıdır" deyib tən qəzayə verirlər.

Baş komissar yanındakı kiçik komissarlara:

Şahidsinizmi?

Komissarlar:

Şahidik!

İznaçit konçeno? (yəni, vəssalam).

İndi dağılın evlərinizə! Tovariş Vasili, tatarları qav evlərinə!

Vasili müsəlmanlara:

– Hayda damoy! – deyib işarə edir ki, evlərinə getsinlər. Müsəlmanlar mat və məəttəl qalıb bilmirlər ki, bu nə işdir, nəçün bunları yığdılar, nəçün indi dağıdırlar? Nə danışdılar, nə qərar qoydular, təqsirləri nədir, tənbiyyələri nə olacaqdır. Qərəz, heyran və seyran evlərinə tərəf gedirlər...

Əri gedəndən bəri doqqaz ağzında əli qoynunda, başı boynunda durub ərinin intizarını kəmali-təşvişlə çəkən Fatı xala, Kərbəlayi Həsəni sağ və salamat qayıdan görüb tez yanına yüyürür və arvadlara məxsus olan xüsusi bir maraq ilə soruşur ki:

– Bir tez, de görüm, sizi nə üçün yığmışdılar?

Kərbəlayi Həsən deyir:

– Vallah, billah, özüm də məəttələm. Heç bir şey başa düşmədik. Öylə onu gördük "qəmsər" ağa rusca "iştu- muştu" elədi. Ruslar da ona cəvab verib, bizə yumruq göstərdilər. Sonra dedilər ki, gedin evlərinizə. Biz də gəldik. Allah axırından saxlasın. Peyğəmbər dadımıza yetsin!

– Amin ya rəbbüləələmin!–deyib ər və arvad doqqazdan keçib daxmalarına girirlər.

Bir neçə gündən sonra "Yedinaya Rossiya" qəzetəsində Muğandan boylə bir əhvalat oxuyuruq:

"...Yüz nəfər müsəlman və həştad nəfər rus kəndlilərindən ibarət olan Muğan kəndlilər şurasında Muğan məsələsi həll olunub, boylə bir qərara gəldilər ki, Muğan səhrası Rusiyanın ayrılmaz bir hissəsidir".



## ORDAN-BURDAN

"...Sonra qubernatorun hökmünə görə "Həccinqəbul"[1] istansiyası mühafiz qoşununun bütün zabitləri Qriqoryansın qabağında cərgə ilə durdular. Qriqoryans heç birisini tanımadı... Şəhərdən bütün Azərbaycan əsgərləri Qriqoryansın qabağından dəstə-dəstə keçirdilər. Qriqoryans bunlardan heç kəsi tanımadı".

Qriqoryans Bakıya gəlib.

Qəzetələrdən nəql edir ki, on üç nəfər ermənini gözümün qabağında güllələdilər. Mən də onların içində idim.

Camaət təəccüb edir:

Kim güllələdi?

– Azərbaycan əsgərləri

– Harada?

"Həccinqəbul" istansiyasında!

Nə vəxt?

– Filan tarix, filan gündə!

Nə çağı?

Günün günorta çağı!

Kim gördü?

– Həccinqəbul istansiyasının cəmi-qulluqçuları!

Pəs sən nə tövr diri qaldın?

Möcüz əmələ gəldi.

Erməni qəzetələri dad və fəryad edirlər.

Haçanadək ki, bu vəhşilik?!.

Tələb edirlər ki, bu iş təhqiq edilib müqəssirlər cəzalansın.

* * *

Qubernator, Qriqoryans və Paruniyan[2] yavaş-yavaş, xəlvət--xəlvət, ahəstə-ahəstə "Həccinqəbul" istansiyasına yaxınlaşıb birdən hüzurə çıxırlar.

– Qaçma, dayan!!!

Hamı təəccüb ilə baxır, qaçmaq fikri olan yoxdur.

– On üç nəfər ermənini güllələyən əsgərlər hansıdır? Tez cavab verin!

Camaatin təəccübü daha da artır:

– Hansı on üç nəfər erməni? Kim onları güllələyibdir? Harda? Kim gördü?

Qriqoryans döşünə döyür:

– Elə mən gördüm, mən!!!

– Öldürənləri tanıyırsan?

– Tanıyıram!

– De görək kimdir?

– Zabitləri və əsgərləri göstərin deyim!

"...Sonra qubernatorun hökmünə görə "Həccinqəbül" istansiyası mühafiz qoşununun bütün zabitləri, Qriqoryansın qabağında cərgə ilə durdular. Qriqoryans heç birisini tanımadı. Səhərdən bütün Azərbaycan əsgərləri Qriqoryansın qabağından dəstə-dəstə keçirdilər. Qriqoryans bunlardan da heç kəsi tanımadı. Pəs məlum oldu ki, Qriqoryansın dediyi sözlər məhz yalan və iftiradır".

* * *

Əmma mənim əqlimə görə, gərək Qriqoryans yalnız bir zabitlərimizin və əsgərlərimizin "tamaşası" ilə kifayətlənmiyə idi və tələb edə idi ki, qoşünun tüfənglərini də göstərsinlər. Bəlkə tüfənglərdən tanıya idi. Sonra əmr verə idi ki, nə qədər pulemyotları var hamısını göstərsinlər, çünki mümkündür ki, pulemyot ilə "güllələbaran" edilirmiş. Ondan sonra buyura idi ki, hər nə top var çıxartsınlar meydana. Ola bilər ki, erməniləri top ağzına qoyubdurlar və Qriqoryans top ilə tüfəng arasında "şəkk" edibdir. Bunlardan sonra gərək patronları saya idi. Top güllələrinin hesabını bilə idi. Bədə hər nə bomba, dinamit və barıt anbarı var hamısının yerini bilə idi və axırdan-axıra tələb edə idi ki, "Həccinqəbul" istansiyası ətrafının planı çəkilib ona verilə ki, bəlkə ermənilər öldürülən yerin hara olduğunu plan ilə tapa bilə idi...

Lakin görünür ki, Qriqoryans üçün yalnız zabitlərimizi "görmək" və əsgərlərimizə "tamaşa" etmək kifayət imiş...



* * *

Üzümüzün "aləm" qabağında ağ olduğunu hiss edib də kəmali-təfaxür ilə deyirik ki:

– Qriqoryans yalançı imiş!

Doğrudur, üzümüzün ağ olduğunu kəmali-təfaxür ilə hiss etməyə həqqimiz vardır, lakin özümüz də dedikcə səfdərun olduğumuzu kəmali-təəssüflə boynumuza almalıyıq!

## SURNA[1]

Keçən gün uşaqlar "Azərbaycan " qəzetəsin höccələyə-höccələyə mütaliə edirdilər və boylə oxuyurdular:

Qism rəsmi məşyəxət tərəfindən... molla Qurban Məşhədi Mürsəl oğlu Qaradonlu prixodunə təyin olunur.

Mətləb o birə çatanda uşaqlar dayanıb məndən sordular ki, "Prixod" nə sözdir?

Dedim, Vallah, hərgah bu əmrnamə başqa nəzarətlərimiz tərəfindən yazılmış olsaydı, deyərdim ki, "Prixod" rus sözüdür, çünki rus sözləri və rus dili məlum olduğu üzrə ümumnəzarətlərimizin dəftərxanasında rəsmi və dövləti bir dildir. Ama çünki bu elan ruhani idarəmiz olan məşyəxət tərəfdən yazılmışdır. Onda görünür ki, bu "Prixod" sözü ya ərəbdir, ya fars. Bu əhvalat uşaqları şövqə gətirdi. Dedilər gəlin axtaraq görək bu nə sözdir, dedim gəl axtaraq

Başladıq "Prixod" sözünü təhlil etməgə. Birinci təhlil nəticəsi onu göstərdi ki, "Prixod" sözi tamamilə ərəb ola bilməz, çünki ərəb dilində "p" hərfi yoxdur. Deməli, bunun "p" olan hissəsi fars və yerdə qalan hissəsi ərəbdir.

Fars olan qismini o saət tapdıq və gördük ki, bu "pəri" sözüdür. Uşaqlar dedilər ki, "pəri" nədir? Dedim ki, "pəri" mələkilə cin arasında bir növ gözəl məxluqdır ki, özlərinin də padşahları olar ki, ona "pərilər padşahı" deyirlər, necə "Seyfül Mülük"[1] nağılında yazılmışdır ki...

Uşaqlar sözümü kəsib dedilər ki, qoy qafil qalsın hələ bu sözün o biri qismini də tapmaq. Fəqət sözün o biri qismi tapmaq bir o qədər asan vəchlə mümkün olmadı, çünki "xod" sözünün ərəb və fars olmağında çox şəkk və şübhələrə düşürdük. "Xod" sözünün ərəbcə nə olduğunu mən bilmədim. Ona görə dedim ki, bu söz ərəb sözi degildir.

Dedilər ki, bəlkə fars sözidir. Dedim bəli, farsda "xod" ləfzivar və mənası da "özü"dir. Ancaq "pəri özi" yənice?

Dedilər ki, bəlkə fövqdə məzkur molla Qurban Məşhədi Mürsəl oğlunun özü pəri və atası da cindir.



Dedim ki, yox, bu əsrdə öylə şeylər ola bilməz.

– Pəs əvvəldə bu nə sözdir? – deyib uşaqlarını qısnamağa başladılar və tələb etdilər ki, bu sözün mənasını tapıb onlara bəyan edim.

Çox fikirləşdim, çox gücəndim, gördüm ki, savadım yetmiyor və naəlac qalmışam və özüm də o utandığından deyə bilmədim ki, bilmirəm.

Başladım bisavad mollalar kimi özümdən mənalar ixtira etməgə və bütün təqsiri müsəhhih ilə mürəttib əfəndilərin üstinə buraxıb dedim ki, bilirsiniz bu "xod" sözi degildir, bəlkə cod sözidir ki, müsəhhih xətası olaraq "c" əvəzinə "x" çıxıbdır. Ondan əlavə mürəttib xətası olaraq "o" hərfi də lap düşübdir və "cod" sözinin əvəzinə "xod" çıxıbdır.

Pəs boylə məlum olur ki, bu söz bir "xod" sözi degil, bəlkə "pəri vücud" sözüdir ki, mənası da yəni vicudi pəri kimi gözəl olandır.

Dedilər ki, pəs pəri kimi vücudi gözəl olan kimə aiddir. Cavab verdim ki, ya molla Qurban Məşhədi Mürsəl oğluna, ya da k,i Qaradonlu camaətinə...

Uşaqlar mənim bu təfsirimdən razı qaldılar. Əmma mən məşyəxətin boylə çenin ərəb və fars sözləri istemalından çox narazıyam.

## SURNA

Anama dedim ki, gəl səni aparım parlamana.

Dedi: parlaman nədir?

Dedim parlaman, yəni məclisi-məbusan.

Dedi məclisi-məbusan nədir?

Dedim o bir məclisdir ki, orada məmləkətimiz üçün qanunlar düzəldirlər və ondan başqa hər nə böyük və kiçik qulluqçularımız var hamısının əməllərinə baxırlar.

Dedi ona bizdə divanxana deyirlər

Dedim sən deyən olsun, getdik və arvadlara məxsus olan lojalardan tamaşaya başladıq.

Anam soruşdu ki, bu başda oturanlar kimlərdir?

Dedim məbus əfəndilər.

Dedi məbus nədir?

Dedim məbus, yəni deputat.

Dedi deputat nədir?

Dedim deputat o adamlara deyirlər ki, camaət onu öz tərəfindən seçib və ixtiyar veribdir ki, öz tərəfindən danışsın.

Dedi bizdə onlara vəkil deyirlər.

Dedim sən deyən olsun.

Dedi bəs o başda oturanlar kimlərdir?

Dedim ki, nazir əfəndilərdir.

Dedi nazir nədir?

Dedim nazir, yəni ministr.

Dedi ministr nədir?

Dedim ministr məmləkətin ən böyük qulluqçularıdır ki, bütün işlərin hamısı onların əlindədir.

Dedi bizlərdə onlara vəzir deyirlər.

Dedim sən deyən olsun.

Dedi bəs o ortada oturan kimdir?

Dedim ki sədr cənablarıdır.

Dedi sədr nədir?

Dedim sədr, yəni predsidatel

Dedi predsidatel nədir?



Dedim o adamdır ki, məclis onu özünə başçı seçibdir.

Dedi ona bizdə ağsaqqal deyirlər.

Dedim sən deyən olsun.

Dedi bəs onun sağında və solundakılar kimlərdir?

Dedim katib əfəndilərdir.

Dedi katib nədir?

Dedim katib yəni sekretar.

Dedi sekretar nədir?

Dedim sekretar o adama deyirlər ki, kağız oxuya, kağız yaza, dəftər saxlaya.

Dedi ona bizdə mirzə deyirlər.

Dedim sən deyən olsun.

Dedi bəs bu oğlanlar kimdir?

Dedim kosyorlar.

Dedi nə?

Anamın dili tutmadı. Dedi mənasını anlat.

Dedim onlar burda qulluq edirlər və qulluqları da bundan ibarətdir ki, adamları sayırlar, qaydaya baxırlar.

Dedi onlara bizdə xəlifə deyirlər.

Gördüm ki, anam çox bilicidir, dedim, ay ana, kaş ki, sən mənimlə bütün idarələrimizin hamısını gəzib, hər kəsə özünə görə ad qoyaydın və bizə ana dili öyrədə idin...

## SURNA

Deyirlər ki, sovet hökuməti ilə dost olmağımız məsləhətdir.

Yaxşı da! Sözümüz yoxdur ki, dost olaq. Hamı bilir ki, dost olmaqda bizim heç "üstümüz" yoxdur və o dərəcəyə qədər dostluğa malik ki, düşmənlərimizi də özümüzə dost hesab eləyib, ancaq axırda başa düşürük ki, bu dost deyilmiş, düşmən imiş.

Pəs nə tövr edək ki, Sovet hökuməti ilə dost olaq.

Bu xüsusda rəylər müxtəlifdir.

Bir qisim rəylər "maddi" vasitələrlə dost olmağı mümkün bilirlər, digər qisim ilə "siyasi" vasitələr lüzumundan danışırlar.

"Maddi" vasitə tərəfdarı olanlar Sovet hökumtinin dostluğunu neft və benzin ilə qazanmağ istəyirlər. "Siyasi" vasitə tərəfdarı olanlar isə tərzi-idarəmizin dəyişməsini lazım görürlər.

Mənə qalarsa, mən də siyasiyat tərəfdarıyam. Ancaq "siyasiyat" tərəfdarı olanlarla mənim aramda bir balaca təfavüt vardır.

Məsələn, onlar deyirlər ki, biz gərək bu hökuməti dəyişib əvəzində Sovet Sosialist hökuməti quraq. Çünki onda Sovet hökumətinə daha yaxın olarıq.

Mən buna heç bir vəxt razı ola bilmərəm və hərgah bu təklif sahibləri öz təkliflərində israr etsələr deyərəm ki, sizin məqsədiniz Sovet hökuməti ilə dostluq olmayıb, bəlkə ministr olmaq fikrindəsiniz. Çünki təcrübə bunu göstərir ki, Sovet hökumətinin ən bərk acığı gələn hökumətlər məhz sosialist hökumətləridir.

Dəlil: Qədimdə müsəlman sosialist hökuməti vardı, sovet gəlib onu dağıtdı. Türküstanda sosialist şura hökuməti vardı, gəlib dağıtdı. Ukraynada sosialist hökuməti vardı, sovet gəlib dağıtdı. Bu saət özündə Sovet hökuməti sosialist Finlandiyanı hədələyib, sosialist Gürcüstana acıqlanır.

İş boylə olan surətdə kim deyə bilər ki, Azərbaycanda sosialist hökuməti olsa Sovet hökuməti bizimlə dostlaşar?

Ona görə mən başqa bir təklif edirəm və deyirəm ki, doğrudur, tərzi-idarəmizi dəyişmək lazımdır, yəni cümhuri-tərz idarədən əl çəkmək və onun əvəzində Azərbaycanımızda monarxiya qurmaq və bir padşah tikmək lazımdır! Filhəqiqə əgər Azərbaycan bir monarxiya



olub bir padşah tərəfindən idarə olunsa, o halda Sovet hökuməti bizimlə dost olar.

Siz görürsünüz və öylə zənn edirsiniz ki, mən ya zarafat edirəm, ya dəliyəm və halonke mən ciddi söyləyirəm və əlimdə də dəlillərim var.

Buyurun: Buxara padşahlıqdır və əmiri-Buxara da məşhur müstəbidlərin böyüyüdür. Sovet hökuməti onunla dost oldu.

Xivədə həmçinin müstəbid idarəsi var: Sovet hökuməti onunla dost oldu. Əfqanıstan obsolyuttizmin beşiyidir: Sovet hökumətinin əziz dostudur. Deyirlər ki, Sovet hökumətinin Türkiyəyə hüsni-təvəccöhi vardır. Ola bilər, çünki Türkiyədə sultan idarəsi vardır.

Siz deyə bilərsinkz ki, bu məmləkətlər Asiyadadır və özləri də şərqdir və Sovet hökumətinin bu işlərdə--başqa mənfəətləri var və sairə və sairə. Onda götürərdik Avropanın ən mədəni məmləkəti olan İngilterəni. Bu saət Sovet hökumətinin nümayəndəsi Londonda əyləşib dostluq və mehribançılıq həqqında şerlər oxuyur.

Nə olub ki?

O olubdur ki, ingilislərin padşahı vardır. Pəs bundan aşkardır. Hər yerdə ki padşah oldu, Sovet hökuməti o yerə xüsusi bir meyl və məhəbbət göstərir.

Bunun sirri nədir? Bunun hikməti nədədir? Bu başqa bir məsələdir. Bu günün məsələsi isə budur: əgər bizə Sovet hökuməti ilə dostluq vacib isə, o halda özümüzə bir padşah tikməyə məcburuq, vəssəlam.

Bu gün Dağıstan hökuməti Sovet hökumətinə müraciət edib: bəs sən diyordin ki, mən sizə istiqlal verəcəyəm. Hanı o istiqlal?- deyə şikayət edir.

Sovet hökuməti bu şikayəti eşidib, bir ah çəkəcək və deyəcəkdir ki:

Əgər an ərəqi-Qafqazi bədəst arəd delə mara .

Be xale qərci bəxşəm Dərbəndə Teymurxan – Şurara.[1]

Yəni əgər sovet dəxi özünə bir daha Şeyx Şamil kimi bir padşah seçmiş olsa, o halda öz komissarlarını Dərbənd ilə Teymurxan Şuradan geri çağırar.

## SURNA

Deyirlər ki, firqəçilik və firqə-firqə olmaq məmləkət üçün mənfəətdir və firqəvi mübarizənin vətən əhli üçün xeyri vardır.

Əlbəttə! Necə ki, deyirlər elədir, hətta bunu da deyirlər ki, əgər bir firqəlik adamı ilə o biri firqəlik adamının arasında bir məsələ üstündə mükalimə ola və o mükalimə bir az qızıb mübahisə ola və o həman mübahisə də bərkiyib dönə münazirə ola və münazirə də yıxılıb çönə mücadilə ola və mücadilə də dönüb mübarizə ola və mubarizə də şiddətlənib müharibə ola və müharibə də qayıdıb muqatilə ola və o müqatilə əsnasında bu firqənin adamı vurub o biri firqənin adamının başını yara və o yarılmış başdan qan cari ola və o qan düşə vətən torpağının üzərinə, o halda həman torpaqdan bir ağac cücərməyə başlar və o ağaç böyüyüb meyvələr verər və hər kəs o meyvəni yeyə...

– Əşi, bu cürə əfvahi söhbət nəyə lazım! Qoy dəlil-dəlayil ilə danışaq ki, xalq da bir şey başa düşsün.

Əlbəttə, firqəçiliyin mənfəəti vardır! Sən əvvəlcə bu füqərəni mülahizəyə al ki, əgər bizdə firqəçilik olmasa idi, o halda Azərbaycan Cümhuriyyətində bir ilin ərzində iyirmi doqquz kərə "kabinə böhranı" əmələ gəlməzdi. Və halonke heç bilirsənmi bu cürə böhranların dövlət və məmləkət üçün nə qədər mənfəəti vardır?

Deyərsən ki, hansı mənfəətdir, söylə görək.

Onda mən də deyərəm ki, hansını söyləyim, maddi mənfəətini söyləyim, mənəvisini söyləyim?

Deyərsən ki, mənəvisini söylə.

Deyərəm ki, budur.

İbtidadə ki, biz Azərbaycan hökumətinin binasını qoyduq, xaricilər bizə gülüb deyirdilər ki, yazıqlar hanı sizin bir o qədər layiqli adamlarınız ki, hökumət qura biləsiniz.

Əmma indi həman xaricilər yandıqlarından ağlayırlar, çünki baxıb gördülər ki, bizim nəinki bir hökumət, hətta iyirmi doqquz hökumət qurmağa da adamlarımız varmış. Hələ bugün-sabah otuzuncunu da quracağıq!

İndi gələk maddi və cismani mənfəətə və ona görə misal üçün



nəzarətlərimizdən birini götürək. Misal götürək maarif nəzarətini. Əvvəl ibtidada ki, Nəsib bəy əfəndi maarif naziri idi, əmr verdi ki, Bakıda dövləti...

Bu əsnada firqələr arasında mükalimə, mübahisə, münazirə, mücadilə, mübarizə, müharibə və müqatilə əmələ gəlib, böhran oldu, kabinə dəyişdi və maarif nəzarəti Şaxtaxtlı cənablarına keçdi. Şaxtaxtlı çənabları əmr verdi ki, Bakıda dövləti tea...

Bu halda firqələr arasında mükalimə mübahisə və sairə, və sairə, və sairə əmələ gəlib, böhran oldu. Kabinə dəyişdi və maarif nəzarəti Qaplanov cənablarına keçdi.

Qaplanov cənabları əmr verdi ki, Bakıda dövləti tiyatırо hey...

Bu yerdə firqələr arasında müharibə əmələ gəlib, böhran oldu, kabinə dəyişdi və maarif nəzarəti genə Şahtaxtlı çənablarına keçdi. Şahtaxtlı cənabları əmr verdi ki, Bakıda dövləti tiyatıro heyəti...

Bu dəmdə firqələr arasında müqatilə əmələ gəlib, böhran oldu. Kabinə dəyişdi və bu səfər maarif nəzarəti Şahsuvar Əfəndiyə[1] keçdi.

Şahsuvar Əfəndi əmr verdi ki, Bakıda dövləti tiyatıro heyətli qu...

Bu heyində firqələr arasında çaxna-vaxna düşüb, təkrar böhran əmələ gəlmişdir və tiyatıro işi də "qu..." üstündə qalmışdır. Bundan mülahizəni al ki, tiyatıro işlərimiz "qu..." üstündə qalanda, o biri işlərimiz gör nə üstündə qalıbdır.

İndi hərgah Allah eləməmiş kimi böhranlar əmələ gəlməyə idi və maarif nazirlərinin birinin "Bakıda dövləti tiyatıro heyəti qurulsun!" deməyə fərasəti olsa idi, bu iş Azərbaycan dövlətinin xəzinəsinə milyon yarım pula oturardı. Halbuki indi o pul xəzinəmizin içində sağ və salim durubdur. Bu da ki, maddi mənfəət!

Pəs firqəçiliyin maddi və mənəvi xeyri aşkardır. Ancaq biz xam olduğumuza görə bu cürə şeyləri anlamırıq.

## SURNA

Firaksiya nümayəndələrimizin biri ilə görüşdük.

– Əfəndim, sizi təbrik edirəm!

– Nə olub ki?

– Necə nə olub? Məramınıza çatdınız.

– Nə məram?

– O məram ki, kabinə təşkili Məhəmməd Həsən Hacınski cənablarına həvalə olunur. Siz ki onun böyük tərəfdarlarındansınız.

– Bəli, tərəfdarlarından idim.

– İdim?. Bəs indi tərəfdər deyilsiniz?

İndi bəlkə olam və ya olmayam...

– Bəlkə nə üçün? Bir o qədər şifahən və təhrirən tərif və tövsif etdiyimiz Məhəmməd Həsən əfəndi dəyişildimi?

Müxatibim mənidar bir təbəssüm ilə mənə baxıb dedi:

– Görürəm ki, sən firqə adamı deyilsən!

– Xeyr, deyiləm.

Və firqəvi "manevrə"lərdən başın çıxmayır.

– Başım çıxmayır.

– Fəqət "əlcəbr vəl müqabilə" elmindən bir az da olsa xəbərdarlığın varmı?

– Bir az var.

– Onda mənə mültəfit ol: Fərz edəlim ki, "A," "B"-nin rəqibidir. Daha doğrusu, bədxahıdır.

– Olsun.

– Birdən "B" ilə "T" arasında münaqişə əmələ gəlir.

– Gəlsin

– O halda "A"nın vəzifəsi nədir?

– "A"nın vəzifəsi... "A"nın vəzifəsi odur ki, həqq tərəfə kömək eləsin ki, nahəq həqqa qalib gəlməsin.

– Nə qanmaz adamsan!

– Bəli, bir az qanmazam... –deyib məqami-etizarda bulundum. Müxatibim məni başa saldı:

– Zamanike "A," "B"nin bədxahıdır və zəmanike

– "B" ilə "T" arasında münaqişə düşdü, o halda "A"nın



doğrudan-doğruya vəzifəsi odur ki, "T"nın həqq və nahəqq olmağına baxmayıb, onun tərəfini iltizam eləsin ki, bu növlə "B"nı korlasın və ondan intiqam alsın! Başa düşdünmü?

–Düşdüm. Ancaq bəlkə onda bu işin (vətənə) və əlavə (millətə) zərəri dəydi? Onda nə olsun?

–O heç, firqəvi mübarizə işində o cürə şeyləri nəzərə almazlar.

– Çox yaxşı, indi də deyirsiniz hər halda Məhəmməd Həsən Hacınski əfəndi layiqli adamdır, boylə deyilmi?

– Onu ölçmək lazımdır.

– Kimi, Məhəmməd Həsən əfəndinimi?

– Xeyir, Məhəmməd Həsən əfəndinin ləyaqətini.

Ləyaqət nə tövr ölçülür?

– Onun üçün xüsusi arşın və girvənkə vardır.

– Əcəb! Heç mən bu cürə şeyləri bilmirəm!

– Sən çox şeyi bilmirsən. Məhəmməd Həsən əfəndinin ləyaqətinin uzunluğu və ağırlığı, özünün bizə olan münasibətinin eyni uzunluq və eyni ağırlığı ilə ölçülür. Başa düşdünmü?

– Xeyir, başa düşə bilmədim. Əlcəbr vəl müqabilə elmindən bir az biliyim var, əmma hökumət siyasiyyədən bisavadam.

Mənim qanmamazlığım müxatibim əfəndinin vücudunda əsəbiyyat peydasına səbəb oldu. Yəni "nervinçat" etməyə başlayıb açığlı-açığlı dedi:

– Heç zərgər dükanına girmisənmi?

– Girmişəm.

– Orada məhək daşı görmüsənmi?

– Görmüşəm.

– Zərgər qızılı məhək daşına çəkdiyini müşahidə etmisənmi?

– Etmişəm.

– İndi biz də gərək Məhəmməd Həsən əfəndini əvvəlcə bir məhək daşına çəkib, sonra onun nə tövr qızıl olduğunu biləkk.

Əfəndim, siz ki, Məhəmməd Həsən əfəndinin bundan bir ay əvvəl məhək daşına çəkib layiqli qızıl parçası olduğunu elan etdiniz.

– Ay rəhmətliyin oğlu, bayaqdan sənə əlcəbr vəl müqabilə elmindən misal gətirdim və o fəqərənin firqəvi mübarizə nəticəsi olaraq meydana gəldiyini söylədim... Sən nə qanmazmışsan!

– Əfəndim, nə qayırım, vallah bu cürə hökumətləri anlamaq üçün savadım yetirməyir, az kitab oxumuşam...

Müxatibim cib dəsmalını çıxarıb alnının tərini sildi və sonra dərin qəlbdən bir ah çəkib dedi:

– Ahənrübanın nə olduğunu bilirsənmi?

– Bilirəm,

– Ahənrübanın xasiyyəti nədir?

– Ahənrübanın xasiyyəti odur ki, dəmiri öz yanına çəkir.

– Çox gözəl. İndi biz Məhəmməd Həsəni ahənrüba yerində qoyub özümüzü də dəmir fərz edirik. İndi hərgah Məhəmməd Həsən bizi öz yanına cəzb etsə, layiqli bir ahənrübadır və illa fəlah.

– Aha! Deyəsən, başa düşürəm. Deməli, əgər Məhəmməd Həsən sizin ilə qohum olsa...

– Qohum nədir, a səfeh?!

– Bəs nə?

Müxatibim əllərini cibindən çıxardıb yapışdı mənim yaxamdan və gözlərini gözlərimin içinə zilləyib dedi:

– Müsəlman dili bilirsənmi?

– Bilirəm.

– Bax əgər Məhəmməd Həsən Hacınski məni öz kabinəsinə çağırıb ministirlik versə, layiqli adamdır, yox, verməsə, ləyaqəti yoxdur. Başa düşdünmü?!

– Başa düşdüm, başa düşdüm,– deyib, bu cürə çətin məsələni anladığıma görə çox da sevindim və müxatibimə qarşı izhari-təşəkkür etdim.



## SURNA

Keçən səfər parlamanda ticarət işlərindən bəhs edərkən məbus əfəndilərimizdən birisi xalı və gəbəyə xammal dedi.

Böyük səhvdir. Ondan ötrü ki, xalı və gəbə xammal deyildir! Xammal o şeyə deyirlər ki, ondan bir hazır şey meydana gələ.

Məsələn, yun yoxdurmu? Yun xammaldır. Çünki bunun gərək yuyasan, əyirəsən ip toxuyasan və sonra ondan xalı kimi yenə qayırasan. Ona görə:

– Buna xammal demək olar, əmma xalı və gəbəyə xammal demək olmaz.

Məsələn, deyirlər ki, əgər biz bolşeviklərə yol verək ki, onlar, keçib gedib Anadoluya[1] dolsunlar, o halda bolşeviklərlə türklər birləşib imperialistlərə qarşı elani-müharibə edərlər, bu cür fikirdə olanlara xam diplomat demək olar, amma xalı və gəbəyə xammal demək olmaz.

Hələ istəsən gönzəbani çiçəyinə də xammal demək olar, çünki o çiçəkləri yığıb ondan boya əmələ gətirirlər. Və o boya ilə o biriləri boyayıb xalı kimi toxuyurlar, amma hər halda xalı kiminin özünə xammal demək olmaz.

Misal üçün götürəlim yerli bolşevikləri. Onlar Denikindən tör-töküntü qalmış olan əfsərlərə və saldatlara dəvətnamə yazıb bolşevikliyə təklif edirlər və deyirlər ki, Azərbaycan qulluğuna girmiyək, çünki Azərbaycan dövləti heçdir. Bundan sonra bu cürə bolşeviklərin "sədaqətinə" inananlara xammal demək olar, əmma xalı və gəbəyə xammal demək olmaz.

Hətta istəsən qoyunun özünə də xammal deyə bilərsən, çünki qoyun xalı və gəbə üçün yun verir, əmma heç bir vəxt xalı və gəbəyə xammal deyə bilməzsən.

Hətta bunu da deyim ki, Azərbaycanda bolşevik hökuməti qurublar. Əlheydər Qarayevi[2] onun başına qoysan o halda sovet hökumətini "bizə dəyməz" deyə xəyal edənlərə xam xəyal sahibi demək olar, əmma xalı və gəbəyə mütləqən xammal demək olmaz.

İstərsən lap cəhrəyə də, darağa da, hənaya da, həvəngə də, kirkitə də xammal adı qoy, əmma xalı və gəbəyə xammal deyə bilməzsən,

ondan ötrü ki, rus rusluğunda baqidir və rus qəlbindəki türklük düşmənçiliyi də baqidir. Binaən əleyh rus generalından və ya rus mujikindən aləmi-islama kömək olar deyənlərə xam siyasətçi demək olar, əmma xalı və gəbəyə xammal demək olmaz.

Mən demirəm ki, Nikolay hökuməti ilə Lenin hökuməti arasında təfavüt yoxdur, xeyir! Təfavüt vardır və o özü də bundan ibarətdir ki, nikolaylar və generallar hökuməti bizə həmişə "isvoloç" deyib atamıza söyərdilər, mujik və raboçi hökuməti məşhur rus söyüşü ilə anamıza söyəsəkdir. Pəs bundan demək olmaz ki, xalı və gəbə xammaldır, hər halda bunu söyləyən böyük səhv edir.



# MƏKTUBLAR

## 1.Nuri-didə Ceyhun, Zurya və Ceyçik!*

Salam-duadan sonra bugünki 13 yanvardır, Azərbaycanınsa təsdiqi – bayramına məşğuluq. Bu əhvalata hamıdan artıq nənəm söyündi, çünki dedim ki, indi Ceyhun, Cəlil gərək tez qayıtsınlar. Filhəqiqə yəqin sizə xəbər olacağdır ki, tez qayıdasınız.

Siz göndərdiginiz beş yüz franq yetişdi və mən onu Azərbaycan puluna dəgişib on min manat hasil etdim və o puldan iki min beş yüzün nənəm ilə Səyyadə, üç mini Abhəyatə və iki mini də Məhbubə verdim. Franqlar özümdədir. O ki qaldı Parisə, truppa aparmaq işinə, mən bu barədə Nəsib bəy ilə danışdım, o da tapşırdı ki, mən İsmətə düzəldim. Mən də düzəldib, verdim. Ancaq Nəsib bəy dedi ki, əgər bizi təsdiq etsələr, o halda getməyə lüzum olmayacaqdır. Odur ki, indi artıq getmək əhvalatı hələ sonraya qaldı. Əvvəl siz gəlin görüşək, bəlkə sonra genə bir yerdə getməli olduq.

Evdəkilər hamısı sağ və salamatdırlar. Həmçinin Aişə xanım və əqrəbası hamısı salamətdirlər. Bir neçə gün bundan qabaq Aişə xanım bizdə idi. O da sizlər barədə çox qüssə edir. Qəzetə işim, musiqi işlərimə çox xələl yetirir, odur ki, qəzetədən çıxmaq istəyirəm, lakin hələ ki, bir münasib müdir tapa bilmiyorlar. İndi mən sən gələni gözləyib, qəzetəni saxlaram.

Sən gələndən sonra işə baxarıq. Baqi hələ ki, şayani- diqqət bir əhvalat yoxdur ki, yazım. İşdir, əgər siz orada qalmalı olsanız o halda mənə xəbər edərsən. Əmma gəlsəydiniz, çox yaxşı olardı ki, görüşüb söhbət edək. Baqi hamımızın sizə çox-çox salam-duamız vardır. Zuryaya artıq salam-dua deyib, Ceyçikin üzündən öpərsən.

**Bəradərin Üzeyir. 13 yanvar (1919).**

***Arxeoqraf tərəfindən tarix düz qeyd olunmayıb. Ceyhun bəyin Parisə səfər etməsi haqqında 9 yanvar 1919-cu il tarixdə "Azərbaycan" qəzetində müraciəti var. Yanvar ayının 13-də isə heyət Batum şəhərində olublar. Məktub çox ehtimal ki, 1920-ci ilə aiddir.**

*2.Nuri-didələr: Ceyhun, Zurya və Ceyçik!*

Salam-dua bədində sizdən çox nigaran idik, lakin kağızlarınız yetişdikdən sonra arxayınlıq hasil oldı; Axır ki, kağızınızda Ceyçikin şəklini göndərmişdiniz gəldi çıxdı və çıxmaqla Ceyçikin şəkli əldən-ələ gəzib, görən öpürdü. Qərəz çox şad olduq.

Hərdənbir özünüzün və Ceyçikin şəklini çəkdirib göndərin.

Gələk bizim işlərə.

Əvvələ, hamumız, bizlər də və Zuryanın da yeni evləri də sağ və salamatdırlar. Aişə xanım həmçinin sağ və salamat olub, genə öz işindədir. Bir neçə gün əvvəl mənimlə görüşdü və kağız yazıb verəcəyini vəd etdi. Bu günlərsə bir qədər nənəmin keyfi yox idi. Başı gicəllənirdi; Əbdülxalıqı gətirdim dava yazdı, dedi qocalığdandır; davadan bəridir ki, yaxşıdır. Özü də bizdə olur, yəni biz sizdən köçdük, öz evimizdə, köhnə evimizdə oluruq. Və bir də sizdən köçərkən təsadüfi olaraq evinizdə bir telefon aparatı tapdıq. Mən bu işə çox sevindim, aparatı siz gələnə qədər rekvizit edib evimizdə telefon çəkdirdim. Cəmalgil də, sizdə olurlar. Naibə xanım və Sura dəxi salamətdirlər; Sura öz evlərində olur; Ziba xanımın əri gəldi, evlərində başqa adamlar da olur.

Zurya hər nə Məleykəyə yazmışdı, hamısına əməl olundu.

Qəzetəni idarə davam edirəm, ancaq iş çox olduğuna görə yoruluram. Xeyli şirift gətirdik. Bu günlərdə qəzetəni böyüdəcəyik. Qərəz hər bir şey öz yerində sazdır, lakin sizin bir qədər keyfinizi pozacaq əhval budur ki, qəzetə mədaxili işi, siz zənn edən kimi olmadı. Boylə ki, "Bakinski islov" qəzetəsindən yalnız bir kərə Şəfi bəy mənə doqquz yüz manat pul verdi, vəssalam, mən də Nəsib bəyin "İqla"dan narazılığına görə "Bakinski islov" bizim mətbəəmizdən köçdü və köçməklə də, deməli, "İqla" qəzetənin yeganə sahibi oldu. Bu xüsusda Şəfi bəy də bir tədbir görmədi, daha doğrusu, görə bilmədi. İnşaallah, sən qayıdandan sonra əhvalatı özü sənə nəql edər. Bədə bizim qəzetədən sənə hər ay məvacib çıxmaq məsələsi də baş dutmadı. Çünki səndən sonra Nəsib bəy mənimlə görüşüb dedi ki, sən müdir olduğuna görə Ceyhunun məvacibini al və Məhəmmədəmin də məvacibini alsın; diməli daha sənə xüsusi məvacib yeri qalmadı və smeta dəxi öylə də yazıldı. Lakin Məhəmmədəmin yalnız məqalə yazır, ağır iş mənim öz boynumdadır. Bu xəbərləri piş əz vəxt yazıram ki, Bakıda mədaxilinizə ümidvar olmıyasınız ki, sonra məyusluq əmələ gəlir. Hər halda bununla keyfinizi pozmayınız, sağlıq olsun. İnşallah qayıdandan sonra əvvəlkindən daha artıq qazanarsınız. Təki can sağlığı olsun. Bir də ümidvaram Yevropadan o qədər material gətirərsən ki, səndən ötrü böyük bir mənbeyi-mədaxil olar. Orası da məxsusi qalmasın ki, "Bakinski islov" indi mənfəət verirsə də cüzidir. Məsələn, yüz, iki yüz çünki bu saət Bakıda igirmidən çox qəzetə çıxıyor. "Kaspi" pulsuzluq üzündən bağlandı.

Əlavə ev əhvalatından onu xəbər verirəm ki, Cəmalı evləndirmək istəyirik. Özü də Ayulduzu almaq istəyir. Bu günlərdə nişan taxılacaqdır.

Bakı həyatından şayani-diqqət olan bir şey varsa, o da tez-tez tərtib verilməkdə olan "veçer"lərdir ki, hamısı yay klubunun zalında olur. Lakin indiki veçerlər ilə keçənkilərdə təfavüt vardır. İndi içki işi azad olduğuna görə veçerlərdə hamı kefli olur. Mən də hər dəm keflənirəm.

Azərbaycan işinə gəldikdə Xan Xoyski hökuməti istefa verdi. Səbəbi "İttihadçı"lar oldu.Yeni kabinə işi Nəsib bəyə həvalə olundu. Yəni Baş vəzir oldu. Lakin hələ hökumət düzəlməyibdir. Yəqin sabah düzələcəkdir. Hər halda işimiz yaxşıdır. Könüllüləri və sairləri şəhərdən qovduq, ingilis polisasına da ehtiyac qalmadı; bu günlərdə öz qoşunumuz gəldi. Flot dəxi tərkisilah etdirildi.

Bədə nə yazım. Bizi maraqlandıran sizin əhvallarınızdır. Sən də ki, o barədə bir söz yazmırsan. Əz cümləsi bir şey yazıb göndərmişsən, lakin götürən adam yolda obskdan qorxub, cırıbdır. Deməli, əlimizə çatmadı. Qərəz arzumuz budur ki, tez işlərini qurtarıb qayıdasınız ki, tezlik ilə görüşək. Hamımız hamınızı çox-çox öpürük ba xüsusi Ceyçiki!

Heyifslənirik ki, yəqini Ceyçik qayıdandan sonra bizi tanımayacaqdır.

Zərər yoxdur sağ və salamət qayıdın, sonra tanıyar. Baqi salamat olasınız ümuməqraba və dost-aşnalardan səlam-dua!

**Bərədərin Üzeyir. 19 mart 1919, Bakı.**

### *3.Nuri-didə Ceyhun!*

Salam-duadan sonra kağızın və uşağların şəkli gəlib yetişdi və bizi çox şad etdi. Sənə çatan pul görünür ki, Zülfüqar göndərən imiş, mən göndərən pulun çatması xüsusunda bir şey yazmırsan, o pulu mən həman 18 noyabr kağızımdan bir üç gün qabaq göndərmişdim, (Cəmal vasitəsilə) zənn edirəm ki, o da indilərə kimi sənə çatıbdır. Bu gün dəxi sənə 25 dollar göndərdim, ziyafət edəsiniz. Heyif ki, sən yazmadın görək sizin üçün orada dollar mənfəətdir, yoxsa ingilis fundı.

Əlavə mənim diplom almaq məsələm get-gedə daha da əhəmiyyət kəsb edir. Çox ümidvaram ki, bu sənə axırında ikmali-təhsilə gedəcəgəm. Əlbəttə, mən getməli və sən də gəlməli olsan, o halda əvvəl məni gözlərsən ki, əvvəlcə bir görüşək və məsləhətləşək ondan sonrası gələrsən buraya mən də təhsilə məşğul olaram.

Şövkət xanım yaxşı adamdır, fəqət onun axmaq sözlərinə qulaq asma. Onun əri aferistin biridir. Burada duruş edə bilməyib qaçdı.

Sən ondan göz-qulaq ol ki, bizim əsərlərdən orada çap edərib satmasın, çünki mənim bir neçə danə ikisəsli xorlarım onda qalıbdır.

Uşağlar, maşallah, böyüyübdürlər və Timuçin lap Ceyçikə çatıbdır*, nənəm və biz hamımız şəklə çox sevindik. Əlbəttə, bütün səyinizi uşağların və özünüzün salamətliğinizə həsr etməlisiniz və hər bir barədə ehtiyatlı olmalısınız. Baqi hamının sizə artıq-artıq salam-duası vardır. Məleykə və mən sizi və uşaqları öpürük.

**Bəradərin Üzeyir. 18 dekabr (1919).**

***Arxivçi tərəfindən qeyd edilən və mötərizəyə alınan tarix səhvdir. Çünki Timuçin 1921-ci ildə anadan olub.**



### *4.Nuri-didə Ceyhun, Zurya və Ceyçik!*

Sizə kağız göndərə bilmək imkanından dolayı dedikcə şadam. Allah bu zatın atasına rəhmət etsin ki, sözünə vəfa edib, kağızı götürdi.

Əvvələ, şükür olsun Allaha ki, hamımız sağ və salamət olub sizə duagu varığ və qayıdub gəlmənizi böyük bir səbirsizlik ilə gözliyoruq. Bu axır günlərdə sizləri tez-tez yuxumuzda görürük və mən keçən gün gördəndə ki, siz gəldiniz və Ceyçik əlini mənim cibimə salıb qəzetə çıxardır; bu yuxulardan böylə güman edirik ki, inşallah tezlik ilə görüşərik. Zatən Məhəmmədəmin demişkən yevropalıların rəsmi surətdə gəlib, bir ay burada görüb də həqiqəti-haldan öz təşəbbüsləri ilə xəbərdar olmaları sizin orada bu qədər uzun qalmağınızı lüzumsuz buraxır...

Hər halda biz sizin tez qayıtmanız tərəfdarıyız.

Özümüzə gəldikdə, necə ki, yuxarıda dedim salamət varıq. Bu yay mən və Məleykə sonra Cəmal və Sehra "Qacur"da idik. Məleykə ilə mən qızdırırdıq, odur ki, həkimlər oranı məsləhət gördülər. Sentyabrın əvvəllərində qayıtdıq. İndi hələ ki, qızdırmamız yoxdur. Zülfüqar nənəmgili dəxi bir yerə aparmağı öhdəsinə götürdüsə də, lakin əhdinə vəfa etmədi. Odur ki, onlar ələttəəssüf yayı Bakıda keçirdilər. Zərər yoxdur, inşallah, gələn il siz ilə bir yerdə bir yaxşı yerə gedib dürüst rahət olarıq.

Aişə xanım və Zuryanın cəmi qohum-əqrabası hamısı dəxi Allahdan sağ və salamət olub sizlərə dua göndərirlər. Bir on-on iki gün bundan əvvəl mənim "yövmi-vəladətimdə" Aişə xanım dəxi bizdə idi. O günü yaxşı bir qonaqlıq qayırdıq. Nəsib bəy özü, arvadı, Məhəmmədəmin, Şəfi bəy dəxi bizdə idilər. Sizin də sağlığınıza içdik və sizi yad-bud etdik. Baqi ev barəsində sən də bir öylə şayani-diqqət əhvalat yoxdur ki, yazım.Cəmal və Sehra nişanlıdırlar. Cəbbar hərbiyyə məktəbini bitirib zabit olubdur. O sənədə Lənkərana təyin edibdirlər. Dolanacağda öylə bir sığıntı çəkmirik. Ümumməvaciblər artıbdır. Məsələn, Cəmal üç mindən çox və mən də altı min məvacib alırıq. Əlavə məqalələrin də sətri

bir manatdır. Deməli, mən yeddi-səkkiz qazana bilirəm. Qəzetənin işi pis degildir. Bir növ dolandırırıq.

Kabinəm üçün tazə mebel aldırdım və telefon gətirtdim. İnşallah, gələndə görərsən.

Siyasi işlərə gəldikdə hal-hazırda hökumət böhranı mövcuddur. Nəsib bəy kabinəsi istefa etmişdir. Lakin bu günlərdə yenə başında Nəsib bəy olmaq üzrə yeni kabinə düzələcəkdir. Nazirlərin ədədi bir az azalıb əlavə zənn edirəm ki, sosialistlərə yer verilməyəcəkdir. Əhvali-siyasimiz dedikcə yaxşıdır. Nəsib bəy işi çox gözəl apardı və məmləkəti demək olar ki, hər bir təhlükədən qurtarmaqla bərabər abad, məmur və qüvvətli bir hala saldı. Bu saət tam mənası ilə müstəqil dolanırıq. İçimizdə heç bir biganə əl yoxdur. Qarabağ və Lənkəran məsələləri bizim nəfimizə olaraq həmən qan dökülmədən həll edildi. Bir əndişəmiz varsa, o da Şimaldandır. Lakin o barədə də bizə ümüd verənlər yox degildir. Qərəz işimiz "xod"dur.

Yalnız bir arzumuz odur ki, siz gələsiniz, tezlik ilə görüşək.

Ceyçik hamının dilindədir. Partiretini kamodun üstə qoyub hər gün tamaşa edirik. Baxüsus nənəm çox sizi arzulayır. Nənəm bizdə olur. Əlbət əlif əlbət özünüzü gözliyəsiniz, həm azarlamadan, həm də təsadüfi vəqələrdən, çünki böyük şəhərdən öylə təsadüflər çox olar. Və bir də əgər orada oylə bir vacib iş yoxsa artıq oturmağın nə mənası? Çıxın gəlin buraya. Getmək lazım olsa sonra da mümkündür. Cəhd eylə fürsətdən istifadə eylə firəng dilini kəmalınca ögrən və özünü orada gözəlcəsinə tanıtdır. Baqi bizim hamımızdan və cəmi dost-aşnadan sizlərə çox-çox ərz salam və busələr!

**Bəradərin Üzeyir. 8 oktyabr 1919-cu il, Bakı.**



### *5.Nuri-didə Ceyhun!*

Sənə fövri birisindən məktub göndərdim və orada hər nə təfsilat varsa yazmışam. Indi Yusifin getdiyindən istifadə edib, bu məktubu dəfi yazıram. Ona nənəm deyibdir ki, Ceyhungil həmişə bu duanı oxusunlar "La hövla və la qövlə Allahu billah əliyül əzm" və saniyən, deyir ki, inşallah, qayıdan səfər mənə bir çəkmə və bir paltoluq alsın.

Əlavə burada bir məsələ var ki, Yevropada səfarətlər təyin edilsin. Bu xüsusda mən Nəsib bəy ilə görüşmək istiyorəm ki, görüm sənin barədə fikirləri nədir. Hərgah bir boylə plan olsa ki, sən Parisdə səfarət işlərinə məşğul olasan, o halda sən buraya qayıtmalı olmasan mən səy edəcəyəm ki, özüm də oraya gəlim, yox əgər sən gəlməli olsan, onda burada danışarıq.

Və bir də neçə gün əvvəl İstanbul səfirimiz Yusif Vəzirovdan bir məktub aldım. Yazır ki, ermənilərin fransızca "Renesans" qəzetəsi iddia edir ki, "Arşın mal alan"ı yazan ermənidir. Yusif bu işdən çox mütəəssir olduğunu yazır və israr eyləyir ki, mən əsərlərimin notlarını çap etdirib onlara göndərim ki, səfarət xərcinə olaraq bütün Yevropada, həmən Amerikaya boylə intişarına səy etsin. Hər gah mən Parisdə olsaydım notlarımı tezlik ilə və yəqin ki, ucüz olaraq çap elətdirərdim. Mən əhvalatı Nəsib bəyə söylədim. Dedi ki, bu iddia ermənilərin Zəngəzur iddiasından dəha betərdir.

Qərəz ya sizin buraya və bizim oraya getmək məsələmiz həll edilmiş olsa idi, onda mən məxsusi öz musiqi işlərimə məşğul olub bu xüsusda da Avropa əfkari-ümumiyyəsinin diqqətini cəlb edərdik. Keçən səfər "O olmasın, bu olsun" oynuna ingilis böyüklərindən biri gəlib Nəsib bəyin lojasında oturmuşdu, hər nə görürdü hamısını dəftərinə qeyd edirdi. Əsərin müəllifi kim olduğunu da bilib, dəftərinə yazıbdır. Qərəz mənim əsərlərim avropalıların marağına səbəb olur. Ona görə bu yolda müntəzəm işləmək lazım idi. İnşallah sənlə görüşəndən sonra bu işin xüsusunda çalışarıq. Bizim hamımız da Zuriyaya çox-çox salam-dua deyib, Ceyçikin üzündən öpərsən.

Bir ay əvvəl Nəsib bəy məni tiyatırda görüb dedi ki, bizim Paris məruzələrimiz artır, dedim nə tövr artır, bəlkə balalayor, dedi, bəli, balalıyor. Onda bildim ki, Zuryanın həqqində söyləyir. Hamının arzusu budur ki, Zurya sağ və salamət xilas olub Ceyçikə bir yoldaş olsun, inşallah. Baqi. Səlamət olasınız. Özünüzü hər nihan diqqətdən gözlədin.

**Bəradərin Üzeyir. 14 yanvar, 1920-ci il.**



***6.Nuri-didə Ceyhun!***

Salam-duadan sonra Cəmala və Zülfüqara yazmış olduğun kağızlar gəlib yetişdi. Məzmunundan anlaşulur ki, sizin güzəranınız pis keçir. Bu isə bizi çox pərişan etdi. Hər halda çox da məyus olmaq lazım degildir, çünki biz buradan sizə köməklik yetirərik ki, mümkün olduğu qədər üsrət çəkməyəsiniz. Sonə borclu olanlardan hələlik pul almaq bir qədər çətin əmrdir, baxüsus Hacı Ələsgərdən ki, bu saət onun özü çox ehtiyac içindədir. O,Cəmalə deyibdir ki, Ceyhun özü oğluma yazıb borcunu ondan istəsin. Sən öylə et və onun oğluna kağız yazıb pul istə; İkinci borclu isə Zülfüqarın dediyinə görə söz veribdir ki, köməklik yetirsin. Mən onu dəxi Cəmala tapşırdım ki, özü də o adamı görsün və mən də görüşüb tələsdirəcəgəm. Sizin evin məxluqatına gəlincə onların bu saət dəgəri bir o qədər pul etməz, ona görə qərar qoyduğ ki, hələlik, ehtiyat üçün dursun. Bunun hamısının əvəzində mən boylə qət etdim ki, özüm sənə hər ay beş funt ingilis pul göndərim, odur ki, israğa gün buranın banqı vasitəsilə sənin adına beş funt göndərdim. Fəqət bilmiyorəm bu qədər pulun sizə bir gör-kəmli kömәgi olarmı, olmazmı. Sən isə bu barədə mənə kağız yaz, əvvəla, ümumaylıq xərcinizi bildir ki, görüm sizin dolanmanız üçün münumum nə qədər lazımdır və mən göndərən pul sizə nə qədər köməklik yetirə biliyor.

Hər halda sizin orada ehtiyac içində qala biləcəginizdən çox da təşvişə düşmə, çünki burada bizdən müəyyən kömək gözləyə bilərsən ta o vaxta qədər ki, sənlə görüşüb də buraya qayıtmaq məsələsini həll edərik. Mən səninlə ancaq yayda görüşə bilərəm. Orada açılan sər-giyə indi mən gedə bilmərəm, çünki əlimdə olan qulluğu itirə bilə-rəm. Mən, inşallah, ya iyunun axırında və ya iyulun ortalarında nə tövr olmuş olsa, oraya gəlib sizinlə görüşərəm. O zamana qədər isə hər ay sizə beş funtdan az olmamaq şərtilə pul göndərərəm. Bununla işiniz aşmaz isə daha da artıq mümkündür.

Kağızını bir para yoldaşlara göstərdim. Çox xoşlarına gəldi. Hamısı sənin gəlməyinin tərəfdarıdırlar. Fəqət mən boylə qət etmişəm ki, əvvəlcə səninlə görüşək, sonra bir yerdə qayıdarıq.

"Arşın mal alan"ın notlarını Cəmala verdim ki, sənə göndərsin. Hərgah ondan da bir şey çıxarsa daha yaxşı!

İstanbulda tyatıro qoyaq və sairə bu kimi məişət yolları məsələsini səninlə görüşəndə danışarıq, hələlik sən qarıxma və mən gələnə kimi öz ədəbi işlərinlə məşğul ol.

Bizlər hamımız sağ və salamat varıq. Aişə xanımgil dəxi salamatdırlar. Musanı buraya ticarət komissarı təyin edibdirlər. Mən onunla hələ görüşməmişəm. Onun da burada olmağı yaxşıdır.

Nənəm, bacıların, Mələykə və bütün qohumlar sizə artıq-artıq salam-dua göndərib, sənlə Zöhrənin və Ceyçik ilə Timuçinin* üzlərindən öpürlər.

Əlbəttə, pul sənə çatan kimi mənə kağız yaz və sizə nə qədər ayda pul kifayət edəcəyini dəxi yaz məlum elə. Çox da fikirlərə düşmək lazım degildir. Sizi köməksiz qoymarıq. Kağızı mənim öz adresimə yaz. Baqi səni, Zöhrəni və uşaqları öpürəm.

**Bəradərin Üzeyir. 24 fevral (1920) Bakı.**

***Məktuba qələmlə əlavə yazılan il səhvdir. Çünki Timuçin 1921-ci ildə anadan olub. Çox ehtimal ki, məktub təxminən 1921-22-ci illərdə yazılıb.**



***7.Nuri-didə Ceyhun!***

Salam-duadan sonra çox şadam ki, sizə məktub göndərməyə müvvəfəq oldum. İstanbuldakı "Tamaşa" jurnalının müdiri Bakıya gəlib mənimlə görüşdü və mənə İstanbulun məşhur artisti Ərtoğrul Möhsün əfəndinin fotoqrafın sahibindən qayibanə salamlarla hədiyyə gətirdi və mənim də fotoqrafimı alıb İstanbula gedərkən mən bu məktubu yazıb ona verdim ki, İstanbuldan sənə göndərsin.

Bizlər hamımız sağ və salamat varıq, bu zaman əsnasında yəni sizə Hənifə xanımın oğlundan məktub göndərəndən bəri əlhəmd heç birimizin burnu da qanamıyub hamımız – istər bizimkilər, istər Aişə xanımgil hamısı salim və sələmətdirlər. Aişə xanım bizə tez-tez gəlir və bizdə qalır, tikiş işində Mələykəyə kömək yetirir, çox heyf olsun ki, sizdən heç bir xəbərimiz yoxdur və Parisdən heç bir gələn də olmur heç olmasa əhval-pürsan olaq. Ancaq bir-iki həftə bundan əvvəl Zöhrənin bizə yazmış olduğu məktubunu aldıq. Məktubun tarixinə baxıb gördük ki, doqquz ay bundan əvvəl yazıbdır. Məni sizin əhvali-maddiyəniz çox fikirlərə salır, bilmirəm nə ilə dolanırsınız. Sənin bir işin varmı ki, ondan mədaxil ola, bəlkə ehtiyac və üsrət içindəsiniz? Və bir də sizin buraya gəlməyiniz nə vaxt mümkün ola bilər? Sizi ordanmı buraxmırlar, yoxsa bura gəlməkdənmi ehtiyat edirsiniz?.. Mən boylə güman edirəm ki, buraya gələsiniz, sizə heç bir söz deyən olmaz. Hər gah bilsəm ki, gəlmək istəyirsiniz mən piş əz vaxt bizim komissarlarla görüşüb, fikirlərini bilərəm, sən bu xüsusda mənə bir məktub yaz və gələn olsa göndər.

Bizim öz dolanacağımız yaxşıdır. İndi burada külfət saxlamaq üçün ayda on milyon pul istər. Mən bundan artıq qazanıram, çünki bir neçə yerdə musiqi dərsi verirəm. Əlavə əsərlərimdən hökumət mənə on faiz qonorar verir. Mən bu il müsəlmanlara məxsus olmaq üzrə bir konservatoriya açdım bu saət orada iki yüzdən artıq məktəb şagirdəni oxuyur. Bir həftə bundan əvvəl rəsmi-güşadi idi. Bütün komissar yoldaşlar başda Nərimanov olmaq üzrə gəlmişlərdir. Təbrik nitqlərdən sonra çay verdim, çox canfəşanlıq oldu. Hökumət mənə hər bir barədə kömək edəcəyini vəd etdi. Həqiqət bu konservatoriyanın bizim müsəlmanlardan ötrü böyük mənası olacaqdır. Oxuyanların yarısı kişi, yarısı arvaddırlar. Çoxları da çadra başında olan

qızlardır. Çingiz ilə Niyaz dəxi orada oxuyurlar, bir neçə gün bundan əvvəl onların sünnət toyları da oldu.

Nənəm eşitdi ki, mən sənə kağız yazıram, çox şad oldu və hamıya tapşırıbdır ki, səs-küy salmasınlar, mən qarıxmayım, özü də sağ və salamatdır, bu günlər də ona diş qayıtdırmaq istəyirik.

Mələykə çox istəyir ki, Zöhrəni və uşaqları görsün, çox vəxt siz onun yuxusuna girirsiniz durub nənəmə nəql edir. Bacımgil bizim evə köçübdürlər, yəni otaqlarımızın ikisini onlara vermişik. Bütün gününü Cəmalın oğlu Kəmal ilə keçirir. Kəmal çox yaxşı oğlan olubdur. Ceyçikin uşaqlığına oxşayır, özü də məni çox sevir, mənə "aqqa" deyir, mən də onu çox sevirəm və asudə olanda onunla oynayıram.

Sehragil dəxi sağ və salamətdirlər. Məhbub konservatoriyada oxuyur. Cəbbardan dəxi danışırlar ki, salamətdir və guya Ərdəbildədir, bunu hələ təhqiq etməmişik. Abhəyat əri ilə bərabər Zaqataladadır, onu Bakıya gətirmək istəyirik. Zülfüqar və Böyükxanım öz qulluqlarında baqidirlər. Qərəz hamı sağ və salamət olub rahat dolanmaqdadır. Bir nigaranlığımız yalnız siz tərəfdədir. Nənəm sizləri çox-çox arzu edir və hər dəfə haçan gələcəyinizi məndən soruşur, mən də ona əhvalatı qandırıram.

Bakı şəhəri isə öz adi halını almaq üzrədir, ticarət sərbəstdir, teatrolar yenə dolu olur. Cümə günü "Leyli və Məcnun" hökumət tiyatorında oynanıldı. Həştad beş milyon izbor verdi!

Baxüsus arvadlar teatroya çox gəlir. Əz cümlə hamı çox "intensivno"işləyir bir dərəcəyə qədər ki, evdə bir-birimizi çox az görürük. Məsələn, bu saat mən zasedaniyadan qayıtdım. Mələykə evdə yoxdur, zasedaniyaya gedibdir. Hamı boylədir. Adamları evdə tapmaq olmur. Qərəz mənim, nənəmin, Mələykənin, bacımın və hamımızın ağzından sizi və baxüsus Ceyçik ilə Timuçini çox-çox öpüb, sələm-dualar göndəririk və tezliklə görüşmək arzu edirik. Səy eylə ki, gələn olsa mənə bir məktub yaz.

Baqi əddua.

**Bəradərin Üzeyir. 26.11.1921, Bakı.**



### *8.Nuri-didə Ceyhun!*

14 noyabr məktubunu alıb çox şad oldum. Bizlər hamımız sağ və salamət varıq. Mənim fikrim budur ki, bu qışı keçirib, yay olan kimi, yəni mayın axırında Mələykə ilə bərabər sənin yanına gəlib, orada bir az qalaq və dincimizi alaq və sonra hamımız bir yerdə vətənə qayıdaq. Biz malariya naxoşluğunu dürüst tədavi etdik, budur dörd - ildir ki, naxoşlamırıq, əmma mən çox yorulub nervinni olmuşam mənə istirahət vacibdir, odur ki, bu ildən tədarük görürəm ki, yayda oraya gələk. Siz gözləyin, inşallah, biz gələndən sonra bərabər qayıdarıq. Burada bizim dolanacağımız çox yaxşıdır, mən də, Zülfüqar da, Cəmal da yaxşı pul qazanırıq. Məsələn mən aya üç milyard pul qazanıram ki, qızıl pul ilə 150 manatdan çox edər. Sən göndərən pul bizə çatmayıbdır. Mən, məsləhət görürəm ki, sən oradan bizə heç bir şey göndərmə, çünki gəlib çatmıyor, biz özümüz gələndə verərsən. Qohum və əqrəba hamısı sağ və salamatdırlar, heç bir tələfat yoxdur. Aişə xanım hələ ki, Bakıdadır.

Özü də sizə kağız yazacaqdır, onlar da hamısı sağ və salamatdırlar.

Baqi bizim hamımızın baxüsusi nənəmin, Mələykənin, Zöhrəyə, uşaqlara və sizə çox-çox salam-duası vardır. Tez-tez kağız yazınız və bizi yayda gözləyin. İnşallah gəlib-görüşərik.

Baqi əddua.

**Bəradərin Üzeyir. (noyabr, 1922).**

### *9. Nuri-didə Ceyhun və Zöhrə!*
### *Və nuri-didə Ceyçik və Timuçin!*

Salam-duadan sonra bizlər sağ və salamət varığ və ən böyük arzumuz budur ki, sizlər də sağ və salamət olub tezlik ilə bizimlə görüşəsiniz. Ceyçik və Timuçinin naxoş olmaları bizi nə qədər məyus edib, təşvişə saldısa, tezlik ilə yaxşı olmaları da bir o qədər şad etdi.

Bu günlərdə sizlərə yeni əlifba kitabı ilə bərabər bir neçə kitablar dəxi göndərdik. Kitablardan genə də göndərəcəyik. Özümüz də səy edirik uşağlara da hər ay az da olsa pul göndərə biləк ki, aybaay ala bilsinlər. Mən genə də öz rektorluq qulluğumda baqi varam. Fəqət ali təhsilim olmamaq məsələm hər dəfə məni məyus edir və bəzən işlərimə də zərəri olur. Ona görə bu qış Moskvaya gedib, Azərbaycan musiqisinin əsasları həqqında böyük bir məruzə oxuduqdan sonra, ali təhsilim üçün Almaniyaya göndərilməm məsələsini təkid edəcəgəm və ümidvaram ki, bu səfər müvəffəq olaram, çünki Maarif Komissarlığı dəxi bu fikrimə şərikdir.

Əlavə Aişə xanım tez-tez bizlərə gəlir və yazdığın məktubları oxuyur. Özü də genə Musagildə olur.

Başqa qohumlarımız da hər kəs öz işinə məşğul olub ailəsini təmin etməyə məşğuldurlar. Hərdəm bir rajdeniya olanda hamımız bir yerə yığılıb görüşürük və sizləri arzu edirik. Fəqət görüşümüz çox gec-gec olur çünki, hamımızın işimiz çoxdur, həm səhər, axşam işləməyə məcburuq, mən ki səhərdən axşama qədər məşğulam.

Nənəm sağ və salamatdır, ancaq qocalıbdır, hər halda əvvəlki naxoşluğu dəxi təkrar olunmayır, özünü soyuğa verməsə, keyfi həmişə kök olar. Cəmalgil dəxi salamətdirlər, uşaqları bir qədər naxoş olmuşdu, indi yaxşıdırlar və Ceyçik ilə Timuçinə salam-dua göndərirlər. Onlardan Kəmal bu ildən məktəbə gedir və məktəbini çox sevir.

Dilarə isə elə gözəl oynayır ki, guya balet kursunda oxuyubdur. Gələcəkdə artistka olacağı indidən bəllidir. Cəmil çox şallağlıq edirsə də genə də bir o qədər mehriban uşaqdır. Özü də evlərində qonaqlar olanda gedib nahar stulunun altında yatır. Elmira isə tazə-tazə dil açır və anası Ayulduza çox oxşayır. Sehranın qızı Zivər çox ağıllı qızdır, o da yaxşı oxuyur və oynayır. Sehranın oğlu Ramiz də yeriyib



danışur və özü də çox yeyir. Sehranın bir tazə qızı dəxi vardır ki, hələ mən onu görməmişəm. Dilşadın qızı Şümşad dəxi çox ağıllı və özü də bibim kimi çoxbilmişdir. Zülfüqarın uşaqları da böyüyüb yekə oğlan olubdurlar. Özləri də Konservatoriyada oxuyurlar*. Zülfüqar özü isə hələlik bekardır. Əlavə Ramazanın, Əlinin, Hənfuşun, Əminənin, Məryəmin uşaqları da böyüyüb, bir çoxları istudentdirlər. Və bunların hamusının sizə artıq-artıq salam-duaları vardırlar. Baqi nənəmin, Məleykənin sizin hamunıza salamları olub, dördünüzün də üzlərindən mən ilə bərabər çox-çox öpürük. Özünüz də qəm və qüssə etməyin. Inşallah bir gün sağ və salamət görüşərik. Təhsilim yolunda çox çalışıram. Hələki salamat olasınız.

**Bəradərin Üzeyir. (1921)**

***Zülfüqar bəyin oğlu maestro Niyazi Azərbaycan Dövlət Konservatoriyasında 1925-26-cı illərdə oxuduğu halda, məktubun tarixini arxioqraf tərəfindən 1921-ci il yazılması nə qədər düzdür?**

### *10. Nuri-didə Ceyhun!*

Salam-duadan sonra sənin kağızların və göndərdigin məbləğ gəlib çatdı. Çox sağ olasan. Fəqət son məbləğ xüsusında özünə korluq vermə. Çünki biz burada hər nə siyağ olmuş olsa bir növ dolanurığ və yemək sarıdan korluq çəkmirik. Məbləğdən Aişə xanımın xüsusi dəxi özünə çatdı.Ümumiyyətlə, yemək-içməyimiz çox yaxşıdır, siz bizim tərəfdən nigaran olmayın, dolanacağımız çox yaxşıdır. Əlavə hamı sağ və salamatdır, əlhəmdüllah, heç bir tələfatımız yoxdur.

O ki qaldı mənim oraya gəlmək məsələm, mən gəlmək istiyorum və bu barədə çalışıram, özüm də Nərimanov ilə Bünyadzadənin Moskvadan qayıtmağlarına müntəzirəm ki, onlardan üç aylıq məzuniyyət alıb gələm, hər halda ola bilsin ki, aprelin ortasında və ya axırında və bəlkə bu ilin tez bir vəxtində gələ bilim, o vəxtə qədər dəxi nənəmgili yay üçün bağlara göndərərik. Məleykə dəxi mənim ilə bərabər gələcəkdir. "Arşın mal alan"ın firəng dilinə tərcümə edilməsi məni çox sevindirdi, ümidvaram ki, müvəffəqiyyəti artıq olar. Qərəz kömək üçün çalışıram. Hər halda biz tərəfdən nigaran olmayın. Çox bərk işə tələsdiyimə görə müfəssəl kağız yaza bilmədim. Bizlər hamımızdan, ələlxüsus nənəmdən və Məleykədən Zöhrəyə, Ceyçikə və Timuçinə çox-çox salam-dua deyib ağızlarından öpərsən. Baqi salamat olasınız.

**Bəradərin Üzeyir. 10 mart 1922-ci il, Bakı.**



### *11. Nuri-didə Ceyhun və Zöhrə!*

Salam-duadan sonra bizlər hamımız sağ və salamat varıq. Fəqət siz tərəfdən çox nigaran varıq. Çünki qəzetələrdə oxuduğumuza görə oralar çox soyuqdur və naxoşluqlar əmələ gəlir. Biz təəccüb edirik ki, nə üçün siz buraya gəlmək istəmiyorsunuz və hərgah istəyorsunuzsa nə üçün təvəssütdə bulunuyorsunuz, mən bu xüsusda sənə keçən il yazmışdım və genə təkrar yazıram ki, sənin buraya gəlməginə heç kəsin bir sözü yoxdur. Hökumət izn verəndən sonra nə üçün gəlməmək? Halbuki izn ilə gələnlərin hamısı burada rahat oturub, qulluq etməkdədirlər, məsələn, Yusif Vəzirov, Vəkilov və sairələri.

İzn almaq yolu dəxi necə ki əvvəldə sənə yazmışdım boylədir. Sən bizim Parisdəki polpredstvoya Azərbaycan Şura hökuməti namına olaraq ərizə verirsən ki, sənə buraya gəlməyə izn verilsin. Sənin ərizənə görə polpredstvo buradan və Moskvadan soruşur ki, bu xüsusda məmaniət varmı, ya yoxmu? Sonra onun cavabı sənə bildirilir və izn olduğu halda sənin üçün yol açığdır. Digər bir yol dəxi budur ki, sən mənə yazırsan ki, buraya gəlmək üçün mən buradan təvəssüt edim. Mənim təvəssütim buradakı məsul idarələrdə baxılıb Moskvaya göndərilir və Moskva da izn verdikdən sonra Paris polpredstvosına göndərilir, oradan dəxi atkaz olmadığdan sonra sənə izn verilir. İzn verildikdən sonra sərbəst olaraq istədiyin yerə gedirsən. Əlavə mən bir kərə də olsun eşitməmişəm ki, izn verilməklə buraya gələn adamlara sonra bir əziyyət olsun və halonke əvvəllərdə təqsirləri olanlar dəxi gəlib Şura hökumətinə sidq dil ilə qulluq edirlər. Sən ki, məlum olduqu üzrə təqsirsizsən, özün də ki, Parisdə student olaraq yaşayırdın, nəinki mühacir. Və frəng dili bildiyinə görə səni texnik katib etmişdilər. Qərəz ki, Azərbaycandakı məsul yoldaşlar sənin kim və nəçi və nə məsləkli adam olduğunu gözəlcəsinə bilirlər və təəccüb edirlər ki, sən indiyə kimi buraya gəlmirsən. Görünür ki, oraların da aksiyon mətbuatı buraların əhvalını fəna bir halda yazır və sən də ona inanıyorsan. Biz isə çox gözəlcəsinə dolanırıq. Bizimkilər və biz özümüz səni inandıra bilərik ki, heç vəxt boylə asudə və rahətcəsinə yaşamamışdıq. Bu saət buraların əhvalı çox gözəldir, qoçubazlığla məşğul olan Bakıdan heç bir əsər də qalmayıbdır, hər

kəs rahətcəsinə öz işinə məşğuldur. Və işlər də o qədər maraqlıdır ki, il gəlib dolandığı heç nəzərə də gəlmiyor. İnşallah, bu may gələndə özün görərsən və təəccüb edərsən.

Əlavə uşaqlar üçün buranın isti havası çox gözəl olardı, sağlamlaşarlardı və nə siz bizdən, nə də biz sizdən nigaran olmazdıq.

Sən, əlbəttə mən diyən siyaq edərsən, yəni ya sən özün polprestvo vasitəsilə və ya ki, mənə yazarsan ki, mən təvəssüt edim və mənə tez cavab verərsən. Öylə olsun ki, bu istilər düşən vəxti gələ biləsiniz. Sonra soyuqlar mane olmasın.

Anam salamatdır, fəqət qocalıbdır, gözləri pis görür, qulağları pis eşidir, özü də sizi arzu edir. Demişəm ki, bu yaxınlarda gələcəksən, çox söyünübdür. Hər vəqə məndən soruşur. Özü də genə həmişəki kimi çox gülür və bizi də güldürür, baxüsus deyilən sözləri başa düşə bilməyəndə, uğunub qəşş edir.

Nənəm, Məleykə və ümumqohumlar sizə salam-dua göndərib. Ceyçiklə Timuçinin üzündən öpürlər. Və sizin tez gəlmənizi arzulayırlar.

Əlbəttə, kağız sənə çatan kimi mənə cavab yaz. Hələ ki salamət olasınız, öpürəm sizi və üşaqları.

**Bəradərin Üzeyir. 18 mart 1922, Bakı.**



### *12.Nuri-didə Ceyhun!*

Salam-duadan sonra bizlər hamımız, əlhəmdullah, sağ və salamət varığ. Əvvəlcə onu deyim ki, Bəhram bəy Axundovun "İttihad"çılara məxsus xainanə hərəkəti məni çox pərişan etdi. Getməkdən bir gün qabaq mənlə görüşüb gedəcəyi həqqında bir söz də mənə söyləmədi ki, bəlkə birdən mən ona kağız verəm deyim ki, bunı Ceyhuna ver. Mən sənin yerinə olsam ona nəinki hörmət etmərəm, heç qapıma da qoymaram. O cürə namərdlər hörmətə layiq degildirlər.

İndi keçək öz işlərimizə.

Yay yetişdi, hər kəs daça fikrinə düşdü. Fəqət mən bu xüsusda heç bir fikirə dalmadım, çünki əsl fikrim Parisə gəlmək idi. Amma indi yay gəldi, daçaya gedən getdi. Fəqət mən nə daçaya gedə bildim, nə də Parisə, çünki Paris səfəri o qədər-o qədər pul istəyir ki, evimin bütün əşyasını satsan genə də öhdəsindən gəlməz. Ona görə mən neçə gündür ki, başlamışam əlimə düşən pulları qızıla verirəm ki, qızıl yığıb Paris pulunu xərcini düzəldim. Zatən əgər "Arşın mal alan" fəqərəsinə sən yazdığın tyatronun böyük bir əhəmiyyət verməк ciddi olsa idi o tyatro mənə yol xərci kimi avans pulu göndərə bilərdi və mən də o surətdə hökumətdən məzunuyyət alıb, bir-iki aylıq gələ bilərdim, pulu İran səfarəti vasitəsilə göndərmək olardı. İndi, hər halda bu mümkün isə bu barədə sən çalış. Mümkün olmayan təqdirdə bir qədər gözləmək lazımdır ki, ta mən pul tədarükü görüm.

Buradakı məişətimizə qaldığda biz çox yaxşı dolanırıq. Heç bir şeydən korluğumuz yoxdur. Bacımgil bu günlərdə Buzovnaya köçdülər və Kəmalı da apardılar. Kəmal çox intiresni olubdur, yeriyir və danışmağa başlayır, özü də siz göndərən paltarları geyir və təşəkkürlər edir.

Biz isək, yəni nənəm, Məleykə və mən hələ ki, şəhərdə də qalmışıq. Emiş dəxi bizimlə olur və mənə yalvardı Zöhrəyə və uşaqlara ondan çox-çox salam-dua yazım. Abhəyatdan sağ və salamatlıq xəbəri gəldikcə yüzümüz də güləcəkdir. Aişə xanım

neçə vəxtdır ki, Mustafanın yanına gedibdir. Zülfüqargil və uşaqları salamatdırlar. Qərəz hər nə nigarançılığınız varsa, yalnız sizlərdəndir. Hər halda təki sağlığ olsun. Baqi nənəm, Məleykə və mən daha qohum-əqraba və dost-aşna sizlərə çox-çox salam- dualar göndərib, üzlərinizdən öpürük.

Baqi əddua.

**Bəradərin Üzeyir. 24 iyul, 1922.**



*13.Nuri-didələr Ceyhun, Zöhrə, Ceyçik və Timuçin!*

Əvvəla, salamət olasınız və saniyən, bizlər hamımız sağ və salamət varığ. Mən neçə kərə sizə kağız yazıb göndərmişəm, əmma görünür, sizə çatmıyor ki, hər məni görən deyir ki, Ceyhun nervinçat edir və deyir ki, evdən kağız gəlmiyor. Sən əbəs yerə nervinçat eləmə, bizlər tərəfdən həmişə arxayın ol çünki hamımız sağ və salamət olub, yaxşı dolanırıq. Mənim keçən gecə kağız yazmamağımın səbəbi odur ki, məşğuliyyətim həddən artıqdır. Boylə ki, hər gün yövmiyyə səhər saat 9-dan axşam saat 9-a kimi işə məşğulam, boylə ki, bu il payızdan bəri bir kərə də olsun hətta tiyaturaya dəxi getməmişəm. İndi tək Cəmala və Zülfüqara dəxi tapşırarım ki, hərəmiz növbət ilə hər həftə sizə kağız göndərək.

Əlavə nuri-didə Ceyçikin məktubu və çəkdiyi şəkil gəlib bizə çatdı. Mən çox təəccüb etdim və artıq dərəcədə sevindim ki, Ceyçik öylə şəkillər çəkməyə başlayıbdır. Bizim hamımızın tərəfindən Ceyçikin və Timuçinin üzündən öpüb, deyərsiniz ki, o şəklini Ceyçikin balaca yoldaşı Kəmala göstərəcəyəm. Kəmal dəxi yavaş-yavaş şəkillər çəkməyə başlayıbdır, özü də hər dəfə bizə gələn kimi şəkilli kitab istəyir və oturub bir-bir şəkillərinə baxır. Və digər Həmid ağa Vəkilovun oğlu Mustafa Vəkilov gəlib çıxdı və uşağların şəkillərini bizə verib, son dərəcə şad etdi. Nənəm neçə kərə şəkilləri öpdi və nəvələrinə dualar etdi və arzu etdi ki, tezlik ilə görüşək. Mustafadan sizin əhvalı müfəssələn soruşdum. Onun söhbətini təki bir növ mükəddər etdi, çünki boylə məlum olur ki, siz orada çətinlik ilə dolanırsınız, maddi tərəfdən əziyyətlər çəkirsiniz, onun sözünə görə siz İstanbula gəlmək istəyirmişsiniz. Fəqət hər yerdə olsanız maddi tərəfdən çətinlik olacağdır, çünki müəyyən bir gəlir lazımdır, İstanbulda öylə bir gəlirə ümidin varmı? Mən dəxi bu yay mövsümü İstanbula getmək istəyirəm. Bu xüsusda bu səfər ciddi surətdə çalışacağam. Ümid edirəm ki, müvəqqətən getməklə razı olarlar. Çünki İstanbuldan türk musiqisinə aid bir çox şeylər əxz etmək lazımdır. İstanbula gələrkən "Arşın mal alan" qlavirini dəxi götürəcəyəm. O halda qismət ola görüşərik. Eşitdiyimə görə sən orada nevrosteniyadan naxoşsan. Neyçün oradakı doktorlara göstərmisən? O naxoşluğun əsl səbəbini ögrənmək lazımdır.

Mən dəxi çox əsəbi olmuşam və çox işləməgimə görə yorunuğam. Əmma yaxşı yeyib, çox yatanda və ələlxüsus canımı soyuğ su ilə sürtəndə əhvalım yaxşı olur. Sən də öylə et. Hər səhər yerdən durandan sonra bütün bədənini yaş məhraba ilə sürt və tez qurula.

Nənəmin əhvalı yaxşıdır. Yeganə arzusu tezlik ilə, siz ilə görüşməkdir.

Aişə xanım hələ Musanın yanındadır. Bir neçə həftə bundan qabaq Müstafa Dərbənddən Bakıya gəlmişdi. Gəlib məktəbdə mənimlə görüşdi. Çox kokəlibdir və əhvalı da yaxşıdır.

Bir də Məleykə Zöhrədən küsübdür, deyir ki kağızlarıma cəvab vermədigi bəs degil, heç olmasa adımı da çəkmir. Məleykə də çox əsəbi olubdur, çünki keçən sənə tifo və bu sənə isə qulaq ağrısına mübtəla olmuşdu. Qulağının ağrısından bir ay yatdı və çox əziyyətlər çəkdi. Baqi Bakıda neçə həftədir ki, tramvay işliyor,* buraya camaətə çox-çox xoş gəlir. Nənəmin, Məleykənin və bütün qohum-əqrəbanın sizə çox-çox salam-duaları vardır. Bizim tərəfimizdən uşaqların yüzündən öp.

**Bəradərin Üzeyir. (1922)**

***Məktubun tarixi arxeoqraf tərəfindən düzgün göstərilməyib. Məlumdur ki, Bakıda Tramvay 1924-cü ilin fevral ayından işləyib. Belə olduğu halda məktubun tarixi 1924-cü ilin mart ayına təsadüf edir.**



### *14.Nuri-didə Ceyhun*

Sənin kağızın gəlib çatdı və bizləri son dərəcə şad etdi. Bizlər hamımız, əlhəmdüllah, sağ və salamət varıq. Bu yay hamımız Buzovnada idik. İndi şəhərə köçmişik. Nənəm salamətdir və şükür edir ki, sizin yeriniz yaxşıdır. Bacım bir az naxoş olmuşdu. Əmma indi yaxşıdır. Cəbbarın qüssəsini edir, Abhəyatı Zaqataladan gətirdik bura, indi biz ilə bir yerdə olur. Cəmalın oğlu Kəmal böyüyüb, yeyir və danışır; Ceyhun əmisinə, Zöhrə bibisinə və yoldaşları Ceyçikə və Timuçinə salam-dua göndərir. Çox yaxşı uşaqdır, bizim hamımızı güldürüb, şad edir, özü də çox nərdtaxta oynamaq istiyor, deyir, sis-pis ( şeş və beş) oynayax!

Zülfüqargil də salamətdirlər. Niyaz ilə Çingiz hərbi məktəbdə oxuyurlar. İsmayılın arvadı Sürəyya ilə qızı Dilşad dəxi gəlib bizdə olurlar. İsmayıl özü keçən sənə zatülcənbədən mərhum olubdur. Bibim durur özü də Qələdədir*.

Məleykə də indi kökəlib və başını da qırxdırıbdır, çünki keçən qış bərk naxoşlayıb, "svinoy" tif olmuşdu. Həkim Midivani yaxşı elədi.

Hal-hazırda hamımız sağ və salamət varığ. Aişə xanım hələ Petrovskidədir, bir də qalanları salamətdirlər.

O ki qaldı mənim oraya gəlmək məsələm. Biz çox istərdik gəlib sizin ilə görüşək, ələlxüsus, Məleykə artıq-artıq istəyir, fəqət qabağımızı kəsən şeylər, əvvələ, yol kirayəsinin çox ağırlığı və saniyən, nənəm məsələsi. Çünki nənəmi öylə uzaq yerə aparmaq və yol məşəqqətinə salmağ çox məsuliyyətli bir əzimdir. Özü də qocalıbdır. Hərgah burada qoyub getsək daha da yaman, çünki onun canı ancaq bizdə rahat olur, Zülfüqargildə qalanda naxoşlayır, bacıgildə qalanda onlar ilə dolana bilmiyor, odur ki, onu nə aparmağ olmayır, nə qoyub getmək. Bizim getməyimiz onun həm əziyyətini artırar, həm də qəm və qüssəsini.Aparmaq və qurbət yerdə saxlamaq və yoluzunu da onun üçün təhlükəli bir əmrdir. Əlavə hökumət dəxi mənim getməgimə razı degildir, deyirlər ki, onsuz da bizə işbilən adamlar lazımdır. O ki qaldı işə, iş çoxdur. Bir tərəfdən hökumət türk musiqi məktəbinin müdiriyəm, digər tərəfdən hökumət tiyatrının diri-

joruyam, əlavə darülməlumat və darülməllimin danes institutunda nəğmə müəllimiyəm, ondan əlavə, başqa yerlərdə də iş vermək istəyirlər. Sentyabr ayında mənim məvacibim yəqin ayda bir milyarda çatacaqdır. Özümüzün dolanacağımız çox yaxşıdır.

Əlbəttə, Paris kimi yerə gəlmək, cürbəcür yerləri görmək, səyahət etmək və ələlxüsus səni və uşaqları görmək nə qədər "sablazın"dır, əmma çe fayda məmaniətlər qoymur. Bu xüsusda mən çox fikirlər edirəm, əmma axırı bir yana çıxmıyor. Ən böyük arzumuz sizi görməkdir. Əmma indi nə siz gələ bilirsiniz, nə də biz. Genə də fikir edəndə bizim ora gəlməgimiz daha müvafiq görünür, başqa məmaniətləri rəf edə bilsəm anamı qoyub da gələcəyəm, ancaq haçan? Hələ məlum degildir...

Siz bizə heç bir şey göndərməyin, çünki gəlib çatmır, yəni yolda itir, bəlkə bir tanış adam gələ, onda göndərə bilərsiniz. Hər halda bizim adresimiz sən yazan kimidir. Ancaq nömrəsi 63-dir. İndi hələ ki, xudahafiz bizim hamımız da Zöhrəyə və uşaqlara artıq-artıq dualar deyib, üzlərindən öpərsən.

**Bəradərin Üzeyir. 22.IX.(1922).**

***Qələ – Şuşanın el arasında adı.**



### *15.Nuri-didə Ceyhun!*

Salam-duadan sonra bizlər hamımız sağ və salamət varığ, əmma heyif ki, neçə vəxtdır sizdən bir əhvalımız yoxdur. Ona görə nigarançılıq çəkirik.

Nənəm sağ və salamət olub, keyfi kök dolanır, ancaq siz tərəfdən nigarandır. Bacımın naxoşluğu hələ dürüst yaxşı olmayıbdırsa da əvvəlkinə görə yaxşıdır (qarın qatarı). Abhəyat bizdə olur, sağ və salamətdır. Zülfüqargil də hamısı salamət olub, keyfi kök dolanırlar. Bu günlərdə İrandan xəbər aldıq ki, Cəbbar oradadır, özü də sağ və salamətdir, Tehranda zabitdir. Kağız yazan onun öz yoldaşıdır. Qəzvindən yazır ki, Cəbbarı vəzirin əmrilə Tehrana apardılar. Özü də bizə kağız yazıb və əksini də göndəribdir, fəqət biz hələ o kağızı almamışıq. İndi biz istəyirik ki, Tehrana radioqram vurub əhval bilək. Hər halda yoldaşın kağızını mən özüm oxudum. Təfsilatından böylə görünür ki, filhəqiqə Cəbbar sağdır. Allah eləsin! Cəmalın oğlu Kəmal böyüyüb sənə Ceyhun əmi deyir, hər şeyi bilir və yaxşı danışır. Sehranın oğlu dəxi yavaş-yavaş qığıldanır o da yaxşı uşağdır.

Cəmalgil bizdən köçdülər və Sehragil ilə bir yerdə Merkuriyevski küçədə sabiq sovet siyezdin evində olurlar ki, əlan ora Maarif Komisariyyatın mənzilidir. Bu günlərdə Məhbubi də ora vermək istiyorik. Onu istəyən bir nəfər salyanlı müəllim və studendir. Famili Zeynallı, adı Mirzə Məhəmməddir. Aişə xanım özü və Zöhrənin bütün qohum-əqrəbası hamısı sağ və salamətdirlər. Bu axşam biz də, Zülfüqargildə və Aişə xanım ilə Hənfə xanım dəxi bir yerdə Cəmalgildə idik. O ki qaldı mənə, mən boylə qəsd etmişəm ki, bu yay Məleykə ilə bərabər sizin yanınıza gəlib görüşək və bir az qalıb, genə geri qayıdağ. Mən bir az işdən yorulmuşam, səhərlər canımı "abtiraniya" edirəm, bu isə mənə çox yaxşı təsir edir. Genə əvvəlki kimi musiqi məktəbinin müdiriyəm. Bu günlərdə böyük bir konsert verdim. Bütün komissar yoldaşlar

məndən razı qalıb, dedilər ki, Üzeyir bəy bizim ümüdimizi boşa çıxartmadı. İşim çox yaxşıdır. Ayda altı milyarddan çox məvacib alıram. Qərəz bu yayı, əlbəttə, sizin yanınıza gəlmək istəyirik. Yaz görüm gəlməyimizi məsləhət görürsənmi. Baqi cəmi qohum-əqraba və dost-aşnalara, Zöhrəyə, Ceyhuna və Timuçinə çox-çox dua və salamlar vardır. Hamısı sizi öpürlər, bən də və Məleykə də hamınızi bərk-bərk öpürük.

Baqi əddua.

**Bəradərin Üzeyir. 9mart 1923. Bakı.**



### *16.Nuri-didə Ceyhun*

Salam-duadan sonra Cəmala yazmış olduğun məktub və əsərin gəlib yetişdi. Mən sənə mart 2 tarixli məktub və pul göndərdim. Alıb-almadığın xüsusində bir məlumat vermirsən. Genə bu kağız ilə sənə pul göndərirəm. Yetişdiyi barəsində mənə əhval verərsən.

Baqi nənəm sağ və salamətdir. Bəlkə dəxi indi yaxşı olub, əmma genə də hələ müalicəsinə davam edir. Yerdə qalan qohum-aşnalar və Aişə xanımgil hamısı sağ və salamətdirlər. O barədə arxayın olasınız.

Əlavə bunu biləsən ki, mənim ali təhsil almağa fikrim Maarif Komissarlığı tərəfindən hüsni-qəbula keçdi və bu xüsusda Maarif Komissarlığı kollegiyası tərəfindən qərar çıxdı ki, mənim ali təhsilimi bitirmək üçün iki il müddətinə komandirofka olmaq üzrə Almaniyaya gedim. Mənimlə bərabər üç nəfər doktur dəxi göndərilir. Kənari bir məmaniət olmasa iyunun birində yola düşməliyik. Şübhəsizdir ki, mənə təhsildən qayıdandan sonra Maarif Komissarlığı hökumət ali konservatoriyasının idarəsini mənə tapşıracağdır, çünki bunca illər göstərdi ki, başqaları bu işi bacarmiyorlar və bu xüsusda Azərbaycana bir mənfəət gətirə bilmiyorlar.

Maarif Komissarı yoldaş Mustafa Quliyev mənim işləməgimi çox təqdir edir, odur ki, ali təhsilimi bitirməgə cani-dildən razı olub, məni təbrik etdi. Başqa komissar yoldaşlar dəxi müvafiqət göstərdilər.

Hal-hazırda işlərimi bitirmək üzrəyəm. Baqi sonra genə məktub yazaram. Zöhrəyə və uşaqlara hamısın çox- çox salam-dua deyib, üzlərindən öpərsən.

**Bəradərin Üzeyir. 4 aprel. (1923) Bakı.**

### *17.Nuri-didə Ceyhun və Zöhrə!*

Salam-duadan sonra cox şükürlər olsun ki, sizə kağız yazmaq mümkün oldı. Bizim əhvalımız bu gunədir ki:

Əvəlla, mən hökumət qulluğunda varam musiqi şöbəsinin müdiriyəm. İşlərimi baqayda aparıram və Maarif Komissarı Dadaş Bünyadzadə məndən razıdır. Bütün musiqi işlərini mənə həvalə edibdir. Halbuki, əvvəlcə bu işə başqaları dəxi müdaxilə edib, işə xələl yetirirdilər. Mən onlar ilə böyük mübarizələr etdim və axırda müvəffəq oldum. Maaş və məvacib işlərinə gəldikdə hər çənd burada ələlümum maaşlar çox azdır, bu qədər az ki, heç bir günün xərcini ödəməz, fəqət, mənə başqa müdaxiləleri, yəni aftorski qonorar və sairəni dəxi aldığıma görə, demək ki, nəinki özümüz dolanırıq, hətta Cəmala da əl tuturam. Buranın xərci çoxdur, yəni pulun, kağız pulun qiyməti xeyli düşdügünə görə bir külfəti saxlamaq üçün hər ay bir milyon yarım və ya iki milyon manat pul istər. Mən bu pulu qazana biliyoram. Təlif və təsnifatlarıma gəldikdə yeni bir şey yazmışam, fəqət Şərq və Azərbaycan musiqisi əsası həqqında tətəbböatda bulunub bu xüsusda böyük bir daklat hazırlamışam, məzmunu o qədər calibi-diqqətdir ki, onu Paris məhafili-musiqisində dəxi oxuya bilərəm. İnşallah, nəsib olsa, orada da oxuyaram.

Məleykə müəllimlik edir, özü də bu günlərdə musiqi dərsi öğrənməyə başlayubdur, Fəqət heyf ki, can bir o qədər salim degildir, əməlli bir tədaviyə möhtacdır, halbu- ki, o da burada mümkün degildir, bunun üçün sanatoriyalar lazımdır, onların da ki, yaxşısı məmaliki-əsnəbiyyədədir. Görək sağlıq olsun bəlkə sonra düzələr.

Nənəm sağ və salamətdir, ancaq siz tərəfdən çox nigaranlığ çəkir, özü də qocalığ əsri olaraq baş gicəllənmə, ürək döyünmə kimi hallara düçar olur, əmma genə ayaq üstədir və ev işinə məşğuldur, nənəmi bu günlərdə yəni beş gün bundan əvvəl bacımgil ilə bərabər Buzovnaya göndərdim. Orada uşaq baxçası açılıb Məhbub və Ayulduz qulluğ edirlər, bundan istifadə edərək hamısını oraya göndərdik.

Bacım da salamətdir, fəqət oğlu Cəbbar sarıdan çox nigaran olduğuna görə dərd və qəm çəkir, çünki Cəbbar həqqında sərih bir xəbərimiz yoxdur, kimi deyir ki, Ərdəbil ilə Lənkəran arasında Şahsevənlər ilə müharibə olub öldürülübdür, (Cəbbar plemyot zabiti idi) kimi deyir ki, yaralanıb, sonra itibdir, kimi deyir ki, sağdır. Özü də İrandadır, qərəz bu xüsusda doğru bir xəbər yoxdur. Mən öldürülməsinə daha artıq inanıram.

Cəmal isə sağ və salamətdir, özünün bir oğlu olubdur ki, adın Kəmal* qoyubdırlar. Çox yaxşı uşaqdır, beş aylığdır. Bacım əlindən yerə qoymur və ondan Cəbbarın təsəllisini alır.

Cəmal özü də sənayeyi-nəfisə şöbəsinin baş katibidir. O da bir həftə bundan əvvəl Sarabski ilə bərabər Şamaxıya getdi ki, həm tyatrolar qoysunlar və həm də bir az dincəlsinlər.

Sehra dəxi ərə gedib, onun da bir oğlu oldı, əmma qarnında öldü. Sehra da nənəgil ilə bərabər Buzovnaya getdi. Məhbub böyüyüb və özü də müstəqil bir adam olubdur, həmi dərs oxuyur, həmi oxudur, böyük həvəsi musiqiyədir, onu nəğmə müəlliməsi etmək istiyoruk.

Gəlinimiz Ayulduz bir od parçadır, əmma işləməkdən əriyib çöpə dönübdür, özü çox danışır, xəbərçiliklə böyük həvəsi vardır, qərəz zirək qızdır.

Zülfüqar ki bildir səninlə bərabər bir-iki ay işsiz qalmışdı, indi çoxdandır ki, işdədir, özü də işi yaxşı aparır. Qulluq elədiyi hərbi dairədə yaxşı hörməti vardır. Boylə ki bunun sayəsində nənəmi Buzovnaya gedərkən vağzala qədər avtomubil ilə apardı. Böyükxanım və uşaqları dəxi salamətdir, yalnız bir Zümayradan başqa ki, yazıq qız ehtiyatsızlığ nəticəsi olaraq qızılcadan sağala bilmədi...

Aişə xanımgil həqqında bir söz dəxi yazmıram, çünki özü məktub göndərdi. Yerdə qalan qohumlarımız – Məleykənin anası və Məryəmin oğlu Raufdan başqa sağ və salamat olub, duaları vardır. Abhəyat əri ilə bərabər Zaqataladadır.

Bu gün bizi bərk düşündürən şey – sizinlə görüşmək imkanı bulmağdır. Mən boylə qət etmiş ki, sentyabr aylarına yaxın bir vəxta buradan izn alıb İstanbula gedim ki, Şərq aləti-musiqiyəsi gətirəm. Əgər bu iş mümkün olsa, yəni İstanbula gələ bilsəm, o halda oradan Parisə dəxi gedib sizin ilə görüşərəm və sizi və siz ilə bərabər Ceyçik ilə qardaşını görüb, qayıdanbaş hamıya nəql edərəm. Çünki Ceyçik

ilə qardaşını hamı bizimkilər ağızlarında əzbər edibdirlər. Baqi hələki salamət olasınız. Əgər gəlib-gedən olsa, əlbəttə əlif-əlbət özünüzdən bizə bir əhval yazasınız. Nənəmin, bacımın, Məleykənin ağzından hamı azı birbəbir öpüb hamının salam-duasını göndərirəm.

**Bəradərin Üzeyir. 11.VII. (1923).**

**Tasrix düz qeyd olunmayıb.**

***Kəmal 1921-ci ildə anadan olub. Məktub Kəmalın beş aylığında yazılıb.**



### *18.Nuri-didə Ceyhun!*

Salam-duadan sonra sizə gec kağız yazmağımın səbəbi odur ki, mənim ali təhsil məsələmin həllini gözləyirəm. İş bundadır ki, bu Maarif Komissarlığı tərəfindən həll olunduğdan sonra bizdə başqa mərkəzlərdən dəxi təsdiq edilməlidir. Bu isə texnik cəhətcə işin həllinin uzanmasına səbəb olur. Hər halda indi mənim məktəb işlərim bitdiginə görə bu xüsusda ciddiyilə çalışacağam və ümüdvaram ki, gec-tez müvəffəq olam. Ona görə bir qədər dəxi səbr lazımdır.Hər halda indi sizə tez-tez kağız yazacağam. Əlavə onu biləsən ki, burada Maarif Komissarlığı tərəfindən "Maarif və mədəniyyət" adında yaxşı jurnal nəşr edilir ki, ayda bir kərə çıxır. Sən o jurnala hər ay bir məqalə yazıb göndər ki, məzmunu ədəbiyyata aid olsun. Xüsusi fransız ədiblərinin bilümum türk ədəbiyyatı həqqındakı fikirləri, qərəz ədəbi bir şeylər yazsan (200-300) sətirlik qonorarını ki, hər məqalənin ki, igirmi manatdan çox edər, alıb mən göndərən pula əlavə edərəm. Məqaləni mənim üstümə göndərərsən, əlavə buradakı türk qəzetələrindən biri üçün Paris və Fransa əhvalatından müntəzəm bir surətdə məqalələr yazarsansa o da mədaxillik artırar. Ba xüsusidən mənə yazıb bildirsən ki, mən vastəçilik edim. Baqi biz hələ mənim təhsil məsələmin həllinə qədər Bakıda qalasıyıq. Əlavə hamımız sağ və salamət olub sizlərə dualar göndəririk və uşaqların üzlərindən öpüb həmişə salamətliğinizi arzulayırıq.

Nənəm sənə, Zöhrəyə, Ceyçikə və Timuçinə əlavə olaraq çox-çox salam-dua göndərib, üzünüzdən bərk-bərk öpür.

Bir həftə bundan qabağ sənə pul göndərdim.

**Bəradərin Üzeyir.10 iyun. (1923).**

### *19. Nuri-didə Ceyhun və Zöhrə!*

Salam-duadan sonra sizə bir tel vurdum, məktub dəxi göndərmişəm. Bu saət məni məşğul edən məsələ sizi Bakıya gətirməkdir. Əvvəllər də mən bu fikirdə idim ki, özüm oraya gəlim, sizinlə görüşüm, fəqət indi baxıb görürəm ki, sizin Bakıya gəlməyiniz daha məsləhətdir. Hamı sizləri görmək arzu edirlər, baxüsus, nənəm.

İnşallah, siz gələrsiniz, sonra məsləhət olsa, genə bir yerdə istədiyimiz yerə gedə bilərik. Mən Bakıya gedən kimi bu xüsusda rəsmi surətdə işə başlayacağam və lazım olan yerlərdən icazənamə alıb, sizi məlum edəcəgəm gələsiniz. Zənn edirəm ki, ən çoxu iki aydan sonra Bakıda görüşərik.

Buraların əhvalı çox yaxşıdır. Hər kəs öz işinə məşğul olub, istirahətlə dolanır. Bütün bizim intiligent hamısı məşğul yerlərdə qulluq edirlər və getdikcə də işlər daha yaxşılaşıb layiqi-şikayət bir şey yoxdur. Bütün hökumət idarələri türkləşir və milliləşir, fəqət biligli adamlarımız az olduğuna görə bu iş bir az ağır gedir, ancaq hər halda irəliləyur.

Mən öz-özlügümdə özümü çox sərbəst hiss edirəm və türk musiqisi tərəqqisi yolunda hər nə fikrim olsa hökumət mənə lazım olan kömegi edib fikrimi yeridirəm. Təhti-müdiriyyətində olan Azərbaycan hökumət türk musiqi məktəbi getdikcə tərəqqi edib, əhali üçün ən vacib bir müəssisə olmuşdur, inşallah, gələndə görərsiniz. Sən burada olsan, sən də daha artıq qulluğlarda ola bilərsən. Əlqərəz, siz gəlsəniz həm bizim və həm də sizin üçün arxayınlıq hasil olub, işlərimizə daha artıq tərəqqi verərik.

Hal-hazırda mən Şərq-Azərbaycan musiqisinin əsasları həqqında böyük bir əsər hazırlayıram. Bir neçə ay bundan əvvəl bu əsərim həqqında iki gün bir-birinin dalınca daklad oxudum. Dakladıma qulaq asanlar yalnız musiqişünas professorlarla, univerisitet professorlarından ibarət olub. Akademik bir məclis əmələ gəlmişdi. Mənim dakladım onlar üçün böyük bir sensasiya oldı. Əsərimi çox təqdir etdilər və qərar qoydular ki, mən onu yazıb rusca nəşr edim. Məşhur professorlardan Ayzberq və Qliyer bu daklatdan sonra mənimlə çox söhbət elədilər. Neçə kərə evimizə gəlib axşamları söhbətlər edirdik.



Mənə bu əsərimi türk və rus dilində yazıb səndən təvəqqe edə bilək ki, firəng dilinə tərcümə edəsən. Çünki mənə yəqindir ki, bu əsərlə Avropa musiqişünasları arasında çox calibi-diqqət bir şey olacaqdır. "Arşın mal alan"ın notlarını dəxi tazədən yeni üsul üzrə düzəldirəm. Mən onun qlavirini dəxi çap etdirmək istiyorəm.

Baqi Bakıdan tez-tez kağız alıram hamıları sağ və salamətdirlər. Cəmalın bir oğlu dəxi oldu, indi iki oğlu və bir qızı vardır. Ceyçik və Timuçin Bakıya gələndə Cəmalın böyük oğlu Kəmal ilə yəqin ki çox dost olacaqdırlar, çünki Kəmal çox ağıllı oğlandır. Kəmalın bacısı Diladif çox şeytan qız olmağa başlıyor. Payızda Dilşadı dəxi ərə verəcəyik. Qohumlarımız getdikcə artır.

Əlqərəz, biz avqustun 25-ndə buradan Kislovodskiyə gedəcəyik və orada bir on-on iki gün qalıb sonra Bakıya qayıdacağıq. Hər halda sentyabrın 10-dan sonra biz Bakıda olacağıq. Sən kağızı Bakıya yaz və sizin Bakıya köçmək haqqında nə fikriniz varsa müfəssəl yaz və burasını dəxi məlum et görüm sizin oradan çıxmanıza qarşı kənari bir məmaniət-filan yoxdurmı.

Hələ ki, salamət olasınız. Məleykə həm səni və baxüsus, Zöhrəni çox-çox arzulayıb.Uşağları çox görmək istiyor və hamınızı öpür.

Mənim tərəfimdən uşaqları öpərsiniz və deyərsiniz ki, inşallah, tezliklə Bakıda görüşərik.

**Bəradərin Üzeyir. 20 avqust (1923), Yesuntuki.**

## *20.Nuri-didə Ceyhun və Zöhrə! Ceyçik və Timuçin!*

Salam-duadan sonra bizlər hamımız sağ və salamət varıq və sizlərdən başqa heç bir nigaranlığımız yoxdur. Hamımızın şiddətli arzusu budur ki, sizlər ilə tezliklə görüşək. Əlbəttə ki, təki sağlıq olsun. Sən işlərini qurtarandan sonra yığışıb buraya gələrsiniz, onda görüşərik. Hələlik səbr etmək lazımdır.

Nənəm sağ və salamətdir, çox yeyur və çox da gülür, özü də hər bir işə qatışır, fəqət qulaqları çox ağır eşidir. Gözləri dəxi zəifləşiyor, mən də öz tərəfindən çox səy edirəm ki, onun ömri uzun olsun.

Məleykə isə biz Kislovodskidən qayıdandan bəridir ki, naxoşdur. Orada onun bögründən daş çıxartdılar, indi olsun ki, o daşın yeri hələ dürüst sağalmıyıbdır. İndiyə kimi müalicəsinə davam edirik.

Aişə xanım Dərbənddə Mustafa ilə olur. Bu günlərdə buraya gəlmişdi. Sağ və salamətdir.Yoldaşı Musa isə buradan Moskvaya köçdi, orada qulluğ edir.

Mən isəm genə öz qulluğumda varam və özümün işim o qədər olur ki, heç ev üzü görmürəm. Özüm də Qərib Soltana hər ay əlli manat pul verirəm. İndiyə kimi iki yüz manata qədər pul vermişəm. Anasının qəbrinə daş düzəltmək istiyor.

Aişə xanımın pulu olmadığına görə o borcu mən öz boynuma götürdüm ki, hər ay əlli manat pul verim. Qərib Soltan dəxi razı oldi.

Baqi orada Ceyçik ilə Timuçini böyüdükləri kimi burada dəxi bizim balacalar böyüməkdədirlər. Kəmal o qədər böyük olubdur ki, bu ildən məktəbə gedir, Dilara isə plastika öğrənir. Sehranın, Cəmalın, Dilşadın, Məryəmin, Əminənin, Ramazanın, Əlinin uşaqları getdikcə böyüyür, bir çoxları indi istudentdirlər.

Mənim əsərlərimə gəldikdə bu illər ərzində bir cox xırda-para şeylər yazmışam və türklər arasında musiqi elminin nəşri xüsusində çox çalışıram. Böyük əsərlərdən olmağ üzrə "Gavcyi-Ahəngər" operasını yazıram*. Onu qurtardıqdan sonra hökumətdən izn alıb zaqraniçaya mən də komandirovkaya gedəcəgəm. Baqi nənəmdən, Məleykədən, məndən uşaqlara dualar verib üzlərindən öpərsiniz. Özünüz də səfər barədə muğayat olarsınız.

**Bəradərin Üzeyir. 7.XII. (1923).**

***Məktubu işləyən arxioqraf tərəfindən düz yazılmayıb.**

**Bəstəkar "Gavcyi-ahəngdar" operası təxminən 1930-31-ci illərdə yazmağa başlmışdı.**

### *21.Nuri-didə Ceyhun!*

Salam-duadan sonra Zöhrənin kağızları və sən göndərən jurnallar gəlib yetişdi. Təəccüb burasıdır ki, bizimkilər tərəfindən sizə göndərilmiş kağızlar gəlib sizə çatıbdır.

Cəmal, Zülfüqar və Aişə xanım sizə kağızlar yazıbdırlar, əmma Zöhrənin yazdığından boylə görünür ki, sizə yetişmiyibdir.

Hər halda bizimkilər hamısı və Aişə xanımgil sağ və salamətdirlər. O barədə də heç fikir etməyəsiniz. Nənəm dəxi qoağdır bu saət ki, mən bu kağızı yazıram nənəm ilə Mələykə qutab bişirirlər. Abhəyat dəxi Əzimin arvadı Sara ilə bərabər rus operasına tamaşaya gediblər.

Buraya iki kərə bərk qar yağdı, boylə qar ki, mən Bakıda öylə şey görməmişdim, küçələr hələ indiyə kimi qar ilə doludur. İndi isə havalar yaxşı keçib lap bahara oxşayır.

Bir neçə vəxt bundan qabaq məsul yoldaşlardan birisi mənimlə görüşüb səni soruşdu və çox təəccüb etdi ki indiyə kimi qayıtmırsan, dedi, hər gah bu xüsusda kağız-flan lazım olsa mən kağız verərəm. Dedim ki, mən bu xüsusda Ceyhuna kağız yazıb soruşaram ki, hərgah bu tezlikdə gəlmək istəsə nəsə o xüsusda lazım olan kağızları göndərərik ki, gəlsinlər. Sənin əvvəlki kağızlarından boylə anladım ki, sən buraya payızda qayıtmaq istəyirsən. Hərgah ondan qabaq buraya gəlmək fikrin olsa, mənə məlum et ki, mən bu xüsusda çalışım. Mənim də boylə fikrim var ki, bu yay özüm oraya gəlib səninlə bərabər yayı keçirib sonra payızı da hamımız vətənə qayıdağ. Hər halda sən bu barədə öz fikrini mənə yazıb məlum et.

Əlavə yaz görək "Arşın mal alan"ın tərcüməsindən nə hasil oldu. Sən göndərdigin jurnala mən Azərbaycan musiqisi həqqında bir çox qiymətli şeylər yaza bilərdim. Hər- gah çap edilərsə mənə məlum elə ki, yazıb hazırlayım. O jurnalda Osmanlı musiqisi həqqında bir məqalə olduğunu anladım və jurnalı bir nəfər bizim qulluqçulardan firəng dili bilə nə verim ki, mənim üçün tərcümə etsin. Əlavə bir şeyə təəccüb edirəm ki, siz bizə kağız yazanda öz dolanacağınızdan heç bir şey yazmiyorsınız ki, görək orada nə ilə dolanırsınız. Bəlkə maddi ehtiyacınız var, burasını bizə məlum etməlisən ki, biz də bir əlac



arayaq.Uşağların məktəbdə oxumaları və baxüsus musiqi ögrənmələri bizi çox şad etdi. Onların burada bir sürü yeni-yetmə yoldaşları əmələ gəlibdir ki, onlar ilə görüşmək arzusundadırlar. İnşallah, payızda gəlsəniz hamı ilə görüşərlər. Vaqeən bu payızı dəxi nə tövr olmuş olsa gərək gələsiniz, çünki sizi hamının könlü istəyir və görüşmək arzusuna gəlirlər. Mən yayda oraya gəlsəm sizi nə tövr olsa payızda buraya gətirdərəm. Sağlıq olsun tezlik ilə görüşərik.

Aylar, günlər o qədər tez gəlib gedir ki, insan cürət etmir. Bizim hamımızdan Zöhrəyə çox-çox salam-dua deyib uşağların üzündən bir-bir öpərsən və bizə bir müfəssəl kağız yaz göndər. Kağızı da mənim öz adıma və öz adresimə yaz göndər. Baqi calamət olasan, bizdən də nigaran olmayasınız.

**Bəradərin Üzeyir. (1923).**

*22.Nuri-didə Ceyhun!*

Salam-duadan sonra çoxdandır ki, mən sizə kağız yazmıram, səbəbi odur ki, işim çoxdur və vəxtim çox azdır. Hər halda bizlər tərəfindən nigar olmayın. Hamı sağ və salamətdirlər. Nənəm yaxşıdır, daha bildirki kimi naxoşlamır, çünki onu bu keçən yay Yesuntikiyə aparmışdım. Oranın havası ona çox yaxşı təsir etdi. Aişə xanım və yoldaşı Musagil dəxi salamətdirlər və sizin ayrılığınızdan başqa heç bir dərd və qəmimiz yoxdur. Mən bu günlərdə yeni opera yazmağa başladım. Tekisti məşhur "Gaveyi- Ahəngər"* dramıdır. Qədim musiqi stilində yazılmış bir opera olacağdır. Əlavə bu yaxında da Azərbaycan xalq musiqisi həqqında böyük məruzəm olacaqdır. Bütün Bakı professorları dinləyib məruzələrim həqqında yəni bir qərar çıxaracaqlar.

O məruzəni mən Tiflisdə, Moskvada və Leninqradda dəxi oxumağa gedəcəgəm, qismət olsa əcnəbi vilayətlərə dəxi aparacaq. Bu günlərdə Maarif Komissarlığı nəzdində mənim ikmali-təhsilim həqqında söhbətim olmuşdi. Maarif komissarı yoldaş Ruhulla və müavin yoldaş Cəlil boylə məsləhət gördülər ki, mən Leninqradda və ya Moskvada ikmali-təhsilə məşğul olum və mənə lazım olan qədər də para verməgə imkanları vardır. Fəqət mən ali təhsilimi Almaniyada almağ fikrində olduğumu söylədim çünki iki sənə qabağ Maarif Komissarlığı özü dəxi boylə qət etmişdi. Dedilər ki, onda bir qədər gözləmək lazım gələcəkdir. Mən dəxi hələ ki, səbr edib gözləyirəm və ümidvaram ki, bu xüsusda mənə köməklik yetirərlər. Digər tərəfdən anamı qoyub getmək məsələsi məni düşündürür, çünki çox qocalıbdır və mənsiz himayəsiz qalıb əldən gedər. Hər halda bir az səbr etməlidir. Bizim hamımızdan uşağların üzlərindən öp, Zöhrəyə çox-çox salam-dua söylə və tapşır ki, Aişə xanım kağız yazıb necə dolandığınızı bildirsin. Baqi salamət olun.

**Bəradərin Üzeyir. (1923)**

***Məktubun tarixi düzagün qeyd olunmayıb.**
**Üzeyir bəy bu operanı təxminən 1930-31-ci illərdə yazmağa başlamışdı.**



*23.Nuri-didə Ceyhun!*

Salam-duadan sonra Zöhrənin Cəmala və anasına yazdığı kağızlar gəlib yetişdi, uşağların nasazlığı bizi çox mükəddər edir. Onlara yaxşıca müğayat olmağ lazımdır. O ki qaldı bizə, Məleykə təmam iki aydır ki, naxoşdur, indi- indi yaxşı olmağa başlayıb, yavaş-yavaş ayağa durmağa başlayır.

Anamdır də, qalanlar hamısı sağ və salamətdirlər. Nənəmin tez-tez başı, beli ağrıyordı, neçə-neçə həkimlərə göstərdim. Deyirlər ki, qocalığdandır, qərəz arvad çox əziyyət çəkirdi, axırda gedib onun üçün "bridun skarski jidkist" denilən dərman (məcun) aldım. Verdim içməyə, bir-iki gündən sonra arvadın ağrıları hamısı sakit olub elə bil ki, təzədən dirildi, kefi köküldi başladı işləməgə, qərəz lap dirçəldi. Həman dərman ki, orqanı terapiyaya aid şəmmədir, çox gözəl şeydir sonra neçə-neçə adamlara deyirdim, indi hamısı dua edirlər. Bu saət onu hamımız içirik və çox yaxşı təsir edir, insana çox qüvvət verir. Siz də o dərmandan alıb içərsiniz.

İçində yazıldığına görə uşağlara dəxi verilir və yaxşı təsir edir. Bu dərmanı əvvəllər də falsifikasiya edirdilər, çünki xüsusi adamlar tərəfindən satılardı. Əmma indi bu dərman Moskov hökumət laboratoriyasında qayırdığına görə falsifikasiya ola bilməz, çox yaxşı dərmandır. Əlavə bununla sizə əlli rublə pul göndərirəm, baziyafət edəsiniz. Əlavə Aişə xanım Cəmala deyibdir ki, Qubada olan evlərini satır, hökumət alır. Evini satan kimi Zəhranın hissəsini Cəmal vasitəsilə sizə göndərəcəkdir.

Əlavə mən dəxi bu sənə axırında yəni iyun ayında ali təhsilə gedəcəyəm, bu məsələ, məncə, qət edilmiş bir məsələdir. Zənn edirəm ki, Maarif Komissarlığı dəxi bunun qəti tərəfdarıdır. Bu günlərdə məsələ rəsmən açılacaqdır. Mənim ali təhsilimin gələcəkdə son dərəcə lazımlı olduğunu Maarif Komissarlığı təsdiq edir və çox ümidim vardır ki, mənə lazım olan köməyi müzayiqə etməyəcəkdirlər. Baqi genə müfəssəl məktub yazaram.

Cəmi qohum-əqrəbanın salamını Zöhrəyə və uşaqlara yetirəsən.

**Bəradərin Üzeyir.1.III.(1924).**

*24.Nuri-didə Ceyhun!*

Salam-duadan sonra mən anamgili Bakı bağlarına göndərib, özüm Məleykə ilə bərabər "Yesintuki"də sanatoriyada oluram. Burada Məleykə palçıq vannaları götürür mən də yalnız istirahət edirəm. Başqa bir naxoşluq yoxdur. Dünən Zülfüqardan bir məktub aldım, sənin ona göndərmiş olduğun kağızın məzmununu mənə yazıbdır, mən oxuyub xeyli mükəddər oldum, o qədər ki, təmam istirahətim pozuldu. Zülfüqar dəxi sənin kağızından mütəəssir olduğunu mənə yazır.

İndiki iş boylə oldu, biz gərək məsələni aydınlaşdırağ və ona görə də müəyyən bir qərara gələk. İş bundadır ki, biz hamımız indiyə qədər bu fikirdə idik ki, siz orada asudə və istirahətlə yaşayırsınız. Ona görə də bir o qədər maraq etməyib görüşəcəgimiz güni səbr ilə gözləyirdik, bizim boylə bir zənddə olduğumuzun bir səbəbi də o idi ki, sən öz kağızlarında dolanacağınızdan şikayət etməyirdin və öz əhvalınızdan açığ və müəyyən bir şey yazmırdın, fəqət bu axırki Zülfüqara yazılan kağızlarından boylə görünür ki, əvvələ orada siz çox pis dolanırsınız, və saniyən, boylə bir güzəran səni qara-qara fikirlərə salıb əsəbi naxoşluğuna səbəb olubdur. İşin bu surəti həm Zülfüqarı, həm də məni artıq fikirlərə salıbdır, ona görə ciddi tədbirlər görmək lazım gəlir. Mən işin hər tərəfini fikirləşib bu qərara gəlirəm ki, siz gərək tezlik ilə yığışıb Bakıya qayıdasınız. Sizin Bakıya qayıtmağınız, bizim oraya gələ bilməgimizdən çox-çox asandır. Çünki əvvələ sən qaçaq degilsən, müxalif siyasi firqələrdə olmamısan, və saniyən, komissar yoldaşlarımızın hamısı sənin kim olduğunu və nə olduğunu çox yaxşı bilirlər. Hər gah Vətənə qayıtsan şübhəsidir ki, qulluq sahibi olub sairələrdən artıq hörmət sahibi olarsan. Hərgah sənin oradan çıxmağına bir məmaniət yoxsa və hərgah özün də gəlmək istəyirsənsə mənə açığ-açığına yaz ki, mən də bu xüsusda, bu "napravleniya"da çalışım və sənə xəbər edim ki, gəl. Yoxsa bizim və ya mənim gəlməgim uzun məsələdir və bir də nənəmi qoyub heç bir yerə gedə bilmirəm, çünki nənəm bizdə olur və istirahət yeri də ancaq bizdədir. Hamısından məsləhət, təkrar edirəm ki, sizin Bakıya gəlməginizdir. Ona görə, əlbəttə, mənə kağız yaz və



gəlmək istədiginizi mənə bildir ki, mən də bu yolda çalışım. Səni inandıra bilərəm ki, bizim Bakı bu saət sizin Parisdən heç də pis degildir. Biz burada çox yaxşıca dolanırıq. Siz gəlsəniz siz də, biz də daha gözəlcə dolanarıq. Bu kağız sənə çatıb, səndən cavab gəlincə mən Bakıda olaram. Ona görə kağızı Bakıya mənim adıma yaz. Adresimiz: V.Priyutski 63.

Biz iyulun 25-də Kislovodskiyə gedib orada bir on beş gün Narzan vannası götürəcəyik və sentyabrın 10-da Bakıya qayıdacağıq. İnşallah, gələn yay bir yerdə Kislovodskiyə gedib səni dürüst müalicə edərik.

Əlavə səndən çox artıq təvəqqe edirəm ki, mənim həkimligimə qulaq asıb mənim təcrübə ilə sınadığım müalicəni sən də edəsən. İş bundadır ki, mən Bakıda olarkən baş yorğunluğuna mübtəla olmuşdum, yəni heç bir barədə fikir edə bilmirdim, boylə ki, o qədər pis olmuşdum ki, ta özümdən əl çəkmişdim. Həkimlər müalicəsi mənə kömək yetirmirdi. Axırda bir nəfərin tövsiyyəsi ilə boylə müalicəyə başladım.

Səhər yerdən durub "Müller"in sistemi ilə gimnastika edirdim. Sonra yaş məhraba ilə bütün bədənimi, baxüsus belimi sürtürdüm və sürtən kimi qurulayırdım, onu qurtarandan sonra umuvalnik yanında "ablivaniya" edib, sonra da quruluyub "rastiraniya" edirdim. İki-üç gün boylə edib gördüm ki, mən təzədən dirildim. Yaxşı baş yorğunluğum bilmərrə itib gecələr saət üçə kimi işləyib yorulmuram. Bu cür müalicənin möcüzəyab əsəri məni heyran qoydu. Əlif-əlbəttə, sən də boylə edərsən heç olmasa imtahan üçün elə.

Məndən və Məleykə tərəfdən Zöhrənin və uşaqların üzündən öp və heç bir qəm eləmə, inşallah, bu yaxınlarda görüşərik. Ancaq kağız gözləyirəm.

**Bəradərin Üzeyir. 12 iyul 1924, Yesintuki.**

### *25. Nuri-didə Ceyhun və Zöhrə!*

Salam-duadan sonra biz Bakıya qayıtdıq və oradan Türkanə gedib, anamgili gördüm. Hamısı sağ və salamətdirlər. Aişə xanım ilə Mustafa dəxi Bakıdadırlar. Onlar dəxi hamısı salamətdirlər.

Bədə mən sənin Zülfüqara yazmış olduğun kağızları oxudum. Boylə anladım ki, Zülfüqar sənə nə yazmışsa xoşuna gəlməyibdir...

Qərəz sizin Bakıya qayıtmaq məsələsi xüsusində səndən kağız gözləyirəm ki, görüm bu barədə sənin öz məsləhətin nə tövrdür. Hər halda Bakıya qayıtmaq asan bir məsələdir, bu şərtlə ki, məndən bu xüsusda müfəssəl kağız alıb sonra qayıdasınız, kağız almayınca gözləməyin lazım gəlir. O ki qaldı "Arşın mal alanı" Parisə göndərmək, bu da asandır. Vaqeən hərgah sən Zülfüqara yazdığın kimi "Arşın mal alana" sənin bir o qədər ümidin varsa bu çox gözəl bir iş olar. O halda, yəni "Arşın mal alan" Paris səhnəsində müvəffəqiyyətlə keçərsə, onda mən dəxi bir növ ilə izn alıb, oraya gələ bilərəm və əz cümlə Şərq Azərbaycan musiqisi əsasları həqqında yazmış olduğum əsəri də orada sən elə Fransa dilinə tərcümə edərsən. Mən "Arşın mal alan"ın notlarını təkrar təkmil etmək istərdim. Buna şüru etmiş, əmma hələ qurtarmamışam. Indi ki, sən tələsdirirsən, o halda əski notlarını yeni qlavirini (piyano üçün) göndərərəm. Zatən o qlavir yaxşı yazılıbdır və burada ki kompozitorların çox xoşuna gəlir. Notlar hal-hazırda Cəmaldadır və Cəmal da otpusk alıb Türkandadır, fəqət sabah yox birigün şəhərə gələcəkdir. O halda notları alıb surətini yazdırram və tezlik ilə sənə göndərərəm. Hər halda siz orada artıq fikirlər etməyin və qara fikirlər çəkməgə məncə heç bir səbəb yoxdur. Çünki "Arşın mal alan" sizin üçün bir mənbeyi-mədaxil olar fabeha-əlmurad o surətdə mən də oraya gələ bilərəm, əgər olmazsa, siz Bakıya qayıdarsınız və hətta, əgər Bakıya gəlmək istəməsəniz dəxi biz buradan sizə maddi köməklik yetirə bilərik ki, ta bir vəxtə qədər dolana biləsiniz, sizə ayda minimum nə qədər lazım olduğunu yazıb, bizə məlum edərsiniz.

Əlavə çox nervinçat eləmək lazım degildir, biri-birimizdən uzağ olmağımız, biri-birimizin dolanacağımızı təqib etməgə hər vəxt biri-birimizdən xəbər bilməyə və zərurət məqamında biri-birimiz ilə



görüşməyə manc degildir, hər- gah siz və yainkc biz, məsələn və tutalım Afrikanın yolsuz, xəbərsiz biyabanlarında vəhşilər içində olsaydı, o halda əlbəttə, insanın ürəgi qala bilərdi və "otçayaniyə" də ola bilərdi. Və hal ankc siz biz ilə və bir də siz ilə paraxodlar, dəmir-yollar və teleqraflar ilə mərbut varığ və mədəniyyət içərisində yaşayırıq, hər iki gündə bir-birimizdən xəbər bilərik, hər halda bir həftəyə qədər "Arşın mal alan"ın notlarını sizə göndərəcəm, bir şey oldu-oldu, olmadı "vətən" deyib qayıdarsınız. Mən zənn edirəm ki, "Arşın mal alan" Parisdə müvəffəqiyyət qazanarsa, hər bir məmləkətdə dəxi oynanılar o halda sən müsənnif həqqını dəxi ala bilərsən. Kompozitor və Yazıçılar İttifaqına girməyi çox əcəb edibsən. Baqi bir də səndən təvəqqe edirəm ki, "Müller" üsuli ilə "jimnastik" və sonra da soyuq su ilə "obtraniya" elə, çünki bunu mən özüm təcrübə edib nəticəsinə heyran qalmışam. Baqi hamının sizlərə və uşaqlara artıq-artıq salam-duası vardır. Kağız gözləyirəm.

**Bəradəri Üzeyir. 9.IV1924.**

### *26.Nuri-didə Ceyhun və Zöhrə!*

Salam-duadan sonra Cəmala yazdığınız məktub gəlib çatdı. Fəqət nədənsə mənim kağızlarıma cavab yazmırsan, ona görə də mən səndən kağız almamış sizin buraya köçməniz barəsində hələ lazım olan tədaviri görüyoram. Əlbəttə, mənə cavab yaz. Əlavə "Arşın mal alan"ın notlarını sənə göndərdim. Havalarını yəqin ki, sən bilirsən, sözlərini də kitabdan götürərsən, mən istədim ki, "Arşın mal alan"ın notlarını tazədən düzəldib və bəzi havalarını dəgişim, fəqət sən tələsdirdiyinə görə öyləcə göndərdim. Yalnız bir müqəddiməsini düzəltmişəm. Notların gəlib yetməsini yaz bildir. Hər halda "Arşın mal alan"dan sən ümüd etdigin nəticələr hasil olsa çox gözəl olar və mətbuata-flana düşərsə mənim oraya gəlməgim də asan olar.

Əlavə anamgil hamısı bağdan qayıdıb bizlərlə bərabər olurlar, hamısı sağ və salamətdirlər. Aişə xanım dəxi buradadır. Keçən gün gəlib bizdə qalmışdı.

Buraların əhvalı yaxşıdır. Mən genə öz musiqi məktəbimdə işləməkdəyəm. Baqi öylə bir əhvalat yoxdur ki, yazam. Ancaq səndən məktub gözləyirəm. Əlbəttə, kağız yazıb fikrini söylərsən. Hələki, xudahafiz, bizim hamımızın ağzından uşaqları çox-çox öpərsiniz və salam-dua deyərsiniz.

**Bəradərin Üzeyir. 3 oktyabr, (1924) Bakı.**



### *27.Nur-didə Ceyhun və Zöhrə!*

Salam-duadan sonra məktubunuz gəlib çatdı. Nənəmə aid yazmış olduğun müalicəni nəzərə aldıq. Fəqət göndərdigin dərmanlar gəlib çıxmadı və bu da təbiidir, çünki bizim ticarət qanunumuza görə xüsusi adamlar əcnəbi vilayətindən buraya izn almadan, heç bir şey göndərə bilməzlər. Və bir də oradan buraya dərman göndərməgə ehtiyac yoxdur. Burada hər bir dərman mövcuddur. Ondan əlavə bu saət nənəm o qədər yaxşılaşıbdır ki, heç dərmana ehtiyacı yoxdur. Burada havaların yaxşılaşması ona çox kömək etdi. Mən dərmanların hamısını kənara qoyub tapşırdım ki, nənəmi hər gün beş-altı saət həyətdə təmiz havada oturtsunlar. Böylə bir tədbir çox gözəl nəticələr verdi. Nənənin sifəti üstünə gəldi, ürək döyünməsi, baş gicəllənməsi o qədər azaldı ki, həman normal hala düşdü. İndi genə adəti üzrə işləməgində və dəxi hərdənbir qonaq getməgindədir. Xülasə o xüsusda arxayın ola bilərsən.

Baqi bizlər hamımız sağ və salamət varıq, bu günlərdə Aişə xanım Cəmal vasitəsilə sənə pul göndərdi. Mənim isə bütüm vəxtım konservatoriyaya sərf olunur. Baxüsus indilər ki, imtahanla rvaxtıdır. Yayda nərəyə gedəcəyimizi hələ təyin etməmişik.

Əlavə indi bizim Maarif Komissarımız səninlə Parisdə görüşmüş olan yoldaş Ruhulla Axundovdur. Hal-hazırda hələ Moskvadadır, işlərə şüru etməyibdir. Moskvadan qayıtdıqdan sonra onunla görüşüb, danışacağam və mənim ali təhsilim həqqında fikrini soracagəm. Musanın dəxi qulluğunu dəgişibdirlər ki, bu xüsusdu Aişə xanım yəqin ki, sizə yazıbdır. Baqi hələ özgə bir əhvalat yoxdur, bizim hamımızın tərəfindən uşaqları öpərsiniz. Bütün əqrəbanın sizə salam-duası vardır.

**Bəradərin Üzeyir. 25.IV.(1924). Bakı.**

## *28. Nuri-didə Ceyhun və Zöhrə!*

Salam-duadan sonra bizlər sağ və salamət gəlib Bakıya varid olduğ, indi öz işlərimizə məşğul varıq. Digər tərəfdən sizin barədə cyzən çalışmağda davam edirik. İşlərin tövri boylə göstərir ki, sizlər buraya qayıtmalısınız. Burada olan bütün yoldaşlar və həmçinin sair tanışlar hamısı boylə məsləhət görürlər ki, siz buraya gələsiniz.

Sən buraya gələn kimi qulluğ işi də düzələr və biz də axırda bir görüşərik. Musanın sənin üçün orada qulluğ düzəltmək fikri pis fikir degildisə də fəqət mən boylə görürəm ki, Musa bu fikrini qövldən felə keçirincə nəinki aylar, bəlkə illər də gəlib keçər, çünki bu saət Musanın başı o qədər qatışıqdır ki, mən onu bir aydır ki, nə evində, nə də qulluğ yerində görə bilirəm, hətta telefon ilə də danışa bilmiyorəm, çünki heç bir yerdə yoxdur... Axırda bu günlərdə yoldaşlardan Əliheydər ilə görüşüb işi bu qərara qoyduğ ki, biz Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə müraciət edək ki, sizin buraya gəlməginizə izn alan kimi sizə məlum edərik. O halda siz də gələrsiniz. Əliheydər yoldaş söz verir ki, siz gələn kimi yaxşı qulluğ sahibi olarsan və bizə qarşı göstərilən hörmət sənə dəxi göstərilər.

Əliheydər yoldaşın bu sözü bizdən və səndən ötrü böyük bir sübutdur. Çünkü onun bir kərə söz verməgi kifayətdir.

Əlbəttə, sizin buraya gəlməginiz lazımdır, cünki əvvəla mən oxumağa getsəm də, ancaq bu ilin axırında gedəcəgəm və saniyən, anam qocalıbdır, sizi və uşağları görmək istəyir və salisən, daha bir o qədər qürbətdə qaldınız bəsdir, indi də Vətənə qayıdıb bir iş sahibi olmağ lazımdır ki, həm uşağlarınız barəsindən arxayın olarsınız, həm də Azərbaycana bir mənfəət yetirəsən və bir də buranın yaşayışı bu saət cox gözəldir, hər kəs öz işində-gücündə, ələlxüsus biz ki, günlərimizi həqiqət çox yaxşı keçiririk. Ona görə siz indidən yola hazırlaşsanız yaxşı olar ki, sonralar soyuğlar düşər, uşağlar üçün çətin keçər. Gələndə də Moskva tərəfilə gələrsiniz ki, daha yaxşı yoldur.



Qərəz bu günlərdə izn və viza alıb sizə göndərəcəyik ki, əlbəttə, durmayıb gələsiniz, o vəxt nə sayaq gəlməgin tövrünü dəxi müfəssəl sənə yazıb bildirəcəyik və yol xərci barəsində dəxi tədbirlər görüləcəkdir. Baqi yəqin bilin ki, məsləhət boylədir yəni gəlməkliginiz vacibdir. Bizim tərəfdən, baxüsus nənəm, Məleykə və hamılıqca uşaqların üzlərindən öpüb və deyərsiniz ki, bu yaxınlarda Bakıya gedib hamı ilə görüşərlər.

**Bəradərin Üzeyir. 1.X.(1925).**

### *29. Nuri-didə Ceyhun və Zöhrə!*

Salam-duadan sonra sənin kağızın gəldi yetişdi uşağların naxoşluğu bizi daha artıq mükəddər edir. Həva xüsusunda buralar onlar üçün çox gözəl olardı, ələlxüsus yayda "Tesmi və Bakuryani" kimi yerlərə aparılarsa idilər çox böyük mənfəət olardı məncə sən genə necə ki, əvvəlki kağızımda yazmışdım, kömək üçün bizim səfarətimizə müraciət et, zatən oradan cavab alınca bir-iki ay çəkər. Viza aldıqdan sonra yazda da gəlmək olar.

Mənim dəxi ikmali-təhsilə getmək məsələm ilin axırında qəti surətdə müəyyən olacaqdır, ilin axırından ibarət iyun ayıdır ki, o vəxt məktəbimiz tətil edir. Məni ikmali-təhsilə məcbur edən özümün arzumdan əlavə, içərisində yaşadığımız şəraitdir ki, axırda Azərbaycanda musiqi təhsili işləri başında bir nəfər də olsa azərbaycanlı durmalıdır ki, o surətlə Maarif Komissarlığı öz musiqi təlimi proqramını daha asanlıqla yeridə bilər.

Ondan əlavə mənim yoldaşlarım hamısı öz yarımçıq qalmış təhsillərini indi ikmalə yetirib biri direktor, biri incinar və sairə olduğları halda mənim bu xüsusda geridə qalmağım mənə çox ağır gəlir və bir də əlimdə diplom olmamağ işlərimə mane olur. Qərəz çox ümüd edirəm ki, ya Maarif Komissarlığı vasitəsilə və ya öz rizam və xahişimlə bu sənə axırında ikmali-təhsilə gedə bilərəm.

Fəqət bu gün bütün fikrimiz sizin korluq çəkməyiniz üstündədir. Hər gah buraya gəlsəydiniz, əlbəttə, arxayınlıq hasil olardı, əmma indiki təbiblər uşağlara səyahəti məni edirlər, onda, əlbəttə, gözləmək lazım gələcəkdir. Hər halda mən sizə ayda 25 dollardan az olmamaq şərtilə pul göndərməyə davam edəcəgəm. Mən sənə iki gün bundan əqdəm (Cəmal vasitəsilə) 25 dollar göndərdim. Əvvəl istədim ki, beş danə ingilis funtu göndərim, fəqət dedilər ki, dollar yaxşıdır. Sən yaz görək sizin üçün orada dollar almaq mənfəətdir və ya ingilis funtu sərfədir?

Baqi nənəm bu saət sağ və salamətdir və keyfi də kökdür, sizin gəlmək əhvalınızı söylədim, dedi təki sağlıq olsun, uşağlardan və özlərindən muğayat olsunlar, genə də görüşərik.



Zülfüqar göndərən pulun sənə çatmaması məni çox təəccübləndirir. Tapşırdım ki, bu xüsusda isprafka etsin. Niyazinin oraya göndərilmək məsələsinə bir o qədər də əhəmiyyət vermə. Yazırsan ki, dəva-dərman göndərəsən. Burada hər bir dəva və dərman mövcuddur və öylə şeylərə bu halda heç bir ehtiyacımız yoxdur.

Cəmala tapşırmışam ki, istədigin kitabları sənə göndərsin. Mənim şəklimə gəlincə əgər ondan sənə bir maddi kömək olarsa, o halda göndərə bilərəm, vəilla lüzumi yoxdur. Əlbəttə, cavab yaz görüm. Kağıznan və pul sənə çatdımı və təkrar gələn xüsusunda öz fikrini yaz. Sizə hər ay pul göndərəcəyəm, arxayın ola bilərsən, az olsa da genə də zənn edirəm ki, bu köməkligi dəgər.Yaza qədər qalmağ fikrində olsan özün üçün müəyyən bir iş tap ki, bir də qalan kəm-kəsirimizi düzəldə biləsiniz. Baqi nənəm, Məleykə, Abhəyat və sair qohumlar hamısı sizə çox-çox salam-dualar göndərib, uşağların üzlərindən öpürlər. Ceyçik ilə Timuçinə söylə ki, sən onları aldatıyorsan. İnşallah, bir gün olar ki, görüşərik.

Mənim tərəfimdən onları öp. Baqi əddua.

**Bəradərin Üzeyir. 18.XI.(1925).**

### *30. Nuri-didə Ceyhun, Zöhrə Ceyçik və Timuçin!*

Salam-duadan sonra çoxdandır ki, sizə məktub yazmasam onun zərəri yoxdur. Çünki başımız çox qatışıq olur işlərə. Hər halda biz hamımız sağ və salamət varığ. Nənəm lap qocalıbdır. Qulağları o qədər ağır eşidir ki, ona söz qandırmaq çox çətin olur. Amma mədəsi çox yaxşıdır, yemək-içməyi də sazdır. Hərdən bir nasaz olanda yod verirəm yaxşı olur. Onu öylə saxlayıram. Aişə xanım dəxi sağ-salamətdir. Bu axır günlərdə bizdə olurdu, sonra Dərbəndə getdi. Yerdə qalanlar dəxi hamı sağ və salamətdirlər. Sizdən sonra əmələ gələn uşaqlar hamısı böyüyüb, məktəblərdə oxuyurlar. Dördi Cəmalındır, üçü Sehranın, üçü Məryəmin, ikisi Dilşadın və ilaxır. Yəqin Ceyçik ilə Timuçin dəxi lap yekəlibdirlər və sizə kömək və təskinlikdirlər. Niyazi ilə Çingiz arada bir arvad alıb, sonra boşayıbdırlar. Niyazi bu günlərdə ikinci bir arvad alıbdır. Görək onun axırı necə olar. İkisi də qulluğ edirlər. Böyükxanım da doktor olubdur, Zülfüqar da qulluğdadır. Niyazi və Çingiz çox maraqlı həmsöhbət və tam centlimentdirlər. Mən çox istərdim ki, Niyazi əcnəbi məmalikə gedib musiqi işinə məşğul ola idi. Bu yolda dedikcə qabiliyyətlidir. İkisinin də əlindən hər nə desən gəlir. Çox yaxşı oğlanlardırlar.

Fəqət həyat içində həm özləri və həm də ata-anaları çox "bezalaberni"dirlər. Mənim işlərim dəxi çox yaxşı gedir. Firqəçi yoldaşlarımız və hökumət əhli mənim fəaliyyətimdən dedikcə razı olub, mənə lazımınca hörmət edirlər. Konservatoriyadan yaxşı kadrolar hazırladım. Radio nəzdində not ilə çalan şərq alətlərindən orkestro təşkil etdim və "Koroğlu" adında yeni üsul opera yazıram,* elmi əsərlər yazmağda məşğul oluram. Bu işləri qurtardığdan sonra əcnəbi məmalikə komandirovka getmək hazırlığında olacağam. Siz nə tövr dolanırsınız? İşləriniz necə gedir, dolanacağınız ağır deyilmi? Bu işlər bizi çox nigaran edir. Ümüdvaram ki, axırımız yaxşı olar və genə görüşərik, bir az səbr



və səbat lazımdır özünüzü və uşaqları azarlamadan gözləyib canınızı sağlamlşdırınız. Hər şeyin əvvəli sağlığdır. Baqi məndən, nənəmdən, Məleykədən və hamıdan sizə və uşaqlara çox-çox salam-dua və gözəl arzular.

**Bəradərin Üzeyir.(1925).**

*** Məqalənin yazılma tarixini arexeoqraf səhv göstərib. Qeyd etmək lazımdır ki, Üzeyir bəy "Koroğlu" operasını 1932-ci ildə yazmağa başlayıb.**

### *31. Nuri-didə Ceyhun!*

Salam-duadan sonra bizim "Azərnəşr" tərəfindən yeni mətbəədən buraxılmış olan Azərbaycan ədəbiyyatını sənə göndərirəm. Burada səndən ötrü bir xeyli material tapılar ki, tərcümə edərsən. Bu əsərlər çox qiymətli əsərlərdir, mabədi dəxi çapdan çıxacaqdır, onu çıxandan sonra göndərərəm. Əlavə sənə noyabrda və bir də dekabrda pul göndərmişdim, vüsul olmağını xəbər verərsən və yazarsan görək nə tövr dolanırsınız. Uşaqların keyfi necədir, Zöhrə nə tövrdir? Bizlər hamımız sağ və salamət varığ, mən dəxi ali təhsilim xüsusində çalışırsam, ümüd edirəm ki, təhsilimə imkan veriləcəkdir. Baqi nənəm, Məleykə və ümumqohum-əqraba sizlərə çox-çox salam-dua göndərir.

**Bəradərin Üzeyir. 30 yanvar, 1924.**

***Məktubun müəllifi əski əlifba ilə 3 yanvar 1926-cı il qeyd edib.**



### *32. Nuri-didə Ceyhun!*

Salam-duadan sonra sənin və Zöhrənin kağızları gəlib bizə çatdı. Ceyçikin kefsizliyi və sənin əsəbiligin bizi çox qəmgin etdi. Fəqət yalnız bir qəm və qüssə ilə iş keçməz olduğunu bildigimiz üçün qət etdik ki, sizə "realnı" kömək yetirək. Ona görə bu xüsusda Zülfüqar ilə bərabər məsləhətləşib məsələni üç qismə böldük. Birincisi sizə hər ay "requlyarnı" maddi köməklik. İkincisi sizin buraya gəlmək məsələniz.Üçüncüsü mənim "zaqranitsada" ali musiqi elmi təhsilimin bir qədər təxir edilməsi.

Birinci qisim məsələnin həllini biz Zülfüqar ilə öz boynumuza götürdük və qərar qoyduq ki, sənin bimövqe yerə santimentallıq etməyinə baxmayaraq uşaqlar üçün hər ay pul göndərək, bu şərtlə ki, haman pul hər halda əlli manatdan az olmasın. Bu bizim üçün mümkündür, özü də bizə heç ağır degildir, çünki bunun üçün xüsusi gəlirimiz vardır ki, onu ikimiz hasil edirik.

Səbah və ya birigün sizə teleqraf ilə pul göndərəcəyik. Mümkün olsa borclık olan Qasımdan dəxi pul alıb əlavə edəcəyik. Bir halda bu xüsusda arxayın ola bilərsən. Göndərəcəyimiz pullar sizə bir aya çatmasa da, onun müntəzəmən göndərilməsi sizin maddi pərişanlığınızı bir müəyyən intizama salar, (burasını Zöhrə daha iyi bilər) və səni də qarıxdırmaz (əlli manat beş yüz franka qədər olsa gərəkdir).

İkinci qisim məsələnin həllini Zöhrənin qardaşı Musa yoldaşa həvalə etdik. Zatən Musa sizi çoxdandır ki, buraya gətirtmək istəyirdi. Musa yoldaşın Azərbaycan Şura hökumət əzası olduğunu bilirsiniz, özü də V.S.N.X.-nin sədridir. Musa buradakı yoldaşlar ilə danışıbdır, bu günlərdə Moskvaya gedəcəkdir ki, mərkəz ilə dəxi danışıb sizin üçün buraya gəlmə izni alsın. Sən buraya gələn kimi yaxşı qulluq sahibi olarsan. Baxüsus ki, frəng dilini bilirsən. Musanın bir fikri də budur ki, sənin üçün orada yaxşı qulluq düzəltsin. Bu xüsusda sizə kağız yazacaqdır və sizinlə məsləhət edəcəkdir. Bizcə, hər ikisi yaxşı olar.

Üçüncü qism məsələ mənim ali musiqi təhsilinə ikmal etmək məsələmdir. İş bundadır ki, mən burada türklər arasında musiqi tərəqqi yolunda çox çalışıb, çox da yaxşı nəticələr hasil etdirmişəm.

Maarif Komissarlığı mənim musiqi xidmətlərimin əhəmiyyətini diplomlu professoların xidmətindən daha əziz görməklə bərabər mənim ali musiqi təhsil alıb da daha kamil olmağım tərəfdarıdır. Zatən mənim əlimdə bu gün diplom olsaydı, bir çox dedi-qodular aralardan götürülərdi. İştə odur ki, məni ali musiqi təhsili üçün "zaqranitsaya" göndərmək məsələsi hər kəscə arzu edilən bir şeydir, hətta bu xüsusda mətbuat dəxi bir qeyd etmişdi. Fəqət mən hələ ki, Maarif Komissarlığını tələsdirmək istəmiyorəm, çünki, əvvəla, sizin məsələ həll olunacağa qədər buradan sizə kömək etməliyəm və saniyən, özüm də ali təhsil üçün bir qədər hazırlanmalıyam ki, "zaqranitsada" üç ildən artıq qalmıyam və buradaki işlərimin qırılıb qalmasına səbəb olmayam.

Bədə özün görürsən ki, işlər boylə olduqdan sonra sənin əsəbilik etməyə bundan sonra heç bir həqqin yoxdur və bir də bu əsəbiliyi bir kərə kənara tullamağın vəxti çoxdan yetişibdir. İsmayıl indi də səni məsxərə edib gülür, toxdaqlıq və mərdanəlik əvəzinə əsəbilik edirsənsə, Zöhrəni qarıxdırıb öz analığ vəzifəsinə xələl yetirirsən. Əlavə başını həmişə bir iş ilə məşğul et ki, malxulyaya məhəl qalmasın və bir də ora qəzetələrinin və ya ağız danışıqlarının bizim həqqımızda söylədikləri və yazdığları axmaq yalan və mübaliğəli sözlərinə heç bir əhəmiyyət verme. Biz çox yaxşı dolanırıq və heç bir şeydən şikayət etməyə ehtiyacımız yoxdur.

Nənəm sağ və salamatdır, sizlərə dualar göndərir. Hamınızı öpür və deyir ki, inşallah görüşərik təki sağ olsunlar.

Bu yay nənəmi Barjom tərəflərinə aparacağam ki, canı qüvvətə gəlsin və bir az havasını dəgişsin, buna görə bu kağızın cavabını Cəmalın adresinə göndər ki, o da mənə göndərsin. Bizim hamımızın tərəfindən uşağları öp, inşallah Ceyçik tezlik ilə yaxşı olar. Zöhrəyə söylə ki, qorxmasın köməkçiləri çoxdur.

**Bəradərin Üzeyir. 24 iyun.(1926), Bakı.**



### *33.Nuri-didə Ceyhun və Zöhrə!*

Salam-duadan sonra çoxdandır ki, mən sizə kağız yazmıram. Səbəbi də odur ki, sizə pul göndərmək məsələsi təxirə düşdügündən başım onun həllinə məşğul idi. İş bundadır ki, sizə pul göndərmək üçün növbət gözləmək lazım gəlirdi və biz də bir neçə vəxt növbəti itirmişdik. Hər halda iki gün bundan qabaq hələlik igirmi beş dollar göndərdim, iki həftə sonra igirmi beş dollar dəxi göndərməgi vədə veribdirlər. Onu da vəxtində göndərəcəgəm, Aişə xanıma qaldıqda o hələ satdığı evin pulunu almamışdı, ona görə təvəqqe etdi ki, bu səfər pulu mən göndərim, sonra Aişə xanım özü göndərəcəkdir. Deməli, mən indi igirmi beş dolları göndərdim, igirmi beşi dəxi iki həftə sonra göndərəcəgəm, ondan sonra Aişə xanım sizə əlli dollar göndərəcəkdir. Hər halda bu pulların sənə yetəcəgini nəzərə alıb da ehtiyac zamanında borc dəxi edə bilərsən ki, sonra pulun gəldikdə borcları verərsən.

Bizim dolanacağımıza qaldıqda, şükür Allaha ki, biz də, ümum-qohumlarımız da yaxşı dolanırıq, yeganə bir intizarımız varsa o da sənin için düşündügümüzdir. Hərgah siz də burada olsa idiniz vəxtimizi çox xoş keçirdərdik. İnşallah, əvvəla, bilin ki, yazda sizin buraya gəlməginizə izn verilər, o vəxt sağ və salamət gələrsiniz görüşərik və neçə sənədən bəri arzusunda olduğumuz Ceyçik ilə Timuçini görərik. İndi onlar yəqin ki, yekə oğlan olubdurlar. Salamət olsunlar, inşallah, görüşərik.

Mənim işlərimə gəldikdə, məni bu halda hökumət konservatoriyasının prorektoruyam. Zatən bütün işlərimin üzərimə töküldüyündən səhər saət 10-dan axşam saət 12-yə qədər koservatoriyada işlərlə məşğul oluram. Ondan əlavə tez-tez məktəb iclasları olduğundan bəzən saət 2-yə qədər işləməyə məcburam. Səhhətim öz yerində olduğundan işləməkdən qoxmuram, fəqət çox təəssüflənirəm ki, yeni opera yazmağa heç bir vəxtim olmiyor.Yayları bir aylıq istirahətə gedib, çox vəxt instrumantsız mənzillərdə olduğdan heç bir şey yaza bilmiyoram. Halbuki bu saət istər qərb və istər şərq musiqisini o qədərcəsinə gözəl ögrənmişəm ki, çox qiymətli bir opera yaza bilərdim. İndi istiyoram ki, heç olmasa "Leyli və Məcnun" düzəldib yeni sistem bir opera edəm, çünki indi konservatoriyada təh-

sil görməkdə olan opera artist və artistkalarımız dəxi əmələ gəlməyə başlayır, onlar üçün dəxi materyal və repertuar lazımdır.

Əlavə Maarif Komissarlığının təklifinə görə konservatoriya nəzdində bir komitə təşkil edə biliyor ki, bu komitə Azərbaycan el mahnılarını yığıb nota salacaq və sonra sözlər ilə, tarix ilə və musiqi təhlilylə bərabər çap etdirib bir neçə cild böyük kitablar buraxacaqdır. Bu komitənin sədri mənəm. Əzalari da bizim konservatoriyanın professorlarındandır. Hal-hazırda el mahnıları yığmağa məşğul varıq. Bu yaxın zamanda birinci cildi çap üçün hazır edəcəyik. Çıxan kimi birin sənə göndərərəm ki, oraların musiqi məhafillərinə göstərəsən. Məncə, boylə bir materyal onlar üçün çox maraqlı olar. Digər tərəfdən şərq musiqisinin əsasları həqqındakı böyük əsərimi düzəldirəm ki, bunun da Avropada əhəmiyyəti artıq olacaqdır. Bu əsərləri firəng dilinə tərcümə etmək sənə həvalə edəcəgəm. Mənim ali təhsilim məsələm dəxi növbəti məsələlərdən biridir, görək o nə tövr həll ediləcəkdir.

Baqi bizimkilər hamısı salamətdirlər. Bir az nənəm kefsizdir, o da zatən qocalığdandır, həkimlər yod verirlər. Bibim dəxi öylədir, o da yod içir. Nənəmə özüm müğayat oluram.

Bu günlərdə bizim külfət bir az da artdı, yəni Cəmalın bir qızı oldu. İndi onun iki oğlu, iki qızı vardır. Zülfüqargil dəxi salamətdirlər. Böyükxanım Moskvaya gedib orada təhsil alır. Onu Maarif Komissarlığı göndəribdir. Niyaz dəxi onunla bərabər Moskvadadır. Zülfüqar ilə Çingiz isə buradadırlar.

Nənəm, Məleykə və ümumqohumlarımız hamısı sizə çox-çox salam-dua göndərirlər. Bu saət Kəmal mənim yanımdadır. Özü də Ceyçik ilə Timuçinə xüsusi salam-dua göndərir və deyir ki, tez gəlsinlər görüşək. Baqi hamınız salamət olasınız.

Mənim və Məleykənin əvəzindən uşaqları öpərsən. Və Zöhrəyə çox salam-dua deyərsən.

**Bəradərin Üzeyir. 23.I.1927***

***Bəstəkar məktubun ilk səhifəsində yazılma tarixi ərəb rəqəmləri ilə 23.01.1927-ci il yazdığı halda arxeoqraf nədənsə bu tarixləri gah 23.01.1927-ci il, gah da 28.01.1927-ci il kimi göstərir.**



### *34.Nuri-didə Ceyhun!*

Salam-duadan sonra Cəmala yazmış olduğun kağızı oxudum.

Hal-hazırda mənim təhsil məsələmin son qərarı hələ açığdır, çünki yoldaşlardan bir neçəsi ki bu məsələni həll etməlidirlər, məzuniyyətdən qayıtmayıbdırlar, onlar qayıdan kimi özüm dəxi görüşüb, ümüdvaram ki, həllinə müvəffəq ola bilim. Hər halda tələsməgə o qədər ehtiyac yoxdur, hələ vəxt vardır, mən sentyabrda da gedə bilərəm.

Kitab və qramafon əhvalatı xüsusunda Zülfüqara və Cəmala tapşırmışam ki, baxıb axtarsınlar.

Əlavə Ağa Qasıma-flana ümüd olmaq olmaz, çünki onların tərbiyələri və kulturnustı o dərəcədə degil ki, borc vəzifələrini ədayə qabil olsunlar. Ağa Qasım məni görəndə küçənin o biri tərəfinə çəkilir ki, mən onu görməyim. Həmçinin Ziba xanım qulluğdadır, amma özü indi görünmür. Bildiyim üzrə onların da sizə borcu varmış. Mən ancaq sənə və Zöhrəyə təəccüb edirəm ki, külfətdar adam olduğunuz yerdə boylə bir zamanda öz azuqənizi öylə nanəcib adamlara verdiniz! Qərəz keçibdir, bu xüsusda nəsib olsa görüşəndə danışarıq.

Bədə necə ki, keçən kağızda dəxi sənə yazmışdım burada "Maarif və mədəniyyət"* adlı jurnal çıxır (ayda). Mən oraya hər dəfə musiqi həqqında bir məqalə yazıram. Ondan başqa qəzetələr dəxi vardır ki, ədəbi və musiqiyə aid məqalələr istəyirlər. Sən əgər hər ay mənə üç və ya iki böyük məqalə göndərsən ki, ədəbiyyata aid olsun ya da ədəbi tarixə və firəng alimlərinin şərq-türk ədəbiyyatına aid fikirləri, əlavə oraların bizim şərq musiqimizə aid fikirləri, münasibətləri və sairə bu kimi mövzulardan o halda mən sənə göndərən pulu bir o qədər dəxi artırmaq mümkün olar. Bu isə bir növ yüngüllük verər. Cəmala tapşırmışam ki, həman "Maarif və mədəniyyət" jurnalından sənə göndərsin.

Əlavə heç bir kəs ilə mübahisələrə girməmək şərtilə və ya yalnız ədəbi və fənni mübahisələrdən kifayətlənib dakladlar etsən, daha yaxşı olar.

Bir də Bakıxanov xüsusində ki, sən firəngcə daklad yazmışdın burada rus dilində böyük bir kitab çıxıbdır, Cəmal sənə göndərəcəkdir.

Mən də Azərbaycan musiqisinin əsasları həqqında böyük bir elmi əsər yazacağam ki, onu firəng dilinə dəxi tərcümə etmək lazım gələcəkdir. Heyif olsun ki, bu cürə işlərə az vəxt sərf edə bilirəm, çünki məktəb məşğuliyyətim və cəmiyyət işləi çox olur. Bizdən ötrü vəxt o qədər tez gedir ki, guya bir gün bir saət əvəzi olur.

Keçən sənə bizim müəllimlərdən birisi ki, mən idarə edən musiqi texnikumunun vialonçil müəllimi idi, Parisə getdi. Bu günlərdə ondan kağız aldım, təkrar buraya qayıtmaq istəyir. Yazdım ki, gəlsin və sənin adresini dəxi ona yazmışam, bəlkə sizin ilə görüşübdür, famili Okruqofdır. Bədə yaz görək göndərdigim pulu aldınmı, iyulda dəxi pul göndərəcəgəm, gec çatsa da genə axırda gəlib çatacaqdır.

Baqi nənəm və bizdə qalanlar hamısı sağ və salamətdirlər. Ola bilsin ki, bu yaz nənəmi bir daçaya aparam. Ona görə sən mənə hər nə kağız yazsan və məqalələri göndərsən, Cəmalın adresinə göndər, Cəmal burada qalır.

Abhəyat bizdə olur. Nənəm, Məleykə, Abhəyat və ümum-qohumlar sizlərə çox-çox salam-dualar göndərirlər və uşaqların və Zöhrənin üzündən təhrar-təkrar öpürlər.

Baqi salamət olunuz.

**Bəradərin Üzeyir. 29 iyun. (1928), Bakı.**

***"Maarif və mədəniyyət jurnalı əgər 1923-27cü illərdə işıqüzü görübsə, o zaman məktubun yazılma tarixi arxeoqraf tərəfindən düzgün müəyyən edilməyib.**



### *35. Nuri-didə Ceyhun və Zöhrə!*

Salam-duadan sonra necə ki, sizə bildirirəm sizin buraya qayıtmaq məsələnizi qəti surətdə həll etmişik. Əlbəttə, tezlik ilə buraya qayıtmağınız yaxşıdır. Bu xüsusda Zülfüqar sizə müfəssəl məktub yazıbdır, yəqin ki, alıb oxumuşsunuz. Əlbəttə, öylə edərsiniz, yəni SSSR səfarətxanəsinə müraciət edib, Azərbaycana qayıtmağa izn istərsiniz ora dəxi buradan əhval bilib sizə cavab deyəcəkdir. Buradan isə necə ki, Zülfüqar yazdırır, məsul yoldaşlar tərəfindən izn verilir. O xüsusda arxayın ola bilərsən. İzn aldıqdan sonra haçan çıxmaq istədiginizi bizə məktub ilə bildirərsən. Məncə, Moskva təriqi ilə gəlməginiz daha yaxşı olar. Moskvadan Bakıya sürət qatarı vardır ki, çox rahatdır. Pul lazım olduğu cəhətdə bizə məlum edərsən. Pulu Moskvada istəsəniz də mümkündür. Yəni Parisdən Moskvaya qədər gəlməgə xərciniz çatarsa, Moskvadan bildirsəniz tel vasitəsilə oraya pul göndərmək daha asan olur. Qərəz tezlik ilə çalışın ki, soyuqlar sizə əziyyət verməsin. İnşallah, buraya gələndən sonra qulluğ barəsində heç fikir yoxdur. Qərəz o məsələni burada danışarıq. Vacib budur ki gələsiniz. Ona görə başqa fikirlərlə vəxtinizi itirməyib tezlik ilə səfarətxanəyə müraciət ediniz və təvəqqe ediniz ki, mümkün olsa teleqraf vasitəsilə buradan əhval istəsinlər. Müraciət etməyiniz xüsusində və nə cavab aldığınızı bizə məktub ilə bildiriniz. Xülasə çalışmağda olunuz. O ki qaldı buranın yaşayışına, təkrar yazıram ki, burada bizlər çox rahət yaşayırıq və getdikcə dəxi yaxşı dolanacağıq. Hər birimiz öz məxaricini ödəyəcək dərəcədə maaş alıb həmi hökumətimiz üçün çalışırıq, həm də camaətimizə olduqca mənfəət yetiririk. Bakı özü bir çox babətdən xeyli yaxşılaşıbdır, əvvəlcə gördüyün bir çox qəbih adətlər aradan götürülüb, hər kəs azadcasına yaşayır. Şəhərin özü də dəgişib. Tramvay, bağçalar və sair abadlığlar əmələ gəlibdir. Qərəz, inşallah gələndə görərsiniz. Qohumlarımızın da hamısı Bakıdadırlar. Cəmiyyətimiz çox böyükdür. Bir çox vəxt rajdeniyalar qurub günümüzü çox xoş keçiririk. Səni inandırım ki, əcnəbi qəzetələrində oxuduqlarınız pis-pis xəbərlərdən burada heç bir əsər də görməzsiniz, gələndən sonra özün görüb təəccüb edərsən. Əlqissə, bizim hamımız uşaqların üzündən öpürük. Deyirsiniz ki,

tezliklə Bakıya gəlib bir süri yoldaşlarını görərlər və onda görərlər ki, Bakı necə Bakıdır, onların Parisindən daha yaxşıdır. Əlbəttə, səfarətxanəyə tezlik ilə müraciət edib çalışınız ki, tezliklə gələsiniz. Yolunuzu gözləyirik.

Baqi salamət olasınız. Özünüzdən və uşaqlardan müqəyyəd olunuz, cavab dəxi gözləyirik.

**Bəradərin Üzeyir. 3 noyabr 1929, Bakı.**



## Məktublarda adı çəkilən şəxslər

**1.Ceyhun (ata)** – Ceyhun Hacıbəyli (1891-1962) Yzeyir bəy Hacıbəylinin kiçik qardaşı, ictimai xadim, tarixçi, jurnalist, tərcüməçi.

**2.Zurya** – Zöhrə, Ceyhun Hacıbəylinin həyat yoldaşı.

**3.Ceyçik** – Hacıbəyli Ceyhun Ceyhun oğlu Üzeyir bəyin qardaşı oğlu, (1919-1941) təyyarəçi.

**4.Timuçin** – Ceyhunun kiçik oğlu (1921-1993) mühəndis.

**5.Zülfüqar** – Üzeyir bəyin böyük qardaşı, bəstəkar, (1884-1950) maestro Niyazinin atası.

**6.Çingiz** – Zülfüqar Hacıbəyovun kiçik oğlu, (1913-1971) dirijor.

**7.Niyazi** – Zülfüqar Hacıbəyovun böyük oğlu. (1911-1984) maestro Niyazi Tağızadə-Hacıbəyov dirijor, bəstəkar, ictimai xadim.

**8.Abhəyat** – Yzeyir bəyin bacısı (1880-1951).

**9.Səyyad** – Sayad Hacıbəyova-Paşayeva Üzeyir bəyin bacısı (1872-1954).

**10. Nənə** – (1853-1939) Hacıbəyova-Əliverdibəyova Şirinbəyim, Üzeyir bəyin anası.

**11.Məleykə** – (1893- 1966) Üzeyir bəyin həyat yoldaşı.

**12.Yusif** – (1887-1943) Yusif Vəzir Çəmənzəminli yazıçı, ədəbiyyatşünas, diplomat.

**13.Sarabski** – (1879-1945) Hüseynqulu Məlik oğlu Rzayev müğənni, aktyor, rejissor. "Leyli və Məcnun" əsərində Məcnun rolunun ilk ifaçısı.

**14.Cəmal** – (1895-1953) Camal Məmməd oğlu Paşayev jurnalist. Üzeyir bəyin böyük bacısı Sayad xanımın böyük oğlu.

**15.Ayulduz** – Üzeyir bəyin bacanağı Qubad Qasımovun bacısı, Cəmalın həyat yoldaşı.

**16.Cəmil** – Cəmalın böyük oğlu, Üzeyirin bacısı nəvəsi.

**17.Kəmal** – Cəmalın kiçik oğlu

**18.Elmira** – Cəmalın qızı.

**19.Diladif** – əsl adı Dilara, Cəmalın qızı.

**20.Ramazan** – (1901-1999) jurnalist, tərcüməçi, Üzeyir bəy muzeyinin direktoru. Üzeyir bəyin böyük baldızı Hüsniyyəcamalın oğlu.

**21.Qərib Soltan** – maarifçi, publisist, pedaqoq Həsən bəy Zərdabinin qızı.

**22.Şövkət** – (1897-1981) Məmmədova Şövkət müğənni, pedaqoq. İlk Azərbaycan professional qadın müğənni.

**23.Hənfuş** – (1877-1942) Hənəfi Terequlov müğənni, teatr xadimi. Üzeyir bəyin qaynı.

**24.Əli** – (1883-1950) Əli Terequlov ictimai xadim. Üzeyir bəyin qaynı.

**25.İsmayıl** – Üzeyir bəyin əmisi oğlu.
**26.Sürəyyə** – İsmayılın həyat yoldaşı.
**27.Dilşad** – Sürəyyanın qizi.
**28.Şümşad** – Dilşadın qızı.
**29.Həcər** – maestro Niyazinin ikinci həyat yoldaşı.
**30.Şəfi bəy** – Şəfi bəy Rüstəmbəyli AXC dövründə "Azərbaycan" (rus dilində) qəzetinin redaktoru olmuşdur.
**31.Böyükxanım** – Maestro Niyazinin anası.
**32.Məhbub** – (1905-1970) Məhbubə Məmməd qızı Paşayeva müğənni. O, Üzeyir bəyin operalarında bir sıra rollarda oynamışdır. Məhbubə xanım dahi bəstəkarın böyük bacısı Sayad xanımın qızıdır.
**33.Sehra** – (1900-1966) Sehra Məmməd qızı Paşayeva- İbrahimova. Sayad xanımın qızıdır.
**34.Zivər** – Sehranın qızı.
**35.Ramiz** – Sehranın oğlu.
**36.D.Bünyadzadə** – (1888-1938) Dadaş Xoca oğlu Bünyadzadə sovet partiya və dövlət xadimi.
**37.Mustafa Vəkilov (1899-1943)** – hüquqşünas, professor.
**38.Məryəm** – Üzeyir bəyin baldızı. Musiqişünas, Üzeyir bəy yaradıcılığının tədqiqatçıs Qubad Qasımovun həyat yoldaşı.
**39.Əminə** – Üzeyir bəyin baldızı. Maarif xadimi Pənah Qasımovun həyat yoldaşı.
**40.Zəhra** – İsmayılın ikinci arvadı. Bəstəkar Soltan Hacıbəyovun anası.
**41.Cəbbar** – Cəmalın qardaşı.
**42.Qliyer** – (1875-1956) Reynhold Moritseviç Qliyer bəstəkar, diriyor. "Şahsənəm" operasının müəllifi. Deyildiyinə görə Şövkət Məmmədovun əri olub.
**43.Merkuriyevski** – indiki Zərifə Əliyeva küçəsi.



# ŞƏRHLƏR

## MƏQALƏLƏR

### RÖVŞƏN ƏŞRƏF BƏYİN ŞƏRƏFİNƏ ZİYAFƏT

*28 oktyabr 1918-ci il 24-cü sayında "Ü" imzası ilə*

**1.Rövşən Əşrəf bəy** – Türk ordusunun komandanlarından. 1918-ci ilin mart hadisələri zamanı məşhur xeyriyyəçi İsa bəy Aşurbəyov şəxsi əlaqələrindən istifadə edərək türk qoşunlarının Bakıya daxil olmasında fəal iştirak etmişdi. Məhz həmən ordunun rəhbərlərindən biri də Rövşən Əşrəf bəy olmuşdur.

**2.Firidun bəy Köçərli** – Firidun bəy Əhməd bəy oğlu Köçərli (1863-1920) Azərbaycan ədəbiyyatşünası, pedaqoqı, publisisti.

**3.Nəcəf bəy Vəzirov** – Nəcəf bəy Fətəli bəy oğlu Vəzirov (1854-1926) Azərbaycan dramaturqu, publisisti, teatr xadimi. 1873-cü ildə N.Vəzirovun iştirakı ilə Bakıda M.F.Axundovun "Lənkəran xanının vəziri" və "Hacı Qara" komediyalarını tamaşaya qoymuşdur.

N.Vəzirov "Əti sənin, sümüyü mənim", "Daldan atılan daş topuğa dəyər", "Müsibəti-Fəxrəddin" və bir cox pyeslərin müəllifidir.

**4.Həmid bəy Şaxtaxtınski** – Həmid bəy Xəlil oğlu Şaxtaxtlı (1880-1944) Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlaman üzvü, görkəmli maarifçi olmuşdur.

**5.Aşurbəyov** – İsa bəy Mehdiqulu ağa Aşurbəyov (1878-1938) ictimai-siyasi xadim, xeyriyyəçi, jurnal naşiri, "İttihad" və "Himmət" partiyalarının üzvü olmuşdur.

## NURİ PAŞA HƏZRƏTLƏRİ ŞƏRƏFİNƏ BÖYÜK ZİYAFƏT

*12 noyabr 1918-ci il 37-ci sayında "Ü Əbdül" imzası ilə*

**1. Nuri Paşa (1889-1949)** – Qafqaz müsəlman ordusunun komandanı general-leytenant Nuri Paşa Əhməd Paşa öğlu İstanbulda anadan olmuşdu. Ona böyük qardaşı ƏnvərPaşanın əmri ilə general rütbəsi verilib, Qafqaza göndərilərək ordunun başçısı təyin edilir. Gəncədən sonra Bakıya gələn Nuri Paşa Bakının düşmənlərdən təmizlənməsində fədakarlıqlar göstərir. Həmin illərdə görkəmli ədəbiyyatşünas, şair Salman Mümtaz həm Ənvər Paşaya "Ənvəriyyə", həm də Nuri Paşaya "Öyün, millət" adlı şerlərini həsr edir. 1949-cu il mart ayının əvvəllərində İstanbulda qumbara düzəldən zavodda işləyən Nuri Paşa partlayış nəticəsində 30 nəfərə yaxın insanlarla birgə həlak olur.

**2. Təşrini-sani** – noyabra uyğun gələn ay adı.

**3. Fətəli xan Xoyski** (1875-1920) – Öz dövrünün görkəmli siyasi və ictimai xadimi olmuşdur. 1918-ci ilin may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olunanda bitərəf F.Xoyskiyə ilk hökumətin təşkili tapşırılır. 1919-cu ilin martında F.Xoyski hökumət kabinəsi istefaya çıxmış və Nəsib bəyYusifbəylinin həmən ilin dekabr ayının 23-də təşkil etdiyi ikinci hökumət kabinəsində AXC-nin xarici işlər naziri vəzifəsini icra edib. 1920-ci ilin iyunun 19-da muzdlu erməni qatili tərəfindən Tiflisdə arxadan güllə atəşi ilə öldürülmüşdür.

**4. Nikolay Romanov** (1868-1918) – Rusiyada Romanovlar sülaləsinin son çarı.

**5.M.Ə.Rəsulzadə (1884-1955)** – Azərbaycanın görkəmli dövlət xadimi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Şuranın sədri seçilib. Məlum hadisələrdən sonra Azərbaycanı tərk etməli olub. M.Ə.Rəsulzadə mart ayının 6-da Türkiyədə vəfat edir. O, Ankaranın Əsri qəbristanlığında dəfn olunmuşdur.

**6.Əhməd bəy Ağayev** (1869-1939) – Görkəmli ictimai xadim, publisist, yazıçı, hüquqşünas, şərqşünas, islamşünas alim olan Ağaoğlu Əhməd bəy Mirzə Həsən oğlu Qarabağ xanlığının əsasını qoyan Pənahəli xanın nəslindəndir.

Əhməd bəy Ağayev Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü seçilmişdir.

İki dəfə də Türkiyə Böyük Millət Məclisinə də deputat seçilmiş, Ankara universitetinin professoru, eyni zamanda, "Hakimiyyəti-milliyə" qəzetinin redaktoru olmuşdu.



## MÜHÜM MƏSƏLƏLƏR

*1 dekabr 1918-ci il 53-cü sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Məmməd Yusif Cəfərov** (Hacıbaba oğlu Cəfərzadə 1885-1938) – Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, həmçinin Parlamentin sədr müavini olmuşdur. M.Cəfərov 1918-ci il may ayının 28-də Azərbaycan Milli Şurasının İstiqlal Bəyənnaməsini imzalayanlardan biri olmuşdur.

## PARTİYALARIMIZA

*3 dekabr 1918-ci il, 55-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1."İznamiya truda"** – Bakı Partiya Komitəsi eserlərinin qəzeti, 1917-1919-cu illərdə nəşr olunan "Znamiya truda" qəzeti nəzərdə tutulur.

2."Azərbaycan" qəzetinin 2 dekabr 1918-ci ilin 54-cü sayında "Mh" imzası ilə yazılan məqalə nəzərdə tutulur.

## AZƏRBAYCAN PARLAMANI

*5 dekabr 1918-ci il, 56-cı sayında Hacıbəyli Üzeyir imzası ilə*

**1.Atlantiy** – Atlantik okean nəzərdə tutulur.

**2.Vilson** – Uilson Tomas Vudro (1856–1924) ABŞ siyasi və dövlət xadimi. 1913-1921-ci illərdə Demokratlar partiyasından ABŞ prezidenti seçilmişdir. 1919-cu ilin may ayının 28-də Paris sülh konfransındakı Azərbaycan nümayəndə heyətini Vilson qəbul etmişdi.

**3.Piş əz vəxt** – vaxtından əvvəl

## TARİXİ GÜNÜMÜZ

*7 dekabr 1918-ci il 58-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

1.1918-ci il Ramazan ayı nəzərdə tutulur.

## TƏƏSSÜRAT

*9 dekabr 1918-ci il 60-cı sayında Üzeyir imzası ilə.*

**1.Hacı Zeynalabdin Tağıyev** (1823-1924) – Məşhur Azərbaycan milyonçusu və xeyriyyəçisi.

**2.Bir ağac** – 6 km məsafəyə qədər ölçü vahidi nəzərdə tutulur.

3. Bu nömrədə Azərbaycan Milli Şurasının sədri olmuş Məhəmməd Əmin Rəsulzadənin nitqi verilib.

**4.Məclisi-məbusan** – Müəssisələr məclisi, Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndəli ali qanunvericilik orqanı –parlamenti. 1918-ci ilin dekabrından 1920-ci ilin aprelinədək fəaliyyət göstərmişdir.İlk iclası dekabr ayının 7-də, sonuncu iclası isə 1920-ci il aprelin 27-də keçirilib.

**5.Rəisülvüzəra** – Baş nazir

**6."İttihad"** – Azərbaycanda, 1917-ci ilin sentyabrında Yelizavetpol (indiki Gəncə) şəhərində yaradılmış islam partiyası. Bakı təşkilatına İ.Aşurov, S.M.Qənizadə və başqaları rəhbərlik edirdi. Müsafat parlamentində ittiaçıların 13 yeri var idi. 1919-cu il fevral ayından 1920-ci ilin aprelinə qədər partiyanın eyni adlı qəzeti rus dilində nəşr olunub. Qəzetin redaktoru Üzeyirbəyin kiçik qardaşı Ceyhunbəy Hacıbəyli, sonra isə həmən partiyanın liderlərindən biri olan Qarabəy Qarabəyov olmuşdur.

## TƏƏSSÜRAT

*13 dekabr 1918-ci il, 64-cü sayında Üzeyir imzası ilə.*

**1."Müsavat"** – Ərəb dilində bərabərlik deməkdir. 1911-ci ildə "Müsəlman Demokratik Müsavat" partiyası adı ilə Bakıda yaradılmışdır. Həmin partiyanın rəhbəri M.Ə.Rəsulzadə, Q.Şərifov, Abbas Kazımzadə və başqaları təşkilatçıları olur. 1920-ci il çevrilişindən sonra müsavatçıların bir qismi xaricə mühacirət etməyə məcbur olmuş, digər qismi isə bu və ya digər dərəcədə qətlə yetirilmişdir.

**2.Aslan bəy Səfikürdski (1880-1937)** – Xoyskinin təşkil etdiyi üçüncü hökumət kabinəsinə (26.12.1918) poçt teleqraf və əmək naziri təyin olunur. 1919-cu il mart ayının əvvəllərində F.Xoyskinin kabinəsi istefaya çıxdığı üçün Səfikürdski tutduğu vəzifəni tərk edib. N.Yusifbəylinin 1919-cu il martın 14-də təşkil etdiyi kabinədə ədliyyə və əmək naziri təyin olunur.



1920-ci il aprel hadisələri vaxtı o təslimçi mövqe tutur. Həmən hadisədən sonra Səfikürdski respublika ədliyyə komissarının müavini və "Azərneft" birliyində hüquq işləri üzrə məsləhətçi işləyir. O, 1937-ci il oktyabrın 15-də Bakıda ağır xəstəlikdən sonra vəfat edir.

**3.Şeyxülislamov (1891-1961)** – Əkbərağa İbrahim oğlu Şeyxülislamov AXC elan olunanda bitərəf F.Xoyskinin təşkil etdiyi birinci kabinədə torpaq və əmək naziri vəzifəsini icra edib. O, Ə.Topçubaşovun rəhbərliyi altında Azərbaycan respublikası nümayəndəliyinin tərkibində, 1919-cu ildə açılan Versal Sülh Konfransında iştirak etmək üçün Parisə gedib. Ə.Şeyxülislamov 1961-ci il mart ayının 2-də vəfat etmiş və Paris yaxınlığındakı müsəlman qəbiristanlığında dəfn olunmuşdur.

**4."Himmət"** – 1904-cü ilin axırlarında RSDFP Bakı Komitəsi yanında yaradılmışdı. 1904-ci sonlarından 1905-ci ilin əvvəllərinə kimi Himmət partiyasının eyni adda qəzeti nəşr olunub. 1917-ci il inqilabından sonra "Himmət"in fəaliyyəti genişlənir. 1920-ci ilin fevralında Azərbaycan kommunist təşkilatlarının gizli çağrılmış I qurultayında RK(b)P Bakı təşkilatı və "Ədalət" ilə birlikdə AK(b)P-də birləşir.

## ANDRONİKİN MƏSƏLƏSİ

*15 dekabr 1918-ci il 65-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Andranik (1865-1927) Ozanyan** – erməni quldur dəstələrinin başçısı, daşnak generalı. Azəri türkləri tərəfindən qulağı kəsildiyinə görə ona tayqulaq Andronik deyirdilər.

**2.Tomson** – (Ulyam)Birinci dünya müharibəsinin sonunda Bakıya müdaxilə etmiş İngilis hərbi komandanı, general-mayor. 1918-1919-cu illərdə özünü Bakı şəhərinin hərbi qubernatoru elan etmişdi.

## TƏƏSSÜRAT

*16 dekabr 1918-ci il 66-cı sayında Üzeyir imzası ilə.*

**1."Rus-islavyan"** – "Vahid bölünməz Rusiya" uğrunda mübarizə məqsədilə Tiflis şəhərində yaradılmış qurum. 1918-ci il mart ayının 11-də

sonralar AXC-nin ərzaq naziri olmuş K.N.Lizqarın sədrliyi ilə cəmiyyətin ilk iclası keçirilmişdir.

**2.Vinoqradov** – Azərbaycan Xalq Cümhuriyyətinin "Rus-slavyan" cəmiyyətindən olan deputatı.

**3.Qarabəyli Qarabəy (1874-1953)** – jurnalist və həkim. 1911-1912-ci illərdə Bakıda çıxan "Haqq yolu" həftəlik jurnalının redaktoru olub. 1921-ci ildən Moskvada həkimlik edib. 1928-1931-ci illərdə Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsində işləyib. 1931-ci ildən ömrünün sonuna qədər Səmərqənddə yaşayıb.

## VƏZİFƏMİZ NƏDİR?

*24 dekabr 1918-ci il 72-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Dro** – D.Konayan, erməni süvari dəstəsinin komandanı, daşnak partiyasının liderlərindən.

## KEÇƏN ZABASTOVKA HAQQINDA

*29 dekabr 1918-ci il 73-cü sayında Hacıbəyli Üzeyir imzası ilə.*

## İSTİQLAL VƏ İSTİQBAL ÜMİDİ

*30-dekabr 1918-ci il 74-cü sayında Ü.Hacıbəyli imzası ilə.*

1. Sağdır, lakin ölmüşdür,
Ölmüşdür, lakin sağdır.

## LƏNKƏRAN FACİƏSİ

*1 yanvar 1919-cu il 76-cı sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Tərcüməsi:** Bəsrə xarabalığından sonra

**2.Makiavelli** – Makyavelli Nikkolo (1469-1527) İtaliya siyasi xadimi, diplomat, mütəfəkkir, yazıçı, tarixçi, hərb nəzəriyyətçisi. Makyavelli dövlətin möhkəmləndirilməsi üçün hər bir vasitəni – zoru, yalanı və s. məqbul sayırdı.



**3."Lənkəran qəzası"** – Azərbaycan Xalq Cümhuriyyəti dövrünədək Bakı quberniyası tərkibində inzibati ərazi. Qəza 1841-46-cı illərdə Kaspi vilayətinin tərkibinə daxil idi. Bir müddət Şamaxı quberniyası təşkil edikdə onun tərkibinə qatılmış, Şamaxı zəlzələsindən sonra mərkəzi Bakıya köçürüldüyündən Bakı quberniyası adlandırılmış, mərkəzi isə Lənkəran şəhəridir.

1918-1920-ci illərdə Lənkəran qəzasına; Lənkəran, Masallı, Astara, Yardımlı, Lerik, Prişib(indiki Cəlilabad-tərtibçi) daxil idi.

## KİM NƏYİN FİKRİNDƏ İMİŞ

*2 yanvar 1919-cu il 77-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1."Yedinaya Rasiya"** – bitərəf siyasi-ictimai və ədəbi qəzet. 1918-1919-cu illərdə Bakıda nəşr olunub.

2. **"İskra"** – gündəlik ədəbi, ictimai, siyasi qəzet. RSDFP (menşevik) Bakı komitəsinin orqanı. 1918-ci il avqustun 13-dən 1920-ci il 28 aprel tarixinə qədər (rus dilində) nəşr olunmuşdur. Qəzet İ.Əbilovun redaktorluğu ilə çıxmışdı.

**3."Naşe vremya"** – Erməni Milli Komitəsinin qəzeti.

**4."Kaspi"** – ictimai, siyasi, ədəbi qəzet. 1881-ci ilin yanvarından 1919-cu ilin martınadək Bakıda rus dilində nəşr olunmuşdur. "Kaspi"nin yaradılması ideyası V.V.Kuzminə məxsus olsa da, ondan sonra müxtəlif vaxtlarda qəzetin redaktor və naşirləri Ə.Topçubaşov, H.B.Zərdabi Ə.B.Hüseynzadə və başqaları olmuşdur. 1897-ci ildə "Kaspi" qəzetini H.Z.Tağıyev almış və redaktorluğunu Əlimərdan bəy Topçubaşova həvalə etmişdi.

1918-ci ilin martında bolşevik-daşnak quldurlarının Azərbaycanlılara qarşı törətdiyi soyqırımı nəticəsində "Kaspi" qəzetinin mətbəəsi yandırılır.

**5.İ.Protasov** – Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının 19 noyqabr 1918-ci il qanununa əsasən "Slavyan-Rus" cəmiyyətindən parlamentin tərkibinə daxil edilmişdir.F.Xoyskinin təşkil etdiyi III kabinetdə maliyyə naziri (Slavyan-rus cəmiyyəti) olmuşdur.

**6.K.Lizqar** – (Konstantin Nikolayeviç 1882-1920). 1918-ci ilin martında "Slavyan-Rus" cəmiyyətini yaradanlardan biri və sədri olmuşdur. F.Xoyskinin təşkil etdiyi III kabinetdə ərzaq naziri (Slavyan-rus cəmiyyəti) vəzifəsini tutmuşdur. 1920-ci ilin may ayının 2-də XI Qırmızı ordunun xüsusi şöbəsi tərəfindən həbs edilmiş və mayın 15-də güllənmişdi.

BİR İLTİMAS MÜNASİBƏTİLƏ

*3 yanvar 1919-cu il 78-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

DÜŞMƏNLƏRİMİZİN FƏALİYYƏTİ

*7 yanvar 1919-cu il 81-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Vahid Rusiya** – Bakı rus milli komitəsindən ibarət idi. Rus hökumətinin siyasətini yeritməklə məşğul olurdu.

CƏMAƏT KÖMƏKLİYİ

*8 yanvar 1919-cu il 82-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Tərcüməsi:** Mənə sənin xeyrin lazım deyil, şər demə".

TƏƏSSÜRAT

*10 yanvar 1919-cu il 84-ci sayında Üzeyir imzası ilə.*

**1.Tərcüməsi:** "Mənə iki söz deməyə icazə verin.
Siz nə barədə
Üzvlərin ərizəsi haqqında"

**2.Kazımzadə Abbasqulu** – Azərbaycan milli azadlıq hərəkatının iştirakçısı, Azərbaycan Milli Şura Şurasının üzvü. 1911-ci ildə "Müsavat" partiyasının yaradanlardandır. "Müsavat" fraksiyası tərəfindən Azərbaycan parlamanın üzvü. M.Ə.Rəsulzadə ilə birlikdə Lahıca gedib. Onun yaxın dostu olub. Xüsusi kitab mağazası var imiş.

**3.Hacı Mirzə Səlim Axundzadə** – İctimai-siyasi xadim Axundzadə Hacı Səlim Mirzə İsmayıl Qasir oğlu (1872-1930) AXC-i parlamentinin üzvü olmuşdur. 1920-ci ildə məlum hadisələrdən sonra İrana köçmüş və orada müəllimlik etmişdir.

4. "Naləmi hər vasitə ilə gizlətmək istəyirəm
Qəlbim deyir ki, mən təngə gəldim, fəryad elə".

5. "Hamı Leylinin vəslinə çatmaq üçün ağlayır
Leyli isə onlara təsəlli vermir
Əgər göz yaşlarına baxsan



Onda məlum olar ki,
Kim ürəkdən, kim yalandan ağlayır.

**6.Əhməd Cövdət (1893-1938)** – Bakıda nəşr olunan "Açıq söz" qəzetinə Moskvadan bu imza ilə məqalələr göndərən Əhməd Cövdətin əsl familiyası Pepinovdur. O məşhur mollanəsrəddinçi və ictimai xadim Ömər Faiq Nemanzadənin bacısı oğludur. Ə.Cövdət AXC Nazirlər Şurasının sədri, N.Yusifbəylinin təşkil etdiyi II kabinədə (22.12.1919) əmək və torpaq naziri təyin olunmuşdur. 1938-ci ildə Ə.Cövdət Stalin repressiyasının qurbanı olub.

EHTİYAT LAZIMDIR

*15yanvar 1919-cu il 88-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Çurayev** – 1918-1919-cu illərdə Bakı fəhlə konfransı rəyasət heyətinin və Bakı həmkarlar şurasının üzvü.

**2."Bakinets"** – 1907-ci ilin sentyabr ayının 3-dən 1920-ci ilin aprelinə qədər Bakıda rus dilində çıxıb. Həftəlik ictimai, siyasi və ədəbi qəzet olan "Bakinets" 1918-ci il mart soyqırımından sonra bolşeviklər bir çox qəzetlər kimi bu qəzeti də bağladılar.

KNYAZ TUMANOV İLƏ MÜSAHİBƏ

*17 yanvar 1919-cu ildə 90-cı sayında "Ü". imzası ilə.*

TƏƏSSÜRAT

*21 yanvar 1919-cu il 93-cü sayında Üzeyir imzası ilə.*

**1.Vansoviç** – polyak, milli azlıqlar fraksiyasından parlamanın üzvü.

**2.Vinoqradov** – Azərbaycan Xalq Cümhuriyyətinin üzvü. Slavyan-rus cəmiyyətindən Cümhuriyyət parlamentinin tərkibinə daxil edilmişdir. Parlamentdə "Slavyan-rus ittifaqı" fraksiyasını təmsil edirdi.

**3.Abdulla bəy Əfəndiyev (Əfəndizadə, 1873-?)** – Maarif xadimi, tərcüməçi, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü.Bir neçə kitabın müəllifidir. O, Krılovdan, Lermantovdan tərcümələr etmişdir.

A.Əfəndiyevin ilk kitabına M.Ə.Rəsulzadə rəy vermişdir. Sol müstəqil partiyasından parlamanın üzvü.

4."O olmasın, bu olsun"da Həsənqulu bəy – Ü.Hacıbəylinin eyni adlı komediyasında tip.

## FİTNƏLƏR QARŞISINDA

*23 yanvar 1919-cu il 95-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Tərcüməsi:** "Əqrəbin neştəri ilə sancması onun kinindən deyil, təbiətən xasiyyəti budur".

## QARABAĞ HAQQINDA

*30 yanvar 1919-cu il 101-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Zəngəzur** – Azərbaycanın qədim mahalı, Mehri, Gorus, Qafan, Sisiyan,Qubadlı, Zəngilan, Laçın və Kəlbəcər rayonlarını əhatə edirdi. 1918-ci il 28 aprel tarixində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ermənilərin Zəngəzuru qopartmaq üçün daha da fəallaşır və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sora bunu həyata keçirməyə müvəffəq olurlar.Bundan sonra 1920-ci ilin sonlarında həyata keçirilən rayonlaşdırma zamanı həmin ərazilərdə rayonların adları erməniləşmiş və nəticədə də Zəngəzur bir tarixi vilayət kimi ləğv edilmişdir.

**2.Cavanşir uyezdi** – Azərbaycan Respublikasının indiki ərazisi XX əsrin əvvəllərində iki quberniya (Bakı və Yelizavetpol quberniyası) və bir neçə uyezdən ibarət idi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Cavanşir uyezdi indiki Füzuli, Ağcabədi və b. rayonların ərazisini əhatə edirdi. 1873-cü il qanununa əsasən təşkil edilmiş, mərkəzi Tərtər olmuşdur. Çarizmin devrilməsindən sonra ermənilər qəzada möhkəmlənmək üçün Azərbaycanlılara qarşı soyqırıma başlamaq istəyirdilər. Lakin AXC hökumətinin ciddi səyləri nəticəsində bunun qarşısı alındı. Yalnız AXC-nin süqutundan sonra respublikanın rayonlaşdırılması ilə əlaqədar Cavanşir qəzası 1929-cu ildə ləğv edildi.

**3.Ararat hökuməti** – Ermənistan hökuməti nəzərdə tutulur.



## TƏƏSSÜRAT

*10 fevral 1919-cu il 110-cu sayında Üzeyir imzası ilə.*

**1.İttifaq fraksiyası** – 1905-ci ilin noyabrında Bakıda yaradılmış təşkilat idi. "İttifaq"ın fəal xadimləri Şərifzadə, Cuvarlinski, Məlikov və başqaları idi. 1906-cı ilin axırında fəaliyyəti dayanmışdı.

**2Ağa Əlizadə** – Ağa Cavad oğlu Əlizadə (1871-1954) maarifçi ruhani və ictimai xadim. O dövrünün tanınmış din xadimlərindən idi. 1918-ci ildə AXC-nın yaranmasından sonra Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri, eyni zamanda, Şeyxülislam seçilmişdir.

1920-ci il aprel inqilabından sonra təqiblərə məruz qalmışdı. O, 1944-cü ildə QMRİ-i bərpa olanarkən yenidən Şeyxülislam seçilir.

**3.Tərcüməsi:**

Əgər zərurət vaxtı qalmayanda qaç,
Və əlinlə iti qılıncdan tut.

## ÜZƏRİMİZDƏKİ QARA BULUDLAR

*12 fevral 1919-cu il 112-ci sayında Hacıbəyli Üzeyir imzası ilə*

**1.Soçi** – Krosnadarda şəhər. Böyük Qafqaz dağlarının ətəklərində yerləşir.

**2."Dobrovolçiski armiya"**– Könüllü ordu, Denikin ordusu – 1917-ci il Rusiyada Oktyabr çevrişindən sonra ölkənin cənubunda sovet-bolşevik rejiminə "qırmızılar"a qarşı mübarizə məqsədilə yaradılmış hərbi birləşmə.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Könüllü ordu ilə bağlı çətinlikləri isə 1920-ci ilin əvvəllərinədək davam edib.

## BAŞLANIR

*13 fevral 1919-cu il 113-cü sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Xosrov bəy Sultanov (1879-1947)** – Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət və siyasi xadimi, milli azadlıq hərəkatının fəal iştirakçısı.

**2.Pənah xan (1693-1760)** – Qarabağ xanlığının bünövrəsini qoymuşdu. 1750-ci ildə Pənahabad qalasının əsasını qoymuş və sonralar Şuşa və yaxud Şuşa qalası adlanmışdı.

**3.İbrahim xan (1760-1806)** – Qarabağ xanı İbrahimxəlil xan Pənah xanın oğlu olmuş, 46 il hökmdarlıq etmişdi. 14 may 1805-ci ildə Qarabağ xanlığının Rusiya tərkibinə daxil edilməsi üçün müqaviləyə qol çəkmişdi. Bunun nəticəsində I Aleksandr onu general-leytenant rütbəsi ilə mükafatlandırmışdır.

4.**Mehdiqulu xan** 1828-ci ildə Rus hökumətinin icazəsi ilə vətəninə qayıtmış və ömrünün sonuna qədər Şuşada yaşamışdır. Rus ordusunun general-mayor rütbəsini alıb. Məşhur şairə Xurşudbanu Natəvanın atasıdır.

**5.Paris Konfransı** I dünya müharibəsi qurtardıqdan sonra yaranıb ki, orada müxtəlif avropalı ictimai-siyasi problemlər, həmçinin Almaniyanın şikəst olması ilə əlaqədar olaraq ərazi, təzminat, müharibə əsirlərinin məsələləri müzakirə olunurdu. Həmin konfransda AXC-ın nümayəndələrinə məclisin sədri Ə.Topçubaşov başçılıq edirdi.

## NƏ İLƏ SAKİT OLA BİLƏRİK

*20 fevral 1919-cu il 118-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Salyan qışlaları** indiki Tbilisi prospektində yerləşən hərbi hissədir.

**2.Prjevalski** – Rus hərbi xadimi, "Könüllü ordu"nun komandanı, general. 1917-ci ilin iyunundan Qafqaz cəbhəsi qoşunlarının baş komandanı olub. Türkiyə ilə sülh bağlanmasında iştirak edib. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti N.Prjevalskinin bütün qərərgahı ilə birlikdə Bakı şəhərindən çıxarmışdır.

**3.** Dolu olduğu üçün Babildən keçmək olmur,
Babili(akasiya növü) çeşmə başından götürəm gərək

**4.** Hadisənin əsası ona qədərki hadisələrdən asılı olmalıdır

## YENİ BÖHRAN

*28 fevral 1919-cu il 125-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

1. Dənizlərin dalğasından nə qorxusu ola bilər ki,
Onun gəmisini Nuh (peyğəmbər) idarə edir.



## TƏƏSSÜRAT

*5 mart 1919-cu il 129-cu sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Denikin** – Anton İvanoviç (1872-1947) ağqvardiyaçı hərəkatının başçılarından biri. Cənubi Rusiya Silahlı qüvvələrinin komandanı. 1917-ci il Oktyabr çevrilişindən sonra sovet hakimiyyətinə qarşı mübarizə aparmış hərbi qüvvələrin başçılarından biri, general-leytenant.

1920-ci ilin mart ayında Könüllü ordu məğlub edildikdən sonra Krıma getmiş. Komandanlığı Vrangelə təhvil verib, xaricə mühacirət etmişdir.

2.Boşluğ olduğundan miras olmadı.

## GETSİNLƏR GƏLMƏSİNLƏR

*6 mart 1919-cu il 130-cu sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Biçeraxov Lazar Fyodoroviç (1882-1934)** – Çar ordusunda kazak qoşunları polkovniki olub. Oktyabr çevrilişindən sonra ingilislər tərəfə xidmətə keçib. İngilislər Biçeraxovun tabeliyində olan 1500 nəfər kazak dəstəsilə Bakını ələ keçirmək üçün istifadə edib.1919-cu ildə İngiltərəyə mühacirət edib.

## DAĞISTANA KÖMƏK

*9 mart 1919-cu il 132-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

## DÜZ YOL

*10 mart 1919-cu il 133-cü il sayında Hacıbəyli Üzeyir imzası ilə*

## RUS İNQİLABİ-KƏBİRİ

*12 mart 1919-cu il 135-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1. Lenin** – Vladimir İliç (Ulyanov) (1870-1924) romanovlar sülaləsinə son qoymuş, bolşeviklərin rəhbəri.

**2.İdil** – qədim adı Ra, orta əsrlərdə isə İtil-Etel, hal-hazırda Volqa çayı adlanır.

**2.Qərim** – Krım deməkdir.

MÜAMİLATİMİZƏ AİD

*16 mart 1919-ci il 137-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

YARAŞMAZ HƏRƏKƏTLƏR

*18 mart 1919-cu il 139-cu sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1. Axsxa** – Gürcüstanda vilayətdir

**2.Azğur** – Acariya respublikası nəzərdə tutulur. Həmən dövrdə Gürcüstanın tərkibində olan respublika.

**3.Faiq Əfəndi** – Ömər Faiq Nemanzadə (1872-1937) publisisti, maarifçi, ictimai xadim. İctimai-siyasi xadim Əhməd Pepinovun dayısıdır. 1927-ci ildə təqaüdə çıxmasına baxmayaraq qoca və xəstə Ömər Faiq 1937-ci ildə Gürcüstanda Stalin repressiyasına məruz qalaraq həmin ilin oktyabr ayında güllələnməyə məhkum olunur.

YENİ KABİNƏ TƏŞKİLİNƏ DAİR

*19 mart 1919-cu il 140-cı sayında Hacıbəyli Üzeyir imzası ilə.*

1."Azərbaycan" qəzetinin 28 fevral 1919-cu il 125-ci sayında Hacıbəyli Üzeyir imzası ilə "Yeni böhran" məqaləsi çap olunub.

**2.Həsən bəy – (1875-1920)** Həsən bəy Ağayev Azərbaycan parlamentinin sədrinin birinci müavini, "Müsavat" partiyasının üzvü, həkim, jurnalist, 1920-ci ilin iyun ayında Tiflisdə erməni terrorçusu tərəfindən öldürülüb. O, M.F.Axundovun qəbrinin yanında basdırılıb.

**3.Nəsib bəy Yusifbəyli (1881-1920)** – N.Yusifbəyli 1918-ci il mayın 28-də AXC elan olunandan sonra F.Xoyskinin Baş Nazir olduğu kabinədə



Xalq Maarif naziri vəzifəsini icra edib. 1919-cu il aprelin 14-də Azərbaycan Respublikası Nazirlər Şurasının sədri təyin olunmuş və 1920-ci ilin aprelin 1-nə qədər həmin vəzifəni icra etmişdi. N.Yusifbəyli 1920-ci ildə Gürcüstan və Azərbaycan sərhədində erməni terrorçusu Aram Yevkanyan tərəfindən qətlə yetirilmişdir.

**4.Məşhur fars şairi Hafiz Şirazi (1325-1389)** nəzərdə tutulur.

**5.Tərcüməsi:** "Dostluqda mərd olsan, düşmənin olmaz".

**6.Krılov İvan Andreyeviç (1769-1844)** – rus yazıçısı, təmsilçisi, jurnalisti.

CİDALAR GÖRÜNÜR

*26 mart 1919-cu il 143-cü il sayında Hacıbəyli Üzeyir imzası ilə.*

ORDUMUZ

*28 mart 1919-cu il 145-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Səməd bəy Mehmandarov (1855-1931)** – Görkəmli hərbi sərkərdə, tam artilleriya generalı S.Mehmandarov 1918-ci il dekabr ayında AXC-də Hərbi nazir olmuşdu.. S.Mehmandarov 1931-ci ildə Bakıda vəfat etmişdi.

**2.Port-Artur** – Çar Rusiyasının Uzaq Şərqdə hərbi limanı idi. İndi Çin Xalq Respublikasında şəhərdir. Qeyd etmək lazımdır ki, Azərbaycan sərkərdələri S.Mehmandarov və Ə.Şıxlinski Port-Arturun müdafiəsində fəal iştirak ediblər.

**3.Türk xalqının milli bayramı.** "Yeni gün" deməkdir.

31 MART

*31 mart 1919-cu il 147 sayında Hacıbəyli Üzeyir imzası ilə.*

1. Eşitdim böyük qoyun canavarın
Əlindən, ağzından qurtuldu
Gecələr ki, bıçaq boğaza sürtülür
Qoyun onun əlindən nalə çəkir
Canavar kuşədən çıxmışdı
Gördüm ki, canavarın aqibəti sənsən

## ZAQATALA MƏSƏLƏSİ

*3 aprel 1919-cu il 149-cu sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1. "Qruziya"** – Gürcü millətçilərin qəzeti

2.Kiçikxanov – Azərbaycan milli azadlıq hərəkatının iştirakçısı "Əhrar" fraqsiyasından Kiçikxanlı Bayram Niyazi Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur.

## CİDDİ HƏRƏKƏT LAZIMDIR

*4 aprel 1919-cu il 150-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Rəşid bəy Axundzadə** – Azərbaycan milli azadlıq hərəatının iştirakçılardan biri. AXC-nin üzvü. 1919-cu ilin fevral ayının 5-dən Bakı qubernatoru təyin edilmişdir.

## ƏGRİ YOL

*10 aprel 1919-cu il 154-cü sayında Hacıbəyli Üzeyir imzası ilə.*

## KİRİMİYORLƏR

*14aprel 1919-cu il 157-ci sayında Hacıbəyli Üzeyir imzası ilə*

## YENİ KABİNƏ

*16 aprel 1919-cu il 158-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1. "Əhrar"** – ("Azadlıqsevər") siyasi partiya. "Əhrar"ın təşkilatçıları və rəhbərləri əsasən Şəki və Ağdaş qəzalarının bəy və xanları idi. Azərbaycanda 1918-ci ildə yaradılmış, sədri Aslan bəy Qardaşov idi. "Müsavat" partiyasında əhrarçıların 6 yeri var idi.XI Qırmızı ordu Bakıya daxil olduqdan sonra siyasi partiyalar buraxıldı nvə bununla da "Əhrar" partiyasının da fəaliyyətinə son qoyuldu.



## DAĞISTANA İMDAD

*23 aprel 1919-cu il 164-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

## ZAQAFQASİYA KONFRANSINA DAİR

*24 aprel 1919-cu il 165-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1. "Arbitraj"** – Mübahisəni həll etmək üçün üsul.Tərəflər məhkəməyə yox, arbitrlərə müraciət edirlər. Onları tərəflər özü seçir.

## DÖRDGÖZ OLMALIYIQ

*28 aprel 1919-cu il 166-cı sayında Hacıbəyli Üzeyir imzası ilə.*

## DAĞISTAN VƏ BİZ

*2 may 1919-cu il 171-ci sayında Ü.Hacıbəyli imzası ilə.*

**1.Petrovsk** – Port Maxaçqala şəhərinin (Dağıstan Respublikası) keçmiş (1857-1922) adı.

**2.Ters obl.** – Tersk vilayəti. 1918-ci ildə ildə Pyatiqorskinin II qurultayında Rusiyanın tərkib hissəsi kimi ora daxil edilib. Burada Sovet hakimiyyəti 1920-ci ildə yarandı və qabardinlər, balkarlar, çeçenlər, inquş xalqları və Terek kazakları bu tərkibə daxil oldu.

**3.Nazran** – İnquşiyanın paytaxtı.

**4.Qroznı** – Çeçenistan Respublikasının paytaxtı.

**5.Timurxan-Şura** – Dağıstan Muxtar Respublikasında Buynaksk şəhərinin 1922-ci ilə qədər adı.

EYNİ MÜAMİLƏ GÖZLƏYİRİK

*5 may 1919-cu il 172-ci sayında Üzeyir Hacıbəyli imzası ilə.*

**1.Şatulvert** – Sənədlərə əsasən D. Şatelvorq Bakı şəhərində yerləşən müttəfiq qoşunların komandanı, general. Şatelvorq 3 aprel 1919-cu il tarixli bəyanatı ilə Xosrov Paşa bəy Sultanovun Qarabağın general-qubernatoru vəzifəsinə təyinatını tanımışdır.

**2.Qars** – Türkiyənin şimal-şərqində şəhər. 1828-ci ildə şəhəri rus ordusu hücumla almışdı. 1921-ci ildəki Qars müqaviləsinə görə Türkiyənin tərkibinə daxil edilmişdi.

NƏ İSTİYORLƏR

*7 may 1919-cu il 174-cü sayında Ü.Hacıbəyli imzası ilə.*

BAYRAĞIMIZ SARSILMAZ

*8 may 1919-cu il 175-ci ilin sayında "Ü" imzası ilə.*

SİYASİ İMTAHAN

*11 may 1919-cu il 177-ci sayında Ü.Hacıbəyli imzası ilə.*

**1.Anaşkin İvan İvanoviç** (1880-1938) – 1917-ci ildən RSDFP-nin üzvü, 1928-ci ildən Azərbaycanda müxtəlif vəzifələrdə çalışmışdır.

**2.Mikoyan** – Anastas İvanoviç (1895-1975) Azərbaycanda 1920-ci il aprel çevrilişinin başçılarından.

XATİMƏ

*15 may 1919-cu il 181-ci sayında Ü.Hacıbəyli imzası ilə.*



SİYASİYAT

*17 may 1919-cu il 183-cü sayında Hacıbəyli Üzeyir imzası ilə.*

İNDİ BAŞA DÜŞÜRLƏR

*May 1919-cu il 184-cü sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Ağamalıoğlu** – Ağamalov Səmədağa Həsən oğlu (1867-1930) 1920-ci ildən Sov.İKP-nin üzvüdür. Müsavat parlamentində sosialist fraksiyasının üzvü, 1927-ci ildə yaradılmış Ümumittifaq Yeni Türk Əlifba komitəsinin sədri, Azərbaycanda və Sovet Şərqinin digər respublikalarında yeni latın əlifbasının keçilməsinə rəhbərlik etmişdir.

**2. "Zarya"** – gündəlik ictimai-siyasi və ədəbi qəzet. Müsəlman sosialistlərinin orqanı. 1919-cu ildə Bakıda nəşr edilirdi.

**3.Əbilov** – İbrahim Məhərrəm oğlu (1882-1923) Sovet Azərbaycanının ilk diplomatlarından biri.

NAXÇIVAN VƏ QARABAĞ

*25 may 1919-cu il 187-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Şərur** – Naxçıvan MR-da rayon

2.Kəlbəlixan Naxçıvanski (nəvə) – Azərbaycanın ordusunda podpolkovnik rütbəsinə qədər xidmət edib.

**3.Cəfərqulu xan Naxçıvanski** – ( ) görkəmli siyasi-ictimai xadim C.Naxçıvanski Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində və onu fəaliyyətinin ilk çağlarında Naxçıvan Milli Komitəsinin sədri kimi bölgənin erməni təcavüzündən, əhalinin daşnakların törətdiyi qırğınların xilasından qəhrəmanlıqlar göstərib.

1920-ci ildə məlum hadisələrdən sonra sovet hökuməti tərəfindən təqib olunmuş, "qardaş qırğınların təşkilatçısı", "antisovet-sovet" damğaları ilə həmin ilin avqust ayında Naxçıvan İnqilab Komitəsi tərəfindən həbs edilmişdi. Həbs olunmasına etiraz olaraq haqsız yerə repressiyaya məruz qaldığını ərizə ilə Müvəqqəti İnqilab Komitəsinə müraciət etməsinə baxmayaraq, azadlığa buraxılmamış və Şuşa həbsxanasına göndərilmiş və orada da vəfat etmişdir.

DƏRBƏND ƏHVALATI

*26 may 1919-cu il 188-ci sayında Ü.H. imzası ilə.*

**1.Dərbənd** – Qədim Azərbaycan şəhərlərindən biri.1919-cu ilin may ayında Dərbənd Denikin ordusunun işğalına məruz qaldı. 1920-ci ilin mart ayında Qırmızı ordunun köməyilə Dərbənddə sovet hakimiyyəti elan olundu. 1921-ci ildə yaradılmış Dağıstan Muxtar Sovet Sosialist Respublikasının tərkibinə daxil oldu. Bununla da Azərbaycanın inzibati-ərazisindən alınaraq Rusiyayanın tərkibinə qatıldı. .

**2.Petrovski** – Mahaçqala şəhərinin (1857-1922) adı.

BİR YAŞ

*28 may 1919-cu il 190-cı sayında Hacıbəyli Üzeyir imzası ilə.*

ŞİMALIMIZIN HALI

*2 iyun 1919-cu il 193-cü sayında Hacıbəyli Üzeyir imzası ilə.*

1.Şamil – Şeyx Şamil (1794–1871) Dağıstan və Çeçenistanda çar müstəmləkəçilərinə qarşı mübarizənin rəhbə-ri, İmam.

QARA TƏHLÜKƏ

*8 iyun 1919-cu il 198-ci sayında Haçıbəyli Üzeyir imzası ilə.*

İÇİMİZDƏKİ DENİKİNLƏR

*15 iyun 1919-cu il 200-cü sayında Hacıbəyli Üzeyir imzası ilə*



BIR MÜNASİBƏTLƏ

*18 iyun 1919-cu il 207-ci sayında Hacıbəyli Üzeyir imzası ilə*

**1.Malxazyan** – Arşaq Malxazyan "Daşnaksütyun" fraksiyasından parlamentin üzvü.

MACƏRACULIQ

*20 iyun 1919-cu il 209-cu sayında Üzeyir Hacıbəyli imzası ilə*

QARABAĞ HADİSATI

*24 iyun 1919-cu il 210-cu sayında Hacıbəyli Üzeyir imzası ilə.*

"SƏDDİ-İSGƏNDƏR"

*26 iyun 1919-cu il 212-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

MÜVƏFFƏQİYYƏTLƏRİMİZ

*2 sentyabr 1919-cu il 266-cı sayında hacıbəyli Üzeyir imzası ilə*

YERSİZ ÇIXIŞ

*3 sentyabr 1919-cü il 267-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1. Mirzoyan** – Levon İsayeviç (1897-1939) sovet partiya və dövlət xadimi, 1917-ci ildən komminist partiyasının üzvü, 1925-1929-cu illərdə Azərbaycan K(b)P MK-nın katibi olarkən A.İ.Mikoyan başda olmaqla ermənilərlə birgə azərbaycanlılara qarşı genosid siyasəti aparmışdır.

2. Mən səndən bir xeyir gözləmirəm, ziyan vermə

## MƏMURLARIMIZ HAQQINDA

*5 sentyabr 1919-cu il 269-cu sayında Hacıbəyli Üzeyir imzası ilə*

## KONTRAST

*11 sentyabr 1919-cu il 271-ci sayında Hacıbəyli Üzeyir imzası ilə*

## GENƏ BAŞLANIR

*14 sentyabr 1919-cu il 273-cü sayında Hacıbəyli Üzeyir imzası ilə*

## QURTULUŞ

*15 Sentyabr 1919-cu il 274-cü sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Ə.Cavad** – Axundzadə Əhməd Cavad (1892-1938) şair, müəllim, ictimai xadimi, Balkan və I dünya müharibəsi zamanı üc dəfə nümayəndə heyəti tətkibində Türkiyəyə getmişdi. Azərbaycan Xalq Cümhuriyyəti himninin sözlərinin müəllifi. Ə.Cavad ilk dəfə 1923-cü ildə həbs olunmuşdu. Şair ikinci dəfə 1925-ci ildə "Göy-göl" şerinə görə həbs edilir. Sonuncu üçüncü dəfə isə repressiyanın qurbanı olmuşdu. Ondan sonra həyat yoldaşı və dörd oğlu həbs edilmişdir. Həbs edilən ən kiçik oğlu Yılmazın yaş yarımı olub.

## MİLLİLƏŞMƏK

*21 sentyabr 1919-cu il 278-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

## MİRALAY HASKELİN TƏKLİFİ

*22 sentyabr 1919-cu il 279-cu sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Miralay Haskel** – Paris konfransanın ali komissarı.



## KABİNƏ TƏŞKİLİNƏ AİD

*23sentyabr 1919-cu il 280-ci sayında Hacıbəyli Üzeyir imzası ilə*

**1.Ağa Əminov** – Ağakərim Məşədi Kərim oğlu(1888-1921) siyasi və dövlət xadimi. "Müsavat" partiyasının 1917-ci ildə keçirilmiş I qurultayında fəal iştirak edib. O həmçinin Müsəlman Zəhmətkeş Ziyalıları İttifaqının keçirilməsində də xüsusi rolu var.
Aprel işğalından sonra "Azərneft" sistemində işləmişdir.

## DAĞISTAN HAQQINDA

*24 sentyabr 1919-cu il 281-ci sayında Hacıbəyli Üzeyir imzası ilə*

## DAXİLİ İŞLƏRMİZDƏN

*25 sentyabr 1919-cu il 282-ci sayında Hacıbəyli Üzeyir imzası ilə*

## NƏYƏ ÇALIŞALIM

*29 sentyabr 1919-cu il 285-ci sayında Hacıbəyli Üzeyir imzası ilə*

## MÜHÜM MƏSƏLƏ

*6 oktyabr 1919-cu il 288-ci sayında Hacıbəyli Üzeyir imzası ilə*

**1. "Dağılan tifaq"** – İctimai-xadim, görkəmli yazıçı və dramaturq Əbdürrəhim bəy Haqverdiyevin (1870-1933) 1896-cı ildə qələmə aldığı əsərdir.
**2.Qolçomaq** – kənd burjuaziyası deməkdir. Bolşeviklər qanuni hökuməti devirdikdən sonra ayrı-ayrı yerlərdə "təmizlik" işlər aparmaq adı ilə nəinki varlı təbəqələri, hətta bir neçə heyvanı olanların da malını alıb özlərini də qolçomaq adı altında həbs edib gülləyir, yaxud da Sibirin şaxtalı çöllərinə davam gətirməyib məhv olurdular.

## RUSİYA ƏHVALI

*9 oktyabr 1919-cu il 291-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Kolçak** – Aleksandr Vasilyeviç (1874-1920) rusiyada çevriliş əleyhinə gedənlərin rəhbəri, admiral.
**2.Antanta** – İngiltərə, Fransa və Rusiyanın ("Üçlər sazişi") Almaniya, Avstriya-Macarıstan və İtaliyaya (Üçlər ittifaqı) qarşı 1904-1907-ci illərdə yaratdıqları blok.
**3.Spartak** – Alman sosial-demokratlarının inqilabi təşkilatı. Əsası 1918-ci il noyabrın 11-də Berlin müşavirəsində qoyulub. 1918-ci il dekabrın sonunda spartakçıların və radikalların ümumalmaniya konfransında Almaniya Komminist Partiyası yarandı.
**4.Tərcüməçi:** "Hər tərəfdə öldürülsə, islamın xeyrinədir".

## SƏMİMİYYƏT LAZIM

*12 oktyabr 1919-cu il 293-cü sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1."Araç" (İrəli)** – Həftəlik ictimai-siyasi qəzet (erməni dilində) 1917-ci ildə Bakıda nəşr olunurdu.
**2.Vedi** – Ararat rayonu.
**3.Sürməli** – İrəvan quberniyasında qəza.
**4.Xantəkinski Məmməd** – AXC Xarici işlər nazirinin müavini olub.

## NABEMÖVSÜM SEVİNCLƏR

*13 oktyabr 1919-cu il 294-cü sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1."Qolos Rasiya"** – Gündəlik ictimai-siyasi və ədəbi qəzet. 1919-1920-ci illərdə Bakıda nəşr olunub.
**2."Ruskiy den"** – 1919-cu ildən nəşr olunur. Redaktoru M.M. Vişnevskaya olub.
**3.Petroqrad** – indiki Sankt-Peterburq şəhəri.



## ERMƏNİ-GÜRCÜ MÜNASİBƏTİ

*14 oktyabr 1919-cu il 295-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1."Obnavleniya"** – gürcü qəzeti
**2."Saqartvelo"** – gürcü qəzeti
**3."Ertuba "**– gürcü menşevik qəzeti

## İKİ SİYASƏT

*16 oktyabr 1919-cu ildə 297-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1. "Tan"** – Fransa Xarici İşlər Nazirliyinin rəsmi qəzeti.

## ERMƏNİSTAN VƏ AZƏRBAYCAN MÜNASİBƏTİ

*17 oktyabr 1919-cu il 298-ci sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1."Slovo"** – erməni qəzeti, Tiflisdə rus dilində nəşr olunub.

## İSTİQLAL MÜDAFİƏSİ ÜÇÜN

*19 oktyabr 1919-cu il 299-cu sayında Hacıbəyli Üzeyir imzası ilə.*

**1.Finder Qolç** – alman generalı
**2.Tərcüməsi:** "Hadisə baş verməmişdən öncə qarşısını alasan."

## "CORCİƏN MEİL"İN MƏQALƏSİ

*21 oktyabr 1919-cu il 301-ci sayında "H.Ü." imzası ilə.*

**1.Hayastan kəbir** – böyük Ermənistan
2.Misir Əirəb Respublikasının paytaxtı
**3.Hayastan aşxatavur** – zəhmətkeş Ermənistan

BİR SUAL MÜNASİBƏTİLƏ

*22 oktyabr 1919-cu il 302-ci sayında Hacıbəyli Üzeyir imzası ilə .*

BÖHRAN DOLAYİSİLƏ

*26 oktyabr 1919-cu il 305-ci sayında Hacıbəyli Ü. imzası ilə.*

**1."Daşnak"** – "Daşnaksutyun" – "İttifaq"erməni burjua-millətçi partiyasının üzvlərinə deyilir. 1890-cı ildə Tiflisdə yaradılıb. Onlar "Böyük Ermənistan" yaradılması adı ilə avantürist ideya irəli sürürlər. Yeri gələndə özlərini məzlum bir xalq kimi verməyi də bacarırlar. Bu "məzlumlar"ın sayəsində yüz minlərlə azəri türkləri vəhşicəsinə qətlə yetirilmişdir. Hal-hazırda Ermənistandan əlavə dünyanın bir çox ölkəsində bu partiyanın dayağları vardır.

MƏMLƏKƏTİMİZİN HALI NASILDIR?

*27 oktyabr 1919-cu il 306-cı sayında "Ü.H." imzası ilə*

ƏSASSIZ TƏLƏB

*30 oktyabr 1919-cu il 309-cu sayında Ü.Hacıbəyli imzası ilə.*

**1. Türkmənçay müahidəsi** – 1828-ci il fevral ayının 10-da (22) Rusiya ilə İran arasında Təbriz yaxınlığındakı Türkmənçay kəndində bağlanmışdır.

**2.Gülüstan müahidəsi** – 1813-cü ilin oktyabrın 24-də (noyabrın 9-da) Gülüstan kəndində Rusiya ilə İran arasında bağlanmışdır.

GÜRCÜSTANDAKI HƏVADİS

*2 noyabr 1919-cu il 311-ci sayında Üzeyir Hacıbəyli imzası ilə*



QOMŞULUQ

*5 noyabr 1919-cu il 314-cü sayında Üzeyir Hacıbəyli imzası ilə.*

ÇÖRƏK BAHALANMASI

*7 noyabr 1919-cu il 316-ci sayında Ü.Hacıəbəyli imzası ilə.*

BÖHRAN DOLAYSİLƏ

*11 noyabr 1919-cu il 319-cu sayında Üzeyir Hacıbəyli imzası ilə*

MƏCBURİ QƏRARDAD HAQQINDA

*21 noyabr 1919-cu il 327-ci sayında "Ü.H." imzası ilə.*

**1.Murad Gəray bəy Tlexas** – (1874-1920) Azərbaycan Xalq Cümhuriyyəti ordusunun general-mayoru. Əslən çərkəzdir. O, AXC hökuməti tərəfindən general-mayor rütbəsinə layiq görülmüş ilk zabitlərdindir. Bakı möhkəmləndirilmiş rayonun hərbi general-qubernatoru olmuşdur.

1920-ci il inqilabından sonra həbs olunan Tlexas bolşevik Əli Bayramovun qətlində ittiham olunaraq ölümə məhkum edildi.

**2."Buğda yeməyənlər cənnətdən qovulmazlar"** – deyilənə görə Adəm və Həvva buğda yediklərinə görə Allahın əmri ilə cənnətdən qovulmuşlar.

BU GÜN

*2 dekabr 1919-cu il 335-ci sayında Ü.Hacıbəyli imzası ilə.*

1.Süryani təqvimilə dekabra uyğun gələn birinci ay.
2.Zaqafqaziya.

ŞAYİƏLƏR MÜNASİBƏTİLƏ

*5 dekabr 1919-cu il 338-ci sayında "Ü.H." imzası ilə.*

## YENİ KABİNƏ

*24 dekabr 1919-cu il 352-ci sayında Ü.Hacıbəyli imzası ilə.*

**1.Xudadat bəy Məlik-Aslanov (1879-1935)** – Məşhur alim, ixtiraçı-mühəndis. 1918-ci il aprel ayının 26-da yaranmış Zaqafqaziya Federativ Respublikası hökumətində Dəmiryol Nəqliyyatı naziri və Poçt-teleqraf naziri olmuşdu. Xudadat bəy 1934-cü il avqust ayında əsassız tutulmuş və 1935-ci ilin iyununda vəfat etmişdi.

**2.Məhəmməd Həsən Hacinski (1875-1931)** – 26-31 oktyabr 1917-ci ildə "Müsavat"ın birinci qurultayında Mərkəzi Komitənin üzvü seçilmişdir. Həmin ilin noyabrın 15-də yaranmış Zaqafqaziya kommisarlığında Ticarət və Sənaye komissarının müavini, seymin üzvü, 1918-ci il mayın 28-də AXC elan olunandan sonra Hacınski müxtəlif vaxtlarda bir çox vəzifələrdə işləmişdir.

Ziddiyyətli həyat yolu keçmiş Hacınski Lavrenti Beriyanın göstərişi ilə həbs edilmiş və 1931-ci ldə Tiflis həbsxanasında həlak olmuşdur.

**3.Xəlil bəy Xasməmmədov (1873-1947)** – Xəlil bəy Hacıbaba oğlu Xasməmmədov AXC-nin görkəmli siyasi və dövlət xadimlərindən biri idi. F.Xoyski və N.Yusifbəylinin təşkil etdiyi kabinələrdə Ədliyyə naziri, Daxili İşlər naziri və s. vəzifələrdə işləmişdir.

**4.Həmid bəy Şaxtaxtlı Ağa Xəlil oğlu (1880-1943)** – 1918-ci il mayın 28-də AXC elan olunandan sonra bitərəf F.Xoyskinin təşkil etdiyi II və III hökumət kabinələrində Maarif nazirinin müavini vəzifəsini icra etmişdi.

1941-ci ildə həbs edilib, 1943-cü ildə Stalin repressiyasının qurbanı olaraq Arxangelskidə həlak olmuşdur.

**5.Cəmo bəy Hacınski Süleyman oğlu (1888-1942)** – Görkəmli ictimai-siyasi xadim Mehdi bəy Hacınskinin (1879-1941) kiçik qardaşı. 1918-ci ildə AXC elan olandan sonra müxtəlif vəzifələrdə çalışmışdır. 1938-ci ildə həbs olunmuş və 1942-ci ildə Kirov vilayətinin Vyatka konslagerində həlak olmuşdur.

6.Don-Kixot–Böyük İspan yazıçısı Servantesin (1547-1616) əsəri və qəhrəmanı. Don Kixot obrazı umumbəşəri mahiyyətr kəsb etmiş, cəsur, xeyirxah, lakin real gerçəklikdən, həyatdan uzaq, xəyalpərəst insan rəmzinə çevrilmişdir.

**7.Keşiş Kravçenko** – Vasili ata ( ) 1919-cu ildə Azərbaycan departamentində "Slavyan-Rus" cəmiyyətinin fraksiya üzvü.



# FELYETONLAR

## ORDAN-BURDAN

*29 oktyabr 1918-ci il 25-ci sayında "Flankəs" imzası ilə.*

**1.Əbdüləli bəy Şirəli bəy oğlu Əmircanov (1870-1948)** – F.Xoyskinin təşkil etdiyi II hökumət kabinəsində Maliyyə naziri təyin olunub.

**2.Aşurov** – Ağa Hacı Aslan oğlu Aşurov (1880-1936) görkəmli ictimai-siyasi və dövlət xadim olmuşdur. Almaniyada təhsil alıb. F.Xoyskinin təşkil etdiyi kabinələrdə müxtəlif nazirliklərə başçılıq edib. Aşurov 27 aprel 1920-ci ildə bolşeviklərin hakimiyyətinə təslim etmək tələbini əleyhinə səs verən yeganə şəxs olub.

**3.Tərcüməsi:**

"Bulud, külək, ay, günəş və kainat öz işlərindədilər
Ta son loxma çörək tapıb gətirəsən və qəflətdə yeməyəsən".

## ORDAN-BURDAN

*16 noyabr 1918-ci il, 41-ci sayında "Flankəs" imzası ilə.*

## ORDAN-BURDAN

*18 noyabr 1918-ci il 43-cü sayında "Flankəs" imzası ilə.*

1.Bu misralar böyük türk şairi Tofiq Fikrətin "Millət şərqisi" şerindəndir.

## ORDAN-BURDAN

*7 yanvar 1919-cu il 81-ci sayında "Flankəs" imzası ilə.*

ORDAN-BURDAN

*9 yanvar 1919-cu il 83-cü sayında "Flankəs" imzası ilə*

**1.Tərcüməsi:** "Adət ikinci xasiyyətdir"
**2.Tərcüməsi:** "Türk adəti xəstəliyin səvabıdır"

ORDAN-BURDAN

*15 yanvar 1919-cu il 88-ci sayında "Flankəs" imzası ilə.*

ORDAN-BURDAN

*20 yanvar 1919-cu il 92-ci sayında "Filankəs" imzası ilə.*

**1.Həccinqəbul** – Hacıqabul Azərbaycanda bölgə
**2.Parunıyan** – Arşak Parunıyan- Bakı erməni şurası tərəfindən parlamana seçilib.

SURNA

*25 mart 1920-ci il 59-cu sayında "ÇI" imzası ilə.*

1.Ü.Hacıbəyli bu imza ilə yalnız "Azərbaycan" qəzetində istifadə etmişdi.

SURNA

*14 aprel 1920-ci il 74-cü sayında "ÇI" imzası ilə.*

1.Seyfül Malik – İlk mənşəyini "Leyli və Məcnun" kimi ərəb tarixi və ərəb ədəbiyyatından almış şərqdə geniş yayılaraq ayrı-ayrı variantlarda müxtəlif dillərə, həmçinin Azərbaycan dilinə tərcümə edilmiş "Seyfül-mülk" dastanı islamiyyətdən əvvəl yaşamış Yəmən hökmdarı Seyf bin Zi Yəzənin prototipi əsasında yaranmışdır.



SURNA

*15 aprel 1920-ci il 75-ci sayında "ÇI" imzası ilə.*

**1.Tərcüməsi: "**O, Qafqaz arağı bizim ürəyimizi ələ alar,
Onun gürcü xalına bütün Dərbəndi, Timurxan-Şuranı bağışlaram".
Ü.Hacıbəyli böyük İran şairi Hafiz Şirazinin aşağıdakı beytinə nəzirə olaraq yazmışdı:
Əgər an Tork-e Şirazi bedəst ared dele mara,
Bexale hinduyeş bəxşəm Səmərqəndü Buxarara,
Tərcüməsi: Əgər o Şiraz türkü (gözəli) mənim qəlbimi ələ gətirsə, onun qara xalına Səmərqənd ilə Buxaranı bağışlaram.

SURNA

*20 aprel 1920-ci il 78-ci sayında "ÇI" imzası ilə.*

1.Şahsuvar-Azərbaycan istiqlal hərəkatı iştirakçılarından və AXC dövlət xadimlərindən olan Şahsuvarov Nurməmməd bəy Ədilxan oğlu (1883-1958) – Maarif və Dini etiqat naziri təyin olunmuş və 25 gündən sonra kabinə ilə birlikdə istefa vermişdi. 1920-ci il aprel çevrilişindən sonra N.Şahsuvarov Azərbaycan xalq maarif komissarının müavini işləmişdir. 1940-cı ildə şərlənərək həbs edilmiş 1943-cü ildə həbsdən buraxılmışdır. Həbsdən azad olandan sonra Tibb institutunda kafedra müdiri işləyib.
Azərbaycanın istiqlal dövrünün həyatdan köçən son naziri olub.

SURNA

*22 aprel 1920-ci il 80-ci sayında "ÇI" imzası ilə.*

*25 aprel 1920-ci il 82-ci sayında "ÇI" imzası ilə.*

**1.Anadolu** – Kiçik Asiyanın qədim adı. Osmanlı imperiyası dövründə kiçik Asiyanın şimal-qərbini əhatə edən vilayət. Hazırda Türkiyənin Asiya hissəsi Anadolu adlanır. Bu Üzeyirbəyin "Azərbaycan" qəzetində son felyetonu idi.

**Əliheydər Qarayev** – 1920-ci il aprel çevrilişində və şimali Azərbaycanda bolşevik rejiminin fəal rəhbərlərindən olan Ə.Qarayev (1896-1938) 1918-ci ildə "Hümmət" partiyasından AXC parlamentinin üzvü olub.

O, teleqramlarının birində etiraf edərək yazırdı ki, "Ən yaxın günlərdə Bakida çevrilişə ...." hazırlaşırlar. Bu məqsədlə də Ə.Qarayev yanında "operativ qərərgah" yaratmışdı. Onun bu canfəşanlığının nəticəsi idi ki, öz "dostları" tərəfindən repressiyaya məruz qaldı.



# LÜĞƏT

## A

**Abşər** – duzlu su
**Akil** – yeyici, yeyən
**Azadi dust** – azadlıq sevən
**Ahən** – dəmir
**Azurdə del** – qəlbdən incik
**Alihə** – allahlar
**Aləmşümul** – bütün dünya üçünəhəmiyyətli olan
**Amadə** – hazır
**Ami** – avam adam, sadə
**Ajan** – xəfiyyə adam
**Ara** – mülahizələr, rəylər
**Aray** – rəy
**Ari** – bəli, hə
**Aşina** – tanış
**Asi** – itaət etməyən üsyançı,
**Atıl** – tənbəl, işsiz
**Aidə** – gəli
**Afaq** – üfüqlər, mənzərə

## B

**Bavücudin** – bununla
**Baqi** – qalan, daimi
**Batin** – iç tərəf, gizli, açı olmayan
**Baxüsus** – xüsusilə
**Badabad** – qoy olur olsun
**Biləks** – əks halda
**Bin-nisbə** – nisbətən
**Beynəddüvvəl** – dövlətlərarası
**Bəqa** – daimilik, dəyişməzlik
**Bədaye** – qəribə şeylər
**Bəşaş** – şadlıq, sevinc, şənlik
**Bəsirət** – gözüaçıqlıq, diqqətlilik
**Bədəl** – əvəz, dəyər, qiymət
**Bədən** – axırda, nəticədə
**Bədgu** – pisliyə danışan, qeybətçi
**Bəliğ** – bəlağətlə danışan, yazan
**Bəradərana** – qardaşcasına
**Bərr** – quru
**Bəxil** – paxıl, xəsis
**Bəhr** – dəniz
**Bəhrəmənd** – fayda, pay alan
**Bəşarət** – şad xəbər
**Biduni-cəbr** – zor işlətməməklə
**Biduni şərti-şrut** – şərt olmazdan
**Bizzat** – şəxsən
**Bila** – "inkar" mənalarını bildirir
**Bilaehtiyat** – ehtiyatsızlıq
**Bilamühaba** – diqqətsizlik
**Biləyan** – aşkar
**Bilkülliyyə** – büsbütün, tamamilə
**Bilümum** – ümumiyyətlə
**Binaən** – görə, ötrü
**Binaənileyhə** – buna əsasən, o cür, bu cür
**Binəva** – zavallı
**Bittərcümə** – tərcümə(si) ilə
**Birəhmanə** – rəhimcəsinə
**Bica** – yersiz
**Bicaiz** – icazəsiz, mümkün olmayan
**Buluq** – yetkinlik, müəyyən həddə çatma
**Bürhan** – sübut

**Büğ** – ədavət, kin, nifrət
**Büz nəzər** – keçi nəzəri

## C

**Caygir** – yer tutan
**Calib** – cəlb edən
**Camə** – paltar, geyim
**Cahandidə** – dünyagörmüş
**Cahannüma** – dünya göstərən
**Cəbrən** – zorla, güclə
**Cəbban** – qorxaq, ağciyər adam
**Cəbunluq** – qorxaqlıq
**Cəng** – müharibə
**Cəngcu** – müharibə tərəfdarı,
**Cərh** – təhqir
**Cəri** – qoçaq, cürət
**Cuyanə** – axtaran
**Cuş** – qaynama, çaxnaşma
**Cürm** – təqsir, günah
**Cühəla** – cahillər
**Cüz**- qisim, parça
**Cünbüş** – hərəkət, tərpəniş

## Ç

**Çarnaçar** – istər-istəməz
**Çekunə** – necə, nə cür

## D

**Dai** – dəvət edən, çağıran,
**Dam** – tor, tələ
**Dara** – sahib olmaq, malik olmaq
**Darülbəqa** – daimi yer
**Dəxl** – 1.qazanc, 2.qarışma
**Dəgəl** – gənc
**Dərgah** – qapı önü, saray
**Dərmiyan** – arada, arahqda
**Dəsisə** – biclik, hiylə
**Dəstaviz** – bəhanə, səbəb
**Dəstdirazlıq** – əliuzunluq
**Dəstgir** – dustaq, əsir
**Dəm** – zaman, an
**Dəvi** – tələb, iddia
**Did** – görüş, görüşmə
**Divanəvar** – dəlicəsinə
**Dilfirib** – könül aldadan
**Dəni** – alçaq, rəzil (adam)
**Donadılmış** – təchiz edilmiş
**Düvəli** – böyük dövlətlər müəzzəmə
**Dürüşt** – sərt, qaba
**Duş** – çiyin

## E

**Emar** – abad etmə
**Eraz** – təsadüflik
**Enda** – bəxşiş vermə
**Etidal** – mülayimlik, mötədil
**Ehdas** – meydana gətirmə
**Ehraz** – qazanma
**Ehya** – bərpa etmə
**Ehsas** – hiss etmə
**Ehtikar** – taxıl və s. yeyinti məhsullarını alıb, bahalaşdıqdan sonra satmaq
**Eydi-kəbir** – böyük bayram
**Eyn** – göz, bulaq, xalis və s. mənalarda



## Ə

**Əbsar** – gözlər
**Əvət** – bəli
**Əqd** – bağlama (müqavilə)
**Əqdəs** – ən müqəddəs
**Əqəliyyət** – azlıq
**Əqfal** – diqqətsizlik, xəta
**Əqli-səlim** – sağlam ağıl, saf düşüncə
**Əda** – 1.üslu ödəmə, 2.şivə
**Ədviyyə** – dərmanlar
**Ədd** – say, hesablama
**Ədəm** – ölüm, yoxluq
**Ədl** – ədalət
**Ədu** – düşmən
**Əhyanən** – ara-sıra, hərdən
**Əza** – əziyyət
**Əzimə** – niyyət
**Əzl** – işdən çıxarmaq
**Əzm** – qəti niyyət, qəti məqsəd
**Əladümya** – kərsayağı, korkoranə
**Ələyhirrəhmə** – ona rəhmət olsun
**Ələni** – açıq-aşkar, zahirdə
**Ələlümum** – 1.birlikdə, 2.ümumilikdə
**Əlacpəzir** – əlac olunan, sağalan
**Əlaim** – əlamətlər, nişanələr
**Əlqissə** – xülasə, sözün qısası
**Əlqab** – ləqəblər
**Əlhasil** – qısası, müxtəsəri
**Əlhəqq** – həqiqətən
**Əmələ** – işçi, fəhlə
**Əmiqə** – dərin
**Əmniyyətsiz** – qorxusuz
**Əmraz** – xəstəliklər
**Əmsal** – oxşarlar
**Əna** – yorğunluq, məşəqqət
**Ənadil** – bülbüllər
**Ənva** – növlər
**Əndişə** – düşüncə
**Ənzare qareinə** – oxucuların nəzərinə
**Əracif** – şaiyələr
**Ərbabi siyasət** – siyasətçilər
**Ərbəə** – dörd
**Ətf** – çevirmə, əymə
**Əsərsiz** – təsirsiz
**Əcəba** – görəsən, məgər
**Əsəfən** – təəssüf ki, əfsus ki.
**Əsləhə** – silahlar
**Əşədd** – şiddətli dərəcədə
**Əfkari-ümumiyyə** – ictimaiyyətin fikri
**Əfzəl** – daha fəzilətli
**Əfrad** – fərdlər
**Əxbar** – xəbər
**Əhmiyyət** – layiqlik, ləyaqət
**Əhyanən** – hərdənbir, ara-sıra
**Əhrar** – hürriyyət, azadlıq

## F

**Fabeha** – çox yaxşı əlmurad
**Fariq** – ayıran, fərqləndirən
**Fasiq** – əxlaqsız
**Faş** – açıq-aşkar
**Fələn** – həqiqətdə
**Feyz** – 1.nemət, 2. elm,
**Fətanət** – 1.zehn açıqlığı, 2.fərasət
**Fəqərə** – bir məqalə parçası, sütun bel sümüyü
**Fəqət** – yalnız, ancaq

**Fəllah** – əkinçi
**Fəzlə** – artıq, ziyadə
**Fərzən** – fərz edək, tutaq ki
**Fərib** – hiylə
**Fərəhbəxş** – sevinc bəxş edən
**Filvaqe** – vaqe olduğu kimi
**Filfövr** – dərhal, həmin saat
**Fiyat** – qiymət
**Filhəqiqət** – həqiqətən
**Firqə** – partiya
**Füru** – alt, aşağı
**Fövq** – hər şeyin üzəri
**Fövqəzzikr** – yuxarıda deyilən
**Fövz** – 1.qələbə, 2.nicat

## G

**Göftgu** – söhbət, danışıq
**Guş** – 1.diqqət 2.qulaq
**Güruh** – camaat, böyük dəstə
**Güşad** – geniş
**Guşeyi-nisyan** – xatırdan çıxarma

## H

**Havi** – əhatə edən
**Haiz** – sahib, malik olan
**Hala** – indi
**Hali** – hal, xəbərdar
**Hakəza** – beləcə bu surətdə
**Hayastan** – Ermənistan, aşxatavur
**Hayastan** – böyük Ermənistan
**Hayiz** – sahib, malik olan
**Hayil** – qorxunc
**Haris** – saxlayan, hifz edən
**Hacət** – ehtiyac
**Haşa** – üzdən iraq, bizdən uzaq
**Haşən** – üzdən iraq, bizdən uzaq
**Həkəm** – hakim. münsif
**Həvadis** – hadisələr
**Həvali** – ətraf
**Həzimət** – pozğunluq, məğlubiyyət
**Həm** – da, də (qoşma)
**Həmhüdud** – qonşu
**Hər qune** – hər hansı
**Həsb** – hesab
**Həsud** – həsəd apara
**Hifzüssihhə** – səhhəti qoruma və xəstəliklərin qarşısını almadan bəhs edən tibb elmi
**Hülul** – daxil olma
**Hürr əndiş** – azad fikir
**Hüsul** – hasil olma
**Hüveyda** – aşkar, bəlli

## X

**Xaldar** – xallı
**Xanəman** – ev-eşik
**Xanənəşin** – evdən bayıra çıxmayan
**Xasir** – yoldan azan
**Xəbasətinə** – alçaqlıq, xəbislik
**Xədd** – üz, qırış
**Xəsardidə** – zərər çəkmiş
**Xətər** – qorxu, təhlükə
**Xətvəndaz** – addımlayan
**Xilqət** – yaratma
**Xəfi** – gizli
**Xoşnud** – razı
**Xudavəndi** – ("dünyanın ağası")



Allah
**Xudsər** – başlı-başına
**Xunxar** – zalım
**Xüdə** – hiylə
**Xüruşan** – gurultulu
**Xürdə** – xırda
**Xüsumət** – düşmənçilik

## İ

**İadə** – qaytarma
**İbraz** – zahirə çıxarma, aşkarlama
**İbqa** – əbədiləşdirmə
**İqaz** – oyaqtma
**İqdamat** – təşəbbüs
**İqtiza** – ehtiyac, tələb etmə
**İqrar** – qərarlaşdırma,
**İdareyi-ümur** – işlər idarəsi
**İzalə** – dəf etmə
**İzhar** – aşkara çıxarma
**İyiylik** – yaxşılıq
**İkram** – hörmət
**İktisab** – qazanma
**İktifa** – kifayətlənmə
**İlqa** – atma, iradəyə təsir etmə
**İltimas** – xahiş
**İlhad** – dinsizlik, etiqatsızlıq
**İlhah** – təkid, təngə gətirmə
**İmrar** – keçirmə
**İmtidad** – uzatma, davam etdirmə
**İmha** – yox etmə, məhv etmə
**İnhizan** – 1.məğlubiyyət 2.qaçaqaç
**İnqisam** – bölüşmə. paylaşma
**İntixab** – seçmə, seçilmə
**İntişar** – yayılma
**İntac** – nəticələndirmə
**İniqad** – 1.rabitə, 2 iclas
**İrtikab** – pis və qadağan edilmiş iş,
**İrfan** – bilmə, xəbərdar olma
**İslah** – yaxşılaşdırma, düzəltmə
**İsnad** – sənədlərlə görülmə
**İstehqat** – haqlı olma, zəhmət haqqı
**İstibdad** – zülm, mütləqiyyət
**İstiqra** – mülahizələrdən ümumi nətice çıxarma
**İstiqrar** – yerləşmə, qərar tapma
**İstida** – yalvarıb istəmə
**İstikrah** – ikrah olma, nifrət etmə
**İstima** – dinləmə, eşitmə
**İstimdad** – imdad, kömək istəmə
**İstirdad** – geri alma, geri istəmə
**İstifsar** – xəbər alma, soruşma
**İstixlas** – xilas olma, qurtarma
**İtlafeuyanə** – öldürücü, məhvedici
**İtab** – məzəmmət etmə
**İtmam** – tamamlama
**İtminan** – əmin olma, arxayınlıq
**İttixaz** – qəbul etmə, dərk etmə
**İttihad** – birləşmə, ittifaq
**İftizah** – rüsvay olma, xəcalət
**İfham** – anlatma, başasalma
**Ixtal** – xəbərdar
**İxtilad** – üsyan
**İcab** – ehtiyac
**İcabət** – yaxşı, müsbət cavab
**İctinab** – çəkinmə
**İğmaz** – göz yumma
**İştə** – budur
**İştika** – şikayətlənmə

## K

**Kalkışma** – başlamaq, təşəbbüs etmək
**Kani** – mənbə
**Kanuni-əvvəl** – qanun süryani təqvimində ay adıdır
**Karazmudə** – təcrübəli
**Karkü** – işçil adam
**Kardan** – iş bilən
**Kəbir** - böyük
**Kəsbi-qüvvət** – qüvvə əldə etmək
**Kizb** – 1.yalan, 2.xilaf
**Keyfə-mayəşa** – istədiyi kimi
**Kəmal** – yetkinlik
**Kəmali-xoşnud** – razılıqla, xoşluqla
**Kəndisi** – özü
**Kərd** – görünüş, iş, əməl
**Kərratla** – dəfələrlə
**Kutahbeyin** – dar düşüncəli (adam)
**Kurnazlıq** – bic adam
**Kübra** – çox böyük
**Küştə** – öldürülmüş

## Q

**Qaib** – hazır olmayan
**Qaidə** – qayda, üsul
**Qayət** – nəhayət
**Qayimməqam** – inzibati məmur
**Qare** – mütaliə edən
**Qeyri-məlul** – arzu olunmayan
**Qəbləl** – əvvəl
**Qəvvad** – oğraş
**Qəvi** – qüvvətli
**Qəviyyən möhtəmil** – ehtimal ki, qüvvətli
**Qənaətpəzir** – qənaətləndirici
**Qətlam** – kütləvi qətl
**Qital** – müharibə
**Qiyas** – kömək, yardım
**Qozamaq** – qaldırmaq
**Qövm** – bir nəsildən olan, tayfa
**Qulğylə** – hay-küy, qışqırıq
**Qurqudilər** – mırıldayırlar
**Qüdsiyyət** – müqəddəslik

## L

**Layəni** – mənasız
**Layənfikir** – fikirləşmədən
**Layənşüur** – şüursuz, düşüncəsiz
**Laübali** – qayğısız, arsız
**Ləbbeyk** - "bəli","hazıram" mənalarını ifa edən çağırışa cavab
**Ləfzi** – 1. Hərfi, eyni 2.düz
**Ləvənd** – əyyaş, səfil
**Ləzzətyab** – ləzzət alan, zövq alan
**Lisan** – dil
**Lirnet** – dəstəli gözlük

## M

**Mabeyn** – ara
**Mafövq** – 1.üst, yuxarı 2.rəis
**Mavərayi-Qafqaz** – Qafqazın arxasında, Zaqafqaziya
**Məbus** – deputat, xalq elçisi
**Məvəddət** – sevgi, məhəbbət
**Məğdur** – xəyanət qurbanı olmuş
**Məqsud** – niyyət olan, arzu edilən
**Məqul** - ağılkəsən



**Məqhur** – məhv olunmuş
**Məqmum** – qəmli. Qüssəli
**Məğşuş** – qarışıq
**Mədari-məişət** – dolanacaq vəsait.
**Məzalim** – haqsızlıq
**Məzahir** – aşkar edən, bir şeyin zahir olduğu yer
**Məzkur** – söylənmiş, deyilmiş
**Məznun** – zənn olunan
**Məzhər** – təzahür
**Məlcə** – sığınacaq yeri
**Məmuriyyət** – bir şəxsə tapşırılan dövlət işi
**Məmən** – təhlükəsiz yer
**Məmnu** – qadağan edilmiş
**Mən** – qadağan etmə
**Mənabe** – mənbələr
**Mənhus** – uğursuz, nəhs
**Mərqum** – adı yuxarıda çəkilmiş
**Mərbutiyyət** – bağlılıq
**Məruf** – bilinən, məlum olunan
**Məsrur** – şad
**Məsun** – saxlanılan, qorunan, toxunulmaz
**Məta** – mal
**Mətbu** – təbəələri olan, tabe olan
**Mətməülqəlb** – arzu edilən, çıxan
**Mətər** – yağış. yağmur
**Məfluk** – fəlakətə tutulmuş
**Məfruz** – ayrılmış
**Məhalə** – hiylə
**Məhafil** – toplanmış heyət, yığıncaqlar
**Məhbubülqülub** – hamının istəklisi
**Məhəl qozar** – əhəmiyyət vermək
**Məhrəmanə** – gizlicəsinə
**Məhfuz** – saxlanmış, mühafizə edilmiş
**Məhcub** – örtülü, utanan
**Məhud** – 1.şərti, 2.vəd edilmiş
**Məşrut** – şərtli
**Mizac** – xasiyyət, həvəs, sağlamlıq
**Miyan** – orta
**Mövqif** – stansiya, duracaq yer
**Mövsüq** – inanılan, mötəbər
**Mötad** – adət edilmiş
**Mötərif** – etiraf edən
**Möhlik** – öldürücü
**Möhtəviyyat** – içindəkilər
**Möhtəməl** – ehtimal
**Müamilə** – rəftar
**Mübaşir** – tapşırığı yerinə yetirən, icra edən
**Müəddəl** – dəyişdirilmiş, əvəz edilmiş
**Mübtəda** – başlanğıc
**Müvazinə** – bərabərləşmə
**Müvafiqət** – uyğunluq
**Müvəzzəf** – vəzifədə olan
**Müqabil** – qarşı
**Müqəddər** – təyin olunmuş
**Müqəər** – qəliz
**Müqayir** – başqa cür. Zidd
**Müddək** – iddiaçı
**Müdəbbir** – tədbirli
**Müəzzəmə** – böyük mühüm, əhəmiyyətli
**Müərrif** - tanıdan, tanış edən
**Müsəbbib** – səbəb olan
**Müəssir** – təsir edən
**Müəssif** – təəssüflənən
**Müzayiqə** – darlıq, ehtiyac, əsirgəmə
**Müzəffəriyyət** – qalib gəlmə
**Müztərib** – nigaran

Müzürr – zərərli
Mükəddə – kədərli, qəmli
Mükəlləf – cavabdeh, məsul
Mülhəqq – çatılmış, birləşdirilmiş
Məmanəət – maneçilik
Münazirə – mübahisə, müzakirə
Münqəlib – başqa şəklə düşmüş
Mündəric – yerləşdirilmiş (məqalə)
Müənnib – inadkar
Müntəzir – gözləyə, intizar çəkən
Müntəc – nəticə. hasil
Münhəsir – məhdud, hasarlanmış
Müncərr – sürüklənən
Mürtəkib – cinayət etmiş
Mürəffəhülhal – yaşayışı gen-bol
Mürəxxəslər – səfirlər, vəkillər
Müsavi – bərabər
Müsadimə – toqquşma
Müsaidə – köməklik
Müsalimət – barışma
Müsalihə – sülh
Müsəddiq – təsdiq edən
Müslüm – müsəlman
Müstəbid – zalım, zülmkar
Müstəxdim – xidmətə götürən
Müstəhəqq – layiq
Müstəhkəm – möhkəmləndirilmiş
Mütabiq – uyğun
Mütəaqib – arxasınca, izi ilə gələn
Mütəəlliq – bağlı, asılı olan
Mütəəssir – təsirlənmiş, qaygı
Mütəəssifanə – təəssüflənərək
Mütməin – xatircəm
Mütəməddin – mədəni
Mütərəddid – gedib-gələn
Mütəhəyyir – heyrətə düşmüş, çaşmış
Mütəcaviz – keçən, təcavüz edən
Mütəğəyyir – dəyişmiş, başqa hala düşmüş
Mütəsavi – bir-birinə tay, bir boy-da olan
Mütəşəkkir – təşəkkür edən
Müttəhid – birləşmiş
Müvsid – fəsad törədən, fitnə
Müxbir – xəbərdar
Müahidə – əhdnamə, bağlaşma
Mühəvvəl – başqa hala salınmış
Mühəqqət – doğru, gerçək
Mücrim – günahkar
Müctəmə – toplanmış, birləşmiş
Müşərrəf – şərəfli
Müşkülat – əngəllər
Mücib – səbəb
Mucid – yaradan, vücuda gətirən

## N

Nabemövsüm – vaxtından qabaq
Nabud – yox, məhv olan
Naqabil – qabiliyyətsiz
Nam – şöhrət, ad
Nasıl – necə
Naşiri-əfkar – nəşriyyatın fikri
Nərə – hara
Nəzahət – paklıq
Nəzdikbin – yaxını görən
Nəuzbillah – Allah göstərməsin, üzdən iraq
Nəfis – nəfis
Nəşat – şadlıq, sevinc
Nəşət – hasil olma
Nətayic – nəticələr



Nim – yarım
Nisf – yarım, yarı
Niş – nəştər
Novzad – yeni doğulmuş
Nümayan – görkəmli

## O

Ovza – vəziyyətlər

## P

Paydar – daimi, uzun zaman
Paymal – ayaq altında qalan
Pey – arxa, iz
Pişdar – ordunun qabaqda gedən hissəsi
Pişvaz – qarşıya çıxma
Pəzir – qəbul
Pərvər – bəsləyən
Pəs – geri, sonra, arxa, dal
Pəsənd – bəyənmə
Pür – dolu, dolğun
Pürhəyəcan – həyəcanla dolu
Püştə – kiçik təpəcik

## R

Rast – doğru, düz
Rəbbiüləvvəlin – müsəlman qəməri ilinin üçüncü ayı
Rəbt – bağlama
Rəvac – geniş surətdə yayılan
Rəqiq – incə, həssas
Rəğmən – qarşı, əks istiqamətdə
Rəisül- – baş nazir, vüzəra
Rəhn – girov
Rəncidə – incimiş, əziyyət çəkmiş
Rəf – ləğv etmə
Rəfi – yüksək, uca
Rəxnədar – cırılmış, zədə
Riza – razı
Rical – kişilər, ərlər
Ricət – qayıtma
Rubəru – üz-üzə
Ruznamə – qəzet
Rugərdan – üz çevirən
Ru – üz
Rüchan – üstünlük
Rəbiən – dördüncü

## S

Sadir – çıxan, nəşr olunan
Sasiqə – sövq edən, hal, vəziyyət
Sayeyi-mərhəmət – mərhəmət kölgəsi
Saleh – yaxşı, yararlı
Salim – ağlam
Salisən – üçüncü
Saniyən – ikinci
Sariyə – yolxucu xəstəlik
Safdərun – saf ürəkli
Səbat – sabit
Səbt – qeyd etmə, yazma
Səbq – keçm, irəli
Səza – layiq, münasib, uyğun
Səlasət – səlislik
Səlah – yaxşılıq
Sənaxan – tərifləyən
Sənə – il

**Səni** – ən gözəl, ən üstün
**Sənc** – ölçi, miqdar
**Sər** – baş
**Sərzədeyn** – baş vurmaq
**Səri** – sürətli, tez
**Sərnəgun** – devrilmiş, yıxılmış
**Sətr** – 1.örtmə, pərdə 2. yazı sırası
**Səf bəstə** – bağlanmış sıra
**Səhl** – asan, yüngül
**Sidq** – doğruluq, gerçəklik
**Sitəmdidə** – zülm görmüş
**Suzən** – iynə
**Suyi-niyyət** – pis niyyət, pis fikir
**Sülhcuyan** – sülh araşdıran
**Süudi** – yüksəlmə
**Sühulət** – asanlıq, əlverişlilik
**Sufi** – müsəlman dinində tərkidünyalıq təriqəti

## Ş

**Şayan** – layiqli başçı
**Şayistə** – yararlı, münasib
**Şafi** – şəfa verən, yaxşılaşdıran
**Şeytənət** – şeytanlıq, hiyləgərlik
**Şəmadə** – tənə, danlaq
**Şədidən** – güclü, şiddətli
**Şəmmə** – bir kərə qoxulama
**Şikən** – qıran, sındıran
**Şuriş** – şuluqluq, çaxnaşma
**Şükran** – yaxşılıq bilmə
**Şükuhli** – təntənəli, cəlal
**Şüru** – başlam

## T

**Tab** – güc, qüvvət
**Taqım** – hissə, qrup
**Tammə** – tamam
**Təalis** – yüksəlmə, ucalma
**Təbəddül** – başqa şəklə düşmə, dəyişmə
**Təbid** – uzaqlaşdırma, uzağa sürgün etmə
**Təbir** – ifadə etmə, anlatma
**Təbşir** – şad xəbər, muştuluğ vermə
**Təvafüq** – uyğun gəlmə
**Təvəssül** – yaxınlıq
**Təvəccöh** – hüsn-rəğbət
**Təqaza** – tələb etmə
**Təqsim** – hissələrə ayırma, bölmə
**Təqviy** – qüvvətləndirmə
**Təqdis** – müqəddəs sayma
**Tədabir** – tədbirlər
**Təqsim** – hissələrə ayırma
**Tədhiş** – dəhşətə salma, terror
**Təəllüq** – asılı olma, mənsub olma
**Təəmmüd** – qəsd, niyyət, qərəz
**Təəxxür** – geri qalma, sonraya qalma
**Təzvir** – saxtalaşdırma
**Təzəllül** – alçalma, zəlil olma
**Təzyin** – zinətləndirmə
**Təyid** – qüvvətləndirmə, təkid etmə
**Təkəllüm** – danışma, söyləmə
**Təlafi** – qisas
**Tələqqi** – qəbul, alma
**Təmayül** – meyl etmə
**Təməllük** – malik olma, sahiblənmə



**Təmdid** – uzatma, çəkmə
**Təmə** – tamah
**Tən** – cisim
**Tənbih** – oyandırma, oyatma
**Tənvir** – aydınlaşma, işıqlandırm
**Təraz** – səth, səviyyə
**Tərd** – qovma
**Tərz** – üsul, biçim
**Təriz** – etiraz etmə
**Tərcih** – bir şeyi başqasından üstün tutma
**Təsmiə** – ad qoyma, adlandırma
**Təsvib** – doğrultma
**Təsviyə** – saflaşma
**Təsəvvürat** – təsəvvürə gələn
**Təsəllüt** – ağalıq etmə
**Təsərrüf** – yiyələnmə, zəbt etmə
**Tətmin** – təminat vermək
**Təfsir** – mənasını izah etmə, şərh etmə
**Təxliyə** – boşaltma (yükü)
**Təhdid** – 1.hədələmə 2.sərhəd qoyma
**Təhəvvül** – dəyişmə, başqa hala keçmə
**Təhəqqüq** – həqiqi olduğu meydana çıxarmaq
**Təhəmmülfərsa** – üzücü, dözülməz
**Təhrik** – hərəkət etdirmə, həvəsləndirmə
**Təhrir** – yazılma, yazma
**Təhsin** – bəyənmə
**Təht** – alt, aşağı
**Təcəddüd** – yenilik
**Təcviz** – mümkün hesab etmə, caiz görmə
**Təşviq** – həvəsləndirmə
**Təşyi** – yola salma, müşayət etmə
**Tovdi** – təslim etmə
**Tul** – uzunluq, boy, uzun
**Tühəf** – misli bərabəri olmayan

## U

**Uyezd** – qəza
**Ula** – ilkin, birinci

## Ü

**Ümur** – əmrlər, işlər
**Ürf** – dəb, adət
**Üsrər** – ehtiyac, çətinlik, zəhmət

## V

**Vabəstə** – bağlı
**Vaqiə** – hadisə
**Vaqiən** – həqiqətən
**Vagüzar** – həvalə
**Vala** – uca, yüksək, ali
**Vacibülicra** – icraya vacib olan
**Varəs** – müfəttiş, yoxlayıcı
**Vəqə** – əhvalat hadisə
**Vəz** – nəsihət
**Vəzarət** – nazirlik
**Vəilla** – əks halda
**Vəsi** – geniş
**Virdi zəban** – dilinin əzbəri
**Vüqu** – baş vermə, zühura gəlmə
**Vüquf** – xəbərdar olma
**Vürud** – gəlmə
**Vükələ** – vəkillər, nümayəndələr

## Y

**Yar və ənsar** – dost və tərəfdar
**Yarin** – sabah
**Yaycara** – çəğırtı, səs
**Yəd** – kömək
**Yəcuc-məcuc** – qorxunc, dəhşətli adam (əfsanələrdə qısaboylu, qəddar bir tayfa)

## Z

**Zail** – yox olan, gözdən itən
**Zəbun** – zəif, qüvvətsiz
**Zəvat** – əsillər, adamlar
**Zəminə** – ilk şərt, ilkin şərait
**Zəhrxəndlik** – zəhərli gülüş
**Zimam** – idarəetmə
**Zira** – çünki
**Ziraət** – əkinçilik
**Zirchnuş** – zirchli



# MÜNDƏRİCAT

*O həm də gözəl publisist idi (Aslan Kənan)*....3

## MƏQALƏLƏR

Rövşən Əşrəf bəyin şərəfinə ziyafət....15
Nuru Paşa həzrətləri şərəfinə böyük ziyafət....17
Mühüm məsələlər....20
Partiyalarımıza....24
Azərbaycan parlamanı....26
Tarixi günümüz....29
Təəssürat....31
Təəssürat....34
Andronikin məsələsi....38
Təəssürat....42
Vəzifəmiz nədir....45
Keçən zabastovka haqqında....47
İstiqlal və istiqbal ümidi....51
Lənkəran faciəsi....54
Kim nəyin fikrində imiş....57
Bir iltimas münasibətilə....60
Düşmənlərimizin fəaliyyəti....64
Camaət köməkliği....67
Təəssürat....70
Ehtiyat lazımdır....76
Knyaz Tumanov ilə müsahibə....79
Təəssürat....81
Fitnələr qarşısında....83
Qarabağ həqqında....85
Təəssürat....89
Üzərimizdəki qara buludlar....92
Başlanır....94

Nə ilə sakit ola bilərik....97
Yeni böhran....101
Təəssürat....104
Getsinlər gəlməsinlər....107
Dağıstana kömək....111
Düz yol....115
Rus inqilabi-kəbiri....117
Müamilatimizə aid....120
Yaraşmaz hərəkətlər....123
Yeni kabinə təşkilinə dair....126
Cidalar görünür....128
Ordumuz....130
31 mart....131
Zaqatala məsələsi....134
Ciddi hərəkət lazımdır....137
Əgri yol....139
Kirimiyorlər....142
Yeni kabinə....145
Dağıstana imdad....148
Zaqafqasiya konfransına dair....150
Dördgöz olmalıyıq....154
Dağıstan və biz....157
Eyni müamilə gözləyirik....158
Nə istiyorlər....160
Bayrağımız sarsılmaz....163
Siyasi imtahan....164
Xatimə....166
Siyasiyat....168
İndi başa düşürlər....170
Naxçıvan və Qarabağ....173
Dərbənd əhvalatı....175
Bir yaş....177
Şimalımızın halı....180
Qara təhlükə....183
İçimizdəki denikinlər....185
Bir münasibətlə....187



Macəraculıq....189
Qarabağ hadisatı....191
" Səddi - İsgəndər "....193
Müvəffəqiyyətlərimiz....195
Yersiz çıxış....197
Məmurlarımız haqqında....199
Kontrast....202
Genə başlanır....205
Qurtuluş....208
Milliləşmək....210
Miralay Haskelin təklifi....212
Kabinə təşkilinə aid....214
Dağıstan haqqında....217
Daxili işlərimizdən....220
Nəyə çalışalım....223
Mühüm məsələ....226
Rusiya əhvalı....230
Səmimiyyət lazım....233
Nabemövsüm sevinclər....236
Erməni-gürcü münasibəti....238
İki siyasət....241
Ermənistan və Azərbaycan münasibəti....244
İstiqlal müdafiəsi üçün....248
"Corciən Meil"in məqaləsi....251
Bir sual münasibətilə....253
Böhran dolayısilə....256
Məmləkətimizin halı nasıldır?....259
Əsassız tələb....262
Gürcüstandakı həvadis....264
Qomşuluq....267
Çörək bahalanması....270
Böhran dolayisilə....272
Məcburi qərardad haqqında....275
Bu gün....280
Şayiələr münasibətilə....283
Yeni kabinə....285

FELYETONLAR

Ordan-burdan....................287
Ordan-burdan....................290
Ordan-burdan....................292
Ordan-burdan....................294
Ordan-burdan....................296
Ordan-burdan....................299
Ordan-burdan....................301
Surna....................304
Surna....................306
Surna....................308
Surna....................310
Surna....................312
Surna....................315

MƏKTUBLAR....................317
Məktublarda adı çəkilən şəxslər....................377

*Şərhlər*....................*379*
*Lüğət*....................*411*



ÜZEYİR BƏY HACIBƏYLİ

# BAYRAĞIMIZ SARSILMAZ

Kompüter tərtibatı və üz qabığını işləyəni
*Məhəbbət Oruclu*

Korrektorlar:
*Cavid Məmmədli*
*Tofiq Qaraqaya*

Texniki redaktorlar:
*Mübariz Piri*
*Esmira Zərbəliyeva*

**«Elm və təhsil»**
**nəşriyyatının direktoru:** *professor* Nadir MƏMMƏDLİ

Yığılmağa verilmiş **25.01.2011.**
Çapa imzalanmış **09.03.2011.**
Şərti çap vərəqi **26.7.** Sifariş № **48.**
Kağız formatı **60x84 1/16.** Tiraj **500.**

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: elm_ve_tehsil@box.az**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.